# ELMİ FƏALİYYƏTİN 60 İLİ

## KEÇMİŞDƏN GƏLƏCƏYƏ

60

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi Elmi Tədqiqat İnstitutunun
İdarə Heyətinin sədri i.e.d., prof. Şahin Sadıqovun
ümumi rəhbərliyi ilə nəşr olunur

**Baş redaktor:** i.e.d., prof. Şahin Sadıqov
**Elmi-redaksiya heyəti:**

i.e.d. Hüseynova Arzu Doğru qızı
i.ü.f.d. Mürşüdlü Fuad Ələkbər oğlu
i.ü.f.d.; dos. Mehdiyev Malik Məmməd oğlu
i.ü.f.d., dos. Mikayılov Fərhad Qamboy oğlu
h.ü.f.d., dos. Aslanov Zamiq Novruz oğlu
i.ü.f.d. Qasımov Emil Filman oğlu
Əhmədov Rövşən Telman oğlu (elmi katib)
Məmmədli Səbinə Ramiq qızı
**Kompüter tərtibçisi:** Ələsgərova Nigar Mahal qızı

İnstitutun 50 illik fəaliyyətini özündə əks etdirən "Azərbaycanda iqtisadi inkişafın elmi əsaslarını işləyən ilk tədqiqat institutu -50" kitabının hazırlanmasında əvəzsiz rolu olan əməkdar mədəniyyət işçisi Abbasəliyeva S.Z. və İmanov E.S. hörmətlə anırıq.

**ELMİ FƏALİYYƏTİN 60 İLİ: Keçmişdən Gələcəyə, Bakı, 2024, 524 səh.**

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi Elmi Tədqiqat İnstitutunun (The ESRI) 60 illik yubileyinə həsr olunan bu kitab real tarixi faktlara, arxiv sənədlərinə, İnstitutun 60 il ərzində yerinə yetirdiyi elmi-tədqiqat işləri hesabatlarına əsaslanaraq yazılmışdır.

Kitabda yarım əsrdən çox fəaliyyət göstərən İnstitutun iqtisadiyyatın təşkili, planlaşdırılması və proqnozlaşdırılması sahəsində aparılmış elmi-tədqiqat fəaliyyəti, yüksək ixtisaslı kadrların (iqtisad elmləri namizədləri və doktorlarının) yetişdirilməsi tarixi sənədlər əsasında işıqlandırılmışdır. Həmçinin ESRI-nin fəaliyyət tarixi şərti olaraq üç dövrə ayrılmışdır. Birinci dövr 1964-1991-ci illəri, ikinci dövr Azərbaycan Respublikasının öz müstəqilliyini yenidən bərpa etdikdən sonrakı illəri, üçüncü, və ya "yeni dövr" isə Azərbaycan Respublikası Prezidentinin 26 iyun 2021-ci il tarixli 1382 nömrəli Fərmanı ilə İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun əsasında "İqtisadi Elmi Tədqiqat İnstitutu" (The ESRI) publik hüquqi şəxsin yaradılmasından sonrakı illəri əhatə edir.

Kitab Azərbaycan Respublikasında iqtisadi fikir tarixi ilə məşğul olan, iqtisadiyyatın müxtəlif sahələrində çalışan mütəxəssislər, müvafiq ixtisaslar üzrə təhsil alan bakalavr, magistrantlar, doktorantlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

© İqtisadi Elmi Tədqiqat İnstitutu, 2024



**İQTİSADİYYATI GÜCLÜ OLAN DÖVLƏT**

**HƏR ŞEYƏ QADİRDİR!**

**HEYDƏR ƏLİYEV**
*Azərbaycan xalqının ümummilli lideri*



**"BİZ ÇOX CİDDİ İQTİSADİ İSLAHATLAR, OLDUQCA LİBERAL İQTİSADİ SİYASƏT, "AÇIQ QAPI" SİYASƏTİ HƏYATA KEÇİRİRİK".**

**İLHAM ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti***

# AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

Bakı şəhəri

**ƏMR**
**№ 3-21/3-1-F-45/2024**

2 may 2024-cü il

İqtisadiyyat Nazirliyinin "İqtisadi Elmi Tədqiqat İnstitutu" publik hüquqi şəxsin 60 illik yubileyinin keçirilməsi ilə əlaqədar Tədbirlər Planının təsdiq edilməsi haqqında

"İqtisadi Elmi Tədqiqat İnstitutu" publik hüquqi şəxsin 60 illik yubileyinin keçirilməsi məqsədilə "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.5.13-cü yarımbəndinə əsasən

əmr edirəm:

1. "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin "İqtisadi Elmi Tədqiqat İnstitutu" publik hüquqi şəxsin 60 illik yubileyi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2. "İqtisadi Elmi Tədqiqat İnstitutu" publik hüquqi şəxsin İdarə Heyətinin sədri Şahin Sadıqova tapşırılsın ki, əmrin icrasından irəli gələn məsələlərin həllini təmin etsin.

3. Bu əmrin icrasına nəzarət iqtisadiyyat nazirinin müavini Səməd Bəşirliyə həvalə edilsin.

Əsas : İqtisadiyyat nazirinin müavini Səməd Bəşirlinin 3-21/3-5-17011/2024 nömrəli 20.04.2024-cü il tarixli xidməti məruzəsi.

**Nazirin müavini, nazirin vəzifələrini müvəqqəti icra edən** **Səməd Bəşirli**

## ÖN SÖZ

Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu (İİETİ) indiki adı ilə 2007-ci ildən tanınsa da, müstəqil elmi-tədqiqat qurumu kimi bu institut 50 illik böyük tarixə malikdir. Belə ki, İİETİ SSRİ Dövlət Plan Komitəsi ilə razılaşdırılmaqla Elmi-tədqiqat işlərinin koordinasiyası üzrə SSRİ Dövlət Komitəsinin 1964-cü il 14 iyul tarixli 54 saylı qərarına əsasən Azərbaycan SSR Nazirlər Sovetinin 1964-cü il 2 oktyabr tarixli 685 saylı qərarı ilə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında təşkil edilmiş Elmi Tədqiqat İqtisadiyyat İnstitutunun (ETİİ) varisidir.

O dövrdə ETİİ-nin yaradılması, mərkəzləşdirilmiş planlı idarəetmə sisteminin tələblərinə uyğun olaraq, SSRİ-nin “Vahid xalq təsərrüfatı kompleksi”nin tərkibində xüsusi iqtisadi rayon kimi Azərbaycan SSR iqtisadiyyatının kompleks planlaşdırılmasının elmi əsaslarının gücləndirilməsi məqsədinə xidmət edirdi. XX əsrin 60-cı illərində sosial-iqtisadi inkişaf səviyyəsinə görə Azərbaycan SSR keçmiş SSRİ müttəfiq respublikaları arasında sonuncu yerlərdən birini tuturdu. Bunun əsas səbəblərindən biri də o dövrdə respublikada bilavasitə iqtisadiyyatın inkişafının planlaşdırılmasının elmi əsaslarının işlənilməsi ilə müntəzəm məşğul olan elmi-tədqiqat qurumunun olmaması idi. ETİİ-nin yaradılması məhz bu boşluğun aradan qaldırılması zərurəti ilə şərtlənmişdir.

ETİİ fəaliyyətə başladığı dövrdən 1990-1991-ci illərə qədər burada aparılan elmi tədqiqat işlərinin nəticələri respublikanın xalq təsərrüfatının müxtəlif sahələrinin inkişafına aid təklif və tövsiyələrin əsaslandırılması və proqnozların verilməsi məqsədilə Azərbaycan KP MK-ya, Azərbaycan SSR Nazirlər Sovetinə, Dövlət Plan Komitəsinə, SSRİ Dövlət Plan Komitəsinə təqdim edilirdi. ETİİ-də müxtəlif dövrlər üçün hazırlanan “Məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsi Baş Plan”ları ölkənin xalq təsərrüfatının perspektiv inkişafı üçün əsas direktiv sənəd kimi qəbul edilirdi. Həmin Baş Planların göstəricilərinə əsasən Azərbaycan SSR beşillik planları işlənilir və təsdiq edilirdi. Baş Planlarda respublikanın bütün iqtisadi və inzibati rayonlarının kompleks inkişafının əsas istiqamətləri, iqtisadiyyatın prioritet sahələri müəyyən edilir, məhsuldar qüvvələrin, o cümlədən sənaye obyektlərinin yerləşdirilməsinin təkmilləşdirilməsi, istehsal və sosial infrastruktur sahələrinin inkişafı, kənd təsərrüfatının, xüsusən üzümçülük, pambıqçılıq və digər aparıcı kənd təsərrüfatı sahələrinin inkişafı, regionlarda istehsal olunan ilkin kənd təsərrüfatı məhsullarına uyğun emal sənayesi sahələrinin yaradılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi və s. bu kimi əsas sosial-iqtisadi məsələlər öz əksini tapırdı.

Bununla yanaşı, o dövrdə ETİİ-də demoqrafiya, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi, məşğulluq problemlərinin həlli, əhalinin ərzaq və qeyri-ərzaq malları ilə təminatı, xidmət sahələrinin, xüsusən pullu xidmət sahələrinin inkişafı, sosial infrastrukturun və orta aylıq əmək haqqının ittifaq səviyyəsindən geri qalma səbəbləri geniş araşdırılırdı.

Eyni zamanda, bu dövrdə ETİİ-də aparılan elmi-tədqiqat işlərində Azərbaycan SSR-də yeni sənaye sahələrinin, əsasən maşınqayırma, elektron texnikası, kimya sə nayesinin inkişaf problemləri də hərtərəfli tədqiq edilirdi.

1969-cu il 14 iyulda Ulu Öndər Heydər Əliyev Azərbaycan KP MK-nın Birinci katibi seçiləndən sonra ölkənin xalq təsərrüfatının planlaşdırılmasında və inkişafında yeni xüsusi dövr başladı. Onun həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri aparılmış, sənaye və kənd təsərrüfatının bütün sahələrində

inkişafa nail olunmaqla yanaşı elmi-tədqiqat sahələrinin inkişafına, onun kadr potensialının möhkəmləndirilməsinə diqqət daha da artırıldı.

Bu dövrdə ETİİ-nin də fəaliyyətində güclü canlanma baş verdi. Həmin dövrdən başlayaraq ETİİ üçün yeni inzibati binanın inşasına başlanması və 1977-ci ilin oktya brında tam istifadəyə verilməsi, onun maddi-texniki bazasının və kadr potensialının möhkəmləndirilməsi istiqamətində irimiqyaslı işlər görülmüşdür. Bunun nəticəsidir ki, o dövrdən başlayaraq ETİİ nəinki respublikamızda, həmçinin keçmiş İttifaqda aparıcı elmi-tədqiqat institutlarından birinə çevrilmişdi.Təsadüfi deyildir ki, həmin dövrdə Azərbaycan SSR Dövlət Plan Komitəsinin respublika iqtisadiyyatının inkişafı üzrə hazırladığı bütün planlar, proqramlar və qərarlar ETİİ-də elmi cəhətdən əsaslandırıldıqdan sonra qəbul edilirdi.

Həmin dövrdən etibarən respublikada yeni sənaye sahələrinin yaradılması, o cümlədən elektron maşınqayırma, radiotexnika, yüngül və yeyinti sənayesi üçün maşın və avadanlıq istehsalı sahələrinin inkişafı və yerləşdirilməsinin elmi cəhətdən əsaslandırılması ETİİ-nin elmi araşdırmalarının əsas istiqamətlərində yer almağa başladı. Bu dövrdə respublikada aqrar-sənaye kompleksinin inkişafı da ETİİ-də aparılan elmi-tədqiqat işlərinin öncül istiqamətlərindən biri olmuşdur. Bu onunla əlaqədar idi ki, ölkənin bu ənənəvi sahəsi inkişaf göstəricilərinə görə digər müttəfiq respublikalarla müqayisədə geri qalırdı. Ölkədə həyata keçirilən düzgün planlaşdırılma nəticəsində XX əsrin 80-ci illərində artıq Azərbaycan SSR Sovet İttifaqında ən qabaqcıl üzümçülük və pambıqçılıq respublikasına çevrilmişdi.

ETİİ-də öz dövrü üçün böyük əhəmiyyətə malik olan elmi-tədqiqat işlərinin yeri nə yetirilməsi ilə yanaşı, yüzlərlə yüksəkixtisaslı kadrlar yetişdirilmiş, mütəmadi olaraq iqtisadiyyat elminin və respublika iqtisadiyyatının aktual problemlərinə həsr olunmuş respublika, ümumittifaq və beynəlxalq səviyyəli elmi-təcrübi konfranslar, simpoziumlar və bu kimi digər elmi məclislər keçirilmiş, monoqrafiyalar və elmi əsərlər toplusu nəşr olunmuş, respublika iqtisadiyyatının inkişafı və yeni sahələrin yaradılması istiqamətində analitik tədqiqatlar aparılmış, müvafiq hesabatlar və əməli təklif və tövsiyələr hazırlanmışdır.

1991-ci ildə Azərbaycan Respublikasının müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutu müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatının planlaşdırılmasında fəal iştirak etməyə başladı. Bu dövrdə iqtisadi sahədə islahatların ardıcıl və sistemli şəkildə həyata keçirilməsi üçün qanunvericilik bazasının yaradılmasında da ETİİ aktiv fəaliyyət göstərirdi.

1993-cü ilin əvvəllərində ETİİ-nin yenidənqurulmasına müəyyən cəhd olunsa da bu baş tutmamışdı. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 1993-cü il 14 may tarixli 601 saylı "Azərbaycan Respublikası Nazirlər Kabinetinin İqtisadi siyasət və beynəlxalq əməkdaşlıq mərkəzinin yaradılması haqqında" fərmanı ilə ölkədə aparılan iqtisadi siyasətin elmi əsaslarının gücləndirilməsi məqsədi ilə ETİİ-nin bazasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İqtisadi siyasət və beynəlxalq əməkdaşlıq mərkəzi"nin yaradılması nəzərdə tutulsa da, sonradan bu fərman icra olunmamış və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında iqtisadi islahatların elmi-təşkilati bazasının gücləndirilməsi haqqında" 1994-cü il 17 yanvar tarixli 98 saylı fərmanı ilə ləğv edilmişdir. 1993-cü ildə Ümummilli liderimiz Heydər Əliyevin ölkə rəhbərliyinə yenidən qayıdışı, bütün sahələrdə olduğu kimi, elmi-tədqiqat işlərinin təşkili və idarə olunmasında, o cümlədən ETİİ-nin də fəaliyyətində müsbət dəyişikliklərə səbəb oldu. Məhz onun Azərbaycan Respublikasının Prezidenti kimi 1994-cü il 17 yanvar tarixli 98 saylı fərmanı ilə, dövlət müstəqilliyinin bərpası və bazar münasibətlərinə

keçidlə əlaqədar olaraq, ETİİ-nin yenidənqurulması zərurəti nəzərə alınaraq və yeni şəraitdə ölkənin iqtisadi inkişaf siyasətinin elmi əsaslar üzərində qurulmasını, iqtisadi islahatların strateji istiqamətlərinin müəyyənləşdirilməsi və beynəlxalq iqtisadi və maliyyə təşkilatları ilə iqtisadi əməkdaşlıq sahəsində əlaqələrin gücləndirilməsini təmin etmək məqsədilə ETİİ-nin bazasında İqtisadi İslahatlar Mərkəzi (İİM) yaradıldı.

İİM-in fəaliyyəti dövlət müstəqilliyi və bazar münasibətlərinə keçid şəraitində ölkənin iqtisadi inkişaf siyasətinin elmi əsaslar üzərində qurulmasına, mövcud problemlərin həlli yollarının öyrənilməsinə, mütərəqqi dünya təcrübəsi nəzərə alınmaqla iqtisadi islahatların strateji istiqamətlərinin və həyata keçirilməsinin taktiki yollarının müəyyənləşdirilməsinə, gedişinin izlənilməsinə və sosial-iqtisadi inkişafın proqnozlaşdırılmasına yönəlmişdi.

İİM-in apardığı elmi-tədqiqat işlərinin əhəmiyyəti təkcə onların iqtisadiyyatın idarə olunması və səmərəliliyinin artırılması yollarının araşdırılması ilə məhdudlaşmırdı. Bu tədqiqatlar, eyni zamanda, ölkənin elmi potensialı, o cümlədən, elmi kadrların yetişməsi və inkişafı üçün də mühüm əhəmiyyət kəsb etmişdir.

2001-ci ildə İqtisadi İnkişaf Nazirliyinin yaradılması və İİM-in onun tərkibinə daxil edilməsi ilə Mərkəz öz fəaliyyətində yeni inkişaf mərhələsinə qədəm qoymuş oldu. Bu dövrdən etibarən həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Mərkəzdə tədqiqat bazasının təkmilləşdirilməsi, elmi-tədqiqat işlərinin konkret iqtisadi və idarəçilik məsələləri ilə əlaqələndirilməsi, onların səviyyəsinin yüksəldilməsi və alınmış nəticələrin təcrübədə tətbiqi, yüksəkixtisaslı kadr hazırlığı kimi proseslər ardıcıl və davamlı xarakter almışdır.

Bunun nəticəsidir ki, İİM öz fəaliyyəti dövründə iqtisadi siyasətin formalaşdırılması və reallaşdırılmasının əsas istiqamətlərinin elmi əsaslarının işlənilməsi üzrə Azərbaycan Respublikasında yüksək tədqiqat potensialına malik bir "beyin mərkəzi"nə çevrildi. Bu istiqamətlər sırasında xüsusi olaraq bazar iqtisadiyyatı şəraitində sosial-iqtisadi inkişaf siyasətinin formalaşdırılmasının metodoloji əsası ola biləcək bazarlar (əmtəə və xidmətlər bazarı, kapital bazarı, pul bazarı, əmək bazarı, xarici bazarlar) və sektorlar (real sektor, dövlət sektoru, ev təsərrüfatları sektoru, ictimai sektor, xarici sektor) kəsimində Azərbaycanın makroiqtisadi təhlil və proqnozlaşdırma modellərinin işlənilməsi (bu modellər makroiqtisadi, o cümlədən monetar, fiskal, qiymət, investisiya, məşğulluq və xarici iqtisadi fəaliyyət siyasətlərinin formalaşdırılması, büdcə layihəsi ilə birlikdə parlamentə təqdim edilən ortamüddətli dövr üçün makroiqtisadi proqnozların hazırlanması, sosial-iqtisadi inkişaf üzrə indikativ planların və proqramların hazırlanması, neft gəlirlərinin səmərəli istifadəsi istiqamətlərinin müəyyənləşdirilməsi və bu kimi digər məqsədlər üçün istifadə edilə bilər), Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına səmərəli inteqrasiyası, o cümlədən ölkənin beynəlxalq əmək bölgüsündə cari və potensial müqayisəli üstünlüklərinin müəyyənləşdirilməsi, ixrac potensialının inkişafı və diversifikasiyası, Ümumdünya Ticarət Təşkilatına üzvlüklə əlaqədar problemlər, regional və sosial inkişaf, qeyri-neft sektorunun inkişafı, ölkədə aparılan struktur islahatlarının sosial-iqtisadi nəticələrinin izlənilməsi və qiymətləndirilməsi, sahibkarlığın və rəqabətin inkişafı, insan potensialının inkişafı, bazar infrastrukturunun inkişafı və ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığının təmin olunması ilə əlaqədar olan digər bu kimi aktual problemlərlə bağlı tədqiqatlar aparılmasını göstərmək olar.

Bununla yanaşı, bu dövrdə İİM-in əməkdaşları ölkənin aktual sosial-iqtisadi məsələləri ilə bağlı müxtəlif qanunların, irimiqyaslı siyasət sənədlərinin, o cümlədən dövlət proqramlarının

hazırlanmasında, beynəlxalq və yerli tədqiqat layihələrinin yerinə yetirilməsində də fəal iştirak etmişlər.

Eyni zamanda, bu dövrdə İİM-in maddi-texniki bazasının və tədqiqat texnologi yalarının müasirləşdirilməsi prosesi də vüsət almış və 2006-cı ilin ortalarından İİM-in binasının ilk dəfə əsaslı təmir işlərinə də başlanılmışdır.

İİM-in fəaliyyətinin ölkədə davamlı xarakter almış dinamik sosial-iqtisadi inkişaf proseslərinin tələblərinə uyğunlaşdırılması və daha da gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 saylı Fərmanı ilə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin Azərbaycan Elmi-Tədqiqat Elmi Texniki İnformasiya və Texniki-İqtisadi Tədqiqatlar İnstitutu da İİM-ə birləşdirilərək onların bazasında Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu (İİETİ) yaradıldı. Bu dövrdən institutun Azərbaycan Respublikasının iqtisadi və sosial inkişafı sahəsində dövlət siyasətinin, həmçinin iqtisadi islahatların elmi əsaslarının işlənilməsi, ölkədə sosial-iqtisadi inkişaf meyillərinin, o cümlədən islahatların gedişinin təhlili, qiymətləndirilməsi və proqnozlaşdırılması istiqamətlərində elmi-tədqiqat və analitik təhlil işləri aparılmasını, elmi-texniki və texniki-iqtisadi tədqiqatlar üzrə informasiyanın toplanmasını, sistemləşdirilməsini, təhlilini və yayılmasını həyata keçirən, səlahiyyətləri daxilində idarəetmə, tədris və nəşriyyat funksiyalarına da malik olan yüksək kateqoriyalı elmi-tədqiqat müəssisəsi statusu müəyyənləşdirilmişdir.

Son dövrlərdə institutda ölkə iqtisadiyyatının aktual problemlərinin, o cümlədən müxtəlif sahələrin və regionların davamlı inkişafının təmin olunmasına dair elmi tədqiqatların aparılması, tətbiqi iqtisadi tədqiqatların koordinasiya edilməsi, yüksək ixtisaslı kadr hazırlığı və s. istiqamətlərdə fəaliyyətlər əhəmiyyətli dərəcədə güclənmişdir.

İnstitutda qısa, orta və uzunmüddətli proqnoz və planların tərtib olunmasının müasir metodikalarının, model və üsullarının işlənilməsinə yönəldilmiş tədqiqatlar da intensiv xarakter almışdır. Bu baxımdan, "Azərbaycan Respublikası üçün Ümumi Tarazlıq Modeli"nin işlənilməsi istiqamətində işlərin davam etdirilməsini və EcoMod şirkəti ilə birgə Azərbaycan Respublikasının Ümumi Tarazlıq Modelinin (AZMOD) yaradılmasını xüsusi qeyd etmək olar. AZMOD əksər qabaqcıl ölkələrdə hazırda istifadə olunan müasir modelləşdirmə üsulları və proqram təminatına əsaslanır, müvafiq ssenarilərə uyğun orta və uzunmüddətli proqnoz və planların tərtib olunmasına geniş imkanlar yaradır. Bununla yanaşı, institut tərəfindən AZMOD-un əsas məlumat bazası olan Sosial Hesablar Matrisi də 19 iqtisadi sahə əhatə edilməklə tərtib edilmiş və bu istiqamətdə işlərin daha da gücləndirilməsi və AZMOD-un daimi yenilənməsi və tək milləşdirilməsi ilə onun tətbiqi imkanlarının genişləndirilməsinə qərar verilmişdir.

Hazırda institutun fəaliyyətində Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan - 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı müəyyən olunmuş məqsəd və vəzifələrin həyata keçirilməsinə yönəlmiş elmi-tədqiqatların genişləndirilməsi və dərinləşdirilməsinə xüsusi diqqət yetirilir. Bu baxımdan, institutda makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması və strukturunun təkmilləşdirilməsi, o cümlədən neft-qaz sektoru və neft-kimya sənayesinin modernləşdirilməsi, qeyri-neft sektorunda istehsalın və ixracın şaxələndirilməsi və inkişaf etdirilməsi, xidmət fəaliyyəti növlərinin genişləndirilməsi, innovasiya fəaliyyətinin təşviqi və genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, maliyyə xidmətləri bazarının inkişaf etdirilməsi, xarici

ticarət və investisiya siyasətinin təkmilləşdirilməsi kimi istiqamətlərdə tədqiqatlara üstünlük verilir.

Son illərdə institut öz fəaliyyət istiqamətlərində müvafiq beynəlxalq təşkilat və maliyyə qurumları (BMT-nin iqtisadi qurumları, İƏT, ADB, İDB, WBvə s.) və xarici ölkələrin (ABŞ, Fransa, Almaniya, Türkiyə, Macarıstan, Koreya, Polşa, Almaniya, Çin, Hin distan, Pakistan, İran və əksər MDB ölkələri) iqtisadi sahədə fəaliyyət göstərən elmi tədqiqat mərkəzləri ilə əməkdaşlığını da xeyli genişləndirmiş, çoxsaylı yerli və beynəlxalq əhəmiyyətli təlim, seminar, dəyirmi masa, simpozium, konfrans və forumlar təşkil etmişdir.

Eyni zamanda institutun geniş fəaliyyəti nəticəsində Azərbaycanda İƏT-in Tədqiqat Mərkəzi yaradılmışdır.

Ölkədə aparılan uğurlu sosial-iqtisadi islahatlar nəticəsində əldə olunmuş nailiyyətlərin daha da möhkəmləndirilməsi və artırılması iqtisadi siyasət və inkişaf problemlərinin elmi-analitik araşdırılmasının daha da genişləndirilməsini və dərinləşdirilməsini zəruri edir. Buna görə də institutun fəaliyyətinin bu yeni şəraitə uyğunlaşdırılması və səmərəliliyinin yüksəldilməsi, o cümlədən onun çevik elmi-təşkilati strukturunun formalaşdırılması, elmi və maddi-texniki bazasının müasirləşdirilməsi və möhkəmləndirilməsi, kadr potensialının gücləndirilməsi hər zaman İnstitutun prioritet inkişaf istiqamətləri kimi müəyyənləşdirilmişdir.

Ölkə başçısının elmi-tədqiqat işlərinin təşkili və idarə olunmasına göstərdiyi diqqətin davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin 26 iyun 2021-ci il tarixli 1382 nömrəli Fərmanı ilə İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun əsasında “İqtisadi Elmi Tədqiqat İnstitutu” publik hüquqi şəxsi (The ESRI) yaradıldı. Həmçinin İnstitutun fəaliyyətinin dəstəklənməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 26 iyun 2021-ci il tarixli 1382 nömrəli Fərmanı ilə İnstitutun tabeliyində “Təlim Tədris Mərkəzi” publik hüquqi şəxsi yaradılmışdır.

ESRI-nin əsas hədəfi müasir beyin mərkəzi və elmi tədqiqat müəssisəsi kimi formalaşaraq bütövlükdə iqtisadiyyat və onun ayrı-ayrı sahələrinin inkişafı ilə bağlı elmi-tədqiqat, təhlil və akademik təlimlərin təklifi, ölkənin iqtisadi inkişaf siyasətinin elmi əsaslarının işlənib hazırlanması, analitik-informasiya məhsullarının tərtib edilməsi və nəşrinin təşkili, müvafiq proqram və layihələrin hazırlanması, həmçinin dövlət, özəl, ictimai və beynəlxalq sektorlar üçün müvafiq sahədə təlim, tədris, məsləhət, monitorinq, qiymətləndirmə, ekspertiza, məlumat bazalarının yaradılması, strateji planlaşdırma, innovativ inkişaf üzrə işlərin aparılması və s. istiqamətlərində xidmətlərin göstərilməsidir. O cümlədən müxtəlif sahələrdə dövlət və özəl sektor üçün peşə hazırlığının təkmilləşdirilməsini, əmək bazarının və insan resurslarının monitorinqi və qiymətləndirilməsinin həyata keçirilməsi, yenidən hazırlanma və ixtisasartırmanın təmin edilməsi İnstitutun tabeliyində fəaliyyət göstərən Təlim Tədris Mərkəzinin əsas fəaliyyət istiqamətləri kimi müəyyən edilmişdir.

İnanırıq ki, göstərilən istiqamətlərdə qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi institutda aparılan tədqiqatların elmi səviyyəsinin və analitik yükünün artırılmasına, yeni elmi-tətbiqi model və tədqiqat üsullarının işlənilməsinə və mənimsənilməsinə, əldə olunmuş elmi nəticələrin nəşri və yayılmasının təkmilləşdirilməsinə, yüksək ixtisaslı kadr hazırlığı sisteminin keyfiyyətinin yüksəldilməsinə, yerli və beynəlxalq səviyyədə elmi əməkdaşlığın gücləndirilməsinə şərait yaratmaqla onun beynəlxalq səviyyədə tanınan "beyin mərkəzi"nə çevrilməsinə və bundan sonra da ölkədə aparılan sosial-iqtisadi inkişaf siyasətinin elmi

əsaslarının işlənib hazırlanması istiqamətində fəaliyyətini şərəflə davam etdirməsinə imkan verəcəkdir.

Fəxr hissi ilə bildiririk ki, İnstitut 2024-cü il oktyabr ayının 4-də Azərbaycan Respublikası İqtisadiyyat nazirinin F-45 nömrəli Əmrinə əsasən fəaliyyətinin 60 illiyini qeyd edir.

Yubiley tədbirləri çərçivəsində nəşr olunan "Elmi fəaliyyətin 60 ili: Keçmişdən Gələcəyə" kitabının məqsədi İnstitutun tarixi fəaliyyət yolunu işiqlandırmaq, bu illər ərzində görülmüş işlər barədə məlumatları oxucularının diqqətinə çatdırmaqdır.

Kitab 5 fəsildən ibarətdir. Birinci fəsil, Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında təşkil edilmiş Elmi Tədqiqat İqtisadiyyat İnstitutunun (ETİİ) yaranması və fəaliyyət dövrünü əhatə etməklə, 1964-1991-ci illərdə görülmüş işləri özündə ehtiva edir.

İkinci fəsildə, 1992-2020-ci illərdə İqtisadi İslahatlar Mərkəzi və İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun fəaliyyəti, görülmüş işlər barədə məlumatlar əks olunmuşdur.

Üçüncü fəsildə isə, İqtisadi Elmi Tədqiqat İnstitutunun 2021-ci ildən bu günə qədər olan dövrdəki fəaliyyəti işıqlandırılmışdır.

İnstituta yarandığı dövrdən bu günə qədər rəhbərlik etmiş şəxsiyyətlər barədə məlumatlar isə dördüncü fəsildə verilmişdir.

Beşinci fəsildə isə, İnstitutda fəaliyyət göstərmiş əməkdaşlar, alimlər barədə məlumatlar və tarixi fəaliyyətini əks etdirən fotoşəkillər yer almışdır.

Ümid edirik ki, İnstitutun yarandığı dövrdən bu günə kimi uzun fəaliyyət yolunu əks etdirən bu kitab oxucularını marağını cəlb edə biləcəkdir.

***İdarə Heyətinin sədri,***
***i.e.d., prof. Şahin Sadıqov***

# I FƏSİL

# AZƏRBAYCAN SSR DÖVLƏT PLAN KOMİTƏSİ YANINDA ELMİ TƏDQİQAT İQTİSADİYYAT İNSTİTUTUNUN 1964-1991-Cİ İLLƏRDƏ FƏALİYYƏTİ

XX əsrin 60-cı illərinin əvvəllərində İkinci Dünya müharibəsi nəticəsində yaranmış dağıntılar aradan qaldırıldıqdan sonra SSRİ müttəfiq respublikalarının inkişaf səviyyələrində qeyri-bərabərlik müşahidə olunurdu. Həmin illərdə Azərbaycan SSR-də iqtisadi artım sürəti İttifaq səviyyəsindən və bir sıra müttəfiq respublikalardan geri qalırdı. Belə ki, 1955-1965-ci illərdə Azərbaycan SSR-də ümumi sənaye məhsulu istehsalı ittifaq səviyyəsinin artım sürətindən 1,44 dəfə, Belarusiya SSR-dən 1,34 dəfə, Qazaxıstan SSR-dən 1,30 dəfə, Moldaviya SSR-dən 1,36 dəfə geri qalmışdı ki, bu da respublikada məcmu ictimai məhsul və milli gəlirin də artım sürətinin müqayisədə aşağı olmasına səbəb olmuşdu.

Azərbaycan SSR sənaye məhsulu istehsalında artım tempinin belə geri qalmasının bir sıra obyektiv və subyektiv səbəbləri var idi. Belə geriləmənin əsas səbəbi həmin dövrdə Azərbaycan SSR-də neft hasilatının durğunluğu və hətta azalması ilə əlaqədar olmuşdur. Buna səbəb istismar edilən neft yataqlarında neft hasilatının azalması və yeni neft yataqlarının kəşfi və istismara verilməsi prosesində durğunluq yaranması olmuşdur. Belə bir neqativ proses öz təsirini sənayenin strukturunda yanacaq sənayesinin xüsusi çəkisinin azalmasına gətirib çıxarmışdı. Bununla yanaşı, bu dövrdə sənayenin strukturunda qara metallurgiyanın, elektroenergetikanın və bir sıra başqa sahələrin də həm artım sürəti, həm də xüsusi çəkisi azalmışdı.

Azərbaycan SSR-də əlvan metallurgiya, meşə və ağac emalı, tikinti materialları, şüşə və farfor-fayans və s. sənaye sahələrinin artım sürəti yüksək olsa da, sənayenin ümumi strukturunda onların xüsusi çəkisinin azlıq təşkil etməsi ümumi sənaye məhsulunun artım sürətinin yüksəlməsinə təsir edə bilməmişdi. Azərbaycan SSR-də 1961-1965-ci illərdə ümumi sənaye məhsulu istehsalı cəmi 41,0% artmışdı.

Əvvəllər SSRİ-nin mənafeyi naminə Azərbaycan SSR bir neçə onilliklər ərzində maddi və maliyyə resurslarını sistematik olaraq neft hasilatının və neft məhsullarının buraxılışına yönəltdiyindən ölkənin digər sənaye sahələri zəif inkişaf etmişdi. Neft hasilatı və emalı sahəsinə isə ölkə iqtisadiyyatına yönəldilən bütün kapital qoyuluşunun 2/3 hissəsindən çoxu sərf edilirdi. Azərbaycan SSR-də sənaye sahələrinin birtərəfli inkişafı bütövlükdə ölkənin xalq təsərrüfatının inkişaf sürətinə mənfi təsir göstərirdi.

Həmin illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında azsaylı ştatı olan "Məhsuldar Qüvvələrin Öyrənilməsi üzrə Şura" (MQÖŞ) və 25 may 1963-cü ildə Dövlət Plan Komitəsi tərkibində yaradılmış Planlaşdırma və Normativlər Elmi-Tədqiqat İnstitutu fəaliyyət göstərirdi ki, onların da elmi potensialı ölkənin xalq təsərrüfatının planlaşdırılması və məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsinin elmi əsaslarının hazırlanması üçün kifayət deyildi.

Yaranmış vəziyyətə istinad edərək respublika rəhbərliyi SSRİ-nin "Vahid xalq təsərrüfatı kompleksi"nin tərkibində xüsusi iqtisadi rayon kimi Azərbaycan SSR iqtisadiyyatının kompleks planlaşdırılmasının elmi əsaslarının gücləndirilməsi məqsədi ilə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunun təşkil edilməsi barədə İttifaq nazirlik və komitələrinə müraciət ünvanladı. Bu həm də onunla

əsaslandırıldı ki, Moskva şəhərində SSR Dövlət Plan Komitəsi yanında İqtisadiyyat Elmi Tədqiqat İnstitutu, RSFSR və digər müttəfiq respublikaların Dövlət Plan Komitələri yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutları fəaliyyət göstərirdi. Nəticədə, qeyd olunanlar nəzərə alınaraq, SSRİ Dövlət Plan Komitəsi ilə razılaşdırılmaqla Elmi-tədqiqat işlərinin koordinasiyası üzrə SSRİ Dövlət Komitəsinin 1964-cü il 14 iyul tarixli 54 saylı qərarına əsasən Azərbaycan SSR Nazirlər Sovetinin 1964-cü il 2 oktyabr tarixli 685 saylı qərarı ilə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutu (ETİİ) yaradıldı.

Azərbaycan SSR Nazirlər Sovetinin müvafiq Qərarında aşağıdakı tapşırıqların da yerinə yetirilməsi nəzərdə tutulmuşdu:

- İnstitut Azərbaycan SSR Dövlət Plan Komitəsinin yanında Məhsuldar Qüvvələrin Öyrənilməsi üzrə Şuranın bazasında yaradılsın;



Совет Министров Азербайджанской ССР

Постановление

от 2 октября 1964 года № 685

Об организации научно-исследовательского института экономики при Госплане Азербайджанской ССР

Совет Министров Азербайджанской ССР постановляет:

1. В соответствии с решением Государственного комитета по координации научно-исследовательских работ СССР от 14 июля 1964 г. № 54, согласованным с Госпланом СССР, организовать научно-исследовательский институт экономики при Госплане Азербайджанской ССР /АзНИЭИ/.

Организацию указанного института произвести на базе Совета по изучению производительных сил /СОПС/ при Госплане Азербайджанской ССР.

2. Поручить Госплану, Государственному комитету Совета Министров Азербайджанской ССР по координации научно-исследовательских работ, Министерству финансов Азербайджанской ССР представить в 5-дневный срок в Совет Министров республики обоснованные предложения об увеличении численности и фонда заработной платы по координируемым научно-исследовательским учреждениям Азербайджанской ССР за счет общей численности и фонда заработной платы, установленных государственным планом развития народного хозяйства СССР на 1964 год по Азербайджанской ССР для последующего внесения на рассмотрение Совета Министров СССР.



2.

В месячный срок после вынесения решения Советом Министров СССР об увеличении численности и фонда заработной платы на развитие науки по Азербайджанской ССР, представить на утверждение Совета Министров республики структуру, штатное расписание и смету расходов указанного института с определением источника его финансирования.

3. Госплану Азербайджанской ССР в месячный срок разработать и по согласованию с Государственным комитетом Совета Министров Азербайджанской ССР по координации научно-исследовательских работ, Министерством финансов Азербайджанской ССР и ... комиссией при Совете Министров Азербайджанской ССР утвердить Положение о научно-исследовательском институте экономики при Госплане Азербайджанской ССР /АзНИЭИ/.

4. Поручить Министерству финансов Азербайджанской ССР ... должностные оклады работников административно-управленческого персонала научно-исследовательского института экономики при Госплане Азербайджанской ССР согласовать с Министерством финансов СССР.

5. Поручить Госплану Азербайджанской ССР срочно представить в Государственный комитет Совета Министров Азербайджанской ССР по координации научно-исследовательских работ предложения по уточнению плана научно-исследовательских работ по тематике АзНИЭИ, расчеты численности и смету расходов на содержание института на 1965 год в соответствии с методическими указаниями и формами, установленными Государственным комитетом по координации научно-исследовательских работ СССР и Госпланом СССР.

6. Разрешить Госплану Азербайджанской ССР впредь до согласования с Министерством финансов СССР окладов работников указанного института, сохранить существующие условия оплаты труда за работниками, переходящими из отдела производственных ... АзНИИ по добыче нефти и Совета по изучению производительных сил /СОПС/ Госплана Азербайджанской ССР.

7. Утвердить при Госплане Азербайджанской ССР, на правах совещательного органа, Совет по изучению производительных сил, с привлечением в его состав ученых и высококвалифицированных специалистов республики на общественных началах.

Госплану Азербайджанской ССР утвердить состав Совета.

8. Обязать Госплан Азербайджанской ССР и Академию наук Азербайджанской ССР в связи с созданием научно-исследовательского института экономики при Госплане Азербайджанской ССР

- Dövlət Plan Komitəsinə, Azərbaycan SSR Nazirlər Sovetinin Elmi-tədqiqat işlərinin koordinasiyası üzrə Dövlət Komitəsinə və Azərbaycan SSR Maliyyə Nazirliyinə tapşırılsın ki, sonradan SSRİ Nazirlər Sovetində müzakirəyə çıxarmaq üçün, 5 gün müddətində Azərbaycan SSR-in koordinasiya edilən elmi-tədqiqat müəssisələri üzrə işçi sayı və əmək haqqı fondunun 1964-cü il üçün SSRİ Xalq Təsərrüfatının inkişafının dövlət planı ilə Azərbaycan SSR üzrə müəyyən edilmiş ümumi işçi sayı və əmək haqqı fondu hesabına artırılması barədə əsaslandırılmış təklifləri Azərbaycan SSR Nazirlər Sovetinə təqdim etsinlər.



-Azərbaycan SSR üzrə elmin inkişafı ilə əlaqədar işçi sayı və əmək haqqı fondunun artırılması barədə SSRİ Nazirlər Sovetinin qərarından sonra bir ay müddətində göstərilən institutun strukturu, ştat cədvəli, maliyyə mənbələri müəyyən edilməklə xərclər smetası Azərbaycan SSR Nazirlər Sovetinə təsdiq edilmək üçün təqdim edilsin;

- Dövlət Plan Komitəsinə tapşırılsın ki, bir ay müddətində Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunun əsasnaməsini tərtib etsin və Azərbaycan SSR Nazirlər Sovetinin elmi-tədqiqat işlərinin koordinasiyası üzrə Dövlət Komitəsi, Azərbaycan SSR Maliyyə Nazirliyi və Azərbaycan SSR Nazirlər Soveti yanında hüquq komissiyası ilə razılaşdırılmaqla təsdiq etsin;

-Maliyyə Nazirliyinə tapşırılsın ki, Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında ETİİ-nin inzibati-idarəetmə heyətinin işçilərinin vəzifə maaşlarını SSRİ Maliyyə Nazirliyi ilə razılaşdırsın;

- Azərbaycan SSR Dövlət Plan Komitəsinə tapşırılsın ki, təcili surətdə SSRİ Dövlət Plan Komitəsi və SSRİ elmi-tədqiqat işlərinin koordinasiyası üzrə Dövlət Komiəsi tərəfindən müəyyən edilmiş metodiki göstəriş və formalara müvafiq olaraq 1965-ci il üçün ETİİ-nin mövzuları üzrə elmi-tədqiqat işləri planının dəqiqləşdirilməsi, işçi sayının hesablanması və institutun saxlanması üçün xərclər smetası ilə əlaqədar təkliflərini Azərbaycan SSR Nazirlər Sovetinin elmi-tədqiqat işlərinin koordinasiyası üzrə Dövlət Komitəsinə təqdim etsin;

-Azərbaycan SSR Dövlət Plan Komitəsinə icazə verilsin ki, göstərilən institutun əməkdaşlarının əmək haqlarını SSRİ Maliyyə Nazirliyi ilə razılaşdırılana qədər, Azərbaycan SSR Dövlət Plan Komitəsinin Məhsuldar Qüvvələrin Öyrənilməsi üzrə Şurasından və Azərbaycan Neftçıxarma üzrə Elmi Tədqiqat İnstitutunun İstehsalat normativləri şöbəsindən köçürülən işçilərin əmək haqlarının ödənilməsinin mövcud şərtlərini saxlasın;

- Azərbaycan SSR Dövlət Plan Komitəsi nəzdində tərkibinə ictimai əsaslarla respublikanın alimləri və yüksəkixtisaslı mütəxəssislərini cəlb etməklə məşvərətçi orqan hüququnda Məhsuldar Qüvvələrin Öyrənilməsi üzrə Şura yaradılsın; Azərbaycan SSR DPK Şuranın tərkibini təsdiq etsin.
- Azərbaycan SSR Dövlət Plan Komitəsinə və Azərbaycan SSR Elmlər Akademiyasına tapşırılsın ki, Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında ETİİ-nin yaranması ilə əlaqədar olaraq, respublikada iqtisadi tədqiqatların daha səmərəli və nəticəli təşkilinin təmin edilməsi və onların bir elmi-tədqiqat müəssisəsində təmərküzləşməsinin məqsədəuyğunluğu məsələsini həll etməyin zəruriliyini nəzərə alaraq Azərbaycan SSR Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun mövzularını nəzərdən keçirsinlər;
- Bu məsələ üzrə təkliflər Azərbaycan SSR Nazirlər Sovetinin elmi-tədqiqat işlərinin koordinasiyası üzrə Dövlət Komitəsi ilə razılaşdırılmaqla 1965-ci il 01 aprel tarixinə kimi Azərbaycan SSR Nazirlər Sovetinə təqdim edilsin;

- "Respublika Dövlət Plan Komitəsi tərkibində planlaşdırılma və normativlər elmi-tədqiqat institutunun təşkil edilməsi haqqında" Azərbaycan SSR Nazirlər Sovetinin 1963-cü il 25 iyun tarixli 452 nömrəli qərarı qüvvədən düşmüş hesab olunsun.

Bakı şəhəri, Çkalov küçəsində (indiki Niyazi küçəsi) yerləşən birmərtəbəli keçmiş məktəb binası ETİİ-nin balansına verilmişdir.

Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunun ilk direktoru vəzifəsinə 1954-cü ildə Tbilisi Dövlət Universitetində namizədlik dissertasiyasını müdafiə etmiş, 1958-ci ildən 1961-ci lədək Bakı Ali Partiya Məktəbində "İqtisadiyyat" kafedrasının dosenti olmuş, 1961-ci ildən 1965-ci ilin noyabr ayınadək "İqtisadiyyat" fakültəsində dekan müavini kimi fəaliyyət göstərən iqtisad elmləri namizədi, dosent Saleh İsmayıl oğlu Səmədov təyin edilmişdir.

Azərbaycan SSR Dövlət Plan Komitəsinin 1965-ci il 31 iyul tarixli 39 saylı Kollegiyasının qərarı ilə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunun Əsasnaməsi, Elmi Şuranın tərkibi və elmi-tədqiqat işlərinin planı təsdiq olunmuşdur.1965-ci ildə institutun strukturu ümumilikdə 6 şöbədən ibarət olmuşdur. İnstitutda çalışan əməkdaşların sayı 103 nəfər idi. Əməkdaşlardan 86 nəfəri elmi işçi kimi fəaliyyət göstərmiş, 17-si isə inzibati-təsərrüfat işləri ilə məşğul olmuşlar.

Elmi işçilərin ümumi sayının 43 nəfəri Neftçıxarma üzrə AzETİ-dən Elmi-Tədqiqat İqtisadiyyat İnstitutuna keçirilmiş istehsalat normativləri şöbəsində, digər elmi işçilər isə yeni təşkil edilmiş aşağıdakı 5 şöbədə fəaliyyət göstərmişlər:

Planlaşdırmanın balans metodları şöbəsi;
- Məhsuldar qüvvələrin yerləşdirilməsi şöbəsi;
- Sənayenin iqtisadi problemləri şöbəsi;
- Əməyin iqtisadiyyatı və həyat səviyyəsi şöbəsi;
- Planlaşdırmada riyazi metodların və hesablama texnikasının tətbiqi şöbəsi.

Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında ETİİ-nin yaradıldığı dövrdə yuxarıda qeyd edilən şöbələrə Əli İslam oğlu Əhmədov (Planlaşdırmanın balans metodları şöbəsi), Raqib Vəli oğlu Məmmədov (Məhsuldar qüvvələrin yerləşdirilməsi şöbəsi), Vahid Kazım oğlu Şahmuradov (Sənayenin iqtisadi problemləri şöbəsi), Veysəl Rəsul oğlu Əfəndiyev (Əməyin iqtisadiyyatı və həyat səviyyəsi şöbəsi), Şamil Əliabbas oğlu Səmədzadə (Planlaşdırmada riyazi metodların və hesablama texnikasının tətbiqi şöbəsi), İslam Muxtar oğlu Qəhrəmanov (İstehsalat normativləri şöbəsi) rəhbərlik etmişlər.

1965-ci ildə institutun struktur bölmələri təsdiq edilmiş və institutun şöbələri aşağıdakı elmi-tədqiqat işlərini yerinə yetirmişlər.

1. Planlaşdırmanın balans metodları şöbəsi 1964-cü ildə Azərbaycan SSR-in xalq təsərrüfatı məhsullarının istehsalı və bölgüsü üzrə sahələrarası balansının işlənməsi mövzusunda işi yerinə yetirmişdir. Bu mövzu ayrı-ayrı sahələrin və bütövlükdə respublikanın xalq təsərrüfatının inkişafının dəqiq səviyyəsinin müəyyən edilməsi, ictimai istehsalın daha səmərəli strukturu və sahələrarası əlaqələrin rasional sisteminin qurulması məqsədilə işlənilmişdir. Burada istehsalatın sahələrarası hesabat balansı, həmçinin Azərbaycan SSR xalq təsərrüfatında qara metallurgiya və tikinti materialları sənayesi üzrə məhsulların natural formada bölüşdürülməsi əhatə olunmuşdur.
2. Məhsuldar qüvvələrin yerləşdirilməsi şöbəsi Azərbaycan SSR-in kompleks inkişafının və məhsuldar qüvvələrinin yerləşdirilməsinin Baş sxeminin 1980-ci ilə qədər olan dövrü, daha dəqiq əsaslandırılma ilə 1975-ci ilə qədərki dövrünün

işlənilməsi üçün ilkin materialların hazırlanması ilə məşğul olmuşdur. Struktur bölmələri üzrə qarşıda duran mühüm vəzifələrdən biri qara metallurgiyanın inkişafı və yerləşdirilməsi olmuşdur. Əlvan metallurgiya sahəsində qarşıda duran vacib məsələ isə Kirovabad (indiki Gəncə) alüminium zavodunda texniki proseslərin tezliklə mənimsənilməsi və ikinci növbənin gücünün işə salınması idi. Qara metallurgiya sahəsinin problemləri üzrə aparılan elmi işlərin nəticəsində, bu istiqamətdə fəaliyyət göstərən müəssisələrin genişləndirilməsinin iqtisadi cəhətdən səmərəli olduğu müəyyənləşdirilmişdir.

3. Sənayenin iqtisadi problemləri şöbəsinin 1965-ci ilin fəaliyyət proqramında Azərbaycan SSR-in aparıcı sənaye sahələrində ixtisaslaşmanın iqtisadi səmərəliliyinin müəyyən edilməsi üzrə materialların yığılması və ümumiləşdirilməsi mövzusu nəzərdə tutulmuşdur. Mövzu işlənilərkən əsas diqqət respublikanın aparıcı sənaye sahələrinin bir sıra istehsalat müəssisələrinin sonrakı ixtisaslaşması üzrə elmi tövsiyələr verilmiş, sənayedə yeni ixtisaslaşdırılmış istehsalat müəssisələrinin və sahələrinin yaradılmasına tövsiyə edilən nəticələrin istifadə edilməsi məqsədə müvafiq hesab edilmişdir.
4. Əməyin iqtisadiyyatı və həyat səviyyəsi şöbəsi tərəfindən Azərbaycan SSR əhalisinin alıcılıq fondlarının və mal dövriyyəsinin strukturu mövzusunda elmi iş başa çatdırılmışdır. 1964-cü ildə Bakı şəhərində əhalinin pul gəlirləri və xərcləri hesabat balansının tərtib edilməsi və əhalinin bir nəfərinə düşən qeyri-ərzaq malları üzrə tələbatın dəyər ifadəsində faktiki normasının təyin edilməsi işləri yerinə yetirilmişdir.
5. Planlaşdırmada riyazi metodların və hesablama texnikasının tətbiqi şöbəsi tərəfindən P. Montin adına zavodun timsalında maşınqayırma müəssisələrində istehsal gücündən səmərəli istifadənin hesablanması işi yerinə yetirilmişdir. Yerinə yetirilən işlərin nəticələri avadanlıqla artıq yükləmə yerlərini və zavod avadanlığının gücündən istifadənin optimal variantını müəyyənləşdirməyə imkan verdi. Son nəticə və təkliflər zavod rəhbərliyinə təqdim edildi.
6. İstehsalat normativləri şöbəsi Azərbaycan SSR Xalq Təsərrüfatının ayrı-ayrı sahələri üzrə 1966-cı il üçün xammalın, materialların, yanacağın və elektrik enerjisinin ümumi normalarının işlənib hazırlanması mövzusu ilə məşğul olmuşdur. Bu mövzunun yerinə yetirilməsində qarşıya qoyulan əsas məqsəd maddi və yanacaq-enerji ehtiyatlarının elmi cəhətdən əsaslandırılmış proqressiv normalarının işlənib hazırlanması və xalq təsərrüfatında tətbiqi idi. Bu da öz növbəsində maddi və yanacaq-enerji ehtiyatlarından səmərəli istifadə olunması zərurətindən irəli gəlirdi.

1965-ci ildə təsdiq edilmiş struktura 1966-cı ildə üç yeni şöbənin əlavə edilməsi ilə ETİİ-nin strukturu genişlənmişdir. Belə ki, 1966-cı ildə ETİİ-də “Əməyin elmi təşkili”, “Tikintinin iqtisadiyyatı” və “Mineral ehtiyatların iqtisadiyyatı” adlanan yeni struktur bölmələri (şöbələri) yaradılmışdır. Yüksək ixtisaslı elmi kadrların hazırlanması məqsədi ilə 1967-ci ildən başlayaraq hər il ETİİ-nin həm özündə əyani və qiyabi aspiranturaya qəbul, həm də Azərbaycan SSR Elmlər Akademiyası sistemi tərəfindən instituta ayrılan yerlərə müvafiq olaraq Moskva şəhərinin mərkəzi institutlarına məqsədli aspiranturaya göndəriş həyata keçirilməyə başlanıldı.

1968-ci ilin aprel ayında Azərbaycan SSR Dövlət Plan Komitəsinin Kollegiyası ETİİ-nin fəaliyyətinin yaxşılaşdırılması məsələsini xüsusi müzakirə etmiş, institutun strukturunun dəyişdirilməsinin vacibliyi barədə qərar qəbul etmişdir. Kollegiyanın qərarına uyğun olaraq

SSRİ Nazirlər Soveti yanında Elm və Texnika üzrə Dövlət Komitəsinin 1969-cu il 26 noyabr tarixli 16-16/189 saylı sərəncamına və Azərbaycan SSR Nazirlər Sovetinin müvafiq qərarına uyğun olaraq ETİİ-yə "Respublika ərazisində məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsi sxemi"nin işlənib hazırlanması üzrə aparıcı təşkilat statusu verilmişdir. Yuxarıda göstərilənləri və Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1969-cu il 28 may tarixli 389 saylı qərarını nəzərə alaraq, institut ilk dəfə olaraq "1975-ci ilə qədər olan dövr daha dəqiq əsaslandırılmaqla, Azərbaycan SSR-də 1971-1980-ci illərdə məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsi Sxemi"nin işlənib hazırlanmasını 1970-ci ildə sona çatdırmışdır. Göstərilən sxem əvvəlcə Azərbaycan SSR Nazirlər Soveti, sonra isə SSRİ Dövlət Plan Komitəsi tərəfindən bəyənilmişdir. Sxemdə Xalq təsərrüfatı sahələrinin inkişaf və yerləşdirilməsinin müasir vəziyyəti, perspektivdə elmi-texniki proseslərin, maddi istehsalda daha səmərəli istifadə istiqamətləri, respublika iqtisadiyyatının inkişaf sürətində nəzərə çarpan və müşahidə edilən dəyişikliklərin, bölgələrdə ictimai istehsalın yerləşdirilməsi strukturunun öyrənilməsi geniş təhlil edilmişdir. Bu təhlildə istehsalatın inkişafı və yerləşdirilməsinin müasir vəziyyəti, respublikanın xalq təsərrüfatı sahələrinin inkişaf istiqamətləri, sənaye, tikinti sənayesi, kənd təsərrüfatı, nəqliyyat və rabitə, ticarət və ictimai iaşə, maddi-texniki təchizat və tədarük, təhsil, səhiyyə, elm, kurort və turizm, mənzil-kommunal təsərrüfatı və onların ixtisaslı kadrlarla təminatının işlənib hazırlanmasına xüsusi diqqət yetirilmişdir. İnstitut tərəfindən işlənib hazırlanmış "Sxem"də Azərbaycan SSR Xalq Təsərrüfatının müasir vəziyyəti barədə hərtərəfli təhlil verilmiş, sənayenin birtərəfli inkişafının səbəbləri göstərilmiş, Xalq Təsərrüfatının ayrı-ayrı sahələrinin və respublikanın məhsuldar qüvvələrinin yerləşdirilməsi üzrə əsaslandırılmış təkliflər müəyyənləşdirilmişdir. "Sxem"in əsas müddəaları 1971-1975-ci illər üzrə xalq təsərrüfatının 5 illik planında öz əksini tapmışdır.

Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında ETİİ-nin 1970-ci il 4 yanvar tarixli əmri ilə institutun struktur bölmələrində vəzifə tutan əməkdaşların siyahısı təsdiq edilmişdir.



ПРИКАЗ

по НИИ экономики при Госплане Азерб.ССР

от 4 января 1970 г. № I

§ I

В связи с новым хозяйственным годом зачислить на штатные единицы с 4 января 1970 г. нижеследующих работников института:

| №№ пп | Фамилия, имя, отчество | Занимаемая должность | Оклад |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| I. | Аллахвердиева [illegible] Мустафа оглы | Директор института | 550 |
| 2. | Абдуллаева [illegible] Иса оглы | Зам. директора по общим вопросам | 160 |
| 3. | [illegible] | Ученый секретарь | 160 |
| | ОТДЕЛ ОБЩИХ ПРОБЛЕМ ПРОГНОЗИРОВАНИЯ РАЗВИТИЯ ОБЩЕСТВЕННОГО ПРОИЗВОДСТВА И УРОВНЯ ЖИЗНИ | | |
| | Сектор совокупного общественного продукта и национального дохода | | |
| 4. | [illegible] оглы | зав. сектором | 280 |
| 5. | Сафарова [illegible] Самед оглы | рук. группы | 150 |
| 6. | Рагимова [illegible] Самед оглы | экон.-мл.н.с. | 110 |
| 7. | Алиева [illegible] Ага оглы | ст. лаборант | 70 |
| | Сектор прогноза технического прогресса | | |
| 8. | Кулиева [illegible] Бахадур оглы | зав. сектором | 280 |
| 9. | Гасанова [illegible] | ст. научн. сотр. | 100 |
| IO. | [illegible] кызы | ст. экономист | 100 |
| | Сектор реальных доходов и структуры народного потребления | | |
| II. | [illegible] Юсуф оглы | зав. сектором | 310 |
| I2. | [illegible] Гусейн оглы | ст. экон.-ст.н.с. | 125 |



- 2 -

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| II. | [illegible] | ст. экономист | I25 |
| I2. | [illegible] оглы | экон.-мл.н.с. | I00 |
| I3. | [illegible] кызы | ст. лаборант | 70 |
| | Сектор отраслей сферы обслуживания | | |
| I4. | [illegible] | зав. сектором | 310 |
| I5. | [illegible] | ст. экон.-ст.н.с. | I20 |
| I6. | [illegible] Гусейн оглы | ст. экон.-ст.н.с. | II5 |
| I7. | [illegible] оглы | экон.-мл.н.с. | II0 |
| I8. | [illegible] | ст. лаборант | 65 |
| | Сектор научно-экономической информации и издательства | | |
| I9. | [illegible] оглы | зав. сектором | I50 |
| 20. | [illegible] | рук. группы | I50 |
| 2I. | [illegible] | ст. лаборант | 70 |
| 22. | [illegible] оглы | ст. лаборант | 70 |
| 23. | Мамедова [illegible] оглы | ст. лаборантом | 65 |
| 24. | [illegible] | ст. лаборантом | 65 |
| | ОТДЕЛ МЕЖОТРАСЛЕВЫХ БАЛАНСОВ И ПРОБЛЕМ КОМПЛЕКСНОГО РАЗВИТИЯ ТРАНСПОРТА | | |
| 25. | Гусейнова Гусейна Расул оглы | зав. отделом | 280 |
| | Сектор межотраслевых балансов | | |
| 26. | [illegible] | зав. сектором | I50 |
| 27. | Мамедова [illegible] оглы | ст. эк.-ст.н.с. | I25 |
| 28. | Расул-заде [illegible] оглы | ст. эк.-ст.н.с. | I25 |
| 29. | [illegible] Ахмед оглы | ст. эк.-ст.н.с. | I25 |
| 30. | Рагимова [illegible] Самед оглы | ст. эк.-ст.н.с. | I25 |
| 3I. | [illegible] | ст. эк.-ст.н.с. | I25 |
| 32. | [illegible] оглы | экономист-мл.н.с. | I00 |
| 33. | [illegible] | эк.-мл.н.с. | I00 |







1969-cu il 14 iyul tarixində Azərbaycan KP MK-nın birinci katibi seçilən Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişi Azərbaycan SSR xalq təsərrüfatının sürətli inkişafının əsasını qoydu. Heydər Əlirza oğlu Əliyevin bilavasitə təşəbbüsü ilə Sov. İKP MK-nın və SSRİ Nazirlər Sovetinin 1970-ci ildə “Azər baycan SSR-in xalq təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında” və “Azərbaycan SSR-in kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında”, 1975-ci ildə “Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında”, 1976-cı ildə “1976-1980-ci illərdə respublikada sənayenin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP Mərkəzi Komitəsi təkliflərinin nəzərdən keçirilməsi nəticələri barəsində”, 1979 cu ildə “Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq,üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında” olan tarixi qərarlarının misilsiz rolu olmuşdur. Bu tədbirlərin görülməsi nəticəsində iqtisadiyyatın inkişafı Azərbaycan elminə də öz bəhrəsini vermişdir.

Heydər Əliyevin elmin inkişafına göstərdiyi qayğı və diqqət nəticəsində ETİİ-nin də fəaliyyətində güclü canlanma yarandı.

Həmin dövrdən başlayaraq, ETİİ üçün yeni inzibati binanın inşasına başlanması və 1977-ci ilin oktyabrında tam istifadəyə verilməsi, onun maddi-texniki bazasının və kadr potensialının möhkəmləndirilməsi istiqamətində irimiqyaslı işlərin həyata keçirilməsi qeyd olunanların bariz sübutudur. Bunun nəticəsində, ETİİ nəinki Azərbaycan SSR-də, həmçinin keçmiş İttifaqda aparıcı iqtisadi elmi-tədqiqat institutlarından birinə çevrilmişdir.

1970-ci il 1 dekabr tarixində ETİİ-də çalışanların ümumi sayı 219 nəfərə çatmışdı. Onlar ümumilikdə 10 şöbədə fəaliyyət göstərirdilər. İnstitutda bir nəfər elmlər doktoru, 24 nəfər elmlər namizədi iqtisadiyyatın bu və ya digər sahələri üzrə elmi-tədqiqat işləri aparırdılar. 1968-1971-ci illərdə ETİİ-də Respublika iqtisadiyyatının inkişafı ilə bağlı olan kompleks məsələləri nəzərdə tutan 34 mövzu üzrə elmi-tədqiqat işləri yerinə yetirilmişdir.

| 8. | Ətraf mühitin və təbii resursların istifadəsinin sosial-iqtisadi məsələləri şöbəsi<br>**Arzuman Baloğlan oğlu Əzizov - şöbə müdiri** | 12 | - | 4 |
| 9. | Sosial inkişaf və xidmət sahəsi məsələləri şöbəsi<br>**Əkbər Yusif oğlu Abdullayev - şöbə** | 22 | - | 3 |

| | | | | |
|---|---|---|---|---|
| | müdiri | | | |
| 1 | 2 | 3 | 4 | 5 |
| 10. | İqtisadiyyat və xalq təsərrüfatı planlaşdırması, inşaatı, sənaye quruluşu və inşaat materialları sənayesi məsələləri şöbəsi **Tofiq Hüseyn oğlu Hüseynov - şöbə müdiri** | 11 | - | 2 |
| 11. | Nəqliyyat və rabitə kompleks məsələləri şöbəsi **Rəqib Vəli oğlu Məmmədov– şöbə müdiri** | 6 | - | 1 |
| 12. | İqtisadiyyatın idarəetmə məsələləri şöbəsi **Süleyman Mirsahib oğlu Qasımov - şöbə müdiri** | 10 | - | 4 |
| 13. | Elmi-təşkilat və nəşriyyat işi şöbəsi **Tatyana Andreyevna Kuznetsova– şöbə müdiri** | 27 | - | 2 |
| 14. | Hesablama mərkəzi **Şamil Əliabbas oğlu Səmədzadə– Hesablama Mərkəzinin müdiri** | 177 | 1 | 9 |
| | **Cəmi:** | **401** | **3** | **55** |

1979-cu ildə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında ETİİ-nin fəaliyyəti, institut əməkdaşlarının əməyinin effektivliyinin və yaradıcılıq fəallığının yüksəldilməsinə, planlaşdırmanın təcrübə ilə əlaqəsinin möhkəmləndirilməsinə, inkişaf etmiş sosialist cəmiyyətinin vacib iqtisadi problemləri üzrə elmi tədqiqatların aparılmasına təşəbbüslərin və məsuliyyətin gücləndirilməsinə istiqamətləndirilmişdi.

Respublikanın xalq təsərrüfatının planlaşdırılmasının və iqtisadiyyatın daha aktual problemlərinin tədqiqata cəlb edilməsi, planlaşdırmanın təcrübə ilə əlaqəsinin gücləndirilməsi və onun elmi əsaslandırılmasının artırılması üçün və institutun elmi potensialını bu istiqamətlərdə cəmləşdirmək məqsədi ilə tədqiqatların mövzusuna yenidən baxılmışdı.

Respublika əhalisinin həyat səviyyəsinin yüksəldilməsi və sosial-iqtisadi inkişafın uzunmüddətli problemləri, demoqrafiya və əmək ehtiyatları, maddi istehsal sahələrinin səmərəli inkişafı və xalq təsərrüfatı proporsiyalarının optimallaşdırılması, ətraf mühitin qorunması və təbii ehtiyatlardan kompleks istifadə, respublika ərazi və sahələrarası əlaqələrin effektivliyini artırmaq, xalq təsərrüfatının idarəetmə mexanizmini təkmilləşdirmək, kapital qoyuluşu, əsas fondlar, böyük şəhərlərdə tez xarab olan kənd təsərrüfatı məhsullarının satışını stimullaşdırmaq üzrə tədqiqatlar nəzərə çarpacaq dərəcədə genişləndirilmişdi.

İnstitutun əsas elmi istiqamətlərinə uyğun olmayan kiçik, perspektivsiz, az aktual mövzularının tematik plandan çıxarılması yolu ilə tədqiqatların çox mövzululuğu aradan qaldırılmışdır.

Xalq təsərrüfatının idarə edilməsi və təsərrüfat mexanizminin təkmilləşdirilməsi, respublika aqrar-sənaye inteqrasiyası, buraxılan məhsulun keyfiyyəti, ictimai istehsa-lın effektivliyinin artırılması problemlərinin tədqiqi diqqət mərkəzində olmuşdur.

SSRİ Elmlər Akademiyası, SSRİ Nazirlər Sovetinin Elm və Texnika üzrə Dövlət Komitəsi və SSRİ Nazirlər Sovetinin Dövlət Plan Komitəsi tərəfindən, eyni zamanda, ETİ-nin əlaqələndirmə planı ilə təsdiq edilmiş, 1976-1980-ci illərdə ictimai və təbiət elmləri üzrə elmi tədqiqatların planına müvafiq olaraq Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında ETİİ-də“Elmi-texniki tərəqqi və onun 2000-ci ilə qədər olan perspektiv dövr üçün sosial-iqtisadi nəticələrinin kompleks proqramı” hazırlanmış, SSRİ Elmlər Akademiyası və SSRİ Elm və Texnika üzrə Dövlət Komitəsi tərəfindən bəyənilmiş və Moskva şəhərində nəşr edilmişdir.



АКАДЕМИЯ НАУК СССР ГОСУДАРСТВЕННЫЙ КОМИТЕТ СССР ПО НАУКЕ И ТЕХНИКЕ

Для служебного пользования
Экз. № 111-1 1607

КОМПЛЕКСНАЯ ПРОГРАММА НАУЧНО-ТЕХНИЧЕСКОГО ПРОГРЕССА И ЕГО СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИХ ПОСЛЕДСТВИЙ НА ПЕРСПЕКТИВУ ДО 2000 ГОДА

Материалы, обоснования и расчеты к сводному документу

Том 22

ДЕМОГРАФИЯ. РАЦИОНАЛЬНОЕ ИСПОЛЬЗОВАНИЕ ТРУДОВЫХ РЕСУРСОВ

(Приложения)

Москва, январь 1979 г.

ОГЛАВЛЕНИЕ


Стр.

ВВЕДЕНИЕ . . . . . . . . . . 6

ЧАСТЬ I

I.I. СОВРЕМЕННАЯ ДЕМОГРАФИЧЕСКАЯ СИТУАЦИЯ В СССР

I.I.1. Здоровье населения и смертность . . . . . . 23

I.I.2. Охрана труда . . . . . . . . . . 33

I.I.3. Проблемы рождаемости . . . . . . . . . . III

I.I.4. Проблемы миграции и расселения населения . . 143

I.2. ВОПРОСЫ АКТИВНОЙ ДЕМОГРАФИЧЕСКОЙ ПОЛИТИКИ . . . . 189

I.3. ПРОГНОЗ ОБЩЕЙ ЧИСЛЕННОСТИ НАСЕЛЕНИЯ . . . . . . . 215

I.4. РАЦИОНАЛЬНОЕ ИСПОЛЬЗОВАНИЕ ТРУДОВЫХ РЕСУРСОВ ДО 2000 ГОДА . . . . . . . . . . 223

I.5. ЗАДАЧИ НАУЧНЫХ ИССЛЕДОВАНИЙ В ОБЛАСТИ ДЕМОГРАФИИ . 293

ЧАСТЬ II.

Приложение № I ТЕРРИТОРИАЛЬНЫЕ РАЗЛИЧИЯ В ТЕНДЕНЦИЯХ ВОСПРОИЗВОДСТВА НАСЕЛЕНИЯ СССР . . . . . . . . . . 305

ЧАСТЬ III.

Приложение № 2 СОВРЕМЕННАЯ ДЕМОГРАФИЧЕСКАЯ СИТУАЦИЯ, ТЕНДЕНЦИИ ВОСПРОИЗВОДСТВА НАСЕЛЕНИЯ И ТРУДОВЫХ РЕСУРСОВ НА ПЕРСПЕКТИВУ, МЕРОПРИЯТИЯ ДЕМОГРАФИЧЕСКОЙ ПОЛИТИКИ С УЧЕТОМ РЕГИОНАЛЬНЫХ ОСОБЕННОСТЕЙ РЕСПУБЛИК . . . . . . . . . . 355

III.I. РСФСР . . . . . . . . . . 357

III.2. Украинская ССР . . . . . . . . . . 393

III.3. Белорусская ССР . . . . . . . . . . 437

III.4. Узбекская ССР . . . . . . . . . . 459




-304-


III.5. Казахская ССР . . . . . . . . . . 477

III.6. Литовская ССР . . . . . . . . . . 507

III.7. Латвийская ССР . . . . . . . . . . 537

III.8. Киргизская ССР . . . . . . . . . . 555

III.9. Туркменская ССР . . . . . . . . . . 591

III.10. Азербайджанская ССР . . . . . . . . . . 609

ЧАСТЬ IV.

Приложение № 3. МЕРОПРИЯТИЯ ДЕМОГРАФИЧЕСКОЙ ПОЛИТИКИ, В ЕВРОПЕЙСКИХ СОЦИАЛИСТИЧЕСКИХ И В НЕКОТОРЫХ РАЗВИТЫХ КАПИТАЛИСТИЧЕСКИХ СТРАНАХ . . . . . . . . . . 639

Приложение № 4. ПРОБЛЕМЫ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ ИСПОЛЬЗОВАНИЯ ТРУДОВЫХ РЕСУРСОВ В НАРОДНОМ ХОЗЯЙСТВЕ СОЦИАЛИСТИЧЕСКИХ И КАПИТАЛИСТИЧЕСКИХ СТРАН . . . . . . . . . . 671

Приложение № 5. ПРОБЛЕМЫ ТРУДОВОГО ИСПОЛЬЗОВАНИЯ НАСЕЛЕНИЯ В ПОЖИЛОМ ВОЗРАСТЕ . . . . . . . . . . 715

Приложение № 6. МЕТОДИКА АНАЛИЗА БЕЗОПАСНОСТИ ОБОРУДОВАНИЯ, ПРЕДПОЛАГАЕМОГО К ИСПОЛЬЗОВАНИЮ В НАРОДНОМ ХОЗЯЙСТВЕ И ПРОЕКТ ПРОГРАММЫ РАБОТ НА 1981-1985 гг. ПО РЕШЕНИЮ НАУЧНО-ТЕХНИЧЕСКОЙ ПРОБЛЕМЫ "РАЗРАБОТАТЬ И ВНЕДРИТЬ МЕТОДЫ И СРЕДСТВА, ОБЕСПЕЧИВАЮЩИЕ ДАЛЬНЕЙШЕЕ ПОВЫШЕНИЕ БЕЗОПАСНОСТИ И ОЗДОРОВЛЕНИЯ УСЛОВИЙ ТРУДА В НАРОДНОМ ХОЗЯЙСТВЕ" . . . . . . . . . . 737

Список использованных материалов . . . . . . . . . . 772

Список ученых и специалистов, принявших активное участие в подготовке тома 19 "Демография, рациональное использование трудовых ресурсов" . . . . . . . . . . 780

Список организаций, принявших активное участие в подготовке тома 19 "Демография, рациональное использование трудовых ресурсов" . . . . . . . . . . 783


-780-

СПИСОК
ученых и специалистов, принявших активное участие в подготовке тома 19 "Демография, рациональное использование трудовых ресурсов".

ЧАСТЬ I.

Введение, разделы I.I.I., I.I.3., I.2., I.3., I.5., - чл.корр. АН СССР Т.В.Рябушкин (ИСИ АН СССР), к.э.н. В.Г.Костаков (НИЭИ при Госплане СССР); д.э.н. Б.Ц.Урланис (ИЭ АН СССР); д.э.н. Боярский А.Я., к.э.н. Волков А.Г., к.ф-м.н. Андреев Е.М., к.э.н. Вишневский А.Г. (НИИ ЦСУ СССР); д.м.н. Бедный М.С., к.э.н. Силина З.Д. (отдел социальной гигиены и организации здравоохранения Минздрава РСФСР); к.э.н. Галецкая Р.А., д.э.н. Бреев Б.Д. (ЦЭМИ АН СССР); д.м.н. Мокеров И.П. (ИЭ УНЦ АН СССР); к.э.н. Титевосов Г.В. и д.г.н. Хорев Б.С. (МГУ); к.э.н. Стешенко В.С. (ИЭ АН Укр. ССР).

Раздел I.I.2. и Приложение №6 - к.т.н. Фомин В.Ф. (ГКНТ), к.т.н. Семенов А.П., Бурдуцкий И.Н., Купчин А.П. (ВЦСПС); Бабокин И.А. (Госгортехнадзор), чл.-корр. АН СССР Ржевский В.В., к.т.н. Цуцков М.Е. (Ин-т охраны труда), д.э.н. Григоровский А.Н. (Академия общественных наук при ЦК КПСС); д.м.н. Измеров Н.Ф. (Ин-т гигиены труда и профзаболеваний АМН СССР), Петрова А.М. (Минздрав СССР), д.м.н. Корбакова А.И., Кученко Д.И. (МВД СССР), Тесленко Г.П. (ВНИИ противопожарной обороны МВД СССР).

Раздел I.I.3.2. - к.э.н. Дарский Л.Е., Бондарская Г.А. (НИИ ЦСУ СССР)

Раздел I.I.3.3. - к.и.н. Ямкова З.А. (ИСИ АН СССР).



-781-

Раздел I.I.4.I. – д.э.н. Рыбаковский Л.Л. (ИСИ АН СССР)

Раздел I.I.4.2. – д.г.н. Хорев Б.С. (МГУ)

Раздел I.I.4. – к.э.н. Романенкова Г.М., к.г.н. Голован Е.А., Чистякова Н.Е. (ИСЭП АН СССР)

Раздел I.3. и I.4. – к.э.н. В.Г.Костаков, к.э.н. Л.С.Чижова, к.э.н. Т.П.Сергеева, к.э.н. Ю.М.Евсиков, к.э.н. А.Д.Колесниченко (НИЭИ при Госплане СССР).

ЧАСТЬ II.

Приложение № I. к.э.н. Тетеросов Р.В., к.э.н. Р.С.Ротова, к.э.н. И.Н.Рыжкова, к.и.н. Е.С.Самойлова, Н.Б.Баркалов, (МГУ).

ЧАСТЬ III.

Приложение № 2.

III.I. РСФСР – д.э.н. Б.Ц.Урланис ( ИЭ АН СССР)

III.2. Украинская ССР – д.э.н. В.В.Оникиенко, И.В.Белозовь, В.А.Волосомирова, к.э.н. М.В.Прокогин (СОПС АН Укр.ССР).

III.3. Белорусская ССР – к.э.н. А.А.Раков (НИИЭМП при Госплане БССР)

III.4. Узбекская ССР – д.э.н. Убайдуллаева Р.А., к.э.н. Муртазаева Р.Б., к.э.н. Мусаева Т.Б., к.э.н. Якубова К.М. к.э.н. Галкин В.Н. ( ИЭ АН Уз.ССР)

III.5. Казахская ССР – к.э.н. Л.А.Квон (ИЭ АН Каз.ССР)

III.6. Литовская ССР – к.э.н. В.И.Якушкявичус, к.э.н. В.В.Станкунене ( ИЭ АН Лит.ССР)

III.7. Латвийская ССР – к.э.н. П.Эглите (ИЭ АН Латв.ССР), к.т.н. С.Л.Соломонов (ЦНИИ РМИ), Э.К. Витолиньш (ЦСУ Латв.ССР)

-782-

III.8. Киргизская ССР – д.э.н. Е.П.Чернова ( ИЭ АН Киргизской ССР), к.э.н. Л.А.Фомина (НИИЭМП при Госплане Кирг.ССР), к.э.н. А.Ербенбаев (НИИЭМП при Госплане Кирг.ССР)

III.9. Туркменская ССР – к.э.н. М.О.Оразгельдыев (ИЭ АН Турк.ССР)

III.10. Азербайджанская ССР – д.э.н. Мурадов Ш.М., Газелова А.К., Раев М.А., Гамзаян Г.С. (ИЭ АН Азер.ССР), к.э.н. Кулиев Д.Б., к.э.н. Мамедов К.В., к.э.н. Байрамов Е.Б., Гусейнов Е. (НИИЭ при Госплане Азерб.ССР)

ЧАСТЬ IУ.

Приложение № 3. – к.э.н. Галецкая Р.А., к.э.н. Зайцев В.А. Королева Н.А., (ЦЭМИ АН СССР); Соловьева Л.И. (ИМЭМО АН СССР).

Приложение № 4. – к.э.н. Дегтярь Л.С. (ИЭМСС АН СССР), к.э.н. Бушмарин И.В. (ИМЭМО АН СССР)

ЧАСТЬ У.

Приложение № 5. – д.э.н. Сонин М.Я., к.э.н. Дайнер К.А., ( ИЭ АН СССР), к.ф.н. Шапиро В.Д. (ИСИ АН СССР), к.э.н. Новицкий А.Г. (ЦНИЛТР Госкомитета по труду при СМ РСФСР).

В подготовке материалов принимали участие Л.И.Шурыгина, С.В.Кулешов (ЦЭМИ АН СССР), Т.Н.Арсентьева ( ИСИ АН СССР), к.э.н. Р.С.Черезова (ВГУ)

1979-cu ildə 11 əsas mövzunun, o cümlədən 43 sərbəst ETİ-nin işlənib hazırlanmasını nəzərdə tutan qarşılıqlı əlaqəli 5 kompleks problem üzrə tədqiqat aparılmışdır. 1979-cu ildə “İnkişaf etmiş sosializmdə istehsal münasibətlərinin təkmilləşdirilməsi və kommunizmin maddi-texniki bazasının yaradılmasının nəzəri problemləri” mövzusunun işlənib hazırlanması davam etdirilmişdir. Bu problemin tədqiqat işi iki kompleks mövzu çərçivəsində aparılmışdır. “İctimai istehsalın intensivləşdirilməsinin və effektivliyinin yüksəldilməsi yolları və inkişaf etmiş sosialist iqtisadiyyatında proporsiyanı təkmilləşdirmək” mövzusu üzrə hesabat ilində “Yığım fondunun dəyişilməsinin əsas meyilləri və onun effektivliyinə təsir edən amillər” mərhələsi başa çatdırıldı. Tədqiqat işində yığım fondunun dəyişilməsi meyilləri və formalaşdırılması, proporsiyalar tədqiq edilmiş, dövriyyə vəsaitlərindən istifadə edilməsinin vəziyyəti və onun istehsalın effektivliyinə təsiri təhlil edilmiş, maşınqayırmada fond veriminin dəyişməsinin amillər üzrə təhlili aparılmışdır.

“Həyat səviyyəsinin yüksəldilməsi və sosial sahənin inkişaf problemləri” istiqaməti üzrə tədqiqatların nəticələri öz əksini bir neçə kompleks mövzunun işlənməsində tapmışdı. 1981-1985-ci illərdə əhalinin həyat səviyyəsinin yüksəldilməsi və sosial inkişaf sahəsində vəzifələrin həllinin əsas istiqamətlərinə həsr olunmuş kompleks elmi tədqiqatlar (“XI beşillikdə əhalinin həyat səviyyəsinin gələcəkdə yüksəldilməsi üzrə təkliflər”, “Aqrar-sənaye inteqrasiyası şəraitində əmək haqqının stimullaşdırıcı rolunun artırılma-sında əmək məhsuldarlığının artım ehtiyatlarının üzə çıxarılması”) işlənilmişdir.

Adları çəkilən problemlər çərçivəsində həm də kənd yerlərində infrastruktur sahələrinin inkişafının planlaşdırılmasını təkmilləşdirməkdən, böyük şəhərlərdə tez xarab olan kənd təsərrüfatı məhsullarının realizəsinin stimullaşdırılmasını təkmilləşdirməkdən,

Azərbaycan SSR-də kurort komplekslərinin inkişafını formalaşdırmaqdan ötrü təkliflərin işlənib hazırlanması ilə əlaqədar elmi-tədqiqat işləri başa çatdırılmışdır.

1981-1985-ci illərdə və uzaq perspektivdə kadr hazırlığı və təhsilin sosial-iqtisadi problemləri sahəsində respublika tabeçiliyində olan nazirliklər və idarələr üzrə ali və orta ixtisas təhsilli mütəxəssislərə cari və perspektiv tələbatın təyin edilməsi üzrə sahəvi metodik göstərişlər işlənib hazırlanmışdır.

"Texniki peşə təhsili sistemi vasitəsi ilə Azərbaycan SSR sənayesinin ixtisaslı fəhlə kadrlarla təmin edilməsinin vəziyyəti və onun yaxşılaşdırılması yolları" tədqiqat işinin əsas məqsədi sənayenin ixtisaslı fəhlə kadrlarla təmin edilməsinin azalmamasına istiqamətləndirilmiş, müəssisələrə kadrların təhkim edilməsi üzrə dəqiq təkliflər işlənib hazırlanmış, texniki-peşə təhsilli məzunların axıcılığının əsas səbəblərini üzə çıxarmaq və öyrənmək olmuşdur.

"Əhalinin sosial-iqtisadi problemləri" mövzusu iki sərbəst elmi-tədqiqat işi üzrə yerinə yetirilmişdi: "Azərbaycan SSR əhalisinin inkişafının demoqrafik xüsusiyyətləri" və "Əhali məşğulluğunun rasional strukturunun formalaşdırılması yolları". Birinci iş üzrə "Azərbaycan SSR əhalisinin təkrar istehsalının müasir xüsusiyyətləri"ndə əhali artımının dinamikası, əhalinin təbii yerdəyişməsinin formalaşdırılmasının xüsusiyyət-ləri mərhələsi yerinə yetirilmişdir. Miqrasiya və yaşayış məntəqələrinin şəhər tipli qə-səbələrə çevrilməsi hesabına kənd və şəhər əhalisi arasında nisbətin dəyişilməsi meyili və urbanizasiya prosesi də tədqiq edilmiş, eyni zamanda siyahıyaalınmalar arasındakı dövr ərzində respublika əhalisinin cins və yaş strukturunun dəyişilməsi in-kişafı təhlil edilmişdir.

"Əhali məşğulluğunun milli strukturunun formalaşdırılması yolları" işi üzrə tədqiqatların nəticələri praktiki əhəmiyyət kəsb etmiş və elmi maraq doğurmuşdur. Azərbaycan SSR əhalisinin hərəkəti və onun perspektiv sayının materialları əsasında əmək ehtiyatlarının formalaşmasının əsas istiqamətləri və onların xalq təsərrüfatı sahələrində ixtisaslı və əmək tətbiq edilən sahələrdə yerləşdirilməsi problemləri üzə çıxarılmışdır.Göstərilən dövrdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında ETİİ-nin fəaliyyətinin əsas istiqamətlərindən biri uzun dövr üçün Azərbaycan SSR-in məhsuldar qüvvələrinin inkişafı və yerləşdirilməsinin uzunmüddətli iqtisadi proqnozlarının işlənib hazırlanması olmuşdur.

1979-cu ildə institut "1981-1985-ci illərdə SSRİ-nin iqtisadi və sosial inkişafının əsas istiqamətlərinin hazırlanması","1990-cı ilə qədər olan dövrdə SSRİ-nin iqtisadi və sosial inkişafının əsas istiqamətləri layihəsinin işlənib hazırlanmasının başa çatdırılması müddəti və qaydaları haqqında" Sov. İKP MK-nın və SSRİ Nazirlər Sovetinin 1978-ci il 10 iyul tarixli 573 saylı qərarı, SSRİ Dövlət Plan Komitəsinin 1978-ci il 28 iyul tarixli 108 saylı qərarı və Azərbaycan KP MK-nın, Azərbaycan SSR Nazirlər Sovetinin 1978-ci il 8 avqust tarixli 276 saylı qərarının icrası üçün 2000-ci ilə qədər uzunmüddətli perspektivdə Azərbaycan SSR-nin iqtisadiyyatının inkişafının əsas istiqamətləri layihəsini işləyib hazırladı və "Sxem"in göstəricilərinin dəqiqləşdirilməsi və işin başa çatdırılmasını həyata keçirdi. "1981-1985-ci illərdə və uzaq perspektivdə 2000-ci ilə qədər olan dövrdə bir sıra layihə və elmi-tədqiqat təşkilatlarının işləyib hazırladıqları araşdırmalar əsasında Azərbaycan SSR-in kimya və neft-kimya sənayesinin inkişafı və yerləşdirilməsi, 1961-1980-ci illərdə respublikanın kimya və neft-kimya sənayesinin inkişafına və yerləşdirilməsinə qiymət verilmiş, 1981-1985-ci illərdə bu sahənin inkişafı və yerləşdirilməsinin əsas istiqamətlərinin son variantı işlənib hazırlanmış,

bu parametrlər 1990-cı ilə qədər dəqiqləşdirilmiş və 2000-ci ilə qədər uzaq perspektivdə sahənin inkişafı və yerləşdirilməsinin ilkin variantı əvvəlcədən hazırlanmışdır.

1979-cu ildə kənd təsərrüfatı istehsalının sahələrarası əlaqələrinin tədqiqinin əsas metodiki prinsipləri işlənib hazırlanmış, müttəfiq respublikalarda planlaşdırmanın təkmilləşdirilməsinin nəzəri əsasları aşkara çıxarılmış, sahələrarası komplekslərin formalaşdırılmasına, sahələrarası əlaqələrin möhkəmliyinə qiymət verilmişdir.

"Azərbaycan SSR-in regionlararası və respublikadaxili iqtisadi əlaqələrinin proq-nozu və təhlili" mövzusu üzrə tədqiqat, əsasən, iki istiqamətdə aparılırdı (başlanğıc-1979-cu il; son-1980-ci il):

- son on il ərzində regionlararası əlaqələrin sahəvi strukturunun və dinamikasının öyrənilməsi;
- Azərbaycanda mövcud olan ərazi əlaqələrinin effektivliyinin müəyyən edilməsi.

Bu tədqiqat işi 1978-ci ildə aparılan fasiləsiz yoxlanmalar yolu ilə əldə edilmiş böyük həcmli material əsasında yerinə yetirilmişdir. 1979-cu ildə Azərbaycanın regionlararası və respublikadaxili iqtisadi əlaqələrinin müasir vəziyyətinin dəqiq təhlili aparılmışdır. Respublikadaxili və maddi əlaqələri təhlilinin məqsədi həm respublikanın iqtisadi rayonları arasında, həm də "Azərbaycan SSR və müttəfiq respublikalar arasında idxal və ixrac məhsullarının sahəvi və ərazi strukturunun tədqiqi, respublika iqtisadiyyatının inkişafında idxal və ixracın rolunun müəyyən edilməsi olmuşdur ki, bu da xalq təsərrüfatının ixtisaslaşdırılma səviyyəsini və Azərbaycanın ictimai əməyinin ümumittifaq bölgüsündə iştirakını üzə çıxarmağa imkan verirdi.

SSRİ Dövlət Plan Komitəsinin məktubuna və Azərbaycan SSR Dövlət Plan Komitəsinin qərarına müvafiq olaraq institut 1977-ci, 1980-ci, 1985-ci və 1990-cı illərdə natural ifadədə sahələrarası balansların işlənib hazırlanması üzrə intensiv tədqiqatlar aparırdı.

Natural ifadədə sahələrarası balansın işlənib hazırlanmasında məqsəd vacib sahələrarası əlaqələrin konkretləşdirilməsi və detallaşması yolu ilə sahələrarası modellərin tərtib edilməsində daha effektiv metodların yaradılması, dəyər və natural ifadədə xalq təsərrüfatının inkişafının əsas göstəricilərinin hesablanmasının vahid qarşılıqlı əlaqəli sisteminin yaradılması idi.

1979-cu ildə institut "Ehtiyatların perspektiv qiymətləndirilməsi və xalq təsərrüfatının təbii ehtiyatlarla təmin edilməsi, onların ətraf mühitin mühafizəsi və ehtiyatların növləri üzrə rasional istifadəsinin problemləri" kompleks mövzusu çərçivəsində "Ətraf mühitin mühafizəsi və təbii ehtiyatların rasional tədqiqinin planlaşdırılması problemi"nin işlənib hazırlanmasını davam etdirdi. ETİ-nin tematik planına müvafiq olaraq bu mövzu üzrə aşağıdakıları tədqiq etmək nəzərdə tutulurdu:

-"Azərbaycan SSR-də termal sulardan kompleks istifadə problemləri";

-"Azərbaycan SSR-də su ehtiyatlarının kompleks istifadəsinin iqtisadi problemləri və onun effektivliyinin yüksəldilməsi";

-"Azərbaycan SSR-də ətraf mühitin qorunmasının sosial-iqtisadi problemləri (su və hava hövzələri)".

Həmin ildə birinci iş üzrə "Azərbaycan SSR-də termal sulardan istifadə etmək üçün ilkin şəraitdə vəziyyətin qiymətləndirilməsi" mərhələsi yerinə yetirilmişdir. Aparılan təhlil göstərmişdir ki, dərin termal sulardan istifadənin üstünlüyü hər şeydən əvvəl onun tətbiqinin

texnoloji sxeminin sadə olmasından və az həcmdə əlavə kapital qoyuluşundan istifadə edilməsidir.

Azərbaycan SSR-də termal sular kifayət qədər geniş yayılmışdır, lakin onlardan istifadə etmək son dərəcə qeyri-məqbuldur, bunun əsas səbəbi onların öyrənilməsinin aşağı səviyyədə olmasıdır. İkinci iş Azərbaycan SSR-in kənd təsərrüfatında suya tələbatı tədqiq etməyə və onun səmərəli istifadə yollarının işlənib hazırlanmasına həsr edilmişdi.

Ətraf mühitin qorunması problemlərinin həllinin son dərəcə vacib əhəmiyyətini nəzərə alaraq, 1979-cu ildə ətraf mühitin keyfiyyətinin müasir vəziyyəti məsələləri tədqiq edilmiş və perspektivdə Azərbaycan SSR-də ətraf mühitin mühafizəsi üzrə konsepsiyaların əsas qaydaları işlənib hazırlanmışdır.

1979-cu ildə Hesablama Mərkəzi, 1976-1985-ci illərdə layihə işlərinə və elmi-tədqiqat işlərinin əlaqələndirmə planına əsasən Azərbaycan SSR Dövlət Plan Komitəsi səviyyəsində birinci mərhələdə kompleks vəzifələri realizə etməyə və onların həm kəmiyyət, həm də keyfiyyət cəhətdən gələcəkdə artırılmasına şərait yaratmağa imkan verən, ikinci növbənin plan hesablanmalarının avtomatlaşdırılmış sisteminin birinci mərhələsinin işlənib hazırlanmasını davam etdirmişdir.

Metodik təminat üzrə bu işlər yerinə yetirilmişdir: Azərbaycan SSR-in PHAS ikinci növbəsinin layihələşdirilməsi tapşırığı üzrə işlərin qalan hissəsi tamamlandı. Tapşırıq Azərbaycan SSR Dövlət Plan Komitəsinin PHAS ikinci növbəsinin onun fəaliyyəti zamanı təmin etməyin əsas tələblərini özündə birləşdirmişdi.

Layihələşdirmə tapşırığında Azərbaycan SSR PHAS birinci növbəsinin qəbulu üzrə idarələrarası komissiyanın əsas təklifləri və nəticələri, eyni zamanda müttəfiq respublikaların və SSRİ Dövlət Plan Komitəsinin PHAS ikinci növbəsinin layihələşdirilməsi məsələləri üzrə ümumittifaq müşavirələrinin tövsiyələri nəzərə alınmışdır.

1979-cu ildə elmi-tədqiqat işləri planı ilə nəzərdə tutulmuş problem və mövzuların yerinə yetirilməsi ilə yanaşı, institutun fəaliyyətində plandan kənar materialların hazırlanması əhəmiyyətli yer tutmaqda davam edirdi. İnstitutun plandan kənar yerinə yetirdiyi göstəriş və tapşırıqların miqyasını onunla təyin etmək olar ki, bu dövrdə institutun kollektivi Azərbaycan SSR xalq təsərrüfatının inkişafının vacib sosial-iqtisadi vəzifələri üzrə, yerinə yetirilən planlı və plandan kənar işlər və göstərişlərin nəticələri üzrə direktiv orqanlara və Azərbaycan SSR Dövlət Plan Komitəsinə praktik istifadə üçün 60-a yaxın elmi arayış, informasiya vərəqəsi və təkliflər hazırlamış və təqdim etmişdir. Bu materiallar ictimai istehsalın gələcək effektivliyinin artırılması və respublikanın sosial-iqtisadi inkişafı üzrə aktual problemlərin həlli üzrə tədbirlərin işlənib hazırlanmasına xidmət edirdi və konkret tədqiqatlar bazasında hazırlanırdı.

Plandan kənar işlərin böyük hissəsi ağır sənaye sahələrinin proqnozlaşdırılması, iqtisadiyyatın və xalq təsərrüfatının planlaşdırılması problemləri şöbəsi tərəfindən yerinə yetirilirdi (şöbə müdiri i.e.n. Sabir Səfərov). Bu işlər arasında Azərbaycan SSR Dövlət Plan Komitəsinin tapşırığı ilə aşağıdakı işlər yerinə yetirilmişdir:

- elektroenergetikada, neft-qazçıxarmada, neft emalı sənayesində, qara və əlvan metallurgiya, kimya və neft-kimya sənayesi və maşınqayırmada plan nizam-intizamının möhkəmləndirilməsi üzrə təkliflər;

- Abşeron yarımadasında yeni quyuların qazılmasının faydalılığı haqqında arayış Azərbaycan SSR Dövlət Plan Komitəsinin neft-qazçıxarma sənayesi şöbəsinin tapşırığı üzrə yerinə yetirilmişdi;
- 1980-ci ilə qədər olan dövrdə Azərbaycan SSR-də məqsədli istiqamətlər üzrə mövcud yanacaq-enerji ehtiyatlarında kommunal-məişət ehtiyaclarına tələbatın hesablanması.

İnstitutun struktur bölmələri tərəfindən Azərbaycan SSR Dövlət Plan Komitəsinin tapşırığı ilə 1979-cu il ərzində plandan kənar 19 iş hazırlanıb verilmişdir.

Bundan başqa, institutda əmək ehtiyatlarından səmərəli istifadə edilməsi problemlərinin tədqiq edilməsi üzrə iş davam etdirilirdi (təkrar istehsal və ixtisaslı kadr hazırlığının planlaşdırılmasının təkmilləşdirilməsi problemləri şöbəsi (şöbə müdiri i.e.n., b.e.i. Cəlil Bahadur oğlu Quliyev). Azərbaycan SSR Ali Sovetinin tapşırığı ilə Şamxor (indiki Şəmkir) rayonunda əmək ehtiyatlarından istifadənin vəziyyəti öyrənilmiş və əmək-qabiliyyətli əhalinin, xüsusən kənd yerlərində onların məşğulluğunun hesablanmasının düzgün olmaması üzə çıxarılmışdır. Tədqiqatların nəticələri belə qərara gəlməyə imkan vermişdir ki, bu rayon üçün kadr axıcılığı xarakterik haldır. Təqdim edilmiş arayış 1979-cu ilin mart ayında Azərbaycan SSR Ali Sovetinin Rəyasət heyətində müzakirə edilmiş və müvafiq Qərar qəbul edilmişdir.

Respublika Dövlət Plan Komitəsinin rəhbərliyinin göstərişi əsasında əsaslı tikinti və onun maddi-texniki bazasının inkişafı üzrə ("İqtisadiyyat və xalq təsərrüfatının planlaşdırılması, tikinti, tikinti-sənaye və tikinti materialları sənayesi problemləri" şöbəsi (şöbə müdiri Eldar Sirac oğlu Nuriyev)) materiallar hazırlanmış, yarımçıq işlər başa çatdırılmış və direktiv orqanlara təqdim edilmişdir.

Xalq istehlakı mallarının artan miqyasını və onun effektivliyinin, keyfiyyətinin gələcəkdə artırılmasını nəzərə alaraq, institut tərəfindən "Xalq istehlakı malları istehsalı, sahələrin proqnozlaşdırılması və iqtisadiyyatın və xalq təsərrüfatının planlaşdırılması problemləri" şöbəsi (şöbə müdiri Alıcan Bayraməli oğlu Abbasov) hazırlanan elmi materiallar yuxarı orqanlara təqdim edilmişdir:

- 1990-cı ilə qədər olan perspektivdə Azərbaycan SSR konserv və çay sənayesi müəssisələrinin inkişafı və yerləşdirilməsi haqqında iş Azərbaycan SSR Dövlət Plan Komitəsinin kollegiyasında 1979-cu ilin may ayında müzakirə edilmiş və bəyənilmişdir;
- Xalq istehlakı malları istehsal edən sahələrdə istehsalın və məhsulun keyfiyyətinin təşkilati-texniki səviyyəsinin artırılmasının əsas istiqamətləri. Məruzədə 1970-1979-cu illərdə respublikanın yüngül, yeyinti, meşə, ağacemalı, yerli sənayedə istehsalın və məhsulun keyfiyyətinin təşkilati-texniki səviyyəsinin artırılması istiqamətləri nəzərdən keçirilmişdir.

İnstitut dissertasiyaların müdafiəsində da aparıcı təşkilat kimi çıxış etmiş, avtoreferatlara rəylər verilmiş, daxil olan materiallara resenziya hazırlamışdır. Həmin il institutda elmi konfransların, simpoziumların və müşavirələrin keçirilməsinə və onlarda iştirak etməyə böyük diqqət verilirdi.

1979-cu ilin may ayında institutda regional iqtisadiyyatın effektivliyinin artırılması problemi üzrə respublikalararası konfrans keçirildi. Bu konfransda 11 müttəfiq respublikadan onlarla aparıcı alim və mütəxəssislər iştirak etmiş, eyni zamanda konfransın işində SSRİ

Dövlət Plan Komitəsinin ölkənin cənub rayonlarının altşöbəsinin müdiri Y.Q. Koçnev iştirak etmişdir.

İnstitutun əməkdaşları 1979-cu ilin iyununda Azərbaycan KP MK-nın qərarı ilə SSRİ xalq təsərrüfatının inkişafının ilk beşillik planının 50 illiyinə həsr edilmiş respublika elmi-praktik konfransının təşkil edilməsində və keçirilməsində fəal iştirak etmişdilər. İstedadlı gəncləri üzə çıxarmaq və institutun alimlərinin gələcəkdə elmi səviyyəsini artırmaq məqsədi ilə 1979-cu ildə Dadaş Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) ilə birlikdə institut tərəfindən "İctimai istehsalın effektivliyinin artırılması problemləri" üzrə konfrans keçirildi.

Azərbaycan KP MK-nın ictimai istehsal və keyfiyyətin effektivliyinin artırılması problemləri üzrə keçirilən elmi konfransda "Azərbaycan SSR-də məhsulun keyfiyyətinin və effektivliyinin artırılmasının bəzi məsələləri" adlı məruzə ilə institutun direktoru iqtisad elmləri doktoru, professor Fərid Əliqulu oğlu Fərəcov çıxış etmişdir.

Bu ildə institut əməkdaşlarının elmi səviyyəsinin yüksəlməsini təmin etmək məqsədi ilə institutun aparıcı mütəxəssislərinin müttəfiq, respublikalararası və regional elmi müşavirələrin və konfransların işində iştirakı geniş təcrübədən keçirilirdi. Beləliklə, şöbə müdiri Cəlil Bahadur oğlu Quliyev və sektor müdiri Kəmaləddin Veysəl oğlu Məmmədov Brest şəhərində, M.V.Lomonosov adına MDU-nun iqtisad fakültəsinin əhali sakinliyi problemlərinin öyrənilməsi üzrə Mərkəz tərəfindən təşkil edilmiş əhali sakinliyi problemləri üzrə seminarın işində iştirak etdilər; sektor müdiri Süleyman Mirsahib oğlu Qasımov "Sosialist istehsalının idarə edilməsinin təkmilləşdirilməsinin təşkili problemləri" nəzəri seminarda iştirak etdi; Vaqif Hüseyn oğlu Cavadov "Xalq tələbatı malları isteh-salının inkişafı və onuncu beşillikdə ticarətin keyfiyyətinin yaxşılaşdırılması" adlı Ümumittifaq seminarda iştirak etdi; kiçik elmi işçi Eldar Hüseynqulu oğlu Məmmədov "Xalq təhsilinin aktual sosial-iqtisadi problemləri"nə həsr edilmiş, ümumittifaq elmi-praktik konfransın işində iştirak etdi. Kiçik elmi işçi Əmirxan Mehralı oğlu Babaşov SSRİ Dövlət Plan Komitəsi yanında İETİ-də Moskva şəhərində təşkil edilmiş, gənc alimlərin ümumittifaq konfransında "Müasir mərhələdə Azərbaycan SSR-də əhalinin sosial qruplarının həyat səviyyəsinin yaxınlaşdırılması" adlı məruzə ilə çıxış etmişdi.

Redaksiya-nəşriyyat işləri həmin ildə institutda Elmi təşkilati və nəşriyyat işləri sektoru tərəfindən həyata keçirilirdi. Keçən 1979-cu il ərzində həmin sektor tərəfindən 10 çap vərəqi həcmində i.e.d., professor Şamil Əliabbas oğlu Səmədzadənin redaktorluğu ilə "Plan hesablamalarının avtomatlaşdırılmış sistemlərinin yaradılması məsələləri" mövzusunda institutun elmi əsərlərinin XII cildinin I hissəsi, i.e.d., professor Fərid Əliqulu oğlu Fərəcovun və i.e.n. Vahid Cümşüd oğlu Axundovun redaktorluğu ilə "İctimai istehsalın səmərəliliyi və planlaşdırma" adlı elmi əsərlərinin XII cildinin II hissəsi çapdan çıxmışdır.



ВОПРОСЫ СОЗДАНИЯ АВТОМАТИЗИРОВАННОЙ СИСТЕМЫ ПЛАНОВЫХ РАСЧЕТОВ
(Научные труды, том III)
ЧАСТЬ I

Баку - 1979 - Баку





СОДЕРЖАНИЕ




| | | |
|---|---|---|
| Новрузов В.Т., Уаубов Д.А. | Пути улучшения использования производственных мощностей в бытовом обслуживании населения Азербайджанской ССР | 100 |
| Бадалов А.М. | Методика краткосрочного прогнозирования потребности в продукции производственного назначения . . . . . . . . | 106 |
| Ахмедов Р.Г., Ахмедов А.В., Ахмедов С.А. | Моделирование расчетов про[illegible] плана капитальных вложений . . . . . . . . | 114 |
| Касумов С.М., Гусейнов Г.Р. | Организация управления промышленностью в условиях двух- и трехзвенной системы . . . . . . . . . . . . . . | 117 |
| Шерифов Ф.М. | Влияние потока информации на эффективность управления . . . . . . . . | 123 |



ISSN 0136-3948

ГОСПЛАН АЗЕРБАЙДЖАНСКОЙ ССР
НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ ЭКОНОМИКИ

ЭФФЕКТИВНОСТЬ ОБЩЕСТВЕННОГО ПРОИЗВОДСТВА И ПЛАНИРОВАНИЕ
(Научные труды, том XX
часть II)



РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ:

д.э.н., профессор Фараджев Ф.А. (ответственный редактор), к.э.н. Ахундов В.Д. (зам. ответственного редактора), к.э.н. Исмайлов Г.Н., к.э.н. Манафов А.Г., к.э.н. Амирасланов К.Ш.



СОДЕРЖАНИЕ

1980-ci ildə institutun kollektivinin qarşısında duran vəzifələrə müvafiq olaraq, perspektiv sosial-iqtisadi inkişafın aktual problemlərinin idarə edilməsi və planlaşdırılmasının gələcəkdə təkmilləşdirilməsinin vacibliyi haqqında, eyni zamanda SSRİ Nazirlər Sovetinin Elm və Texnika üzrə Dövlət Komitəsi, SSRİ Dövlət Plan Komitəsi tərəfindən təsdiq edilmiş, Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında ETİİ 1976-1980-ci illərdə elmi tədqiqatların planını nəzərə alaraq institut 30 mərhələnin, 48 işin və 15 əsas mövzunun işlənib hazırlanmasını nəzərdə tutan 5 kompleks problemin t ədqiqatını aparmışdı. 1980-ci ildə 24 işin və 22 mərhələnin tədqiqi sona çatdırılmışdı.

1980-ci ildə "Həyat səviyyəsinin yüksəldilm əsi və sosial inkişaf problemləri"nin tədqiqi davam etdirildi. Bu problemlərin tərkibində 3 kompleks mövzu işlənib hazırlandı."Uzaq perspektivdə və 1986 -1990-cı illərdə əhalinin həyat səviyyəsinin yüksəldilməsi sahəsində sosial-iqtisadi vəzifələrin kompleksi" mövzusu üzrə hesabat ilində əlaqələndirmə planına uyğun olaraq "1981-1985-ci illərdə əhalinin həyat səviyyəsinin yüksəldilməsi və sosial inkişafın regional problemləri" işi üzrə tədqiqatlar davam etdirildi və sona çatdırıldı. Əhalinin həyat səviyyəsi, ticarət və məişət xidməti, mənzil təsərrüfatı,

məktəbəqədər uşaq və stasionar tibbi müəssisələrə aid üç bölmə üzrə elmi materiallar hazırlanmışdır.

"1986-1990-cı illərdə və uzaq perspektivdə ixtisaslı kadrların təkrar istehsalının sosial-iqtisadi problemləri" mövzusu "Respublikanın ümumtəhsil məktəbləri üzrə ali və orta təhsilli mütəxəssislərə perspektiv tələbatın hesablanması" adlı üç elmi-tədqiqat işi yerinə yetirildi. Elmi hesabatda, mütəxəssis kadrların artımının, ayrı-ayrı ixtisaslar üzrə kəmiyyət və keyfiyyət dəyişikliklərinin, respublikanın ümumtəhsil məktəblərinin pedoqoji kadrlarla təmin edilməsi səviyyəsinin və s. təhlili verilmişdir.Bu mövzu üzrə, eyni zamanda "1981-1985-ci illərdə Azərbaycan SSR-in texniki-peşə təhsili sisteminin iqtisadi və sosial inkişafının kompleks planı" işi sona çatdırıldı. Həmin elmi hesabatda perspektivdə Azərbaycan SSR-in xalq təsərrüfatının sosial-iqtisadi inkişafının əsas istiqamətlərinə müvafiq olaraq, 1981-1985-ci illərdə Azərbaycan SSR texniki-peşə təhsili sisteminin iqtisadi və sosial inkişafının kompleks planının layihəsi işlənib hazırlanmışdır.

Bu il üç kompleks mövzunun 1) Perspektivdə Azərbaycan SSR-in iqtisadi inkişafının templəri, proporsiyaları və amilləri problemləri; 2) Uzaq perspektivdə və 1986-1990-cı illərdə xalq təsərrüfatı sahələrinin inkişafının sosial-iqtisadi problemləri; 3) Uzaq perspektivdə 1981-1990-cı illərdə aqrar-sənaye komplekslərinin inkişafı və formalaşdırılması problemləri) tədqiqini nəzərdə tutan"Azərbaycan SSR-in xalq təsərrüfatının inkişafının ümumi iqtisadi və sahələrarası problemləri" adlı tədqiqat işi davam etdirilmişdir.

"Perspektivdə Azərbaycan SSR iqtisadi inkişafının amilləri, proporsiyaları və templəri problemləri" mövzusu üzrə 1980-ci ildə əsas fondlardan istifadə edilməsi dinamikasının və maddi istehsal sahələrində onların fayda verməsinin artırılması yollarının tədqiqatı başa çatdırıldı. Elmi hesabatda maddi istehsal, eyni zamanda onun sahələr üzrə bütövlükdə əsas istehsal fondlarının hərəkəti təhlil edilmiş, əsas istehsal fondlarının dinamikası verilmişdir.

"1986-1990-cı illərdə və uzaq perspektivdə xalq təsərrüfatı sahələrinin inkişafının sosial-iqtisadi problemləri" mövzusu əsasında on bir sərbəst elmi-tədqiqat işi üzrə tədqiqat aparılmışdır. Maddi istehsalın və sənayenin vacib sahələrinin inkişafı üzrə təqdim edilən elmi materiallar 1990-cı ilə qədər olan dövr üçün institut tərəfindən yerinə yetirilmiş proqnoz işləmələrinin davamı idi.

"1986-1990-cı illərdə və uzaq perspektivdə Azərbaycan SSR vahid nəqliyyat sisteminin və rabitə vasitələrinin inkişafı" mövzusu üzrə iki sərbəst elmi-tədqiqat işi təqdim edilmişdi. 1980-ci ildə yük daşımalarında dəmiryol və avtomobil nəqliyyatından məqsədəuyğun istifadə sahəsinin tədqiqi başa çatdırıldı. Hesabatda Azərbaycan SSR-in dəmiryol və avtomobil nəqliyyatında yükdaşınmalarının müasir vəziyyəti təhlil edilmişdir.

"Azərbaycan SSR inzibati rayonları üzrə rabitə şəbəkələrinin inkişafının təhlili" adlı ikinci işdə Azərbaycan SSR rabitə müəssisələri şəbəkəsi təhlil edilmiş, istehsal gü-cündən istifadə dərəcəsi, rabitə məhsulunun həcmi və keyfiyyəti müəyyən edilmişdir.Respublika rayonlarında rabitə vasitələrinin inkişafında, eyni zamanda rabitə xidmətlə-rində kənd əhalisinin tələbatının təmin edilməsi dərəcəsinə xüsusi diqqət yetirilmişdir.

"Azərbaycan SSR yüngül sənayesində istehsalın ixtisaslaşdırılması və mərkəzləşdirilməsinin inkişaf problemləri"nin işlənib hazırlanması sona çatmışdır. İşdə Azərbaycan SSR yüngül sənayesində istehsalın ixtisaslaşdırılmasının dərinləşdirilməsinin, mərkəzləşdirilməsinin müasir vəziyyəti tədqiq edilmiş və gələcək inkişafının əsas istiqamətləri göstərilmişdir. Müəssisələrdə və istehsalat birliklərində bir sıra yüngül sənaye

sahələrində ixtisaslaşdırmanın və mərkəzləşdirmənin xüsusiyyətləri üzə çıxarılmışdır. Yüngül sənayenin ayrı-ayrı müəssisələrində istehsalatın ixtisaslaşdırılması işlərini nəzərə almaqla, mövcud əmək və maddi resursların optimal variantlarını müəyyən etmək metodikası təklif edilmişdir.

1980-ci ildə Azərbaycan KP MK-nın birinci katibi Heydər Əlirza oğlu Əliyevin əzmkar təşəbbüsü ilə respublikanın kənd təsərrüfatının gələcək inkişafını hərtərəfli təmin etmək üçün Sov. İKP-nin və SSRİ Nazirlər Sovetinin bir sıra qərarları qəbul edilmişdir. Həmin qərarlara uyğun olaraq Azərbaycan KP MK-nın Plenumlarının, Azərbaycan KP MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin müvafiq qərarları qəbul edilmişdir. Bununla əlaqədar olaraq, o dövrdə ETİİ-də “1981-1990-cı illərdə və uzaq perspektivdə Azərbaycan SSR aqrar-sənaye komplekslərinin inkişafı və formalaşdırılması problemləri” mövzusu üzrə tədqiqat aparılmışdır. Tədqiqatda respublikanın kənd təsərrüfatı inkişafı ilə əlaqədar qarşıya qoyulmuş vəzifələrin müvəffəqiyyətli həlli, aqrar-sənaye inteqrasiyası bazasında heyvandarlıq sahələrinin mərkəzləşdirilməsi, ixtisaslaşdırılması, yerləşdirilməsi, inkişafı və kənd təsərrüfatının inkişafının sahələrarası problemləri əhatə olunmuşdur.

Həmin vaxt institutun fəaliyyətində aparıcı istiqamətlərdən biri “Regional iqtisadiyyat və məhsuldar qüvvələrin yerləşdirilməsi” probleminin işlənib hazırlanması idi. Bu problem üzrə institut tərəfindən aşağıdakı kimi beş sərbəst elmi-tədqiqat işinin işlənib hazırlanmasını nəzərdə tutan “Azərbaycan SSR məhsuldar qüvvələrinin inkişafının ərazi proporsiyasının təkmilləşdirilməsi problemləri” kompleks mövzunun tədqiqi davam etdirilmişdi:

- Azərbaycan SSR məhsuldar qüvvələrinin yerləşdirilməsinin sosial-iqtisadi problemləri;
- şəhərlərin inkişafının sosial-iqtisadi problemləri və sənaye mərkəzlərinin formalaşdırılması;
- 1981-1985-ci illərdə və uzaq perspektivdə Azərbaycan SSR-in Şəki-Zaqatala iqtisadi rayonunun müasir vəziyyətinin qiymətləndirilməsi və inkişaf perspektivləri;
- respublika tabeçiliyində olan şəhərlərin sosial və iqtisadi inkişafının uzunmüddətli planlarının işlənib hazırlanması;
- Azərbaycan SSR-in məhsuldar qüvvələrinin mövcud ərazi təşkilatlarının qiymətləndirilməsi və 1976-2000-ci illərdə respublikanın iqtisadi rayonların inkişaf perspektivləri (Quba-Xaçmaz iqtisadi rayonu).

1980-ci ildə 2000-ci ilə qədər daha dəqiq əsaslandırma ilə 1981-1985-ci illər ərzində Azərbaycan SSR məhsuldar qüvvələrinin inkişafı və yerləşdirilməsinin dəqiqləşdirilmiş əsas istiqamətlərinin işlənib hazırlanması başa çatdırıldı. Bu bölmə üzrə uzunmüddətli dövrdə Azərbaycan SSR məhsuldar qüvvələrinin ərazi təşkilinin gələcəkdə təkmilləşdirilməsi üzrə tövsiyələr və qaydalar təqdim edilmişdir.



ГОСПЛАН АЗЕРБАЙДЖАНСКОЙ ССР
НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ
ЭКОНОМИКИ

Для служебного пользования
Экз. №000051

ПРОЕКТ

СХЕМА
РАЗВИТИЯ И РАЗМЕЩЕНИЯ
ПРОИЗВОДИТЕЛЬНЫХ СИЛ
АЗЕРБАЙДЖАНСКОЙ ССР НА ПЕРИОД
ДО 2000 ГОДА

БАКУ—1980



Издается
по решению Ученого совета НИИЭ при Госплане
Азербайджанской ССР от 16/IУ-1980г. по
согласованию с руководством Госплана республики









ва Н.Г., Байрамова А.А., Гаджиева Т.Ш., Гасанова Т.А., Гоьиба И.Н., Гулиян Н.Е., Гусейнов И.Г., Гусейнова Т.Г., Дюрина Л.И., Дмитриенко Л.И., Ибрагимова Э.М., Ибрагимов И.О., Искендерова С.М., Искендеров Ф.А., Исмайлов К.М., Каримов Н.М., Касумлы А.Б., Керимов З.М., Керимов Д.Т., Мамедиров М.Г., Мамедов З.Г., Мамедов Ф.А., Мамедова Т.М., Меликян Н.Н., Мусаев Т.Г., Смирнова Х.И., Радинская Л.А., Салимов Р.м., Тадждинов Р.Ф., Фомина В.Г., Хасаева А.И., Хаятов Б.М., Шарафетдинова Р.М.

Систематизация и обобщение отраслевых и территориальных табличных материалов осуществлены сотрудниками сектора сводных проблем размещения производительных сил под руководством к.э.н. С.А. Ибрагимовой.

Работа подготовлена к изданию сотрудниками редакционно-издательской группы: Т.А.Кузнецовой, Н.Г.Иоаннесяном, М.С.Зазровой, Ш.М.Мамафовой.

В связи с тем, что в НИИЭ при Госплане Азербайджанской ССР продолжается работа по дальнейшему уточнению основных направлений социально-экономического развития республики на долгосрочную перспективу, институт просит научные и проектные организации сообщить свои отзывы, замечания и пожелания по адресу: 370602, г.Баку, ГСП Октябрьская, ул.Азизбекова 88"а", НИИЭ при Госплане Азербайджанской ССР.

6



СОДЕРЖАНИЕ


Предисловие 3

Глава I. Концепция и синтетические показатели социально-экономического развития Азербайджанской ССР до 2000 года 7

§ 1. Концепция социально-экономического развития Азербайджанской ССР 7

§ 2. Методические принципы долгосрочного прогноза социально-экономического развития союзной республики 18

§ 3. Перспективная динамика важнейших пропорций развития народного хозяйства 26

§ 4. Основные направления научно-технического прогресса 43

§ 5. Рост народного благосостояния 56

Глава II. Население, трудовые ресурсы и подготовка кадров 66

§ 1. Тенденции демографического развития 66

§ 2. Использование трудовых ресурсов 71

§ 3. Основные направления развития подготовки квалифицированных кадров 77

Глава III. Природные ресурсы и охрана окружающей среды 98

§ 1. Минерально-сырьевые ресурсы 98

§ 2. Охрана окружающей среды и рациональное использование природных ресурсов 108

- охрана и использование водных ресурсов 110

- охрана и воспроизводство рыбных ресурсов 117

- охрана воздушного бассейна 117

- охрана редких видов растительного и животного мира, создание заповедников национальных парков 118

- рекреационные ресурсы 120

Глава IV. Перспективы развития отраслей народного хозяйства Азербайджанской ССР до 2000 года 122

§ 1. Промышленность 122

- энергетика 122

- нефтегазодобывающая 125

- нефтеперерабатывающая 129

- газоперерабатывающая 130

- черная и цветная металлургия 131





- химическая и нефтехимическая 136

- машиностроение и металлообработка 141

- промышленность строительных материалов 146

- лесная, деревообрабатывающая и целлюлозно-бумажная 150

- стекольная и фарфоро-фаянсовая 152

- легкая 153

- пищевая 158

§ 2. Сельское хозяйство 170

§ 3. Капитальное строительство 182

§ 4. Транспорт и связь 190

§ 5. Отрасли сферы обслуживания 197

- торговля и общественное питание 197

- бытовое обслуживание населения 202

- народное образование 204

- культура 206

- здравоохранение 207

- жилищно-коммунальное хозяйство 208

- курортно-туристское хозяйство 210

Глава V. Территориальные пропорции развития производительных сил Азербайджанской ССР до 2000 года 212

§ 1. Развитие производительных сил внутриреспубликанских экономических районов 212

§ 2. Совершенствование городского расселения 247

Приложения 261

Картосхема структуры внутрирайонной валовой продукции промышленности за 1978 и 2000 годы 512

Neftçıxarma, qazemalı, çini-fayans, tikiş, xalça toxuculuğu və s. sahələrin və respublikanın iqtisadi rayonlarının inkişafı istehsalın ərazi təşkilinin əhəmiyyətli dərəcədə dərinləşməsinə gətirib çıxardı.

Məhsuldar qüvvələrin ərazi yerləşdirilməsinin planlaşdırılmasının təkmilləşdirilməsi və təsərrüfatın kompleks inkişafı, yerli ərazi-istehsalat və aqrar -sənaye komplekslərinin, sənaye mərkəzlərinin istehsalın formalaşdırılmasının ərazi təşkilinin proqressiv formalarının reallaşması əsasında baş verdi.

Bu il eyni zamanda "Azərbaycan SSR sənaye mərkəzlərinin formalaşdırılmasının və şəhərlərin inkişafının sosial-iqtisadi problemləri" işi sona çatdırıldı. İşdə ərazilərdə sənaye sahələrinin formalaşdırılması məqsədi ilə şəhərlərin vəziyyətinə qiymət verilmişdir, müxtəlif böyüklükdə şəhərlər üzrə sosial infrastrukturun və sənaye istehsalının bölüşdürülməsi, şəhər əhalisinin regional fərqliliyi və formalaşmasının xüsusiyyətləri nəzərdən keçirilmişdir.

1981-1985-ci illərdə və uzunmüddətli dövrdə Azərbaycan SSR Şəki-Zaqatala iqtisadi rayonunun inkişaf perspektivləri və müasir vəziyyətinin qiymətləndirilməsi üzrə sifarişçiyə SSRİ Dövlət Mülki Tikinti Komitəsinin Mərkəzi Elmi Tədqiqat Layihə İnstitutuna şəhər tikintisi üzrə təkliflər hazırlanmış və təqdim edilmişdir. Elmi hesabatda əhalinin miqrasiyası və Şəki-Zaqatala iqtisadi rayonunun xalq təsərrüfatının inkişafının vəziyyətinə qiymət verilmişdir. Bundan başqa təbii ehtiyatlardan istifadənin vəziyyətinə qiymət verilmiş, əmək ehtiyatlarının formalaşdırılmasına sosial-iqtisadi amillərin təsirinin tədqiqi, Şəki-Zaqatala iqtisadi rayonunun ictimai istehsalının effektivliyinin gələcək artımının təmin edilməsində onların rolu göstərilmişdir. İqtisadi rayonun mövcud kurort-rekreasiya və maddi-xammal ehtiyatlarına xüsusi diqqət yetirilmişdir.

SSRİ Nazirlər Sovetinin Elm və Texnika üzrə Dövlət Komitəsinin tapşırığı üzrə "Yüksək keyfiyyətli xalq tələbatı mallarının istehsalının iqtisadi stimullaşdırma sisteminin təkmilləşdirilməsi və effektivliyinin artırılması" mövzusu 1978-ci ildə yerinə yetirildi. Elmi işdə, yüngül sənaye mallarının keyfiyyətinin planlaşdırılması sisteminin təkmilləşdirilməsi, keyfiyyətin yüksəldilməsinə müəssisə kollektivinin iqtisadi stimullaşdırma sisteminin təkmilləşdirilməsi üzrə təkliflər, mebel sənayesində məhsulun keyfiyyətinin və texniki səviyyəsinin artırılması üzrə, eyni zamanda xalq tələbatı mallarının inkişaf perspektivləri üçün dəqiq tədbirlər təqdim edilmişdi. Təbii ehtiyatlardan səmərəli istifadənin planlaşdırılması və ətraf mühitin qorunması problemlərinin aktuallığını nəzərə alaraq, institut 1980-ci ildə "1986-1990-cı illərdə və uzaq perspektivdə mineral-xammal ehtiyatlarından səmərəli istifadə və Azərbaycan SSR-də iqtisadi tarazlığı təmin etmək üzrə kompleks vəzifələr" mövzusu üzrə tədqiqat aparmışdır. Bu mövzu üzrə "Kür çayı hövzəsinin su ehtiyatlarından səmərəli istifadə və qorunmanın vəziyyəti" mərhələsi yerinə yetirildi. Su ehtiyatları, onların zaman və məkan daxilində kəmiyyət dəyişiklikləri, xalq təsərrüfatının müxtəlif sahələrində əhalinin, həm Kür çayının bütün hövzələri üzrə, həm də müxtəlif sahələr, Gürcüstan (Şərqi Gürcüstan), Ermənistan və Azərbaycan üzrə istifadəsi haqqında materiallar təhlil edilmiş və ümumiləşdirilmişdi. İşdə vacib və əsas olan çayın yerüstü axınlarının çirkləndirilməsinin vəziyyəti, keyfiyyətinin və onları törədən səbəb və mənbələrin öyrənilməsi idi. Elmi hesabatda qeyd edilirdi ki, su ehtiyatlarının müasir ehtiyatı xalq təsərrüfatının tələbatını təmin etmək üçün hələ də kifayət deyil, suya tələbatın tam ödənilməməsi ilin yay mövsümündə, sudan istifadənin maksimum dövründə baş verir.

Respublikanın sosial-iqtisadi və elmi-texniki tərəqqinin inkişaf tempinin sürətləndirilməsi mərhələsində xalq təsərrüfatının idarə edilməsi probleminin işlənib hazırlanması mühüm əhəmiyyət kəsb edirdi. Bununla əlaqədar olaraq, institut tərəfindən "Elmi-texniki tərəqqinin idarə edilməsinin təşkilinin təkmilləşdirilməsi və Azərbaycan SSR sosial-iqtisadi inkişafında onun rolunun gücləndirilməsi" mövzusu çərçivəsində vacib elmi-tədqiqat işləri tədqiq edilmişdir. Bu mövzu üzrə həmin ildə 4 sərbəst elmi-tədqiqat işi başa çatdırılmışdı.

"Məqsədli proqram metodu tədbiq etməklə regionda elmi-texniki tərəqqinin idarə edilməsinin təkmilləşdirilməsi" işi üzrə elmi hesabat sona yetirildi. Məqsədli proqram metodunun istifadə edilməsi əsasında respublikanın xalq təsərrüfatında faktiki mövcud olan xərclərin strukturu və iqtisadi şəraitdə mövcud xərclərin optimallığa keçidini təmin edən optimal nisbəti üzə çıxarmaq yerinə yetirilən işin əsas məqsədi olmuşdur.

1980-ci ildə Azərbaycan SSR-in vacib iqtisadi problemləri üzrə tematik planla və cari ildə ETİ dövlət planı ilə nəzərdə tutulmuş problem və mövzuların işlənib hazırlanması ilə yanaşı, institut plandan kənar böyük həcmli elmi xarakterli işlər yerinə yetirmişdir. Bu il ərzində institutun yaradıcı kollektivi tərəfindən direktiv orqanlara, Dövlət Plan Komitəsinə və digər əlaqədar təşkilatlara və idarələrə əməli istifadə üçün Azərbaycan SSR-də təsərrüfat və mədəniyyət quruculuğunun təcrübəsi və iqtisad elminin əsas problemləri və onların həlli ilə bağlı yerinə yetirilmiş planlı və plandan kənar işlərin nəticələrinə uyğun olaraq 50-dən çox elmi arayış, məruzə, təklif və tapşırıqlar hazırlanıb təqdim edilmişdi.

Sov.İKP MK-nın 1980-ci il oktyabr Plenumunda ölkənin xalq təsərrüfatı qarşısında duran kənd təsərrüfatı və ona xidmət edən sənaye sahələrinin məsələlərini üzvi surətdə birləşdirə bilən əsas və məsuliyyətli məsələrdən biri də kompleks ərzaq proqramının işlənilməsi idi. İnstitutun kollektivi bu vacib məsələnin həll edilməsi üçün elmi materialların hazırlanıb Azərbaycan SSR Dövlət Plan Komitəsinə təqdim olunmasında bilavasitə iştirak etmişdi. Respublikanın ərzaqla təmin edilməsini səciyyələndirən təhlil cədvəlləri hazırlanmış və həmçinin əsas ərzaq növlərinə tələbatlar (istehlakın səmərəli normaları, onların orta-ittifaq və ittifaq normaları ilə müqayisəsi, qidanın konsepsiyası və s.) əsaslandırıldı.

Həmin il əmək ehtiyatlarından səmərəli və tam istifadə məsələsi çox böyük məna kəsb edirdi, SSRİ və digər müttəfiq respublikalardan fərqli olaraq Azərbaycan SSR-də azad əmək ehtiyatları mövcud idi. Bununla bərabər xalq təsərrüfatının əmək ehtiyatlarına artan tələbatı və ixtisaslaşdırılmış kadr azlığı regionda əmək ehtiyatlarının istifadəsinin xüsusiyyətlərinin tədqiqində xüsusi yanaşmaya ehtiyac yaradırdı. İnstitut buna əsaslanaraq və Dövlət Plan Komitəsinin tapşırığını yerinə yetirmək üçün digər təşkilat və idarələr ilə birlikdə inzibati rayonlarda ictimai istehsalla məşğul olmayan əmək qabiliyyətli əhalinin sayının müəyyənləşdirilməsi üzrə sosioloji tədqiqat həyata keçirdi və Dövlət Plan Komitəsi tərəfindən bəyənilmiş konkret təkliflər işlədi.

"İstehlak malları istehsal edən, iqtisad və xalq təsərrüfatı planlaşdırma məsələləri və sahə proqnozlaşdırma" şöbəsi Azərbaycan SSR Dövlət Plan Komitəsinin tapşırığı ilə son 60 ildə respublikada yüngül sənayenin inkişafını xarakterizə edən elmi materiallar, həmçinin xammal, istehsalat tullantıları və yerli ehtiyatlardan istifadəni yaxşılaşdırma tədbirləri və vəziyyəti, "Bakpivə" təşkilatının işinin nöqsanları, istehsal gücündən istifadənin və malın keyfiyyətinin yaxşılaşdırma tədbirləri barədə elmi arayışlar hazırladı.

Sosial-iqtisadi inkişaf mərhələsində tarazlaşdırılmış xalq təsərrüfatı nisbətinin təmin edilmə məsələsi və bunun əsasında effektiv xalq təsərrüfatı nəticələrinin əldə edilməsi vacib məna kəsb edirdi. Bu problemin tədqiqi idarəetmənin sahə və ərazi prinsiplərinin iqtisadi-riyazi metodlarla və modellərlə uyğunlaşdırılması iqtisad elminin əsas məsələlərindən biri oldu və bilavasitə Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin 1979-cu il 12 iyul tarixli 695 saylı qərarından irəli gəlirdi.

Bunun nəticəsində, sahələrarası və regionlararası əlaqələr şöbəsi tərəfindən Dövlət Plan Komitəsinin kollegiyasına müzakirə üçün "Azərbaycan SSR sahələrarası və rayonlararası modelləri" adlı elmi məruzə hazırlanıb təqdim edilmişdir.

1982-ci il 1 dekabr tarixinə institutun strukturunda 45 sektoru birləşdirən 16 şöbə fəaliyyət göstərmişdir, burada çalışan 264 nəfərin 191 nəfəri elmi işçi, 2 nəfəri elmlər doktoru və 53 nəfəri elmlər namizədi idi. İnstitutun rəhbərliyi 4 nəfərdən ibarət idi. 1982-ci ildə 2 nəfər namizədlik dissertasiyalarını müdafiə etmiş və 4 nəfər namizədlik dissertasiya işini müdafiə üçün təqdim etmişdilər. Həmin ilin sonunda redaksiya kollegiyasının sədri i.e.d. Vahid Cümşüd oğlu Axundovun rəhbərliyi ilə 10 çap vərəqi həcmində "Azərbaycan SSR-də xalqın rifah halının yüksəldilməsinin aktual problemləri" mövzusunda elmi əsərlərinin XV cildi çapdan çıxmışdır.

1983-cü il inkişaf etmiş sosialist iqtisadiyyatının inkişafının əsas mərhələsi sayılırdı. Azərbaycan SSR Dövlət Plan Komitəsində ETİİ-nin kollektivi iqtisad elmi qarşısında duran vəzifələrə və artan tələblərə uyğun olaraq institutun elmi fəaliyyətinin yaxşılaşdırılması, elmi tədqiqatların effektivliyinin və keyfiyyətinin yüksəldilməsi, vaxtı çatmış əsas məsələlərin operativ həlli və iqtisadi inkişaf üzrə tədbirləri ardıcıl həyata keçirirdi.ETİ planına uyğun olaraq həmin il institutun fəaliyyəti 5 əsas iqtisadi problemin 12 kompleks mövzunun işlənilməsini birləşdirən 19 işin, o cümlədən 46 mərhələnin tədqiqinə yönəlmişdi.İnstitut 1983-cü ilə nəzərdə tutulan bütün elmi tədqiqat işlərini tam yerinə yetirmiş-dir. Tədqiqatların nəticələri Elmi şurada müzakirədən və bəyənildikdən sonra Dövlət Plan Komitəsinə və digər direktiv təşkilatlara istifadə üçün təqdim olunmuşdur.

Əhalinin həyat səviyyəsinin yüksəldilməsi proqramının reallaşdırılmasında sosial siyasət iqtisadiyyatla ayrılmaz əlaqədə həyata keçirilirdi. Əhalinin həyat səviyyəsinin sosial aspektlərinin tədqiqi xalq təsərrüfatı planlarının məqsədyönlü istiqamətləndirilməsini təmin etmək üçün böyük əhəmiyyət kəsb edirdi.Bu problemin aktuallığını nəzərə alaraq, təbiət və ictimai elmlər üzrə elmi tədqiqatların planlarına uyğun olaraq 1981-1985-ci illərdə institut "SSRİ və müttəfiq respublikalar üzrə əhalinin, əhali qruplarının, şəhər və kənd əhalisinin normativ istehlak büdcəsi sisteminin işlənilməsi" işinin tədqiqatını aparırdı. Verilmiş işin mərhələlərindən biri "Əhalinin minimum maddi təminatının hesabat büdcəsinin işlənilməsi" (MTMB) idi (icraçılar: Solmaz Əli qızı Mustafayeva və Əmirxan Mehralı oğlu Babaşov). Maddi təminatın minimum büdcəsi (MTMB) əhalinin fərdi gəlirləri hesabına ödənilən lazımi tələbatın minimum səviyyəsini müəyyən edən kompleks göstəriciləri idi. Sosial inkişafın və əhalinin həyat səviyyəsinin yüksəldilməsinin planlaşdırılması təcrübəsində MTMB minimim əmək haqqının, ödənişlərin və imtiyazların istehlakın ictimai fondundan müəyyənləşdirilməsinin əsasını təşkil edirdi.

"1986-1995-ci ill ərə və uzunmüddətli perspektivə Azərbaycan SSR ictimai iaşə və ticarətin kompleks inkişafı problemləri" işi üzrə "1986-1995-ci illərə ictimai iaşə və ticarətin inkişafının regional problemləri" mərhələsi yerinə yetirilmişdir. Verilmiş iş SSRİ Dövlət Plan Komitəsi MQÖŞ tərəfindən hazırlanmış proqrama uyğun olaraq həyata keçirilmişdir. Bu iş 1975-1985-ci illərdə Azərbaycan SSR ictimai iaşə və ticarətin iqtisadi və sosial inkişafının müasir vəziyyətini, 1985-1995-ci illərə ticarətin inkişafı və ictimai iaşənin kompleks qiymətləndirilməsi və əsas istiqamətlərinin təhlilini nəzərdə tuturdu. Respublika əhalisinin ticarət xidmətinin yaxşılaşdırılmasına və xalqın həyat səviyyəsinin yüksəldilməsinə səbəb olan konkret təkliflər tərtib olunmuşdur.

## Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında ETİİ-nin 1983-cü ilə olan ştat cədvəli

















Həmin il “1986-1995-ci illərə Azərbaycan SSR mədəniyyət, səhiyyə və turizm inkişafının regional problemləri” mərhələsilə birlikdə “1986-1995-ci illərə Azərbaycan SSR-də mədəniyyət, səhiyyə və turizmin inkişaf problemləri” işi tam sona yetirilmişdir. İşdə sahələrin inkişafının əsas meyilləri tədqiq edilərək, yuxarıda göstərilən sahələrin inkişafını ləngidən nöqsanlar aşkar olunmuşdur.

“1986-1995-ci və gələcək illərə Azərbaycan SSR-in əmək ehtiyatlarının və əhalinin təkrar istehsalının sosial-iqtisadi problemləri” mövzusunda tədqiqatlar vacib yer tuturdu. Verilmiş mövzu çərçivəsində demoqrafiya sektoru tərəfindən yerinə yetirilən “Ailə inkişafının mükəmməl vəziyyəti” işi maraq doğururdu.

Əhali sakinliyi problemləri içərisində o dövrdə ailənin formalaşmasının xüsusiyyətləri tədqiqatları xüsusi yer alırdı, belə ki, ailə demoqrafik inkişafın xüsusiyyətlərini özündə cəmləşdirən cəmiyyətin ilk sosial-iqtisadi özəyidir. Ölkənin inkişaf mərhələsində ailənin formalaşmasının demoqrafik xüsusiyyətləri tədqiqinin aktuallığı Sovetlər İttifaqında, o cümlədən Azərbaycanın sosial-iqtisadi inkişaf proqramının işlənilməsi və reallaşdırılması ilə əlaqədar get-gedə yüksəlirdi. Qeyd olunmuş elmi tədqiqatın əsas məqsədi 1959-1979-cu illərdə Azərbaycan SSR-də ailənin demoqrafik inkişafının təhlili əsasında perspektivdə ailə sayının və strukturunun proqnozlaşdırılması üçün idi.

“Azərbaycan SSR-də gələcək üçün meşə sənayesinin kompleks inkişafı və yerləşdirilməsinin iqtisadi və elmi-texniki problemləri” işi üzrə həmin il “Azərbaycan SSR-də yüngül sənayedə istehsalın effektivliyinin yüksəldilməsi ehtiyatları” mərhələsi hazırlanmışdı. İş iki fəsildən ibarət idi, birinci fəsildə 1970-1980-ci illərə və on birinci beşilliyin iki ilinə Azərbaycan SSR-də yüngül sənayenin inkişafının təhlili şərh edilmişdir. İstehsal məhsulu planın yerinə yetirilməsi və dinamikası dəyər və natural ifadəylə faktiki materiallar əsasında təhlil olunmuşdur. İşdə məhsulun keyfiyyət növ göstəricilərinə baxılmış və istehsalın gələcəkdə effektivliyinin yüksəldilməsinə aid nəticə və təkliflər verilmişdir.

1983-cü ildə “1986-1995-ci və gələcək illərə məişət xidmətinin və mənzil-kommunal təsərrüfatı inkişafının kompleks problemləri” işi sona yetirildi. “1986-1995-ci illərə məişət xidmətinin və mənzil-kommunal təsərrüfatı inkişafının regional problemləri” mərhələsi işlənilmişdir. Bu elmi işdə iqtisadi və inzibati rayonlar üzrə əhalinin ənənəvi və proqressiv xidmət növlərinə tələbatının ödənilməməsi səbəblərinin təhlili verilmişdir. Burada respublikanın iqtisadi və inzibati rayonlar arasındakı məişət xidməti müəssisələrinin təmin olunma səviyyəsinə görə mövcud ərazi fərqləri göstərilməklə yanaşı, işdə gələcək üçün respublikanın mənzil-kommunal təsərrüfat inkişafının regional xüsusiyyətləri göstəriciləri verilmişdir. Bundan başqa, işdə respublikanın iqtisadi rayonları üzrə əhalinin mənzil ilə təmin

olunmasında differensasiyanın azaldılması yolları və respublikada mənzil tikintisinin artım tempini yüksəltmək yolları göstərilmişdir.

“Uzunmüddətli perspektivə Azərbaycan SSR yerli sənayesinin kompleks inkişafı və yerləşdirilməsinin iqtisadi və elmi-texniki problemləri” işi üzrə “Azərbaycan SSR yerli sənayesində istehsal effektivliyinin yüksəldilməsi ehtiyatları” mərhələsi yerinə yetirilmişdir.Bu işdə əldə olunmuş əmək məhsuldarlığının artım səviyyəsi xarakterizə edilmiş, verilmiş göstəricinin inkişafının qabağını alan əsas faktorlar aşkar olunmuş, əmək və istehsalın təşkilinin yaxşılaşdırılması, əməyin mexanikləşdirmə səviyyəsinin yüksəldilməsi, iş vaxtının itirilməsinin azaldılması, əsas və həmçinin köməkçi istehsalda əl əməyinin mexanikləşdirilməsi məsələlərinə baxılmışdı. Tədqiqatda əsas istehsal fondlarının istifadə vəziyyəti nəzərdən keçirilmiş, respublikada yerli sənaye məhsulunun vacib növlərinin buraxılışı üzrə istehsal gücündən istifadə dərəcəsi təhlil olunmuş, 1970-1982-ci illərdə istehsala sərf olunan vəsaitlərin strukturu təhlil olunmuş, əmtəə istehsalında maya dəyərinin azaldılması yolları aşkar edilmişdir.

1983-cü ildə institutun struktur bölmələri tərəfindən ETİ-nin dövlət planı ilə nəzərdə tutulmuş problem və mövzuların işlənilməsilə birlikdə 50-yə yaxın elmi arayış, məruzə və bu cür materiallar hazırlanıb planlaşdırma və direktiv orqanlara, digər təşkilat və idarələrə təqdim olunmuşdur.

Azərbaycan KP MK-nın tapşırığı ilə maşınqayırma və metal emaletmə sektoru (sektor müdiri Oleq Aleksandroviç Penejennikov) tərəfindən “Sov. İKP-nin XXVI qurultayı və Azərbaycan Kommunist Partiyas ının XXX qurultayının qərarları əsasında sənayedə əməyin səmərəliliyinin inkişafının əsas istiqamətləri və vəziyyəti barədə” işi yerinə yetirilmişdi.

Azərbaycan KP MK-nın tapşırığı ilə “Nəqliyyat və rabitə məsələləri” şöbəsi (şöbə müdiri Raqib Vəli oğlu Məmmədov) “Respublika xalq təsərrüfatında nəqliyyat vasitələrinin istifadəsinin effektivliyinin yüksəldilməsi, avtomobil nəqliyyatı ilə yük daşımalar zamanı şişirdilmiş məlumatlarla mübarizənin gücləndirilməsi və duru yanacaq, sürtkü materiallarının qorunmasının təmin olunması” arayışını təqdim etdi. Həmin şöbə tərəfindən Azərbaycan SSR Nazirlər Sovetinə “Avtomobil yük daşımaları effektivliyinin yüksə ldilməsi barədə” məruzə hazırlanmışdır. “ Ərazi planlaşdırılmasının təkmilləşdirilməsi və rayonların inkişafı məsələləri” sektoru (sektor müdiri Maksim Abramoviç Abramov) “Respublika dağ rayonlarının iqtisadiyyat və mədəniyyətinin vəziyyəti barədə” arayış hazırlamışdır.

Azərbaycan KP MK tapşırığı ilə respublikaarası əlaqələr sektoru (sektor müdiri Rauf Mikayıl oğlu Məmmədov) tərəfindən “Məhsulun idxalı və ixracı üzrə respublikanın iqtisadi əlaqələri” və “Azərbaycan SSR-in Qafqaz iqtisadi rayonunun digər respublikaları ilə iqtisadi əlaqələri barədə” materiallar hazırlanmışdır.

Azərbaycan SSR Dövlət Plan Komitəsi ETİİ-nin Elmi Şurası həmişə institutun fəaliyyətinin təşkili və rəhbərliyin həyata keçirilməsi üzrə kollegial elmi-məsləhətçi orqan idi. Elmi Şuranın işi əvvəlki illərdə olduğu kimi, 1983-cü ilin planına uyğun olaraq həyata keçirilirdi. 1983-cü ildə institutun elmi şurasının 13 iclası keçirilmişdi, bu iclaslarda institutun fəaliyyətinin nəticələri, sona çatdırılmış elmi-tədqiqat işlərinin nəticələri, dissertasiya mövzuları üzrə dissertantların və elmi rəhbərlərin təsdiqlənməsi məsələləri, müsabiqə yolu ilə elmi vəzifələrin tutulması məsələləri üzrə mövzular müzakirə olunmuşdur.Elmi şurada həmçinin Azərbaycan SSR Dövlət Plan Komitəsində institutun 1982-ci il fəaliyyətinin yekunlarının müzakirəsinin nəticələrinə və 1983-cü il 19 yanvar tarixli Azərbaycan SSR

Dövlət Plan Komitəsi kollegiyasının qərarlarını yerinə yetirmək üçün institutun kollektivinin vəzifələrinə də baxılmışdır. Kollegiya institutun öz fəaliyyətini yaxşılaşdırmaq məqsədilə konkret tədbirlərin işlənilməsi vəzifəsini qarşıya qoyurdu. Bu tədbirlər plan işlərinin, rəhbər orqanların və Azərbaycan SSR Dövlət Plan Komitəsinin tapşırıqlarınınvaxtında və keyfiyyətli yerinə yetirilməsində nəzarətin artırılmasına yönəldilmişdi.

Bu dövrdə ETİİ-də mühüm elmi-təşkilati məsələlərin operativ həlli məqsədilə rəhbərlikdə daimi fəaliyyət göstərən istehsalat müşavirəsi mövcud idi. Bu müşavirənin tərkibinə institutun rəhbərliyi (direktor, üç müavin, elmi katib), həmçinin ictimai təşkilatların nümayəndələri daxil idi. 1983-cü ildə səkkiz iclas keçirilmişdir. İclaslarda konkret kadr, təsərrüfat və digər məsələlərə operativ şəkildə baxılmış və qərarlar qəbul edilmişdir.

Həmin dövrdə əmək aktivliyinin yüksəldilməsi və elmi tədqiqatların vaxtında yerinə yetirilməsində əsas rol gənc alimlər şurasına və institutun mütəxəssislərinə məxsus idi. Öz fəaliyyətində gənc alimlər şurası SSRİ Elm və Texnika Dövlət Komitəsi və SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi tərəfindən təsdiqlənmiş “Elmi-tədqiqat, konstruktor, layihə-konstruktor və texnoloji təşkilat, elmi şöbə və ali məktəblər barədə gənc alimlər şurası əsasnaməsi”ni əldə rəhbər tuturdular. Gənc Alimlər Şurasının (GAŞ) planına uyğun olaraq 12 və komsomol komitəsilə birgə 2 iclas keçirilmişdir. İclasda gənc mütəxəssislərin keyfiyyət artımı, onların ixtisaslarının artırılması, iqtisadi nəzəriyyənin öyrənilməsi, kommunist mənəviyyatı ruhunda gənclərin tərbiyəsi və elmi dünyagörüşünün formalaşması müzakirə edilmişdir.

Kadr seçimi, yerləşdirilməsi və elmi kadrların tərbiyəsi məsələləri hər zaman institutun rəhbərliyinin və ictimai təşkilatların diqqət mərkəzində olmuşdur. 1983-cü ildə bütün elmi vəzifələr (şöbə və sektor müdirləri, böyük və kiçik elmi işçilər) “Elmi işçi vəzifəsini tutmaq qaydaları təlimatına” uyğun olaraq müsabiqə yolu ilə təmin edilmişdir. Müsabiqə seçimi iqtisad elminin qarşısında duran işgüzar və əxlaqi dəyərləri, müasir tələblərə ixtisas səviyyəsinin uyğunluğunu nəzərə alaraq müvafiq vəzifələrin təmin olunmasına imkan yaratdı. Müsabiqə ilə bərabər həmin il baş iqtisadçıların attestasiyası keçirilmişdir. Attestasiyanın nəticələrinə görə əməkdaşların gələcək inkişafı fəaliyyəti qiymətləndirilmiş və tövsiyələr verilmişdir.

1984-cü il 1 yanvar tarixinə institutun əməkdaşlarının sayı 269 nəfər idi. Onlar 45 sektoru olan 16 şöbədə fəaliyyət göstərirdilər. İşçilərin 194 nəfəri elmi işçi, onların bir nəfəri iqtisad elmləri doktoru, 54 nəfəri isə elmlər namizədi idi. İnstitutun rəhbərliyi 4 nəfərdən ibarət idi. Həmçinin bura 14 şöbə müdiri, 28 sektor müdiri, 36 böyük elmi işçi, 43 kiçik elmi işçi, 68 baş iqtisadçı və iqtisadçı, 75 elmi-köməkçi və xidmətçi heyət daxil idi.1983-cü ildə institutun 4 əməkdaşı namizədlik dissertasiyasını müdafiə etmiş, 2 əməkdaş isə doktorluq dissertasiyasını müzakirəyə təqdim etmişdir.

İlin sonunda i.e.d. Vahid Cümşüd oğlu Axundovun məsul redaktorluğu ilə 10 çap vərəqi həcmində “Azərbaycan SSR-də məqsədli kompleks proqramın işlənib hazırlanması problemləri” mövzusunda elmi əsərlərin XVI cildi çapdan çıxmışdır.



Госплан Азербайджанской ССР
Научно-исследовательский институт экономики

ПРОБЛЕМЫ РАЗРАБОТКИ
ЦЕЛЕВЫХ КОМПЛЕКСНЫХ
ПРОГРАММ
В АЗЕРБАЙДЖАНСКОЙ ССР
(Научные труды, том XVI)

Баку 1983

Редакционная коллегия:

д.э.н. Ахундов В.Д. (ответственный редактор), к.э.н. Исмайлов Т.Я. (зам.ответственного редактора), к.э.н. Кулиев Дж.Б., к.э.н. Мамедов М.К.



СОДЕРЖАНИЕ



1984-cü ildə Sov. İKP XXVI qurultayının qərarlarına uyğun olaraq, Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında ETİİ kollektivinin fəaliyyəti respublika xalq təsərrüfatının dinamik və səmərəli inkişafının aktual problemlərinin və gələcək üçün Azərbaycan SSR məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsinin nəzəri və praktiki məsələlərinin həll edilməsinə yönəlmişdi. ETİ-nin tematik planına uyğun olaraq 1984-cü ilə institutun fəaliyyəti

28 mərhələli 16 tədqiqat işini nəzərdə tutan 6 kompleks problemin işlənilməsinə yönəlmişdi. İnstitut 1984-cü ilə nəzərdə tutulan ETİ planını tamamilə yerinə yetirmişdir.

Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin proqram-məqsədli metodlarının planlaşdırılması təcrübəsində geniş istifadəsi nəzərdə tutulan tələblərini yerinə yetirmək məqsədiylə ETİİ Azərbaycan SSR Dövlət Plan Komitəsinin idarə və şöbələri ilə birlikdə xalq təsərrüfatında məqsədli proqramların formalaşması sahəsində işləri aktivləşdirdi. Xüsusən, Azərbaycan SSR Elmlər Akademiyası Rəyasət Heyətinin, Azərbaycan SSR Dövlət Plan Komitəsinin və Tikinti işləri üzrə Azərbaycan SSR Dövlət Komitəsinin 1984-cü il 12 iyul tarixli qərarına əsasən institut uzunmüddətli "1991-2010-cu illərə Azərbaycan SSR-də elmi-texniki tərəqqi" adlı kompleks proqramın işlənilməsində iştirak edirdi.İnstitut "Elmi-tədqiqatların planlaşdırılması və idarə edilməsi və onların nəticələrinin 1991-2010-cu illərdə Azərbaycan SSR xalq təsərrüfatında reallaşması" işi üzrə baş təşkilat təyin olunmuşdu. Bu kompleks proqramın əsas məqsədi elmi proqnozlaşdırmanın elmi-texniki inkişafın planlaşdırma təcrübəsiylə əlaqələndirilməsinin təmin olunması idi.

Bununla yanaşı ETİİ "Ümumi maşınqayırmada məhsul istehsalına tətbiq edilmə üzrə yüksək ixtisaslaşdırılmış sənayenin yaradılması" uzunmüddətli məqsədli kompleks proqramın həmicraçısı olmuşdur. Baş təşkilatın (SSRİ Dəzgahqayırma Sənayesi Nazirliyi) əlaqələndirmə planına uyğun olaraq institut həmin il yerinə yetirilmiş "2000-ci ilə olan dövrədək fəaliyyət göstərən müəssisə və sexlərin ixtisaslaşdırılmasının təkmilləşdirilməsi və istehsal əlaqələrinin (sahə, sahələrarası və ərazi) yaxşılaşdırılması üzrə təkliflər" işini təqdim etmişdir.

Mərkəzi koordinasiya planının bu mərhələsində ümumi maşınqayırmada tətbiq edilə biləcək məhsul istehsalının ixtisaslaşma və təmərküzləşmə inkişafının texniki-iqtisadi şərtləri tədqiq edilmişdir və ümummaşınqayırmada tətbiq edilə biləcək məhsul istehsal edən müəssisə və sexlərin ixtisaslaşması və təmərküzləşməsinin inkişafı üzrə təkliflər hazırlanmışdır.

1981-1985-ci illər üçün mühüm iqtisadi problemlər üzrə ETİ-nin dövlət planına və təsdiq olunmuş SSRİ Dövlət Plan Komitəsinin nəzdindəki İETİ-nin, Məhsuldar Qüvvələrin Öyrənilməsi üzrə Şura və RSFSR Dövlət Plan Komitəsinin nəzdindəki MİETİ-nin 1981-ci il 28 iyun tarixində təsdiq edilmiş birgə tədqiqat proqramına uyğun olaraq institut həmin ildə "1986-1995-ci illər və uzunmüddətli perspektiv üçün yaşayış səviyyəsinin yüksəldilməsi və sosial inkişaf sahəsində kompleks məsələlərin həlli üçün resursların daha səmərəli istifadəsinin istiqamətləri və miqyasları" mövzusunda tədqiqatı bitirmişdir. Həmin mövzu üzərində iş 4 il davam etmişdir.Bu mövzu üzrə tədqiqatda əhalinin alıcılıq qabiliyyəti, tələbatının təminin yaxşılaşdırılması, sosial infrastrukturun, əhalinin rasional istehlak büdcəsinin inkişafı və s. əhatə olunmuşdur və bu məsələlər üzrə əhalinin həyat səviyyəsinin gələcək yüksəlişinə istiqamətlənmiş təkliflər verilmişdir.

İnstitutun elmi fəaliyyətinin mühüm istiqaməti kütləvi istehsalın maddi və maliyyə aspektlərini əks etdirən regional planlaşdırmanın sahələrarası modellər sisteminin hazırlanmasında iştirakı olmuşdur. Bu iş SSRİ Dövlət Plan Komitəsinin İETİ və SSRİ EA-nın MİETİ ilə birgə yerinə yetirilirdi. Azərbaycan SSR-in 1980-ci,1985-ci, 1990-cı illər üçün hesabat, plan və perspektiv, dəyər və natural-dəyər sahələrarası balansları işlənib hazırlanmışdır.

Azərbaycan SSR-in respublikalararası iqtisadi əlaqələrinin inkişafı problemlərinin işlənilməsi üzrə tədqiqatlar davam edirdi. 1984-cü ildə "2000-ci il üçün Kəlbəcər və Lənkəran iqtisadi rayonlarının iqtisadi inkişafının əsas istiqamətləri" mövzusunda iş görülmüşdür. Bu iş

Azərbaycanın KP MK Bürosunun tapşırığı ilə yerinə yetirilirdi. Bu tədqiqatın məqsədi respublikanın dağlıq rayonlarının gələcək sosial-iqtisadi inkişafının intensivləşdirilməsi üzrə əsaslandırılmış təkliflərin işlənib hazırlanması olmuşdur. Adı çəkilən rayonlar üzrə ayrıca hesabat hazırlanmışdır.

Respublikanın gələcək iqtisadi və sosial inkişafının tədqiqatlarının mühüm istiqamətlərindən biri o zaman təbii resursların səmərəli istifadə məsələlərinin işlənilməsi və ətraf mühitin mühafizəsi olmuşdur. Bu baxımdan həmin ildə institut tərəfindən "Respublika şəhərlərinin su qoruyan obyektlərlə təminatını yaxşılaşdırma perspektivləri" adlı iş yerinə yetirilmişdir. İş üzrə aparılmış tədqiqatlar göstərmişdir ki, respublikanın şəhər və qəsəbələri, həmçinin sənaye müəssisələri ümumşəhər və yerli təmizləmə qurğuları ilə kifayət qədər təmin olunmamışlar. Su qoruyan obyektlərin işinin səmərəliliyi və keyfiyyəti tələb olunan standartlara tam cavab vermirdi. Çox vaxt təmizləmədən sonra işlənmiş çirkab sularının tərkibində normadandəfələrlə artıq zərərli maddələr qalırdı.

Sov. İKP MK-nın və SSRİ Nazirlər Sovetinin xalq təsərrüfatının palnlaşdırma və idarəetmə formalarının fasiləsiz təkmilləşdirilməsini nəzərdə tutan 1979-cu il 12 iyul tarixli qərarına əsasən ETİİ "İctimai istehsalın planlaşdırılmasının və idarəedilməsinin təkmilləşdirilməsi problemləri" mövzusunda tədqiqatlar aparırdı.Həmin ildə bu mövzu üzrə respublikanın elektrotexnika sənayesinin iri birləşmələrinin nəticələrinə görə müəssisələrin müstəqilliyinin və məsuliyyətinin genişləndirilməsi üzrə iqtisadi təcrübə şəraitində təsərrüfat fəaliyyəti tədqiq olunan "Elektrotexnika sənaye müəssisələrinin müstəqilliyinin genişləndirilməsi üzrə təcrübənin aparılma gedişinin təhlili və qiymətləndirilməsi" adlanan iş görülmüşdür.1984-cü ildə institutun struktur bölmələri tərəfindən plandan kənar direktiv və plan orqanlarına, başqa təşkilat və idarələrə respublikanın iqtisadi və sosial inkişafının mühüm problemlərini əks etdirən 50-dən çox elmi arayış, məlumat vərəqəsi və bu kimi materiallar hazırlanıb təhvil verilmişdir.

"Məhsuldar qüvvələrin yerləşdirilməsinin kompleks problemləri" şöbəsi (şöbə müdiri Mail Səməd oğlu Rəhimov) Azərbaycan SSR Dövlət Plan Komitəsinə və Kirovobad (indiki Gəncə) şəhər Partiya Komitəsinə "Kirovobad şəhərinin 1986-1990-cı il-lər və 2000-ci il müddətinə iqtisadi və sosial inkişafının əsas istiqamətləri layihəsinə təkliflər" mövzusunda elmi material təqdim etmişdir.

"İqtisadi rayonların ərazi planlaşdırılmasının və inkişafının təkmilləşdirmə problemləri" sektoru (bölmə müdiri Zili Həmid oğlu Adıgözəlov) tərəfindən Azərbaycan KP MK tapşırığı ilə "Əli-Bayramlı (indiki Şirvan) şəhərinin 2000-ci ilə kimi sosial-iqtisadi planı" hazırlanmışdır.

SSRİ Dövlət Plan Komitəsinin nəzdindəki MQÖŞ-in tapşırığı ilə "Ətraf mühitin mühafizəsi" bölməsi tərəfindən (bölmə müdiri Nadir Heydər oğlu Hacıbəyov) "Yeraltı sərvətlərin mühafizəsi və mineral xammalın səmərəli (kompleks) istifadəsi" arayışı hazırlanmışdır.

"Xalq təsərrüfatı proporsiyaları və ictimai istehsalın səmərəliliyi" bölməsi (bölmə müdiri Semyon İxiloviç Divilov) Azərbaycan KP MK və Bakı şəhərinin Oktyabr (indiki Yasamal) rayonunun RİK-nə "XII beşilliyə Bakı şəhərinin Oktyabr rayonunun sənaye istehsalının inkişafı və artırılması üzrə izahat və təkliflər məruzə"sinin hazırlanması adlı material təqdim etmişdir.

Energetika bölməsi (bölmə müdiri Səidə Qurbanova) tərəfindən Ümumittifaq Kompleks Yanacaq Energetika Prosesləri Elmi Tədqiqat İnstitutuna “Zaqafqaziya iqtisadi rayonunun müttəfiq respublikalarının və ümumiyyətlə, region üçün XII beşilliyə və 2000-ci il perspektivinə yanacaq-enerji balanslarının işlənib hazırlanması” işi təqdim olunmuşdur.

“Respublika sənayesi və mədəni-məişət təyinatlı məhsulların istehsalı” bölməsi (baş elmi işçi Təhminə Muxtar qızı Məmmədova) Dövlət Plan Komitəsi üçün “Kiçik, orta və iri müəssisələrin və istehsalların səmərəli əlaqələndirilməsi xalq təsərrüfatının və sənayenin səmərəliliyinin yüksəldilməsi istiqamətlərindən biri kimi” mövzusunda məruzə hazırlamışdı.

Azərbaycan SSR Dövlət Plan Komitəsi ETİİ-nin elmi işlər üzrə direktor müavini Hamlet Yəhya oğlu İsmayılov Belorusiya SSR Brest şəhərində 1984-cü il 23-25 may tarixlərində keçirilən “Tələbatın formalaşmasının sosial problemləri və xalq istehlakı strukturunun təkmilləşdirilməsi” mövzusunda keçirilən Ümumittifaq elmi seminarda iştirak etmişdir.

Azərbaycan SSR Nazirlər Sovetinin 1984-cü il 24 aprel tarixli sərəncamına əsasən oktyabr ayının 1-dən 5-nə kimi Azərbaycan SSR Dövlət Plan Komitəsinin nəzdindəki ETİİ bazasında MDU-nun əhali məskunlaşması problemlərinin öyrənilməsi üzrə Mərkəzi ilə birlikdə Bakı şəhərində “Əhali məskunlaşması və sosial infrastrukturun planlaşdırılmasının təkmilləşdirilməsi” adı altında Ümumittifaq elmi konfrans keçirilmişdir. Konfransda QİYŞ-ə üzv ölkələrin alimləri, həmçinin ittifaq və müttəfiq respublikaların aparıcı alim və mütəxəssisləri, Dövlət Plan Komitəsinin, Dövlət Əmək Komitəsinin və Mərkəzi Statistika İdarəsinin işçiləri iştirak etmişlər. Konfransın işi 3 bölmə üzrə keçmişdir. Ümumilikdə, konfransda 20 məruzə və 150 çıxış müzakirə edilmişdir. Son iclasda alim və mütəxəssislərin keçirilmiş görüşlərinin məhsuldar xarakterini qeyd edən Azərbaycan SSR Dövlət Plan Komitəsinin sədrinin birinci müavini, Konfransın Təşkilat Komitəsinin sədri Fəridə Cəfər qızı Rüstəmbəyova çıxış etmişdir.

1984-cü ildə redaksiya kollegiyasının sədri i.e.d. Vahid Cümşüd oğlu Axundovun rəhbərliyi ilə “Azərbaycan SSR-də ərazi proporsiyalarının təkmilləşdirilməsi problemləri” adlı 9,7 çap vərəqi həcmində elmi əsərlərin XVII cildi çapdan çıxmışdır.



Научно-исследовательский экономический институт при Госплане СССР
Белорусский научно-исследовательский институт научно-технической информации и технико-экономических исследований Госплана БССР

СОЦИАЛЬНЫЕ ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ ПОТРЕБНОСТЕЙ И СОВЕРШЕНСТВОВАНИЕ СТРУКТУРЫ НАРОДНОГО ПОТРЕБЛЕНИЯ

Тезисы докладов Всесоюзного научного семинара
Брест, 23—25 мая 1984 г.
Часть I

МИНСК 1984









ISSN 0136-3948

ГОСПЛАН АЗЕРБАЙДЖАНСКОЙ ССР
НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ ЭКОНОМИКИ

ПРОБЛЕМЫ СОВЕРШЕНСТВОВАНИЯ
ТЕРРИТОРИАЛЬНЫХ ПРОПОРЦИЙ
АЗЕРБАЙДЖАНСКОЙ ССР
(Научные труды, том XVII)



Редакционная коллегия:

В.Д.Ахундов(председатель),
А.Г.Манафов(зам.председателя),
К.П.Амирасланов,Р.В.Мамедов,
В.Т.Новрузов, М.С.Рагимов,
В.Г.Фомина (ответственный секретарь).



СОДЕРЖАНИЕ


РАГИМОВ М.С. Методологические основы совершенствования территориальных пропорций союзной республики . . . . . . . . 3

АДИГЕЗАЛОВ Э.Г. Территориально-производственные сочетания – эффективная форма совершенствования территориальных пропорций . . . . . . . . . . . . . . 19

Некоторые методические вопросы специализации и комплексного развития хозяйства дробных экономических районов . . . . . . . . . . . . . 31

ГУСЕЙНОВ А.А. Формирование и развитие территориально-производственных комплексов во внутриреспубликанских экономических районах . . . . . . . . . . . . . 42

Проблемы комплексного развития хозяйства Нахичеванской АССР . . . . 57

Некоторые особенности развития горных районов Азербайджанской ССР . . . . . . . . . . . . . 73

О роли природно-сырьевых ресурсов в формировании комплексных территориально-производственных комплексов . . . . . . . . . . . . . 82

Региональные особенности формирования и развития межотраслевых комплексов . . . . . . . . . . . . . 89

Региональная дифференциация пропорций между материальным производством и сферой обслуживания . . . . . 97

Территориальное размещение строительно-монтажных организаций в Азербайджане . . . . . . . . .





АББАСОВ Г.Г. О совершенствовании размещения предприятий службы быта в Азербайджанской ССР . . . . . . . . . . . . 133

Теория расселения и исследование экологической ситуации в Азербайджанской ССР . . . . . . . . . . . . 140

Тенденция и проблемы регионального развития расселения в Азербайджанской ССР . . . . . . . . . . . . 157

Особенности региональных различий и перспективы сельского расселения в Азербайджанской ССР . . . . . . 177

Региональные особенности формирования и использования трудовых ресурсов в Азербайджанской ССР . . . . . . . . . . . . . . . . 191

АМИРАСЛАНОВ К.П. Пространственные особенности миграции населения . . . . . . . . . . . . . 205


ПРОБЛЕМЫ СОВЕРШЕНСТВОВАНИЯ
ТЕРРИТОРИАЛЬНЫХ ПРОПОРЦИЙ
АЗЕРБАЙДЖАНСКОЙ ССР
(Научные труды, том XVII)

1985-ci ildə ETİİ-nin kollektivi ETİ tematik planına əsasən özündə 40 elmi iş və 5 mərhələ birləşdirən 14 mövzu üzrə tədqiqat aparmışdır. Həmin il 6 mövzu, 11 iş və 4 mərhələ

bitirilmişdir.ETİ planına uyğun olaraq "Mədəniyyət, səhiyyə və kurort-turizm kompleksləri" bölməsi tərəfindən "Ərazi aspektində səhiyyənin inkişafının müasir vəziyyətinin təhlilinin" birinci mərhələsi görülmüşdür. İşdə respublikanın inzibati rayonları üzrə səhiyyənin maddi-texniki bazasının vəziyyəti ətraflı təsvir olunmuşdur. Elmi işin tədqiqat obyektləri feldşer-mamalıq məntəqələri, ambulator-poliklinika, stasionar idarələrinin tibbi yardım növlərinə görə baxılan səhiyyə idarələri olmuşdur. İşdə təqdim olunan təhlil səhiyyənin maddi-texniki bazasının müasir vəziyyəti, perspektivdə səhiyyənin planlaşdırma və proqnozlaşdırılmasına, tibbi kadrların və idarələrin iqtisadi cəhətdən əsaslandırılmış ərazi bölgülərinin və yerləşdirilməsinin aparılmasına real imkanlar verdi.

1985-ci ildə "Azərbaycan SSR inşaatında idarəetmənin təşkilati formalarının və strukturlarının təkmilləşdirilməsi" işi tam başa çatdırılmışdı. İnşaatın idarəedilməsinin təşkilati strukturu əlaqələndirilmiş müxtəlifliyi və çoxcəhətliliyi ilə xarakterizə olunurdu. İdarəetmə sistemindəki çoxcəhətlilik işdə paralelliyə və qonşu təşkilatların funksiyalarının təkrarlanmasına səbəb olurdu. Bu səbəbdən idarəetmənin səmərəliliyi və keyfiyyəti azalırdı. Buna görə də "SSRİ-nin 1986-2000-ci illər üçün və 2000-ci ilədək müddətə iqtisadi və sosial inkişafının əsas istiqamətləri" layihəsində idarəetmənin təşkilati strukturunun təkmilləşdirməsi üzrə ətraflı proqram nəzərdə tutulmuşdur.İdarəetmə strukturunun yenidənqurulması artıq idarələrin ixtisarı ilə deyil, davamlı və yüksək texniki-iqtisadi göstəricilərin alınmasına səbəb olan inşaat təşkilatlarının böyüdülməsi ilə, onların sayının azaldılması ilə, yerinə yetirilən işlərin həcminin optimal ölçülərə çatdırılması ilə həyata keçirilirdi.İşdə respublikanın inşaat təşkilatlarının praktiki fəaliyyətinin hərtərəfli təhlili və inşaatın idarəedilməsi və təşkilatı sahəsində aparılan elmi-tədqiqatların nəticələrinin əsasında inşaatın idarəedilməsinin təşkilati-struktur formalarının inkişafı və gələcəkdə təkmilləşdirilməsi, inşaat-montaj təşkilatlarına idarəetmənin qabaqcıl formalarının və metodlarının tətbiqi məsələləri nəzərdən keçirilirdi. İşin sonunda respublika inşaatında idarəetmənin təşkilati formalarının və strukturunun gələcəkdə təkmilləşdirilməsi üzrə nəticələr və təkliflər verilmişdir.

Energetika bölməsi tərəfindən 1985-ci ildə iki elmi-tədqiqat işi hazırlanmışdır. Bunlardan biri "1991-2000-ci illər üçün Azərbaycan SSR yanacaq-energetika balansının variantlarının işlənib hazırlanması" idi. İşdə illər üzrə XI və XII beşilliklərə və 2000-ci il perspektivə yanacaq-energetika resurslarının istehlak səviyyələri dəqiqləşdirilmişdir. Azərbaycan SSR xalq təsərrüfatının inkişafının əsas istiqamətləri haqqında məlumatlara müvafiq olaraq, XII beşilliyə və 2000-ci il pespektivinə yanacaq-energetika kompleks sahələrinin inkişafının və enerji istehlakının səviyyəsinin dəqiqləşdirilməsi əsasında respublikanın 1990, 1995 və 2000-ci illər üçün yanacaq-energetika balansının variantı işlənib hazırlanmış və bu variantın səmərəliliyinin əsaslandırılması və 1984-cü ildə bölmənin əvvəlki işində təqdim olunan birinci Yanacaq-Enerji Balansı variantı ilə müqayisəsi təqdim olunmuşdur. Aparılmış tədqiqatların və variantların müqayisəsi nəticəsində respublikanın 2000-ci il perspektivinə yanacaq-energetika balansının əsas istiqamətləri müəyyən edilmişdi.

İkinci elmi-tədqiqat işi isə "Azərbaycan SSR-in xalq təsərrüfatında 2000-ci il perspektivinə yanacaq-energetika resurslarının səmərəli istifadəsinin təmin edilməsi üzrə texniki-iqtisadi məruzə" idi. Həmin işin məqsədi Azərbaycan SSR xalq təsərrüfatı sahələrində yanacaq-energetika resurslarının istifadəsinin səmərəliliyinin yüksəldilməsinin əsas istiqamətlərinin və tədbirlərinin işlənib hazırlanması olmuşdu.

Tədqiqatların nəticəsində yanacaq enerji resurslarından istifadə edilməmiş qənaət imkanlarının aşkarlanması məqsədi ilə sənayenin əsas enerji tutumlu sahələrində yanacaq-energetika resurslarının müasir vəziyyəti və istifadə səviyyəsi təhlil edilmişdir. 2000-ci il perspektivinə respublikanın xalq təsərrüfatının sahələrində enerji resurslarının regional və səmərəli istifadəsinin əsas istiqamətləri üzrə tövsiyələr işlənib hazırlanmışdır. O dövrdə aparılmış tədqiqatlar arasında "Məhsuldar qüvvələrin yerləşdirilməsi problemləri" şöbəsi tərəfindən "Azərbaycan SSR-in ərazi proporsiyalarının 2000-ciilədək optimallaşdırılması" elmi işinin işlənib hazırlanması mühüm yer tuturdu.

Ərazi proporsiyalarının səmərəli formalaşması ictimai istehsalın səmərəliliyinin gələcəkdə yüksəlməsinin həlledici şərtlərindən biri idi. Bu hər şeydən əvvəl onunla əsaslandırılırdı ki, ərazi proporsiyaları ümumiləşdirci iqtisadi kateqoriya kimi xalq təsərrüfatının inkişafını, hər bir müttəfiq respublikanın Ümumittifaq əmək bölgüsündə iştirakını, məhsuldar qüvvələrin respublika daxilində yerləşdirilməsi məsələlərini hərtərəfli tədqiq etmək imkanı verirdi.Respublikanın xalq təsərrüfatının inkişafının müasir vəziyyətinin regional bölgüdə təhlili göstərdi ki, istifadə edilməmiş xeyli ehtiyatlar və iqtisadi rayonların potensialının gələcəkdə yüksəldilməsi və ərazi strukturunun təkmilləşdirilməsi imkanları vardır.Ümumilikdə, aparılmış tədqiqat işləri ərazi proporsiyalarının təkmilləşdirilməsinə istiqamətləndirilmişdi və respublikanın sosial və iqtisadi inkişaf planlarında irəli sürülən təkliflərin praktikada həyata keçirilməsi, yerli resursların səmərəli istifadəsi əsasında ictimai istehsalın effektivliyinin artırılmasına təkan verirdi.

1985-ci ildə ETİİ-də elmi işçi vəzifələrinin tutulması müsabiqəsi elan olunmuşdur. "Elmi işçi vəzifəsini tutmaq qaydaları təlimatı"na uyğun olaraq və institutda vəzifələrin tutulması müsabiqəsinin iştirakçıları tərəfindən təqdim edilən materialların baxılması üzrə Elmi Şuranın qərarına əsasən direktorun 1985-ci il 10 dekabr tarixli əmri ilə iki müsabiqə komissiyası yaradıldı. Birinci komissiyanın sədri direktorun elmi işlər üzrə müavini Arif Həsən oğlu Manafov, ikinci komissiyanın sədri isə direktorun müavini Eldar Sirac oğlu Nuriyev idi. 1985-ci ilin əvvəlində institutda elmi işçi vəzifələrinin tutulması müsabiqəsi keçirildi.

Həmin ildə ETİ planında nəzərdə tutulan problemlərin və işlənib hazırlanması ilə yanaşı institutun struktur bölmələri tərəfindən direktiv və plan orqanlarına 50-dən çox elmi arayış, məruzə və digər plandan kənar iş təqdim olunmuşdu. Onlar arasında aşağıdakıları xüsusi qeyd etmək olar:

"Azərbaycan SSR-in 1990-cı il müddətinə demoqrafik inkişafı və əmək resurslarının səmərəli istifadəsi" Məqsədli Kompleks Proqramının materialı Azərbaycan SSR Dövlət Plan Komitəsinin Kollegiyasının tapşırığı ilə hazırlanmışdır;

"Bakı şəhərinin Oktyabr (indiki Yasamal) rayonunun intensivləşdirmə proqramı"nın materialı Azərbaycan KP MK və Bakı şəhəri Oktyabr RİK-nə təqdim olunmuşdur;

"1980-2000-ci illər üçün respublikanın xalq təsərrüfatı sahələrinin su tutumu" materialı Azərbaycan SSR Nazirlər Sovetinə təqdim olunmuşdur.

1985-ci ildə institutun əməkdaşlarının aşağıdakı monoqrafiyaları hazırlanıb çap olunmuşdur:

- R.M.Cəbiyev "Təsərrüfat mexanizmi və onun təkmilləşdirilmə problemləri" – 10 ç.v.;
- M.A. Abramov "Servisin coğrafiyası" – 15 ç. v.;
- K.V. Məmmədov "Azərbaycan SSR-də ailənin inkişafı" – 12 ç. v.

İnstitutun əməkdaşlar ı tərəfindən 70-dən çox məqalə və məruzələrin tezisləri, o cümlədən, onlardan 16-sı Ümumittifaq və müttəfiq respublikaların konfranslarında çap olunmuşdur. Monoqrafiya və dissertasiya işlərinə 15-dən çox rəy hazırlanmışdı.

İnstitutun elmi əməkdaşlarının ixtisaslarının gələcəkdə artırılması üzrə işlər davam etdirilirdi. Həmin müddət ərzində institutun elmi işçisi Rasim Fərhad oğlu Tacəddinov namizədlik dissertasiyasını müdafiə etdi. Bölmə müdiri R.M. Cəbiyev doktorluq dissertasiyasını müzakirə etmiş və ETİİ Elmi Şurasının müsbət rəyini almışdır. Şöbələrdə Eldar Hüseynqulu oğlu Məmmədovun, Rəyasət Yaqub oğlu Səlimovun və Əhməd Səməd oğlu Rəhimovun dissertasiya işləri müzakirə olundu.

1985-ci ildə i.e.d. Vahid Cümşüd oğlu Axundovun məsul redaktorluğu ilə "Azərbaycan SSR-də aqrar sənaye kompleksinin inkişafının aktual problemləri" elmi əsərlərinin 10 çap vərəqi həcmində XVIII cildi nəşr edilmişdir.

1985-ci il 28-29 noyabr tarixlərində Bakı şəhərində Azərbaycan SSR Dövlət Plan Komitəsi, Azərbaycan SSR Elmlər Akademiyası Azərbaycan SSR Elmi-Texniki Cəmiyyəti Şurası, Azərbaycan SSR-in Elmi-iqtisadi Cəmiyyətin İdarəedilməsi, Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında ETİİ ilə birgə "Regionda elmi-texniki siyasətin reallaşdırılması və formalaşdırılmasının təşkilati iqtisadi problemləri" mövzusunda respublika elmi konfransı keçirilmişdir.

1986-cı ildə institut Azərbaycan SSR Dövlət Plan Komitəsində təsdiq olunmuş plana uyğun tədqiqatlar aparmışdı. İnstitutun tematik planına 22 mövzu, 21 iş və 7 mərhələ daxil idi, bundan başqa üç mövzu üzrə proqnoz yerinə yetirilirdi. Həmin ildə 4 mövzu, 7 iş və 3 mərhələ bitirilmişdir.

"Azərbaycan SSR-in inzibati rayonlar səviyyəsində 2000-ci ilədək məktəbəqədər idarələrin, ümumtəhsil məktəblərinin və səhiyyənin inkişaf və yerləşdirilmə sxeminin işlənib hazırlanması" mövzusunda tədqiqatlar 1985-1986-cı illər ərzində aparılmışdı. Bu mövzu 3 işdən ibarət idi. "Ərazi aspektində səhiyyənin inkişafının müasir vəziyyətinin təhlili" işində respublikanın bütün inzibati rayonları üzrə səhiyyənin maddi-texniki bazasının müasir vəziyyəti gözdən keçirilmiş və respublikada 1970-1985-ci illər üçün səhiyyənin inkişaf meyillərinin təhlili verilmişdir. "Səhiyyə obyektlərinin inkişafı və yerləşdirilməsi sxeminin işlənib hazırlanması" işində 2000-ci ilədək respublikada bu sahənin inkişaf perspektivlərinin əsas istiqamətləri təsvir edilmiş, səhiyyənin maddi-texniki bazasının vəziyyətinin yaxşılaşdırılması, əhaliyə tibbi xidmətin keyfiyyətinin artırılması yolları təklif olunmuşdur. İşlənib hazırlanmış sxem səhiyyə sahəsinin ərazi aspektində planlaşdırılması üçün böyük əməli əhəmiyyət kəsb edirdi.


155 N 0136-3948

АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНСКОЙ ССР
НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ ЭКОНОМИКИ

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ
РАЗВИТИЯ АГРОПРОМЫШЛЕННОГО КОМПЛЕКСА
АЗЕРБАЙДЖАНСКОЙ ССР

(Научные труды, том XVII)

Баку 1985


Редакционная коллегия:
д.э.н. Ахундов В.Д. (ответственный редактор),
к.э.н. Маназов А.Г. (зам.ответственного редактора),
к.э.н. Амирасланов К.Ш., к.э.н. Ветрова В.А.,
к.э.н. Касумов С.М.,
к.э.н. Талыбов А.А. (ответственный секретарь).


Содержание

Абдуллаев В.Г., Бабаев И.Р. — Некоторые вопросы формирования кормового агропромышленного комплекса в Миль-Карабахской зоне Азерб.ССР ........ 3
Аскеров Т.Г. — Хозяйственный механизм заготовок продукции сельского хозяйства ........ 9
Алиев И.Л. — Пути развития отраслей растениеводства в условиях агропромышленной интеграции (на примере Азерб.ССР) ........ I7
Велиев С.А., Шарифова А.Ш. — Резервы развития животноводства и укрепление его кормовой базы ........ 37
Ветрова В.А., Пашаева Л.И., Мехтиева Т.М., Атаев Ф.Э. — Совершенствование экономических взаимоотношений между отраслями агропромышленного комплекса ........ 45
Джавадов Т.Г., Гусейнова З.Н. — Резервы повышения эффективности легкой промышленности в системе агропромышленного комплекса ........ 6I
Исмаилов Ф.А., Алиева Н.Р. — Пути повышения эффективности использования машинно-тракторного парка в сельском хозяйстве ........ 70
Касумов Р.М. — Проблемы ускорения социального развития в условиях агропромышленной интеграции ........ 76
Мамедов Р.М., Велиев М.М., Мамедова-Джафарова Т.Н., Мустафабейли М.В. — Перспективы развития экономических связей аграрно-промышленного комплекса Азерб.ССР ........ 82
Манафов А.Г. — Общеэкономические проблемы повышения эффективности и интенсификации дальнейшего развития агропромышленного комплекса Азерб.ССР ........ 94
Рагимов А.С. — Тенденции изменения социалистических накоплений в сельскохозяйственном производстве в условиях агропромышленной интеграции ........ I08
Рагимова М.С., Гусейнова А.А., Гаджиева Н.Р. — Развитие агропромышленного комплекса Ленкоранского экономического района ........ II5
Рашидова З.А. — Некоторые вопросы использования земельно-водных ресурсов в АПК ........ I24


Сулейманов И.К., Кулиев Д.К. — Основные направления интенсификации и повышения эффективности развития агропромышленного комплекса горных районов Азербайджана ........ I30
Сулейманов И.К., Байрамова А.А., Рагимов И.А. — Проблемы территориальной организации сельского хозяйства и ее влияние на формирование агропромышленного комплекса ........ I42
Талыбов А.А., Алиев А.И., Алиев А.Р., Исмаилов С.А. — Вопросы укрепления материально-технической базы агропромышленного комплекса ........ I57
Якубов Ш.Э. — Пути повышения экономической эффективности промышленной переработки винограда в Азербайджане ........ I70


Госплан Азербайджанской ССР

Академия наук Азербайджанской ССР

Азербайджанский республиканский совет НТО

Азербайджанское республиканское правление научно-экономического общества

Научно-исследовательский институт экономики при Госплане Азербайджанской ССР

РЕСПУБЛИКАНСКАЯ НАУЧНАЯ КОНФЕРЕНЦИЯ

организационно-экономические проблемы формирования и реализации научно-технической политики в регионе

СЕКЦИЯ

ПРОБЛЕМЫ РАЗРАБОТКИ И РЕАЛИЗАЦИИ РЕГИОНАЛЬНЫХ НАУЧНО-ТЕХНИЧЕСКИХ ПРОГРАММ

(28—29 ноября)

БАКУ — 1985

ОГЛАВЛЕНИЕ



“Məktəbəqədər idarələr, ümumtəhsil məktəbləri obyektlərinin inkişaf və yerləşdirilmə sxemi”nin işlənib hazırlanması (məsul icraçı: Eldar Hüseynqulu oğlu Məmmədov) işində ərazi

aspektində məktəbəqədər uşaq idarələrinin və ümumtəhsil məktəblərinin inkişafının müasir vəziyyətinin təhlili verilmiş, onların respublikanın inzibati rayonları üzrə maddi-texniki bazasının müasir vəziyyəti nəzərdən keçirilmişdir. Tədqiqat işində 2000-ci ilədək məktəbəqədər uşaq idarələrinin və ümumtəhsil məktəblərinin inkişafının əsas istiqamətləri və perspektivləri, respublikanın ayrı-ayrı yaşayış məntəqələri üzrə ümumtəhsil məktəblərinin inşaası, ölçüləri müəyyən edilmişdir. İşlənib hazırlanmış sxem məktəbəqədər uşaq idarələrinin və ümumtəhsil məktəblərinin yerləşdirilməsinin planlaşdırılması üçün böyük əməli əhəmiyyət kəsb edirdi.

"Azərbaycan SSR-in elmi-texniki potensialının müasir vəziyyəti və istehsalda elmi və texniki nailiyyətlərin tətbiqinin sürətləndirilməsi üzrə təkliflər" mövzusu 1985-1986-cı illər ərzində yerinə yetirilmişdi. Həmin mövzuda XI beşilliyə elmin sahə, ali təhsil və zavod sektorlarının inkişafının əsas göstəriciləri təhlil edilmiş və onların inkişafının intensivləşdirilmə imkanları müəyyən olunmuşdur. Respublikanın elmi-texniki potensialı, elm və texnikanın nailiyyətlərinin istehsala tətbiqi üzrə mövcud olan ehtiyatların təhlili təqdim olunmuşdu.Tədqiqatda elmi bölmələrin ehtiyatlarının strukturunun yenidən qurulmasının zəruriliyini müəyyən edən əsas amillər olan kadr, maddi-texniki və maliyyə resurslarının respublikanın sosial-iqtisadi inkişafının ən aktual problemlərində təmərküzləşməsini təmin edən şərtlər nəzərdən keçirilmişdir.

"Elmin sahə, ali təhsil və zavod sektorlarının Azərbaycan SSR-in xalq təsərrüfatının inkişafının intensivləşdirilməsinə təsiri" mövzusunda tədqiqat 1986-cı il ərzində aparılırdı. Hesabatda bir manat xərcə illik iqtisadi səmərənin və iqtisadi səmərəliliyin dinamik və struktur xarakteristikaları vasitəsiylə elmi bölmələr üzrə tədqiqat və işləmələrin nəticələrinin, həmçinin Elmi Tədqiqat Təcrübi Konstruktor işlərinin elmi-texniki səviyyəsinin və miqyaslarının qiymətləndirilməsi verilmişdir.

1986-cı ildə bu üç mövzudan başqa elmi-tədqiqat planına uyğun olaraq 19 mövzu, 19 iş və 7 mərhələ üzrə də tədqiqat aparılırdı. Onlar arasında respublikanın məhsuldar qüvvələrinin inkişafının konseptual məqsəd və vəzifələri nəzərdən keçirilmiş və sosial-iqtisadi inkişafın sürətini və proporsiyalarını uzunmüddətli proqnozu həyata keçirən "2005-ci ilədək Azərbaycan SSR məhsuldar qüvvələrinin inkişaf və yerləşdirilmə Sxemi" işinin ilkin təhlilinin işlənib hazırlanmasını qeyd etmək lazımdır. Burada həmçinin respublikanın məhsuldar qüvvələrinin ərazi təşkilinin təkmilləşdirilməsinin əsas istiqamətləri verilmişdir. "Sxem" SSRİ Dövlət Plan Komitəsinin nəzdindəki MQÖŞ-də müzakirə olunmuş və müsbət qiymətləndirilmişdi.

1986-cı ildə Dövlət Plan Komitəsinin göstərişi ilə daha üç mövzu yerinə yetirilmişdi. Onlardan biri "Azərbaycan SSR-də ştamplanmış alüminium qab istehsalının inkişafının əsas istiqamətləri" elmi məruzə həmin ildə bitirilmiş, qalan iki mövzu üzrə tədqiqat davam etdirilirdi. Qeyd olunan elmi məruzənin məqsədi Yerli Sənaye Nazirliyinin müəssisələrində ştamplanmış alüminium qab istehsalının müasir vəziyyətinin tədqiqi, inkişafı və uzunmüddətli perspektivdə Azərbaycan SSR-in əlvan metallurgiyasının idarə edilməsinə dair təkliflərin işlənib hazırlanması idi.

1985-1986-cı illər ərzində institut tərəfindən iki təsərrüfat hesablı iş yerinə yetirilmişdir. Onlardan biri SSRİ Dövlət Tikinti Komitəsinin İnşaat Nəqliyyat Sənayesi Elmi-Tədqiqat Layihə İnstitutunun sifarişi ilə "Azərbaycan SSR-də 2000-ci il müddətinədək fasiləsiz və yeni ixtisaslaşdırılmış nəqliyyat növlərinin inkişafının və yerləşdirilməsinin texniki-iqtisadi əsaslandırılması" (10 min manat dəyərində) işi olmuşdur. İkinci təsərrüfat

hesablı iş isə 1 saylı çörək kombinatının sifarişi ilə "Bir saylı çörək kombinatında iş yerlərinin attestasiyası" (dəyəri 6 min manat) olmuşdur. Təsərrüfat müqaviləli işlərin, institut üzrə qeydiyyata alınmış mövzuların, tematik plan üzrə elmi-tədqiqat işlərinin yerinə yetirilməsi ilə yanaşı, institut 1986-cı ildə direktiv orqanların tapşırığı ilə 40-dan çox plandan kənar iş yerinə yetirdi. Azərbaycan KP MK üçün "Yeni təsərrüfatçılıq şəraitində sahə müəssisələrinin idarə edilməsinin təkmilləşdirilməsi üzrə Respublika Məişət Xidməti Nazirliyinin təşkilatçılıq işlərinin öyrənilməsinin nəticələri haqqında", "Dağlıq Qarabağ Muxtar Vilayətinin iqtisadi və sosial tərəqqisi", "Azərbaycan SSR-in digər Zaqafqaziya respublikaları ilə iqtisadi əlaqələri" adlı materiallar hazırlanmışdır.

Azərbaycan SSR Nazirlər Sovetinə "İnvestisiya siyasəti və əsaslı tikinti" məruzə bölməsinə material hazırlanmışdır. Respublikan ın Dövlət Plan Komitəsinə – "1985-ci ildə rayonun (şəhərin, vilayətin) əmək resursları balansının tərtib edilməsi üçün metodik göstərişlər", "Yeni təsərrüfatçılıq şəraitində "Azərməişətayaqqabı" respublika istehsalat birliyinin işlərinin nəticələri haqqında" materialları hazırlanmışdır. Azərbaycan SSR Elmlər Akademiyasına "Azərbaycan SSR-in 2010-cu ilədək demoqrafik perspektivləri", "İqtisadi normativlərin formalaşma metodlarının təkmilləşdirilməsi üzrə təkliflər" və bir sıra digər materiallar təqdim olunmuşdur.1986-cı ilin aprel ayında institut Azərbaycan SSR on birinci beşillikdə mülki müdafiə problemləri üzrə tədqiqatların aparılmasının yekunu üzrə konfrans keçirmişdir. Həmin konfransın işində SSRİ Müdafiə Nazirliyinin baş təşkilatları, respublika nazirliklərinin və idarələrinin nümayəndələri iştirak etmişdilər. 1986-cı ilin noyabr ayında institut tərəfindən "Elmi-texniki tərəqqinin müasir tələbləri şəraitində elmi-texniki və sosial-iqtisadi proqnozlaşdırmanın təkmilləşdirilməsi məsələləri" mövzusunda respublika seminarı keçirilmişdir. Seminarın işində institutun əməkdaşlarından başqa respublikanın müxtəlif nazirliklərinin və idarələrinin nümayəndələri də iştirak etdilər.

İnstitutun elmi zənginliyinin əsas göstəricisi dərc olunmuş materialların həcmi idi. 1986-cı ildə institutun əməkdaşları tərəfindən 60 məqalə, məruzələrin tezisləri və s. dərc olunmuşdur. İnstitutun bir qrup əməkdaşı respublika televiziyası və radiosunda, həmçinin əmək kollektivlərində öz məruzələri ilə çıxış edirdilər.Bu ildə institut tərəfindən "Azərbaycan SSR-də əsaslı tikintinin problemləri" tematik elmi əsərlər toplusu redaksiya kollegiyasının məsul redaktoru i.e.d. Vahid Cümşüd oğlu Axundovun rəhbərliyi ilə 10 çap vərəqi həcmində olan XIX cildi hazırlanıb nəşr olunmuşdur.


ГОСПЛАН АЗЕРБАЙДЖАНСКОЙ ССР
НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ ЭКОНОМИКИ

ПРОБЛЕМЫ КАПИТАЛЬНОГО СТРОИТЕЛЬСТВА
В АЗЕРБАЙДЖАНСКОЙ ССР

(Научные труды, том XIX)

Баку 1986

Редакционная коллегия:

д.э.н. Ахундов В.Д. (ответственный редактор)

Амирасланов К.Ш.,

Манаширова Т.А. (ответственный секретарь)


СОДЕРЖАНИЕ

Некоторые вопросы повышения эффективности использования основных фондов в промышленности строительных материалов Азербайджанской ССР. . . . . . . 137
Прибыль в социалистическом хозяйстве и особенности ее формирования в строительстве. . . . . . . . . . . . . . 144
Совершенствование организации управления жилищным строительством в условиях крупного города. . . . . . . . . . 153
Эффективность использования металлопроката в строительстве в условиях ускорения научно-технического прогресса. . . . . . . . . . . . . . 156
Особенности планирования воспроизводства основных фондов в условиях интенсификации экономического развития. . . . . .

1986-cı ilin sonuna institut əməkdaşlarının sayı 273 nəfərdən ibarət idi. İnstitutda 104 elmi işçi, o cümlədən 2 elmlər doktoru (Vahid Cümşüd oğlu Axundov və Maksim Abramoviç Abramov) və 51 elmlər namizədi çalışırdı.Bu ildə institutun 4 əməkdaşı (Əmirxan Mehralı oğlu Babaşov, Qəhrəman İlyas oğlu Şükürov, Elman Sirəc oğlu Rüstəmov və Rüstəm Ağa oğlu Ağayev) iqtisad elmlər namizədi alimlik dərəcəsini almaq üçün təqdim etdikləri dissertasiya işlərini müdafiə etdilər.

1987-ci ildə institut tərəfindən elmi-tədqiqat işləri Azərbaycan SSR Dövlət Plan Komitəsinin 1987-ci il 30 yanvar tarixli Kollegiyası tərəfindən təsdiq olunmuş "1987-ci ilə Elmi-tədqiqat işləri planı"na uyğun olaraq, həmçinin yuxarı orqanların direktiv göstərişləri nəzərə alınmaqla aparılırdı.Həmin il institutda 25 mövzu, 26 iş, 12 mərhələ üzrə tədqiqat işi aparılırdı. Bundan başqa iki iş təsərrüfat müqaviləsi əsasında yerinə yetirilirdi. 1987-ci ildə 5 mövzu, 12 iş və 7 mərhələ üzərində işlər sona çatdırıldı.

"Sahəvi planlaşdırmanın metodologiyasının təkmilləşdirilməsi" mövzusu üzrə tədqiqatlar 1985-1987-ci illər ərzində aparılırdı və özündə 3 mərhələni birləşdirirdi: "Planlaşdırmada iqtisadi normativlərin səmərəli istifadəsinin normativlərin formalaşdırılması metodlarının təkmilləşdirilməsi üzrə təkliflər", "İqtisadi normativlərin təsnifatı və tərkibi üzrə təkliflər". Tədqiqatın gedişində planlaşdırma və iqtisadi stimullaşdırmada normativlərin istifadəsinin səmərəliliyi, onların iqtisadi və metodik əsaslandırılması qiymətləndirilmiş, on ikinci beşillikdə sahəvi xüsusiyyətlər nəzərə alınmaqla iqtisadi normativlərin tətbiqi sisteminin, formalaşdırılma metodlarının təcrübədə təkmilləşdirilməsi yolları müəyyən edilmişdir. Aparılmış tədqiqatda "Normativlərin planlaşdırılmasının metodologiyası" anlayışını müəyyən etməyə cəhd edilmiş, normativlərin planlaşdırılmasının əsas prinsipləri nəzərdən keçirilmiş və əsaslandırılmış normativlərin qruplaşdırılması və təsnifatı verilmişdir.

"Kənd təsərrüfatı istehsalında elmi-texniki tərəqqinin iqtisadi problemləri" mövzusu üzrə tədqiqat 1986-1987-ci illər ərzində aparılmışdır. Bu mövzu iki işdən ibarət idi, onlardan biri "Elmi-texniki tərəqqi və kənd təsərrüfatı istehsalının səviyyəsinin və səmərəliliyinin yüksəldilməsində onun rolu" adlanırdı. Bu işdə qeyd olunurdu ki, elmi-texniki tərəqqi kənd təssərüfatı istehsalının hərtərəfli keyfiyyət mükəmməlliyini əhatə edir, əkinçiliyin və heyvandarlığın bütün sahələrində mexanikləşdirmənin, avtomatlaşdırmanın və elektrikləşdirmənin tətbiqini nəzərdə tutur. "Kənd təsərrüfatı istehsal infrastrukturu sahəsində elmi-texniki tərəqqi" adlanan ikinci işdə qeyd olunurdu ki, iqtisadi inkişafın indiki mərhələsində əhalinin ərzaq məhsullarına tələbatının tam təmin edilməsi daha çox yetişdirilmiş məhsulun saxlanılmasından və onun itkilərinin azaldılmasından asılıdır. Lakin kənd təsərrüfatı məhsullarının saxlanılması, daşınması və emal edilməsi ilə məşğul olan aqrar-sənaye kompleksinin mövcud inkişaf səviyyəsi ərzaq təchizatının yaxşılaşdırılması vəzifələrinə və Ərzaq proqramının yerinə yetirilməsinə cavab vermirdi.

"Azərbaycan SSR-də elmin təcrübi-eksperimental bazasının vəziyyəti və onun səmərəliliyinin yüksəldilməsi yolları" mövzusu üzrə tədqiqat işi 1986-1987-ci illər ərzində aparılmışdır. Yerinə yetirilən tədqiqatın məqsədi respublikanın təcrübi-eksperimental bazasının inkişafının müasir səviyyəsinin qiymətləndirilməsindən və onun planlı və proporsional inkişafının təmin edilməsi üzrə tövsiyələrin tərtib edilməsindən ibarət idi. İşdə qarşıya qoyulmuş vəzifələrə uyğun olaraq elmi idarələrin təcrübə bazaları ilə təmin edilmə dərəcəsinin təhlili verilmiş, bu məsələ nəinki sahəvi, həm ərazi bölgüsündə, həm də elmi bölmələr üzrə nəzərdən keçirilmişdir. Respublikanın təcrübə bazalarının kadr resurslarının təhlili göstərirdi ki, onların kəmiyyət və keyfiyyət tərkibi o dövrün tələblərinə uyğun gəlmirdi. Yoxlanılmış bazaların 80%-dən çoxunda nəzərə çarpacaq işçi çatışmazlığı qeyd olunurdu. Təcrübi-eksperimental bazaların işçilərinin keyfiyyət tərkibinin əhəmiyyətli təkmilləşməyə ehtiyacı vardı.

"Azərbaycan SSR sənayesində mexanikləşdirmə və avtomatlaşdırmada əsas vasitələrdən istifadənin səmərəliliyi" mövzusu üzrə tədqiqat işi 1987-ci il ərzində aparılmışdır.

İşin məqsədi istehsal proseslərində mexanikləşdirilmə və avtomatlaşdırılmanın əsas vasitələrindən istifadənin müasir vəziyyətinin qiymətləndirilməsi və bunun əsasında onlardan istifadənin səmərəliliyinin yüksəldilməsinə imkan yaradan təkliflərin hazırlanmasından ibarət idi. Aparılan tədqiqat göstərdi ki, respublika sənayesində uzun müddət ərzində elmi-texniki tərəqqinin ayrı-ayrı istiqamətləri üzrə tədbirlərin tətbiqi zamanı artım sürətində xeyli fərqlər və ifrat bərabərsizliklər müşahidə olunmuşdur. İstifadə olunan avadanlığın modernləşdirilməsi və hesablama texnikasının tətbiqi üzrə tədbirlərin kəmiyyətində mütləq azalma baş vermişdir. Avtomatlaşdırma kimi belə vacib istiqamətlər üzrə artım qeyd olunmurdu. İşdə qeyd olunurdu ki, 1958-ci ilə qədər hətta respublikanın maşınqayırma və metal emalı müəssisələrində bir dənə də olsun avtomatlaşdırılmış xətt quraşdırılmamışdır. İstehsalın mexanikləşdirilmə və avtomatlaşdırılma vasitələrinin əsas artımı IX, xüsusilə X və XI beşilliklər dövrünə təsadüf etmişdi.

“Azərbaycan SSR elm və elmi xidmət müəssisələrinin inkişafı və yerləşdirilməsi Sxemi” mövzusu üzrə tədqiqat işi 1986-1987-ci illər ərzində yerinə yetirilmiş və “Sxem” ilkin layihə variantı kimi təqdim edilmişdir. “Sxem”də Azərbaycan SSR elmi-texniki potensialının müasir vəziyyəti və ondan istifadənin səmərəliliyi nəzərdən keçirilmiş, maddi-texniki, kadr, maliyyə, məlumat və təşkilati tərkibinin inkişafının təhlili verilmiş, respublikanın elmi potensialının yerləşdirilməsinin təkmilləşdirilməsinin əsas istiqamətləri müəyyən edilmiş, elmi potensialın tərkibinin dinamikasının proqnoz variantı verilmiş, ümumilikdə respublikanın 2005-ci ilədək sahələrinin inkişafının vacib elmi-texniki problemləri müəyyən edilmişdir.

Başa çatdırılmış 5 mövzudan başqa, 1987-ci ildə elmi-tədqiqat işinin planına uyğun olaraq daha 20 mövzu, 23 iş və 11 mərhələ üzrə tədqiqatlar aparılmışdır. Onların arasında 1975-1990-cı illər üçün xalq təsərrüfatının ayrı-ayrı sahələrinin və sənaye sahələrinin inkişafının, 2005-ci ilədək onların inkişafının əsas istiqamətlərinin, həmçinin 2005-ci ilədək beşilliklər üzrə nazirliklərin və idarələrin materialları əsasında məhsuldar qüvvələrin inkişafının və yerləşdirilməsinin əsas göstəricilərinin təhlili əsasında “2005-ci ilədək Azərbaycan SSR məhsuldar qüvvələrinin inkişafı və yerləşdirilməsi Sxemi”nin dəqiqləşdirilmiş variantının işlənib hazırlanması xüsusilə seçilirdi.

Tematik plan üzrə işlərin, təsərrüfat müqaviləli işlərin, institut üzrə verilən əmrlə qeydiyyata alınmış mövzuların yerinə yetirilməsi ilə yanaşı 1987-ci ildə institut tərəfindən direktiv orqanların tapşırığı üzrə 50-yə yaxın iş yerinə yetirilmişdir. .

1987-ci il iyun ayının sonunda i.e.d. Vahid Cümşüd oğlu Axundov institutun direktoru vəzifəsindən azad edilmişdir. 1987-ci il dekabr ayının əvvəlinə qədər direktor vəzifəsini müvəqqəti olaraq i.e.n. Eldar Sirac oğlu Nuriyev icra etmişdir. “İctimai istehsalın intensivləşdirilməsi problemləri” mövzusunda redaksiya kolle-giyasının məsul redaktoru i.e.n. Eldar Sirac oğlu Nuriyevin rəhbərliyi ilə elmi əsərlərin 10 çap vərəqi həcmində XX cildi nəşr edilmişdir.

1987-ci il dekabr ayının əvvəlində Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında ETİİ-nin direktoru vəzifəsinə i.e.d., professor Qorxmaz Cahangir oğlu İmanov təyin edilmişdir.



ISSN 0136-5940

ГОСПЛАН АЗЕРБАЙДЖАНСКОЙ ССР

НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ ЭКОНОМИКИ

ПРОБЛЕМЫ ИНТЕНСИФИКАЦИИ

ОБЩЕСТВЕННОГО ПРОИЗВОДСТВА

(Научные труды, том XX)

Баку 1987



Редакционная коллегия:



СОДЕРЖАНИЕ



1988-ci ildə ETİİ-də tədqiqatlar 3 istiqamət üzrə aparılırdı:

I. Sovet iqtisadiyyatının inkişaf perspektivləri. Ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi yolları;

II. Sosial inkişafın əsas istiqamətləri. Xalqın maddi rifah halının yüksəldilməsi-nin, əmək və həyat şəraitinin yaxşılaşdırılmasının problemləri və perspektivləri;

III.Sovet cəmiyyətinin keyfiyyətcə dəyişdirilməsi məqsədilə sosialist istehsal münasibətlərinin inkişafı.

Bu ildə 8 mövzu, 13 iş və 10 mərhələ başa çatdırılmışdır. Bundan başqa 38.6 min manat məbləğində təsərüfat müqaviləsi əsasında 3 iş yerinə yetirilmişdir.

Azərbaycan SSR Dövlət Plan Komitəsinin neft-qazçıxarma şöbəsinin tapşırığı ilə “Azneft” Sənaye Birliyinin yataqlarında layların neftverməsinin artırılmasının yeni metodlarının iqtisadi səmərəliliyinin təhlili” mövzusu üzrə tədqiqat işi 1988-ci il ərzində aparılmışdır. İşdə “Azneft” Sənaye Birliyi Neft-Qaz Hasilatı İdarəsinin (NQHİ) fəaliyyətinin 1985-1987-ci illər üçün əsas texniki göstəricilərinin qısa təhlili verilmişdir. Təhlil göstərdi ki, ümumilikdə həm birliklər üzrə, həm də ayrı-ayrı NQHİ-ri üzrə nəzərdən keçirilmiş müddətdə göstəricilər pisləşmişdir, yəni neft və qaz hasilatının, ümumi məhsulun həcmi azalmış, 1 ton neftin dəyəri artmış, bu da əsasən respublikanın qurudakı yataqlarının uzunmüddətli istifadəsindən və lay enerjisinin tükənməsindən irəli gəlirdi. Buna görə də köhnə, çox işlənmiş yataqlarda təkrar üsulların tətbiqi kifayət qədər səmərə vermədiyi üçün yeni metodların tətbiq edilməsi tələb olunurdu.

“Regionun elmi-texniki potensialının idarə edilməsinin təkmilləşdirilməsi” elmi-tədqiqat işi bir il yarım müddətdə aparılmışdır. İşdə tədqiqat obyekti bir tərəfdən ərazidə əsas kadr, maddi-texniki, maliyyə, təşkilati tərkibinə görə yerləşən elmi müəssisələrin inkişaf səviyyəsiylə xarakterizə olunan respublikanın elmi potensialını, digər tərəfdən istehsal proseslərinin mexanikləşdirmə və avtomatlaşdırma dərəcələrinin, texnologi-yaların, maşın və avadanlıqların inkişaf səviyyəsini xarakterizə edən Azərbaycan SSR-in elmi-texniki potensialı idi. Tədqiqatın məqsədi respublikanın xalq təsərrüfatının qarşısında duran vəzifələrin əsas tərkibinin təhlili əsasında Azərbaycan SSR elmi-texniki potensialının təkrar istehsalına və formalaşdırılması prosesinə məqsədyönlü təsir üzrə iqtisadi və təşkilati tədbirlər kompleksinin hazırlanması idi. Vəzifələrin əsas tərkibinin təhlilinin nəticələri əsasında aparılan elmi-tədqiqat işində, respublikanın elmi potensialının idarə edilməsinin təkmilləşdirilməsinin əsas istiqamətləri və inkişaf prioritetləri, respublikanın elmi potensialının idarə edilməsinin iqtisadi və təşkilati əsaslarının təkmilləşdirilməsi üzrə bir sıra tövsiyələr müəyyən edilmişdir.

“Azərbaycan SSR Aqrar Sənaye Kompleksində (ASK) kənd təsərrüfat məhsullarının istehsalının artırılması ehtiyatları” mövzusu üzrə tədqiqat işi 1988-ci il ərzində aparılmışdır. İşdə yüksək inkişaf etmiş kənd təsərrüfatının yaradılmasının elmi-texniki tərəqqinin bütün nailiyyətlərindən geniş istifadə edilməsi əsasında, gələcək intensivləşdirmə yolu ilə kənd təsərrüfatı istehsalının artırılması üçün bütün potensial ehtiyatlarını səfərbər etməklə mümkün olması göstərilirdi. Qeyd olunurdu ki, kənd təsərrüfatı məhsulu istehsalının inkişafı üçün torpaq sahələrinin səmərəli istifadəsi vacib rol oynayır. Belə ki, respublikanın kənd təsərrüfatına yararlı torpaqlarının 4.3 mln. ha olmasına baxmayaraq, işlənmiş sahələr yalnız 1.8 mln ha və ya 42% kənd təsərrüfatına yararlı torpaqlardan ibarətdir.

“2005-ci ilədək olan dövrdə Azərbaycan SSR inzibati rayonları səviyyəsində mədəniyyət obyektlərinin inkişafı və yerləşdirilməsi sxeminin işlənib hazırlanması” mövzusu

üzrə elmi-tədqiqat işi 2 mərhələdə yerinə yetirilmişdir. 1987-ci ildə birinci mərhələ - "2005-ci ilədək olan dövrdə respublikada kütləvi kitabxanalar şəbəkəsinin inkişafı və yerləşdirilməsi" - yerinə yetirilmiş, "2005-ci ilədək olan dövrdə respublikada kino qurğularının inkişafı və yerləşdirilməsi" ikinci mərhələ üzrə tədqiqat 1988-ci ildə aparılmışdır. 1987-ci ildə aparılmış tədqiqatın əsas məqsədi respublikada kitabxana müəssisələri şəbəkəsinin vəziyyətinin öyrənilməsi və gələcək inkişaf yollarının müəyyən edilməsi idi. İşin ikinci mərhələsində əsasən "2005-ci ilədək olan dövrdə respublikada kino qurğularının inkişafı və yerləşdirilməsi" respublikanın kino qurğularının əsas hissəsini təşkil edən Kinematoqrafiya Komitəsi üzrə kino qurğularının vəziyyəti nəzərdən keçirilmişdir. Kino qurğuları şəbəkəsinin yerləşdirilməsinin təhlili əsasında aydın olmuşdur ki, kino zallarının yerləşdirilməsi və tutumu regionlarda yerləşdirilmə sistemindən, planlaşdırılmış strukturdan və əhalinin sayından asılıdır.

Bu ildə institut tərəfindən həmçinin Respublika Dövlət Plan Komitəsi tərəfindən müzakirə edilən və bəyənilən "2005-ci ilədək olan dövrdə Azərbaycan SSR-in sosial-iqtisadi inkişaf konsepsiyası"nın dəqiqləşdirilmiş variantı işlənib hazırlanmışdır. Daha sonra, 1988-ci il 4 mart tarixində konsepsiyanın bu variantına SSRİ Dövlət Plan Komitəsində baxılmış və bəyənilmişdir.

1988-ci ildə elmi-tədqiqat işlərinin tematik planlarının, təsərrüfat müqaviləli işlərin yerinə yetirilməsi ilə yanaşı, institut direktiv orqanlar ın tapşırığ ı ilə plandankənar 40-dan artıq iş yerinə yetirmişdir. Elə həmin ildə institut tərəfindən redaksiya kollegiyasının məsul redaktoru i.e.d., professor Qorxmaz Cahangir oğlu İmanovun rəhbərliyi ilə "Azərbaycan SSR-in sosial inkişaf problemləri" elmi əsərlərin 13 çap vərəqi həcmində XXI cildi hazırlanmış və nəşr edilmişdir.

Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında ETİİ-yə 1987-ci ildə Qorxmaz Cahangir oğlu İmanovun yeni direktor təyin edilməsi ilə 1988-ci ildə institutun həm rəhbərliyində, həm də struktur bölmələrində müəyyən dəyişikliklər aparılmışdır. Belə ki, direktor müavini vəzifəsinə 1988-ci ildə doktorluq dissertasiyasını müdafiə etmiş və instituta gəlməmişdən əvvəl Azərbaycan SSR Elmlər Akademiyası sistemində çalışmış i.e.d. Sofiq Kəlbi oğlu Hüseynov təyin edilmiş, elmi katib vəzifəsinə isə i.e.n Rasim Tapdıq oğlu Həsənov təyin edilmişdir. Şöbə müdirləri vəzifələrinə Rüstəm Ağa oğlu Ağayev, Rauf Mikayıl oğlu Məmmədov, Zemfira Məhərrəm qızı Məmmədova təyin edilmişdilər.


ISSN 0135-3948

ГОСПЛАН АЗЕРБАЙДЖАНСКОЙ

НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ ЭКОНОМИКИ

ПРОБЛЕМЫ
СОЦИАЛЬНОГО РАЗВИТИЯ
АЗЕРБАЙДЖАНСКОЙ ССР
(Научные труды, том XXI)

БАКУ-1988

Редакционная коллегия:

д.э.н., профессор Имамов К.Дж.(ответственный редактор),
к.э.н. Нуриев Э.С.(зам. ответственного редактора),
д.г.н. Абрамов М.А., к.э.н. Амирасланов К.Ш.,
к.э.н. Бабаев А.М., к.э.н. Кулиев Дж.Б.,
к.э.н. Новрузов В.Т.(ответственный секретарь)


СОДЕРЖАНИЕ

1988-ci ilin sonuna işçilərin sayı 265 nəfərdən, o cümlədən 113 elmi işçidən ibarət idi. Elmi işçilərdən üçü elmlər doktoru (Qorxmaz Cahangir oğlu İmanov, Sofiq Kəlbi oğlu Hüseynov, Maksim Abramoviç Abramov) və 55-i elmlər namizədi idi.


ГОСПЛАН АЗЕРБАЙДЖАНСКОЙ ССР

Научно-исследовательский институт экономики

Для служебного пользования

УДК 338.27

УТВЕРЖДАЮ

О Т Ч Е Т

О НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКОЙ РАБОТЕ

ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ПОТРЕБЛЕНИЯ НАСЕЛЕНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ ССР В ДОЛГОСРОЧНОЙ ПЕРСПЕКТИВЕ


СПИСОК ИСПОЛНИТЕЛЕЙ

Ответственный исполнитель зав. сектором, к.э.н. — А.М. Бабаев

Ст. науч. сотр. к.э.н. — Ф.С. Бабаев

Мл. науч. сотр. — А.М. Тагиева

Старший экономист

Старший экономист — Т.Н. Мир-Гусейнова


ГОСПЛАН СССР

НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ ЭКОНОМИЧЕСКИЙ ИНСТИТУТ

Зам. директора института

**1989-cu ildə** institut tərəfindən elmi-tədqiqat işləri Azərbaycan SSR Dövlət Plan Komitəsi Kollegiyasının təsdiq etdiyi, həmçinin yuxarı təşkilatların direktiv göstərişləri nəzərə alınmaqla 1989-cu ilə elmi-tədqiqat işlərinin planına uyğun aparılırdı. Bu ildə 7 mövzu, 24 iş və 10 mərhələ başa çatdırılmışdır.

"Neft, qaz, su, torpaq, meşə, mineral-xammal ehtiyat növləri üzrə 1990-2010-cu illərə SSRİ xalq təsərrüfatının təbii ehtiyatlarla inkişafının təmin edilməsinin iqtisa-di qiymətləndirilməsi" mövzusu üzrə tədqiqat işi SSRİ Elmlər Akademiyasının sifarişi ilə 1986-1989-cu illər ərzində aparılmışdı.

İşin məqsədi təbii resursların geoloji ehtiyatlarının iqtisadi qiymətləndirilməsi və onlardan istifadənin iqtisadi məqsədəuyğunluğunu müəyyən etmək idi. İşdə hər ehtiyat növünə xüsusi bölmə hə sr edilmişdi.Su resurslarına həsr edilmiş bölmədə göstərilmişdir ki, Zaqafqaziyanın ümumi su ehtiyatlarından (310 mln. kub m) daha böyük hissəsi, yəni 62%-i Gürcüstan SSR-in, 28%-i Ermənistan SSR-in və yalnız 10%-i Azərbaycan SSR-in payına düşür.

Torpaq resursları bölməsində qeyd olunurdu ki, respublikanın torpaq fondu 8641,5 min ha təşkil edir. Adambaşına düşən əkin torpaqları 0.21 ha-dır, kənd təsərrüfatına yararlı torpaqlar 0,65 ha-dır, SSRİ üzrə isə bu göstəricilər uyğun olaraq 0,88 və 2,3 ha-ya bərabərdir.

“Neft və qaz” bölməsində qeyd olunurdu ki, 1988-ci il 1 yanvar tarixə respublikanın quru yataqları üzrə A+B+C1 neft kateqoriyalarının geoloji və hasil edilən ehtiyatları balans üzrə 41 yataqda nəzərə alınmış və uyğun olaraq, ümumilikdə, respublika üzrə neft ehtiyatlarının 1678,9 mln.ton və 206,0 mln ton və yaxud 63,8% və 44,7%-ni təşkil edir. Cı kateqoriyasının geoloji və hasil edilən ehtiyatları uyğun olaraq 150,6 mln.t. və 33,4 mln.t. təşkil edir.

“Azərbaycan SSR-də pərakəndə ticarətin malla təminatının təkmilləşdirilməsinin əsas istiqamətləri” mövzusu üzrə tədqiqat işi 1988-1989-cu illər ərzində aparılmışdır. Elmi işdə Azərbaycan SSR Dövlət Plan Komitəsinin tapşırığı üzrə yerinə yetirilmiş və onun nəticə və təklifləri “Respublikanın tam təsərrüfat hesabı şəraitində ticarət mexanizmləri” adı altında rəhbər orqanlara təqdim edilmişdi. İşdə mal ehtiyatlarının hər növ üzrə həcmi sənayedə, topdan satış bazalarında, pərakəndə şəbəkələrdə və yollarda tədqiq edilmişdi. Çoxlu miqdarda məlumatların aparılmış təhlilinə əsasən, müəlliflər respublikada pərakəndə satışın mal təminatının müasir vəziyyətinin əslində nə yerdə olduğunu üzə çıxarmağa nail oldular.İşdə xalq istehlakı mallarının pərakəndə satışının hər bir mal qrupları üzrə təmin edilməsinin müasir vəziyyətinin əsas göstəricilərinin aparılmış təhlili əsasında, respublikada pərakəndə satışın mal təminatının əsas istiqamətlərinin təkmilləşdirilməsinə imkan verən konkret təkliflər işlənib hazırlanmışdı.

“2005-ci ilədək olan mərhələdə Azərbaycan SSR-nin Dağlıq Qarabağ Muxtar Vilayətinin iqtisadi və sosial inkişafının kompleks proqramı” Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin 1988-ci il 24 mart tarixli 371 saylı və Azərbaycanın KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 1988-ci il 26 aprel tarixli 160 saylı “1988-1995-ci illərdə Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi üzrə tədbirlər haqqında” qərarlarının icrası üçün işlənib hazırlanmış, bu kompleks proqram vilayətin məhsuldar qüvvələrinin hərtərəfli inkişafını nəzərdə tuturdu.

Kompleks proqramın işlənib hazırlanmasında müttəfiq və sahəvi sxemlərdən, SSRİ və Azərbaycan SSR nazirliklərinin və idarələrinin ayrı-ayrı təkliflərindən istifadə olunmuşdur. “2005-ci ilədək olan mərhələdə Azərbaycan SSR DQMV-nin iqtisadi və sosial inkişafının kompleks proqramı”, “2005-ci ilədək olan mərhələdə Azərbaycan SSR-in məhsuldar qüvvələrinin inkişafı və yerləşdirilməsi sxemi” və Azərbaycan SSR-də işlənib hazırlanan bir sıra digər proqramlarla sıx bağlı olmuşdur.

“2005-ci ilədək olan mərhələdə Azərbaycan SSR əhalisinin maddi rifah halının və sosial inkişafının yüksəldilməsinin kompleks proqramı” üzrə tədqiqatlar Əmək və Sosial məsələlər üzrə Dövlət Komitəsi tərəfindən hazırlanmış “Xalqın maddi rifah halının sosial inkişafı və yüksəldilməsi kompleks proqramının əsas müddəaları”na uyğun olaraq aparılırdı. İşlənib hazırlanmış kompleks proqramın məqsədi Sov. İKP MK-nın 1985-ci il aprel Plenumundan sonra nəzərdə tutulan müsbət dəyişikliklərin və bununla yanaşı sosial-iqtisadi inkişafda mövcud olan çatışmamazlıqların hərtərəfli təhlili əsasında respublikada sosial sahədə dəyişikliklərin həyata keçirilməsi üçün vasitə və yolların əsas istiqamətlərinin müəyyən edilməsindən ibarət idi.Respublikada sosial sahənin inkişafının perspektiv istiqamətlərinin işlənib hazırlanmasında əsas diqqət respublikanın spesifik xüsusiyyətlərini nəzərə almaqla prioritet qərarlar tələb edən sosial məsələlərə yönəlmişdi. Bununla əlaqədar 2005-ci ilədək olan mərhələdə respublikanın sosial-mədəni və kommunal-məişət sahələrinin perspektiv inkişaf problemləri tədqiq edilmişdir. Elmi-tədqiqat işlərinin tematik plan, təsərrüfat müqavilələi işlərin

yerinə yetirilməsi ilə yanaşı institut 1989-cu ildə rəhbər orqanların tapşırığı ilə 50-dən çox plandankənar iş yerinə yetirmişdir.

İnstitutun öz təşəbbüsü ilə respublikanın xalq təsərrüfatının və onun sahələrinin özünümaliyyələşdirmə və özünüidarəetmə prinsiplərinə keçmə imkanlarının öyrənilməsi üzrə çox saylı tədqiqatlar aparılmışdır.

İqtisadi müstəqillik üzrə konsepsiyanın müzakirəsində iştirak edərək institutun aparıcı alimləri respublikanın qəzet və jurnal səhifələrində, televiziya və radiosunda dəfədən çox çıxışlar etmişdilər, ümumittifaq və respublika konfranslarında, müşavirələrində və dəyirmi masalarda fəal iştirak edirdilər.

1989-cu ildə redaksiya kollegiyasının məsul redaktoru i.e.d., professor Qorxmaz Cahangir oğlu İmanovun elmi rəhbərliyi ilə "Azərbaycan SSR-in sosial-iqtisadi inkişafı problemləri" adlı elmi əsərlərin 10 ç.v. həcmində XXII cildi nəşr edilmişdir.



ISSN 0136-3948

ГОСПЛАН АЗЕРБАЙДЖАНСКОЙ ССР
НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ ЭКОНОМИКИ

ПРОБЛЕМЫ
СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ
АЗЕРБАЙДЖАНСКОЙ ССР

(Научные труды, том XXII)

Баку – 1989

Редакционная коллегия:

д.э.н., профессор Имамов К.Дж. (ответственный редактор),
д.э.н. Гусейнов С.К. (зам.ответственного редактора),
к.э.н. Кулиев Дж.Б., к.э.н. Мамедов Р.В.,
к.э.н. Гасанов Р.Т., к.э.н. Новрузов В.Т.
к.э.н. Рустамов Э.С., Гусейнов Р.Г.,
Портнов А.М. (ответственный секретарь)


СОДЕРЖАНИЕ

ПРЕДИСЛОВИЕ ... 3
О взаимосвязи [illegible] страны и союзных республик в условиях регионального хозрасчета ... 5
Состояние и проблемы развития экономических связей Азербайджана в условиях перехода на региональный хозрасчет ... 20
Методологические вопросы моделирования и определения эффективности внешнеэкономических связей региона ... 28
Моделирование региональной экономики с учетом социальных факторов ... 37
Перестройка механизма хозяйствования ... 51
Особенности нормативного планирования в условиях самофинансирования ... 61
[illegible] ... 69
[illegible] ... 78
[illegible] ... 86
[illegible] ... 96
[illegible] ... 102
Проблемы развития отраслей химического комплекса Азербайджана ... 114
Проблемы развития отраслей [illegible] комплекса Азербайджанской ССР ... 127
[illegible]

**1990-cı ildə** institut 27 mövzu üzrə tədqiqatlar aparmışdır. Bundan başqa iki iş təsərrüfat müqaviləsi əsasında yerinə yetirilirdi. Bu ildə 22 mövzu üzrə tədqiqat başa çatdırılmışdı.

“Maddi istehsal sahələrində əmək məhsuldarlığının ən yüksək səviyyəsinə çatma perspektivləri” mövzusu üzrə tədqiqat işi SSRİ Dövlət Plan Komitəsi yanında İETİ-nin sifarişi ilə 1986-1990-cı illər ərzində yerinə yetirilmişdir. Bu mövzu çərçivəsində əmək məhsuldarlığının yüksəldilməsi ehtiyatlarının aşkarlanması üzrə tədqiqatlar maddi istehsal sahələrində və xüsusilə aşağıdakı sahələr üzrə aparılırdı:

- kimya, neftkimya və neft emalı sənayesində; dağ-mədən və metallurgiya sənayesində;
- inşaat materialları sənayesində;
- maşınqayırma sənayesində;
- emal sənayesində;
- yüngül sənayedə.

Həmin dövrdə institutun elmi fəaliyyətində əsas istiqamət “2010-cu ilədək olan dövrdə demoqrafik siyasət və Azərbaycan SSR-də əhali artımının əsas meyilləri” mövzusunun işlənib hazırlanmasında iştirak olmuşdur. Elmi-tədqiqat işlərinin planına əsasən həmin ildə “2010-cu ilədək olan dövrdə əhalinin dinamikasının və strukturunun perspektivləri” işinin yerinə yetirilməsi nəzərdə tutulmuşdur.

Demoqrafik inkişafın elmi əsaslandırılmasını qabaqcadan müəyyənləşdirmək məqsədilə işin bu mərhələsində əhalinin artımının əsas komponentləri, yəni doğum sayı, ölüm sayı, respublikadaxili və respublikalararası miqrasiyanın həcmləri perspektiv üçün işlənib hazırlanmışdır.İşlənib hazırlanmış ehtimallar əsasında 2011-ci ilədək olan dövrə yaşların dəyişməsi üsulu ilə cins və yaş üzrə, o cümlədən şəhər və kənd məskunlaşmaları üzrə,

ümumilikdə respublika əhalisinin say proqnozu həyata keçirilmişdir. Həmçinin, bu mövzu çərçivəsində Azərbaycan SSR-nin Naxçıvan MSSR və DQMV-nin xüsusi əhali qruplarının miqrasiyasının təhlili üzrə tədqiqatlar yerinə yetirilmişdir.

"On üçüncü beşillikdə və uzunmüddətli perspektivdə əmək resurslarının xalq təsərrüfatı tələbatı ilə tarazlaşdırılmasının təmin edilməsi problemləri" mövzusu üzrə tədqiqat işi 1986-1990-cı illər ərzində apar ılmışdır. Bu mövzunun sifarişçisi SSRİ Dövlət Plan Komitəsi yanında İETİ olmuşdur.

Bu ildə yerinə yetirilmiş iş əvvəlki illərdəki mövzulardan öz prinsipiallığı ilə fərqlənirdi. Bu fərqlər ondan ibarət idi ki, əmək resurslarının tarazlaşdırılmasının təmin edilməsi və məşğulluğun strukturunun formalaşma yollarının öyrənilməsi nəinki məşğulluğun optimallaşdırma səviyyəsinə çatmaq məqsədindən, həm də hər şeydən əvvəl respublikanın 90-cı illərdə tamamilə iqtisadiyyatın idarə edilməsinin bazar mexanizmlərinə keçməsinin vacib olması amilindən irəli gəlirdi. Respublika şəraitində bu proses iqtisadiyyatda qeyri-səmərəli, zərərlə işləyən müəssisələrin, köhnəlmiş avadanlığı olan sənaye müəssisələrinin üstünlük təşkil etməsi ilə xeyli mürəkkəbləşdirilmişdi. Bunu nəzərə alaraq işsiz əhalinin sayının yüksək olduğu Azərbaycanda bazar iqtisadiyyatına keçid işsizlərin sayına necə təsir edəcəyi barədə sual maraq kəsb edirdi.

İşdə əmək resurslarının və yeniləşdirilmiş iş yerlərinin tarazlaşdırılmasının zəruriliyini nəzərə almaqla, onillik müddət ərzində əhalinin məşğulluğunun optimal həddə çatdırılması üçün, köhnə iş yerlərinin texniki yeniləşdirilməsi və respublikada yenidənqurmanın işə salınması tələbatını müəyyənləşdirmək məqsədi qarşıya qoyulmuşdu.

1990-cı ildə "Azərbaycan SSR xalq təsərrüfatında ictimai istehsalın və sahələrarası əlaqələrin sahəvi strukturlarının təkmilləşdirilməsinin əsas istiqamətləri" mövzusu üzrə tədqiqatlar başa çatdırıldı. Bu mövzu SSRİ Dövlət Plan Komitəsinin yanında İETİ-nin sifarişi ilə 1986-1990-cı illər ərzində yerinə yetirilmişdir. Bu ildə özünümaliyyələşdirmə və özünüidarəetmə şəraitində xalq təsərrüfatı strukturunun optimallaşdırılması üzrə iş başa çatdırılmışdır.Tədqiqatın gedişində 1995-ci ilədək olan dövrdə iqtisadi şəraitdə respublikanın iqtisadiyyatının inkişafının optimallaşdırılmasının hesablanmaları üçün baza kimi xidmət edən 1986-1990-cı illərə xüsusi diqqət verilmişdir.

Respublikanın sosial-iqtisadi inkişafının 1986-1990-cı illərdəki nəticələrinin kompleks təhlili göstərirdi ki, respublika təsərrüfat və mədəni quruculuq yollarında və perspektiv inkişafın məqsədli quruculuğunun reallaşdırılması üçün lazımi ilkin şəraitin yaradılmasında müəyyən mərhələ keçmişdir.

Bu ildə həmçinin "Azərbaycan SSR xalq təsərrüfatının müasir vəziyyətinin araşdırılması və məhsulun idxal və ixracı üzrə iqtisadi əlaqələrin inkişaf perspektivlərinin işlənib hazırlanması" mövzusu üzərində iş başa çatdırılmışdır. Mövzu 1986-1990-cı illər ərzində yerinə yetirilmişdir.

Aparılmış tədqiqat göstərirdi ki, Azərbaycan SSR ictimai əmək bölgüsünə, istehsalın ixtisaslaşması və kooperasiyasına, ümumittifaq iqtisadi inteqrasiyaya daha fəal daxil olur. 80-ci illərin ortalarında Azərbaycanın sənaye məhsulunun təqribən yarısı ümumittifaq iqtisadi dövriyyə sahəsinə və 80-dən çox xarici ölkələrə istiqamətlənirdi. Bununla yanaşı, Mərkəzdə dövlət idarəetmə orqanları ilə konkret problemlər üzrə tədqiqat işlərinin aparılması istiqamətində sıx əlaqələrin yaradılması prosesi də inkişaf etdirilirdi. Mərkəzin əməkdaşları

ekspert qismində müntəzəm olaraq Azərbaycan Respublikası Ali Sovetinin və icra strukturlarının işində də fəal iştirak edirdilər.

Əmələ gələn əlaqələrdən görünür ki, respublika xalq təsərrüfatının inkişafı gücləndirilmiş iqtisadi əlaqələr, ixracın idxal üzərində daim artan üstünlüyü şəraitində həyata keçirilir. Belə şərtlərdə həm ölkənin bütövlükdə, həm də müstəqil ittifaq ölkələrinin bazar münasibətlərinə keçmə ideyası Azərbaycan SSR üçün əsas iqtisadi yeniliklərdən biri idi.

İqtisadi müstəqillik və bazar münasibətlərinə keçid şəraitində iqtisadiyyatın qeyri-səmərəli strukturunun ləğv edilməsindən başqa regionlarla və respublikalarla məhsulun ekvivalent prinsiplər üzərində ixracı üzrə qarşılıqlı və bərabər hüquqlu münasibətlərin inkişafından başlayıb sosial problemlərlə qurtararaq Azərbaycan üçün bir çox ağrılı işləri aradan qaldırmaq üçün yeni imkanlar yaranırdı.

“2010-cu ilədək Azərbaycan SSR-də rekreasiya obyektlərinin şəbəkəsinin yaradılmasının iqtisadi problemləri” mövzusu üzrə tədqiqatlar 1989-1990-cı illər ərzində yerinə yetirilirdi.Tədqiqatın məqsədi respublikada rekreasiya müəssisələrinin şəbəkəsinin müasir vəziyyəti və gələcək inkişaf yollarının müəyyənləşdirilməsi, onların ərazi aspektində inkişaf xüsusiyyətlərinin aşkarlanması olmuşdur. Bazar iqtisadiyyatı və idarəetmənin iqtisadi üsullarının rolunun artırılması şəraitində daha çox əhəmiyyətli rekreasiya təbiət istifadəsinin iqtisadi problemlərinin həlli vacib idi. Rekreasiya sferasının bazar münasibətlərinə keçidi rekreasiya xidmətləri istehsalçıları ilə istehlakçılar arasında qarşılıqlı maliyyə münasibətlərinin təkmilləşdirilməsinə imkan verən təsərrüfat mexanizminin bir sıra zəruri elementlərinin dəqiqləşdirilməsini tələb edirdi.

1990-cı ildə institutun əməkdaşları tərəfindən ETİ-nin tematik planı ilə nəzərdə tutulan, təsərrüfat müqavilələli və başqa işlərlə yanaşı rəhbər orqanların tapşırığı ilə arayış, təhlil icmalı və təkliflər halında 80-dən artıq plandankənar iş yerinə yetirilmişdi.Həmin ildə institutda gənc alim və mütəxəssislərin “Müttəfiq respublikaların iqtisadi müstəqilliyi və onun həyata keçirilməsi yolları” mövzusunda respublika konfransı, “Müttəfiq respublikaların iqtisadi müstəqilliyi problemləri” mövzusunda elmi-praktik konfransı, həmçinin bazar iqtisadiyyatı və menecment üzrə beynəlxalq Azərbaycan-Türk birgə simpoziumu keçirilmişdi.

1990-cı ildə institutun əməkdaşları tərəfindən respublikanın rayon və şəhərlərində, müəssisələrdə, əmək kollektivlərində fundamental iqtisadi qərarların, qətnamələrin, tövsiyələrin və müddəaların praktiki reallaşması məsələləri üzrə, metodiki köməklik göstərilməsi və radikal iqtisadi islahatların vəziyyətinin izahı üzrə əhəmiyyətli işlər görülmüşdür. İnstitutun əməkdaşları il ərzində televiziya və radioda, ümumittifaq və respublika konfranslarında, “Dəyirmi Masa”larda məruzələrlə, qəzet və jurnallarda çoxsaylı məqalələrlə çıxış edirdilər.

1990-cı ildə Moskva şəhərində ETİİ-nin şöbə müdiri Vahid Tapdıq oğlu Novruzov öz doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etdi.

Bu il “İqtisadi müstəqillik və bazar münasibətləri şəraitində Azərbaycanın sosial-iqtisadi inkişaf ı” adlanan elmi əsərlərin 10 ç.v. həcmində XXIII cildi redaksiya kollegiyasının məsul redaktoru Qorxmaz Cahangir oğlu İmanovun rəhbərliyi ilə çapdan çıxmışdır.









Həmin ildə institutun yaranmasının 25 ili tamam oldu. Bu yubiley münasibətilə "Müttəfiq respublikaların iqtisadi müstəqilliyinin problemləri" elmi-praktik konfrans keçirilmişdir. İki hissədən ibarət 24 ç.v. həcmində "Elmi-təcrübi konfransın materialları" çap edilmişdir. Elə həmin ildə SSRİ Ali Attestasiya Komissiyasının qərarı ilə institutda 2 ixtisas üzrə iqtisad elmlər namizədi dərəcəsi almaq üçün dissertasiya müdafiəsi üzrə İxtisaslaşdırılmış Şura yaradıldı. 1990-cı ildə həmin Şuranın dörd iclası və institutun tarixində ilk dəfə iki dissertasiya müdafiəsi keçirilmişdir.


АЗӘРБАЈҸАН ССР ДӨВЛӘТ ПЛАН КОМИТӘСИ
ЕЛМИ-ТӘДГИГАТ ИГТИСАДИЈЈАТ ИНСТИТУТУ

ГОСПЛАН АЗЕРБАЙДЖАНСКОЙ ССР
НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ ЭКОНОМИКИ

25

МҮТТӘФИГ РЕСПУБЛИКАЛАРЫН
ИГТИСАДИ МҮСТӘГИЛЛИЈИ
ПРОБЛЕМЛӘРИ

ПРОБЛЕМЫ ЭКОНОМИЧЕСКОЙ
САМОСТОЯТЕЛЬНОСТИ СОЮЗНЫХ
РЕСПУБЛИК

(МАТЕРИАЛЫ НАУЧНО-ПРАКТИЧЕСКОЙ КОНФЕРЕНЦИИ)

БАКЫ · 1990 · БАКУ




СОДЕРЖАНИЕ





Р.А.ТАДЖИДДИНОВ Территориальный хозрасчет и проблемы занятости трудовых ресурсов в Азербайджанской ССР ...184

Совершенствование системы материального стимулирования специалистов в новых условиях хозяйствования ....188

Региональные аспекты подготовки и переподготовки специалистов в условиях экономической самостоятельности ....190

АЗӘРБАЈЧАН ССР ДӘВЛӘТ ПЛАН КОМИТӘСИ
ЕЛМИ-ТӘДГИГАТ ИГТИСАДИЈЈАТ ИНСТИТУТУ

ГОСПЛАН АЗЕРБАЙДЖАНСКОЙ ССР
НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ ЭКОНОМИКИ

1965-1990
25

МҮТТӘФИГ РЕСПУБЛИКАЛАРЫН ИГТИСАДИ МҮСТӘГИЛЛИЈИ ПРОБЛЕМЛӘРИ

(ЕЛМИ-ТӘЧРҮБИ КОНФРАНСЫН МАТЕРИАЛЛАРЫ)

ПРОБЛЕМЫ ЭКОНОМИЧЕСКОЙ САМОСТОЯТЕЛЬНОСТИ СОЮЗНЫХ РЕСПУБЛИК

(МАТЕРИАЛЫ НАУЧНО-ПРАКТИЧЕСКОЙ КОНФЕРЕНЦИИ)

ЧАСТЬ II

БАКЫ - 1990 - БАКУ



СОДЕРЖАНИЕ

Проблемы перехода отраслей, административных районов, городов, областей и автономных республик на хозрасчет .... 190

Проблемы развития перерабатывающих отраслей агропромышленного комплекса в условиях полного хозрасчета .... 194

Развитие материально-технического обеспечения в условиях рыночной экономики .... 196

Вопросы создания безотходного производства в металлургической промышленности в новых условиях хозяйствования .... 199

Принципы развития металлургического комплекса в условиях радикальной экономической реформы .. 202



К вопросу об оценке эффективности размещения общественного производства в регионе в новых условиях хозяйствования .... 232

Проблемы совершенствования территориального разделения труда в условиях радикальной экономической реформы .... 235

Т.А.КЕРИМОВА Развитие транспортного комплекса в новых условиях хозяйствования .... 237

Некоторые подходы к изучению проблемы регионального хозрасчета .... 240

Некоторые проблемы развития промышленности стройматериалов в условиях перехода на экономическую самостоятельность .... 243

Суверенитет региона – экономический аспект ... 252



**1991-ci ildə** ETİİ-nin fəaliyyəti Azərbaycan Respublikası Dövlət Plan Komitəsi Sədrinin 1990-cı il 26 dekabr tarixli 40 saylı əmrinə əsasən Azərbaycan Respublikası Dövlət Plan Komitəsində fəaliyyət göstərən şöbələrlə institutun elmi bölmələri arasında bağlanmış büdcə müqavilələrinə uyğun təşkil edilmişdir. Müqavilələr üzrə elmi-tədqiqat işlərinin mövzuları bazar münasibətlərinə keçid dövrünün əvvəlində respublikanın sosial-iqtisadi inkişafının problemlərinin geniş dairəsini əhatə edirdi. Həmin il institut tərəfindən 22 müqavilə bağlanmışdı. Aşağıdakı mövzular üzrə tədqiqatları aparılan bütün işlər vaxtında bitirilib sifarişçilərə təqdim olunmuşdu:

- “Bazar münasibətləri şəraitində Azərbaycan Respublikasında məhsuldar qüvvələrin yerləşdirilməsi problemləri”. Bu mövzu müqavilə üzrə Respublika Dövlət Plan Komitəsinin “Məhsuldar qüvvələrin ərazi planlaşdırılması və yerləşdirilməsi” şöbəsi ilə birlikdə yerinə yetirilmişdir. Tədqiqatın məqsədi bazar münasibətləri şəraitində məhsuldar qüvvələrin yerləşdirilməsi və təkmilləşdirilməsi problemlərinin elmi cəhətdən işlənib hazırlanması idi. İşdə yeni təsərrüfatçılıq şəraitində regional siyasətin xüsusiyyətləri nəzərdən keçirilmişdir. Respublikadaxili regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi məqsədi ilə stimullaşdırmanın müxtəlif iqtisadi metodlarının (güzəştlərin, ssudaların və kreditlərin verilməsi, müəyyən müddətə müxtəlif vergilərdən azad olunma və s.) tətbiq edilməsi təklif edilirdi. Respublikanın, o cümlədən respublikadaxili regionlar üzrə ehtiyat potensialının vəziyyətinin öyrənilməsinə böyük diqqət yetirilmiş, onların xalq təsərrüfatı dövriyyəsinə cəlb edilməsi dərəcələri tədqiq olunmuş, ətraf mühitin mühafizəsinin vəziyyəti təhlil edilmişdir. Tədqiqat işində bazar münasibətləri şəraitində şəhərlərin inkişafına xüsusi yer ayrılmış, respublikanın xalq təsərrüfatı kompleksinin inkişafında və şəhər təsərrüfatının idarə edilməsinin təkmilləşdirilməsində şəhərlərin yeri və rolu nəzərdən keçirilmişdir.

“Bazar münasibətləri şəraitində xalq istehlakı malları istehsal edən kiçik müəssisələrin inkişaf perspektivləri” (F.A.Məmmədov, T.Q.Cavadov) mövzusu üzrə tədqiqat işi Azərbaycan Respublikası Dövlət Plan Komitəsinin “Xalq istehlakı malları” şöbəsi ilə müqavilə üzrə yerinə

yetirilmişdir. Sosial gərginliyin artması, əmək və istehsal intizamlarının aşağı olması, təsərrüfatlararası əlaqələrin pozulması, millətlərarası konfliktlərin əhəmiyyətli dərəcədə dərinləşməsi öz növbəsində kiçik müəssisələrin və kooperativlərin gələcək inkişafının zəruriliyini qarşıya qoymuş və iqtisadiyyatın strukturunun yenidən qurulmasını tələb edirdi. Strateji məqsədlərin belə qoyuluşundan aydın olurdu ki, yeni iqtisadi təsərrüfatçılıq sisteminə keçid şəraitində istehsal həlqəsinin əsası olan müəssisənin inkişafı xüsusi aktuallıq kəsb edir.

Aparılmış tədqiqat göstərirdi ki, Azərbaycanın kooperativ hərəkatın inkişafında əldə edilmiş müəyyən uğurlarına baxmayaraq, kooperativlərin istehsal etdiyi məhsulların həcmi əhalinin artan tələbatına hələ də cavab vermir, onların inkişaf səviyyəsi bir sıra keçmiş müttəfiq respublikalardan geri qalır. Buna görə də perspektivdə respublikada müxtəlif kooperativlərin yaradılmasına və inkişafına, onların maddi-texniki bazasının möhkəmlən-dirilməsinə və bunun əsasında kooperativlərin məhsul və xidmətlərinin reallaşdırılmasına və istehsalın hərtərəfli genişləndirilməsinə daha artıq diqqət yetirmək lazımdır.

Azərbaycan Respublikası Dövlət Plan Komitəsinin "Planlaşdırma və idarəetmənin təsərrüfat mexanizminin təkmilləşdirilməsi" şöbəsinin sifarişi ilə aparılan "Azərbaycan sənayesinin dövlətsizləşdirilməsi problemi" mövzusunun tədqiqi elmi maraq və təcrübi əhəmiyyət kəsb edirdi. Tədqiqat işində mövcud olan xarici və ölkə iqtisadi ədəbiyyatının öyrənilməsi və ümumiləşdirilməsi, həmçinin prinsipial planda direktiv materiallar əsasında mülkiyyətin dövlətsizləşdirilməsi mahiyyəti, təsərrüfatın çoxukladlılığa keçidinin təmin edilməsində onun yeri və rolu, sahibkarlığın inkişafı, əməyin motivasiyası və s. müəyyən edilmişdir. Aparılmış təhlil əsasında sənayenin dövlətsizləşdirilməsi xüsusiyyətləri aşkar edilmişdir. Tədqiqatın yekununda belə nəticəyə gəlinmişdir ki, nəinki iqtisadi, həm də sosial xarakterli ayrı-ayrı obyektiv və subyektiv səbəblərin təsiri altında Azərbaycan sənayesində mülkiyyətin dövlətsizləşdirilməsi prosesi digər keçmiş ittifaq respublikalarından daha ağrılı keçəcəkdir. Sənayenin ayrı-ayrı sahələrində dövlətsizləşdirilmə prosesinin əmələ gəlməsinin spesifik xüsusiyyətlərinin aşkarlanması məqsədilə respublikanın yüngül sənaye müəssisələri seçilmişdir. Ətraflı araşdırmadan son-ra yüngül sənayedə dövlətsizləşdirmənin xarakteri və istiqamətləri müəyyən edilmiş, yüngül sənayenin mövcud müəssisələrinin bazasında səhmdar cəmiyyətinin yaradılmasının ümumi müddəaları hazırlanmışdır.

1991-ci ildə bunlarla yanaşı aşağıdakı işlər də başa çatdırılmışdır:

"Azərbaycan Respublikasında ailənin inkişafının demoqrafik xüsusiyyətləri və 2010-cu ilə qədər onun perspektivləri. Azərbaycan Respublikasında ailənin inkişafının müasir vəziyyəti" (məsul icraçılar: K.V.Məmmədov, S.V.Mirzəyeva, N.A.Mustafayeva);

"Yerli Şuraların bələdiyyə mülkiyyətinin formalaşdırılması və fəaliyyəti" (S.M.Qa-sımov, A.K.Əsgərov, N.N.Hüseynova, E.İ.Emir-İlyasova);

"Bazar münasibətləri şəraitində ASK-nın inkişaf perspektivləri" (Ş.E.Yaqubov, İ.K.Süleymanov, S.A.Vəliyev, A.A.Bayramova, Ş.Ş.Muxtarova);

"İqtisadi müstəqillik şəraitində Azərbaycanın xalq təsərrüfatı proporsiyalarının tənzimlənmə problemləri" (A.H.Hacıyev, E.M.İbrahimova);

"Azərbaycan Respublikasının respublikalararası iqtisadi münasibətlərində ekvi-valentliyin nail olma yolları" (R.M.Məmmədov, A.İ. Xasayeva);

"Azərbaycan Respublikası üzrə istehlak səbətinə daxil olan ərzaq və qeyri-ərzaq mal və xidmətlərin siyahısının işlənib hazırlanması" (Ə.M.Babaşov, A.M.Tağıyev, T.Ş. Mirhüseynova);

“Azərbaycan Respublikasının elm sahəsində bazar münasibətlərinin inkişafı” (R.A.Ağayev, T.S.Abbasov, F.F.Ələkbərova);

“Bazar iqtisadiyyatına keçid şəraitində Azərbaycanın ehtiyaclarına uyğun olaraq maşınqayırma kompleksinin strukturunun təkmilləşdirilməsi” (Z.H.Kəsəmənli, A.M.Əliyev, S.X.Səfərov).

1991-ci ildə institutun Elmi Şurası elmi-tədqiqat işlərinin planına əsasən yerinə yetirilmiş hesabatların müzakirəsi ilə yanaşı, təşəbbüslü və plandankənar işlər üzrə tədqiqatların nəticələrinin müzakirəsinə həsr olunmuş 12 iclas keçirilmişdir. Elmi Şuranın genişləndirilmiş iclaslarına digər təşkilatların aparıcı alimləri və mütəxəssisləri dəvət olunmaqla “Mülkiyyət haqqında” Qanunun layihəsi və digər əsas iqtisadi sənədlər və materiallar müzakirə edilmişdir. Bundan başqa Elmi Şurada elmi adların verilməsi, dissertasiya mövzularının təsdiq edilməsi və dissertasiya işlərinin müzakirəsi və s. məsələlərə də baxılmışdır.

1991-ci ildə əvvəlki illərdə olduğu kimi institutun əməkdaşları tərəfindən radikal iqtisadi islahatların müddəalarının izahı və metodik yardımın göstərilməsi üzrə əhə-miyyətli iş görülmüşdür. Həmin ildə redaksiya kollegiyasının məsul redaktoru i.e.d., professor Qorxmaz Cahangir oğlu İmanovun rəhbərliyi ilə 10 ç.v. həcmində “Bazar münasibətlərinə keçid şəraitində Azərbaycan iqtisadiyyatının problemləri” adlı elmi əsərlər toplusunun XXIV cildi hazırlanmış və nəşr edilmişdir.

Elə həmin ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə institutda iqtisadiyyat elminin üç vacib ixtisası üzrə yüksəkixtisaslı alim-iqtisadçıların hazırlanması hüququ olan aspirantura şöbəsi açıldı. Bu il institutun İxtisaslaşdırılmış Müdafiə Şurası da öz fəaliyyətini xeyli fəallaşdırmış və İxtisaslaşdırılmış Şurada 7 namizədlik dissertasiyasının müdafiəsi ilə yanaşı, 8 iclası da olmuşdur. Həmin ilin sonuna institutun əməkdaşlarının sayı 203 nəfər olmuş, o cümlədən 80 elmi işçidən 3-ü elmlər doktoru və 33-ü elmlər namizədi idi.

1991-ci il 18 oktyabr tarixində Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası və ölkədə demokratik dövlət quruculuğu prinsipləri və ənənələrinin varisliyinin təmin olunması məqsədilə Azərbaycan Milli Şurasının 1918-ci il 28 mayda qəbul etdiyi İstiqlal Bəyannaməsinə əsaslanaraq və “Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında” Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsini rəhbər tutaraq, 222-XII nömrəli “Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Akt”ını qəbul etmiş və müstəqil Azərbaycan Respublikasının dövlət quruluşunun siyasi və iqtisadi əsaslarını təsis etmişdir.



Азәрбајчан Республикасы Дөвләт Игтисадијјат вә Планлашдырма Комитәси
ЕЛМИ-ТӘДГИГАТ ИГТИСАДИЈЈАТ ИНСТИТУТУ
Госэкономплан Азербайджанской Республики
НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ ЭКОНОМИКИ

БАЗАР МУНАСИБӘТЛӘРИНӘ КЕЧИД ШӘРАИТИНДӘ АЗӘРБАЈЧАН ИГТИСАДИЈЈАТЫНЫН ПРОБЛЕМЛӘРИ

(Елми әсәрләр, XXIV чилд)

ПРОБЛЕМЫ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА В УСЛОВИЯХ ПЕРЕХОДА К РЫНОЧНЫМ ОТНОШЕНИЯМ

(Научные труды, том XXIV)

БАКЫ—1992—БАКУ

Редакционная коллегия:



ОГЛАВЛЕНИЕ










Да здравствует 40-я годовщина
Победы советского народа в Великой отечественной войне!




40 лет ВЕЛИКОЙ ПОБЕДЫ
1945 - 1985











## 1965-1990-cı illərdə İnstitut əməkdaşlarının nəşr olunmuş elmi əsərləri


АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНСКОЙ ССР
ИНСТИТУТ ЭКОНОМИКИ

М. АЛЛАХВЕРДИЕВ

СОЦИАЛИСТИЧЕСКИЙ ЗАКОН НАРОДОНАСЕЛЕНИЯ
(На материалах Азербайджанской ССР)

ИЗДАТЕЛЬСТВО АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНСКОЙ ССР
БАКУ — 1965


АЗӘРБАЈЧАН ССР ЕЛМЛӘР АКАДЕМИЈАСЫ
ИГТИСАДИЈЈАТ ИНСТИТУТУ

М. М. АЛЛАҺВЕРДИЈЕВ

АЗӘРБАЈЧАНДА ИШЧИ ГҮВВӘСИНИН ТӘКРАР ИСТЕҺСАЛЫНЫН БӘ'ЗИ МӘСӘЛӘЛӘРИ

АЗӘРБАЈЧАН ССР ЕЛМЛӘР АКАДЕМИЈАСЫ НӘШРИЈЈАТЫ
Бакы — 1966


ЧӘЛИЛ ГУЛИЈЕВ, ӘҺМӘД МӘҺӘРРӘМОВ

ӘМӘЈИН ЕЛМИ ТӘШКИЛИ

АЗӘРБАЈЧАН
ДӨВЛӘТ НӘШРИЈЈАТЫ
БАКЫ — 1967


СУЛТАН МИРЗОЕВ
кандидат экономических наук

РАЗМЕЩЕНИЕ И СПЕЦИАЛИЗАЦИЯ СЕЛЬСКОГО ХОЗЯЙСТВА АЗЕРБАЙДЖАНСКОЙ ССР

АЗЕРБАЙДЖАНСКОЕ
ГОСУДАРСТВЕННОЕ ИЗДАТЕЛЬСТВО
БАКУ — 1967



М. А. АБРАМОВ,
кандидат географических наук

АПШЕРОНСКИЙ
ПРОМЫШЛЕННЫЙ
УЗЕЛ

АЗЕРБАЙДЖАНСКОЕ
ГОСУДАРСТВЕННОЕ
ИЗДАТЕЛЬСТВО
БАКУ

АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНСКОЙ ССР
ИНСТИТУТ ЭКОНОМИКИ

Г. Я. АБДУЛСАЛИМЗАДЕ

ОСУЩЕСТВЛЕНИЕ
ЛЕНИНСКОГО ПЛАНА
ЭЛЕКТРИФИКАЦИИ
В АЗЕРБАЙДЖАНЕ

ИЗДАТЕЛЬСТВО АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНСКОЙ ССР
БАКУ



ЧӘЛИЛ ГУЛИЈЕВ, ӘҺМӘД МӘҺӘРРӘМОВ

ИСТЕҺСАЛ
МӘДӘНИЈЈӘТИНИН
ЈҮКСӘЛДИЛМӘСИ

АЗӘРБАЈЧАН
ДӨВЛӘТ НӘШРИЈЈАТЫ
Бакы — 1972

АЗӘРБАЈЧАН ССР ЕЛМЛӘР АКАДЕМИЈАСЫ
ИГТИСАДИЈЈАТ ИНСТИТУТУ

З. Ә. СӘМӘДЗАДӘ

АЗӘРБАЈЧАН ССР-ДӘ
ӘМӘК МӘҺСУЛДАРЛЫҒЫ
ВӘ ӘҺАЛИНИН
МӘШҒУЛИЈЈӘТИНИН
САҺӘ ГУРУЛУШУ



Ф. А. ФАРАДЖЕВ

ТЕМПЫ
РАЗВИТИЯ
И ОТРАСЛЕВЫЕ
ПРОПОРЦИИ
ПРОМЫШЛЕННОСТИ
АЗЕРБАЙДЖАНА

Азербайджанское государственное издательство
Баку · 1975

ТАЧИД ХАСИЈЕВ

ЕЛМИ-ТЕХНИКИ
ТӘРӘГГИ
ВӘ ИСТЕҺСАЛЫН
СӘМӘРӘЛИЛИЈИ

КӘНЧЛИК
БАКЫ
1976



В. Д. АХУНДОВ

СОВЕРШЕНСТВОВАНИЕ
СТРУКТУРЫ
ОБЩЕСТВЕННОГО
ВОСПРОИЗВОДСТВА
(ВОПРОСЫ
МЕТОДОЛОГИИ)

ИЗДАТЕЛЬСТВО «ЭКОНОМИКА»
Москва — 1977

М. А. Абрамов

ПРОИЗВОДСТВО
И
СФЕРА
ОБСЛУЖИВАНИЯ
(РАЗМЕЩЕНИЕ, ВЗАИМОСВЯЗЬ,
КОМПЛЕКСНОЕ РАЗВИТИЕ)

Издательство
«Мысль»
Москва. 1977



АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНСКОЙ ССР
ИНСТИТУТ КИБЕРНЕТИКИ

К. Д. ИМАНОВ

338
И 50

МОДЕЛИ ПЛАНИРОВАНИЯ НАРОДНОГО ХОЗЯЙСТВА СОЮЗНОЙ РЕСПУБЛИКИ

Издательство „Элм"
Баку—1977

АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНСКОЙ ССР
ИНСТИТУТ ЭКОНОМИКИ

З. А. САМЕДЗАДЕ

СТРУКТУРА И ЭФФЕКТИВНОСТЬ ОБЩЕСТВЕННОГО ПРОИЗВОДСТВА

(на материалах Азербайджанской ССР)

AZƏRBAYCAN RESPUBLİKASI
İQTİSADİ İNKİŞAF NAZİRLİYİ
İQTİSADİ İSLAHATLAR MƏRKƏZİ
KİTABXANA

ИЗДАТЕЛЬСТВО «ЭЛМ»
БАКУ - 1980



НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ ЭКОНОМИКИ
ГОСПЛАНА АЗЕРБАЙДЖАНСКОЙ ССР

Для служебного пользования
Экз. №

К.В.МАМЕДОВ

ДЕМОГРАФИЧЕСКОЕ РАЗВИТИЕ В АЗЕРБАЙДЖАНСКОЙ ССР

Под редакцией
доктора экономических наук,
профессора

Баку - 1980

З. СӘМӘДЗАДӘ
Азәрбајҹан ССР ЕА-нын мүхбир үзвү

М. МУСАЈЕВ
Игтисад елмләри доктору, профессор

ОНУНЧУ БЕШИЛЛИКДӘ СОВЕТ АЗӘРБАЈЧАНЫНЫН *ИГТИСАДИ ВӘ СОСИАЛ ИНКИШАФЫ*

АЗӘРБАЈЧАН ДӨВЛӘТ НӘШРИЈЈАТЫ
Бакы—1981


Ч. Б. ГУЛИЈЕВ
ӘМӘК ЕҺТИЈАТЛАРЫ ВӘ ОНЛАРДАН СӘМӘРӘЛИ ИСТИФАДӘ ОЛУНМАСЫ
АЗӘРБАЈЧАН ДӨВЛӘТ НӘШРИЈАТЫ
Бакы — 1984


М. А. Абрамов
ГЕОГРАФИЯ СЕРВИСА
(Сфера обслуживания в СССР)
МОСКВА
«МЫСЛЬ»
1985


Р. М. ДЖАБИЕВ,
кандидат экономических наук
Хозяйственный механизм и проблемы его совершенствования
(На материалах промышленности Азербайджанской ССР)
АЗЕРБАЙДЖАНСКОЕ ГОСУДАРСТВЕННОЕ ИЗДАТЕЛЬСТВО
Баку - 1985


АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНСКОЙ ССР
ИНСТИТУТ ЭКОНОМИКИ
М.М.АЛЛАХВЕРДИЕВ, С.В.ГАБУЗОВА
БАЗОВЫЕ ОТРАСЛИ ИНДУСТРИИ И ЭКОНОМИЧЕСКИЙ РОСТ
(По материалам Азербайджанской ССР)
БАКУ "ЭЛМ" 1986


ШАМИЛ СӘМӘДЗАДӘ
САҺӘЛӘРАРАСЫ КОМПЛЕКСЛӘРИН ИДАРӘ ЕДИЛМӘСИ
АЗӘРБАЈҸАН ДӨВЛӘТ НӘШРИЈЈАТЫ
Бакы — 1986


ПРЕДПРИЯТИЕ - САМОСТОЯТЕЛЬНОСТЬ И ОТВЕТСТВЕННОСТЬ
Р.М. ДЖАБИЕВ
Экономический эксперимент в системе совершенствования хозяйственного механизма
БИБЛИОТЕКА
АЗЕРБАЙДЖАНСКОЕ ГОСУДАРСТВЕННОЕ ИЗДАТЕЛЬСТВО
Баку - 1987


ФИКРӘТ АДЫКӨЗӘЛОВ

Кәнд тәсәррүфатында судан сәмәрәли истифадә едилмәси проблемләри

03.07.89

АЗӘРБАЈҸАН ДӨВЛӘТ НӘШРИЈЈАТЫ
Бакы—1987

АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНСКОЙ ССР
ИНСТИТУТ КИБЕРНЕТИКИ

К. Д. ИМАНОВ

МОДЕЛИ ЭКОНОМИЧЕСКОГО ПРОГНОЗИРОВАНИЯ

БАКУ — ЭЛМ —


Вахид НОВРУЗОВ

СОЦИАЛЬНО-БЫТОВАЯ ИНФРАСТРУКТУРА АЗЕРБАЙДЖАНА

(ПРОБЛЕМЫ, ПЕРСПЕКТИВЫ)

АЗЕРБАЙДЖАНСКОЕ ГОСУДАРСТВЕННОЕ ИЗДАТЕЛЬСТВО
Баку - 1990

Фикрәт Адыкөзәлов

Судан истифадәнин сосиал-игтисади сәмәрәлилији

12.06.1990

Азәрбајҹан Дөвләт Нәшријјаты
Бакы—1990

# II FƏSİL

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASINDAN SONRAKI İLLƏRDƏ İQTİSADİ İSLAHATLAR ELMİ TƏDQİQAT İNSTİTUTUNUN FƏALİYYƏTİ

**1992-ci ildə** ETİİ-nin fəaliyyəti müstəqil Azərbaycan Respublikasının iqtisadi inkişafına xidmət etməyə yönəldilmişdi. Həmin il elmi-tədqiqat işləri Dövlət Plan Komitəsinin müvafiq şöbələri ilə elmi bölmələr arasında bağlanmış müqavilələr əsasında müəyyən edilmiş qaydalara müvafiq olaraq aparılırdı. Elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün iki müqavilə bağlanmış, bu müqavilələr əsasında tədqiqat işləri 1991-ci ildə başlanmalı və 1992-ci ildə yekun hissə kimi başa çatması nəzərdə tutulurdu.

"Bazar münasibətləri şəraitində sosial müdafiə və həyat səviyyəsinin sabitləşdirilməsi" (məsul icraçılar: V.T.Novruzov, Ə.M.Babaşov, A.M.Tağıyeva, C.İ.Əlizadə) mövzusunda olan hesabatda bu sahənin problemləri ətraflı təhlil edilmişdir. İşin məqsədi kimi istehlak səbətinə daxil olan ərzaq, qeyri-ərzaq malları və xidmətlərin siyahısının dəqiqləşdirilməsi nəzərdə tutulmuşdur. Daha sonra bu siyahı əsasında əhalinin müxtəlif sosial-demoqrafik qrupları üçün qiymətlərin dəyişməsini nəzərə almaqla minimum istehlak büdcəsinin səviyyəsi müəyyən edilmişdir. Əhalinin həyat səviyyəsinin gələcəkdə aşağı düşməsinin qarşısını almaq və onun sabitləşməsini təmin etmək üçün minimum əmək haqqı minimum istehlak büdcəsinə bərabərləşdirilməli, qiymətlərin artması ilə əlaqədar isə əhalinin gəlirlərinin və əmanətlərinin indeksləşdirmə mexanizminin hazırlanması məqsədi qarşıya qoyulmuşdu. Qarşıya qoyulmuş məqsədə uyğun olaraq tədqiqatın əsas funksiyası əhalinin sosial müdafiəsi sahəsində mövcud çatışmamazlıqların aşkar olunması və onların aradan qaldırılması üçün lazımi tədbirlərin hazırlanması idi.

"Bazar münasibətlərinə keçid şəraitində elektroenergetika sahəsinin fəaliyyətinin xüsusiyyətləri və iqtisadi böhrandan çıxma prosesində onun yeri" mövzusu üzrə tədqiqat obyekti kimi aşağıdakılar götürülmüşdü:

- bazar münasibətlərinə keçid şəraitində elektroenergetika sahəsinin müstəqil fəaliyyətinin xüsusiyyətləri;
- böhranı aradan qaldırma şəraitində və sabitləşdirmə prosesində onun əhəmiyyəti və yeri.
- Tədqiqatın məqsədi bazar münasibətlərinə keçid şəraitində respublikada energetikanın başlıca istiqamətlərinin müəyyən edilməsi olmuşdur və bununla əlaqədar aşağıdakı məsələlərin tədqiqi zəruri idi:
- bazar münasibətlərinə keçid şəraitində sənayenin energetika sahəsinin problemlərinin qiymətləndirilməsi;
- respublika energetikasında sabitləşdirmə prosesini sürətləndirən əsas problemlərin müəyyən edilməsi;
- bazar münasibətlərinə keçid şəraitində respublikada energetikanın müstəqil fəaliyyətinin əsaslarının müəyyən edilməsi.

"Azərbaycan Respublikasının kimya və neft-kimya sənayesinin bazar münasibətlərinə keçid xüsusiyyətləri" (T.R.Bağırov) elmi-tədqiqat işində sahələrin müasir vəziyyəti təhlil edilmiş, təsərrüfatçılığın yeni şəraitində onun inkişafının əsas yolları müəyyən edilmiş və bazar münasibətlərinə keçid şəraitində sahələrin xüsusiyyətləri təqdim olunmuşdur. Sahələrin müasir vəziyyəti qeyri-qənaətbəxş qiymətləndirilmiş və əsas səbəblər bunlar olmuşdur: mövcud və inkişaf etmiş kooperativ əlaqələrin pozulması, xammalın böyük hissəsinin respublikaya kənardan gətirilməsi, həmçinin EP-300 qurğusunun 1992-ci ilin fevral ayında qəza nəticəsində sıradan çıxması. Bu qəza bütün kompleksin işini pozmuşdu. Kimya sənayesi üçün xarakterik xüsusiyyətlər qeyri-təkmil istehsalın qurulması, böyük miqdarda fiziki və mənəvi cəhətdən köhnəlmiş avadanlığın olması, istehsalın yeniləşdirmə və müasirləşdirmə sxeminin olmaması idi. Tədqiqatda kimya və neft-kimya sənayesinin işinin tamamilə ölkənin öz neftindən istifadəyə keçirilməsi məqsədəuyğun hesab edilmişdir.

Qeyd olunanlarla yanaşı, 1992-ci ildə aşağıdakı elmi-tədqiqat işləri də yerinə yetirilmişdir:

- "Elmi-texniki inkişafın hüquqi tənzimlənməsinin iqtisadi aspektləri" (R.A.Ağayev, T.İ.Abbasov, M.K.Kərimova);
- "Respublikanın yanacaq sənayesinin sahələrinin bazar münasibətlərinə keçidinin xüsusiyyətləri, onların rolu və sabitləşdirmə proseslərində yeri";
- "Azərbaycan Respublikasının energetikasının bazar münasibətlərinə keçidinin xüsusiyyətləri" (M.Q.Yavari).

Həmin ildə respublikanın Dövlət Plan Komitəsinin şöbələri ilə bağlanmış müqavilələrə əsasən, rəhbər orqanların, digər təşkilatların tapşırıqları üzrə 30-a yaxın, əsasən elmi xarakterli iş yerinə yetirilmişdir.

İnstitutun əməkdaşları qabaqcıl elmi təşkilat və iqtisad elmi sahəsində fəaliyyət göstərən mərkəzlərlə sıx əlaqə saxlayaraq, keçirilən müxtəlif konfrans və simpoziumların işində iştirak edirdilər. 1992-ci ildə institutun direktoru, i.e.d., professor Qorxmaz Cahangir oğlu İmanov Avstriyada (Vyana ş.) keçirilən "SSRİ-nin tənəzzülündən sonra iqtisadi nəticələr" adlı elmi kofransın, həmçinin Türkiyədə (İstanbul ş.) keçirilən "Əmək resurslarının problemləri" adlı beynəlxalq konfransın işində iştirak etmiş və məruzələrlə çıxış etmişdir.

Elmi işlər üzrə direktor müavini, i.e.d. Sofiq Kəlbi oğlu Hüseynov İranda (Təbriz ş.) keçirilən "Şəhərlər və əhalinin problemləri" mövzusunda beynəlxalq konfransın işində iştirak etmiş və məruzə ilə çıxış etmişdir.

Şöbə müdiri, i.e.n. Kəmaləddin Veysəl oğlu Məmmədov Finlandiyada demoqrafiya problemləri üzrə keçirilən beynəlxalq konfransın işində iştirak etmişdi.

Həmin ildə ETİİ-nin namizədlik dissertasiya müdafiəsi üzrə İxtisaslaşdırılmış Şuranın iclaslarında institutun dörd nəfər əməkdaşı namizədlik dissertasiyalarını müdafiə etmiş, ümumilikdə isə 1992-ci ildə ETİİ-də 8 nəfər namizədlik dissertasiyalarını müdafiə etmişlər və institutun aspiranturasına 3 nəfər qəbul olunmuşdu.

**1993-cü il** Dövlət müstəqilliyinin bərpasından sonrakı ilk zamanlarda keçid dövrünün çətinlikləri və iqtisadiyyatın ümumi idarəçiliyində buraxılmış səhvlər özünü elmi-tədqiqat işlərinin təşkili və idarə olunmasında da göstərmişdir. Bu dövrdə, iqtisadi idarəetmə orqanlarının ETİİ-yə yaranan soyuq münasibətilə əlaqədar olaraq, baxımsızlıq şəraitində fəaliyyət göstərən institutun ölkənin sosial-iqtisadi inkişaf problemlərinin araşdırılmasında,

iqtisadi siyasətin elmi əsaslarının hazırlanmasında və yüksək ixtisaslı kadr hazırlığı prosesində iştirakı kəskin şəkildə zəifləmişdir. Bu, bir tərəfdən, ETİİ-də aparılan elmi-tədqiqat işlərinin praktikadan uzaqlaşmasına və yüksək ixtisaslı kadrların başqa işlərə keçməsinə, digər tərəfdən isə, ölkədə aparılan iqtisadi siyasətin elmi əsaslandırılmasının kəskin şəkildə zəifləməsinə səbəb olmuşdur ki, bunun mənfi nəticələri də özünü çox gözlətmədən ölkədə dərin iqtisadi böhranın yaranması ilə üzə çıxmışdır.

1993-cü ildə i.e.d., professor Qorxmaz Cahangir oğlu İmanov ETİİ-nin direktor vəzifəsindən azad edildi. Qorxmaz Cahangir oğlu İmanovun direktor olduğu müddətdə onun təşəbbüsü ilə yaradılmış namizədlik dissertasiyalarının müdafiəsi üzrə İxtisaslaşdırılmış Şurada (1990-cı ildən 1992-ci ilə kimi) 17 dissertasiya işi müdafiə edilmişdi, bunların 10 nəfəri ETİİ-nin əməkdaşı idi.

1993-cü ildə Azərbaycan Respublikası İqtisadiyyat və Planlaşdırma Dövlət Komitəsi yanında ETİİ-nin Elmi Şurası tərəfindən 4 iclas keçirilmişdir. Sonuncu dördüncü iclasda bu il üçün nəzərdə tutulan bir problemin işlənib hazırlanmasını əks etdirən elmi-tədqiqat işlərinin planı təqdim olundu. Elə həmin ildə bu problemin məsul icraçıları təsdiq olundu. İlin yekununda məsul icraçılar tərəfindən nəzərdə tutulmuş bölmələr üzrə materiallar təqdim edilmişdir.

1993-cü ilin əvvəllərində ETİİ-nin yenidənqurulmasına müəyyən cəhd olunsa da bu baş tutmamışdır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 1993-cü il 14 may tarixli 601 saylı "Azərbaycan Respublikası Nazirlər Kabinetinin İqtisadi siyasət və beynəlxalq əməkdaşlıq mərkəzinin yaradılması haqqında" fərmanı ilə ölkədə aparılan iqtisadi siyasətin elmi əsaslarının gücləndirilməsi məqsədi ETİİ-nin bazasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İqtisadi siyasət və beynəlxalq əməkdaşlıq mərkəzi"nin yaradılması nəzərdə tutulsa da, sonradan bu fərman icra olunmamış və Azərbaycan Respublikasının Prezdentinin "Azərbaycan Respublikasında iqtisadi islahatların elmi-təşkilati bazasının gücləndirilməsi haqqında" 1994-cü il 17 yanvar tarixli 98 saylı fərmanı ilə ləğv edilmişdir.


30

1993-cü ilin iyun ayında Ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə yenidən qayıdışı, bütün sahələrdə olduğu kimi, elmi-tədqiqat işlərinin təşkili və idarə olunmasında, o cümlədən ETİİ-nin fəaliyyətində müsbət dəyişikliklərlə nəticələndi.

**1994-cü ildə** Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi 17 yanvar tarixli 98 saylı fərmanı ilə, dövlət müstəqilliyinin bərpası və bazar münasibətlərinə keçidlə əlaqədar olaraq, ETİİ-nin yenidən qurulması zərurəti nəzərə alınaraq və yeni şəraitdə ölkənin iqtisadi inkişaf siyasətinin elmi əsaslar üzərində qurulmasını, iqtisadi islahatların strateji istiqamətlərinin müəyyənləşdirilməsi və beynəlxalq iqtisadi və maliyyə təşkilatları ilə iqtisadi əməkdaşlıq sahəsində əlaqələrin gücləndirilməsini təmin etmək məqsədilə ETİİ-nin bazasında Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Mərkəzi (İİM) yaradıldı.

Respublikanın Nazirlər Kabinetinin bu fərmanı əsasında mərkəzin əsas funksiyaları haqqında qərar qəbul olundu - bunlar iqtisadi islahatların ümumi strategiyasının hazırlanması, onların həyata keçirilməsi taktikasının istiqamətinin hazırlanması, aparılan islahatların təhlili üzrə tədqiqatların aparılması idi. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə ay ərzində İqtisadi İslahatlar Mərkəzinin Əsasnaməsini və Strukturunu təsdiq etmək tapşırıldı.

Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin 1994-cü il 4 may tarixli sərəncamına əsasən İqtisadi İslahatlar Mərkəzinin direktor vəzifəsinə i.e.d. Sofiq Kəlbi oğlu Hüseynov təyin edildi. 1994-cü ilin may ayının sonunda isə respublikanın İqtisadiyyat Nazirliyinin Kollegiyasında İqtisadi İslahatlar Mərkəzinin Əsasnaməsi və Strukturu təsdiq olunmuşdur.

Bu dövrdən etibarən İİM-nin fəaliyyəti dövlət müstəqilliyi və bazar münasibətlərinə keçid şəraitində ölkənin iqtisadi inkişaf siyasətinin elmi əsaslar üzərində qurulmasına, mövcud problemlərin həlli yollarının öyrənilməsinə, mütərəqqi dünya təcrübəsi nəzərə alınmaqla iqtisadi islahatların strateji istiqamətlərinin və həyata keçirilməsinin taktiki yollarının müəyyənləşdirilməsinə, proseslərin izlənilməsinə və sosial-iqtisadi inkişafın proqnozlaşdırılmasına yönəlmişdi.

İİM-nin apardığı elmi-tədqiqat işlərinin əhəmiyyəti təkcə onların iqtisadiyyatın idarə olunması və səmərəliliyinin artırılması yollarının araşdırılması ilə məhdudlaşmırdı. Bu tədqiqatlar, eyni zamanda, ölkənin elmi potensialı, o cümlədən, elmi kadrların yetişməsi və inkişafı üçün mühüm əhəmiyyətə malik idi.

1994-cü ilin sonuna ştat üzrə İqtisadi İslahatlar Mərkəzinin əməkdaşlarının sayı 88 nəfər idi.

**1995-ci ildə** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Mərkəzində elmi-tədqiqat işləri elmi-tədqiqat işlərinin planına uyğun olaraq aparılmışdır. Plana müvafiq olaraq Azərbaycan Respublikasının iqtisadiyyatında radikal islahatların konseptual əsaslarının hazırlanması problemlərinin həlli üçün 10 mövzu və 16 tapşırıq istiqamətində tədqiqatların aparılması nəzərdə tutulmuşdur.

Təqdim olunan mövzuların bir hissəsini 1996-cı ildə yekunlaşdırmaq nəzərdə tutulurdu. 1995-ci ildə başa çatdırılması nəzərdə tutulan işlərdən - 7 mövzu yekunlaşdırılmış və Elmi Şura tərəfindən bir sıra çatışmamazlıqları nəzərə alınmaqla qəbul olunmuşdur.

Həmin ildə "Mülkiyyətin dövlətsizləşdirilməsinin və özəlləşdirilməsinin konseptual əsasları" mövzusunda tədqiqat başa çatdırılmışdır (işin rəhbərləri S.K. Hüseynov və E.M. Səmədov). Tədqiq edilən əsas məsələ mülkiyyətin çoxsaylı müxtəlif növlərinin müəyyən edilməsi, onun dövlətsizləşdirilmə və özəlləşdirilməsi prosesi idi. Tədqiqatda qeyd olunurdu ki, müasir iqtisadi sistemdə mülkiyyətin çoxsaylı müxtəlif növlülüyü, müxtəlif formaların kombinasiyası mövcuddur ki, bunlar da daxili müasirləşdirmə hesabına iqtisadiyyatın effektivliyinin artırılması üçün geniş imkanlar yaradır.

İşdə inkişaf etmiş ölkələrin təcrübəsinin öyrənilməsi nəticəsində son illər dünya miqyasında özəlləşdirmə prosesinin fəallaşmasını xarakterizə edən bəzi statistik göstəricilərin təhlili aparılmış, müxtəlif ölkələrdə özəlləşdirmənin həyata keçirilməsinin formalarının və üsullarının müzakirəsi aparılmış, onlar arasında mövcud olan fərqlər və bənzərliklər aydınlaşdırılmış, dünya təcrübəsində tətbiq edilən özəlləşdirmənin forma və üsullarını ümumiləşdirən cədvəl hazırlanmışdı.

Həmin ildə həmçinin "Bazar münasibətlərinə keçid şəraitində pul-kredit siyasətinin konseptual əsasları" mövzusunda tədqiqat işi başa çatdırıldı (işin rəhbərləri Rasim Tapdıq oğlu Həsənov və Süleyman Mirsahib oğlu Qasımov). Elmi işdə pul-kredit siyasətinin radikal iqtisadi islahatların aparılma sistemində yeri və rolu aydınlaşdırılmış, bazar iqtisadiyyatına keçid şəraitində kreditləşdirmənin yeni sisteminin formalaşması xüsusiyyətləri aşkar edilmişdir.

1993-1994-cü illərdə olan məlumatların təhlili göstərdi ki, sərt və baha kredit siyasəti maliyyə böhranını dərinləşdirir, pul kütləsinin artması üzərində nəzarəti pozur, pulların emissiyasına səbəb olur, qiymətlərin eyli artmasına gətirib çıxarır.

Aparılmış təhlilin nəticəsi respublikanın bank və kredit sistemlərinin təkmilləşdirilməsi haqqında müddəaların təqdim olunması idi. O vaxt aparılan təhlillərin arasında "İqtisadi islahatların həyata keçirilməsinin sosial problemləri" (rəhbər Sofiq Kəlbi oğlu Hüseynov) mövzusu üzrə "Xidmət sahəsində iqtisadi islahatların həyata keçirilməsi" (məsul icraçı Elxan Sərxan oğlu İmanov) bölməsinin işlənib hazırlanması mühüm yer tutmuşdur. İşin məqsədi aparılan iqtisadi islahatlar şəraitində səhiyyənin inkişafının əsas istiqamətlərinin müəyyən edilməsi olmuşdur. Bu məqsədlə işdə respublika səhiyyəsinin müasir vəziyyəti haqqında materiallar təqdim olunmuşdur. Respublikanın səhiyyə sahəsinin işinin yaxşılaşdırılması üçün həlli vacib olan problemlər aşkar olunmuşdur. Bununla yanaşı xəstəxana müəssisələrinin, onların maddi-texniki bazasının, əhalinin dərman vasitələri ilə təmin olunmasının, həmçinin respublikada ödənişli tibbi yardım sisteminin inkişafının vəziyyəti haqqında təhlil təqdim olunmuşdur. İsveç və Finlandiyada səhiyyə sahəsinin inkişaf təcrübəsinin öyrənilməsi haqqında material hazırlanmış, onlardan respublikanın tibbi müəssisələrinin işinin yenidən təşkil olunmasında istifadə edilməsi məsləhət görülmüşdü.

"İqtisadiyyatın ayrı-ayrı sahələrində islahatların aparılmasının konseputual əsasları" mövzusunda tədqiqat həmin ildə yekunlaşdırıldı və bir neçə hissədən ibarət idi. Onların arasında "Aqrosənaye kompleksi sahələrində radikal iqtisadi islahatların həyata keçirilməsinin konseptual əsasları" (məsul icraçılar: Ş.Yaqubov, X.Xəlilov) adlı elmi iş yerinə yetirilmişdir. Bu tədqiqat iki istiqamətdə aparılmışdır:

- kənd təsərrüfatı;
- yeyinti sənayesi.

Azərbaycan Respublikası kənd təsərrüfatının problemlərinin tədqiqində sahənin mövcud vəziyyətinin təhlili aparılmış, sahədə bütün istiqamətlər üzrə məhsulun istehsalının həcminin azaldılma faktı qeyd olunmuş, eyni zamanda məhsuldarlığın azalması göstərilmişdir. İşdə aqrar islahatların aparılması yüksək məhsuldarlığı olan aqrar sistemin formalaşmasına, istehsal və təbii-iqlim potensialının səmərəli istifadəsinə imkan verməsi faktı əsaslandırılmışdır.

Yeyinti sənaye kompleksi haqqında tədqiqatda bazar iqtisadiyyatı şəraitində emal sənaye sahələrinin işləmə mexanizmini müəyyən edən əsas faktorlar aşkar edilmişdir. İşdə yeyinti sənayesində islahatların həyata keçirilməsinin əsas istiqamətləri təqdim olunmuş, qeyd olunmuşdur ki, islahatların uğurlu aparılması üçün sabit maliyyə-iqtisadi və hüquqi bazanın olması lazımdır.

Həmin il Mərkəzin Elmi Şurası elmi-tədqiqat işləri planı üzrə yerinə yetirilmiş 20 elmi hesabat iclasları keçirmişdir. Bir sıra hesabatlar onlarda olan çatışmazlıqların və Şurada edilən əhəmiyyətli qeydlərə görə düzəliş üçün onların icraçılarına qaytarılmışdı.

1995-ci ildə Mərkəzdə elmi işçilərin vakant vəzifələrin tutulması üçün müsabiqə keçirilmişdir. 23 iddiaçının iştirak etdiyi müsabiqənin yekunları üzrə 20 nəfər müsabiqədən keçmişdi.

Elmi-tədqiqat işləri planı üzrə işlərlə yanaşı Mərkəzin əməkdaşları tərəfindən direktiv orqanların tapşırığı ilə həmin ildə 14-dən çox plandankənar iş yerinə yetirilmişdir. İl ərzində Mərkəzin əməkdaşları tərəfindən qəzet və jurnallarda 30-dan çox məqalə dərc edilmiş, Mərkəzdə həm iqtisadi islahatların, həm də digər problemlərin müzakirə edildiyi 30-dan çox metodik seminar keçirilmişdir. Mərkəzin əməkdaşları Maliyyə-kredit Kolleci və Azərbaycan İqtisadçılar İttifaqı ilə birgə Azərbaycan iqtisadiyyatının islahatları və sabitləşdirmə problemlərinin müzakirəsi üzrə seminarın işində iştirak etmişdilər.

1995-ci ildə İqtisadi İslahatlar Mərkəzinin direktoru, i.e.d. Sofiq Kəlbi oğlu Hüseynov Ağdam rayonu üzrə Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə iştirak etmiş və millət vəkili seçilmişdir. Bununla əlaqədar Sofiq Kəlbi oğlu Hüseynov Mərkəzin direktor vəzifəsindən azad edilmişdir.

**1996-cı ildə** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Mərkəzinin fəaliyyəti Nazirliyin Kollegiyasının 1996-cı il 9 aprel tarixində təsdiq olunmuş elmi-tədqiqat işləri planlarının, həmçinin müvafiq dövlət orqanlarının cari tapşırıqlarının yerinə yetirilməsi üzərində qurulmuşdu.

Həmin ildə üç mövzu üzrə araşdırma aparılmış və bunun nəticəsində Mərkəzin struktur bölmələri tərəfindən 9 elmi-tədqiqat işi hazırlanmışdı.

"İqtisadi islahatlar şəraitində Azərbaycanın sosial-iqtisadi inkişafının proqnozlaşdırmasının elmi əsaslarının hazırlanması" adlı birinci mövzu üzrə 6 elmi hesabat təqdim olunmuşdur. Bu mövzu üzrə tədqiqatın nəticəsində "İqtisadi islahatlar şəraitində Azərbaycanın yeyinti sənayesinin inkişafının proqnozlaşdırılmasının elmi əsasları" elmi hesabatı hazırlanmışdır. Qeyd olunmuşdur ki, bazar iqtisadiyyatının prinsipləri əsasında həyata keçirilən iqtisadi islahatlar, ümumilikdə yalnız ümumi xalq təsərrüfatında deyil, həm də yeyinti sənayesində böhrana gətirib çıxarmışdır. Bununla əlaqədar bazar iqtisadiyyatına keçid şəraitində yeyinti sənayesinin inkişaf xüsusiyyətləri təhlil edilmiş, sahənin inkişafının əsas istiqamətləri müəyyən edilmiş, yeyinti sənayesinin qısamüddətli, orta və uzunmüddətli inkişaf perspektivləri elmi nöqteyi nəzərdən əsaslandırılmış, bu problemin həlli üçün metodik və texniki-iqtisadi göstəricilər sistemi təklif olunmuşdur.

"Sosial sahənin inkişaf proqnozu" elmi-tədqiqat işində aşağıdakı məsələlərin tədqiqi məqsədi qarşıya qoyulmuşdur:

- sosial sahədə aparılan islahatların sosial yönümlülük tərəfinin gücləndirilməsi;
- ölkədə istehsal edilən istehlak malları hesabına respublikanın istehlak bazarının müdafiəsi;
- əmək bazarında mövcud olan gərginliyin aradan qaldırılması;
- sosial infrastrukturun prioritet sahələrinin aşkar edilməsi;
- sosial-mədəni sahələrdə fəaliyyət göstərən müəssisələrin özünümaliyyələşdirmə sisteminə keçirilməsi;

- işğal olunmuş ərazilərin bərpa edilməsi dövründə sosial infrastrukturun yaradılması və s.

Tədqiqat işində həm sosial sahələrin inkişafının həlledici istiqamətləri kimi əhaliyə vaxtlı-vaxtında əmək haqqının, pensiyanın, kompensasiyaların və yardımların verilməsi, əhalinin pensiya təminatında islahatların aparılması, əhalinin məşğulluğunun təmin edilməsində özəl strukturların rolunun artırılması, əhalinin aztəminatlı hissəsinin ünvanlı sosial müdafiəsinin təşkil edilməsi, təhsil və səhiyyə sistemində islahatların aparılması, sosial sahənin inkişafının yeni mexanizminin yaradılması həm də bazar iqtisadiyyatına keçid dövründə sosial sahələrin inkişafını xarakterizə edən göstəricilər sisteminin təqdim edilməsi göstərilmişdir.

"Azərbaycan iqtisadiyyatının dünya təssərüfat sisteminə inteqrasiyasının rasional forma və üsullarının seçim və əsaslandırılması" mövzusunda tədqiqat işində iki tapşırıq yerinə yetirilmişdir:

- Azərbaycanın iqtisadi təhlükəsizliyi haqqında konsepsiyanın hazırlanması;
- Azərbaycanda sərbəst və birgə iqtisadi zonaların yaradılması imkanlarının əsaslandırılması və müəyyən edilməsi.

Birinci tapşırığın yerinə yetirilməsi zamanı ölkənin iqtisadi təhlükəsizlik sisteminin qurulmasında nəzəri-metodoloji məsələlər işlənib hazırlanmış, xarici ölkələrin təcrübəsi təhlil edilmiş və onların əsasında yerli xüsusiyyətləri nəzərə almaqla Azərbaycanda bu sahədə yerinə yetirilməli olan təxirəsalınmaz tədbirlərin siyahısı müəyyənləşdirilmişdir.

Qeyd edilirdi ki, Respublikada müstəqilliyin yeni mərhələsinin başlanğıcı iki çox mürəkkəb iqtisadi problemin həlli ilə xarakterizə olunmuşdur. Birinci vacib problem ölkənin vahid iqtisadi sisteminin yaradılması idi. Məlum olduğu kimi, SSRİ vahid xalq təsərrüfatı kompleksi ərazisinin tərkib hissəsi olmaqla, Azərbaycan SSR xalq təssərüfatı dayanıqsız, qeyri-mükəmməl və natamam "sistem" kimi formalaşmışdır. Ona görə də ölkədə vahid iqtisadi sistemin yaradılması müstəqilliyin təmin edilməsi üçün vacib idi.

İkinci vacib problem iqtisadiyyatın idarəetmə mexanizminin mərkəzləşdirilmiş plan-təssərüfatından bazar münasibətlərinə istinad edən idarəetməyə dəyişdirilməsi olmuşdur. Eyni zamanda ikinci problemin həllinə mənfi təsir göstərən faktorlar aşkarlanmışdır, onun həllini çətinləşdirənlər - məcburi müharibəyə cəlb edilmə və onun nəticələri, ölkənin iqtisadi potensialının 20%-nin itirilməsi, 1 milyondan artıq qaçqın və məcburi köçkünlərin olması, sosial-iqtisadi problemlər, 10 illər ərzində formalaşmış iqtisadi əlaqələrin və həmçinin dünya bazarına ənənəvi yolların bir anda kəsilməsi və s. olmuşdur.

İkinci tapşırığın yerinə yetirilməsi məqsədilə sərbəst və birgə iqtisadi zonaların yaradılmasının təcrübi-metodoloji məsələləri öyrənilmiş, bir sıra ölkələrdə bu formada iqtisadi zonaların yaradılması və fəaliyyət göstərməsi təcrübəsi təhlil edilmiş və onun əsasında Azərbaycanda bu cür iqtisadi zonaların yaradılması imkanları aşkarlanmış, onların yaradılması üçün lazımi tədbirlər müəyyənləşdirilmişdi.

Bu ildə elmi-tədqiqat işləri planında nəzərdə tutulmuş işlərin yerinə yetirilməsi ilə yanaşı, Mərkəzin əməkdaşları tərəfindən Respublika İqtisadiyyat Nazirliyinin tapşırığı ilə 5 plandan kənar iş görülmüşdür.

Bundan başqa, Mərkəzin əməkdaşları Milli Məclisin "Büdcə məsələləri" və "İqtisadi siyasət" komissiyalarının iclaslarında – 10 Qanun layihəsinin hazırlanmasında, onların

müzakirəsi və həyata keçirilməsi Ekspertizasında, müxtəlif işçi qruplarının işində iştirak etmişlər.

Bu ildə, İqtisadi İslahatlar Mərkəzinin Elmi Şurasında 10 doktorluq və namizədlik dissertasiyası müzakirə olunmuş və rəylər verilmişdir. 1996-cı ildə Respublikanın Elm və Texnika üzrə Komitəsi tərəfindən Mərkəzə aspiranturaya üç yer ayrılmış və oraya üç aspirant qəbul edilmişdir.

Bu ildə Mərkəzin əməkdaşları tərəfindən konfranslarda, qəzetlərdə və jurnallarda 30-dan çox məqalə və məruzə tezisləri dərc olunmuşdur.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin 1996-cı ildə 9 aprel tarixli əmri ilə İqtisadi İslahatlar Mərkəzinin direktoru vəzifəsinə i.e.n., b.e.i. Rasim Tapdıq oğlu Həsənov təyin edilmişdir.

**1997-ci ildə** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin Kollegiyası tərəfindən təsdiq olunmuş elmi-tədqiqat işlərinin planına görə 2 mövzu üzrə elmi-tədqiqatların həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu ildə, 2 mövzunu tədqiq edərək Mərkəzin elmi bölmələri tərəfindən 7 elmi-tədqiqat işi hazırlanmışdır.

"Makro-iqtisadi işlənilmələrin daxil edilməsi yolu ilə milli hesablar sisteminin genişləndirilməsi" işi yerinə yetirilmişdir (işin rəhbəri: R. Həsənov, məsul icraçı: B. Məmmədova). Tədqiqatda göstərilirdi ki, milli hesablamalar sistemi yığım üçün razılaşdırılmış sxemdir, əsas statistik məlumatların əsas axını əlaqələndirir və təsvir edir, iqtisadi inkişafın daha vacib nəticələrini və proporsiyalarını xarakterizə edən makroiqtisadi göstəricilərlə ifadə olunmuşdur.

Buna baxmayaraq ki, milli hesablar sistemi bütövlükdə iqtisadiyyatda ümumiləşdirici statistik "mənzərə" kimi qurulmuşdur, lakin aydın olur ki, o, iqtisadiyyatın bu cür ümumiləşdirici təsviri ilə bağlı olan ümidləri tam doğrultmur. Bu onunla əlaqələndirilir ki, milli hesablamalarda bu cür boşluqlar olmasının dərk edilməsi milli hesablar sisteminin digər makroiqtisadi hesablamalarla tamamlanmasının məqsədəuyğunluğu haqqında beynəlxalq səviyyədə diskusiyanın aparılmasına gətirib çıxartdı.

Bununla əlaqədar olaraq bu iş sahələrarası üsulların təsvirinə həsr olunmuşdur.

Təqdim edilmiş işdə sahələrarası balanslar sisteminin riyazi proqramlaşdırılma üsulları ilə əlaqəsinin aydınlaşdırılması məqsədi qarşıya qoyulmuşdu.

Bu ildə "Metallurgiya sənaye komplekslərinin strukturunun yenidənqurma problemləri" mövzusunda tədqiqat işi başa çatdırılmışdır (işin rəhbəri: R. Həsənov, məsul icraçı: A. Əliyev).

İşin məqsədi Respublikanın bazar münasibətlərinə keçid şəraitində fəaliyyətdə olan metallurgiya sənaye kompleksinin qurulması strukturunun müasir vəziyyətini dərindən öyrənməklə və istehsal prosesini tədqiq etməklə, struktur yenidənqurmanın qarşısında duran problemlərin iqtisadi ilkin mənbələrini müəyyən etmək olmuşdur.

Respublikada fəaliyyətdə olan metallurgiya sənaye kompleksinin müasir vəziyyətinin ətraflı təhlili göstərdi ki, o yerli xammal və yarımfabrikat bazası əsasında formalaşmışdır. Son illərdə, Respublikanın bazar münasibətlərinə keçid prosesi ilə yanaşı fəaliyyətdə olan mövcud sahələrə böhran vəziyyətlərinin yaranması mənfi təsir göstərmişdir. Buna baxmayaraq böhranın başlanmasına qədər metallurgiya sənaye müəssisələri istehsal gücünün 90, 97 və 100 %-ni istifadə etməklə işləyirdilər, 1991-ci ilin əvvəlindən başlayaraq xammal və maliyyə

çatışmazlığı səbəbindən istehsal gücündən 80%, 1994-cü ildə isə istehsal gücündən yalnız 15-20% istifadə olunmuşdur. Lakin 1995-1996-cı illərdə bu müəssisələrdə istehsal gücünün aşağı enməsi dayandırılmış, nəticədə iqtisadi göstəricilərin təhlili əsasında əsas məhsul buraxılışının həcminin artması müşahidə olunmuşdur.

Hesabatın struktur yenidənqurmanın problemləri üzrə bölməsində qeyd olunmuşdur ki, respublikanın bazar münasibətlərinə keçməsi və xalq təsərrüfatı sahələrinin tələbatının təmin edilməsi məqsədi ilə metallurgiya sənaye məhsulları istehsal edən müəssisələrdə, dağ-mədən sahələri, həmçinin qara və əlvan metallurgiya müəssisələrinin iqtisadi nöqteyi-nəzərdən yenidən qurulmasına böyük əhəmiyyət verilmişdir.

“Azərbaycan Respublikasının sosial sfera sahələrində struktur yenidənqurma problemləri” elmi işində (rəhbər: R. Həsənov, məsul icraçı: E. İmanov) tədqiqatın obyekti Respublikanın sosial sfera sahələrinin: səhiyyə, mədəniyyət və təhsilin təqdimatı idi.

Hesabatın birinci hissəsində sosial sfera sahələrinin vəziyyətinin təhlili verilmişdir. Beləliklə, səhiyyə sahəsinin vəziyyətinin təhlili göstərdi ki, dövlət tərəfindən ayrılan vəsaitin çatışmazlığı vətəndaşların sağlamlığına və müalicələrinə şəxsi xərclərinin əhəmiyyətli dərəcədə artmasına gətirib çıxarmışdır. Bununla əlaqədar belə nəticəyə gəlinmişdir ki, sahələrdə işlərin belə vəziyyəti şübhəsiz ölkədə səhiyyənin tərəqqisinə imkan vermir. Daha sonra təhsil sahəsinin vəziyyəti təhlil edilmiş, 1990-1996-cı illərdə dövlət büdcəsindən təhsilə ayrılan xərclərin, 1990-cı ildə 23.5%-dən 1996-cı ilə qədər 20.4%-ə qədər azalması qeyd olunmuşdur. Bundan başqa, kadr axını, xüsusilə dövlət ali təhsil müəssisələrindən olan gənclərin Respublikadan getməsi və ya kommersiya strukturlarına keçməsi ilə əlaqədar axın müşahidə olunmuşdur. Bu proses elmi müəssisələrdə, dövlət ali müəssisələrində elmi-pedaqoji kollektivlərin “qocalmasına” gətirib çıxarırdı.

Hesabatın ikinci hissəsində qeyd olunmuşdur ki, sosial sfera sahələrinin vəziyyətinin təhlili nəticəsində bu sahələrdə islahatların aparılması məsələlərinin işlənib hazırlanması zəruriliyi yaranmışdır. Hesabatda struktur yenidənqurmanın icra edilməsinin dəqiq yolları təqdim olunmuş, onların səhiyyədə, təhsildə və mədəniyyətdə icra müddəti qeyd olunmuşdur.

Bunlarla yanaşı, 1997-ci ildə aşağıdakı elmi-tədqiqat işləri də yerinə yetirilmişdir:

- “Azərbaycan Respublikasında yeyinti sənayesi sahələrində struktur yenidənqurma problemləri” (R.T.Həsənov, N.Ə.Yaqubov) (1997)
- “Maliyyə-bank sistemlərində struktur yenidənqurma” (R.T.Həsənov, S.M.Qasımov, M.S.Musayev) (1992)
- “Azərbaycan iqtisadiyyatının müasir inkişafı mərhələsində emal sənayesinin və onun xammal bazasının struktur-yenidənqurulmasının əsas istiqamətləri” (Ş.Ə.Yaqubov, A.M.Mahmudzadə) (1997)

1997-ci ildə İqtisadi İslahatlar Mərkəzinin Elmi Şurasında 11 iclas keçirilmiş, hazırlanmış elmi işlər ətraflı və geniş müzakirə olunmuşdur. Bundan başqa Elmi Şurada bir sıra məsələlər nəzərdən keçirilmişdir: dissertasiya işləri mövzularının təsdiqi, müzakirəsi, plandan kənar işlər üzrə tədqiqatların nəticələri və s.

Bu ildə Elm və Texnika üzrə Respublika Dövlət Komitəsi tərəfindən İqtisadi İslahatlar Mərkəzinə aspiranturaya qəbul üçün 4 yer ayrılmışdı. Aspiranturaya qəbul imtahanlarından sonra Mərkəzə 4 aspirant qəbul edildi: V.A. Əkbərov, R.İ. Novruzov, V.B. Məmmədov və İ.İ. Dadaşov.

**1998-ci ildə** İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Mərkəzi tərəfindən tədqiq edilmiş 3 mövzu üzrə 9 hesabat hazırlanmışdır.

"Azərbaycan iqtisadiyyatının struktur yenidənqurma problemləri" birinci mövzu üzrə tədqiqat işi "Müasir inkişaf mərhələsində bazar infrastrukturunun formalaşması" tədqiqat işinin hazırlanmasını özündə birləşdirmişdir (məsul icraçı: R. Cəbiyev). Tədqiqatın hesabatında bazar infrastrukturu və onun ayrı-ayrı elementləri, onların elmi-nəzəri əsaslandırılması, bazar infrastrukturunun qanunvericilik bazası, Azərbaycanda sərbəst bazarın formalaşdırılması məsələləri əhatə olunmuşdur. Hesabatda qeyd olunmuşdur ki, hal-hazırda bazar infrastrukturları, onların mahiyyəti və elementləri haqqında iqtisadçılar arasında bir çox müxtəlif fikirlər mövcuddur. Onlardan bəziləri struktur və bazar infrastrukturu anlayışını özündə əks etdirir, bunun da nəticəsində bazarın formalaşdırılması və fəaliyyəti məsələlərində anlaşılmazlıq meydana çıxır. Bununla əlaqədar olaraq bazar infrastrukturu elementlərinin dəqiqləşdirilməsi və aydınlaşdırılması gələcəkdə Azərbaycanda bazar infrastrukturunun sürətli inkişaf məqsədini güdür.

İkinci mövzu üzrə "Azərbaycan Respublikasında xarici iqtisadi fəaliyyətin iqtisadi vasitələrlə tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətləri" hesabatı hazırlanmışdır (məsul icraçı: V. Rüstəmov). Tədqiqat işinin əsas məqsədi iqtisadi nəzəriyyə və dünya təcrübəsi bazasında Azərbaycan Respublikasında xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi yollarını müəyyən etmək olmuşdur. Hesabatda inkişaf etmiş ölkələrin bazar iqtisadiyyatının metodlarından və yollarından geniş istifadə etməklə Azərbaycanda xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin liberal dövlət sistemi göstərilmişdir. Lakin, qısa müddət ərzində (5-6 il ərzində) bu sistemin formalaşdırılması və bir çox hallarda, bu sahədə dəyişikliklərin həyata keçirilməsi və bazar münasibətlərinə keçən ölkənin iqtisadiyyatında baş verən proseslərlə onların uyğunlaşdırılması onun keyfiyyətinə öz mənfi təsirini göstərirdi. Bunun nəticəsində son zamanlar Azərbaycanın xarici iqtisadi əlaqələrində müsbət dəyişikliklərlə yanaşı bir çox xoşagəlməz meyillər və problemlər müşahidə olunmuşdur. İşin sonunda Azərbaycanda xarici iqtisadi fəaliyyətin təmzimlənməsinin dövlət sisteminin təkmilləşdirilməsi yollarının müəyyən edilməsi üzrə aparılmış təhlillər prosesi nəticəsində üzə çıxarılmış çatışmazlıqları aradan qaldırmaq üçün təkliflər və tövsiyələr verilmişdir.

Bunlarla yanaşı, 1998-ci ildə aşağıdakı elmi-tədqiqat işləri də yerinə yetirilmişdir:

- "Azərbaycan iqtisadiyyatının struktur yenidənqurma problemləri. Əsas makroiqtisadi göstəricilərin inkişaf meyillərinin müəyyənləşdirilməsinin riyazi modelləri" (B.S.Məmmədova, A.Q.Həsənov, Z.M.Hacıyev);
- "Azərbaycan Respublikasının alüminium istehsalı kompleksinin struktur yenidənqurulması" (A.M.Əliyev);
- "Azərbaycan Respublikasının xarici borcları və onun tənzimlənməsi yolları" (S.M.Qasımov);
- "Azərbaycanın iqtisadiyyatının struktur yenidənqurma problemləri, bazarın (səhiyyənin) formalaşdırılması şəraitində Respublikanın sosial sferasının inkişafı" (E.S.İmanov, Ə.M.Babaşov, Z.C.Qarabəyova, F.N.Əliyev);
- "Azərbaycanın iqtisadiyyatının struktur yenidənqurma və regional siyasətin problemləri: iqtisadi prinsip və prioritetlərin formalaşdırılması" (R.M.Şaulov).

Elmi-tədqiqat işlərinin planına əlavə olaraq, Azərbaycan Respublikası Elm və Texnika Komitəsi ilə bağlanmış müqavilə əsasında, həmin ildə "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modelinin yaradılmasının konseptual əsasları" mövzusu üzrə tədqiqat işi hazırlanmışdır (işin rəhbərləri: N. Nəsrullayev, R. Həsənov). Elmi-tədqiqat işində 1993-1998-ci illərdə Respublikanın sosial-iqtisadi inkişafının aparılmış analitik qiymətləndirilməsi müəyyən edilmişdir. Ötən dövrdə iqtisadi inkişaf problemləri və transformasiya qismən həll olunmuşdur, lakin reallaşdırmanın mürəkkəbliyi kimi vacib əhəmiyyətli bəzi məsələlərdə iqtisadi səmərəliliyin artırılmasının əsas səbəbləri nöqteyi-nəzərindən öz düzgün həllini tapmamışdır. Beləliklə, bu nəticə bazar iqtisadiyyatının transformasiya istiqamətinin təsiri altında istənilən səviyyəni verməmişdir. Aparılmış tədqiqatlar göstərdi ki, son 5 ildə iqtisadi islahatlar əsasən üç vacib istiqamətdə həyata keçirilmişdir: əsas təbii-iqtisadi resursların fəal təsərrüfat dövriyyəsinə cəlb edilməsi; bazar prinsiplərinə əsaslanan liberal-demokratik istiqamətli təsərrüfat mexanizminin yaradılması; ölkə iqtisadiyyatının ardıcıl tədbirlərin köməyi ilə və onun dünya təsərrüfat sistemində regional inteqrasiyasını təmin etməklə inkişaf etdirilməsi.

Elmi-tədqiqat işləri planı üzrə və təsərrüfat müqavilələli işlərin yerinə yetirilməsi ilə yanaşı 1998-ci ildə İİM tərəfindən 10 plandankənar iş yerinə yetirilmişdir, onların arasında:

- Azərbaycan XXI əsrdə: Respublika İqtisadiyyat Nazirliyi üçün ticarət və investisiya imkanları;
- Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi üçün 1997-ci ildə sosial-iqtisadi inkişafın yekunları;
- Azərbaycan Respublikasının Prezident Aparatı üçün - 1999-2003-cü illərdə iqtisadi inkişaf strategiyası;
- Azərbaycan Respublikasının Prezident Aparatı üçün - 1997-ci ildə sosial-iqtisadi inkişafın yekunları.

Bundan əlavə, bu ildə Mərkəzin əməkdaşları Milli Məclisin "Büdcə məsələləri", "İqtisadi siyasət" komissiyalarının iclaslarında iştirak etmiş və "Sığorta haqqında", "Alqı-satqı haqqında", "Auditor məcəlləsi", "Qarşılıqlı borclar haqqında hesablamalar" Qanun layihələrinə rəy hazırlamışlar. Mərkəzin əməkdaşları il ərzində konfrans, seminar və digər tədbirlərin işində iştirak etmiş, onlar tərəfindən 30-a yaxın məqalə və məruzə tezisləri nəşr olunmuşdur.

1998-ci ilin avqust-sentyabr aylarında Mərkəzin əməkdaşları Şamil Yaqubov və Gülnarə Xubanova Misir Ərəb Respublikasında özəlləşdirmənin həyata keçirilməsi təcrübəsinin öyrənilməsi məqsədilə təkmilləşdirmə kursuna göndərildilər.

1998-ci ilin sonuna vəziyyətə görə İqtisadi İslahatlar Mərkəzinin əməkdaşlarının sayı 62 nəfər olmuşdur.

**1999-cu ildə** İqtisadi İslahatlar Mərkəzində elmi-tədqiqat işlərinin planına uyğun olaraq 2 problem üzrə tədqiqat işləri aparılmış və tədqiq olunan məlumatların əsasında 8 hesabat hazırlanmışdır.

Birinci problem üzrə "Bazarın formalaşdırılması şəraitində Respublikada sosial sahənin inkişafı (təhsil)" hesabatı hazırlanmışdır (məsul icraçılar: Ə.Babaşov, E.İmanov). İşin əvvəlində Respublikanın təhsil sistemində o vaxtkı mövcud vəziyyətin qiymətləndirilməsi verilmişdir. Uzaq xarici və MDB ölkələri ilə Respublikanın təhsil sahəsinin inkişafının

müqayisəli göstəriciləri təqdim olunmuşdur. Bundan başqa təhsil və islahatların keçirilməsi üzrə dövlət komissiyası tərəfindən hazırlanmış təhsilin yenidən formalaşdırılması proqramı təqdim olunmuş və onun həyata keçirilməsi üçün ayrı-ayrılıqda nəzərdə tutulmuş üç mərhələ üzrə tədbirlər öz əksini tapmışdır. Sonra isə Respublikada təhsil sahəsinin dövlət tərəfindən maliyyə təminatı məsələləri nəzərdən keçirilmiş, dövlət tərəfindən dövlət büdcəsindən son illərdə təhsilə ayrılmış vəsaitlərin digər ölkələrlə müqayisəli təhlili verilmişdir. Bazar iqtisadiyyatının formalaşdırılması şəraitində təhsil sahəsində keçirilən islahatların strategiya və taktikasını müəyyən edən vacib elementi kimi maliyyə təminatının olması xüsusi vurğulanmışdır. Dövlət tərəfindən təhsil sisteminə ayrılan büdcə vəsaitlərinin təhlili göstərmişdir ki, bu vəsaitlərdə əsas yeri (76%) əmək haqqı və digər ödəmələr tutur, ona görə də bu halda maddi-texniki bazanın inkişafı və bərpa edilməsinə yeni texniki vəsaitlərin əldə edilməsinə, təmir işlərinin və s. aparılmasına resurslar kifayət qədər olmamışdır. 1995-ci ildə Respublikada ödənişsiz təhsillə yanaşı ödənişli təhsilin də tətbiq edilməsi təhsil müəssisələrinin inkişafına büdcədən kənar əlavə vəsaitlərin əldə edilməsi imkanı yaratmış, bu da əmək şəraitinin yaxşılaşdırılmasına və yuxarıda göstərilən digər problemlərin qismən həllinə təkan vermişdir.

“Yeni iqtisadi şəraitdə regionların inkişafı və regional siyasətin problemləri” elmi hesabat (məsul icraçı: R.Şaulov) işinin əsas məqsədi Respublikanın ərazi problemlərini tədqiq etmək və bu sahədə son illərdə aparılmış tədqiqatlar əsasında ərazi strukturlarını müəyyən etmək, bəzi elmi-nəzəri ümumiləşdirmələr aparmaqdan ibarət olmuşdur. Tədqiqat işində sosial-iqtisadi məkanda transformasiyanın zəruriliyi məsələləri nəzərdən keçirilmiş, müxtəlif prinsiplərə və göstəricilərə uyğun olaraq ayrı-ayrı dövrlərdə respublikanın ərazi rayonlaşdırılmasının tarixi açılmış, o dövrdə istifadə olunan 13 iqtisadi rayonun bölgüsünün bazar iqtisadiyyatının müasir tələblərinə uyğunsuzluğu əsaslandırılmışdır. Regional inkişafın dövlət tənzimlənməsi problemlərinə həsr olunmuş, işin əvvəlində sovet dövründə Azərbaycan SSR-də ərazi əmək bölgüsünün tutduğu yer müəyyənləşdirilmiş, mövcud on üç “respublikanın iqtisadi rayonları” bölgüsü ilə birlikdə və ayrı-ayrı ərazilərin (inzibati və iqtisadi rayonlar) sosial-iqtisadi inkişaf səviyyəsi təhlil edilmiş İİM tərəfindən hazırlanmış yeddi iqtisadi rayonun bölgüsü təqdim olunmuşdur (Abşeron, Gəncə, Qarabağ, Muğan, Şəki, Şirvan, Naxçıvan). İşdə aşağıdakı bir sıra nəticə və təkliflər verilmişdir:

- dövlət orqanları tərəfindən iqtisadi rayonların elmi-əsaslandırılmış bölgüsünün yeni tərkibinin rəsmi qəbul edilməsi;
- regional inkişaf proqramının hazırlanması;
- geostrateji və iqtisadi təhlükəsizlik və s. məsələlər üzrə tədqiqatların həyata keçirilməsi.

1999-cu ildə “Azərbaycanın bazar infrastrukturunun formalaşdırılması və inkişafı perspektivləri” elmi işi başa çatdırılmışdır (məsul icraçı: R. Cəbiyev). Tədqiqat işinin əsas məqsədi bazar infrastrukturunda maliyyə bazarının əsaslandırılması və elementlərinin öyrənilməsi olmuşdur. Bu məqsədlə, birinci fəsildə maliyyə bazarını təşkil edən elementlərin pul, kredit bazarı, qiymətli kağızların yer və rolunun xarakteristikası verilmiş, həmçinin müxtəlif müəlliflərin maliyyə bazarının tərkib məlumatlarının rolu və yeri barədə fikirləri təhlil edilmişdir. Aparılmış təhlillər əsasında 1994-1998-ci illər ərzində maliyyə bazarının tərkib elementlərinin xarakteristikası verilmiş və son dövrlərdə qəbul olunmuş qanunların və normativ-hüquqi aktların həm maliyyə bazarı, həm də bütün bazar infrastrukturları üzrə

əhəmiyyəti və rolu göstərilmişdir. Maliyyə bazarının formalaşdırılması və pulun xarakteristikası verilmiş, təhlillər əsasında müəyyən illər ərzində ümumi daxili məhsul və pul kütləsi arasında mövcud asılılıq göstərilmiş, bunun nəticəsində müvafiq təkliflər irəli sürülmüşdür.

1999-cu ildə yerinə yetirilmiş "Əsas makroiqtisadi göstəricilərin inkişaf meyillərinin müəyyənləşdirilməsinin riyazi modelləri" (Məsul icraçı: B.Məmmədova, İcraçılar: A.Q. Həsənov, Z.M. Hacıyeva, G.R. Hüseynova, S.B. Heydərova, S.İ. Qurbanova) tədqiqat işində konkret dövrdə əldə oluna bilən məlumatlar əsasında əsas makroiqtisadi göstəricilərin inkişaf meyillərinin müəyyənləşdirilməsi və qiymətləndirilməsinə imkan verən riyazi modellər işlənib hazırlanmışdır.

Bu ildə yerinə yetirilmiş "Xarici İqtisadi əlaqələrin iqtisadi artıma təsirinin qiymətləndirilməsi" (Məsul icraçı: V.Rüstəmov, İcraçı: Ş.Quliyev) tədqiqat işində xarici iqtisadi əlaqələrin iqtisadi artıma təsirinin qiymətləndirilməsinin nəzəri-metodoloji əsasları ümumiləşdirilmiş, Azərbaycanda xarici iqtisadi əlaqələrin müasir vəziyyəti (1992-1998-ci illər üzrə) təhlil olunmuş və iqtisadi artıma təsiri qiymətləndirilmiş və bu əsasda davamlı iqtisadi artımın təmin olunması baxımından bu əlaqələrin təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmişdir.

1999-cu ildə İqtisadi İslahatlar Mərkəzinin Elmi Şurası tərəfindən doqquz iclas keçirilmiş və orada hazırlanmış elmi-tədqiqat işləri geniş və ətraflı müzakirə olunmuşdur. Bu ildə yuxarı təşkilatların tapşırığı üzrə səkkiz analitik məruzə və materiallar hazırlanmış, onlardan bəziləri aşağıda göstərilmişdir:

- 1999-cu ildə sosial-iqtisadi inkişafın yekunları və 2000-ci ilə Azərbaycan Respublikasının məqsədləri haqqında;
- Azərbaycan iqtisadiyyatında islahatların həyata keçirilməsinin vəziyyəti və onun perspektivləri;
- sosial-iqtisadi əməkdaşlıq Qafqaz xalqlarının maraqlarına xidmət edir;
- Azərbaycanda iqtisadi islahatların inkişafı: mövcud vəziyyətin qiymətləndirilməsi və əməkdaşlığın perspektivləri.

Bu ildə İqtisadi İslahatlar Mərkəzinin iki əməkdaşı namizədlik dissertasiyalarını müdafiə etmiş, Mərkəz tərəfindən aparıcı təşkilat kimi doktorluq və namizədlik dissertasiyalarına 30 rəy verilmişdir.

1999-cu ildə Mərkəzin əməkdaşları müxtəlif elmi konfransların işində iştirak etmiş və orada 50-dən yuxarı məqalə və məruzə tezisləri nəşr olunmuşdur. İqtisadi İslahatlar Mərkəzinin direktoru Rasim Tapdıq oğlu Həsənov Polşada keçirilən "Mərkəzi və Şərqi Avropa ölkələrində dövlət və özəl sektorun birgə fəaliyyətinin uyğunluğu" konfransının işində iştirak etmişdir.

**2000-ci ildə** İİM tərəfindən, elmi-tədqiqat işlərinin planına uyğun olaraq, Mərkəzin direktoru Rasim Həsənovun elmi rəhbərliyi ilə aşağıdakı üç problem üzrə tədqiqat işləri aparılmışdır:

- Azərbaycan iqtisadiyyatının struktur yenidənqurma problemləri;
- Azərbaycan iqtisadiyyatının struktur yenidənqurulmasında xarici kapitalın rolunun qiymətləndirilməsi;
- İqtisadi inkişafın və iqtisadi islahatların gedişinin qiymətləndirilməsi;

Birinci problem üzrə altı mövzu üzrə elmi-tədqiqat işləri həmin ildə başa çatdırılmış və müvafiq hesabatlar hazırlanmışdır:

1.1.“Azərbaycanda sahibkarlıq mühitinin qiymətləndirilməsi və inkişafı konsepsiyasının hazırlanması” (Məsul icraçı: N.Hacıyev) tədqiqat işində Azərbaycanda özəl sektorun müasir vəziyyəti təhlil olunmuş, sahibkarlığın inkişafının sürətləndirilməsi ilə bağlı problemlər və onların həlli yolları, eləcə də inkişaf istiqamətləri müəyyənləşdirilmişdir.

Hesabat iki bölmədən ibarətdir. Birinci bölmədə respublika iqtisadiyyatında özəl sektorun müasir vəziyyəti təhlil edilmiş, onun iqtisadi artıma təsiri qiymətləndirilmişdir. Həmçinin sahibkarlığın hüquqi bazası, onun inkişafına xidmət göstərən strukturlar, bu sahəyə dövlətin himayəsi və s. məsələlər araşdırılmışdır. Qeyd edilmişdir ki, son dövrlərdə vergi dərəcələrinin və məcburi sosial sığorta haqqının aşağı salınması sahəsində konkret addımlar atılmış, kiçik sahibkarlıq subyektlərinin bir qisminə vahid verginin tətbiqi qanunvericilikdə təsbit olunmuşdur. Kiçik və orta sahibkarlar üçün müasir tələblər səviyyəsində işgüzar informasiya bankı yaradılmış, beynəlxalq təşkilatların proqramları çərçivəsində sahibkarların xarici ölkələrdə təhsil almaları təmin edilir. Sahibkarlığın inkişafı sahəsində BMT-nin İnkişaf Proqramı, Dünya Bankı, TASIS, BMT-nin Avropa İqtisadi Komissiyası və s. kimi beynəlxalq təşkilatlarla geniş əməkdaşlıq həyata keçirilir.

İkinci bölmədə sahibkarlıq sektorunun inkişafının sürətləndirilməsi ilə bağlı problemlər və onların həlli yolları müəyyənləşdirilmişdir. Burada ən əvvəl, istehsal yönümlü fəaliyyət sahələrinin genişləndirilməsi ilə əlaqədar daxili istehsalların çevik istiqamətləndirilməsində dövlət tənzimlənməsi amili ön plana çəkilir. Burada ixrac yönümlü fəaliyyət sahələrinin daha üstün stimullaşdırılması ilə yanaşı idxal yönümlü istehsalların yaradılması sahəsində lisenziyalaşdırılmanın istiqamətlədirici rolunun gücləndirilməsi məqsədəuyğun sayılır. Sahibkarlıq sektorunun inkişafının sürətləndirilməsində əsas məsələlərdən biri dövlət qeydiyyatından keçmiş yeni müəssisələrin sayının aşağı düşməsi meyilinin aradan qaldırılması hesab edilir. Belə ki, təhlil göstərir ki, 1999-cu ildə qeydiyyatdan keçmiş özəl müəssisələrin sayı 1998-ci ildəkinə nisbətən xeyli azalmışdır. Bu vəziyyət hüquqi şəxslərin dövlət qeydiyyatının təkmilləşdirilməsini tələb edir.

İkinci əsas məsələ kimi sahibkarlığın sahə quruluşundakı və ölkə ərazisi üzrə inkişafındakı disproporsionallığın aradan qaldırılması göstərilir. Daha sonra özəl sektorun ölkənin ixrac potensialının gücləndirilməsinə təsirinin artırılması ön plana çəkilir. İxrac potensialının gücləndirilməsi və onun strukturunun yaxşılaşdırılması məqsədilə hazır məhsul ixrac edən kiçik sahibkarlara dövlət tərəfindən texniki kömək və məqsədli maliyyə yardımı göstərilməsi və ixraca kömək infrastrukturunun formalaşdırılması zəruri hesab edilir. Bu məqsədlə Bakı şəhərində ixraca kömək mərkəzinin yaradılması və onun səmərəli fəaliyyətinin təmin edilməsi təklif edilir.

İşdə sahibkarlıq sektorunun inkişafında əsas məsələlərdən biri də sahibkarların təhsil sistemindəki problemlərinin həlli hesab edilir. Bu baxımdan sahibkarların ictimai və peşə tərkibinin, müəssisələrin maddi və maliyyə ehtiyatlarının həcminin, xarici və beynəlxalq təşkilatların texniki-iqtisadi köməyinin səmərəli cəlb edilməsi və istifadəsi mexanizminin yaradılması təklif edilir.

Bundan başqa, həlli zəruri hesab edilən digər əsas məsələlər kimi, vergi yükünün azaldılması ilə yanaşı vergilərin stimullaşdırıcı və struktur tənzimləyici rolunun

gücləndirilməsi, maliyyə-kredit mənbələrindən sahibkarların istifadəsi üçün əlverişli şəraitin yaradılması və s. araşdırılır.

Hesabatın sonunda sahibkarlığın inkişafına dair bir sıra konkret nəticə və təkliflər öz əksini tapmışdır.

1.2. "Azərbaycan Respublikasında aqrar islahatların gedişinin qiymətləndirilməsi və dərinləşdirilməsi problemləri" (Məsul icraçı: Ş.Yaqubov, İcraçı: A.Mahmudzadə).

Hesabatda respublikada aparılan aqrar islahatlar, onların inkişaf istiqamətləri araşdırılmış, torpaq islahatının mərhələləri, aqrar istehsal və emaledici sənaye sahələri arasındakı münasibətlər, aqrar infrastruktur sahələr arasındakı əlaqələr tədqiq edilmiş, bazar iqtisdiyyatı şəraitində ticarətin əhəmiyyəti, onun bazar əlaqələri vasitəsilə elmi surətdə tənzimlənməsinin əhəmiyyəti göstərilmişdir.

Kənd təsərrüfatı və emal sənayesinin istehsal etdiyi məhsulların ölkə tələbatını ödəməyə nə dərəcədə qabil olduğu və bu sahədə zəruri tədbirlərin həyata keçirilməsinin mümkünlüyü və yolları göstərilmişdir. Strateji (taxıl, pambıq, tütün) və başqa kənd təsərrüfatı məhsulları (kartof, bostan-tərəvəz, meyvə-giləmeyvə) ilə ölkənin, tam təminatının mümkünlüyü tədqiq edilmişdir. Qeyd edilir ki, görülən tədbirlər nəticəsində son 3 ildə kənd təsərrüfatı məhsullarının mütəmadi olaraq orta illik artımı 7% təşkil etmiş, kartofa olan tələbatın öz daxili imkanlarımız hesabına ödənilməsinə nail olunmuşdur. Bununla yanaşı, bu sahədə mövcud olan bir çox çatışmamazlıqlar vergi qanunvericiliyi aktlarındakı qüsurlar, strukturun işlək olmaması, kənd təsərrüfatı məhsulları bazarının yarıtmamazlığı, kəndli-fermer təsərrüfatları ilə özəl emal müəssisələri arasındakı əlaqələrin sıx olmaması, fermer təsərrüfatına subsidiyaların və kreditlərin verilməsinin real olaraq həll edilməməsi, meliorasiya və irriqasiya sisteminin bərbadlığı və s. məsələlər araşdırılmışdır.

Qeyd edilir ki, torpaq islahatının başa çatdığı bir vaxtda emal müəssisələrinin özəlləşdirilməsi prosesi baş verir.

Həmçinin hesabatda göstərilir ki, DSK-nin rəsmi məlumatlarında bəzi qeyri-dəqiqliklər olduğu üçün ona bəzi düzəlişlərin edilməsi zəruridir. Məsələn, respublika əhalisinin göstərilən rəsmi sayı 1990-cı ilin siyahı sayına əsaslandığına görə 1988-90-cı illərdə ittifaqda və respublikada baş vermiş məlum hadisələr, əhalinin demoqrafik və say tərkibindəki dəyişikliklər nəzərə alınmamışdır, bu isə az fərq deyildir. Ona görə də hesabatda əhalinin adambaşına düşən gəlirləri, istehlakı və s. hesablamalarda bu fərq nəzərə alınmışdır.

Hesablamalar göstərmişdir ki, əsas ərzaq məhsullarının il ərzində istehlakında respublika 4 inkişaf etmiş ölkə ilə müqayisədə heç də axırıncı yerdə getmir (Rusiya, Bolqarıstan, Böyük Britaniya, Macarıstan).

Əhalinin yumurta, ət, süd, balıq və s. məhsullara olan tələbatının tam ödənilməməsi isə ilk növbədə onun maddi təminatının aşağı səviyyədə olması ilə əlaqədardır. Ona görə də əhali kartof və taxıl məhsullarının fizioloji normadan da artıq istehlak edir və bununla da ərzaq rasionunda olan çatışmamazlığı müəyyən qədər tarazlaşdırır.

Əsas ərzaq məhsullarının il ərzində adambaşına gələcək artımı isə əhalinin sosial vəziyyətinin inkişafı, maddi təminatının yüksəldilməsi,ələlxüsus pul gəlirlərinin artırılması və s. ilə əlaqələndirilir.

İkinci bölmədə aqrar islahatların inkişaf istiqamətlərinin əsas amilləri kimi aşağıdakılar müəyyənləşdirilir:

- özəl kəndli-fermer təsərrüfatlarında və emal müəssisələrində bazar iqtisadiyyatı münasibətlərinə tam keçidin həyata keçirilməsinə nail olmaq;
- respublika sənayesinin strateji əhəmiyyəti olan kənd təsərrüfatı məhsullarına, eləcə də əhalinin ölkə daxilində istehsalı mümkün olan əsas ərzaq məhsullarına tələbatını aqrar sahə potensialından istifadə etməklə yerinə yetirmək;
- aqrar sahədə inhisarçı təsərrüfatların yaradılması və inkişaf etməsinin qarşısını dövlət səviyyəsində qanuni olaraq almaq.

Bu baxımdan TASIS inkişaf proqramı üzrə 6 "Pilot" təsərrüfatının yaradılması və inkişafı layihəsinin yerinə yetirilməsi, bu təcrübədən digər kəndli-fermer təsərrüfatların da istifadə edilməsi əsas məsələlərdən hesab olunur.

Hesabatda bir sıra konkret təkliflər irəli sürülür:

- emal müəssisələri ilə kənd təsərrüfatı məhsulları istehsalçıları arasında könüllülük prinsipi arasında müqavilə münasibətləri genişləndirilməlidir.
- kənd təsərrüfatı sahələrinin yüksək məhsuldarlığını təmin etmək, yəni əkin sahələrini dövriyyəyə cəlb etmək üçün meliorasiya işlərinin aparılması və irriqasiya sisteminin bərpası, ələlxüsus aran rayonlarında, dövlət vəsaiti hesabına həll edilməlidir.
- vergi sistemi qanunvericiliyi aktlarına Milli Məclis yenidən baxmalı, sənaye sahələri mütəxəssislərinin və özəl müəssisə sahibkarlarının təklifləri nəzərə alınmalıdır.
- özəl kəndli-fermer təsərrüfatlarına xüsusi təyinatlı dövlət subsidiyalarının və qısa müddətli az faizli bank kreditlərinin verilməsi məsələsi real həll olunmalıdır.
- torpağın alqı-satqısı ilə əlaqədar olaraq kənd rayonlarında tədricən inkişaf etməyə başlayan inhisarçı fermer təsərrüfatlarının qarşısı qanuni surətdə alınmalıdır və s.

1.3. "Müasir mərhələdə regional inkişaf prioritetlərinin formalaşması və inkişaf konsepsiyasının hazırlanması" (Məsul icraçı: R. Şaulov).

Hesabat Azərbaycan iqtisadiyyatının struktur yenidənqurma və regional inkişaf problemlərinə həsr olunur. Tədqiqat işinin məqsədi yeni iqtisadi mühitdə iqtisadiyyatın ərazi problemlərini araşdırmaq, ərazi strukturlarının regional inikşaf meyillərini müəyyənləşdirmək və regional inkişaf konsepsiyasının əsaslarını işləyib hazırlamaqdır. Hesabat üç bölmədən, nəticə və təkliflərdən ibarətdir. "Regional siyasət və regional inkişaf aspektləri" adlı birinci bölmədə regional siyasət və sosial-iqtisadi inkişafın milli strategiyasının tərkib hissəsi kimi nəzərdən keçirilir və onunla bağlı olan "regional iqtisadiyyat", "regional inkişaf", "regional planlaşdırma", "regional modelləşdirmə", "regionlaşdırma" və s. anlayışlar araşdırılır. Daha sonra regional siyasətin ayrı-ayrı istiqamətləri – iqtisadi siyasət, sosial siyasət, demokrafik siyasət, ekistik siyasət, ekoloji siyasət, sərhədyanı siyasət, elmi-texniki siyasət və s. nəzərdən keçirilir. Hər bir ölkə üçün regional siyasətin ümumiləşdirilmiş məqsədləri kimi aşağıdakılar göstərilir:

- regionların sosial-iqtisadi bərabərliyi;
- dövlət üçün mühüm strateji əhəmiyyət kəsb edən regionların prioritet inkişafı;
- regionların təbii ehtiyatlarından maksimum tam və səmərəli istifadə edilməsi;
- ətraf mühitin qorunması, regionun kompleks ekoloji mühafizəsi;
- ümumilli və regional inkişafın, o cümlədən iqtisadiyyatın idarəedilməsinin mərkəzi və regional səviyyələri arasında əlaqələrin ahəngdarlığının təmin olunması və s.

Regional inkişafın prioritet bloklarının formalaşması adlı ikinci bölmədə regionların sənaye potensialı, demoqrafik və məskunlaşma problemləri araşdırılır. Burada regionlar üzrə əsas sənaye sahələrinin (neft-qaz, elektroenergetika, qara metallurgiya, əlvan metallurgiya, kimya və neft-kimya sənayesi, tikinti materialları, yüngül və yeyinti sənayesi) potensialları onların ərazi üzrə yerləşməsi tədqiq edilir. Aqrar sənaye sektoru ayrıca paraqrafda geniş surətdə əkinçiliyin və heyvandarlığın hər bir sahəsi üzrə təhlil edilir. Regional inkişafın demoqrafik və məskunlaşma problemləri sırasında əhalinin sayı, tərkibi, yerləşməsi, daxili və xarici miqrasiyası regional inkişaf meyillərini müəyyən edən amillər kimi göstərilmişdir. Qeyd edilir ki, əhalinin məskunlaşmasında şəhər və kənd əhalisinin sayında kəskin fərq müşahidə olunmur, lakin axır illərdə məlum hadisələrlə əlaqədar olaraq şəhər əhalisinin daimi sayı daha yüksəkdir. Əhalinin cinsi tərkibində qadınların sayı kişilərə nisbətən bir qədər çoxdur və əhalinin əksəriyyəti əməkqabiliyyətli yaşda olan adamlardır. Bütün bu amillər əhalinin təbii artımındakı dəyişikliklərlə əlaqələndirilir, axır illər cərəyan edən demokrafik dəyişikliklərin təbii artımın dinamikasına mənfi təsiri statistik göstəricilərlə təhlil edilir. Bəzi inzibati rayonlarda–(Masallı, Laçın, Ağdam, Qazax, Zərdab və s.) ümumi ölümün, Ağcabədi, Bərdə, Kəlbəcər və Qusar rayonlarında isə uşaq ölümünün artması müşahidə edilir.

Əhalinin miqrasiya probleminin təhlili göstərir ki, miqrasiya ölkədə mənfi qalığa malikdir. Miqrantların əksəriyyəti xarici ölkələrə (İsrail, ABŞ və s.) daimi yaşayanlar üçün gedənlərdir. Regional inkişafın konsepsiyası bölməsində ərazi strategiyasının realizasiya imkanları dörd səviyyədə araşdırılır: ümumi dövlət səviyyəsi, regionlararası səviyyə, regional səviyyə, regiondaxili səviyyə. Daha sonra ölkədə bazar məkanının prioritetləri, regional amillərin onun formalaşması və fəaliyyətinə təsiri, xarici iqtisadi fəaliyyətin inkişafı üçün regionların mövcud əlverişli imkanları açıqlanır. Nəhayət, sonda işdəki təhlildən irəli gələn bəzi nəticə və təkliflər göstərilir.

1.4. "Müasir mərhələdə Azərbaycan Respublikasında sosial siyasət konsepsiyasının hazırlanması" (məsul icraçılar: E.İmanov, Ə. Babaşov).

Tədqiqatın əsas məqsədi bazar iqtisadiyyatına keçid dövründə əhalinin sosial müdafiəsi və həyat səviyyəsi məsələlərinin müasir vəziyyətini araşdırılması, onlara təsir edən amillərin üzə çıxarılması, əhalinin həyat səviyyəsi sahəsində dövlətin apardığı siyasətin nəticələrinin göstərilməsi və bu məsələlərin həlli üçün lazımi tövsiyyə və təkliflərin verilməsidir.

Birinci bölmədə əhalinin sosial müdafiəsi problemləri araşdırılmış, qeyd edilmişdir ki, əhalinin müəyyən hissəsinin həyat səviyyəsi və sosial müdafiəsinin tələb olunan normativlərdən aşağı olması, sosial problemlərin prioritet həll edilməsi zərurətini meydana atır. Belə ki, sosial siyasətin düzgün müəyyənləşdirilməməsi əhalinin ayrı-ayrı qrupları arasında kəskin qütbləşmə yaradır. Bu məqsədlə işdə aşağıdakı bəzi tədbirlərin həyata keçirilməsi təklif olunur:

- vətəndaşların əmək, istirahət, əhalinin sosial müdafiəsi, təhsil, sağlamlığının qorunması, mənzillə təminatı sahəsində konstitusiya təminatı;
- əhalinin səmərəli məşğulluğunun təmin edilməsi, işsizliyin azaldılması, yeni iş yerlərinin yaradılması;
- sosial məsələlərin həllində dövlətin və yerli özünüidarənin səlahiyyət və cavabdehliyinin dəqiq müəyyənləşdirilməsi;

- sosial siyasətin ailəyə istiqamətləndirilməsi, qadın, uşaq və gənclərin hüququnun və sosial qarantının təmin edilməsi;
- demoqrafik vəziyyətin normallaşdırılması, uşaqların və əmək qabiliyyətlilərin ölümünün azaldılması və s.

"Əhalinin həyat səviyyəsi" bölməsində iqtisadiyyatın müxtəlif sahələri üzrə 1990-99-cu illərdə orta aylıq nominal əmək haqqı göstəricisi təhlil edilmiş və aydınlaşdırılmışdır ki, sahələr arasında çox böyük differensiasiya mövcuddur və bu amil ilbəil artır ki, bu da arzuedilməz haldır.

Təhlil göstərir ki, əhalinin təbəqələşməsində də ciddi fərqlər mövcuddur. Bu təbəqələşmənin əsas səbəbləri – açıq və gizli işsizlik, əmək ödənişlərinin və transferlərin gecikdirilməsi və ödənilməməsi, özəl mülkiyyət gəlirlərinin həddən artıq differensiasiyasının olmaması, kölgəli gəlirlər və əməyin barter ödənişi və s.-dir.

Ən böyük sosial problem kimi "kasıblıq" probleminin əmələgəlmə mənbələri və ona təsir edən amillər – çoxuşaqlı və tam olmayan ailələrin çoxluğu, yaşı 60-dan çox olan və tək yaşayan pensiyaçıların olması və s. araşdırılır. Bunun sosial nəticələri – cəmiyyətdə səfillər, nəzarətsiz uşaqlar, evsiz-eşiksizlər, küçə pozğunluğu və s. sadalanır. Bu səbəbdən əhalinin az təminatlı təbəqələrinin sosial təminatının tənzimlənməsi – əhalinin sosial müdafiəsinin yüksəldilməsinin bir nömrəli vəzifəsi sayılır.

"Pensiya təminatı" bölməsində pensiya islahatlarının aşağıdakı əsas məqsədləri göstərilir:

- Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş vətəndaşların sosial təminatı hüququnun həyata kyçirilməsi;
- pensiya təminatı sisteminin maliyyə sabitliyinin təmin edilməsi;

Daha sonra, son illər pensiya təminatı sistemində həyata keçirilən islahatlar nəticəsində əldə edilən irəliləyişlər, pensiya təminatına dair qəbul edilmiş qanunlar, normativ hüquqi aktlar, onların əhalinin pensiya təminatına təsiri və s. araşdırılmışdır. Sonda respublikada aparılan iqtisadi siyasətin sosial yönümlülüyünün daha da artırılması məqsədilə bəzi nəticə və təkliflər göstərilmişdir:

- iqtisadiyyatın qeyri-büdcə bölməsində əmək ödənişi sahəsində sosial tərəfdaşlığın bütün səviyyəsində işverənlə işçilər arasında onların ixtisas dərəcəsindən asılı olaraq işçilər üçün kollektiv tarif müqaviləsi və sazişlər əsasında qarantiya verən sistem yaradılmalıdır;
- büdcə təşkilatı işçilərinin əmək haqqının vahid tarif cədvəlinin parametrlərini əlavə və artımların istifadə mexanizmindən aktiv istifadə etməklə dəqiqləşdirilməsi. Bu halda fasiləsiz iş stajı və yüksək əmək məhsuldarlığı nəzərə alınmaqla vəzifə maaşlarına əlavələr verilə bilər.
- büdcə təşkilatı işçilərinin əmək haqqı stavkası yalnız istehlak qiymətlərinin artım tempindən yox, həm də iqtisadiyyatın qeyri-büdcə sferasındakı əmək haqqı dinamikası arasındakı asılılıqda nəzərə alınmalıdır;
- işsizliyə görə müavinətin minimum həddi müəyyən edilərkən əməyin ödənişinin minimum həddindən norma kimi istifadə edilməsindən imtina edilməlidir;

- pensiya qanunvericiliyində pensiyaçıların maddi təminatının daha da yüksək standartlarına keçidə imkan verən sığorta prinsiplərinin inkişafı üçün şərait yaradılmalıdır;
- istehlak qiymətlərinin artımına uyğun olaraq pensiyanın səviyyəsi vaxtaşırı indeksləşdirilməlidir;
- qeyri-dövlət pensiya fondlarının inkişafına dövlət himayəsi göstərilməlidir;
- pensiyaların vaxtlı-vaxtında verilməsi tam təmin edilməlidir və s.

1.5. "Azərbaycanda sığorta bazarının formalaşması və inkişafı" (məsul icraçı prof. Rauf Mirzə oğlu Cəbiyev)

Hesabatda sığorta şirkətlərinin formalaşmasında nizamnamə kapitalının rolu və əhəmiyyəti, sığorta şirkətlərinin fəaliyyətində iqtisadi göstəricilərin əhəmiyyəti, sığorta növlərinin təsnifatı və mükafatların daxil olmasında onların rolu, sığorta şirkətlərinin investisiya portfeli və sığorta risklərinin təkrar sığortası və s. məsələlərə baxılmışdır.

Birinci bölmədə təhlil göstərir ki, bir çox sığorta şirkətlərinin nizamnamə kapitalı sığorta bazarında səmərəli fəaliyyət göstərməyə şərait yaratmır. 1999-cu ildə ödənmiş nizamnamə kapitalının ümumi həcmində nizamnamə kapitalı 10-dan 200 mln. manatadək olan şirkətlərin xüsusi çəkisi 0,1-dən 4,3%-ə qədər təşkil edir ki, bu da həmin sığorta şirkətlərinə sığorta fəaliyyəti ilə tam miqyasda məşğul olmağa imkan vermir. Məlum olmuşdur ki, 1999-cu ildə fəaliyyət göstərən şirkətlərin ümumi sayından təqribən 30-u mövcud rejim şəraitində fəaliyyət göstərə bilməzlər. Belə ki, bunların bir çoxu bu dövrdə heç bircə müqavilə belə imzalaya bilməmişlər.

Bu vəziyyət sığorta kapitalının təmərgüzləşməsi siyasətinin həyata keçirilməsinin zəruri olduğunu göstərir. Tədqiqatlardan aydın olur ki, fəaliyyət göstərən sığorta şirkət və firmalarının nizamnamə kapitalı milli şirkətlər üçün 500 mln. manatdan, müştərək şirkətlər üçün isə 1 mlrd. manatdan az olmamalıdır.

İkinci bölmədə sığorta şirkətlərinin fəaliyyətində istifadə edilən iqtisadi göstəricilər – ÜDM-un həcmində sığorta haqlarının (mükafatlarının) həcmi, əhalinin hər bir nəfərinə düşən sığorta haqlarının həcmi və s. tədqiq edilmişdir. Daha sonra sığorta növlərinin təsnifatı, məcburi və könüllü sığorta üzrə sığorta xidmətlərinin xüsusi çəkisi, artma meyili, sığorta ödənişlərinin həcmi və s. məsələlər üzrə faktiki göstəricilər araşdırılmışdır. Nəticədə, Azal, Atəşgah, Güney-Anadolu, Başak-Inam, Elm və s. şirkətlərin sığorta bazarında özlərini doğrultduqları aydınlaşmışdır. Məsələn, "Atəşgah" sığorta şirkəti hazırda sığortanın 28 növünü həyata keçirir və əsas fəaliyyət istiqaməti Azərbaycanın karbohidrogen sərvətlərini mənimsəyən xəzər beynəlxalq neft konsorsiumlarının əmlak maraqlarının sığortasıdır. Şirkətin nizamnamə kapitalı 1 mlrd. manata bərabərdir. Apardığı məqsədyönlü işə görə Atəşgahın sığorta mükafatlarının həcmi 1997-ci ildəki 3755,1 mlrd. manatdan 1999-cu ildə 6528,4 mlrd. manatadək və ya 73,8% artmışdır. "Sığorta şirkətlərinin investisiya portfeli və sığorta risklərinin təkrar sığortası" bölməsində təhlil göstərir ki, investisiyaların strukturunda ən böyük xüsusi çəkisi olan bank qoyuluşlarıdır (depozitlər). Sığorta risklərinin təkrar sığortası üzrə dövlət səviyyəsində təkrar sığorta şirkətinin yaradılması məsələsi bu günədək müzakirə olunur və öz həllini tapmayıb. Qeyd etmək lazımdır ki, respublika daxilində və eləcə də onun xaricində təkrar sığortaya külli miqdarda sığorta haqları ödənilmişdir ki, bu vəziyyət də respublikada güclü nizamnamə kapitalına malik iri Dövlət milli təkrar sığorta şirkətinin yara-

dılmasını tələb edir. Bu isə respublika sığorta və təkrar sığorta sisteminin möhkəmlənməsinə, bununla da bütövlükdə dövlətin və sığortaçıların iqtisadi maraqlarının qorunmasına möhkəm zəmin yaradardı.

İşin sonunda problemə dair konkret nəticə və təkliflər göstərilmişdir.

1.6. "Restrukturizasiya şəraitində sənayenin qara metala olan tələbatının qiymətləndirilməsi" (məsul icraçı Abuzər Musa oğlu Əliyev) adlı hesabat neft maşınqayırması və metallurgiya sənayesinin qara metala olan tələbatının ödənilməsi və onun böhrandan çıxarılması istiqamətində qarşıda duran problemlərin araşdırılması məsələlərinə həsr olunmuşdur. Əvvələn, qeyd edilən sənaye müəssisələri timsalında bu sənaye sahələrinin respublika iqtisadiyyatında rolu verilir, eyni zamanda təhlil nəticəsində onların qara metala olan tələbatı, avadanlıqların texniki səviyyəsi, məhsul nomenklaturasının geniş çeşiddə istehsal həcmi, istehsalın inkişafına təsir edən amillər və s. müəyyənləşdirilir.

İşdə təqdim edilən konkret nəticə və təkliflərdən aşağıdakıları göstərmək olar:

- Yerli müəssisələrin xarici firmalarla rəqabətə dözümlülüyünün təmin edilməsi məqsədilə daxili bazarın qorunmasına dair qanunların işlənilməsi;
- Müəssisələrin işinin səmərəliliyini yüksəltmək məqsədilə enerji daşıyıcıların bahalaşmasının, vergilərin çoxluğunun qarşısının alınması;
- Yerli xammaldan səmərəli istifadə etmək məqsədilə idxal olunan neft maşınqayırma və metallurgiya məhsullarına qoyulan rüsumların artırılması və məhdudlaşdırılması.

İkinci problem üzrə "İqtisadi dövr modellərinin Azərbaycan iqtisadiyyatına tətbiqi" mövzusunda elmi-tədqiqat işi (məsul icraçı: B. Məmmədova) yerinə yetirilmiş və müvafiq hesabat hazırlanmışdır.

Hesabat üç bölmədən ibarətdir. Birinci fəsildə iqtisadi dövr və bu dövrün mərhələlərindən bəhs edilir, sənaye istehsalı və aqrar böhranlarının əsas formaları göstərilir. Təhlil nəticəsində müəyyənləşdirilir ki, aqrar böhranı istehsal böhranından fərqli olaraq daha uzunsürən və dağıdıcıdır və dövrilik xarakteri daşımır.

İkinci bölmədə ictimai təkrar istehsalın dövrilik iqtisadi nəzəriyyəsi xarakterizə olunur və bu dövrün səbəblərini müəyyən etmək üçün istifadə edilən üç üsul göstərilir. Birinci üsul dövrü xarici (ekzogen) amillərlə, ikinci üsul daxili (endogen) amillərlə izah edir. Üçüncü üsul birinci və ikinci üsulların sintezi ilə izah olunur.

Xarici amillərə əhalinin sayında baş verən dəyişikliklər, ixtira və innovasiya, müharibə və s. siyasi hadisələr aiddir. Daxili amillərə istehlak, investisiyalar və hökumətin fəaliyyəti daxildir. Üçüncü üsula dair konsepsiyanın müəllifləri isə belə hesab edirlər ki, xarici amillər (ekzogen) dövrə ilk təkan verir, daxili amillər (endogen) isə fəzalı titrəyişə gətirib çıxarır. Bu istiqamət daha məhsuldar hesab edilir.

İqtisadi dövr modellərinin Azərbaycan iqtisadiyyatına tətbiqi nöqteyi-nəzərindən Samuelson-Xiks və Teves modelləri üçüncü fəsildə araşdırılır. Birinci modeldə konyuktura titrəyişinin mexanizmi akselerasiya prinsipinə və multiplikator konsepsiyasına əsaslanaraq izah edilir. İkinci araşdırılan model Teves modelidir ki, burada da Samuelson-Xiks modelini pullu bazar modeli tamamlayır, hansı ki, faiz dərəcəsi vasitəsilə nemətlər bazarına təsir göstərir.

Samuelson və Xiks belə hesab edirlər ki, akselerator prinsipinin multiplikatorla birləşməsi həqiqi həyatdakı kimi yenidən belə dövr yarada bilər. Fərz edək ki, iqtisadiyyat tam

məşğulluğa gedir: ÜMM artır və məhsul satışı artan sürətlə həyata keçirilir. Onda akselerator prinsipi üzrə məhsul satışının artımı investisiyanın yüksək səviyyəsinə gətirib çıxarır.

Multiplikator sayəsində investisiyanın səviyyəsinin artması gələcəkdə ÜMM artmasına səbəb olur. Bu halda iqtisadiyyat yüksəliş fazasına daxil olur və əksinə. Burada belə bir nəticə əldə olunur: akselerasiya prinsipi növbəti asılılığı meydana çıxarır: kəsirin dəyişməsi investisiyanın dəyişməsinə səbəb olur ki, bunun da nəticəsində iqtisadiyyatın inkişafının üç variantı əmələ gəlir:

- daimi inkişaf;
- qeyri-bərabər inkişaf;
- titrəyiş (xalis kapital qoyuluşunun həcmi mənfi olanda, enmə baş verir).

İşdə antiböhran siyasəti üzrə bum müddətində aşağıdakı mühüm tədbirlər təklif edilir:

- fiksal siyasətdə: dövlət büdcəsinin hesablamalarını azaltmaq, vergi dərəcəsini artırmaq;
- pul-kredit siyasətində uçot dərəcəsini artırmaq, hökumətin qiymətli kağızlarını açıq bazarda satmaq;
- hökumət investisiyası siyasətində: hökumət tikintisini dayandırmaq;

Depressiya müddətində təklif olunan tədbirlərdən isə aşağıdakıları göstərmək olar:

- fiksal siyasətdə dövlət büdcəsinin əlavə xərclərini, vergi dərəcəsini azaltmaq;
- əmək haqqını artırmaq;
- təcili investisiya proqramlarını həyata keçirmək.

Üçüncü problem üzrə "Azərbaycan iqtisadiyyatının struktur yenidənqurulmasında xarici kapitalın rolunun qiymətləndirilməsi" mövzusunda elmi-tədqiqat işi (Məsul icraçı: V.Rüstəmov) yerinə yetirilmiş və müvafiq hesabat hazırlanmışdır.

Hesabat giriş, üç bölmə, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Birinci bölmədə respublika iqtisadiyyatının struktur yenidənqurulmasında xarici kapitalın rolunun qiymətləndirilməsinin nəzəri-metodoloji əsasları açıqlanmış, kapitalın beynəlxalq hərəkətinə dair müxtəlif alimlərin - C.S.Millin, Olinin, C.Keynsin, K.Marksın nəzəriyyələri, ABŞ iqtisadçısı Stiven Haymerin "İnhisarçı üstünlüklər" modeli, Raymond Vernonun "Məhsulun həyat dövrü" modeli, Ronald Kouzun ideyasına əsaslanan "İnternasializasiya" modeli, birbaşa investisiyaların marksist modeli, C.Dankinqin "eklektik" modeli, yeni nəzəriy-yələrdən, "kapital qaçışı" modeli və s. modelləri ümumiləşdirilərək nəticədə kapitalın beynəlxalq hərəkətinin aşağıdakı səbəbləri göstərilmişdir:

ayrı-ayrı ölkələrdə mənfəət normasında olan fərq;

- ölkədə kapital artıqlığının mövcudluğu;
- yerli bazarların inhisarlaşması və rəqabət mübarizəsinin kəskinləşməsi;
- ölkədə normal ictimai-siyasi rejimin olmaması;
- kapital ixrac edilən ölkədə yerli xammal bazarının mövcudluğu və işçi qüvvəsinin ucuz olması imkanları;
- kapitalın cəlb edilməsi üçün əlverişli iqtisadi və siyasi mühitin mövcudluğu və s.

Daha sonra kapitalın hərəkətini tənzimləmə metodları (maliyyə və qeyri-maliyyə) araşdırılmış, xarici kapitalın milli iqtisadiyyata cəlb edilməsi və ondan səmərəli istifadə edilməsinin nəzəri və praktiki baxımdan iki mərhələsi vurğulanmışdır:

(i) Ölkəyə xarici investisiya axımının kütləviliyinin təmin edilməsi. Bu mərhələdə investorlar üçün əlverişli "investisiya iqlimi" yaradılır və bu dövrdə xarici investorlar üçün tətbiq edilən rejimlər sonrakı mərhələdə də saxlanılır.

(ii) Ölkədəki xarici investisiyaların sahələrarası tənzimlənməsi. Bu mərhələdə xarici investisiyalı müəssisələrin fəaliyyətinin nəticələrinin ümumiləşdirilməsi əsasında beynəlxalq standartlara uyğun yeni investisiya rejimi tətbiq olunur və xarici investisiyalar öncül sahələrə istiqamətləndirilir.

Deyilənləri ümumiləşdirərək belə bir nəticəyə gəlinir ki, milli iqtisadiyyatın inkişafında xarici kapitalın müsbət və mənfi rolu ola bilər.

Müsbət cəhətlər: xarici kapitalın kütləvi şəkildə milli iqtisadiyyata cəlb edilməsi ölkədə əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, işsizlik səviyyəsinin aşağı salınmasına, iqtisadiyyatın inkişafına, elmi-texniki tərəqqinin son nailiyyətlərinin istehsal dövriyyəsinə cəlb edilməsinə və milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə inteqrasiyasına imkan yaradır.

Mənfi cəhətlər: xarici kapitalın milli iqtisadiyyata cəlb olunmasının ölkənin təbii ehtiyatlarının xaricə daşınmasına, ölkə iqtisadiyyatının müəyyən mənada asılı vəziyyətə salınmasına, xarici borcların artmasına və hətta ölkə müstəqilliyinə xələl gətirə biləcəyinə dair fikirlər mövcuddur.

İkinci bölmədə Azərbaycan iqtisadiyyatının struktur yenidənqurulmasında xarici kapitalın rolunun qiymətləndirilməsinə cəhd göstərilir və ölkəyə axını şərti olaraq üç mərhələyə bölünür: I mərhələ -1992-1993-cü illər; ikinci mərhələ -1994-1996-cı illər; üçüncü mərhələ - 1997-2000-ci illər. Sonra xarici kapitalın fəaliyyətini tənzimləyən hüquqi qanunlar xarakterizə edilir; 1994-1999-cu illər ərzində respublika iqtisadiyyatına qoyulan investisiyalar, onların tərkibində xarici investisiyaların payı və bu investisiyaların sahə strukturu təhlil edilir. Müəyyən edilmişdir ki, 1994-cü ildə ölkə iqtisadiyyatına cəlb edilən birbaşa investisiyaların təqribən 30%-ə qədəri sənayenin, onun da 50%-i neft sektorunun payına düşür. Bu dövrdə cəlb edilən xarici investisiyaların ən çoxu – 26,8%-i Türkiyənin payına düşür. Hesablamalar göstərmişdir ki, ümumiyyətlə 1994-1999-cu illər ərzində ölkə iqtisadiyyatına cəlb edilən xarici investisiyaların 11,6%-i institusional dəyişikliklərin artırılmasına, 9,9%-i konkret layihələr üzrə investisiyaların kreditləşdirilməsinə və qalan 66,7%-i isə qeyri-kredit investisiyaların payına düşür. Qeyd edilmişdir ki, 1994-1999-cu illər ərzində ölkədə xarici investisiyalı müəssisələrin sayı aşağıdakı səbəblər üzündən xeyli azalmışdır:

- 1997-ci ildə qüvvəyə minən yeni vergi qanununa əsasən müştərək müəssisələrə verilmiş vergi güzəştlərinin ləğv edilməsi;
- Bürokratik maneələr;
- 1998-ci ildə dünyada, xüsusən də Rusiyada baş vermiş iqtisadi böhranın xarici investisiyalı müəssisələrin fəaliyyətinə mənfi təsir göstərməsi;
- 1997-1998-ci illərdə dünya bazarında neftin qiymətinin kəskin aşağı düşməsi nəticəsində büdcə kəsirlərinin toplanması üçün vergi intizamının sərtləşdirilməsi və s.

Bu dövrdə alınmış kreditlər iki istiqamətdə istifadə olunmuşdur:

- İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi sisteminin təkmilləşdirilməsi məqsədilə təqdim edilən kreditlər;
- İqtisadiyyatın ayrı-ayrı sahələrinin stimullaşdırılması məqsədilə təqdim edilən kreditlər.

Nəhayət, respublika iqtisadiyyatına cəlb edilmiş xarici investisiyaların müsbət və mənfi cəhətləri qiymətləndirilmişdir.

Hesabatın üçüncü bölməsində ölkədə xarici investisiya siyasətinin təkmilləşdirilməsinin aşağıdakı istiqamətləri qeyd edilmişdir:

- Hər il ölkə iqtisadiyyatının xarici investisiyaya olan tələbatının elmi əsaslarla müəyyənləşdirilməsi;
- Xarici investisiyaların uzunmüddətli kapital qoyuluşu tələb edən sənaye sahələrinə yönəldilməsi üçün ölkənin vergi siyasətini yumşaltmaqla stimullaşdırma siyasətinin həyata keçirilməsi;
- Xarici investorların lisenziya əsasında konkret torpaq sahələrindən uzun müddətə maneəsiz istifadə etməsinə şərait yaradılması;
- Respublikanın ixrac potensialının artırılmasını əsas tutaraq xarici investisiyalar sahəsində "selektiv yanaşma" prinsipini tətbiq etmək və s.

Bununla bərabər ölkəyə daxil olan xarici maliyyə vəsaitlərinin müsbət və mənfi nəticələri müəyyənləşdirilmişdir. Müsbət nəticələr kimi:

- ölkədə maliyyə sabitliyinin yaranması;
- idarəetmə orqanlarında bir sıra islahatların aparılması;
- bir sıra sahələrdə müasir xidmət infrastrukturunun yaradılması və s. göstərilir.

Mənfi nəticələr kimi isə aşağıdakılar göstərilir:

- ölkənin böyük həcmdə xarici borclarının olması;
- istehsal sahəsinə qoyulan investisiyaların əksəriyyətinin neft sektoruna yönəldilməsi nəticəsində ölkə iqtisadiyyatının birtərəfli inkişafı;
- xarici və müştərək müəssisələrin fəaliyyətinin əsasən xammalyönümlülüyü və xidmət sahələrinə istiqamətlənməsi;
- emal sənayesi sahələrinə xarici investisiya qoyuluşunun məhdudluğu;
- Abşeron iqtisadi rayonundan başqa digər regionlara investisiya qoyuluşunun yox dərəcəsində olması və s.

Hesabatın sonunda qeyd edilən mənfi meyillərin aradan qaldırılması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi təklif olunur:

- Ölkədə səmərəli investisiya mühitinin yaradılması;
- dövlətin idarəetmə strukturunun və qanunvericilik sisteminin daha da təkmilləşdirilməsi;
- bazar infrastrukturunun formalaşmasının sürətləndirilməsi;
- iqtisadi islahatların daha da dərinləşdirilməsi.

Xarici və müştərək müəssisələrin səmərəli fəaliyyəti üçün mükəmməl tənzimləmə mexanizminin yaradılması. Bu məqsədlə respublikada yaradılmış xarici investisiyanın cəlb edilməsi üzrə Milli Agentliyin işinin canlandırılması;

Respublikanın ayrı-ayrı regionları və ölkə iqtisadiyyatının ayrı-ayrı sahələri üzrə investisiya layihələrinin hazırlanması və onların həyata keçirilməsi istiqamətində tədbirlər görülməsi.

Bunlardan əlavə, 2000-ci ildə Azərbaycan Respublikası DETK-nin tapşırığı əsasında cari ildə İİM-də "Azərbaycan iqtisadiyyatının dövrü inkişaf qanunauyğunluqlarının tədqiqi" adlı mövzu üzrə elmi-tədqiqat işi də yerinə yetirilmişdir.

Bu elmi-tədqiqat işində iqtisadi inkişafın dinamikası və iqtisadi fəallığın proqnozlaşdırılmasının metodoloji əsasları, Azərbaycan iqtisadiyyatında Kondratyev dalğalarının tədqiqi Azərbaycan iqtisadiyyatı üçün Samuelson-Xiks işgüzar dövr modelinin yaradılması və s. məsələlər tədqiq edilmişdir.

Qeyd edilmişdir ki, Günəş intensivliyinin Volf ədədləri vasitəsilə ölçülməsinin Günəşin Yerüstü proseslərə təsirini qiymətləndirməyə imkan verməsi, iqtisadi inkişafda da qeyri-iqtisadi xarakterli təbii təsirlərin öyrənilməsini zərurətə çevirmişdir. Belə təsirlərin öyrənilməsi isə öz növbəsində iqtisadi inkişafın müxtəlif əsaslarla qiymətləndirilməsini doğurmuşdur.

Başqa sözlə, iqtisadi inkişafda təbii əsaslı fluktasiyaların mövcudluğunun və onun ölçülməsinin mümkünlüyünün elmi-əməli məsələyə çevrilməsi əsaslandırılmışdır.

Günəş aktivliyinin təsirinin öyrənilməsinin Çijevski tərəfindən təklif olunan nəticələri iqtisadi inkişafda dövrülüyün təbii əsaslı tədqiqi nəzəriyyələrini xeyli inkişaf etdirmiş, XX əsrin 20-ci illərində N.Kondratyevin iqtisadi konyukturada "uzun dalğaların" mövcudluğunu sübut etməsi isə iqtisadi inkişafın öyrənilməsində dövrülük nəzəriyyələrini mühüm tədqiqat vasitəsinə çevirmişdir. Lakin Azərbaycan iqtisadiyyatında indiyədək belə yaxınlaşmalar öyrənilməmişdir.

Hesabat işində mövcud problemə nəzəri-metodoloji yaxınlaşmaların ətraflı təhlili, Azərbaycan iqtisadiyyatında Kondratyev dalğalarının müəyyənləşdirilməsinə ilk yaxınlaşmaların nəticələri verilmişdir. Həmçinin inkişafın dövrülüyünü müəyyənləşdirən Samuelson-Xiksin işgüzar dövr modelinin Azərbaycan iqtisadiyyatı üçün qurulması həyata keçirilmişdir.

Bunlarla yanaşı, 2000-ci ildə İqtisadiyyat Nazirliyinin və digər yuxarı təşkilatlarının tapşırığı ilə İqtisadi İslahatlar Mərkəzi tərəfindən doqquz plandankənar iş hazırlanmışdır. Bunlardan əsasları kimi aşağıdakıları göstərmək olar:

- Azərbaycan iqtisadiyyatının gələcək inkişaf istiqamətləri;
- Azərbaycan respublikasının 2000-ci ilin 9 ayında sosial-iqtisadi inkişafının yekunları və 2001-ci ildə sosial-iqtisadi inkişaf konsepsiyası;
- neft strategiyasının iqtisadiyyatın digər sahələrinə təsiri;
- Azərbaycan iqtisadiyyatının 1999-cu ildə inkişaf yekunları və 2000-ci ilin vəzifələri.

2000-ci ildə İİM-də hazırlanmış elmi materiallar və s. məsələlərin müzakirəsi ilə əlaqədar Elmi Şuranın 11 iclası keçirilmişdir. Bundan əlavə, il ərzində Mərkəzin metodoloji seminarlarında müxtəlif iqtisadi problemlər, hesabatların gedişi barəsində məlumatlar dinlənilmişdir.

2000-ci ilin aprel ayında İİM-in rəhbərliyində müəyyən dəyişikliklər baş vermiş, bu vaxta qədər Mərkəzdə şöbə müdiri işləmiş, i.e.n. Vaqif Əli oğlu Rüstəmov elmi işlər üzrə direktor müavini vəzifəsinə təyin edilmişdir.

2000-ci ildə Mərkəzin əməkdaşları Milli Məclisin komissiyalarının iclaslarında müxtəlif iqtisadi problemlərinin müzakirəsində iştirak etmiş, 2 qanun layihəsinə "Qiymətli kağızlar" haqqında və "İnvestorların hüquqlarının və qanunu maraqlarının qorunması haqqında" qanun layihələrinə rəy vermişlər. Həmçinin cari ildə Mərkəzdən 4 nəfər (R.T.Həsənov, V.Ə.Rüstəmov, İ.V.Əlibəyov və R.M.Cəbiyev) DETK-nin nəzdindəki "Iqtisadiyyat problemləri" üzrə Şuranın üzvləri kimi fəaliyyət göstərmişlər.

2000-ci ildə DETK tərəfindən İqtisadi İslahatlar Mərkəzinə aspiranturaya qəbul üçün 3 yer ayrılmış və 3 nəfər aşağıdakı ixtisaslar üzrə aspiranturaya qəbul edilmişlər: 080005 – 2 nəfər; 080014 – 1 nəfər.

Bu ildə Mərkəzin iki əməkdaşı xarici ezamiyyətdə olmuşlar. Mərkəzin direktoru R.T.Həsənov 2000-ci ilin oktyabr ayında İqtisadi Əməkdaşlıq təşkilatına (EKO) üzv ölkələrin iqtisadi tədqiqatlar və statistika üzrə milli koordinatorlarının İran İslam Respublikasında (Tehran şəhəri) keçirilən 3-cü iclasında iştirak etmişdir. Elmi işlər üzrə direktor müavini V.Ə.Rüstəmov Türkiyənin Antalya şəhərində keçirilmiş "Türkiyə, Avrasiya və Şimali Kipr Türk respublikalarının I işbirliyi" adlı beynəlxalq konfransda iştirak edərək Azərbaycan Respublikasının Kooperasiyası sistemində beynəlxalq əməkdaşlığın inkişaf istiqamətləri mövzusunda çıxış etmişdir.

Bunlardan əlavə, 2000-ci ildə Mərkəzdə aparıcı təşkilat kimi 15-dən çox doktorluq və namizədlik dissertasiyana rəy verilmişdir. Həmçinin Mərkəzin əməkdaşları müxtəlif elmi konfranslarda iştirak etmiş onların 50-dən çox elmi məqalələri çap olunmuşdur. Mərkəzdə cari ildə "Azərbaycanda bazar infrastrukrunun formalaşması və inkişafı" adlı (prof. R.M.Cəbiyev) 15 ç. vərəqindən ibarət 1 monoqrafiya və "Azərbaycanda kiçik müəssisələrin təşəkkülü və inkişafı" adlı (i.e.n. N.Ö.Hacıyev) 12 ç. vərəqindən ibarət 1 kitab nəşr edilmişdir.

Həmçinin ölkənin müxtəlif ali məktəblərindən Mərkəzdə istehsalat təcrübəsində olan tələbələr üçün əməkdaşlar tərəfindən mühazirələr oxunmuş, magistrantların elmi-tədqiqat işlərinə rəhbərlik həyata keçirilmişdir.

2000-ci ildə Mərkəzin Elmi Şurasının qərarı ilə 1997-ci il 30 dekabr tarixində vəfat etmiş İqtisadi İslahatlar Mərkəzinin direktoru işləmiş, Azərbaycan Respublikasının Milli Məclisinin İqtisadi Siyasət Komissiyasının sədri olmuş i.e.d. Sofiq Kəlbi oğlu Hüseynovun anadan olmasının 50 illiyinə həsr olunmuş, elmi redaksiya heyətinin sədri Rasim Tapdıq oğlu Həsənovun rəhbərliyi ilə İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Mərkəzinin "Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri" adlı 14,2 ç.v. həcmində elmi əsərlər toplusunun I buraxılışı nəşr olunmuşdur. Bu elmi əsərlər toplusunda Mərkəzin əməkdaşları ilə yanaşı digər institutlardan olan həmkarların 20 elmi məqaləsi dərc edilmişdir.



AZƏRBAYCAN RESPUBLİKASI
İQTİSADİYYAT NAZİRLİYİ
İQTİSADİ İSLAHATLAR MƏRKƏZİ

AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ

*ELMİ ƏSƏRLƏR TOPLUSU*

I BURAXLIŞ

*Anadan olmasının 50 illiyi münasibəti ilə İqtisadi İslahatlar Mərkəzinin ilk direktoru mərhum*
SOFİQ HÜSEYNOVUN
*xatirəsinə həsr olunur*

BAKI 2000



Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Mərkəzinin Elmi Şurasının qərarı əsasında çap olunur.

Elmi-redaksiya hey'əti:

R.T.Həsənov *(sədr)*, V.Ə.Rüstəmov *(müavin)*, A.A.Nadirov, R.M.Cəbiyev, F.Ə.Fərəcov, A.Ə.Salmanov, N.Ö.Hacıyev, M.K.Kərimova *(məs'ul katib)*

Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu, I buraxlış. – Bakı: "Elm" nəşriyyatı, 2000 – 226 s.

ISBN 5 – 8066 – 1234 - 1

0605010407 / 655(07)-2000 *qrifli nəşr*

© İqtisadi İslahatlar Mərkəzi, 2000



MÜNDƏRİCAT

*Ön söz*
*Qısa ömrün parlaq səhifələri* ........ 3
*Vida sözü* ........ 6
*Hüseynov S.K.* Azərbaycanda iqtisadi islahatların mə'nası ........ 9
*Həsənov R.T.* Bazar münasibətləri şəraitində sosial-iqtisadi inkişafın proqnozlaşdırılması və idarə olunmasının metodoloji əsasları ........ 14
*Rüstəmov V.Ə.* Azərbaycan Respublikasında xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənmə sisteminin təkmilləşdirilməsi istiqamətləri ........ 30
*Cəbiyev R.M.* Bazar infrastrukturunun elmi-nəzəri məzmunu və sərbəst bazarların formalaşma xüsusiyyətləri ........ 65
*Yaqubov Ş.Ə., Mahmudzadə A.M.* Müasir dövrdə açıq iqtisadi sistemdə ərzaq bazarının formalaşması xüsusiyyətləri ........ 87
*Şaulov R.X.* Sosial-iqtisadi məkanın yenidən qurma zəruriliyi və arazi strukturların alternativ imkanları ........ 103
*Salmanov A.A., Dərgahov V.S.* Böyük İpək Yolunun Azərbaycanda turizmin inkişafında rolu və neft siyasəti ilə əlaqəsi ........ 113
*Kərimova M.K.* Elmin islahatlaşdırılmasının bə'zi məsələləri ........ 129
*Hacıyev N.Ö.* Azərbaycan Respublikasında kiçik müəssisələrin inkişaf problemləri ........ 139
*Məmmədova B.S.* Azərbaycan Respublikasının milli gəlirinin CES funksiyası ilə qiymətləndirilməsi ........ 148
*Əliyev A.M.* Yeni təsərrüfatçılıq şəraitində alüminium istehsalının iqtisadi-texnoloji təşkilinin səmərəli idarə edilməsinin bə'zi məsələləri ........ 159
*İmanov E.S.* Bazar iqtisadiyyatı şəraitində təhsil sahəsinin inkişafı ........ 168
*Quliyev R.H.* Əhalinin sosial müdafiəsinin təşkilində qeyri-dövlət tə'sisatlarının rolu ........ 181



*Quliyev Ş.B.* Tə'diyə balansı X.İ.F-in nəticələrini əks etdirən göstəricilər sistemi kimi ........ 190
*Mahmudov E.M.* Azərbaycanda rabitə xidməti sahəsinin inkişaf istiqamətləri ........ 194
*Şaulov R.X., İsmayılova T.R., Mehbalıyev R.M., Cəbrayılzadə A.T.* Bazar münasibətləri və regional inkişafın dövlət tənzimlənməsi problemləri ........ 199
*Bağırov T.R.* Azərbaycanda marketinqin inkişaf problemləri ........ 203
*Hüseynova N.V.* Azad iqtisadi zonalar – yeni təsərrüfatçılıq forması kimi ........ 210
*Vəliyev A.V.* Açıq iqtisadi sistemdə daxili bazarın formalaşması xüsusiyyətləri ........ 216
........ 218

**2001-ci ildə** İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Mərkəzi tərəfindən, Elmi Şurada təsdiqlənmiş elmi-tədqiqat işlərinin planına uyğun olaraq, "Azərbaycan

Respublikasında iqtisadi islahatların keçirilməsi problemləri və xüsusiyyətləri" problemi üzrə müxtəlif mövzularda 8 hesabat hazırlanmışdır. Mövzu 1. "İqtisadi islahatlar şəraitində Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi konsepsiyasının hazırlanması" (məsul icraçı i.e.n., b.e.i. Ş.Ə.Yaqubov) adlı elmi-tədqiqat işinin hesabatı üç bölmədən ibarətdir.

Birinci bölmədə ərzaq təhlükəsizliyinin mahiyyəti açıqlanmış və onun təmin olunması sahəsində dünya təcrübəsi araşdırılmışdır. Qeyd edilmişdir ki, hər hansı bir ölkədə ərzaq təhlükəsizliyi əsasən kənd təsərrüfatının inkişafı vasitəsilə təmin edilir və müasir şəraitdə bu problem özünün əhəmiyyətini saxlayır. Hazırda aclıq və tam qidalanmamanın ümumi meyili müəyyənləşdiriləcək, göstəriləcək ki, 1992-97-ci illərdə dünyada aclıq çəkən insanların sayı ≈40 mln. nəfər azalsa da ayrı-ayrı ölkələrdə (dünyanın 27 ölkəsində) onların sayı artmışdır.

Ölkə əhalisinin bütün təbəqələrinin, o cümlədən aşağı imkanlıların ən zaruri qida məhsulları ilə təmin edilməsi milli ərzaq təhlükəsizliyinin əsas cəhətlərindən biri hesab edilir. Bu məqsədlə FAO və Dünya Bankının bu sahədəki hesablamaları hesabatda araşdırılmış və belə bir nəticəyə gəlinmişdir ki, FAO və beynəlxalq təşkilatların apardıqları təhlillər nəticəsində müxtəlif iqtisadi-sosial vəziyyətdə olan ölkələr üçün müəyyən etdikləri bir insanın qidalanma təminatının ödənilməsindən ötrü gün ərzində tələb olunan enerji miqdarının (kilo-kalori) normal və minimal səviyyəsi, həmçinin milli ərzaq təhlükəsizliyi üçün təhlükə yarada biləcək kəmiyyət faizi ilə razılaşmaq olar. Lakin DB-nın adambaşına müəyyən etdiyi illik minimum gəlir səviyyəsi və çox kasıbçlığın hüdud səviyyəsilə nə Azərbaycan, nə də MDB-yə daxil olan digər ölkələr razılaşa bilməzlər. Hesabatda yuxarıda qeyd edilən göstəricilər üzrə Azərbaycan Respublikası Həmkarlar Ittifaqları Konfederasiyasının beynəlxalq təcrübəyə əsaslanaraq apardığı hesablamalar göstərilmişdir. Burada bir adamın illik minimum istehsak zəmbili orta hesabla 2680,0 min manat (609$), bir adamın illik yaşayış minimumu 3969 min manat (902 $), işləyən adamınkı isə 4865 min manat (1106 $) olmalıdır ki, bu da daha həqiqətə uyğun və inandırıcı hesab olunur. Beləliklə, hesabatdakı hesablamalara görə Azərbaycan Respublikası üzrə əsas ərzaq məhsullarının adambaşına istehlakı hesablanılarkən bir gün üçün tələb olunan enerji ekvivalenti fizioloji normanı və yaş tərkibini nəzərə almaqla 2900 k\kal. minimal həddi isə 1930 k/kal. qəbul edilə bilər.

Milli ərzaq təhlükəsizliyinin əsas göstəricilərindən biri də ilk növbədə əsas ərzaq məhsulu hesab olunan taxılla özünü təmin etmə səviyyəsidir. Işdə bu sahədə müxtəlif ölkələrin (Italiya, Türkiyə, ABŞ, Rusiya, Qazaxıstan və s.) təcrübəsinə baxılmış və ölkədəki mövcud vəziyyət təhlil edilmişdir. Qeyd edilmişdir ki, hazırda Respublikada dünya bankları tərəfindən himayə olunan TACIS proqramı üzrə layihələşdirilən və keditləşdirilən 450 kəndli fermer təsərrüfatlarından başqa digər 99% özəl təsərrüfatlara, demək olar ki, əməli yardım və güzəşt verilmir, əksinə, xaricdən ərzaq idxalına yaşıl işıq yandırılır ki, bu da yerli fermerlərin müflisləşməsinə səbəb olur. Belə bir vəziyyət Azərbaycanın əvvəlki kimi xaricdən ərzaq məhsulları, həmçinin taxıl idxal edən ölkə kimi qalmasına rəvac verir.

Daha sonra milli ərzaq təhlükəsizliyini səciyyələndirən göstəricilər üç qrup üzrə təhlil edilir. Dünya bankının hesablamalarına görə ölkə əhalisinin 60 %-nin "kasıb", 20 %-nin isə "yoxsul" təbəqəsinə aid edildiyi göstərilir.

Bölmənin sonunda Respublikanın Ərzaq Təhlükəsizliyi və Kasıbçılıqla Mübarizə Komissiyalarının işinə nəzarətin gücləndirilməsi, onların gördükləri tədbirlər haqda mütəmadi olaraq əhaliyə və KIV nümayəndələrinə məlumatların verilməsi tövsiyə edilmişdir.

İşin ikinci bölməsində respublikanın ərzaq məhsulları ilə təminatının hazırki vəzyyəti aqrar və emal sahələri üzrə geniş təhlil edilmiş, göstərilmişdir ki, qanunvericilik baxımından kənd təsərrüfatı sahəsinin bütün bölmələri dünya standartlarına uyğun olaraq rəsmiləşdirilmiş və bir çox qanunlar qəbul edilmişdir. Lakin hər iki sahədə vəziyyət hələ də ağır olaraq qalır ki, bunun da özünəməxsus səbəbləri vardır: yeni yaradılan kəndli fermer təsərrüfatlarının əksəriyyətinin imkansızlığı, taxıl, yem, mineral gübrə, yanacaq, eləcə də kimyəvi dərman pereparatları ilə təchizatda, sudan istifadə məsələsində və s. ciddi çətinliklər, maddi texniki təchizatda lizinq xidmətindən istifdə olunmaması, marketinq xidmətinin yox dərəcəsində olması və s.

Daha sonra ölkə üzrə əsas ərzaq məhsullarının adambaşına istehlak göstəriciləri təhlil olunmuş və göstərmişdir ki, bioloji əhəmiyyətə malik məhsulların – ət, süd, yumurta, balıq və şəkərin adambaşına istehlakı nəinki fizioloji normaya, hətta 1990-cı ilin səviyyəsinə belə çatmamışdır. Lakin bu məhsulların istehlakında son illər az da olsa artım müşahidə edilir. Müəlliflərin hesablamalarına görə daxili imkanlar hesabına əsas ərzaq məhsulları ilə istehlakın ödənilməsi 2000-ci ildə 41,7%-lə 53,0% arasındadır. Beynəlxalq təşkilatların qəbul etdiyi normaya görə ölkənin əsas ərzaq məhsullarına tələbatının daxili imkanlar hesabına ödənilməsi 70%-dən aşağıdırsa, həmin ölkə özünün ərzaq təhlükəsizliyini təmin etməyən ölkə hesab olunur. Bu baxımdan göstərilən rəqəmlər sübut edir ki, Azərbaycan da həmin ölkələr siyahısına daxildir.

Bundan başqa, hesabatda müxtəlif adlı ərzaq məhsulları eyni ölçülü kəmiyyətlə – k/kal. ilə hesablanmışdır ki, bu da həmin müxtəlif məhsulların daxili imkanlar hesabına adambaşına istehlakının ümumi həcmdə ayrı-ayrılıqda nisbətinin müəyyənləşdirilməsinə imkan vermişdir.

Üçüncü bölmədə əsas ərzaq məhsulları təhlükəsizliyinin konsepsiyasının yaradılmasına cəhd edilmişdir. Əsas məqsəd kimi, 2005-2010-cu illər üzrə ayrı-ayrı ərzaq məhsulları ilə əhalinin təminatının fizioloji normalara uyğun olaraq mümkün olan səviyyəsinin araşdırılması qarşıya qoyulmuşdur.

Sonda tədqiqat prosesində əldə olunmuş bir sıra nəticələr və təkliflər verilmişdir.

Mövzu 2. “Mülkiyyət çoxnövlülüyü şəraitində azad rəqabətin təmin olunmasında dövlət tənzimlənməsinin metodoloji əsasları” (məsul icraçı Ə.Ö.Hüseynov).

Hesabatda iqtisadiyyatın liberallaşdırılması və azad rəqabətin təmin olunmasının metodoloji əsasları, qeyri-dövlət sektorunda azad rəqabətin təmin olunmasının müasir durumu, dövlət sektorunun liberal iqtisadiyyatda yeri kimi məsələlər araşdırılmış və mülkiyyət çoxnövlülüyü şəraitində azad rəqabətin təmin olunmasının dövlət tənzimlənməsinin konseptual əsasları öz əksini tapmışdır.

Birinci bölmədə azad rəqabətin iqtisadi əsası kimi mülkiyyət çoxnövlülüyü ön plana çəkilir. Dövlət və qarışıq mülkiyyətin mövcud olduğu strateji və iqtisadiyyatın inkişafını müəyyən edən aşağıdakı sahə və müəssisələr ayrılır:

- milli təhlükəsizliyi müəyyən edən sahələr;
- infrastruktur sahələr; ETT müəyyənləşdirən müəssisələr;
- fəaliyyətinin dayanması təkrar istehsal prosesinin dayanmasına səbəb ola biləcək strateji müəssisələr;
- regionlarda işsizliyin və miqrasiyanın azalmasına xidmət edən sahələr;
- ekoloji baxımdan potensial təhlükəli müəssisələr.

Qeyd edilir ki, bu sahələr azad rəqabət münasibətlərindən kənar olsalar da iqtisadiyyatda azad rəqabətin inkişafı üçün çox mühüm rol oynayırlar.

Bundan başqa dövlət və özəl şirkətlər arasındakı rəqabətin gücləndirilməsi məqsədilə dövlət tənzimləmə mexanizminin aşağıdakı inkişaf istiqamətləri göstərilir:

- özəl şirkətlərin ictimai sektorda fəaliyyəti üçün imkan yaradılması;
- dövlət sifarişi əsasında dövlət və özəl şirkətlər arasında rəqabətin yaradılması;
- dövlət və özəl şirkətlər arasında əmtəə və xidmətlərin alınması və ictimai resursların bölünməsində tenderlərin təşkili.

İctimai sektorda rəqabətin gücləndirilməsi forması kimi françayzinq, yəni dövlət mülkiyyətinin başqa kompaniyalara icarəyə verilməsi; dövlət mülkiyyətinin özəlləşdirilməsi və dövlətin əlində "qızıl aksiyanın" saxlanması və s. qeyd edilir.

Daha sonra, qeyri-dövlət sektorundakı müliyyətin təşkilati-hüquqi formaları və bu formalar arasındakı rəqabətin mövcud vəziyyəti təhlil olunur, qeyri-dövlət sektorunda azad rəqabətin inkişafının əsas istiqamətləri göstərilir:

- Antinhisar siyasətinin həyata keçirilməsi;
- Sahələr arasında rəqabətin gücləndirilməsi;
- Milli və xarici şirkətlər arasında rəqabətin gücləndirilməsi.

Azad rəqabət şəraitində dövlət və qeyri-dövlət sektoru müəssisələrinin fəaliyyətinin təhlili göstərir ki, sənayenin qeyri-dövlət sektorunda əməyin məhsuldarlığı dövlət sektorundan 2,5 dəfə, mədən çıxarma sənayesində 1,3 dəfə, emal sənayesində də 1,3 dəfə yüksəkdir. Bunun da əsas səbəbləri aşağıdakılardır:

- özəl şirkətlərə nisbətən dövlət müəssisələri rəhbərlərinin müəssisənin inkişafında marağının nisbətən az olması;
- dövlət müəssisələrinin səmərəlilik prinsipinə uyğun yox, milli iqtisadi maraqlara uyğun fəaliyyət göstərməsi.

Ona görə də dövlət müəssisələrinin işinin səmərəliliyinin və mənfəətinin artırılması üçün bir sıra tədbirlərin həyata keçirilməsi məqsədə uyğun hesab edilir: dövlət müəssisələrinin öz xərclərini maliyyələşdirmək məqsədilə büdcədən aldıqları subsidiyalara tələbləri yüksəltmək (məsələn, tender vasitəsilə rəqabət yaratmaq); nazirlik və yerli hakimiyyətin balansında olan müəssisələrin özəlləşdirilməsi və onlar ilə münasibətlərin ancaq kontrakt əsasında qurulması; dövlət müəssisələrinin səhimdarlaşdırılması və s.

Üçüncü bölmədə həmçinin liberal iqtisadiyyatda təbii inhisarların yeri, onların özünəməxsus xüsusiyyətləri, dövlətin təbii inhisarlara nəzatət formaları, onun qiymət mexanizminə təsir üsulları kimi məsələlər öz əksini tapmışdır.

Daha sonda təbii inhisarlarda rəqabət mexanizminin inkişafının aşağıdakı yolları açıqlanmışdır:

- Yeni yaranan şirkətlər vasitəsi ilə və ya bu sahələrə özəl kompaniyaları cəlb etməklə rəqabət mühiti yaratmaq (məsələn, rabitə, neft və qaz istehsalı sahələrinə);
- Təbii inhisarların bölünməsi yolu ilə bir neçə müəssisə yaratmaq.

Bildiyimiz kimi, azad rəqabətə tə'sir vasitələrindən biri də antinhisar siyasətidir. Antinhisar siyasətinin əsas məqsədi kimi inhisarçı müəssisələrin qiymətinə sərt nəzarət, irimiqyaslı istehsal və kommersiya strukturlarının dezinteqrasiyası, rəqabətin təmin edilməsi, diversifikasiyanın həvəsləndirilməsi və s. göstərilmişdir.

Tədqiqatın yekunu olaraq sonda əldə edilmiş bəzi nəticələr və təkliflər verilmişdir: respublikada orta və xırda istehsalçıların uzun müddətli maraqları təmin olunmamışdır; iqtisadiyyatın sahələri arasında inkişaf fərqləri çoxdur. Bu səbəbdən də zəif sahələr investisiyalar uğrunda mübarizə apara bilmirlər; özəl sektorun payına ÜDM-in ≈70 %-i düşdüyü halda vergi yükünün ≈40 %-i düşür ki, bu hal normal hesab edilə bilməz; ölkənin əsas sosial-iqtisadi inkişaf göstəricisi kimi ÜDM əvəzinə ÜMM istifadə olunması məqsədəuyğundur.

Mövzu 3. "Azərbaycan Respublikasında sahibkarlığın formalaşması və inkişafının regional problemləri" (məsul icraçı N.Ö.Hacıyev) mövzusunda olan elmi-tədqiqat işinin məqsədi ölkədaxili iqtisadi rayonlarda sahibkarlığın formalaşması və inkişafının tədqiqi və bu prosesin səmərəli inkişafı istiqamətində əməli təklif və tövsiyyələrin hazırlanmasıdır.

Hesabat 3 bölmədən ibarətdir. Birinci bölmədə ölkədə sahibkarlığın inkişafının mövcud vəziyyəti təhlil edilir. Daha sonra Azərbaycanda sahibkarlığın inkişafı sahəsində görülən tədbirlər araşdırılır. Qeyd edilir ki, kiçik və orta sahibkarlara təhsil, informasiya və məsləhət xidmətləri göstərən strukturlar genişlənmiş, ölkənin müxtəlif regionlarını əhatə etmişdir. Belə ki, ölkənin şəhər və rayonlarında sahibkarlığın 42 İnkişaf Mərkəzləri yaradılmış, beynəlxalq və xarici ölkə təşkilatları ilə geniş əlaqələr qurulmuş, sahibkarlığın inkişafına maliyyə köməyi sisteminin qurulması sahəsində zəruri tədbirlər həyata keçirilmişdir. Bunlardan kiçik sahibkarlığın öncül inkişaf istiqamətləri üzrə 800-dək sahibkarların investisiya layihəsinin ekspertizadan keçməsi və onların bəzilərinə dövlət maliyyə yardımı göstərilməsi qeyd olunmuşdur. Həmçinin sahibkarlar üçün vergi yükünün azaldılması istiqamətində dövlət səviyyəsində görülən tədbirlərdən – vergi dərəcələri və məcburi sosial sığorta haqqının aşağı salınması sahəsində atılan konkret addımlar, kiçik sahibkarlıq subyektlərinin bir qisminə vahid verginin tətbiqinin qanunvericilikdə təsbit olunması, əsas sənətkarlıq sahələrində hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən şəxslərin gəlir vergisindən, onların emalatxanalarının əmlak vergisindən azad edilməsi və s. bəhs edilmişdir.

İkinci bölmə sahibkarlığın iqtisadi rayonlar üzrə quruluşu və mövcud inkişaf səviyyəsinin qiymətləndirilməsinə həsr olunur. Təhlil göstərir ki, fəaliyyət göstərən müəssisələrin çoxu Abşeron iqtisadi rayonunda, o cümlədən Bakı şəhərində yerləşir ki, bunun da obyektiv və subyektiv səbəbləri açıqlanır.

Sahibkarlığın inkişafındakı problemlər sırasında istehsalın inkişafı üçün xüsusi maliyyə vəsaitinin çatışmamazlığı, hüquqi təminatın tam formalaşmaması, məhsulların satışında qarşıya çıxan problemlər, xammal və materialların əldə edilməsindəki çətinliklər, daxili bazarın zəif qorunması, idxalın ölkə iqtisadiyyatında üstünlük təşkil etməsi, hüquq mühafizə və maliyyə orqanlarının sahibkarlığın işinə törətdikləri maneələr və s. sadalanır.

Bütövlükdə sahibkarlığın mövcud inkişaf səviyyəsinin müqayisəli qiymətləndirilməsindən bu nəticəyə gəlinir ki, Azərbaycanda sahibkarlıq mühitinin formalaşması çox ziddiyyətlidir, əhalinin sahibkarlıq potensialının gerçəkləşməsi məhdud, sahibkarların ölkə iqtisadiyyatını böhrandan çıxarılmasına təsiri zəifdir, çağdaş sahibkarlıq norma və qaydalarının yayılması sistemsiz xarakter daşıyır.

Burada da əsas məsələ kimi, respublikada neft sahəsindən başqa, ona alternativ olan yüngül, yeyinti və digər sahələrin zəif inkişaf etməsi, ölkə iqtisadiyyatının birtərəfli inkişafa meyilliliyi və s. vurğulanır.

Respublikada sahibkarlığın formalaşması və inkişafında regional siyasətin təsirliliyinin artırılmasının aşağıdakı əsas istiqamətləri müəyyənləşdirilmişdir:

Kiçik və orta sahibkarlığın inkişafındakı regional disproporsiyaların aradan qaldırılması məqsədilə dövlətin regional inkişaf konsepsiyası işlənib hazırlanmalı və burada bölgələr üzrə sahibkarlığın inkişafının öncül istiqamətləri müəyyən edilməlidir;

Bələdiyyələr haqqında qanunvericilikdə yerli özünüidarəetmə orqanlarının sahibkarlığın inkişafı sahəsində regional siyasətin həyata keçirilməsində fəal iştirakı mexanizmlərinin formalaşması üçün hüquqi əsaslar yaradılmalıdır;

Beynəlxalq və regional maliyyə qurumlarının ölkədə və ölkədaxili iqtisadi rayonlarda kiçik və orta sahibkarlar üçün açdıqları kreditlər üzrə də faiz dərəcəsinin yüksək olması sahibkarların çoxu üçün həmin kreditlərdən istifadəni əlverişsiz edir. Buna görə də, regionlarda kiçik və orta sahibkarların banklardan kredit əldə etmək imkanlarını genişləndirmək məqsədilə kreditə təminat və zəmanət sistemi yaradılmalıdır.

Bundan əlavə, işə sahibkarlığın inkişafı, kiçik müəssisələrin iqtisadi rayonlar üzrə quruluşu, orada işləyənlərin sayı, kiçik müəssisələrdə istehsal olunmuş məhsulun həcmi və iqtisadi rayonlar üzrə quruluşu, idxal və ixracın quruluşu və digər bu kimi göstəricilər üzrə aparılmış hesabatlara dair cədvəllər əlavə edilmişdir.

Mövzu 4. “Yeni iqtisadi şəraitdə Azərbaycan Respublikasının rekreasiya ehtiyatlarından səmərəli istifadə konsepsiyasının hazırlanması” (məsul icraçı c.e.d. A.H.Salmanov) mövzusunda yerinə yetirilən elmi-tədqiqat işinin hesabatı işi iki bölmədən ibarətdir. Birinci bölmədə müasir dövrdə rekreasiyanın sosial-iqtisadi mahiyyəti və əsas funksiyaları, həmçinin təbii ehtiyatların rekreasiya cəhətdən qiymətləndirilməsinin əsas metodları açıqlanır. Rekreasiyanın sosial-iqtisadi mahiyyəti 6 qrupa bölünür:

- insanın istirahətinin təşkili və itirilmiş enerjinin bərpası;
- cəmiyyətin sosial tərəqqisinə nail olmaq;
- insanların öz ölkələrini dərindən tanımaqla yanaşı, digər ölkələri də tanımaq, xalqlar arasında ünsiyyəti genişləndirmək;
- rekreasiya təsərrüfat strukturunun yaranması;
- maliyyə münasibətlərinin inkişafı – buraya xarici turizm xidmətlərinin inkişafından gələn gəlir, investisiya qoymaq imkanları, əhalinin pul gəlirləri daxil edilir;
- xidmət sferasının inkişafı.

Daha sonra rekreasiyanın əsas funksiyaları - tibbi-bioloji, sosal-mədəni, iqtisadi, siyasi və ekoloji funksiyaları geniş təhlil edir.

Təbii ehtiyatların rekreasiya cəhətdən qiymətləndirilməsinin metodları adlanan bölmədə V.S.Preobrajenski, A.H.Salmanov, Y.A.Vedenin və s. müəlliflərin fikirləri araşdırılır və qeyd edilir ki, onlar təbii ehtiyatların rekreasiya baxımından qiymətləndirilməsini 3 qrupa ayırırlar:

1) Tibbi-bioloji
2) Psixoloji
3) Texnoloji.

Rekreasiya ehtiyatlarını tibbi-bioloji xüsusiyyətlərinə görə qiymətləndirərkən əsas amil kimi təbii amillərin insan orqanizminə təsiri müəyyənləşdirilir. Buraya iqlim, termal-mineral bulaqlar, palçıq vulkanları, dəniz və s. aid edilir.

Təbii komplekslərin psixoloji-estetik baxımdan qiymətləndirilməsi üçün ilk növbədə insanın psixikasının gözəlliyə olan tələbatı, ətraf aləmi dərk etmə qabiliyyəti və s. nəzərə alınır. Burada V.S.Preobrajenski, Y.Vedenin, Filippoviç və s. alimlərin məsələyə müxtəlif cür yanaşmaları təhlil edilir.

Yuxarıda göstərilən alimlər (V.S.Preobrajenski, Y.Vedenin) təbii ehtiyatları rekreasiya baxımından qiymətləndirərkən texnoloji tipi iki yerə bölürlər:

- mümkün qiymətləndirmədə rəngarəng maraqların nəzərə alınması;
- ərazinin mühəndis-tikinti baxımından mənimsənilməsi imkanları.

Müəllif isə rekreasiya ehtiyatlarını texnoloji baxımdan qiymətləndirərkən ilk növbədə onun iqtisadi tərəfinin müəyyənləşdirilməsini zəruri hesab edir.

Hesabatın "Xəzər sahilində rekreasiya təsərrüfatının formalaşmasının təbii-iqtisadi bazası və problemləri" adlı, ikinci bölməsində Xəzərsahili kurort-rekreasiya müəssisələrinin müasir vəziyyəti və dünya turizm birliyinə Azərbaycan turizminin inteqrasiyası məsələlərinə baxılmışdır. Burada Xəzərsahili rekreasiya ehtiyatlarının bal göstəriciləri ilə qiymətləndirilməsi kriteriyaları, ərazinin rekreasiya qiymətinin göstəriciləri və s. təhlil edilmiş Xəzərsahili kurort-rekreasiya müəssisələrinin müasir vəziyyəti aşağıdakı kimi xarakterizə olunmuşdur:

- Rekreasiya müəssisələrində yerlərin 60-80%-də məcburi köçkünlər yerləşmişlər;
- Respublikadakı iqtisadi vəziyyət və s. əlaqədar olaraq rekreasiya müəssisələrinin rentabelliyi aşağı düşmüş və bağlanmaq təhlükəsi qarşısında qalmışlar;
- Xəzər dənizinin səviyyəsinin kəskin qalxması (2,3 m) ilə əlaqədar bəzi rekreasiya müəssisələrinin ərazisi, həmçinin çimərliklərdəki texniki qurğular su altında qalmışlar;
- Rekreasiya müəssisələrində əhaliyə göstərilən xidmətin səviyyəsi ilə onun qiyməti arasında tərs mütənasiblik müvcuddur.

Azərbaycan turizminin dünya turizm birliyinə inteqrasiyası baxımından üç məsələnin həlli zəruri hesab edilir:

- Müasir hüquqi bazanın yaradılması;
- Ictimaiyyət arasında turizmin geniş təbliği;
- Dövlət və özəl qurumlar tərəfindən turizm təsərrüfatının inkişafının himayə olunması.

Aparılan tədqiqatlar nəticəsində Xəzər dənizinin Azərbaycan sahilinin rekreasiya ehtiyatları kompleks qiymətləndirilmiş və aşağıdakı nəticələr alınmışdır:

Hazırda rekreasiya-turizm təsərrüfatına böyük tələbat olsa da xidmət və kommunikasiya əlaqələrinin zəif, əhalinin sosial vəziyyətinin aşağı olması və ümumiyyətlə ölkəmizdə olan iqtisadi, sosial vəziyyət rekreasiya müəssisələrinin inkişafına mənfi təsir göstərir. Lakin rekreasiya ehtiyatlarının ölkənin gələcək inkişafı ilə əlaqəli təhlili göstərmişdir ki, əhalinin sosial vəziyyəti orta səviyyədə olarsa, rekreasiya müəssisələrində xidmət və kommunikasiya səviyyəsi yüksəldilərsə, əhalinin istirahət və turizmə olan tələbatı da artacaqdır. Buna görə də istirahət müəssisələrinin rekreant qəbul etmək imkanları yaxın on ildə 60-70%-ə çatdırılmalı, yeni tikiləcək rekreasiya müəssisələri bu tələbata uyğun olmalıdır.

Müəyyənləşdirilmişdir ki, Xəzərsahili rekreasiya ehtiyatlarından istifadə etməklə il ərzində 3,4 min nəfərədək rekreanta xidmət oluna bilər.

Sahil zonasında olan rekreasiya müəssiəsələrinin təhlili göstərmişdir ki, Abşeron və Yasamal-Nabran zonasındakı qısamüddətli istirahət mərkəzinə tələbat daha çoxdur. Buna görə

də ilk növbədə bu rayonlarda yerləşən istirahət və müalicə müəssisələrinə investisiya cəlb olunmalıdır.

Bakıda, Sumqayıtda, Lənkəranda sağlamlıq zonalarının yaradılması vacibdir. Belə sağlamlıq zonaları Bakının dənizsahili milli parkında, Şıxov çimərliyinin yaxınlığındakı parkda, Sumqayıtda dəniz sahilində və Lənkəranda Xanbulaçayda təşkil oluna bilər.

Ölkədə turizm üzrə ali təhsilli mütəxəssislər hazırlanmalı və beynəlxalq təcrübədən istifadə etməklə onlara turizmin marketinqi öyrədilməlidir.

Rekreasiya müəssisələri tikilərkən ətraf mühiti qorumaqla yanaşı Abşeron (sahil zonası), Dəvəçi-Giləzi, Kürdili rayonlarında yeni meşə-parklar salınması zəruridir.

Baş verə biləcək ekoloji pozulmaların qarşısının alınması üçün tədbirlər görülməlidir.

Perspektiv dövr üçün tikiləcək rekreasiya müəssisələri dəniz sahilindən 150-200 m kənarda yerləşdirilməlidir. Belə ki, Xəzərin səviyyəsinin çox illik tərəddüdlərinin 26-29 m olduğu nəzərə alınmalıdır.

Respublikada fəaliyyət göstərən rekreasiya müəssisələrində xidmətin qiyməti tənzimlənməlidir ki, bu da xüsusilə xarici turistlərə xidmət edə biləcək müəssisələrə aiddir.

Respublikada rekreasiya-turizm təsərrüfatını inkişaf etdirmək üçün Nazirlər Kabineti yanında Koordinasiya Şurası yaradılmalıdır. Belə Koordinasiya Şuraları Rusiya, Ukrayna, Özbəkistan, Türkiyə və s. ölkələrdə artıq fəaliyət göstərir.

Mövzu 5. "İqtisadi dövr modellərinin Azərbaycan iqtisadiyyatına tətbiqi (monetar konsepsiyaya əsaslanan modellər)" mövzusunda elmi-tədqiqat işi (məsul icraçı: f.-r.e.n. Məmmədova B.S.) Monetar konsepsiyaya əsaslanan iqtisadi dövr modellərinin köməyi ilə Azərbaycan iqtisadiyyatında dövrü proseslərin tədqiqinə həsr olunmuşdur. Elmi-tədqiqat işinin hesabatı giriş, iki bölmə, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Birinci bölmədə iqtisadi dövrlərin monetar konsepsiyaya əsaslanan modellərinin ümumi xüsusiyyətləri araşdırılır və göstərilir ki, iqtisadi dövrlərin monetar konsepsiyası iqtisadi fəallığın dövri olmasını monetar sektordakı dəyişiklər ilə əlaqələndirir. Bu konsepsiyanın tərəfdarlarının (R.Xautri və s.) təsvirlərinə görə iqtisadi dövrün başlanğıc nöqtəsi bank sistemi tərəfindən kredit təkliflərinin artmasıdır. Sonra isə faiz dərəcələrinin azalması, investisiya və ümumi tələbin artması gəlir. Bununla da yüksəliş fazası başlayır, dövrdə qiymətin səviyyəsi tədricən artır. Müəyyən vaxtdan sonra iqtisadi yüksəliş iki əsas amilin təsiri altında dayanır: daxili və xarici. Birincisi kommersiya banklarının sərbəst ehtiyatlarının tükənməsi, ikicisi idxalın artması və qiymət səviyyəsinin yüksəlməsi səbəbindən ixracın azalması nəticəsində ölkənin valyuta ehtiyatlarının azalması ilə əlaqədardır. Adı çəkən hər iki amil, pul bazarında qıtlıq yaradır və bununla əlaqədar olaraq faiz dərəcəsi yüksəlməyə başlayır, investisiya həcmi isə azalır. Dövri inkişafın bu fazasında investisiya mühitinin pisləşməsi həmdə onunla bağlıdır ki yüksəlişin son mərhələsində qiymət səviyyəsinin artma surəti ilə əmək haqqının nominal səviyyəsi arasındakı fərq ilə azalır. Nəticədə əks proseslər başlanır: istehsalın həcmi və məşğulluq səviyyəsi aşağı düşür, əmək haqqı səviyyəsi pul ifadəsində azalır, qiymət səviyyəsi aşağı düşür, xalis ixrac artır, valyuta ehtiyatları və pul bazası çoxalır. Bununla da bank sisteminin növbəti kredit ekspansiyası üçün baza hazırlanır.

Bu bölmədə iqtisadi dövrün monetar konsepsiyası əsasında bir çox modellərin işlənildiyi qeyd olunmuş və belə modellərdən ən geniş yayılmışlarından olan Laydler modeli və I.Fişerin "Pulun alıcıq gücü" kitabında şərh etdiyi "mübadilə tənliyi"nin modifikasiyala-

rından biri təsvir olunmuşdur. Göstərilmişdir ki, Laydler modeli modifikasiya olunmuş Fillips əyrisi vasitəsi ilə real və monetar sektorlarda baş verən dəyişikliklərin əlaqəsini əks etdirir. Bu modeldə iqtisadi parametrlərin dinamikasını təsvir etmək üçün qüvvət funksiyalarından istifadə edilir. Laydler modelinin təhlilindən belə nəticə çıxarılır ki, bu modelə görə: uzunmüddətli dövrdə pul bitərəfdir, başqa sözlə, onun miqdarının hər bir dəyişməsindən sonra iqtisadiyyat tarazlıq vəziyyətinə qayıdır, lakin başqa inflyasiya tempi ilə; qısamüddətli dövrdə isə pul kütləsinin dəyişməsi istehsal güclərinin yüklənmə dərəcəsində, milli gəlirin kəmiyyətində və məşğulluqun səviyyəsində əks olunur.

Sonra qeyd olunur ki, monetaristlər işgüzar fəallığın dövrülüyünü izah etmək məqsədilə İ.Fişerin "Pulun alıcılıq gücü" kitabında şərh etdiyi "mübadilə tənliyi"nin müxtəlif modifikasiyalarından da istifadə edirlər. Bu tənlik pul kütləsi, pulun tədavül sürəti, əmtəə və xidmətlərin ümumi həcmi və onların qiymətlərinin ümumi səviyyəsi arasındakı asılılığı ifadə edir. Bu zaman monetaristlər "inflyasiya gözləmələrini" də nəzərə alırlar və inflyasiyanın səbəblərini, yəni məcmu təklif (AS) ilə məcmu tələb (AD) arasındakı disbalansın səbəblərini yalnız dövriyyədəki pul kütləsinin az və ya çoxluğunda görürlər. Mübadilə tənliyi» aşağıdakı kimi ifadə olunur:

$$PK \cdot DS = QI \cdot UDM$$

burada, PK-dövriyyədə olan pul kütləsi; DS - pulun dövretmə sürəti; QI - qiymətlərin səviyyəsi; ÜDM – ümumi daxili məhsul (real ifadədə).

Buradan monetaristlər belə nəticə çıxarırlar ki, dövlət pul kütləsinin artım tempini ÜDM-in real artım tempi səviyyəsində saxlamalıdır. Onda ölkədə qiymətlərin səviyyəsi sabit qalacaq. Göstərilir ki, ABŞ-da bir qayda olaraq ÜDM-in artım tempi 3-3,5 faiz olur. Elə təxminən həmin həcmdə də pul kütləsinin artım tempi olur.

Bununla yanaşı, işdə nominal və real faiz dərəcələri arasında əlaqəni əks etdirən Fişer tənliyi də təsvir olunur və göstərilir ki, Fişerin "mübadilə tənliyi" və nominal və real faiz dərəcələri arasında əlaqəni əks etdirən tənliyi birlikdə pul kütləsinin həcminin dinamikası ilə nominal faiz dərəcəsinin dinamikası arasındakı əlaqəni izah etməyə imkan verir: pul kütləsinin artımı inflyasiya yaradır, inflyasiya isə nominal faiz dərəcəsinin artımına gətirib çıxarır.

Beləliklə, nəticə çıxarılır ki, ÜDM, faiz dərəcəsi, inflyasiya arasındakı əvvəlki dövrlərdəki mövcud nisbətlərə əsasən işgüzar fəallığın dövrülüyünün empirik izahını vermək olar.

İkinci bölmədə əvvəlki bölmədə təsvir olunmuş monetar konsepsiyaya əsaslanan iqtisadi dövr modellərinə və onların təhlilindən çıxarılmış nəticələrə əsaslanılaraq Azərbaycan iqtisadiyyatında dövri proseslər tədqiq olunmuşdur. Bunun üçün, ilk növbədə, Azərbaycan Respublikasında pul-kredit siyasətinin müasir vəziyyəti təhlil olunmuş, EHM-in köməyi ilə lazımi parametrlər qiymətləndirilərək müvafiq modellər qurulmuş, bu modellər əsasında Azərbaycan iqtisadiyyatında dövri proseslərin xüsussiyyətləri öyrənilmiş və müvafiq göstəricilərin dinamikası arasındakı əlaqələr qrafik şəkildə təsvir olunmuşdur. Sonda aparılmış iqtisadi-riyazi təhlilin nəticələri interpretasiya olunaraq Azərbaycan iqtisadiyyatında işgüzar fəallığın tərəddüdlərinin tənzimlənməsi istiqamətləri müəyyənləşdirilmiş və bu istiqamətlər üzrə əməli təklif və tövsiyyələr hazırlanmışdır.

Nəticə bölməsində əldə olunmuş nəticə və təkliflər ümumiləşdirilərək qısa və konkret şəkildə təsvir olunmuşdur.

Mövzu 6. “Azərbaycanın bazar infrastukturunda sığorta bazarının formalaşması və inkişafı” (məsul icraçı R.M.Cəbiyev) adlı elmi-tədqiqat işinin hesabatında – respublikada sığorta bazarının hüquqi-normativ bazası, son illərdə bu sahədə qəbul edilən qanun və bir sıra normativ aktlar araşdırılmış, sığorta şirkətlərinin fəaliyyətini xarakterizə edən göstəricilər təhlil edilmiş və xarici sığorta şirkətlərilə müqayisə edilmişdir. Təhlil göstərmişdir ki, 2001-ci ilin əvvəlinə respublikada fəaliyyət göstərən 44 sığorta şirkətinin 8-i xarici birgə kapitalla yaradılmış, onların sığorta haqları ildən-ilə artmış, sığortanın ayrı-ayrı növləri üzrə könüllü sığorta haqlarının xüsusi çəkisi icbari sığorta haqqlarından xeyli üstün olmuşdur. Həmin dövr ərzində sığorta ödənişləri “Azal”, “Günay-Anadolu”, “Atəşgah” sığorta şirkətlərinin hesabına xeyli artmışdır. Sığorta şirkətlərinin fəaliyyətində mühüm yer tutan göstəricilərdən sığorta haqlarının respublikanın ümumi daxili məhsulunda xüsusi çəkisi, əhalinin hər bir nəfərinə düşən sığorta haqlarının həcmi, sığorta şirkətlərinin nizamnamə kapitalının həcmi və s. təhlili göstərmişdir ki, Azərbaycan üzrə bu göstəricilərin səviyyəsi bir çox digər ölkələrlə müqayisədə çox aşağıdır.

Hesabatda qeyd edilmişdir ki, 2000-ci ildən etibarən sığorta şirkətlərinin nizamnamə kapitalının minimum miqdarı 200 mln manatadək artırılsa da, bu sığorta bazarının səmərəli fəaliyyətində köklü bir dəyişikliyə səbəb olmadığına görə 2002-ci ildən bu məbləğin 500 mln manata, 2005-ci ildən isə 2-2,5 mlrd manata çatdırılması nəzərdə tutulur. Başqa ölkələrdə (Rusiya, Ukrayna, Qazaxıstan və s.) bu məbləğ qat-qat yuxarıdır.

İnkişaf etmiş ölkələrdə 300-ədək sığorta xidmətləri növü mövcud olduğu halda Azərbaycanda bu 20-25 növdür. Həm də bu xidmət növləri çox sadədir.

İşin ikninci bölməsində sığorta bazarının formalaşmasında investisiyaların əhəmiyyəti və rolu məsələsi açıqlanır. Burada investisiya qoyuluşlarına iki istiqamətdə baxılır. Birinci, sığorta şirkətlərində olan sərbəst vəsaitlərin depozitlərə qoyuluşu, ikinci, əhalinin banklardakı əmanətləri və onların sığortalanması. Təhlildən məlum olur ki, son 2 ildə sığorta şirkətlərinin investisiya qoyuluşları azalmışdır ki, bu da əsasən depozitlərin azalması ilə bağlıdır. Depozitlərin azalması onunla izah edilir ki, dövlət tərəfindən onların tam qorunmasına etibarlı zəmanət verilmir.

Qeyd edilir ki, əhalinin respublika banklarında olan əmanətlərinin əhəmiyyəti də ildən-ilə artmaqdadır, belə ki, bu əmanətlər bütün dünyada investisiyaların əsas mənbələrindən biri hesab edilir. Təhlil göstərir ki, inkşaf etmiş ölkələrdə depozitlərin həcmi ÜDM-də 20-50 % təşkil etdiyi halda Azərbaycanda bu göstərici 1%-dən də aşağıdır.

Bu vəziyyət əhalinin banklardakı əmanətlərinin müxtəlif vasitələrlə qorunması sisteminin qurulmasını tələb edir. Dünya miqyasında qəbul edilmiş bu sistemlərdən biri “depozitlərin sığortalanması” sistemidir. Bunun üçün heç olmasa, respublikanın iri banklarında depozitlərin sığortalanmasını nəzərdə tutan normativ-hüquqi aktların işlənib hazırlanması zəruri hesab edilir.

Qeyd edilir ki, Azərbaycan Milli Bankının “Fiziki şəxslərin əmanətlərinin təminatı fondu” haqqında hazırlanıb Prezident Aparatına təqdim etdiyi fərman layihəsinə baxılmasının ləngidilməsi arzuolunmaz bir faktdır ki, bu da nəinki əhalinin bank sektoruna olan inamını qırır, həmçinin potensial əmanətçilərin banklara vəsait qoyuluşunun qarşısını alır.

Bu vəziyyət öz növbəsində banklardakı depozitlərin həcminə və onlardan əldə olunan gəlirlərə mənfi təsir göstərir.

Üçüncü bölmədə sığorta bazarının formalaşmasında təkrar sığortanın əhəmiyyəti və rolu göstərilir. Tədqiqat nəticəsində məlum olur ki, hər il respublikadan kənara bu məqsədlə böyük məbləğdə vəsaitlər köçürülür ki, bu da ölkə iqtisadiyyatına xeyli zərər vurur. Bu məqsədlə respublikada Səhmdar Təkrarsığorta Cəmiyyətinin yaradılması təklif olunur ki, bunun üçün də yeni normativ aktların qəbul edilməsi vacibdir.

Yekunda belə nəticə çıxarılır ki, bu gün Azərbaycanda sığorta bazarı hələ də tam inkişaf etməmişdir və onun formalaşmasında bir sıra neqativ hallar mövcuddur: respublikada maliyyə sahəsindəki qeyri-sabitlik, sığortaya dair dövlət siyasətinin olmaması və s. Bu məqsədlə sığorta haqqında qısamüddətli proqram hazırlanıb təsdiq olunması təklif edilir. Burada sığorta xidməti növlərinin genişləndirilməsi, əhalinin sığortaya olan marağının artırılması sahəsindəki tədbirlər əsas məsələlərdən hesab olunur.

Mövzu 7. "Azərbaycan Respublikasında ixrac potensialının inkişafı və ixracın stimullaşdırılması konsepsiyasının hazırlanması" (məsul icraçı i.e.n., b.e.i. V.Ə.Rüstəmov) mövzusu üzrə elmi-tədqiqat işinin əsas məqsədi müvafiq nəzəri-təcrübi baxışları ümumiləşdirərək keçid iqtisadiyyatlı ölkələrdə ixrac potensialının inkişafı və ixracın stimullaşdırılmasının elmi-metodolji əsaslarının öyrənilməsi və ölkədə bu sahədə müasir vəziyyətin kompleks təhlili əsasında Azərbaycan Respublikasında ixrac potensialının inkişafı və ixracın stimullaşdırılmasının konseptual əsaslarının hazırlanmasından ibarətdir.

Tədqiqat işinin hesabatı giriş, üç bölmə və nəticədən ibarətdir.

Birinci bölmədə ixrac potensialının inkişafı və onu şərtləndirən amillər haqqında klassik (mütləq və müqayisəli üstünlüklər-A.Smit və D.Rikardo; istehsal amillərinin nisbəti- Hekşer-Olin və s.) və müasir (rəqabət üstünlükləri-M.Porter; texnoloji üstünlüklər; məhsulun həyat dövrü - R.Vernon və s) beynəlxalq ticarət nəzəriyyələrinin müvafiq müddəalarına və mütərəqqi dünya təcrübəsinin təhlilinə əsaslanaraq keçid iqtisadiyyatlı ölkələrdə ixrac potensialının inkişafı və ixracın stimullaşdırılmasının elmi-metodoloji əsasları öyrənilir. Nəticə çıxarılır ki, müasir dövrdə hər hansı bir ölkədə ixrac potensialının inkişafına istehsalın ölkənin beynəlxalq əmək bölgüsündəki üstünlüklərinə uyğun şəkildə ixtisaslaşması, istehsal olunan məhsulların rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, qabaqcıl texnologiyadan istifadə, elmtutumlu məhsul buraxılışının həcminin artırılması, ixracın strukturunun diversifikasiyası, milli ixracatçıları stimullaşdıran şəraitin yaradılması və digər amillər hesabına nail olmaq olar. Bununla yanaşı, qeyd olunur ki, keçid iqtisadiyyatlı ölkələr üçün ixrac potensialının inkişafı və ixracın stimullaşdırılması konsepsiyası hazırlanarkən bu ölkələri digərlərindən fərqləndirən aşağıdakı kimi xüsusiyyətləri nəzərə almaq lazımdır: inzibati-amirliyə əsaslanan qapalı iqtisadi sistemdən bu ölkələr üçün yeni olan bazar münasibətlərinə əsaslanan açıq iqtisadi sistemə keçid; bu ölkələrin bir çoxunda, o cümlədən Azərbaycan Respublikasında dövlət müstəqilliyinin əldə olunması ilə əlaqədar olaraq bütöv iqtisadi sitemin – müstəqil milli iqtisadiyyatın formalaşdırılması zərurəti; siyasi və makroiqtisadi sabitliyin olmaması; maliyyə çatışmamazlıqları; keçmişdə mövcud olan istehsal-kooperasiya əlaqələrinin qırılması və bunun törətdiyi fəsadlar (əhalinin həyat səviyyəsinin aşağı düşməsi, istehsalın, xüsusən də, sənaye istehsalının tənəzzülü və s.); mövcud istehsal potensialının texniki və texnoloji səviyyəsinin dünya standartlarından xeyli geri qalması; özəl sektorun zəif inkişafı; iqtisadi proseslərə güclü dövlət müdaxiləsi və s.

Buradan isə belə bir nəticə çıxarılır ki, bu kimi xüsusiyyətlər keçid iqtisadiyyatlı ölkələrdə ixrac potensialının inkişafı və ixracın stimullaşdırılması məsələsinə fərdi və mərhələli

yanaşmanı tələb edir. Işdə əsaslandırılır ki, bu proses ən azı üç mərhələni əhatə etməlidir: birinci mərhələdə bütöv milli iqtisadi sistemin – müstəqil milli iqtisadiyyatın formalaşması, iqtisadi münasibətlərin bazar prinsipləri əsasında yenidən qurulması, iqtisadiyyatın liberallaşdırılması və dünya təsərrüfat sisteminə açılması təmin edilməli, ölkədən hər cür ixrac stimullaşdırılmalı və ixracdan əldə olunan gəlir ixracyönümlü sahələrin inkişafına istiqamətləndirilməlidir. Bu zaman yeni yaradılan sahələrin xarici rəqabətdən qorunması məqsədilə proteksionist siyasət tədbirlərindən də dünya təcrübəsində yol verilən həddə istifadə olunmalıdır; ikinci mərhələdə səmərəli ixrac üçün ümumi yardımı saxlamaqla daha perspektivli ixracyönümlü sahələri müəyyən etmək və bu istiqamətdə ixtisaslaşan sahələrdə stimullaşdırma sistemini formalaşdırmaq lazımdır; üçüncü mərhələdə ixracyönümlü istehsal kompleksinin inkişafı və ixracın stimullaşdırılması istiqamətində işlər genişləndirilməlidir. Bu mərhələdə əvvəlki mərhələlərdən fərqli olaraq yeni, qabaqcıl texnologiyalara əsaslanan rəqabətqabiliyyətli  sahələrin inkişafına diqqət artırılır. Bu sahələrin bazasında əməktutumlu məhsul istehsalından elmtutumlu yüksək texnoloji məhsul istehsalına keçid baş verir. Idxalın təsiri ilə əvəlki mərhələlərdə rəqabətqabiliyyətli olmuş, artıq qeyri-səmərəli olan sahələr aradan qalxır, bütövlükdə milli iqtisadiyyat BƏB-in obyekiv qanunları əsasında inkişaf edir.

İkinci bölmədə ölkənin ixrac potensialı və ondan istifadənin müasir vəziyyəti aşağıdakı istiqamətlər üzrə təhlil olunub qiymətləndirilmişdir: təbii-iqtisadi potensial; ayrı-ayrı istehsal və xidmət sahələri üzrə texniki-iqtisadi potensial; elmi-texniki potensial; xarici ticarət infrastrukturu. Burada əsaslandırılır ki, dünyanın ən qədim insan məskənlərindən olan və Avropa və Asiya qitələrinin qovuşduğu ərazidə qədim "İpək yolu"nun üstündə yerləşən Azərbaycan Respublikası ixrac potensialının inkişafı baxımından güclü təbii-iqtisadi potensiala malikdir. Bu təbii-iqtisadi potensial işdə aşağıdakı kimi qruplaşdırılır: mineral-xammal ehtiyatları; təbii-iqlim şəraiti, su və torpaq ehtiyatları; turizm və rekreasiya ehtiyatları; coğrafi-nəqliyyat mövqeyi; əmək ehtiyatları. Sonra isə bu qrupların hər biri geniş tərkibdə təhlil olunur və ixrac potensialının inkişafı baxımından qiymətləndirilir. Göstərilir ki, ümumi şəkildə beş qrupa bölünən ölkənin təbii ehtiyatlarının son dörd qrupa aid olanlarının xüsusi bir əhəmiyyəti ondadır ki, birincilərdən fərqli olaraq bu ehtiyatlar tükənməz və ya bərpa olunan ehtiyatlardır. Bu bölmədə göstərilir ki, Azərbaycan güclü təbii-iqtisadi potensialla yanaşı, bu potensialın təsərrüfat dövriyyəsinə cəlb olunması məqsədilə yaradılan çoxsahəli texniki-istehsal, elmi-texniki və infrastruktur potensialına da malikdir. Işdə yanacaq-energetika, kimya və neft-kimya, maşınqayırma, metallurgiya, yüngül və yeyinti sənayesi sahəsində texniki-istehsal və elmi-texniki potensial, həmçinin infrastruktur sahələrinin, o cümlədən rabitə və nəqliyyatın bütün növlərinin müasir vəziyyəti təhlil olunur və belə nəticə çıxarılır ki, onların indiki inkişaf səviyyəsi ölkənin mövcud təbii-iqtisadi potensialından tam və səmərəli istifadə, həmçinin ixrac potensialının inkişafı baxımından qənaətbəxş deyildir. Işdə bu sahədə mövcud olan problemlər aşkarlanır və onların yaranma səbələri açıqlanır.

Bu bölmədə ölkədə ixracın stimullaşdırılması sahəsində mövcud olan vəziyyət də təhlil olunmuş və bu sahədə də bir sıra problemlərin və çatışmamazlıqların olduğu aşkarlanmışdır. Aparılan təhlillər əsasında göstərilmişdir ki, hazırda ixracatçıların himayə olunması, onlara maliyyə-kredit və valyuta güzəştlərinin tətbiq olunması, reklam-informasiya təminatı və kadrların hazırlanması, təşkilati yardım göstərilməsi və bu kimi digər istiqamətlərdə görülən tədbirləri kifayət hesab etmək olmaz.

Üçüncü bölmədə isə əvvəlki bölmələrdə müəyyən edilmiş metodoloji prinsiplərə və müasir vəziyyətin təhlilindən əldə edilən nəticələrə əsaslanaraq Azərbaycan Respublikasında ixrac potensialının inkişafı və ixracın stimullaşdırılmasının konseptual əsasları işlənib hazırlanmışdır. Burada Azərbaycan Respublikasında ixrac potensialının inkişafı və ixracın stimullaşdırılması siyasətinin birinci bölmədə verilmiş mərhələlər üzrə əsas istiqamətləri əsaslandırılmış və bu istiqamətlər üzrə həyata keçirilməsi zəruri olan tədbirlər kompleksi müəy-yənləşdirilmişdir.

Mövzu 8. "Müasir mərhələdə Azərbaycan Respublikasında əmək ehtiyatları və məşğulluq konsepsiyasının hazırlanması" (məsul icraçılar: E.S.İmanov, Ə.M.Babaşov) mövzusu üzrə elmi-tədqiqat işinin əsas məqsədi ölkədə bazar iqtisadiyyatına keçid dövründə əmək ehtiyatlarından istifadə və məşğulluq sahəsində müasir vəziyyətin araşdırılması, bu sahədə problemlərin aşkarlanması və onların həlli istiqamətində əməli təklif və tövsiyyələr hazırlanmasından ibarətdir.

Hesabatın I bölməsində əmək ehtiyatlarından istifadə və əhalinin məşğulluğu sahəsində müasir vəziyyət, ona təsir edən amillər tədqiq edilmişdir. Burada əmək ehtiyatlarının təkrar istehsalına təsir edən demoqrafik amillər, əhalinin yaş, cins tərkibi, miqrasiya, əmək bazarı, məşğulluğun dinamikası, əmək ehtiyatlarından iqtisadiyyatın sektorları üzrə istifadə məsələləri və s. öz əksini tapmışdır.

Qeyd edilir ki, əmək ehtiyatlarının formalaşmasının təbii əsasını əhalinin geniş təkrar istehsalı təşkil edir. Burada doğum və ölüm kimi demoqrafik amillər güclü təsirə malikdir. 1990-2000-ci illərdə doğumun dinamikasının təhlili göstərir ki, respublikada əhalinin hər 1000 nəfərinə düşən doğumun səviyyəsi 1,8 dəfə azalmışdır. Bu meyil əhalinin təbii artımına mənfi təsir göstərmiş, hər 1000 nəfərə düşən təbii artım bu dövrdə 2,2 dəfə azalmışdır.

İşdə əmək ehtiyatlarının kəmiyyət tərkibinə təsir edən mühüm elementlərdən biri kimi əhalinin ölüm səviyyəsi də tədqiq edilmişdir. Burada baxılan dövrdə respublikada ölənlərin sayının 9,7% artdığı qeyd edilmiş və göstərilmişdir ki, bunun da əsas səbəbi ürək-damar sistemi xəstəlikləri olmuşdur. Həmçinin hər 1000 nəfər doğulan uşağa düşən ana ölümü 2000-ci ildə 1990-cı ildəkinə nisbətən 4 dəfə artmışdır.

Əmək ehtiyatlarının formalaşmasına təsir edən ən mühüm amillərdən əhalinin cins, yaş tərkibinin sturukturunun tədqiqi göstərmişdir ki, kişilərin sayı qadınlarınkına nisbətən daha üstün artmışdır. Bunun nəticəsində də əmək ehtiyatlarının sturukturunda cins nisbətləri kişilərin xeyrinə dəyişmişdr. Əhalinin cins tərkibi ayrı-ayrı yaş qrupları üzrə də araşdırılmışdır.

Əmək qabiliyyətli yaşda olan əhalinin sayının dinamikası göstərmişdir ki, əmək qabiliyyətli yaşa daxil olanların sayı çıxanların sayından azdır, bu da əmək qabiliyyətli yaşda olan əhalinin qocalmasını bir daha təsdiq edir.

Aparılan təhlil nəticəsində məlum olmuşdur ki, miqrasiya prosesləri əmək ehtiyatlarının formalaşmasına son illər daha çox təsir göstərmişdir. Burada müxtəlif profilli yüksək ixtisaslı kadrların, yaradıcı ziyalıların respublikadan xaricə axını əmək ehtiyatlarının keyfiyyət tər-kibində də əsaslı dəyişikliklərə səbəb olmuşdur. Respublikadaxili miqrasiya son illər əhalinin kənd yerlərindən şəhərlərə axını və işğal olunmuş rayonlardan məcburi miqrantlar hesabına baş vermişdir.

Əmək resurslarının sosial-demoqrafik xarakteristikasının tərkib hissəsi kimi əhalinin sağlamlığının qiymətləndirilməsi göstərmişdir ki, əhali bu gün yuxarı nəfəs yollarının kəskin

yoluxucu, əsəb sisteminin pozulması, qan dövranı və mədə-bağırsaq xəstəliklərindən çox əziyyət çəkir.

Bütün bu qeyd edilən amillər daxili və xarici investisiya mənbələrindən səmərəli istifadə etməklə əmək ehtiyatlarının kəmiyyət və keyfiyyət göstəricilərinin yaxşılaşdırılmasına yönəldilən tədbirlər həyata keçirilməsini tələb edir.

Daha sonra əmək bazarının vəziyyətinin təhlili göstərmişdir ki, respublikada əmək bazarı məşğulluğun effektliliyinin aşağı düşdüyü, işsizliyin artdığı və işçi qüvvəsinin keyfiyyətinin aşağı düşdüyü bir zamanda fəaliyyət göstərməyə başlamışdır.

Əmək bazarının formalaşmasının aşağıdakı əsas xüsusiyyətləri müəyyənləşdirilmişdir:

- əmək bazarı keçmiş ittifaqda mövcud olan baza üzərində inkişaf edir;
- əmək bazarı cəmiyyətin bütün sahələrini əhatə edən böhran şəraitində təşəkkül tapır;
- əmək bazarı dəyərindən çox aşağı olan ucuz işçi qüvvəsinin mövcud olması ilə xarakterizə edilir;
- əmək bazarının kapital bazarı ilə əlaqəsi zəifdir;
- dövlətin əmək bazarında aktiv siyasət aparması üçün maliyyə vəsaiti çatışmır.

Bundan başqa 2000-ci ildə respublika əmək bazarındakı mövcud vəziyyətin tədqiqi nəticəsində bir sıra nəticələr əldə edilmişdir. Məsələn, işçi qüvvəsi bazarındakı gərginliyin qeydiyyatda olanların sayının azalması ilə əlaqədar olaraq azalması. Tutulmamış bir iş yerinə düşən iş axtaranların sayı 2000-ci ilin 6 ayı ərzində 6,9-dan 5,9 adama düşmüşdür.

İşsizlərin içərisindən işsizlik müavinəti alanların xüsusi çəkisi Azərbacanda 7 % olduğu halda, Gürcüstanda 12 %, Belarusda 38 %, Rusiyada 84 % və s. olmuşdur. 2000-ci ilin ortasında respublikada işsizliyə görə müavinət orta nominal əmək haqqının 15,7 %-ini təşkil etdiyi halda, müvafiq olaraq Moldovada 31,5 %-i, Tacikistanda 31,1 %, Ukraynada 22,5 %, Rusiyada isə 20 %-i təşkil etmişdir. 2000-ci ildə Azərbacanda işsiz kimi qeydiyyata alınanların 30,2 %-i yeni ixtisas almaq üçün tədris müəssisələrinə göndərilmişdir və s.

Hesabatda əmək ehtiyatlarından istifadənin səmərəliliyinin artırılması məqsədilə bir sıra təkliflər verilir:

- bir sıra sosial və məqsədli proqramların hazırlanıb həyata keçirilməsi yolu ilə əməyin idarə edilməsində bazar mexanizmlərinin təsirinin yüksəldilməsi;
- bu proqramlarda yeni iş yerlərinin yaradılmasının ön plana çəkilməsi;
- professional təhsil sistemi vasitəsilə əmək ehtiyatlarının keyfiyyət tərkibində islahatların aparılması və sair.

Xarici investisiyaların ölkəyə gətirilməsi və yeni iş yerlərinin açılmasının stimullaşdırılması məsələlərində yerli əhalidən onların xüsusi çəkisinin üstün olması, özəl bölmədə olan iş yerlərinin məşğulluq xidmətindən gizli saxlanılmasına son qoyulması əsas məsələlərdən hesab olunur.

Bundan başqa, qeyd olunur ki, əmək bazarı gərgin olan bölgələrdə xırda və orta sahibkarlığın, fərdi əmək fəaliyyətinin inkişaf etdirilməsi üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi də bu qəbildən olan problemlərdəndir.

2001-ci ildə elmi-tədqiqat işləri planında nəzərdə tutulmuş tədqiqatlarla yanaşı, İİM tərəfindən "2001-2010-cu illərdə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının konseptual əsasları" elmi-tədqiqat işi də yerinə yetirilmiş və müvafiq hesabat hazırlanaraq İqtisadi İnkişaf Nazirliyinə təqdim edilmişdir. Bu iş nəzərdə tutulmuş dövrdə iqtisadi

islahatların dərinləşdirilməsinə, iqtisadi siyasətdə sosial istiqamətləndirmənin genişləndirilməsinə, iqtisadi inkişafın davamlılığına, səmərəliliyin və dinamizmin artırılmasına, həmçinin iqtisadiyyatın dünya təsərrüfat sisteminə fəal inteqrasiyasının gücləndirilməsini təmin etmək üçün lokal məqsədlərin və funksiyaların müəyyən edilməsinə və onları əldə etmək üçün yolların tapılmasına həsr edilmişdir. İşin nəticəsində iqtisadi islahatların həyata keçirilməsi üçün 30 banddan ibarət kompleks tədbirlər təqdim olunmuşdur.

2001-ci ildə Mərkəzin Elmi Şurası tərəfindən elmi-tədqiqat işlərinin planı üzrə yerinə yetirilmiş işlərin, həmçinin Mərkəzin elmi həyatına aid bir çox müxtəlif məsələlərin müzakirə olunduğu 11 iclas keçirilmişdir.

Həmin ildə Mərkəzin əməkdaşları 100-dən çox elmi məqalənin və məruzə tezislərinin nəşr olunduğu bir sıra konfrans və simpoziumların işində iştirak etmişlər. Mərkəzin direktoru Rasim Tapdıq oğlu Həsənov Cenevrə və Moskva şəhərlərində iki beynəlxalq konfransın işində iştirak etmiş və məruzə ilə çıxış etmişdir. Bundan başqa Mərkəzin əməkdaşları Vaqif Rüstəmov, Arif Salmanov, Əmirxan Babaşov, Elxan İmanov, Zara Qarabəyova, Nizami Cavadov, Əli Hüseynov, Şamil Yaqubov, Rəşad Dayıyev Bakı şəhərində keçirilən “Milli əmək bazarının formalaşdırılmasına qloballaşma proseslərinin təsiri və məşğulluq problemləri” beynəlxalq elmi-təcrübi konfransının işində inkişaf etmişlər. Bundan əlavə, R.T.Həsənovun “İqtisadi inkişaf və makroiqtisadiyyat” adlı mühazirələr toplusu da nəşr edilmişdir.

2001-ci ildə İİM-nin aspiranturasına iki ixtisas üzrə 6 nəfər qəbul edilmişdir. (080005 ixtisası üzrə – 5 nəfər; 080014 ixtisası üzrə – 1 nəfər).

Bu ildə İİM-nin aspirant və dissertantlarından 4 nəfərin namizədlik dissertasiyasının ilkin müzakirəsi keçirilmiş, aparıcı təşkilat kimi 10-dan çox namizədlik dissertasiyasına və bir çox dissertasiyaların avtoreferatlarına rəy verilmiş, müxtəlif ali məktəblərdən İİM-ə istehsalat təcrübəsinə göndərilən tələbələrə (bakalavr və magistrlər) rəhbərlik həyata keçirilmişdir.

2001-ci ildə elmi redaksiya heyətinin sədri Rasim Tapdıq oğlu Həsənovun rəhbərliyi ilə İqtisadi İslahatlar Mərkəzi əməkdaşlarının “Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri” adlı 14,75 ç.v. həcmində elmi əsərlər toplusunun II buraxılışı nəşr edilmişdir.



AZƏRBAYCAN RESPUBLİKASI
İQTİSADİ İNKİŞAF NAZİRLİYİ
İQTİSADİ İSLAHATLAR MƏRKƏZİ

AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

II BURAXLIŞ

BAKI 2001



Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzinin Elmi Şurasının qərarı əsasında çap olunur

Elmi-redaksiya hey'əti:

R.T.Həsənov *(sədr)*, V.Ə.Rüstəmov *(müavin)*, A.A.Nadirov, R.M.Cəbiyev, A.Ə.Salmanov, N.Ö.Hacıyev, M.K.Kərimova *(məs'ul katib)*

Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu, II buraxılış. – Bakı: "Elm" nəşriyyatı, 2001 – 234 s.

ISBN 5-8066-1332-1

0601000000 / 655(07) - 2001 qrifli nəşr

© İqtisadi İslahatlar Mərkəzi, 2001



MÜNDƏRİCAT


Ön söz ... 3
*Həsənov R.T.* Azərbaycan iqtisadiyyatının inkişaf strategiyasının perspektivləri ... 5
*Rüstəmov V.Ə.* Azərbaycan iqtisadiyyatının struktur yenidənqurulmasında xarici kapitalın rolu ... 17
*Kərimova M.K., Hüseynova N.V.* Elmi fəaliyyətin struktur yenidənqurulması: problemlər və prioritetlər ... 32
*Cəbiyev R.M.* Azərbaycan respulikasında sığorta bazasının formalaşması və inkişafı ... 40
*Salmanov A.A.* Azərbaycanın nəqliyyat tranzit potensialı - iqtisadi əlaqələri stimullaşdıran amil kimi ... 52
*Yaqubov S.Ə., Mahmudzadə A.M.* Azərbaycan Respublikasında aparılan aqrar islahatların qiymətləndirilməsi ... 60
*Şəkilov R.X.* Müstəqillik şəraitində regional inkişafın strategiyası ... 74
*Hüseynov Ə.Ö.* "Reformatika" və onun "Hiperdövr"ə uyğunlaşdırmanın zəruriliyi ... 92
*İmanov E.S., Babayev Ə.M. Dəryayev R.H.* İqtisadi islahatlar şəraitində əhalinin sosial müdafiəsinin təşkili məsələləri ... 100
*Hacıyev N.Ö.* Sahibkarlıq sektorunun inkişafının sür'ətləndirilməsi ilə bağlı problemlər ... 116
*Məmmədova B.S.* Akselerator və multiplikatorun qarşılıqlı tə'sir modeli ... 127
*Əliyev A.M., Mustafayev B.H.* Restrukturizasiya şəraitində sənayenin qara metala olan tələbatının qiymətləndirilməsi (neftmaşınqayırma və metallurgiya sənayesi müəssisələrinin timsalında) ... 133
*Bayramov F.Y., Nəcəfov S.Ə.* Dövlət büdcəsinin kəsiri və inflyasiya ... 143
*Mahmudov E.M.* Müasir dövrdə Azərbaycanda rabitə sahəsinin inkişaf meylləri ... 149


233




*Hüseynov N.S.* Karbonat yataqlarının iqtisadi qiymətləndirilməsi ... 159
*Səmədzadə E.Ş.* Ekoloji təhlükəsizlik - menecment və audit obyekti kimi ... 164
*Nəbiyev R.Ə.* Kommersiya hesabının geniş təkrar istehsalın reallaşmasında rolu ... 172
*Vəliyev A.V.* Azərbaycanın istehlak bazarının formalaşmasında MDB ölkələri ilə iqtisadi əlaqələrin rolu ... 185
*Məmmədov M.Q., Rəsulov R.İ.* Ümumdünya ticarət təşkilatı və Azərbaycan: mövcud vəziyyət və əlaqələrin inkişaf perspektivləri ... 195
*Mustafayev N.M.* Bazar münasibətləri şəraitində resurslara qənaətin idarə olunması problemləri və həlli yolları ... 206
*Dr. İsmail DALAY*
I. Yonetsel başari icin yonetim bilgi sistemleri ... 213
II. Metod etüdü ile süreç geliştirme ... 222

**2002-ci ildə** İİM-in elmi-tədqiqat işlərinin planı İqtisadi İnkişaf Nazirliyinin müvafiq departamentləri ilə razılaşdırılmış və Mərkəzin Elmi Şurası tərəfindən təsdiqlənmişdir. Bu ildə bir problem üzrə müxtəlif mövzularda on bir tədqiqat işi aparılmışdır:

"Azərbaycanda iqtisadi artımın keyfiyyət xarakteristikası" mövzusunda tədqiqat işində (məsul icraçı Ağakərim Hacıyev) qeyd edilirdi ki, 1995-2002-ci illərdə dinamik iqtisadi artımla yanaşı, iqtisadi inkişafda bir sıra neqativ meyillərin müşahidə olunması iqtisadi artımın keyfiyyət göstəricilərinin təhlilini tələb edir. Neqativ meyillərin yaranma şəraitinin öyrənilməsi, onların aradan qaldırılması yolları və bu istiqamətdə müfaviq tövsiyələrin hazırlanması elmi-tədqiqat işinin məqsədini təşkil etmişdir.

"Makroiqtisadi göstəricilərin təhlili" bölməsində 1995-ci ildəki islahatlardan sonra formalaşan makroiqtisadi sabitliyin aşağıda göstərilən komponentləri tədqiq edilmişdir:

- inflasiyanın aşağı səviyyəsinin əldə edilməsi;
- manatın mübadilə kursunun dinamikasının sabitliyini təmin edən mexanizm.

"İqtisadi artımda mövcud olan əsas neqativ hallar" bölməsində ölkənin iqtisadi inkişafında formalaşan bəzi xarakterik hallar, manatın alıcılıq qabiliyyətində paritet tarazlığın pozulması, sənayedə mövcud olan çoxsahəli strukturun zəifləməsi, neft sektorunun strukturda əsas amilə çevrilməsi, ölkənin xarici borclarının xeyli artması, iqtisadiyyatın "dollarlaşması", maliyyə sektorunun işində durğunluq və s. üzə çıxarılmış, həmçinin onların aradan qaldırılması yolları təklif olunmuşdur.

Həmin ildə "Struktur dəyişiklikləri şəraitində iqtisadiyyatın dövlət tənzimlənməsinin konseptual əsaslarının hazırlanması" (məsul icraçı: Əli Hüseynov) mövzusunda elmi iş başa çatdırılmışdır.

İşin "Struktur dəyişiklikləri şəraitində iqtisadiyyatın dövlət tənzimlənməsi xüsusiyyətləri" bölməsində Azərbaycan Respublikasında struktur dəyişikliklərinin həyata keçirilməsi mərhələsində iqtisadiyyatın dövlət tənzimlənməsinin yerli xüsusiyyətləri tədqiq olunmuşdur. Bu məqsədlə struktur dəyişiklikliyinin həyata keçirilmə prosesi və iqtisadi subsistemdə "İdarəetmə" və "İstehsal" bu prosesin əsas strateji yolları təhlil edilmişdir. Bununla yanaşı, özəl sektorun yaradılması və onun inkişaf prinsipləri, sosial tənzimlənməyə "Lesse fer" prinsipinin təsiri, statistik göstəricilərlə əlaqədar problemlər və bir sıra digər məsələlər təhlil edilmişdir.

İşdə həmçinin dövlət tənzimlənməsinin, xüsusilə pul-kredit və büdcə siyasəti tədbirlərinin təhlili aparılmışdır. Qeyd olunmuşdur ki, sərt pul-kredit siyasəti iqtisadi inkişaf üçün lazımi şərait yaratmır. Göstərilmişdir ki, yüksək faiz dərəcələri inflasiyanı aradan qaldırsa da investisiyaların və istehsalın artırılması üçün şərait yaratmır. İşdə aparılan təhlilə əsaslanaraq struktur dəyişiklikliyi şəraitində iqtisadiyyatın dövlət tənzimlənməsinin strateji əsasları göstərilmişdir.

"Çoxtərəfli beynəlxalq sazişlərin ölkənin xarici ticarət potensialina mümkün təsirlərinin qiymətləndirilməsi" mövzusu üzrə elmi-tədqiqat işinin (məsul icraçı: i.e.n., b.e.i. Vaqif Əli oğlu Rüstəmov) hesabatı giriş, üç bölmə və nəticədən ibarətdir.

Birinci bölmədə iqtisadi nəzəriyyənin müvafiq müddəalarına və mütərəqqi dünya təcrübəsinin təhlilinə əsaslanılaraq postsovet ölkələrinin çoxtərəfli beynəlxalq sazişlərə qoşulmasının elmi-metodoloji əsasları konkretləşdirilmişdir. Nəticə çıxarılmışdır ki, müasir dövrdə hər hansı bir ölkədə xarici ticarət potensialının inkişafına istehsalın ölkənin beynəlxalq

əmək bölgüsündəki üstünlüklərinə uyğun şəkildə ixtisaslaşması, istehsal olunan məhsulların rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, qabaqcıl texnologiyadan istifadə, elmtutumlu məhsul buraxılışının həcminin artırılması, ixracın strukturunun diversifikasiyası, milli ixracatçıları stimullaşdıran şəraitin yaradılması və digər amillər hesabına nail olmaq olar. Lakin hər hansı bir ölkədə xarici ticarət potensialından səmərəli istifadə istiqamətində atılan addımlar beynəlxalq ticarət-iqtisadi əlaqələrin tənzimlənməsinin ümumi qaydalarını nəzərə almalı və çoxtərəfli beynəlxalq sazişlərin tənzimləmə alətlərinə, onların tətbiqi sahəsindəki norma və qaydalara, onlardan istifadə imkanlarına qoyulan tələblərə cavab verməlidir. Göstərilir ki, keçid iqtisadiyyatlı ölkələrə məxsus olan xüsusiyyətlər bu ölkələrdə xarici ticarət potensialının inkişafı və səmərəli istifadəsinə xüsusi yanaşmanı tələb edir. Bu qənatə gəlinir ki, müasir dövrdə keçid iqtisadiyyatlı ölkələrin beynəlxalq sazişlərə qoşulması beynəlxalq hüquq normalarına və mütərəqqi dünya təcrübəsinə, o cümlədən ÜTT-nin tələblərinə əsaslanmalı, ölkədə dünya təsərrüfat sisteminə səmərəli inteqrasiya olunmuş açıq iqtisadi sistemin formalaşması məqsədinə xidmət etməli və aşağıdakı vəzifələrin həyata keçirilməsini nəzərdə tutmalıdır:

- istehsalın ixtisaslaşmasının ölkənin beynəlxalq əmək bölgüsündə malik olduğu üstünlüklər, mövcud iqtisadi potensialı və daxili tələbatı nəzərə alınmaqla formalaşdırılması (bu zaman ölkənin beynəlxalq əmək bölgüsündəki üstünlüklərinin düzgün müəyyənləşdirilməsi vacib şərt hesab olunmalıdır);
- texniki, istehsal və sosial syasətin dünya standartlarına uyğunlaşdırılması;
- daxili bazarın xarici rəqabətə açılması və daxili və dünya bazar qiymətlərinin uyğunluğunun təmin olunması;
- milli valyutanın dönərliliyinin təmin olunması;
- xarici kapitalın ölkədə fəaliyyətinə və müdafiəsinə hüquqi və iqtisadi təminat verilməsi;
- ölkənin beynəlxalq və regional iqtisadi birlik və təşkilatlarda fəal iştirakının təmin olunması və s.

İkinci bölmədə ölkənin xarici ticarət potensialı və ondan istifadənin müasir vəziyyəti aşağıdakı istiqamətlər üzrə təhlil olunub qiymətləndirilmişdir: təbii-iqtisadi potensial; ayrı-ayrı istehsal və xidmət sahələri üzrə texniki-iqtisadi potensial; elmi-texniki potensial; əmək ehtiyatları. Burada əsaslandırılır ki, dünyanın ən qədim insan məskənlərindən olan və Avropa və Asiya qitələrinin qovuşduğu ərazidə qədim "İpək yolu"nun üstündə - əlverişli coğrafi mövqedə yerləşən Azərbaycan Respublikası xarici ticarət potensialının inkişafı baxımından güclü təbii-iqtisadi potensiala malikdir. Yuxarıda qeyd olunan istiqamətlərin hər biri geniş tərkibdə təhlil olunur və ixrac potensialının inkişafı baxımından qiymətləndirilir. Bu bölmədə göstərilir ki, Azərbaycan güclü təbii-iqtisadi potensialla yanaşı, bu potensialın təsərrüfat dövriyyəsinə cəlb olunması məqsədilə yaradılan çoxsahəli texniki-istehsal, elmi-texniki və infrastruktur potensialına da malikdir. İşdə yanacaq-energetika, kimya və neft-kimya, maşınqayırma, metallurgiya, yüngül və yeyinti sənayesi sahəsində texniki-istehsal və elmi-texniki potensialının müasir vəziyyəti təhlil olunur. Azərbaycanın xarici ticarətinin müasir vəziyyətinin təhlilinə əsaslanaraq bu qənaətə gəlinir ki, milli istehsalın rəqabət qabiliyyətliliyi aşağı səviyyədədir. Lakin bununla belə, beynəlxalq sazişlərdən məqsədyönlü istifadə xarici ticarət potensialının daha səmərəli reallaşdırılmasına təkan verər. Bu məqsədlə ÜTT-yə tam hüquqlu üzv statusunun əldə edilməsi istiqamətində iş aparmaq (potensial üstünlükləri və itkiləri müqayisə etmək, danışıqlar taktikasını müəyyən etmək, müvafiq təcrübəni öyrənmək,

verilə biləcək güzəştlərin optimal variantını hesablamaq və s.), xarici iqtisadi fəaliyyətin milli tənzimlənmə sisteminin hüquqi-normativ bazasının beynəlxalq hüquq normaları və dünya praktikası, o cümlədən ÜTT-nin tələbləri əsasında tamamlamaq və təkmilləşdirmək lazımdır.

Üçüncü bölmədə isə əvvəlki bölmələrdə müəyyən edilmiş metodoloji prinsiplərə və müasir vəziyyətin təhlilindən əldə edilən nəticələrə əsaslanaraq çoxtərəfli beynəlxalq sazişlərin Azərbaycan Respublikasının xarici ticarət potensialına mümkün mənfi təsirlərinin aradan qaldırılması yolları müəyyənləşdirilmişdir.

Yuxarıda sadalanan tədqiqat işlərindən başqa bu ildə aşağıdakı mövzular üzrə də elmi-tədqiqat işləri yerinə yetirilmiş və hesabatlar hazırlanmışdır:

- Azərbaycan Respublikasında istehlak malları bazarının formalaşması və inkişafı problemləri (məsul icraçı: i.e.n., b.e.i. Şamil Əyyub oğlu Yaqubov);
- Müasir mərhələdə ölkənin demoqrafik inkişafının qiymətləndirilməsi (məsul icraçı: i.e.n., b.e.i. Şamil Əyyub oğlu Yaqubov);
- "Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunda sahibkarlığın inkişafının xüsusiyyətləri" (məsul icraçı: Nazim Özbəy oğlu Hacıyev);
- Vahid iqtisadi məkanda regional inkişaf problemləri (məsul icraçı: i.e.n., b.e.i. Şamil Əyyub oğlu Yaqubov);
- Azərbaycan Respublikasında qiymətli kağızların formalaşması və onların dövriyyəsi bazarının təşkili problemləri (məsul icraçı: i.e.n., b.e.i. Şamil Əyyub oğlu Yaqubov);
- "Azərbaycan Respublikasında sosial inkişafın qiymətləndirilməsi modelinin hazırlanması" (Lorens əyrisinin qurulması) (məsul icraçılar: Böyükxanım Süleyman qızı Məmmədova, Rəşad Hikmət oğlu Dayıyev);
- İqtisadiyyatın qeyri-neft sektorunda investisiya fəallığının yüksəldilməsi problemləri(məsul icraçı: Mazəddin Eyyubov);
- Azərbaycanın təbii ehtiyatlar potensialının iqtisadi qiymətləndirilməsi (məsul icraçı: i.e.n., b.e.i. Şamil Əyyub oğlu Yaqubov);

2002-ci ildə ildə Elmi Şuranın elmi, elmi-təşkilati, maliyyə-təsərrüfat fəaliyyətinə aid məsələlərin, həmçinin il ərzində yerinə yetirilmiş elmi-tədqiqat işlərinin müzakirə olunduğu 18 iclası keçirilmişdir.

İqtisadi İslahatlar Mərkəzində aparılan metodoloji seminarlarda, dəyirmi masalarda ölkə iqtisadiyyatına və iqtisad elminin aktual problemlərinə aid olan müzakirələr edilmişdir. İqtisadiyyat üzrə müxtəlif elmi-tədqiqat institutlarının nümayəndələrinin iştirakı ilə həmin ildə Mərkəzdə təşkil olunmuş iclaslardan biri 2002-ci il 29 oktyabrda keçirilmiş "Dəyirmi masa"da 2003-cü il büdcəsində nəzərdə tutulmuş "Elmin inkişaf proqramı"nın müzakirəsinə həsr edilmişdir.

Həmçinin Dövlət büdcəsinin "İqtisadi İslahatların keçirilməsi ilə bağlı xərclər"maddəsində nəzərdə tutulmuş vəsaitlərin istifadəsi üzrə Müsabiqə komissiyası haqqında Əsasnamə layihəsi hazırlanmış və İqtisadi İnkişaf Nazirliyinə təqdim edilmişdir.

İlin sonuna İqtisadi İslahatlar Mərkəzində 9 doktorant, 21 dissertant və 12 aspirant təhsil almışdır. 2002-ci ildə İqtisadi İslahatlar Mərkəzinin aspiranturasına 7 nəfər 3 ixtisas üzrə (08.00.04 ixtisası üzrə – 2 nəfər; 08.00.05 ixtisası üzrə – 3 nəfər; 08.00.14 ixtisası üzrə – 2 nəfər) qəbul olunmuşlar.

Bununla yanaşı, bu ildə Mərkəzin aspirant və dissertantlarından 2 nəfərin namizədlik dissertasiyasının ilkin müzakirəsi keçirilərək müdafiə üçün İxtisaslaşdırılmış Şuralara, 2 nəfərin namizədlik dissertasiyası isə ilkin müzakirə üçün təqdim edilmişdir. İl ərzində Mərkəzdə 9 namizədlik dissertasiyasına aparıcı təşkilat kimi, 5 namizədlik dissertasiyasının nəticələrinin təcrübi əhəmiyyəti və istifadə olunması imkanları haqqında, 20-dən çox dissertasiyaların avto-referatlarına rəylər verilmişdir. 2002-ci ildə İİM-in əməkdaşları müxtəlif konfrans, simpoziumların işində iştirak etmiş, elmi məlumatlarla çıxış etmiş və 40-dan çox məruzə və tezisləri nəşr etdirmişlər. Bununla yanaşı, həmin ildə elmi redaksiya heyətinin sədri Rasim Tapdıq oğlu Həsənovun rəhbərliyi ilə həm mərkəzin əməkdaşlarının, həm də digər təşkilatlardan olan həmkarların elmi məqalələrinin dərc olunduğu "Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri" elmi əsərlər toplusunun 30,05 ç.v. həcmində III buraxılışı çap edilmişdir.



AZƏRBAYCAN RESPUBLİKASI
İQTİSADİ İNKİŞAF NAZİRLİYİ
İQTİSADİ İSLAHATLAR MƏRKƏZİ

AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

III BURAXILIŞ

BAKI 2002

Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzinin Elmi Şurasının qərarı əsasında çap olunur

Elmi-redaksiya heyəti:

R.T.Həsənov (sədr), V.Ə.Rüstəmov (müavin), A.A.Nadirov, R.M.Cabiyev, A.H.Salmanov, N.Ö.Hacıyev, R.H.Dayıyev (məsul katib)

Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. İqtisadi İslahatlar Mərkəzinin Elmi əsərlər toplusu, III buraxılış. – Bakı, 2002 - 263 s.

ISBN 9952-29-018-7

© İqtisadi İslahatlar Mərkəzi, 2002



MÜNDƏRİCAT

**Ön söz** ........ 3
**I. İqtisadi İslahatlar Mərkəzinin elmi həyatı**
2001-ci ildə İqtisadi İslahatlar Mərkəzinin elmi həyatı ........ 6
**II. Əməkdaşlarımızın elmi mövqeyi**
*Həsənov R.T.* Азербайджан: Десять лет государственной независимости и трансформации экономики ........ 24
*Rüstəmov V.Ə.* Azərbaycan Respublikasında ixrac potensialının inkişafı və ixracın stimullaşdırılmasının konseptual əsasları ........ 37
*Salmanov A.A.* Azərbaycanın Xəzərsahili zona üzrə rekreasiya ehtiyatlarının qiymətləndirilməsi və bu ehtiyatlardan istifadənin bəzi məsələləri ........ 60
*Yaqubov Ş.Ə., Mahmudzadə A.M.* İqtisadi islahatlar şəraitində Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi ........ 72
*Hacıyev N.Ö.* Respublikadaxili iqtisadi rayonlarda sahibkarlığın inkişaf istiqamətləri ........ 84
*İmanov E.S., Babayev Ə.M.* Azərbaycan Respublikasında əmək ehtiyatlarından səmərəli istifadə və məşğulluq səviyyəsinin yüksəldilməsi problemləri ........ 97
*Hüseynov Ə.Ö.* Azərbaycan iqtisadiyyatında azad rəqabətin təmin olunmasının prioritet istiqamətləri ........ 109
*Əyyubov M.* Azərbaycan Respublikası milli təsərrüfatında investisiya siyasətinin bəzi metodoloji məsələləri ........ 118
*Məmmədova R.S.* Monetar konsepsiyaya əsaslanan iqtisadi dövr modellərinin Azərbaycan iqtisadiyyatına tətbiqi ........ 141
**III. Həmkarlarımızın elmi mövqeyi**
*Abbasov A.F.* Milli təhlükəsizliyin təmin olunmasında dövlətin iqtisadi siyasətinin rolu ........ 153
*Bərxudarov M.İ.* Azərbaycanın xarici iqtisadi əlaqələri: tarixi və müasirlik ........ 163
*İbrahimova Ş.H.* Azərbaycanda əhalinin artımı ........ 176
*Tağıyev M.R., Rüstəmov V.Ə.* Qloballaşma və inteqrasiya proseslərinin Azərbaycan iqtisadiyyatına təsiri ........ 183
**IV. Dünya təcrübəsi və Azərbaycan reallıqları**
*Ahmet Yurtseven.* Avropada sosial siyasətin meydana gəlməsi ........ 196
*Saffet Köse.* Faizsiz bank modeli (Müasir faizsiz maliyyə müəssisələrinin iş strukturu) ........ 210
**V. Gənc tədqiqatçıların elmi mövqeyi**
*Rzayev F.F.* Azərbaycanda kənd təsərrüfatı istehsalının strukturunun təkmilləşdirilməsi problemləri ........ 218
*Yaqubov E.Ə.* Müəssisə səviyyəsində xarici iqtisadi fəaliyyətin stimullaşdırılmasının təşkilati-idarəetmə aspektləri ........ 227
*Əhmədov Q.* Qloballaşma - dünya təsərrüfat sistemində aparıcı tendensiya kimi ........ 234
*Rzayeva M.V.* Некоторые возможности бюджетно-финансовой политики для повышение деловой активности предприятий реального сектора ........ 240
*Babaylı E.Ə.* Azərbaycan Respublikasında sahibkarlığın formalaşması və inkişaf etdirilməsinin bəzi məsələləri ........ 252

Bu ildə Mərkəzin iki əməkdaşı may ayından noyabr ayınadək İİN-in xətti ilə İsrail Xarici İşlər Nazirliyinin Beynəlxalq Masav Kooperasiyası Mərkəzi tərəfindən yaradılmış "Regional İnkişafın planlaşdırılması" üzrə Beynəlxalq kursa göndərilmiş, kursu bitirdikdən sonra diplom almışlar. 2002-ci ilin iyun ayında Rasim Tapdıq oğlu Həsənov öz xahişi ilə İİM-in direktor vəzifəsindən azad edilmişdir. 2002-ci ilin oktyabr ayında İİM-nin direktor vəzifəsinə İqtisadi İnkişaf Nazirliyinin əmri ilə Rəhim Hüseyn oğlu Hüseynov təyin edilmişdir.

**2003-cü ildə** ilin əvvəlində İİM-in iş planı İqtisadi İnkişaf Nazirliyinin müvafiq strukturları ilə razılaşdırılmış, Elmi şurada təsdiq edilmiş və Mərkəzin işi buna uyğun olaraq qurulmuşdur. Həmin il İİM-də aşağıdakı mövzular üzrə elmi-tədqiqat işləri yerinə yetirilmişdir:

Mövzu 1. Azərbaycan Respublikasında investisiya mühitinin qiymətləndirilməsi (məsul icraçı: c.e.n. Ş.H.İbrahimova).

Elmi-tədqiqat işinin hesabatı giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Birinci fəsildə Azərbaycan Respublikasının yerləşdiyi coğrafi mövqenin müsbət və mənfi tərəfləri və bu səpkidən ölkənin ölkə iqtisadiyyatına təsir edən siyasi və ictimai amillər geniş təhlil olunur. İkinci fəsildə ölkənin sosial-iqtisadi vəziyyəti investisiya cəlbediciliyi baxımından təhlil edilərək qiymətləndirilir. Üçüncü fəsildə müasir dövrdə ölkədə investisiya fəaliyyətini tənzimləyən hüquqi-nomativ baza və investisiyaları stimullaşdırmaq məqsədilə həyata keçirilən tədbirlər təhlil olunur. İşin nəticə hissəsində Azərbaycanda mövcud olan investisiya mühiti ümumiləşdirilərək, onun mənfi və musbət tərəfləri göstərilir.

Mövzu 2. Azərbaycan Respublikasında sahibkarlığın inkişaf problemlərinin tədqiqi (məsul icraçı: i.e.n. N.Ö.Hacıyev). Hesabat giriş, iki fəsil, nəticə və təkliflər və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Birinci fəsildə ölkədə sahibkarlığın inkişafının müasir vəziyyəti təhlil olunaraq qiymətləndirilir. İkinci fəsildə sahibkarlığın inkişaf etdirilməsi problemləri, o cümlədən hüquqi-normativ baza, həyata keçirilmə mexanizmləri, regional problemlər və s. təhlil olunur və onlarin həlli istiqamətində əməli tədbirlərin həyata keçirilməsi

qeyd edilir. Hesabatın nəticə və təkliflər hissəsində ölkədə sahibkarlığın inkişaf etdirilməsi üçün bir sıra təkliflər verilir.

Mövzu 3. Azərbaycan Respublikasında vergi dərəcələrinin optimallaşdırılması barədə təkliflər hazırlanması (məsul icraçı: i.e.d., prof. R.M.Cəbiyev). İşdə Azərbaycan Respublikasında tətbiq edilən vergilər, o cümlədən ƏDV, mənfəət və fiziki şəxslərin gəlir vergilərinin dövlət büdcəsinin formalaşmasındakı rolu təhlil edilir və onların optimallasdırılması istiqamətində bəzi təkliflər verilir.

Mövzu 4. Azərbaycan Respublikasında mobil rabitə xidmətinin tarif dərəcələrinin uyğunluğunun qiymətləndirilməsi (məsul icraçı: i.e.n. M.R.Rəsulova). Tədqiqat işi giriş, 3 bölmə, nəticə və təkliflər və istifadə olunmuş ədəbiyyatdan ibarətdir. Birinci bölmədə Azərbaycan Respublikasında mobil rabitə xidmətlərinin tarif dərəcəsinin formalaşmasının normativ-hüquqi, təşkilati-idarəetmə və iqtisadi əsasları təhlil edilir. İkinci bölmədə Azərbaycanda mobil rabitə xidmətinin tarif dərəcələrinin xarici ölkələrlə müqayisəli təhlili aparılır. Üçüncü bölmədə Azərbaycanda mobil rabitə xidmətinin tarif dərəcələrinin əhalinin gəlirləri və digər xidmət növlərinin tarifləri ilə müqayisəli təhlili aparılır. Nəticə və təkliflər hissəsində mobil rabitə xidmətinin inkişafı istiqamətində bir sıra təkliflər verilir.

Mövzu 5. Azərbaycan Respublikasında elektrik enerjisinin istehsalı və istehlakı sahəsində müasir vəziyyətin analitik təhlili (məsul icraçı: S.Ə.Nəcəfov). İş giriş, 3 fəsil, nəticə və təklif və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. "Azərbaycan Respublikasında elektrik enerjisinin istehsalı və istehlakı sahəsində müasir vəziyyəti" kimi adlanan birinci fəsildə elektrik enerjisinin istehsalı və istehlakı, elektrik enerjisinə görə borclar təhlil edilir və borcun yaranma səbəbləri araşdırılır. "Energetika sahəsində qiymətqoyma" adlanan ikinci fəsildə elektrik enerjisinin qiymətqoyma prinsipləri göstərilir və burada ölkədə istehsal olunan elektrik enerjisinin qiymətləri müxtəlif ölkələrdə olan elektrik enerjisi qiymətləri ilə müqayisə olunub, istehlakçıların differensiallaşma meyarları göstərilərək, ayrı-ayrı qruplar üzrə qiymətqoyma prinsipləri işlənib hazırlanmışdır. "Energetika kompleksinin inkişaf perspektivləri" adlanın üçüncü fəsildə ölkədə energetika sahəsinin inkişafı istiqamətləri, elektrik enerjisinin qənaət imkanları və bu sahədə islahat istiqamətləri göstərilmişdir. Sonda tədqiqatdan irəli gələn bir sıra nəticə və təkliflər və istifadə olunmuş ədəbiyyat siyahısı verilir.

Mövzu 6. Azərbaycan Respublikasının beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığının analitik təhlili (məsul icraçı: t.e.n., b.e.i. A.H.Hacıyev). Tədqiqat işi giriş, 2 fəsil (5 paraqraf), nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. "Azərbaycanın beynəlxalq maliyyə-kredit təşkilatlari ilə əməkdaşlığının mərhələləri və istiqamətləri" adlı birinci fəsil Azərbaycanın Beynəlxalq Valyuta Fondu (IMF), Dünya Bankı Qrupu (WB), Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD), Asiya İnkişaf Bankı (ADB), İslam İnkişaf Bankı (İİB) və Qaradəniz Ticarət və İnkişaf Bankı (QTİB) ilə əlaqələrinin mövcud vəziyyəti və inkişaf istiqamətləri təhlil edilir. "Beynəlxalq maliyyə-kredit təşkilatlari ilə əlaqələrin inkişaf perspektivləri" başlığı altında ikinci fəsildə Azərbaycanın BMKT ilə əlaqələrinin sonrakı inkişafının əsas məsələlərinin (enerji daşıyıcılarının qiymətlərinin sərbəstləşdirilməsi və dünya qiymətləri səviyyəsinə qaldırılması, maliyyə sektorunun liberallaşdırılması, vergi sistemində aparılması zəruri olan dəyişikliklər və s.) mövcud vəziyyəti və bu məsələlər sırasında mühüm əhəmiyyət kəsb edən milli valyutanın dönərliliyi və onun yüksəldilməsi perspektivləri

araşdırılır. Nəticə hissəsində aparılmış tədqiqat əsasında BMKT əlaqələrin mövcud vəziyyəti və inkişaf istiqamətlərinin təkmilləşdirilməsi üzrə bir sıra tövsiyələr verilir.

Mövzu 7. Minimum yaşayış səviyyəsinin müəyyən edilməsi metodikasının işlənilməsi (məsul icraçı: i.e.n., b.e.i. V.Ə.Rüstəmov). Elmi-tədqiqat işinin əsas məqsədi müvafiq nəzəri-metodoloji müddəalar, mütərəqqi dünya təcrübəsi və yerli xüsusiyyətlər nəzərə alınmaqla Azərbaycan Respublikasında minimum yaşayış səviyyəsinin müəyyən edilməsi metodikasının işlənilməsindən ibarətdir. Tədqiqat işində müvafiq nəzəri-metodoloji müddəalarla yanaşı, mütərəqqi dünya təcrübəsi, "Avropa Sosial Xartiyası"nın, Beynəlxalq Səhiyyə Təşkilatı və digər beynəlxalq təşkilatların tələbləri və yerli xüsusiyyətlər nəzərə alınmaqla elmi cəhətdən əsaslandırılmış minimum istehlak normaları əsas götürülərək Azərbaycan Respublikasında minimum yaşayış səviyyəsinin müəyyən edilməsi metodikası konkretləşdirilir. Tədqiqat işində insanın sağlamlığını saxlaması və həyat fəaliyyətini təmin etməsi üçün zəruri olan ərzaq məhsulları, qeyri-ərzaq malları və xidmətlərin minimum toplusunun formalaşdırılması prinsipləri və qaydaları, ölkənin regionları üzrə əhalinin əsas sosial-demoqrafik qrupları üçün minimum istehlak səbətinin formalaşdırılması zamanı təbii-iqlim şəraitinin, yerli ənənələrin, istehlak xüsusiyyətlərinin və digər amillərin nəzərə alınması prinsipləri və qaydaları, ölkə və əhalinin əsas sosial-demoqrafik qrupları üzrə istehlak səbətinin tərkibi, istehlak səbətinin dəyərinin hesablanması qaydaları, ölkənin ayrı-ayrı regionları üçün istehlak səbətinin dəyərinin hesablanmasına dair tövsiyələr öz əksini tapmışdır. Tədqiqatın nəticəsi "Minimum yaşayış səviyyəsi haqqında" Azərbaycan Respublikasının qanununun layihəsi, "Azərbaycan Respublikasında minimum yaşayış səviyyəsinin hesablanmasına dair Metodik göstərişlər"in layihəsi və Azərbaycan Respublikasında minimum əmək haqqının mərhələlərlə minimum yaşayış səviyyəsinə uyğunlaşdırılmasına dair təkliflər hazırlanması zamanı geniş istifadə olunmuşdur.

Mövzu 8. Özəlləşdirmənin ilkin nəticələrinin təhlili (məsul icraçı: i.e.n., b.e.i. Ş.Ə.Yaqubov). Elmi-tədqiqat işi giriş, 2 bölmə, nəticə, təkliflər və istifadə edilmiş ədəbiyyatdan ibarətdir. Tədqiqatın "Özəlləşdirmə prosesinin gedişinin təhlili" adlı bölməsində özəl bölmənin formalaşmasında dövlət əmlakının özəlləşdirməsi, müstəqilliyin bərpasından sonra aparılan iqtisadi islahatların əhəmiyyəti və "I Dövlət Özəlləşdirilməsi Proqramı" əsasında özəlləşdirmənin nəticələri təhlil edilir. "Özəlləşdirmənin ilkin nəticələrinin qiymətləndirilməsi" kimi adlanan ikinci bölmədə kiçik və orta sahibkarlığın inkişafı problemləri, özəl sektorda struktur formalaşdırıcı potensial, kiçik və orta sahibkarlarla iri müəssisələr arasında kooperasiya əlaqələri və xarici investorların ölkə iqtisadiyyatına cəlb edilməsi problemləri təhlil olunur. Tədqiqatın nəticə və tövsiyələr hissəsində bir sıra təklif və tövsiyələr qeyd edilir.

Mövzu 9. "Azərbaycan Respublikasının iqtisadi təhlükəsizlik konsepsiyası"nın layihəsinin hazırlanması (məsul icraçı: i.e.n., b.e.i. V.Ə.Rüstəmov). Elmi-tədqiqat işinin əsas məqsədi müasir dövrdə iqtisadi təhlükəsizliyin təmin olunması ilə əlaqədar müvafiq nəzəri-təcrübi baxışların ümumiləşdirilməsi və bu baxımından ölkədə mövcud durumun qiymətləndirilməsi əsasında "Azərbaycan Respublikasının iqtisadi təhlükəsizlik konsepsiyası"nın layihəsinin hazırlanmasından ibarətdir. Tədqiqat işi giriş, iki bölmə və nəticədən ibarətdir. Birinci bölmədə müvafiq nəzəri baxışların və mütərəqqi dünya təcrübəsinin təhlilinə və ümumiləşdirilməsinə əsaslanılaraq müasir dövrdə ölkənin iqtisadi

təhlükəsizliyin təmin olunmasının elmi-metodoloji əsasları konkretləşdirilmişdir. İkinci bölmədə müasir dövrdə dünyada cərəyan edən qlobal proseslər, ölkəningeosiyasi və geoiqtisadi mövqeyi, milli iqtisadi maraqları, onlara qarşı mövcud olan və potensial olaraq mümkün olan daxili və xarici təhdidlər və mənfi təsirlər, iqtisadi potensialının və sosial-iqtisadi vəziyyətinin mövcud durumu və inkişaf perspektivləri nəzərə alınmaqla, birinci bölmədə müəyyən edilmiş metodoloji prinsiplərə əsaslanılaraq, Azərbaycan Respublikasının iqtisadi təhlükəsizlik strategiyasının əsas məqsədləri, prinsipləri, üstün istiqamətləri və bu sahədə dövlət orqanlarının vəzifələrinin müəyyənləşdirilməsinə cəhd edilmişdir. Nəticədə tədqiqatın nəticələri sistemləşdirilərək "Azərbaycan Respublikasının iqtisadi təhlükəsizlik konsepsiyası"nın layihəsi təklif olunmuşdur.

Mövzu 10. Azərbaycan Respublikasında turizm xidməti bazarının müasir vəziyyətinin kompleks təhlili və proqnozlaşdırılması (məsul icraçı: c.e.d. A.Ə.Salmanov). Tədqiqat işi giriş, üç bölmə, nəticə, təkliflər və ədəbiyyat siyahısından ibarətdir. Birinci bölmədə turizm xidmətinin quruluşu və əsas göstəricilərinin nəzəri-metodoloji məsələləri öyrənilir. İkinci bölmədə Azərbaycanda turizmin muasir vəziyyəti təhlil edilir və onun inkişaf etdirilməsi imkanları qiymətləndirilir. Üçüncü bölmədə aparılan təhlil nəticəsində Azərbaycanda turizmin inkişaf istiqamətləri proqnozlaşdırılır. Nəticə və təkliflər bölməsində Azərbaycanda turizmin inkişaf etdirilməsi istiqamətində təkliflər verilir.

Mövzu 11. Azərbaycan Respublikasında fond bazarının müasir vəziyyətinin təhlili və inkişaf perspektivlərinin öyrənilməsi (Məsul icraçı: i.e.d., prof. R.M.Cəbiyev). Elmi-tədqiqat işinin yerinə yetirilməsi Bakı Banklararası Valyuta Birjası ilə birgə nəzərdə tutlmuşdu, lakin qarşı tərəfin zəruri materiallarla təmin etməməsi və müvafiq mütəxəssisləri cəlb etməməsi səbəbindən işin "Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının formalaşması və inkişafı problemləri" mövzusunda elmi-tədqiqat işi ilə birləşdirilməsi məqsədəuyğun hesab edilmişdir.

Mövzu 12. Azərbaycan-Çin iqtisadi əməkdaşlığının müasir vəziyyətinin təhlili və inkişaf perspektivlərinin öyrənilməsi (məsul icraçı: Ş.B.Quliyev). Tədqiqat işinin birinci fəslində Çin iqtisadiyyatının müasir vəziyyəti və səciyyəvi xüsusiyyətləri verilmiş, ikinci fəslində Azərbaycan Respublikası ilə ÇXR arasında iqtisadi əməkdaşlığın müasir vəziyətinin təhlili və qiymətləndirilməsi aparılmış, üçüncü fəslində Azərbaycan Respublikası ilə ÇXR arasında iqtisadi əməkdaşlığın konkret istiqamətlər üzrə inkişaf perspektivləri göstərilmişdir.

Tədqiqat işinin I bölməsində Çin iqtisadiyatının müasir vəziyyəti və səciyyəvi xüsusiyyətləri, 1978-ci ildən başlayaraq Çində sürətli inkişaf meyilləri araşdırlmışdır. Burada həmçinin, Azərbaycan Respublikası ilə ÇXR arasında iqtisadi münasibətlərin inkişafını zəruri edən amillər əsaslandırlmış, bu istiqamətdə iki dövlət arasında siyasi, iqtisadi və digər sahələr üzrə əməkdaşlığın genişləndirilməsi istiqamətində görülmüş işlər və imzalanmış sənədlərin xronologiyası göstərilmişdir. II bölmədə Azərbaycan Respublikası ilə ÇXR arasında iqtisadi əməkdaşlığın müasir vəziyyəti təhlil olunaraq qiymətləndirilmişdir. 1992-2002-ci illər üzrə iki ölkə arasında həyata keçirilən iqtisadi əməkdaşlq sahəsində mövcud olan mənfi və müsbət meyillər qruplaşdırılmışdır. III bölmədə aparılmış təhlil və qiymətləndirmənin nəticəsi olaraq Azərbaycan Respublikası ilə ÇXR arasında iqtisadi əməkdaşlığın səmərəliliyinin artırılması üçün konkret istiqamətlər üzrə inkişaf perspektivlərinə dair təkliflər irəli sürülmüşdür.

Mövzu 13. Biznes inkibator və biznes poliqonlar yaradılması imkanlarının öyrənilməsi (məsul icraçı: i.e.n. N.Ö.Hacıyev). Tədqiqat işi giriş, iki bölmə, nəticə, təkliflər və ədəbiyyat siyahısından ibarətdir. Birinci bölmədə biznes inkubatorlar və biznes poliqonların yaradılması üzrə dünya təcrübəsi analitik ümumiləşdirmə aparılır. İkinci bölmədə Azərbaycan Respublikasının real imkanları nəzərə alınmaqla biznes inkubatorlar və biznes poliqonların yaradılması üçün zəruri olan imkanlar aşkarlanaraq həlli yolları göstərilir. Nəticə və təkliflər hissəsində mövcud reallıqlar baxımından bu istiqamətdə əməli təklif və tövsiyələr verilir.

Mövzu 14. Ölkənin ayrı-ayrı regionlarında sərbəst iqtisadi zona yaradılması imkanlarının öyrənilməsi (məsul icraçı: Ş.B.Quliyev). Tədqiqat işinin I bölməsində SİZ-in yaradılmasının nəzəri-metodoloji əsasları araşdırılmışdır. Burada SİZ-in ən ümumi cəhətləri, xarici kapitalı cəlb etmək üçün əcnəvi investorlara tətbiq edilən həvəsləndirmə vasitələri, iqtisadi inkişaf səviyyəsinə görə müxtəlif olan ölkələrdə yaradılan iqtisadi zonaların nail olmaq istədikləri məqsədlər, bu cür zonaların bəzən meydana çıxardığı neqativ meyillər göstərilmişdir. Həmçinin SİZ-in müxtəlif formaları və fəaliyyət əlamətlərinə görə strukturu tədqiq olunmuşdur. II bölmədə milli iqtisadi sistemin təşəkkülü və inkişafı prosesində qarşıya çıxan problemlərin uğurlu həllinin xarici iqtisadi əməkdaşlığın ölkə iqtisadiyyatının dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasını təmin edə biləcək rasional forma və üsulların seçilməsi, əsaslandırılması və inkişafı istiqamətində ölkənin ayrı-ayrı regionlarında SİZ-in yaradılması üçün regionlarn təbii-iqtisadi potensiallarının qiymətləndirilməsi aparılmışdır. Bu bölmədə ölkənin 11 regionunun hər biri ayrı-ayrılıqda təbii-coğrafi şərait, nəqliyyat-kommunikasiya sistemi, təbii ehtiyyatlar, istehsal və demoqrafiq vəziyyət baxımından təhlil olunaraq qiymətləndirilmiş, regionlar üçün SİZ-in hansı forma və növünün seçilməsi əsaslandırılmışdır. III bölmədə ölkənin ayrı-ayrı regionlarında SİZ-in yaradılması sahəsində mövcud olan problemləri öyrənərək və dünya təcrübəsinə əsaslanaraq həmin problemlərin aradan qaldırılması üçün həyata keçirilməli olan tədbirlərin zəruriliyi əsaslandırılaraq konkret təkliflər irəli sürülmüşdür.

Mövzu 15. Azərbaycan Respublikasında marketinqin inkişafı xüsusiyyətlərinin öyrənilməsi (məsul icraçı: R.H.Hüseynov). Elmi-tədqiqat işinin hesabatı giriş, üç fəsil, nəticə və təkliflər və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Birinci fəsildə ölkədə marketinqin formalaşması və inkişaf xüsusiyyətləri öyrənilir, elmin istehsalatla sıx bağlılığı, qeyri-dövlət müəssisələri və birliklərinin öz idarəetmə mexanizmini Mərkəzin “Marketinq və ictimai əlaqələr” şöbəsi tərəfindən hazırlanmış marketinq kompleksi tədbirləri əsasında qurumların zəruriliyi qeyd edilir. İkinci fəsildə Azərbaycan Respublikasında marketinqin inkişafı sahəsində mövcud problemlər sorğu əsasında aşkarlanmış və bu problemlərin həlli yolları öyrənilmişdir. Üçüncü fəsildə İqtisadi İslahatlar Mərkəzinin orta və uzunmüddətli inkişaf proqramı hazırlanmışdır.

Mövzu 16. Azərbaycan Respublikasında insan potensialının inkişafı siyasətinin konseptual əsaslarının işlənilməsi (məsul icraçı: i.e.n., b.e.i. Ə.M.Babaşov). Tədqiqat işi giriş, iki fəsil, nəticə, təkliflər və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Birinci fəsildə insan inkşafı potensialının nəzəri-metodoloji əsasları öyrənilir, İİİ-nin və digər insan inkişafı göstəricilərinin hesablama metodikaları verilir. İkinci fəsildə Azərbaycanda insan inkşafı sahəsində müasir vəziyyət, o cümlədən uzunömürlülük, savad nailiyyətləri və adambaşına

düşən ÜDM təhlil olunaraq qiymətləndirilir. Nəticə və təkliflər hissəsində ölkədə insan potensialının inkişaf etdirilməsi istiqamətində bəzi təkliflər verilir.

Mövzu 17. Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının formalaşması və inkişafı problemləri (məsul icraçı: i.e.d., prof. R.M.Cəbiyev). Tədqiqat işi girişdən, üç bölmədən, nəticə və istifadə olunmuş ədəbiyyatdan ibarətdir. Birinci bölmədə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının formalaşması istiqamətində qəbul edilən hüquqi-normativ aktların əhəmiyyəti və rolu göstərilir. İkinci bölmədə Azərbaycan Respublikasında səhmdar cəmiyyətləri tərəfindən buraxılan səhmlərin qiymətli kağızlar bazarının formalaşmasına və inkişafına təsiri məsələlərinə toxunulur. Burada, ölkədə fəaliyyət göstərən səhmdar cəmiyyətlərin həm fond birjasında, həm də birjadankənar fəaliyyəti göstərilir. Üçüncü bölmədə Azərbaycan Respublikasında səhmdar bankların səhmlərinin qiymətli kağızlar bazarının formalaşmasına və inkişaf etdirilməsinə təsiri göstərilmişdir. Burada respublikada fəaliyyət göstərən səhmdar banklar tərəfindən buraxılan qiymətli kağızlar haqqında məlumat verilir və qısa nəticə çıxarılır.

Mövzu 18. Azərbaycan iqtisadiyyatı müstəqillik illərində (məsul icraçı: i.e.d., prof. R.M.Cəbiyev). Tədqiqat işi girişdən, iki fəsildən (6 paraqraf), nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Birinci fəsildə müstəqilliyin bərpasından sonrakı dövr ölkənin əsas iqtisadi göstəricilərinin təhlili əsasında qiymətləndirilir. İkinci fəsildə iqtisadiyyatın strukturunun yenidənqurulması prosesində Azərbaycan Respublikasında sahibkarlığın formalaşmasına və inkişafına təsir edən amillər təhlil olunur. Nəticə hissədə ölkədə qeyd olunan istiqamətlərdə bir sira təkliflər verilir.

Mövzu 19. Neft maşınqayırması sənayesinin inkişaf perspektivlərinin öyrənilməsi (məsul icraçı: E.Əliyev). Tədqiqat işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın birinci fəslində neft maşinqayırması sənayesinin müasir vəziyyəti təhlil edilərək qiymətləndirilir. İkinci fəsildə neft maşinqayırması sənayesini inkişaf perspektivləri və istiqamətləri müəyyənləşdirilir. Üçüncü fəsildə müəyyən edilmiş istiqamətlər üzrə bir sıra təklif və tövsiyələr verilir.

Yuxarıda qeyd edilən mövzularla yanaşı, Mərkəz 2003-cü il üzrə İş Planından əlavə olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 212s saylı 29 oktyabr 2003-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş və “Azərbaycan Respublikasının 2003-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun “İqtisadi islahatlarla bağlı xərclər” maddəsində nəzərdə tutulmuş vəsait hesabına aşağıdakı tədqiqat işlərini yerinə yetirmişdir:

1. “Ölkədə xarici iqtisadi əlaqələrin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi məqsədilə bu sahədə mövcud vəziyyətin analitik təhlili və tövsiyyələrin hazırlanmasi” (Layihənin rəhbəri: R.H.Hüseynov). Tədqiqat işi dörd bölmədən ibarətdir. Birinci bölmədə ölkənin iqtisadi potensialı xarici iqtisadi əlaqələrin inkişafı baxımından təhlil edilib qiymətləndirilmişdir. Bu qiymətləndirmə təbii-iqtisadi, texniki-iqtisadi və elmi-texniki potensial üzrə aparılmışdır. İkinci bölmədə ölkənin XİƏ-i bütün formalar üzrə kompleks şəkildə təhlil edilərək qiymətləndirilmiş, bu sahədə müşahidə olunan inkişaf meyilləri və problemlər müəyyənləşdirilmişdir. Üçüncü bölmədə xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsi sisteminin formalaşması xüsusiyyətləri bazar iqtisadiyyatına keçidin ilkin mərhələsindən başlayaraq müasir dövrə qədər təhlil edilmiş, bu tənzimlənmə sisteminin əsas xüsusiyyətləri və çatışmamazlıqları müəyən edilmişdir. Dördüncü bölmədə isə, XİƏ-in

inkişafı istiqamətində fundamental yanaşmanı özündə ehtiva edən təklif və tövsiyyələr hazırlanmışdır. Bu təklif və tövsiyyələr ölkənin dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyasının təməl prinsiplərini müəyyən etməklə, bu sahədə dövlət siyasətinin əsas istiqamətlərini təşkil edə bilər.

2. "Lənkəran-Astara iqtisadi rayonunun kompleks sosial-iqtisadi inkişaf proqraminin hazirlanmasi" (Layihənin rəhbəri: R.H.Hüseynov). Tədqiqat işi dörd bölmədən ibarətdir. Birinci bölmədə Lənkəran-Astara iqtisadi rayonunun təbii-coğrafi mövqeyi, sosial-iqtisadi vəziyyəti, inzibati quruluşu haqqında ümumi məlumat təqdim olunmuşdur. İkinci bölmədə Lənkəran-Astara iqtisadi rayonunun mövcud sosial-iqtisadi vəziyyəti, iqtisadiyyatın ayrı-ayrı sahələrinin potensial imkanları, infrastruktur sahələri, idarəetmə mexanizmləri təhlil olunmuş və qiymətləndirilmişdir. Bu zaman, mərkəzin mütəxəssisləri tərəfindən regionda müşahidələr aparılmış, məlumatlar toplanmış, yerli icra və bələdiyyə orqanlarının məsul şəxsləri və mütəxəssisləri ilə görüşlər təşkil edilmiş və bu əsasda hesablamalar, analitik təhlillər və ekspert qiymətləndirməsi aparılmışdır. Üçüncü bölmədə əvvəlki bölmədə aparılmış təhlil və qiymətləndirmələr, inkişaf meyilləri və regionun potensial imkanları əsasında ayrı-ayrı sahələrdə inkişaf istiqamətləri müəyyənləşdirilmiş, bu istiqamətlər üzrə təkliflər hazırlanmış, müəyyən problemlərin həllinə yönəlmiş konkret proqramlar və mexanizmlər təklif olunmuşdur. Dördüncü bölmədə müvafiq istiqamətlərə yönəlmiş tədbirlər planını əks etdirən Kompleks Regional İnkişaf Proqramının tədbirlər planı təqdim olunmuşdur. İşin bu mərhələsi regionda müvafiq inkişafa nail olmaq üçün nə kimi işlər görməli olunduğunu əks etdirir.

Həmin ildə görülən işlərlə yanaşı, "Azərbaycan və Ermənistan Respublikalarının 1997-2001-ci illər ərzində sosial-iqtisadi inkişafının ümumi göstəricilər üzrə müqayisəli təhlili", "Nardaran qəsəbəsində sosial-iqtisadi vəziyyətin analitik təhlili", "Azərbaycan Respublikasında minimum yaşayış səviyyəsinin müəyyən edilməsinə dair normativ-hüquqi sənədlərin layihələrinin və minimum əmək haqqının mərhələlərlə minimum yaşayış səviyyəinə uyğunlaşdırılmasına dair təkliflər hazırlanması" mövzularında elmi-tədqiqatlar və analitik təhlillər aparılmış, dövlət büdcəsinin xərclər maddəsində nəzərdə tutulan vəsaitlərin səmərəli istifadəsi üçün zəruri işlər görülmüş, Azərbaycanın bütün rayonlarının sosial-iqtisadi inkişafı haqqında analitik arayışlar və s. bu kimi cari operativ-analitik işlər yerinə yetirilmiş və onların nəticələrini əks etdirən materiallar hazırlanaraq aidiyyatı üzrə təqdim edilmişdir.

Bundan əlavə, Mərkəzin 5 tədqiqatçısının Dünya Bankının Dövlət Statistika Komitəsi və İqtisadi İnkişaf Nazirliyi ilə əməkdaşlıq çərçivəsində həyata keçirdiyi layihədə iştirakı təmin edilmiş və onlar aşağıdakı mövzular üzrə müsabiqənin qalibləri kimi mükafatlandırılmışlar:

- Sosial müdafiənin əhalinin ən zəif hissəsinə yönəldilməsi (Vaqif Rüstəmov);
- Azərbaycanda kənd təsərrüfatının effektiv kreditləşdirmə sisteminin yaradılması mexanizmləri (R.Hacıyev);
- Aqrar məhsulların ixracının artırılmasının kənd yerlərində yoxsulluğun azaldılmasına təsiri (Firdovsi Rzayev);
- Bazar iqtisadiyyatına keçid dövründə Azərbaycan Respublikasında dövlət büdcəsinin formalaşmasının və istifadə olunmasının yoxsulluğun aradan qaldırılmasına təsiri (Rauf Cəbiyev);
- Kənd yerlərində yoxsulluğun azaldılmasına aqrar-sənaye inteqrasiyasının gücləndirilməsinin təsiri (Z.Qarabəyova).

Həmin il İİM üzərinə düşən öhdəlikləri lazımi dərəcədə icra etmək məqsədilə və Mərkəzin işinin müasir tələblərə uyğunlaşdırılması üçün bir sıra tədbirlər həyata keçirmişdir. Bunun üçün 2002-ci ilin sonunda Mərkəzin əməkdaşı analoji elmi-tədqiqat institutlarında həyata keçirilən işlərlə tanış olmaq üçün Rusiya və Qazaxıstana ezam olunmuşdur.

Həmin ilin əvvəlində o vaxta qədər qüvvədə olan İİM-in elmi bölmələrinin strukturu ləğv edilmiş və bazar şəraiti tələblərinə cavab verən təkmilləşdirilmiş daha müasir yeni struktur tətbiq edilmişdir. Bu struktur aşağıdakı kimi olmuşdur:

- rəhbərlik - 4 nəfər;
- analitik-təhlil şöbəsi - 10 nəfər;
- elmi-təşkilati şöbə - 5 nəfər;
- tədris şöbəsi - 5 nəfər;
- elmi-tədqiqatlar şöbəsi - 19 nəfər;
- elmi katiblik - 9 nəfər;
- marketinq və ictimai əlaqələr şöbəsi - 5 nəfər;
- maliyyə-təsərrüfat və kadrlar şöbəsi - 13 nəfər.

Cəmi: 70 nəfər.

2003-cü ildə İqtisadi İslahatlar Mərkəzində fəaliyyət göstərən əməkdaşlar aşağıdakı struktur bölmələrində çalışmışlar.




Bundan başqa, 2003-cü ilin əvvəlində Mərkəzin rəhbərliyinin səyi nəticəsində əməkdaşların əmək haqları artırılmış, kompüter, dəftərxana ləvazimatı, qəzetlər, elmi jurnallar, yeni kitablarla təminat yaxşılaşdırılmış, ümumilikdə elmi yaradıcılıq işləri üçün daha əlverişli şərait yaradılmışdır. Mərkəzdə həyata keçirilən bu tədbirlərə uyğun olaraq Mərkəzin əməkdaşlarının işə, yerinə yetirilən tapşırıqlara marağı və məsuliyyəti xeyli dərəcədə artmışdır.

2003-cü ildə İİM-də yuxarıda qeyd olunanlarla yanaşı, aşağıdakı istiqamətlərdə də nəzərəçarpacaq fəaliyyətlər həyata keçirilmişdir:

- Analitik-təhlil işləri:
  - Azərbaycan Dövlət Statistika Komitəsinın rüblük materialları əsasında ölkədə formalaşan iqtisadi durum analitik təhlil edilərək qiymətləndirilmişdir;
  - Mərkəz tərəfindən alınan 25 adda qəzet və 9 adda jurnalların gündəlik monitorinqinin aparılması təmin edilmişdir;
  - bir sıra qəzet və jurnalların 2003-cü ilin yanvar-avqust ayları üzrə buraxılan nömrələrində dərc olunmuş məqalələr təhlil olunaraq İqtisadi İnkişaf Nazirliyinə təqdim edilmişdir;
  - Nazirliyin və digər dövlət qurumlarının tapşırığı ilə bir sıra məsələlərlə əlaqədar cari operativ-analitik təhlil işləri aparılmışdır.
- Elmi-təşkilati işlər:

İqtisadi İslahatlar Mərkəzində aşağıdakı dəyirmi masa və seminarlar keçirilmişdir:

- 2003-cü il 07 aprel tarixində İqtisadi İslahatlar Mərkəzində "Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlük strategiyası" mövzusunda keçirilmiş Dəyirmi Masa. Burada Azərbaycanın ÜTT-yə üzvlük strategiyasının əsas problemləri müvafiq idarəetmə və elmi qurumların nümayəndələrinin iştirakı ilə ətraflı müzakirə edilmişdir;

- 27 may 2003-cü il tarixində ölkədə iqtisadiyyat sahəsində fəaliyyət göstərən elmi-tədqiqat institutlarının və idarəetmə orqanlarının rəhbərləri və məsul mütəxəssislərinin iştirakı ilə Azərbaycan Demokratik Respublikasının 85 illik yubileyinə həsr edilmiş "Azərbaycanda iqtisadi tədqiqtlar və idarəetmə strukturları ilə əlaqələrin səviyyəsinin yüksəldilməsi yolları" mövzusunda Dəyirmi Masa. Burada müasir dövrdə iqtisadi yönümlü tədqiqatların idarəetmə strukturları ilə əlaqələndirilməsi problemləri müzakirə edilmişdir;

- İqtisadi İslahatlar Mərkəzi 2003-cü il 28-29 avqust tarixində BMT-nin UNESCAP təşkilatı ilə birgə "Qloballaşdırma ilə bağlı məsələlərin həlli üçün Azərbaycanda potensialın gücləndirilməsi" mövzusunda Milli Seminar təşkil etmişdir. Xarici və ölkə mütəxəssislərinin iştirakı ilə keçirilən bu tədbirdə qloballaşdırma prosesində Azərbaycanın potensialının artırılması istiqamətində müzakirələr aparmışlar.

Mərkəzin əməkdaşlarının aşağıdakı beynəlxalq və ölkədə keçirilən konfrans, simpozium, seminar və dəyirmi masalarda iştirakı təmin edilmişdir:

- 2003-cü ilin avqust ayının ortalarında Yalta şəhərində "MDB üzvü olan dövlətlər arasında azad ticarət zonasının optimal funksiyalaşdırılması və həyata keçirilmə mexanizmi" adlı beynəlxalq elmi simpozium;
- İsrail Dövlətində 14-cü "Beynəlxalq kiçik və orta sahibkalıq" mövzusunda keçirilən konfrans;
- Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi Sahibkarlığın İnkişafı Departamenti tərəfindən 2003-cü il 26-27 dekabr tarixində keçirilən "Azərbaycan Respublikasında iqtisadi islahatlar: ilkin nəticələr, problemlər və perspektivlər" mövzusunda beynəlxalq elmi-praktiki konfrans;
- "Karvan" Müstəqil Araşdırmalar Mərkəzinin "Elektron biznesin Azərbaycanda problemləri, imkanları və perspektivləri" mövzusunda keçirdiyi konfrans;
- Almaniya Xalq Universitetləri Birliyinin Beynəlxalq Əməkdaşlıq üzrə İnstitutunun "Yaşlıların təhsili" mövzusunda keçirilən konfrans;
- "Oxfam" Təşkilatının "Şəffaf büdcə" layihəsi çərçivəsində keçirdiyi konfrans;

- Gənclər, İdman və Turizm Nazirliyinin təşkil etdiyi "Ordudan tərxis olunan gənclər üçün sahibkarlıq və biznes treninq" kursunda mühazirəçi qismində;
- Beynəlxalq Əmək Təşkilatı və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanmış və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı tərəfindən təşkil olunmuş "Azərbaycanda Milli Məşğulluq Strategiyasının hazırlanması" mövzusunda keçirilmiş seminar;
- Azərbaycan Elmi-Tədqiqat Energetika və Enerjilayihə İnstitutunun nəzdində Enerjiyə Qənaət və Menecment Mərkəzində keçirilən seminar;
- Gənclər, İdman və Turizm Nazirliyinin Gənclərin Problemləri üzrə Elmi Araşdırmalar Mərkəzində "Gənclərin və gənc ailələrin mənzil problemləri və onların həlli yolları" mövzusunda keçirdiyi dəyirmi masa.

Mərkəzdə yeni informasiya texnologiyalarının tətbiqi istiqamətində görülən işlər çərçivəsində mövcud kompüterlər arasında əlaqə yaratmaq və onların internet şəbəkəsinə çıxışı üçün müasir şəbəkə sistemi qurulmuş və hər bir əməkdaş üçün fərdi elektron poçt ünvanı da yaradılmışdır.

Kitabxananın yenidən qurulması üçün yaradılan komissiya kitabxanada inventarlaşma aparmış, əməkdaşların elmi ədəbiyyatlarla təchizatı məsələsinin həlli istiqamətində müəyyən işlər, o cümlədən kitabxananı yeni elmi ədəbiyyatlarla zənginləşdirmək məqsədilə 2002-ci ilin sonunda Mərkəzin əməkdaşı Rusiyaya ezam olunaraq 200-ə yaxın və 2003-cü ilin sonunda isə 181 adda yeni iqtisadi ədəbiyyatın gətirilməsi, həmçinin Beynəlxalq Əmək Təşkilatı, Transparency Azerbaijan təşkilati və digər təşkilatlar və həmçinin ölkə iqtisadçı-alimləri tərəfindən hədiyyə olunan 100-ə yaxın yeni ədəbiyyatlar daxil olunması təmin edilmişdir. Eyni zamanda, Mərkəzin kitabxana fondunda mövcud olan kitabların kataloqlarının elektron variantı hazırlanmışdır.

➢ Tədris işləri:

- İqtisadi İslahatlar Mərkəzinin "Tədris şöbəsinin Əsasnaməsi"nin və ixtisasartırma kurslarının keçirilməsi qaydaları hazırlanmışdır;
- İqtisadi İnkişaf Nazirliyinin rayon bölmələrinin əməkdaşları üçün ixtisasartırma kurslarının təşkili ilə bağlı tədbirlər planı hazırlanmışdır;
- Hesabat dövründə Mərkəzin mütəxəssisləri tərəfindən ölkənin müxtəlif ali məktəblərindən Mərkəzə istehsalat və elmi-tədqiqat təcrübəsinə göndərilən 153 tələbəyə rəhbərlik həyata keçirilmişdir.

Mərkəzdə çalışan əməkdaşların ixtisaslarının daha da təkmilləşdirilməsi istiqamətində də müvafiq işlər görülmüşdür. Belə ki, əməkdaşlar üçün kompüter və ingilis dili kursları təşkil olunmuş və 20-dən çox əməkdaş bu kurslarda iştirak etmişdir. Qeyd olunan kurslardan əlavə olaraq, əməkdaşların aşağıdakı kurslarda iştirakı təmin edilmişdir:

- "Transparency Azerbaijan" Təşkilatı tərəfindən təşkil olunmuş "İşgüzar-etika" kursunda;
- Əmək və Sosial Münasibətlər Akademiyasının Bakı filialının təşkil etdiyi maliyyə kursunda;
- "Gənclərin nailiyyəti-Azərbaycan" Təşkilatının həyata keçirdiyi trenerlərin hazırlanması treninqində;

- Azərbaycan Dövlət İqtisad Universiteti və Açıq Cəmiyyət İnstitutunun Yardım Fondunun birgə təşkil etdiyi "Sosial sferanın iqtisadiyyatı" istiqaməti üzrə yay məktəblərində.
- Marketinq və ictimai əlaqələr:
- Respublikada praktiki yönümlü iqtisadi araşdırmalar bazarı təhlil edilmişdir;
- Mərkəzin uzunmüddətli, ortamüddətli və qısamüddətli marketinq proqramları hazırlanmışdır;
- Mərkəzin azərbaycan və ingilis dillərində bukletlər, informasiya vərəqələri hazırlanmış və həmçinin, təqdimat mərasimləri təşkil olunmuşdur.

Azərbaycanda fəaliyyət göstərən xarici dövlətlərin səfirlikləri, beynəlxalq təşkilatlar və transmilli şirkətlərin nümayəndələri ilə 60-a yaxın görüşlər təşkil olunmuş və bu görüşlərdə beynəlxalq əməkdaşlığın əsas istiqamətləri müəyyənləşdirilmiş və birgə layihə və proqramlarda iştirak etmək nəzərdə tutulmuşdur. Bununla yanaşı, Mərkəzin əməkdaşlarının potensialının gücləndirilməsi üçün xarici səfirliklər vasitəsilə həmin dövlətlərdə təşkil olunacaq ixtisasartırma kurslarında onların iştirak etmələri üzrə ilkin razılıqlar əldə edilmişdir.

İqtisadi İslahatlar Mərkəzinin müsbət imicinin formalaşması üçün kütləvi informasiya vasitələri ilə müvafiq işlər görülmüşdür;

Bakı şəhərində 2003-cü il 07-09 may tarixində keçirilmiş "Beynəlxalq İnvestisiya Konfransı"nın layihələrinin elektron məlumat bazasının hazırlanması Mərkəzin "Marketinq və ictimai əlaqələr" şöbəsi tərəfindən təmin edilmişdir.

İqtisadi İslahatlar Mərkəzinin internet şəbəkəsində www.cer.az adlı sayt yaradılmış və müxtəlif axtarış sistemlərində yerləşdirilmişdir. Burada:

- Mərkəz haqqında əsas informasiyanın yerləşdirilməsi təmin edilmişdir;
- Beynəlxalq donor təşkilatları ilə münasibətlər qurulmuş və müxtəlif qrant proqramlarına müvafiq sənədlər hazırlanmış və təqdim olunmuşdur;
- Xarici ölkələrdə analoji qurumların mütərəqqi iş təcrübəsi təhlil edilmiş və Azərbaycana tətbiqi imkanları öyrənilmişdir;
- İqtisadi İslahatlar Mərkəzi – Elmi Tədqiqat İqtisadiyyat İnstitutunun 2004-cü ildə keçiriləcək 40 illik yubileyinə ilkin hazırlıq işləri görülmüşdür.

➢ İctimai işlər:

Mərkəzdə çalışan ziyalı, proqressiv və müasir şüurlu gənclər tərəfindən "Yeni iqtisadçılar nəsli" Gənclər Təşkilatı təsis edilmiş və həmin təşkilat aşağıdakı işləri gürmüşdür:

Gənclər, İdman və Turizm Nazirliyinin Gənclər Problemləri üzrə Elmi-Araşdırmalar Mərkəzi ilə birgə "Milli iqtisadiyyat və müasir gənclik" mövzusunda, "Gənc qadınların işsizlik problemi" və "Gənclərin miqrasiyasının milli iqtisadiyyata təsiri" mövzularında Dəyirmi Masalar keçirmişdir;

Təşkilatın üzvləri CRS və USAİD humanitar təşkilatları tərəfindən maliyyələşdirilən Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafı Proqramı çərçivəsində, "Azərbaycanda aztəminatlı təbəqələrin bazardan bərabərhüquqlu istifadə etmək imkanlarının təmin edilməsi" mövzusunda "İctimaiyyətin məlumatlandırılması və vəkillik" kompaniyasını həyata keçirmək üçün yaradılmış QHT Koalisiyasında iştirak və həmçinin Almaniya Xalq Universitetləri Birliyinin Beynəlxalq Əməkdaşlıq İnstitutu (İİZ/DVV) tərəfindən maliyyələşdirilən

"Azərbaycanda yaşlıların təhsili problemi üzrə mövcud situasiyanın (tələbatların) öyrənilməsi məqsədilə tədqiqat işinin aparılması" mövzusunda layihədə iştirak etmişlər.

Təşkilatın 2 nəfər üzvü 2003-cü il 21 sentyabr tarixində Ukrayna Respublikasının paytaxtı Kiyev şəhərində təşkil olunan "XXI əsrin gəncləri: reallıqlar və perspektivlər" mövzusunda keçirilən gənclərin regional forumda iştirak etmişlər.

2003-cü ildə Mərkəzin Həmkarlar İttifaqı Təşkilatının da fəaliyyəti canlandırılmış və həmin Təşkilat tərəfindən aşağıdakı işlər görülmüşdür:

- Mərkəzdə əməkdaşlar arasında bir sıra ictimai tədbirlər, o cümlədən nərd və futbol yarışları keçirilmiş və yarışların qalibləri müxtəlif həvəsləndirici mükafatlarla təltif edilmişlər;
- Mərkəzin əməkdaşları Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Komitəsinin təşkil etdiyi şahmat yarışlarında iştirak etmişlər;
- Həmkarlar İttifaqı Komitəsinin təşəbbüsü ilə Mərkəzin yeməkxanası tam təmir olunmuş və zəruri müasir avadanlıqla, o cümlədən mebel, soyuducular, elektrik cihazları və s. təchiz edilmişdir. Burada əməkdaşlara isti yeməklərin aşağı qiymətlərlə verilməsi təmin olunmuşdur.

Görülmüş və görülməsi nəzərdə tutulan işlər Mərkəzdə yüksək ruh yüksəkliyini şərtləndirmiş və 2 oktyabr tarixini hər il Mərkəz günü kimi qeyd edilməsi qərara alınmışdır. Təsadüfi deyildir ki, Mərkəz özü üçün "Biz Azərbaycanın böyük gələcəyinə inanırıq!" şüarını seçmişdir.

2003-cü ildə i.e.n., b.e.i. Ağakərim Hacıyevin elmi redaktorluğu ilə "Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri" adlı elmi əsərlər toplusunun 19 ç.v. həcmində IV buraxılışı hazırlanıb nəşr edilmişdir. Bu topluda Mərkəzin iqtisadçı-alimlərinin, aspirantlarının, dissertantlarının və doktorantlarının elmi-tədqiqat işlərinin yekunları dərc olunmuşdur.



AZƏRBAYCAN RESPUBLİKASI
İQTİSADİ İNKİŞAF NAZİRLİYİ
İQTİSADİ İSLAHATLAR MƏRKƏZİ

AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

IV BURAXILIŞ

BAKI 2003



Azərbaycan Respublikası
İqtisadi İnkişaf Nazirliyi
İqtisadi İslahatlar Mərkəzinin
Elmi Şurasının qərarı əsasında çap olunur

Elmi redaktor: i.e.n., b.e.i. Hacıyev A. H.
Texniki redaktor: i.e.n. Rzaquliyev R. Ə.
Məsul icraçı: Bayramova S. V.
Korrektor: Məmmədova N.

Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. İqtisadi İslahatlar Mərkəzinin elmi əsərlər toplusu, IV buraxılış – Bakı, 2003

ISBN 9952-29-024-1

© İqtisadi İslahatlar Mərkəzi, 2003



MÜNDƏRİCAT

GİRİŞ .................................................. 3
I. İQTİSADİ İSLAHATLARIN PROBLEMLƏRİ VƏ XÜSUSİYYƏTLƏRİ
II. GƏNC İQTİSADÇILARIN TƏDQİQATLARI



III. ÖLKƏNİN DİGƏR ELMİ TƏŞKİLATLARI VƏ İDARƏETMƏ STRUKTURLARI ƏMƏKDAŞLARININ TƏDQİQATLARI

Bundan başqa, Mərkəzin əməkdaşları müxtəlif konfransların, simpoziumların işində iştirak edərək elmi məlumatlarla çıxış etmiş və orada onların 100-dən çox məqalə və tezisləri nəşr olunmuşdur.

Həmin ildə İqtisadi İslahatlar Mərkəzində aspiranturaya 10 aspirant qəbul olunmuşdur. Mərkəzin rəhbərliyi tərəfindən aspirantlar üçün kompüter avadanlıqları ilə təmin olunmuş xüsusi otaq ayrılmış, yəni elmi işlər və dissertasiyalar üzərində işləmək üçün əlverişli şərait yaradılmışdır. 2004-cü il 01 yanvar tarixinə İqtisadi İslahatlar Mərkəzində 8 doktorant, 18 dissertant və 23 aspirant təhsil alırdı. Həmin ildə Mərkəzin aspirant və dissertantlarından 6 nəfərin namizədlik dissertasiyasının ilkin müzakirəsinin keçirilməsi, eyni zamanda Mərkəzdə 6 namizədlik və 1 doktorluq dissertasiyasına aparıcı təşkilat kimi və bir çox dissertasiyaların avtoreferatlarına Mərkəzin iqtisadçı-alimləri tərəfindən rəylərin verilməsi təmin olunmuşdur;

**2004-cü ildə** İqtisadi İslahatlar Mərkəzinin işinin müasir tələblərə uyğunlaşdırılması istiqamətində tədbirlər davam etdirilmişdir. Belə ki, 2004-cü ilin əvvəlində İİM-in İş Planı İqtisadi İnkişaf Nazirliyinin əlaqədar strukturları ilə razılaşdırılaraq İİM-in Elmi Şurasında təsdiq olunmuş və ilin əvvəlindən etibarən bütün işlər bu plana uyğun olaraq təşkil edilmişdir.

2004-cü ildə İİM İş Planına müvafiq olaraq fəaliyyətini elmi-tədqiqat, analitik təhlil, elmi-təşkilati, tədris, marketinq və ictimai əlaqələr, elmi katiblik və maliyyə-təsərrüfat istiqamətləri üzrə müəyyənləşdirmişdir.

Həmin il İİM-in İş Planından əlavə olaraq, Azərbaycan Respublikasının Dövlət büdcəsində "İqtisadi islahatların həyata keçirilməsi ilə bağlı xərclər" maddəsi üzrə keçirilən müsabiqəyə elmi-tədqiqat mövzuları təqdim edilmiş və müsabiqənin nəticələrinə görə iki elmi-tədqiqat işi yerinə yetirilmiş və ölkə iqtisadiyyatında baş verən inkişaf meyillərini əks etdirən analitik-təhlil bülletenləri (rüblər üzrə) hazırlanmışdır.

Qeyd olunanlarla yanaşı cari ildə nazirlik və digər dövlət orqanlarının tapşırıqları əsasında müxtəlif analitik materiallar hazırlanmış və aidiyyəti üzrə təqdim edilmişdir.

İİM-in İş Planı üzrə hökumətə qısa və ortamüddətli makroiqtisadi proqnozlaşdırma aparmağa, ayrı-ayrı iqtisadi siyasət tədbirlərinin iqtisadiyyatın müxtəlif sektorlarına, məşğulluğa və yaşayış səviyyəsinə təsirlərini təhlil etməyə imkan verən və həmçinin, hökumət tərəfindən makroiqtisadi və struktur siyasətlərinin formalaşdırılması, hər il Dövlət büdcəsi ilə birlikdə parlamentə təqdim edilən ortamüddətli dövr üçün makroiqtisadi proqnozların hazırlanması, sosial-iqtisadi inkişafla əlaqədar hazırda həyata keçirilən müxtəlif dövlət proqramlarının, yoxsulluğun azaldılması üzrə sonrakı illər üçün növbəti milli strategiyanın hazırlanması kimi məqsədlər üçün istifadə olunmasını nəzərdə tutan və tamamlanması 2005-ci ilin sonuna planlaşdırılan "Azərbaycan Respublikası üçün makroiqtisadi təhlil və proqnozlaşdırma modellərinin işlənilməsi" istiqamətində aşağıdakı elmi-tədqiqat işləri yerinə yetirilmişdir:

Problem. Azərbaycan Respublikası üçün makroiqtisadi təhlil və proqnozlaşdırma modellərinin işlənilməsi (məsul icraçı: f.-r.e.n., b.e.i.Rövşən Quliyev). Mövzu 1.1. Makroiqtisadi indikatorlar sisteminin və onlar arasında əlaqələrin formalaşdırılması(məsul icraçı: f.-r.e.n., b.e.i. Rövşən Quliyev).

Tədqiqat işində makroiqtisadi indikatorlar arasında əlaqələrin tapılmasının metodoloji əsaslarının şərhi verilmiş, burada nəzəri biliklər və dünya təcrübəsi öz əksini tapmışdır. İşdə Azərbaycanda əmtəə və xidmətlər bazarının, pul bazarının, kapital bazarının, əmək bazarının və xarici iqtisadi ticarətin təklif və tələb modelləri təsvir olunmuş, Azərbaycan iqtisadiyyatını əks etdirən və Milli Hesablar Sisteminin tərkib hissəsi olan əsas indikatorlar arasında əlaqələri formalaşdıran bərabərliklər sisteminin şərhi verilmişdir. İşdə bir tərəfdən iqtisadi inkişafın təmin edilməsi, digər tərəfdən isə statistika işinin təkmilləşdirilməsi sahəsində tövsiyələr irəli sürülmüşdür.

Mövzu 1.2. Əmtəə və xidmətlər bazarının təhlili və proqnozlaşdırılması modellərinin işlənilməsi (məsul icraçı: f.-r.e.n., b.e.i. Rövşən Quliyev). Tədqiqat işində əmtəə və xidmətlər bazarında istifadə olunan makroiqtisadi riyazi modellərin elmi-metodoloji əsaslandırılması aparılmış və tədqiqatda istifadə olunan modellərin optimallığı qeyd edilmiş, həmçinin rifah bazarının ölkədə qurulması məqsədəuyğun hesab edilən modellərin geniş elmi və praktiki əsaslandırılması öz əksini tapmış, iqtisadi riyazi modellərin işlənilməsində istifadə olunan informasiya bazaları qeyd edilmiş və istifadə olunan rəqəm məlumatları cədvəl halında ümumiləşdirilmişdir. İşdə əmtəə və xidmətlər bazarının məcmu tələb modelinin istehlak xərcləri, investisiya və xalis ixracdan asılı funksiyası qurulmuşdur və burada investisiya ilə xalis ixrac parametrləri modelə ekzogen (kapital bazarının və xarici iqtisadi fəaliyyət sektorunun modellərinin nəticələri əsasında), istehlak funksiyası isə endogen parametr kimi daxil edilmiş və hesablanmışdır. Əmtəə və xidmətlər bazarının məcmu təklif modeli Kobb-Duqlas istehsal funksiyasının bazasında qurulmuş və bu funksiya ölkədəki əsas fondların dəyərindən, məşğul əhalinin sayından və elmi-texniki tərəqqidən asılı bir funksiya kimi götürülmüşdür. Aparılan tədqiqat prosesində alınmış nəticələr ümumiləşdirilmiş, istənilən məcmu tələb və təklif modelləri əsasında alınmış son tarazlıq modeli, həmçinin bu tarazlıq modeli əsasında bir indikatorun digərləri ilə əvəz edilməsi yolu ilə tapılması və proqnoz edilməsi imkanları qiymətləndirilmişdir. İşdə həm tələb, həm təklif üzrə adekvat riyazi modellərin alınması prosesində "E-VIEWS 4.1" elektron proqram paketində işlənilmiş və kompüter eksperimentləri

vasitəsilə aprobasiya olunmuş digər modellər və onları xarakterizə edən meyar göstəriciləri, izahlı lüğət və qısa lüğət verilmişdir.

Mövzu 1.3. Pul bazarının təhlili və proqnozlaşdırılması modellərinin işlənilməsi (məsul icraçı: f.-r.e.n., b.e.i. Rövşən Quliyev). Tədqiqat işində makroiqtisadi riyazi modellərin elmi metodoloji əsaslandırılması aparılmış, pul bazarında istifadə olunan terminlərin və indikatorların izahı və təsnifatı verilmiş, həmçinin bu istiqamətdə işlənmiş nəzəri modellər öz əksini tapmış, iqtisadi-riyazi modellərin işlənməsində istifadə olunan informasiya bazası təqdim edilmiş, tədqiqatın informasiya bazasının əsasən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin statistik göstəriciləri, Milli Bankın (indiki Mərkəzi Bankın) rüblük bülletenlərindən götürülən məlumatlar təşkil etmişdir. Tədqiqatda E-Views ixtisaslaşmış elektron proqram paketinin tətbiqi ilə qurulmuş Azərbaycanın pul bazarının tələb modeli və onun şərhi öz əksini tapmışdır. Aparılan tədqiqat prosesində alınmış nəticələr ümumiləşdirilmiş, həmçinin Azərbaycan Respublikasında pula tələbin idarə edilməsi və qarşılanması ilə bağlı təkliflər irəli sürülmüş, müqayisə məqsədilə pula tələb üzrə riyazi modelin son variantının alınması prosesində alınmış digər modellər və onları xarakterizə edən meyar göstəriciləri təqdim edilmişdir.

Mövzu 1.4. Kapital bazarının təhlili və proqnozlaşdırılması modellərinin işlənilməsi (məsul icraçı: f.-r.e.n., b.e.i. Rövşən Quliyev). Elmi işdə makroiqtisadi riyazi modellərin elmi metodoloji əsaslandırılması verilmiş, burada Almaniya, Yaponiya, Ukrayna və Rusiya təcrübəsindən istifadə olunmuş, həmçinin klassik və müasir iqtisadi nəzəriyyə məktəblərinin elmi yanaşmaları əsas götürülmüşdür. İqtisadi riyazi modellərin işlənməsində əsas etibarilə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin və Milli Bankın (indiki Mərkəzi Bankın) statistik məcmuələrindən istifadə olunan məlumatlar informasiya bazalarını təşkil etmişdir. Elmi işdə kapital bazarı üzrə tələb və təklif modelləri və onların qiymətləndirmə meyarları üzrə göstəricilər sistemi yer almış və hər model üzrə istifadə olunan parametrlərin izahı verilmiş, işlənilən tələb və təklif modelləri əsasında alınmış son tarazlıq modeli və həmin model üzrə tarazlıq nöqtələrini göstərən qrafik təsvir olunmuşdur. Aparılan tədqiqat prosesində alınmış nəticələr əsasında Azərbaycan Respublikasının investisiyaya tələbi və investisiya təklifinin idarə edilməsi ilə bağlı təkliflər irəli sürülmüş, hesabatda qısa lüğət, həmçinin həm tələb, həm təklif üzrə adekvat riyazi modellərin alınması prosesində "E-VİEWS" elektron proqram paketində işlənilmiş və kompüter eksperimentləri vasitəsilə aprobasiya olunmuş digər modellər və onları xarakterizə edən meyar göstəriciləri verilmişdir.

Mövzu 1.5. Əmək bazarının təhlili və proqnozlaşdırılması modellərinin işlənilməsi (məsul icraçı: f.-r.e.n., b.e.i. Rövşən Quliyev). İşdə makroiqtisadi riyazi modellərin elmi metodoloji əsaslandırılması aparılmış, iqtisadi riyazi modellərin işlənməsində istifadə olunan informasiya bazası təhlil olunmuş, əmək bazarı üzrə tələb və təklif modelləri və onların qiymətləndirmə meyarlarının şərhi verilmiş, aparılan tədqiqat prosesində Azərbaycan Respublikasının əməyə olan tələbi (məşğulluq) və əmək təklifinin (iqtisadi fəal əhali) idarə edilməsi ilə bağlı təkliflər irəli sürülmüşdür.

Mövzu 1.6. Xarici iqtisadi əlaqələrin təhlili və proqnozlaşdırılması modellərinin işlənilməsi (məsul icraçı: f.-r.e.n., b.e.i. Rövşən Quliyev). Xarici iqtisadi əlaqələrin makroiqtisadi modelləri elmi və metodoloji cəhətdən əsaslandırılmış və ümumiləşdirilmiş, əmtəə və xidmətlərin ixracı və idxalı üzrə tələb və təklif modellərinin qurulması və

qiymətləndirilməsi verilmişdir. Aparılan tədqiqat prosesinin yekununda Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin proqnozlaşdırılması modelləri göstərilmişdir. Bu elmi işdə xarici iqtisadi əlaqələrin müvafiq olaraq ixrac və idxalın tələb və təklif funksiyalarının adekvat riyazi modellərinin alınması prosesi "E-VİEWS" elektron proqram paketinin köməyi ilə işlənilmiş və kompüter hesablamaları vasitəsilə aprobasiya olunmuş digər modellər və onları xarakterizə edən meyar göstəriciləri verilmişdir.

Mövzu 2. Rayonlar üçün elektron sosial-iqtisadi inkişaf pasportunun layihəsinin hazırlanması (məsul icraçı: i.e.n. Bağış Əhmədov). Tədqiqat işinin məqsədi rayonun sosial-iqtisadi inkişaf səviyyəsini qiymətləndirməyə imkan verən məlumatları əks etdirən rayonlar üçün elektron sosial-iqtisadi inkişaf pasportunun layihəsinin hazırlanması olmuşdur. Tədqiqat işi rayonun sosial-iqtisadi inkişafının nəticələrini əks etdirən, onun əmək, istehsal, təbii və s. potensialını qiymətləndirməyə imkan verən məlumatların əks olunduğu müxtəlif cədvəllərdən ibarətdir. Tədqiqat işinin nəticələri rayonun sosial-iqtisadi inkişaf səviyyəsini və dinamikasını qiymətləndirmək və monitorinqini aparmaq üçün zəruri məlumatların toplanmasında istifadə oluna bilər.

Mövzu 3. Azərbaycan Respublikasında aparılan struktur islahatlarının analitik təhlili və sosial-iqtisadi nəticələrinin qiymətləndirilməsi(məsul icraçı:t.e.n., b.e.i. Ağakərim Hacıyev). Milli valyuta sistemi, valyuta münasibətləri və valyuta mexanizmlərinin fəaliyyətində milli valyuta sistemlərinin strukturu və fəaliyyət mexanizmlərinin təhlilinə, ümumi monetar siyasətin iki əsas tərkib elementi olan pul-kredit və valyuta siyasətlərinin əlaqələndirilmə xüsusiyyətləri öyrənilmişdir. Tədqiqat işində Şərqi Avropa, Baltikyanı və MDB məkanı ölkələrində formalaşdırılan və reallaşdırılan valyuta siyasətinin məqsəd və vəzifələri, əsas istiqamətləri və xüsusiyyətləri təhlil olunmuşdur. Azərbaycanda valyuta siyasətinin əsas səmərəlilik göstəricilərinin təhlilində milli valyuta, manatın alıcılıq qabiliyyəti pariteti səviyyəsi, real və nominal effektiv mübadilə məzənnələri, nisbi qiymətlər səviyyəsi və manatın dayanıqlıq səviyyəsi, ölkədə aparılan struktur islahatlarından asılı olaraq təhlil olunmuşdur.

Mövzu 4. Azərbaycan Respublikasında müəssisələrarası borclar (qarşılıqlı ödəməmələr) probleminin aradan qaldırılması yollarının öyrənilməsi (məsul icraçı: i.e.n. Bağış Əhmədov). Tədqiqat işində qarşılıqlı borclar və onların ödəməmələrə çevrilməsi məsələlərinə baxılmışdır. Belə ki, qarşılıqlı borcların yaranmasına səbəb olan müəssisələrin öhdəliklərini yerinə yetirməməsi, kreditləşmə problemləri, iqtisadiyyatın aşağı monetarizasiya səviyyəsinə malik olması, monetar və büdcə-vergi amillərinin geniş təhlili aparılmışdır. Belə qənaətə gəlinmişdir ki, yüksək inflyasiya qarşılıqlı borcların formalaşmasına zəmin yaratmış, həmçinin iqtisadi əlaqələrin məhdudlaşması, maliyyə resurlarının cəlb edilməsi problemləri, vergi yükünün ağırlığı, büdcə kəsiri, müəssisələrdə istehsalın texniki-iqtisadi səviyyəsinin aşağı olması, onların bazar münasibətlərinin tələblərinə uyğunlaşmasındakı yaranan problemlər və s. qarşılıqlı borcların yığılıb qalmasına və onların ödəməmələrə çevrilməsinə səbəb olmuşdur. Müəssisələrarası qarşılıqlı borcların mövcud vəziyyətinin təhlili bölməsində xüsusilə yanacaq-enerji sektorunda mövcud olan sistemdaxili borclar, eləcə də müəssisələrin vergi borlarının ümumi səviyyəsi verilmişdir. Müəyyən edilmişdir ki, qarşılıqlı borcların əsas hissəsi dövlət sektorunun payına düşür. Bu baxımdan mövcud borclar mülkiyyət formaları üzrə qruplaşdırılmış, vergi borclarında dövlət müəssisələrinin, qeyri-dövlət müəssisələrinin və fiziki

şəxslərin xüsusi çəkisi göstərilmişdir. Xüsusilə, bütövlükdə dövlət sektorunda vergi borclarının artmasına təsir edən amillərin ətraflı təhlili aparılmışdır.

Tədqiqat işində qarşılıqlı ödəməmələrin aradan qaldırılması yolları təklif edilmişdir. Belə ki, Azərbaycanda qarşılıqlı borcların həm yaranma səbəbləri və həm də mövcud vəziyyəti belə qənaətə gəlməyə imkan vermişdir ki, qarşılıqlı ödəməmələrin aradan qaldırılması üçün ilk növbədə, müəssisələrin maliyyə vəziyyətinin yaxşılaşdırılmasına nail olunmalıdır. Bu məqsədlə qarşılıqlı borc sisteminə daxil olan müəssisələr maliyyə vəziyyətlərinə görə qruplaşdırılmalı və sonra onların maliyyə vəziyyətinin sağlamlaşdırılması tədbirləri həyata keçirilməlidir. Bununla əlaqədar olaraq vergi borclarına görə vergi intizamının yaxşılaşdırılması, müəssisələrin borc vəsaitlərini cəlb etmək imkanlarının artırılması və iflas haqqında qanunun tələblərinə riayət edilməsi təklif edilmişdir. Bununla yanaşı müəssisələrarası maliyyə və borc münasibətlərini tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilməsi də işdə tövsiyə edilmişdir.

Mövzu 5. Azərbaycan Respublikasında rəqabət mühitinin analitik təhlili (məsul icraçı: i.e.n., dos. Nazim Özbəy oğlu Hacıyev). Tədqiqat işində ölkədə rəqabət mexanizminin və onun dövlət müdafiəsi sisteminin ilk növbədə qanunvericilik mexanizminin yaradılması istiqamətində görülmüş məsələlər açıqlanır. Burada həmçinin hüquqi şəxslər və onların vəzifəli şəxslərinin antiinhisar qanunvericiliyinin pozulmasına görə nəzərdə tutulmuş konkret məsuliyyət formaları, rəqabətin vəziyyətini və daxili bazarda iqtisadi təmərküzləşmənin səviyyəsini aydınlaşdırmaq məqsədi ilə əmtəə bazarlarının araşdırılması təcrübəsi və müxtəlif sövdələşmələrə və birləşmələrə nəzarət mexanizminin yaradılması, dövlət tənzimləmə funksiyalarının təsərrüfatçılıq fəaliyyətlərindən ayrılması sahəsində həyata keçirilmiş işlər, ədalətli rəqabətin qorunması məsələləri, rəqabət şərtlərinin möhkəmləndirilməsi və milli sahibkarların bu şərtlər daxilində hərəkət-davranış qabiliyyətlərinin formalaşması, daxili bazarda hökmran mövqedən sui-istifadə edən təsərrüfat subyektlərini, istehlakçıların qorunması, təbii inhisarların tənzimlənməsinin hüquqi bazası haqqında və onları tənzimləyən dövlət strukturları, ölkədə rəqabətin inkişafı və qorunması mexanizmi haqqında məlumat verilir. Bununla yanaşı rəqabət mexanizminin analitik araşdırma bazası, milli rəqabətin imkanları və üstünlükləri, yeni təsərrüfat subyektlərinin bazara giriş maneələri, daxili bazarda rəqabət üçün təhlükəli ola biləcək əsas birləşmələrin qarşısının alınması, informasiya bazasının genişləndirilməsi, təbii inhisarların fəaliyyətində zəruri şəffaflıq mühitinin yaradılması, onların xidmətlərinin tariflərinin səmərəli differensiyalaşdırılması, təbii inhisar sahəsində mövcud resursların istehlakçıların xidmətinə verilməsi yolları göstərilmiş və bu istiqamətdə əməli təkliflər verilmişdir.

Mövzu 6. Azərbaycan Respublikasında insan potensialının inkişafının monitorinqi üçün analitik-informasiya sisteminin işlənilməsi (məsul icraçı: i.e.n. Bağış Əhmədov). Tədqiqat işində insan potensialının inkişafının nəzəri aspektləri müəyyənləşdirilmiş, insan kapitalını və həyat səviyyəsini müəyyən edən amillər öyrənilmiş, bunların insan potensialının inkişafında rolu nəzəri cəhətdən əsaslandırılmış, insan potensialının inkişafı səviyyəsini xarakterizə edən göstəricilər sistemi və insan potensialının inkişafını müəyyən edən amillərin qiymətləndirilməsi üçün göstəricilər sistemi təklif edilmişdir.

2004-cü ildə ildə İş Planından əlavə olaraq, İİM-də Nazirlər Kabinetinin 2004-cü il 4 may tarixli 82 saylı Sərəncamına uyğun olaraq, 2004-cü il üçün Dövlət büdcəsinin "İqtisadi islahatların həyata keçirilməsi ilə bağlı xərclər" maddəsində nəzərdə tutulan vəsait hesabına

maliyyələşdirilən "Naxçıvan Muxtar Respublikası üçün regional inkişaf proqramının hazırlanması" və "Azərbaycan Respublikasının ixrac strukturunun təkmilləşdirilməsi üzrə ortamüddətli proqramın hazırlanması" mövzularında elmi-tədqiqatlar yerinə yetirilmiş, həmçinin "Azərbaycan iqtisadiyyatının inkişaf meyilləri və perspektivləri" adlı bülletenlər (rüblər üzrə) hazırlanmışdır.

Analitik-təhlil işləri üzrə vaxtaşırı ölkədə formalaşan iqtisadi durumun analitik təhlili və qiymətləndirilməsi, İqtisadi İnkişaf Nazirliyinin və digər dövlət orqanlarının tapşırıqları əsasında cari operativ-analitik təhlil işlərinin həyata keçirilməsi, dövrü mətbuatda gedən iqtisadiyyata aid materialların toplanması, monitorinqin aparılması və Mərkəzin daxili kompüter şəbəkəsində yerləşdirilməsi, kütləvi informasiya vasitələrində yayılmış iqtisadi məlumatların mütəmadi olaraq şərhinin təmin edilməsi işləri yerinə yetirilmişdir.

Elmi-təşkilati işlər üzrə 2004-cü il 28-29 aprel tarixlərində BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyası (UNESCAP) ilə birgə "Azərbaycanda yoxsulluğun azaldılması üçün həyata keçirilən gəlirlərin artırılması və məşğulluq səviyyəsinin yüksəldilməsi proqramları" mövzusunda Milli Seminar, 2004-cü il 03 may tarixində BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyası (UNESCAP) ilə birgə "Ticarətin asanlaşdırılması" mövzusunda Dəyirmi Masa, 2004-cü il 5-6 may tarixlərində BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyası (UNESCAP) ilə birgə "Ticarət maliyyəsi infrastrukturunun inkişafı" mövzusunda Milli Treninq-Seminar təşkil edilmişdir, Nobel mükafatı laueratı Cozef Stiqlitzin "Qloballaşma və onun doğurduğu narazılıqlar" adlı kitabı Azərbaycan dilinə tərcümə olunaraq nəşr olunmuşdur, iqtisadiyyat elminin və ölkə iqtisadiyyatının aktual problemlərinə dair mütəmadi olaraq metodoloji seminarlar təşkil edilmişdir.

Elmi Katiblik tərəfindən aşağıdakı işlər görülmüşdür:

- Elmi Şuranın keçirilən iclaslarında İİM-də yerinə yetirilən elmi-tədqiqat işlərinin mövzuları, İİM-in aspirant, dissertant və doktorantlarının dissertasiya mövzuları, İİM-in 40 illik yubileyinin qeyd olunmasına hazırlıq, "Elmi-redaksiya" heyətinin tərkibində dəyişikliklər, elmi əsərlər toplusunun V buraxılışının nəşri və s. bu kimi məsələlərin müzakirələri təşkil olunmuş və müvafiq qərarlar qəbul edilmişdir;
- Aspirantura və doktorantura üzrə təhsilin keyfiyyətinin yüksəldilməsi, dissertasiyaların müdafiəsi ilə əlaqədar problemlərin həlli istiqamətində müvafiq işlər görülmüşdür;
- 2004-cü ildə İİM-in əyani aspiranturasına ayrılmış 15 yer üzrə qəbul həyata keçirilmişdir. İİM-in aspiranturasına ayrılmış 15 yerə 22 nəfər sənədlərini təqdim etmiş və keçirilən imtahanların (ixtisas, xaricidil, fəlsəfə) nəticələrinə əsasən 15 nəfər qəbul edilmişdir. Aspiranturaya qəbul imtahanlarının şəffaf keçirilməsi (kütləvi informasiya vasitələrinin və ictimaiyyətin nümayəndələrinin cəlb olunması) cəmiyyət tərəfindən olduqca müsbət qarşılanmışdır;
- İİM-in aspirant və dissertantlarından 4 nəfərinin namizədlik dissertasiyası ilkin müzakirədən keçərək müvafiq Dissertasiya Şuralarına təqdim olunmuş, eyni zamanda, İİM tərəfindən 10 namizədlik və 4 doktorluq dissertasiya işlərinə aparıcı təşkilat kimi və bir çox dissertasiya işlərinin avtoreferatlarına İİM-in əməkdaşları tərəfindən müvafiq rəylərin verilməsi təmin olunmuşdur;
- İİM-in kitabxana fondu yeni elmi ədəbiyyatlarla zənginləşdirilmişdir.

2004-cü ildə İqtisadi İslahatlar Mərkəzinin elmi-redaksiya heyətinin sədri Rəhim Hüseyn oğlu Hüseynovun rəhbərliyi ilə "Azərbaycan Respublikasında iqtisadi islahatların xüsusiyyətləri və problemləri" elmi əsərlər toplusunun 30,6 ç.v. həcmində V buraxılışı nəşr edilmişdir.



AZƏRBAYCAN RESPUBLİKASI
İQTİSADİ İNKİŞAF NAZİRLİYİ
İQTİSADİ İSLAHATLAR MƏRKƏZİ

AZƏRBAYCAN RESPUBLİKASINDA İQTİSADİ İNKİŞAFIN XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

V BURAXILIŞ

BAKI - 2004



Azərbaycan Respublikası
İqtisadi İnkişaf Nazirliyi
İqtisadi İslahatlar Mərkəzinin Elmi Şurasının
qərarı əsasında çap olunur

Elmi-redaksiya heyəti:

R.H.Hüseynov *(sədr)*, V.Ə.Rüstəmov *(müavin)*,
A.A.Nadirov, V.T.Novruzov, İ.V.Əlibəyov, R.M.Cəbiyev,
İ.H.İbrahimov, A.H.Hacıyev, N.Ö.Hacıyev,
R.H.Dəyiyev *(məsul katib)*.

Azərbaycan Respublikasında iqtisadi inkişafın xüsusiyyətləri və problemləri. *Elmi əsərlər toplusu, V buraxılış. Bakı, "Elm" nəşriyyatı, 2004, 490 s.*

ISBN 5-8066-1660-6

0605010407 / 655(07)-2004 *qrifli nəşr*

Əlaqə üçün məlumat:
İqtisadi İslahatlar Mərkəzi,
AZ1012, Azərbaycan Respublikası, Bakı şəhəri,
H. Zərdabi prospekti, 88a
Telefon: (+994 12) 430 01 70; faks: (+994 12) 430 03 06
Elektron poçt: office@cer.az
İnternet səhifəsi: http://www.cer.az

© İqtisadi İslahatlar Mərkəzi, 2004







Mərkəzin əməkdaşlarının 70-dən çox elmi məqalə və tezislərinin yerli və xarici jurnallarda dərc olunması ilə əlaqədar təşkilati yardım və İİM-in əməkdaşlarının ölkə və beynəlxalq səviyyəli elmi-praktiki konfrans, simpozium, seminar və digər elmi məclislərdə iştirakına təşkilati yardım göstərilmişdir.

2004-cü ildə İqtisadi İslahatlar Mərkəzində tədris işləri istiqamətində aşağıdakı işlər görülmüşdür:

- İqtisadi İnkişaf Nazirliyinin regional və yerli qurumlarının əməkdaşları üçün ixtisasartırma kurslarının təşkili ilə bağlı tədbirlər planı hazırlanmış və digər istiqamətlərdə ixtisasartırma kurslarının təşkili üzrə bütün zəruri işlər görülmüşdür;
- Azərbaycanda peşə-ixtisas sistemində kadr hazırlığının iqtisadi inkişafın tələblərinə uyğunlaşdırılması üzrə bir sıra tədbirlər keçirilmiş, o cümlədən bu məsələ ilə əlaqədar ictimai müzakirələr təşkil edilmişdir;
- Azərbaycan Respublikasında aspirantura və doktorantura təhsil sisteminin fəaliyyətinin daha da təkmilləşdirilməsinə dair təkliflər hazırlanaraq İqtisadi İnkişaf Nazirliyinin “Sosial siyasət” şöbəsinə təqdim edilmişdir;
- İqtisadi İnkişaf Nazirliyinin və Azərbaycan Marketinq Cəmiyyətinin nümayəndələrinin iştirakı və maliyyə və texniki dəstəyi ilə 2004-cü il 24-26 may tarixində regionlarda iş adamlarının müxtəlif istiqamətlərdə maarifləndirilməsi, o cümlədən idarəçilikdə novatorluğun təbliği, sahibkarlıq fəaliyyətində şəffaflıq və hökumətlə özəl sektor arasında dialoqun gücləndirilməsi istiqamətlərində Lənkəran şəhəri, Masallı və Cəlilabad rayonlarında “Sahibkarlığın inkişafında marketinqin rolu” mövzusunda seminar-treninqlər təşkil olunmuş və müvafiq mövzularda mühazirələr oxunmuşdur;
- Almaniya Xalq Universitetləri Birliyi Beynəlxalq Əməkdaşlıq İnstitutunun Azərbaycan nümayəndəliyi ilə birgə Azərbaycanda yaşlıların təhsili problemlərinə həsr olunmuş II milli konfrans təşkil edilmişdir;
- Açıq Cəmiyyət İnstitutu – Yardım Fondunun və Azərbaycan Marketinq Cəmiyyətinin yardımı ilə kadr hazırlığı ilə məşğul olan təhsil müəssisələrinin nümayəndələri üçün “Təhsil xidmətləri marketinqi” adlı kitab hazırlanmış, növbəti ildə bu mövzuda treninqlərin keçirilməsi planlaşdırılmışdır;
- Silahlı Qüvvələrin Hərbi Akademiyasının nəzdində fəaliyyət göstərən Strateji Tədqiqatlar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kurslarında iştirak edən yüksək vəzifəli dövlət məmurlarına Mərkəzin əməkdaşları tərəfindən “Qloballaşma və iqtisadi

inteqrasiyanın Azərbaycana təsiri" və "Azərbaycanın iqtisadi təhlükəsizlik strategiyası" mövzularında mühazirələrin oxunması təşkil edilmişdir;

- Ali təhsil müəssisələrindən göndərilən 182 tələbə və magistrantların İİM-də təcrübə keçmələri təşkil edilmişdir.

2004-cü ildə "Marketinq və İctimai əlaqələr" istiqamətində aşağıdakı işlər görülmüşdür:

- İqtisadi İslahatlar Mərkəzinin müsbət imicinin formalaşdırılması istiqamətində fəaliyyət davam etdirilmişdir;
- İqtisadi İslahatlar Mərkəzində "Biznes etika və mədəniyyət məcəlləsi"nin layihəsi işlənib hazırlanmışdır;
- kütləvi informasiya vasitələri ilə mütəmadi işlər aparılmış və həmçinin İİM-də təşkil olunan treninq-seminar, dəyirmi masa, metodoloji seminarların və digər elmi tədbirlərin ictimaiyyətə çatdırılması təmin edilmişdir;
- İİM-in internet saytı mütəmadi olaraq yeniləşdirilmişdir;
- Beynəlxalq donor təşkilatları ilə (ADB, UNCTAD, UNDP, USAID, UNESCAP) qurulmuş münasibətlər nəticəsində hazırlanmış və onlara təqdim olunmuş layihələrin reallaşması və bu əməkdaşlığın davam etdirilməsi istiqamətində işlərin gücləndirilməsi və digər qrant proqramlarına sənədlər hazırlanaraq təqdim edilmişdir;
- xarici ölkələrdə analoji qurumların mütərəqqi iş təcrübəsi öyrənilmiş və Azərbaycana tətbiqi imkanları araşdırılmışdır;
- 2004-cü il 18 fevral tarixində "Sumqayıt şəhərinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi imkanları" mövzusunda elmi-praktiki konfransın təşkilində məktub və dəvətnamələrin hazırlanması və göndərilməsi, medianın dəvət olunması, konfrans avadanlıqlarının alınması kimi işlər görülmüş və texniki dəstək göstərilmişdir;

2005-ci il 1 yanvar tarixinə İİM-də 69 nəfər əməkdaş çalışmış, onlardan 6 nəfər elmlər doktoru, 12 nəfər isə elmlər namizədi idi. Onların 5 nəfəri şöbə müdiri, 3 nəfəri baş elmi işçi, 11 nəfəri aparıcı elmi işçi, 4 nəfəri böyük elmi işçi, 4 nəfəri elmi işçi, 8 nəfəri kiçik elmi işçi, 16 nəfəri aparıcı mütəxəssis, 6 nəfəri mütəxəssis vəzifəsində işləmişlər. İİM-də 9 nəfər 0,5 ştat vahidi ilə çalışmışdır. İİM-də 2004-cü ildə 25 nəfər yeni işçi işə qəbul olunmuş, 16 nəfər isə öz xahişi ilə işdən azad olunmuşlar.

Maliyyə - təsərrüfat sahəsində aşağıdakı kimi əhəmiyyətli işlər yerinə yetirilmişdir:

- İİM-in internet şəbəkəsinə antenna vasitəsilə yüksək sürətlə qoşulması təmin edilmişdir;
- Əməkdaşların əmək haqlarının alınması sisteminin təkmilləşdirilməsi istiqamətində ötən il "Bank Standard" Kommersiya Bankı ilə bağlanan müqavilə bu il də qüvvədə olmuş, işçilər üçün əmək haqqı kartları yenilənmiş (istifadə müddəti bir il), yeni işə qəbul olunmuş əməkdaşlar üçün bankda şəxsi hesablar açılmışdır;
- Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyinin Elmi-Tədqiqat Tədris Mərkəzində çalışan İİM-in üç əməkdaşı üçün 3 (üç) yeni kompüter dəsti və zəruri məxaric materialları alınaraq onların istifadəsinə verilmiş, eləcə də Azərbaycan Beynəlxalq Bankında şəxsi hesab açılaraq onların əmək haqlarının xüsusi kartlar vasitəsi ilə alınması təmin olunmuşdur.
- 2004-cü ildə 9 ədəd yeni kompüter dəsti və digər zəruri avadanlıqlar alınmış və ehtiyacı olan əməkdaşların istifadəsinə verilmişdir.

2004-cü ilin noyabr ayında Rəhim Hüseyn oğlu Hüseynov öz xahişi ilə İİM-in direktor vəzifəsindən azad edilmiş, 2004-cü il noyabr ayının 24-də Vaqif Əli oğlu Rüstəmov İİM-in direktoru vəzifəsinə təyin edilmişdir.

## İqtisadi İslahatlar Mərkəzinin əməkdaşları
## (1994-2006-cı illər)







İQTİSADİ İNKİŞAF NAZİRLİYİ
İQTİSADİ İSLAHATLAR MƏRKƏZİ
2004 1 16



**2005-ci ildə** İqtisadi İslahatlar Mərkəzi öz fəaliyyətini ilin əvvəlində İqtisadi İnkişaf Nazirliyinin əlaqədar strukturları ilə razılaşdırılaraq Nazirliyin Kollegiyasının qərarı ilə təsdiq olunmuş İş Planına uyğun olaraq təşkil edilmişdir.

Bu ildə də Mərkəzdə "Azərbaycan Respublikası üçün makroiqtisadi təhlil və proqnozlaşdırma modellərinin işlənilməsi" problemi üzrə 2004-cü ildə başlanılmış tədqiqatlar davam etdirilmiş və 4 mövzu işlənilmişdir. Bununla yanaşı, İş planına uyğun olaraq əlavə 6 mövzu üzrə tədqiqatlar aparılmış və müvafiq hesabatlar hazırlanmışdır. Eyni zamanda, plandankənar layihələr və yuxarı təşkilatların tapşırıqları əsasında da bir sıra elmi-tədqiqat və analitik təhlil işləri yerinə yetirilmişdir.

2005-ci ildə "Azərbaycan Respublikası üçün makroiqtisadi təhlil və proqnozlaşdırma modellərinin işlənilməsi" problemi üzrə aşağıdakı mövzular üzrə elmi-tədqiqat işləri yerinə yetirilmişdir:

- "Sahibkarlıq sektorunun təhlili və proqnozlaşdırılması modellərinin işlənilməsi" (məsul icraçı: i.e.d. R.R.Quliyev). Bu işdə makroiqtisadi riyazi modellərin elmi metodoloji əsaslandırılmasında klassik və müasir iqtisadi nəzəriyyə məktəblərinin elmi yanaşmaları əsas götürülmüş, həmçinin bir sıra inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə olunmuşdur. İqtisadi riyazi modellərin işlənməsində istifadə olunan informasiya bazalarını internet resursları, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin və digər aidiyyəti rəsmi orqanların statistik mənbələri təşkil etmişdir. İşdə Azərbaycan Respublikasının sahibkarlıq sektoru üzrə maliyyə daxilolmalarının və bu sektordan maliyyə axınlarının müxtəlif parametrləri ilə bağlı ekonometrik modellər və onların şərhi verilmiş, habelə hər model üzrə meyar göstəriciləri sistemi yer almış, Azərbaycan Respublikasında sahibkarlıq sektorunun inkişafı, o cümlədən bu sahədə səmərəli dövlət tənzimləməsinin istiqamətləri ilə bağlı təkliflər irəli sürülmüşdür. İşdə qısa lüğət, həmçinin adekvat modellərin alınması prosesində "E-VIEWS" elektron proqram paketində işlənilmiş və kompüter eksperimentləri vasitəsilə aprobasiya olunmuş digər modellər və onları xarakterizə edən meyar göstəriciləri verilmişdir.
- "Dövlət sektorunun təhlili və proqnozlaşdırılması modellərinin işlənilməsi" (məsul icraçı i.e.d. Rövşən Quliyev) mövzusunda olan işdə makroiqtisadi riyazi modellərin elmi metodoloji əsasları təhlil edilmiş, dövlət sektorunda istifadə olunan bir sıra terminlərin və indikatorların izahı verilmiş, həmçinin bu istiqamətdə işlənilmiş nəzəri modellər öz əksini tapmış, iqtisadi riyazi-modellərin işlənməsində istifadə olunan informasiya bazası təqdim edilmişdir. Tədqiqatın informasiya bazasını əsasən Azərbaycan Respublikası Maliyyə, Vergilər və İqtisadi İnkişaf Nazirlikləri, Dövlət Sosial Müdafiə Fondu, həmçinin Dövlət Statistika Komitəsinin göstəriciləri təşkil etmişdir. Elmi işdə E-VIEWS ixtisaslaşmış elektron proqram zərfinin tətbiqi ilə qurulmuş Azərbaycan Respublikası dövlət sektorunun modelləri və onun şərhi öz əksini tapmış və dövlət sektorunun idarə edilməsi ilə bağlı təkliflər irəli sürülmüş, müqayisə məqsədilə dövlət sektoru üzrə riyazi modelin son variantına nail olunması prosesində alınmış digər modellər və onları xarakterizə edən meyar göstəriciləri təqdim edilmişdir.
- "Ev təsərrüfatları sektorunun təhlili və proqnozlaşdırılması modellərinin işlənilməsi" (məsul icraçı: i.e.d. R.R. Quliyev) işində ev təsərrüfatları sektorunun mahiyyəti açıqlanmış, bu sektorun iqtisadiyyatın dövlət, sahibkarlıq və "qalan dünya" kimi digər sektorları ilə maliyyə münasibətlərinin əsas istiqamətləri əks etdirilmişdir. İşdə, həmçinin ev təsərrüfatları sektorunun ümumi nəzəri tarazlıq modeli qurulmuş və bu modelin tərkib elementləri açıqlanmışdır. Burada

ev təsərrüfatları sektorunun əsas gəlir və xərc maddələrinin hansı indikatorlardan asılı modellərinin qurulmasının məqsədəuyğunluğu və bu modellərin ölkə iqtisadiyyatı üçün əhəmiyyəti də öz əksini tapmışdır. İqtisadi-riyazi modellərin işlənməsində istifadə olunan informasiya bazaları qeyd edilmiş və rəqəm məlumatları cədvəl halında ümumiləşdirilmiş, ev təsərrüfatları sektorunun müxtəlif gəlir maddələrinin bir sıra digər indikatorlardan asılı reqressiya modelləri qurulmuşdur. Belə ki, ev təsərrüfatı sektorunun məşğulluqdan və digər mənbələrdən gəlirlərini, əhalinin ümumi pul gəlirlərini ölkədə, o cümlədən dövlət və sahibkarlıq sektorunda yaradılan ümumi əlavə dəyərdən, ümumi daxili məhsuldan, məşğul əhalinin sayından və s. bu kimi indikatorlardan yüksək asılılığa malik adekvat və məntiqli modelləri qurulmuş, onların geniş şərhi verilmişdir. İşdə ev təsərrüfatları sektorunun iki əsas xərc maddəsinin (istehlak xərcləri, qiymətli kağızların alınması və əmanət qoyuluşlarının artımı) istehlak qiymətləri indeksindən, ev təsərrüfatı sektorunun pul gəlirlərindən, ölkədəki ümumi əmək haqqı fondundan nəzərə çarpacaq asılılığa malik modelləri də qurulmuş və onların ətraflı şərhi verilmiş, ev təsərrüfatları sektorunun gələcək inkişaf meyilləri qeyd edilmişdir. Tədqiqat işinin əlavəsində sektorun gəlir və xərc modelləri üzrə adekvat riyazi modellərin alınması prosesində "E-VIEWS" elektron proqram paketində işlənilmiş və kompüter eksperimentləri aparılaraq aprobasiya olunmuş nisbətən adekvat modellər və onları xarakterizə edən meyar göstəriciləri verilmişdir.

- "Xarici iqtisadi əlaqələr sektorunun təhlili və proqnozlaşdırılması modellərinin işlənilməsi"ndə (məsul icraçı i.e.d. R.R. Quliyev) Azərbaycan Respublikasında xarici iqtisadi əlaqələr sektorunun makroiqtisadi modellərinin qurulmasının nəzəri metodoloji əsasları müəyyənləşdirilmişdir. İşdə iqtisadi riyazi modellərin işlənməsində istifadə olunan informasiya bazaları göstərilmiş, mütərəqqi dünya təcrübəsi əsas götürülməklə Azərbaycan Respublikasında qalan dünyaya daxil olan və qalan dünyadan çıxan maliyyə axınlarının balans modeli verilmiş, xarici iqtisadi əlaqələr sektorunun müxtəlif göstəriciləri üzrə təhlil və proqnozlaşdırma modelləri təklif olunmuş, Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin proqnozlaşdırılması modelləri verilmişdir. İşin əlavəsində xarici iqtisadi əlaqələr sektoru üçün "E-VIEWS" elektron proqram paketinin köməyi ilə işlənilmiş digər modellər və onları xarakterizə edən meyar göstəriciləri verilmişdir.

- "Azərbaycan Respublikasında istehlakçıların hüquqlarının müdafiəsi sahəsində vəziyyətin təhlili" (məsul icraçı: i.e.n. Bağış Sabir oğlu Əhmədov) tədqiqat işində istehlakçı hüquqlarının müdafiəsinin nəzəri məsələləri, istehlakçı hüquqlarının mahiyyəti və onun müdafiəsini zəruri edən amillər araşdırılmış, bu sahədəki mövcud təcrübə öyrənilmiş, ölkədə istehlakçıların hüquqlarının müüdafiəsi sahəsində mövcud vəziyyət təhlil edilmiş, müdafiə mexanizminin təkmilləşdirilməsi məsələləri və mövcud qanunvericilik sisteminin və institutional mexanizmin təkmilləşdirilməsi istiqamətləri öyrənilmişdir. Verilən təklif və tövsiyələr ölkədə istehlakçıların hüquqlarının müdafiəsi probleminin həlli sahəsində müvafiq dövlət siyasətinin işlənib hazırlanmasında və elmi-tədqiqat işlərində istifadə olunması məsləhət görülmüşdür.

- "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarət-iqtisadi əlaqələrin gücləndirilməsinin potensial imkanlarının müəyyənləşdirilməsi" (məsul icraçı: Şövqi Quliyev) tədqiqat işində beynəlxalq ticarət nəzəriyyələrinin konseptual əsasları öyrənilərək ümumiləşdirilmiş, Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarət-

iqtisadi əlaqələrin gücləndirilməsinin potensial imkanları müəyyənləşdirilmiş, işin nəticələrinin Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında ticarət-iqtisadi əlaqələrin gücləndirilməsində istifadə olunması tövsiyə edilmişdir.

- "Azərbaycan Respublikasında auditor xidmətin formalaşması və inkişafı sahəsində vəziyyətin analitik təhlili" (məsul icraçı: i.e.n. Yaşar Məmmədov) tədqiqat işində Azərbaycanda auditin təşkili zərurəti və formalaşma mərhələləri, onun əsasları tədqiq edilmiş, sahənin mövcud institutional və normativ-hüquqi bazası konkretlik baxımından əks olunmuş, ölkədə auditor xidmətin mövcud inkişaf səviyyəsi sistemli şəkildə təhlil olunaraq qiymətləndirilmiş, auditin təşkili və tənzimlənməsi, inkişafı istiqamətində meydana çıxan problemlər, onların əsasları tədqiq olunaraq sistemləşdirilmiş, Azərbaycan Respublikasında auditin təşkili və tənzimlənməsi, onun normativ-hüquqi bazasının təkmilləşdirilməsi yolları konkretləşdirilmiş, bu xidmət sahəsinin perspektiv inkişafı müəyyənləşdirilmişdir. Tədqiqat işinin nəticələri ölkədə auditor xidmətin təşkili və təkmilləşdirilməsinə xidmət etməklə, bu xidmət sahəsinin müasir tələblər baxımından inkişafına, auditin nəzəri və praktik əsaslarının gücləndirilməsinə təsir göstərəcəkdir. Tədqiqatın nəticələrinin müvafiq dövlət idarəetmə orqanlarında, o cümlədən Auditorlar Palatasında, həmçinin, müvafiq ali təhsil müəssisələrinin bu sahədəki tədris kurslarında istifadə oluna bilər.

- "Azərbaycan Respublikasında rekreasiya potensialından səmərəli istifadə problemləri" (məsul icraçı: Elxan Sərxan oğlu İmanov). Elmi-tədqiqat işi Azərbaycanda rekreasiya potensialından istifadə dərəcəsinin qiymətləndirilməsinə, Respublikanın rekreasiya potensialı və onun yerləşdirilməsinə, Respublikanın kurort müəssisələri şəbəkəsinin müasir vəziyyətinin təhlilinə, inkişafı və yerləşdirilməsinə, son illər burada baş vermiş struktur dəyişikliklərinə həsr olunmuşdur. Azərbaycan Respublikasında rekreasiya potensialından səmərəli istifadənin inkişaf perspektivlərində respublikanın iqtisadi rayonlar üzrə kurort müəssisələri şəbəkəsinin inkişaf dinamikası təqdim edilməklə rekreasiya potensialından səmərəli istifadə olunması üçün təklif və tövsiyələr hazırlanmışdır. Elmi tədqiqat işinin nəticələri iqtisadi siyasət proqramları, ali məktəblərdə müvafiq kursların tədrisi üzrə proqramların hazırlanması zamanı və kurort, turizm problemləri ilə məşğul olan mütəxəssislər tərəfindən istifadə oluna bilər.

- "Azərbaycan Respublikasının təbii-iqtisadi potensialından (torpaq, su və s.) istifadə sahəsində mövcud vəziyyətin analitik təhlili" (məsul icraçı: i.e.n., b.e.i. Şamil Eyyub oğlu Yaqubov) tədqiqat işində Azərbaycan Respublikasının təbii-resurs potensialının müasir vəziyyətinin təhlili və qiymətləndirilməsində təbii resurslar və onların təsnifatları verilmiş, həmçinin onların iqtisadi qiymətləndirilməsinin metodları və yanaşmaları göstərilmişdir.

Azərbaycan Respublikasının təbii-iqtisadi potensialının müasir vəziyyətinin təhlili və qiymətləndirilməsində torpaq, su, kurort-rekreasiya və eləcə də faydalı qazıntı yataqları ehtiyatlarının müasir vəziyyəti və onlardan istifadə olunma səviyyəsi təhlil edilmiş, ölkənin təbii-iqtisadi potensialından səmərəli istifadə olunması istiqamətində bir sıra təkliflər verilmişdir.

Azərbaycan Respublikasının qeyri-neft sektorunda sənaye əhəmiyyətli təbii sərvətlərin iqtisadi qiymətləndirilməsi və onların istisması üçün investisiyaya tələbatın öyrənilməsi də tədqiqat işində verilmişdir.

Təbii sərvətlərin iqtisadi qiymətləndirilməsinin mahiyyətinə və xarakterik xüsusiyyətlərinə həsr olunmuş, təbii resursların iqtisadi qiymətləndirilməsi və onların təsərrüfat

sisteminə cəlb edilməsi baxımından investisiya tələbatının hesablanması məsələləri öyrənilmiş, ölkədə təbii sərvətlərdən istifadənin dövlət tənzimlənməsi məsələlərinə həsr olunmuşdur.

- "Kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması problemləri: mövcud vəziyyətin təhlili və bu sahədə siyasətin təkmilləşdirilməsi istiqamətləri" (məsul icraçı: Firdovsi Fikrət oğlu Rzayev) tədqiqat işində Azərbaycan Respublikasında kadr hazırlığı sisteminin institutional strukturu və kadr hazırlığının istiqamətləri, ölkədə kadr hazırlığı sisteminin institutional strukturu (texniki-peşə və orta ixtisas təhsili sistemi, ali təhsil sistemi, yaşlıların peşə təhsili (əlavə təhsil) sistemi və həmçinin, ölkədə həyata keçirilən kadr hazırlığının istiqamətləri haqqında məlumat verilmiş, ölkədə kadr hazırlığının mövcud xüsusiyyətləri, kadr hazırlığının əmək bazarının tələblərinə uyğunluğu səviyyəsi və təhsil müəssisələrinin işəgötürənlərlə əməkdaşlığı sahəsindəki mövcud vəziyyət təhlil olunaraq qiymətləndirilmişdir. Azərbaycan Respublikasında müasir dövrdə həyata keçirilən sosial-iqtisadi inkişaf proqramlarının kadr hazırlığı siyasəti baxımından şərhi verilir və kadr hazırlığı prosesinin dövlət tənzimlənməsi sisteminin xüsusiyyətləri aşkarlanmışdır. Tədqiqat işinin nəticələrindən ölkədə həyata keçirilən təhsil və məşğulluq siyasətinin, o cümlədən bu sahədə normativ-hüquqi aktların hazırlanmasında ümumiyyətlə, sosial-iqtisadi inkişafın davamlılığı ilə bağlı sənədlərin hazırlanmasında istifadə edilməsi tövsiyə olunmuşdur.

Layihə 1. "Gəncə-Qazax iqtisadi rayonunun kompleks sosial-iqtisadi inkişaf proqramının layihəsinin hazırlanması" (məsul icraçı: i.e.n. Bağış Sabir oğlu Əhmədov). Tədqiqat işində Gəncə-Qazax iqtisadi rayonunun təbii-coğrafi mövqeyi, inzibati və idarəetmə quruluşu, ekoloji vəziyyəti, demoqrafik vəziyyəti və əmək ehtiyatları ilə təmin olunma səviyyəsi, məşğulluq və əhalinin həyat səviyyəsinin şərhi, bu iqtisadi rayonun mövcud sosial-iqtisadi vəziyyəti, iqtisadiyyatın ayrı-ayrı sahələrinin potensial imkanları və inkişaf səviyyələri təhlil olunmuş və qiymətləndirilmişdir. Burada İqtisadi İslahatlar Mərkəzinin mütəxəssisləri tərəfindən regionda aparılmış müşahidələrin, yerli idarəetmə orqanlarının məsul şəxsləri və mütəxəssisləri ilə təşkil edilmiş görüşlərin nəticələri və toplanılmış məlumatlar əsasında hesablamalar, analitik təhlillər və ekspert qiymətləndirmələri əsasında Gəncə-Qazax regionunun kompleks sosial-iqtisadi inkişaf proqramının layihəsi hazırlanmış, ayrı-ayrı sahələrin inkişaf istiqamətlərinə uyğun və müəyyən problemlərin həllinə yönəlmiş konkret təkliflər, iqtisadi rayonda müvafiq inkişafa nail olmaq üçün həyata keçirilməsi zəruri olan konkret tədbirlər öz əksini tapmışdır. Bu tədbirlərin həyata keçirilməsi ölkədə aparılan iqtisadi islahatların sürətlənməsinə təkan verməsinə və Gəncə-Qazax iqtisadi rayonunun sosial-iqtisadi inkişafına müsbət təsirini göstərə bilər.

Layihə 2. "Azərbaycan Respublikasında təbii inhisar fəaliyyətin tənzimlənməsi ilə əlaqədar normativ-hüquqi bazanın monitorinqi və onun təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələrin hazırlanması" (məsul icraçı: i.e.n. Yaşar Məmmədov). Layihə işində təbii inhisarların formalaşma xüsusiyyətləri, onların dövlət tənzimlənməsinin əsasları və fəaliyyətini şərtləndirən səbəblər, təbii inhisarların inkişafına nəzəri və praktik baxışlar, tariflərin (qiymətlərin) yaranmasındakı müasir təcrübə tədqiq olunmuş, təbii inhisarların tənzimlənməsi sahəsində beynəlxalq təcrübə araşdırılmış, bu istiqamətdə bazar münasibətləri şəraitində inkişaf etmiş və inkişaf etməkdə olan, o cümlədən MDB ölkələrinin təcrübəsinə diqqət yetirilmiş, Azərbaycan Respublikasında təbii inhisarların tənzimlənməsini təmin edən normativ-hüquqi aktların, təşkilati-idarəetmə və iqtisadi əsasların monitorinqi aparılmış, onların

təkmilləşdirilməsi üzrə nəzəri və praktik cəhətdən əsaslandırılmış əməli təklif və tövsiyələr verilmişdir.

"Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının Qanununun müasir tələblərə uyğun yeni layihəsi hazırlanmış, layihə çərçivəsində aparılan tədqiqatlar nəticəsində Azərbaycan Respublikasında təbii inhisar fəaliyyətinin tənzimlənməsinin normativ-hüquqi, təşkilati-idarəetmə və inhisar fəaliyyətinin tənzimlənməsinin iqtisadi əsaslarının təkmilləşdirilməsi ilə əlaqədar əməli təklif və tövsiyələr müəyyənləşdirilmişdir. Ümumilikdə isə, nəzərdə tutulmuşdur ki, tədqiqat layihəsinin nəticələri ölkədə təbii inhisar fəaliyyətinin tənzimlənməsinin səmərəli mexanizminin yaradılmasına kömək edəcəkdir.

Layihə 3. "Azərbaycanda iqtisadi dəyişikliklərin həyata keçirilməsi barədə zəruri məlumat-informasiya materiallarının və digər təcrübənin vaxtaşırı icmalının hazırlanması və təqdimatı (məlumat-informasiya bazası yaratmaq və təqdimat keçirmək üçün zəruri kompüter-texniki avadanlığın alınması da nəzərdə tutulmaqla)" (Layihənin rəhbəri: R.H.Hüseynov).

Bu layihə çərçivəsində "Azərbaycan iqtisadiyyatının inkişaf meyilləri" İİM-in rüblük analitik icmal-bülleteninin növbəti 4 nömrəsi hazırlanmış, dərc olunmuş, təqdimatı keçirilmiş və istifadə üçün aidiyyatı qurumlara paylanmışdır. Layihə çərçivəsində ölkədə baş verən iqtisadi dəyişikliklər barədə əsas məlumat-informasiya materialları və digər təcrübə haqqında məlumatlar Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Vergilər Nazirliyinin, Azərbaycan Respublikası Milli Bankının və digər aidiyyatı qurumlardan rüblər üzrə toplanıb təhlil olunmuş və alınmış nəticələr ümumiləşdirilərək icmal şəkilinə salınmışdır.

İcmal-bülletendə ölkədə baş verən iqtisadi dəyişikliklər və digər təcrübənin analitik təhlili aşağıdakı istiqamətlər üzrə qruplaşdırılmışdır:

- makroiqtisadi siyasət və inkişaf meyilləri;
- özəlləşdirmə və sahibkarlığın inkişaf meyilləri;
- real sektorun inkişaf meyilləri;
- beynəlxalq əməkdaşlıq;
- sosial inkişaf meyilləri;
- əsas sosial-iqtisadi inkişaf göstəriciləri.

2005-ci ildə Analitik təhlil işləri istiqamətində aşağıdakı işlər yerinə yetirilmişdir:

- Dövlət Statistika Komitəsinin rüblük materialları əsasında ölkədə formalaşan iqtisadi durumun analitik təhlili və qiymətləndirilməsi (rüblər üzrə);
- minimum istehlak səbətinin strukturunun, onun dəyərinin dəyişməsi dinamikasının, Azərbaycanda və digər MDB ölkələrində yaşayış minimumu ilə minimum əmək haqqı və pensiya səviyyəsinin nisbəti öyrənilmiş və İqtisadi İnkişaf Nazirliyinin aidiyyəti qurumlarına təqdim olunmuşdur;
- minimum istehlak səbətinə daxil olan ərzaq malları, qeyri-ərzaq malları və xidmətlər üzrə minimal istehlak (sosial) normativlərinin optimal hədləri əlaqədar təşkilatlarla birgə müəyyənləşdirilmiş və aidiyyati qurumlara təqdim olunmuşdur. Nazirlər Kabinetinin 2005-ci il 23 iyun tarixli 118 saylı qərarı ilə bu normativlər təsdiq olunmuşdur;
- İqtisadi İnkişaf Nazirliyinin və digər dövlət orqanlarının tapşırıqları əsasında kommunal xidmətlər, yaşayış minimumunun hesablanması, ünvanlı dövlət sosial yardımının tətbiqi

və s. bu kimi məsələlərlə əlaqədar bir sıra cari operativ-analitik təhlil işləri yerinə yetirilmiş və müvafiq arayışlar hazırlanaraq aidiyyəti orqanlara təqdim edilmişdir;

- dövrü mətbuatdakı iqtisadi yönümlü materialların monitorinqi aparılmış, İqtisadi İslahatlar Mərkəzinin daxili kompüter şəbəkəsində yerləşdirilmişdir;
- qeyd olunan analitik təhlil işləri ilə yanaşı İqtisadi İslahatlar Mərkəzində ölkənin kütləvi informasiya vasitələrində yayılmış iqtisadi məlumatlara və aktual iqtisadi problemlərə dair 15-dən çox şərhin verilməsi təmin edilmişdir.

Eyni zamanda Mərkəzin əməkdaşları bir sıra qanunların, fərmanların və qərarların hazırlanması, ekspertizası və müzakirəsi proseslərində iştirak etmişlər.

Elmi-təşkilati işlər üzrə ölkə iqtisadiyyatının aktual problemlərinə, o cümlədən Mərkəzdə yerinə yetirilən elmi-tədqiqat işlərinin gedişi və alınan nəticələrin müzakirəsinə dair elmi-metodoloji seminarlar təşkil edilmişdir.

BMT-nin İnkişaf Proqramının dəstəyi ilə həyata keçirilən “Azərbaycan iqtisadiyyatının cari və potensial müqayisəli üstünlükləri” mövzusunda tədqiqat işi Azərbaycan və ingilis dillərində (1000 nüsxə) dərc olunmuş və 2005-ci il 10 fevral tarixində Mərkəzin konfrans zalında xarici ölkələrin səfirliklərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin və əlaqədar idarəetmə, tədqiqat və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə təqdimat mərasimi, Avropa Təhsil Fondu, Əmək və Sosial Problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzi ilə birgə 2005-ci il 2 mart tarixində “Azərbaycanda peşə təhsili və əmək bazarı: problemlər və perspektivlər” mövzusunda elmi-praktik seminar keçirilmişdir, Avropa Təhsil Fondu və Regionların Sosial-İqtisadi İnkişaf Proqramı Katibliyi ilə birgə 2005-ci il 30 may tarixində Lənkəran şəhərində “Regionların sosial-iqtisadi inkişafında peşə təhsilinin rolu” mövzusunda seminar keçirilmişdir.







Silahlı Qüvvələrin Hərbi Akademiyasının nəzdində fəaliyyət göstərən Strateji Tədqiqatlar və Dövlət Müdafiəsini İdarəetmə Akademik kurslarında iştirak edən yüksək vəzifəli

dövlət məmurlarına Mərkəzin əməkdaşları tərəfindən “Azərbaycan iqtisadiyyatının inkişaf potensialı və strategiyası” və “Azərbaycan sənayesinin elmi-texniki potensialı və baza sahələri” mövzularında mühazirələr oxunulması, ölkədə idarəetmə, elmi-tədqiqat və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə “Ölkədə aparılan sosial-iqtisadi inkişaf siyasətinin elmi əsaslarının gücləndirilməsi sahəsində aktual vəzifələr” və “Sosial-iqtisadi inkişaf proqramlarının hazırlanması və həyata keçirilməsində QHT-lərin rolu” mövzularında dəyirmi masaların keçirilməsi təşkil edilmişdir.

Mərkəzin əməkdaşlarının 50-dən çox elmi məqalələrinin yerli və xarici jurnallarda çap olunmasına və bir monoqrafiyanın dərc olunmasına təşkilati yardım göstərilmişdir.

Mərkəzin elmi əsərlər toplusunun elmi-redaksiya heyətinin sədri Vaqif Əli oğlu Rüstəmovun rəhbərliyi ilə “Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri” (295 səhifə) elmi əsərlər toplusunun VI buraxılışı dərc olunmuşdur.



AZƏRBAYCAN RESPUBLİKASI
İQTİSADİ İNKİŞAF NAZİRLİYİ
İQTİSADİ İSLAHATLAR MƏRKƏZİ

AZƏRBAYCAN RESPUBLİKASINDA
İQTİSADİ İNKİŞAFIN XÜSUSİYYƏTLƏRİ
VƏ PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

VI BURAXILIŞ

BAKI – 2005



Azərbaycan Respublikası
İqtisadi İnkişaf Nazirliyi
İqtisadi İslahatlar Mərkəzi
Elmi Şurasının qərarı əsasında çap olunur

Elmi-redaksiya heyəti:
V.Ə.Rüstəmov *(sədr)*
A.A. Nadirov
V.T. Novruzov
İ.Ə. Əlibəyov
İ.H. İbrahimov
R.H. Dayıyev *(məsul katib)*

Azərbaycan Respublikasında iqtisadi inkişafın xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu, VI buraxılış.
Bakı, 2005, 295 səh.

İSBN 5-8066-1660-6

Əlaqə üçün məlumat:
İqtisadi İslahatlar Mərkəzi,
AZ1012, Azərbaycan Respublikası, Bakı Şəhəri,
H. Zərdabi prospekti, 88a
Telefon: (+99412) 430 01 70;
Faks: (+99412) 430 03 06
Elektron poçt: office@cer.az
İnternet səhifəsi: http://www.cer.az

© İqtisadi İslahatlar Mərkəzi, 2005



MÜNDƏRİCAT – 2005 (№ 6)

Qüdrət ƏBDÜLSƏLİMZADƏ,
iqtisad elmləri doktoru, professor
14 ilin iqtisadi-sosial uğurları və inkişaf perspektivləri ............ 6

Rəsul BALAYEV, iqtisad elmləri doktoru,
ADİU-nun professoru
Şəhərin strateji ərazi planlaşdırılması məsələləri ............ 19

Şamil YAQUBOV, iqtisad elmləri namizədi, böyük elmi işçi
Azərbaycanın təbii-iqtisadi potensialının müasir
vəziyyətinin təhlili və qiymətləndirilməsi ............ 32

Yadulla HƏSƏNLİ, iqtisad elmləri doktoru
Azərbaycan iqtisadiyyatının sahələrarası əlaqələrinin
təhlili və modelləşdirilməsi («Xərclər-buraxılış» modeli) ............ 50

Yaşar MƏMMƏDOV, İİETİ, iqtisad elmləri namizədi
Auditin nəzəri əsasları ............ 78

Rəşad DAYIYEV, İİETİ-nin dissertantı
Sosial yönümlü bazar iqtisadiyyatının formalaşmasının
nəzəri məsələləri ............ 87

Бенюсханым МАМЕДОВА, Научно-исследовательский
институт экономических реформ, кандидат физико-
математических наук, ведущий научный сотрудник
Выбор оптимального ассортимента продукции
в условиях неопределенности ............ 98

[illegible] ГУСЕЙНОВА, Научно-исследовательский институт
экономических реформ, ведущий научный сотрудник,
кандидат экономических наук Заработная плата и
производительность труда в Азербайджане ............ 105



4

Elmira BALAYEVA, iqtisad elmləri namizədi, dosent
Qızıl bazarları: bu günün reallıqları sabahın problemləridir ... 123

Ərzuman ƏMİROV, tarix elmləri namizədi
Azərbaycan nefti və beynəlxalq iqtisadi əlaqələr ............ 133

Fərhad İBRAHİMOV, İİETİ-nin dissertantı
Azərbaycanda daxili auditin inkişaf istiqamətləri ............ 143

İlqar SEYFULLAYEV, Sənaye və Energetika Nazirliyinin
«İqtisadi tənzimləmə» sektorunun baş məsləhətçisi,
iqtisad elmləri namizədi
Müəssisələrin rəqabət qabiliyyətliliyinin tədqiqinin
metodoloji istiqamətləri ............ 153

Niyazi HƏSƏNOV, iqtisad elmləri namizədi, dosent
Müasir şəraitdə investisiya strategiyasının
formalaşmasında və modernləşdirilməsində riskin
tədqiqinin kompleks metodologiyası ............ 165

Şahin ALLAHVERDİYEV
Auditin inkişafı və informasiya təminatı ............ 173

Шамил АЛИЕВ, Академия Государственного
Управления при Президенте Азербайджанской
Республики, диссертант
Инвестиционный климат: механизм формирования ............ 180

Ağanemət AĞAYEV
Azərbaycan Respublikasında xarici dövlət borcunun
səmərəliliyinin qiymətləndirilməsi ............ 18

Anar RÜSTƏMOV, İİETİ-nin aspirantı
Azərbaycanın ÜTT-yə daxil olması prosesində aqrar
sahənin xarici ticarətində baş verə bilən dəyişikliklər ............ 19



5

Elvin ƏFƏNDİ, İİETİ-nin aspirantı
Azərbaycan Respublikasında işsizlik probleminə
yeni yanaşma ............ 210

Fərhad MİKAYILOV, İİETİ-nin dissertantı
İnsan potensialının inkişafı səviyyəsinin
qiymətləndirilməsinin nəzəri-metodoloji məsələləri ............ 222

Kamran ABDULLAYEV
Azərbaycanda nəqliyyat xidmətləri bazarı:
İnkişaf perspektivləri və problemləri
(dəmiryol nəqliyyatının timsalında) ............ 235

Minarə HÜSEYNOVA, Azərbaycan Respublikası
Auditorlar Palatasının baş mütəxəssisi
Müasir şəraitdə auditə nəzəri baxışların xüsusiyyətləri ............ 249

Nazim MƏMMƏDOV
Maliyyə bazarı və korporativ qiymətli kağızlar ............ 257

Nurəddin EYNULLAYEV, İİETİ-nin dissertantı
İstehsalın ərazi üzrə yerləşdirilməsinin bəzi məsələləri ............ 263

Pərviz HEYDƏROV, İİETİ-nin aparıcı mütəxəssisi
Büdcə siyasətində pul-kredit mexanizminin enerji
sektorunda rolu baxımından əhəmiyyəti ............ 270

Rəhim HACIYEV, İİETİ-nin aspirantı
Mübadilə məzənnəsi nəzəriyyəsinin aktual məsələləri ............ 280

2005-ci ildə Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri işləmiş, Redaksiya Şurasının sədri olan Fərhad Əliyevin ümumi rəhbərliyi və Baş redaktor İİM-in rəhbəri Vaqif Rüstəmovun təşkilatçılığı ilə İİM-in təsis etdiyi “İqtisadi İnkişaf” Elmi-praktiki jurnalının 13 ç.v. həcmində ilk nömrəsi nəşr edilmişdir.


İQTİSADİ
İNKİŞAF
ELMİ-PRAKTİK JURNAL
1 / 2005
AZƏRBAYCAN RESPUBLİKASI
İQTİSADİ İNKİŞAF NAZİRLİYİ
İQTİSADİ İSLAHATLAR MƏRKƏZİ


MÜNDƏRİCAT
İQTİSADİ İNKİŞAF 1 / 2005


İQTİSADİ
İNKİŞAF
ELMİ-PRAKTİK JURNAL
2/2005
AZƏRBAYCAN RESPUBLİKASI
İQTİSADİ İNKİŞAF NAZİRLİYİ
İQTİSADİ İSLAHATLAR MƏRKƏZİ



Həmin ilin dekabr ayında Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri, Redaksiya şurasının sədri Heydər Babayevin ümumi rəhbərliyi və Baş redaktor İİM-in rəhbəri Vaqif Rüstəmovun təşkilatçılığı ilə "İqtisadi İnkişaf" Elmi-praktiki jurnalının 2-ci nömrəsi çap olunmuşdur.

Tədris işləri üzrə Mərkəzin aspirant və dissertantları üçün tədris kursları təşkil olunmuş, onlar üçün xarici dil (ingilis dili) fənnindən namizədlik minimum imtahanlarının qəbul edilməsi təşkil edilmiş, digər istiqamətlərdə ixtisasartırma kurslarının təşkili üzrə bütün zəruri işlər görülmüş, Təhsil Nazirliyi, Açıq Cəmiyyət İnstitutu Yardım Fondu və Almaniya Xalq Universitetləri Birliyinin Beynəlxalq Əməkdaşlıq İnstitutu ilə birgə 2005-ci ilin fevral və aprel aylarında təhsil sisteminin 30 müəssisəsinin rəhbər və nümayəndələrinə "Təhsil xidmətləri marketinqi" mövzusunda treninq keçirilmiş və ali təhsil müəssisələrindən göndərilən tələbə və magistrantların Mərkəzdə təcrübə keçmələri təmin edilmişdir.

Mərkəzin bir əməkdaşının 22.03.2005-15.04.2005-ci il tarixlərində İsrail Dövlətində keçirilən "Kənd yerlərində gəlir yaradan fəaliyyət sahələri" mövzusunda treninqdə iştirakı, 5 nəfər əməkdaşının "Qafqaz Resurs və Tədqiqat Mərkəzi" tərəfindən təşkil olunan "SPSS proqramı" və "Ekonometrikaya giriş və ekonometrik modelləşdirmə" kurslarında, 3 əməkdaşının Qırğızıstan Respublikasında keçirilən "İqtisadi siyasətin təhlilinə giriş" mövzusunda seminarda və 2 əməkdaşının Moskva şəhərində keçirilən treninqdə iştirakı təmin edilmişdir.

2005-ci ildə Elmi-Şuranın 7 iclası keçirilmiş və burada Mərkəzin 2006-2008-ci illər üzrə yerinə yetiriləcək elmi-tədqiqatlarının əsas istiqamətləri, aspiranturaya qəbulun yekunları, aspirantların dissertasiya işlərinin mövzuları, elmi əsərlər toplusunun VI buraxılışının nəşri, dissertant və doktorantların qəbulu, Mərkəzin əməkdaşları və doktorantı tərəfindən hazırlanmış elmi monoqrafiya və maliyyə terminləri lüğətlərinin nəşrə tövsiyəsi və digər məsələlər müzakirə olunmuş və müvafiq qərarlar qəbul edilmişdir. Mərkəzin əyani aspiranturasına ayrılmış 15 yer üzrə qəbul imtahanları həyata keçirilmiş, aspirant və dissertantların dissertasiya işlərinin ilkin müzakirəsi təşkil edilmiş və onların Dissertasiya şuralarında müdafiə olunması üçün müvafiq sənədlər hazırlanaraq təqdim edilmişdir. Əməkdaşlar elmi-tədqiqat işlərini yerinə yetirmək üçün statistik məlumatlarla və digər zəruri informasiyalar ilə təmin edilmişlər.

Dissertasiya şuraları tərəfindən göndərilən 8 dissertasiya işinin (1 doktorluq və 7 namizədlik) aparıcı təşkilatın rəyinin, 10 elmi-tədqiqatın nəticələrindən gələcəkdə istifadə olunması haqqında arayış, 18 dissertasiya işinin avtoreferatlarına müvafiq rəylərin verilməsi təmin edilmişdir.

Mərkəzin kitabxanasının işinin müasir tələblərə uyğunlaşdırılması baxımından mövcud kitabların verilənlər bazası yaradılmış və yeni iqtisadi ədəbiyyatların alınması ilə kitabxana fondu daha da zənginləşdirilmişdir.

Marketinq və ictimai əlaqələr üzrə Mərkəzin müsbət imicinin formalaşdırılması istiqamətindəki fəaliyyətin davamı kimi, onun yeni loqosu işlənib hazırlanmış və həmçinin Mərkəz haqqında bukletin yeni variantı üzrə işlər yekunlaşdırılmışdır.

Xarici ölkələrdə analoji qurumların mütərəqqi iş təcrübəsi öyrənilmiş və onun Mərkəzdə tətbiqi imkanları haqqında təkliflər (strukturun təkmilləşdirilməsi) təqdim edilmiş, kütləvi informasiya vasitələri ilə mütəmadi işlər aparılmış və həmçinin Mərkəzdə təşkil olunan elmi tədbirlərin ictimaiyyətə çatdırılması təmin edilmiş, Beynəlxalq donor təşkilatları ilə (ADB,

UNDP və s.) qurulmuş münasibətlər nəticəsində hazırlanmış və onlara təqdim olunmuş layihələrin reallaşması və bu əməkdaşlığın davam etdirilməsi istiqamətində işlər gücləndirilmişdir.

İqtisadi İnkişaf Nazirliyinin tapşırığı ilə Yaponiyada keçirilən "Expo-2005" sərgisi üçün müvafiq materialların toplanması və onların çap olunması təşkil edilmiş, Böyük Britaniyanın Ticarət Palatası tərəfindən hazırlanan "Guide to Caspian Markets" jurnalının Azərbaycana dair bölməsində ölkə haqqında məlumatların toplanaraq yerləşdirilməsi təmin edilmişdir.

Gənclər, İdman və Turizm Nazirliyi tərəfindən keçirilən "Kredit siyasəti və biznes-plan" mövzusunda seminarda əməkdaşların iştirakı, "Azərbaycan alimlərinin sosial-iqtisadi inkişafda rolu" mövzusunda elmi-praktiki konfransda Mərkəzin stendinin (tədqiqatlar, bukletlər, bülletenlər və s.) yerləşdirilməsi təmin olunmuşdur.

Mərkəzin əməkdaşlarının 2005-ci il 11-19 fevral tarixlərində İran İslam Respublikasının paytaxtı Tehran şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının Regional Planlaşdırma Şurasının XV forumunda və İTECA şirkəti tərəfindən təşkil edilən sərgilərdə iştirakı təmin olunmuşdur.

**2006-cı ildə** İqtisadi İslahatlar Mərkəzi (İİM) öz fəaliyyətini ilin əvvəlində İqtisadi İnkişaf Nazirliyinin əlaqədar strukturları ilə razılaşdırılaraq Mərkəzin Elmi Şurasında təsdiq olunmuş 2006-cı il ərzində bütün struktur bölmələrinin görəcəkləri işləri əhatə edən İş Planına uyğun olaraq qurmuş və bu plan üzrə aşağıdakı işlərin yerinə yetirilməsinə nail olunmuşdur:

Elmi-tədqiqat işləri üzrə İİM-də aşağıdakı mövzular üzrə elmi-tədqiqat işləri yerinə yetirilmişdir:

- Azərbaycan Respublikası üçün tətbiqi makroiqtisadi modellərin işlənilməsi (I mərhələ);
- Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın indikativ planlaşdırılmasının elmi-metodoloji əsaslarının işlənilməsi (I mərhələ);
- Azərbaycan Respublikasında fond bazarının inkişafı problemləri;
- beynəlxalq ticarət və əmək bazarı arasında qarşılıqlı əlaqə;
- kənd təsərrüfatı sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri;
- turizm sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri;
- neft emalı sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri;
- Azərbaycan Respublikasının nəqliyyat-tranzit-ticarət potensialından səmərəli istifadə edilməsi problemləri;
- Azərbaycan Respublikasında tibbi xidmətlər bazarının inkişafı problemləri;
- Azərbaycanda makroiqtisadi tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri;
- Azərbaycan Respublikasında rəqabət siyasətinin səmərəliliyinin yüksəldilməsi problemləri (davam edir, başa çatacaq - aprel 2007);
- Azərbaycan Respublikasında iqtisadi idarəetmənin səmərəliliyinin yüksəldilməsi problemləri (davam edir, başa çatacaq - aprel 2007).

## İqtisadi İslahatlar Mərkəzinin 2006-cı ilə olan ştat cədvəli



İqtisadi islahatlar Mərkəzi

Əmək haqqının verilmə müddəti: (01-30) Aprel 2006-cı il — Əmək haqqının verilmə tarixi: 01.05.2006-cı il

| № | S.A.A. | Aralıq hesab nömrəsi | Şəxsi hesab nömrələri | məbləğ |
|---|---|---|---|---|
| 1 | Rüstəmov Vaqif Əli | 450902000300002 | 380151000300032 | 152,22 |
| 2 | Qəyyev Rəşad Hikmət | 450902000300002 | 380151000300015 | 86,62 |
| 3 | Abdullayev Qafar Sabir | 450902000300002 | 380151000300016 | 127,62 |
| 4 | Əlizadə Cəlalə İsmayıl | 450902000300002 | 380151000300020 | 63,66 |
| 5 | Eyvazova Lətafət Masur | 450902000300002 | 380151000300021 | 63,66 |
| 6 | Camalov Faiq Misir | 450902000300002 | 380151000300022 | 37,42 |
| 7 | Rzaquliyev Ramiz Əli | 450902000300002 | 380151000300024 | 101,38 |
| 8 | İmanov Elxan Sərxan | 450902000300002 | 380151000300025 | 75,14 |
| 9 | Rzayev Firdovsi Fikrət | 450902000300002 | 380151000300027 | 95,09 |
| 10 | Novruzov Vahid Tapdıq | 450902000300002 | 380151000300028 | 41,52 |
| 11 | Əlibəyov İnqilab Vəlibəy | 450902000300002 | 380151000300029 | 41,52 |
| 12 | Qarabəyova Zərə Camal | 450902000300002 | 380151000300030 | 76,80 |
| 13 | Cəbiyev Rauf Mirzə | 450902000300002 | 380151000300033 | 119,42 |
| 14 | Yaqubov Şamil Əyyub | 450902000300002 | 380151000300035 | 101,38 |
| 15 | Məmmədova Böyükxanım | 450902000300002 | 380151000300037 | 101,38 |
| 16 | Nəcəfov Salman Əli | 450902000300002 | 380151000300069 | 75,14 |
| 17 | Quliyev Sövqi Bəhlul | 450902000300002 | 380151000300040 | 75,14 |
| 18 | Məmmədov Nazim Eldar | 450902000300002 | 380151000300044 | 70,22 |
| 19 | Əliyev Xaqani Vidadi | 450902000300002 | 380151000300047 | 76,80 |
| 20 | Heydərov Pərviz Telman | 450902000300002 | 380151000300049 | 76,80 |
| 21 | Mikayılov Fərhad Qambay | 450902000300002 | 380151000300050 | 69,12 |
| 22 | Qurbanova Selcan Yusif | 450902000300002 | 380151000300053 | 79,08 |
| 23 | Məlikəliyeva Sevda Xoşqədəm | 450902000300002 | 380151000300054 | 63,66 |
| 24 | Əsədova Əminə Hüseyin | 450902000300002 | 380151000300176 | 53,82 |
| 25 | Aliyeva Sevda Rafiq | 450902000300002 | 380151000300056 | 63,66 |
| 26 | Abbasəliyeva Sayalı Zal | 450902000300002 | 380151000300057 | 76,80 |
| 27 | Cavadov Nizami Alim | 450902000300002 | 380151000300059 | 86,62 |
| 28 | Cəbrayılzadə Aynurə Tahir | 450902000300002 | 380151000300060 | 70,22 |
| 29 | Vəliyev İlkin Rəşid | 450902000300002 | 380151000300062 | 34,14 |
| 30 | Mustafayeva Zinə Əhməd | 450902000300002 | 380151000300064 | 28,80 |
| 31 | Hüseynova Nelli Nəsrulla | 450902000300002 | 380151000300068 | 101,38 |
| 32 | Əhmədova Gülnə Kazım | 450902000300002 | 380151000300075 | 28,80 |
| 33 | Bəşirova Mərziyə Kərim | 450902000300002 | 380151000300085 | 28,80 |
| 34 | İsmayılov Ramin Zahid | 450902000300002 | 380151000300098 | 28,80 |
| 35 | Cavadzadə Ramin | 450902000300002 | 380151000300129 | 70,22 |
| 36 | Əhmədov Barış Sabir | 450902000300002 | 380151000300102 | 40,70 |
| 37 | Hacıyev Ağa-Kərim Hüseyn-Ağa | 450902000300002 | 380151000300103 | 111,22 |
| 38 | Vəliyev Zaur Teyyub | 450902000300002 | 380151000300104 | 70,22 |
| 39 | Əfəndi Elvin Namiq | 450902000300002 | 380151000300107 | 37,42 |
| 40 | Qədirov Cahandar Babaqədir | 450902000300002 | 380151000300108 | 53,82 |
| 41 | Quliyev Rövşən Rasim | 450902000300002 | 380151000300109 | 127,62 |
| 42 | Eynullayev Nurəddin Əflatun | 450902000300002 | 380151000300111 | 70,22 |
| 43 | İbrahimov İslam Hacı | 450902000300002 | 380151000300112 | 40,70 |
| 44 | Məmmədova Həyat Əsəd | 450902000300002 | 380151000300051 | 70,22 |
| 45 | Rəsulova Mətanət | 450902000300002 | 380151000300084 | 101,38 |
| 46 | Quliyeva Firuzə | 450902000300002 | 380151000300087 | 63,66 |
| 47 | Məmmədov Vəli Səməd | 450902000300002 | 380151000300120 | 70,22 |
| 48 | Pənahov İlqar | 450902000300002 | 380151000300119 | 76,80 |
| 49 | Balayev Rəsul | 450902000300002 | 380151000300116 | 40,70 |
| 50 | Həsənov Yadulla | 450902000300002 | 380151000300123 | 40,70 |
| 51 | İsmayılova Təranə | 450902000300002 | 380151000300148 | 63,66 |
| 52 | Əşrəfova Ülkər | 450902000300002 | 380151000300145 | 63,66 |
| 53 | Vəliyev Malik | 450902000300002 | 380151000300144 | 76,80 |
| 54 | Məmmədov Yaşar | 450902000300002 | 380151000300141 | 208,31 |
| 55 | Baxşəliyev Pərviz | 450902000300002 | 380151000300139 | 70,22 |
| 56 | Mahmudov Elşən | 450902000300002 | 380151000300150 | 75,14 |
| 57 | Qarayeva Vəfa | 450902000300002 | 380151000300154 | 37,42 |
| 58 | Hətəmov Cavid | 450902000300002 | 380151000300156 | 37,42 |
| 59 | Hüseynova Turan | 450902000300002 | 380151000300157 | 63,66 |
| 60 | Əbdülsəlimzadə Qüdrət | 450902000300002 | 380151000300140 | 40,70 |
| 61 | Əsədov Agil | 450902000300002 | 380151000300177 | 76,80 |
| 62 | Babayev Ceyhun | 450902000300002 | 380151000300178 | 63,66 |
| 63 | İsmayılov Şamil | 450902000300002 | 380151000300179 | 40,70 |
| 64 | Orucov Şamil | 450902000300002 | 380151000300180 | 63,66 |
| 65 | Rzayev Rauf | 450902000300002 | 380151000300181 | 70,22 |
| 66 | Mənsimli Məlahət | 450902000300002 | 380151000300182 | 63,66 |
| 67 | Abbasquliyev Kamran | 450902000300002 | 380151000300183 | 34,14 |
| 68 | Hüseynov Ədalət | 450902000300002 | 380151000300184 | 28,80 |
| 69 | Məmmədov Zakir | 450902000300002 | 380151000300185 | 63,66 |
| 70 | Hüseyncanova Xədicə | 450902000300002 | 380151000300186 | 63,66 |
| 71 | Məmmədov Pərviz | 450902000300002 | 380151000300160 | 70,22 |
| 72 | Həsənov Rafail | 450902000300002 | 380151000300187 | 28,80 |
| | | | Cəmi | 4 963,42 |

Rəhbər — V.Rüstəmov

M.Y.

Baş mühasib — R.Əliyev

4 MAY 2006

2

Bununla yanaşı, həmin il İİM-dəVaqif Rüstəmovun rəhbərliyi altında Nazirlər Kabinetinin 2006-cı il 13 aprel tarixli 96s saylı Qərarına uyğun olaraq, 2006-cı il üçün Dövlət büdcəsinin "İqtisadi İslahatların həyata keçirilməsi ilə bağlı xərclər" maddəsində nəzərdə tutulan vəsaitlər hesabına maliyyələşdirilən "Abşeron regionu üçün kompleks sosial-iqtisadi inkişaf proqramının layihəsinin hazırlanması" və "Azərbaycan Respublikasında investisiya fəallığının mövcud vəziyyətinin analitik təhlili: nəticələr, tövsiyələr" mövzularında tədqiqat layihələri də yerinə yetirilmiş, həmçinin "Azərbaycanda iqtisadi dəyişikliklərin həyata keçirilməsi barədə zəruri məlumat-informasiya materiallarının və digər təcrübənin vaxtaşırı icmalının hazırlanması və təqdimatı" layihəsi çərçivəsində "Azərbaycan iqtisadiyyatının inkişaf meylləri" adlı rüblük icmal-bülletenlər hazırlanıb nəşr olunaraq əlaqədar qurumlar arasında yayılmışdır.

**2009-cu ildə** İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun fəaliyyətinin müasir tələblərə uyğunlaşdırılması istiqamətində tədbirlər davam etdirilmişdir. Belə ki, 2009-cu ilin əvvəlində institutun Elmi-Tədqiqat İş Planı İqtisadi İnkişaf Nazirliyinin əlaqədar strukturları ilə razılaşdırılaraq təsdiq olunmuş və ilin əvvəlindən etibarən bütün işlər müvafiq iş planına uyğun olaraq təşkil edilmişdir.

2009-cu ilin fevral ayında i.e.d., prof. Namiq Faiq oğlu Tağıyev İİETİ-nin direktoru vəzifəsindən azad edilmiş, 2009-cu ilin fevral ayının 20-də i.e.d., prof. Vilayət Məmməd oğlu Vəliyev İİETİ-nin direktoru vəzifəsinə təyin edilmişdir.

2009-cu ildə İİETİ İş Planına müvafiq olaraq fəaliyyətini elmi-tədqiqat işləri, analitik təhlil işləri, elmi-təşkilati işlər, tədris işləri, marketinq və ictimai əlaqələr üzrə işlər, elmi katiblik işləri, maliyyə-təsərrüfat işləri istiqamətləri üzrə müəyyənləşdirmişdir.

2009-cu ildə İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunda İş Planından əlavə bir sıra Dövlət Proqramları üzrə həyata keçirilən tədbirlərə uyğun işlər yerinə yetirilmişdir.

2009-cu ildə İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunda Azərbaycan Respublikası iqtisadiyyatının qeyri-neft sektorunun dayanıqlı inkişafı problemlərinin tədqiqi istiqamətində və həmçinin İş Planında tədqiqi nəzərdə tutulan aşağıdakı elmi-tədqiqat işləri yerinə yetirilmişdir:

- Kənd təsərrüfatı sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri;
- Azərbaycanın nəqliyyat-ticarət-tranzit sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri;
- Turizm sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri;
- Regional iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri (Lənkəran iqtisadi rayonu timsalında);

- Azərbaycanda inflyasiyanın səviyyəsinə təsir edən amillərin tədqiqi və onun aşağı salınmasına dair təklif və tövsiyələrin hazırlanması;
- Əsas istehlak məhsullarının monitorinqinin nəticələrinin təhlili;
- “Aqrolizinq” ASC-nin özünümaliyyələşmə sisteminə keçirilməsinə dair təkliflərin hazırlanması;
- “Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafına dövlət dəstəyi Strategiyası”nın hazırlanması;
- Qeyri-neft sənayesinin rəqabət qabiliyyətinin yüksəldilməsi potensialına malik olan alt sahələrin müəyyən edilməsi;
- Abşeron iqtisadi rayonunun pasportunun hazırlanması;
- Azərbaycanda lizinq xidmətlərinin mövcud vəziyyətinin təhlili və inkişafı perspektivləri üzrə təkliflərin hazırlanması;
- İqtisadiyyatın hərbi və mülki sektorlarına bilik və texnologiyaların ötürülməsi sahəsində elmi fəaliyyətin gücləndirilməsi, ikili təyinatlı texnologiyaların yaradılması və onların istifadəsinin genişləndirilməsi;
- Dünya maliyyə böhranının Azərbaycan iqtisadiyyatına təsirlərinin qiymətləndirilməsi və mənfi nəticələrinin aradan qaldırılmasına dair təklif və tövsiyələrin hazırlanması;
- Real sektorun monitorinqi üzrə mövcud metodologiyaların tədqiqi;
- Azərbaycan Respublikasında elmi və elmi-pedaqoji işçilərə alimlik dərəcələri verilməsi üzrə ixtisasların nomenklaturasının YUNESKO-nun və digər beynəlxalq təşkilatların qəbul etdiyi elmi ixtisas siyahılarına uyğunlaşdırılması.

Problem. İqtisadiyyatın qeyri-neft sektorunun dayanıqlı inkişafı problemləri

Mövzu. Azərbaycan Respublikasında kənd təsərrüfatı sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri.

Kənd təsərrüfatı sektorunun dünya bazarlarında malik olduğu rəqabət üstünlükləri qiymətləndirilmiş və bu üstünlüklərdən səmərəli istifadə olunması problemləri araşdırılmışdır. Tədqiqat işi ümumilikdə iki hissədən ibarətdir. Birinci hissədə, rəqabətqabiliyyətlilik problemi ilə bağlı mövcud nəzəri yanaşmaların icmalı və ümumiləşdirilməsi edilmiş, eyni zamanda, kənd təsərrüfatı sektorunun rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi üçün metodologiya seçimi müəyyənləşdirilmişdir. Kənd təsərrüfatı sektoru üzrə rəqabətqabiliyyətliliyin qiymətləndirilməsi üçün Aşkar Müqayisəli Üstünlüklər metodu və Daxili Resurs sərfi (DRS) metodu seçilmişdir. İkinci hissədə, mövcud nəzəri yanaşmalar və seçilmiş metodologiya əsasında ölkənin kənd təsərrüfatı sektoru üzrə rəqabətqabiliyyətliliyi, eyni zamanda, sektor üzrə rəqabətqabiliyyətliliyə təsir edən amillər Porterin “Milli rombu” əsasında qiymətləndirilmişdir. Rəqabət qabiliyyətinin istiqamətləri aşkar edilmiş, kəmiyyətcə ölçülmüşdür.

Mövzu. Azərbaycanın nəqliyyat-ticarət-tranzit sektorunun rəqabət qabiliyyətinin yüksəldilməsi problemləri.

Tədqiqat işi 2003-2008-ci illərdə nəqliyyat-ticarət-tranzit sektorunda rəqabət qabiliyyətinə təsir edən amillərin kəmiyyətcə qiymətləndirilməsini əhatə etmişdir. Qiymətləndirmə prosesində Azərbaycanın nəqliyyat-tranzit sisteminin rəqabətliliyinin spesifik xüsusiyyətlərini öyrənmək üçün hüquqi və iqtisadi baza araşdırılmış, rəqabət qabiliyyətinin daxili və xarici amilləri müəyyən edilmişdir.

Keçid tipli ölkələrdə tətbiq edilən nəqliyyat-tranzit xidmətləri üzrə məsrəf modeli Azərbaycan şəraiti üçün sahələr üzrə qiymətləndirilmiş, rəqabət qabiliyyətinin sahə və firma səviyyəsində determinantları müəyyən edilmiş, həmçinin xərc idxalı dəhlizinin təsiri kəmiyyətcə hesablanmışdır. Modelin nəticələri nəzərə alınmaqla rəqabət qabiliyyətinin artırılması istiqamətləri təklif edilmiş, bu zaman iqtisadi sahələrin spesifikasiyası nəzərə alınmışdır.

Mövzu. Azərbaycan Respublikasında turizm sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri.

Tədqiqat işində Azərbaycanın turizm sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemi araşdırılmışdır. Əksər statistik məlumatlar 2003-cü ildən sonrakı dövrü, turizm rəqabətqabiliyyətliliyi indeksi isə son üç ilin məlumatlarını əhatə edir. Tədqiqat işində M.Porterin rəqabətqabiliyyətlilik konsepsiyası və onun bazasında hesablanılan turizmin rəqabətqabiliyyətliliyi indeksinə təsir göstərən indikatorlar üzrə qiymətləndirilmələr aparılmış və tədqiqatın nəticələrinə əsasən turizm sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi üçün siyasət təklifləri irəli sürülmüşdür.

Mövzu. Regional iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi istiqamətləri (Lənkəran iqtisadi rayonu timsalında)

Azərbaycan Respublikasında son illərdə aparılan iqtisadi siyasətin əsas məqsədlərindən biri regionların sosial-iqtisadi inkişafına nail olmaqdır. Bu istiqamətdə ölkədə müxtəlif tədbirlər həyata keçirilmişdir. Aparılan işlərə baxmayaraq regionların sosial-iqtisadi inkişaf səviyyəsinin hələ də geri qalması bu istiqamətdə tədqiqat işlərinin aparılmasını zəruri edir. Burada isə ilk növbədə regional iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi məsələlərinin araşdırılması vacibdir. Bu baxımından Lənkəran iqtisadi rayonunun iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsi problemlərinin tədqiq olunması mühüm əhəmiyyət kəsb edir. Tədqiqat işində son illərdə regionda yaranmış vəziyyət tədqiq olunmuşdur.

Burada M.Porterin “Milli rombu” və regional rəqabətqabiliyyətliliyin qiymətləndirilməsi üçün istifadə olunan klaster yanaşması tətbiq olunmuşdur. Tədqiqat çərçivəsində regionun iqtisadi potensialından istifadənin zəif olduğu müəyyən olunmuşdur. Təkcə onu qeyd etmək kifayətdir ki, ölkə əhalisinin 9,2%-ni və ölkə ərazisinin 7%-ni təşkil edən Lənkəran iqtisadi rayonunda ümumi məhsul buraxılışının 1,7%-i istehsal olunmuşdur.

Mövzu. Azərbaycanda inflyasiyanın səviyyəsinə təsir edən amillərin tədqiqi və onun aşağı salınmasına dair təklif və tövsiyələrin hazırlanması.

Birinci bölmədə inflyasiyanın səviyyəsinin qiymətləndirilməsinin nəzəri metodoloji əsasları müəyyənləşdirilmişdir. İkinci bölmədə Azərbaycan Respublikasında inflyasiyanın müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi, eləcə də hazırkı dövrdə inflyasiyanın yaranmasında və onun qarşısının alınmasında monetar və qeyri-monetar amillərin rolu tədqiq edilmişdir. aparılan tədqiqat prosesində alınmış nəticələr ümumiləşdirilmiş, Azərbaycanda istehlak qiymətlərinin dəyişməsinə (artmasına) obyektiv və subyektiv səbəblərin təsiri verilmiş, bir sıra təkliflər irəli sürülmüşdür.

Mövzu. Abşeron iqtisadi rayonunun pasportu.

Tədqiqat işinin yerinə yetirilməsi prosesində həm inkişaf etmiş ölkələrin, həm də inkişaf etməkdə olan ölkələrin, xüsusilə Rusiya, Belarus, Ukrayna respublikalarının təcrübələri öyrənilmiş və Azərbaycan şəraiti üçün məqbul hesab olunan struktur müəyyən olunmuşdur.

Müəyyən olunmuş struktura uyğun məlumatların toplanılması işi aparılmış, həmin məlumatlar emal olunmuş və stuktura uyğun yerləşdirilmişdir. Tədqiqat işində iqtisadi rayonun ərazisi, inzibati ərazi bölgüsü, coğrafi yerləşməsi, relyef, iqlimi, faydalı qazıntı ehtiyatları, iqtisadi potensialı, o cümlədən iqtisadi rayonun əhalisi, əmək ehtiyatları, məhsul buraxılışı, sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, rabitə, təhsil, elm, mədəniyyət, turizm, ticarət və xidmət, ekologiya sahələrinin əsas göstəriciləri müxtəlif cədvəl, diaqram və şəkillərdən istifadə etməklə verilmişdir. Həmçinin regionun investisiya istiqamətləri göstərilmiş və burada olan müəssisə və təşkilatların siyahısı da verilmişdir.

Tədqiqat işi iqtisadi rayonun sosial-iqtisadi vəziyyəti haqqında informasiya verməklə, mövcud potensialdan istifadə səviyyəsini qiymətləndirmək, regionun iqtisadiyyatının ayrı-ayrı sahələrinə xarici və yerli investorları cəlb etmək üçün mühüm əhəmiyyətə malikdir.

Mövzu. Azərbaycanda lizinq xidmətlərinin mövcud vəziyyətinin təhlili və inkişafı perspektivləri üzrə təkliflərin hazırlanması.

Birinci bölmə lizinqin təşəkkülü, növləri, reallaşdırılması texnologiyasına həsr olunmuşdur. Dünyada lizinqin təşəkkülü və növləri, onun reallaşdırılması texnologiyası, lizinq münasibətlərinin həyata keçirilməsi üçün ölkənin qanunvericiliyi nəzərdən keçirilmiş, habelə lizinq üzrə aktual hesablamaların bütün növləri həm nəzəri, həm də konkret misallarla və onların izahı ilə verilmişdir. Mövcud vəziyyətin təhlili və inkişaf perspektivlərinin qiymətləndirilməsi, lizinq münasibətlərindən istifadə edərək kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi araşdırılmış, bu sahədəki mövcud təcrübə öyrənilmişdir. İkinci fəsildə lizinqin hüquqi bazası təhlil edilmişdir. Lizinqin hüquqi bazasını Azərbaycan Respublikasının Mülki Məcəlləsi və Vergi Məcəlləsinin münasibətləri təşkil etmişdir. Hüquqi bazanın lizinq münasibətlərinin uğurlu inkişafı üçün zəmanətliliyi göstərilmişdir. Üçüncü fəsil lizinq ödəmələrinin hesablanma metodikasına həsr olunmuşdur. Lizinq münasibətləri zamanı baş verəcək təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi konkret misallarla mühasibat yazılışları verilməklə göstərilmişdir. Mühasibat yazılışları verilərkən Azərbaycanın lizinq əməliyyatlarını tənzimləyən qanunları əsas götürülmüşdür. Lizinq hesablamaları zamanı aktual hesablamalar və lizinq əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi tədqiq edilmişdir. Dördüncü fəsil lizinqin inkişafının müasir meyilləri məsələlərinə həsr olunmuşdur. Bu fəsildə dünyada və Azərbaycanda lizinqin müasir durumu öyrənilmişdir. Tədqiqatın nəticəsində lizinq münasibətlərinin inkişafına dövlət dəstəyinin rolu və əhəmiyyəti müəyyənləşdirilmiş və bu məqsədlə bir sıra mühüm təkliflər hazırlanmışdır.

Mövzu. İqtisadiyyatın hərbi və mülki sektorlarına bilik və texnologiyaların ötürülməsi sahəsində elmi fəaliyyətin gücləndirilməsi, ikili təyinatlı texnologiyaların yaradılması və onların istifadəsinin genişləndirilməsi.

Tədqiqat işində iqtisadiyyatın hərbi və mülki sektorlarına bilik və texnologiyaların ötürülməsi sahəsində elmi fəaliyyətin gücləndirilməsi, ikili təyinatlı texnologiyaların yaradılması və onların istifadəsinin genişləndirilməsi istiqamətində yerli və beynəlxalq təcrübə öyrənilmiş, müvafiq təhlillər aparılmışdır. Tədqiqatın sonunda Azərbaycan Respublikasında iqtisadiyyatın hərbi və mülki sektorlarına bilik və texnologiyaların ötürülməsi sahəsində elmi fəaliyyətin gücləndirilməsi, ikili təyinatlı texnologiyaların yaradılması və onların istifadəsinin genişləndirilməsi istiqamətində təkliflər irəli sürülmüşdür.

Mövzu. Dünya maliyyə böhranının Azərbaycan iqtisadiyyatına təsirlərinin qiymətləndirilməsi və mənfi nəticələrinin aradan qaldırılmasına dair təklif və tövsiyələr.

Tədqiqat işinin məqsədi dünya maliyyə və iqtisadi böhranının Azərbaycan iqtisadiyyatına təsirinin kəmiyyətcə ölçülməsindən ibarətdir. Bu məqsədlə ölkə iqtisadiyyatının mühüm xüsusiyyətləri nəzərə alınmaqla böhranın Azərbaycan iqtisadiyyatına təsir etdiyi əsas kanallar üzrə ekonometrik qiymətləndirmələr aparılmışdır. Tədqiqat Azərbaycan tipli ölkələrdə böhranın ölkə iqtisadiyyatına təsirlərinin araşdırılması sahəsində mövcud ədəbiyyata bir əlavə ola bilər. Tədqiqatın praktik əhəmiyyətinə gəldikdə isə, qeyd etmək olar ki, araşdırmanın nəticələri iqtisadi-siyasət qərarları hazırlayanlar (policy maker) üçün böhrandan minimum itkilərlə yaxa qurtarmaq və böhrandan sonrakı inkişafın istiqamətlərini müəyyən etmək baxımından faydalı ola bilər.

Mövzu. Real sektorun monitorinqi üzrə mövcud metodologiyaların tədqiqi (məsul icraçı: i.e.n., dosent Oruc İbrahim oğlu İbrahimov).

Tədqiqat işində real sektorda monitorinqin aparılması üzrə mövcud metodologiyalar araşdırılaraq Azərbaycan Respublikasının iqtisadi xüsusiyyətlərinə uyğun metodologiya formalaşdırılmış və real sektorun müxtəlif sahələrində (sənaye, tikinti, ticarət, xidmət və s.) monitorinqlərin aparılması üçün sorğu-anket formaları tərtib edilmişdir. Tədqiqat işindən real sektorun müxtəlif sahələrində monitorinqlərin aparılması və nəticələrin emalı üçün istifadə edilə bilər.

Mövzu. Azərbaycan Respublikasında elmi və elmi-pedaqoji işçilərə alimlik dərəcələri verilməsi üzrə ixtisasların nomenklaturasının YUNESKO-nun və digər beynəlxalq təşkilatların qəbul etdiyi elmi ixtisas siyahılarına uyğunlaşdırılması.

Tədqiqat işində elmi və elmi-pedaqoji işçilərə alimlik dərəcələri verilməsi üzrə beynəlxalq təcrübə öyrənilmiş, qoyulan problemin həlli istiqamətində müvafiq təkliflər irəli sürülmüşdür.

2009-cu ildə İİETİ-də müxtəlif Dövlət Proqramları, əmr və tapşırıqlar çərçivəsində müvafiq işlər də yerinə yetirilmişdir:

- elmi-tədqiqat işlərinin istehsalata tətbiqini sürətləndirmək üçün texnoparkların yaradılmasına dair təkliflərin hazırlanması;
- Azərbaycan Respublikasının regionlarında həyat səviyyəsinin qiymətləndirilməsi;
- regionların sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət Proqramının həyata keçirilməsində bölgələrdə fəaliyyət göstərən elmi müəssisələrin və ali məktəblərin iştirakını təmin etməklə elmin inkişafına nail olmaq üçün təkliflərin hazırlanması;
- makroiqtisadi mənzərə (rüblük bülleten);
- Azərbaycan Respublikası iqtisadiyyatının sahələri və iqtisadi rayonları üzrə prioritet istiqamətlərin hazırlanması (Sahibkarlığa Kömək Milli Fondu ilə birgə);
- əsas idxal mallarının strukturu və dəyişmə dinamikasının təhlil olunması, emal üçün ixrac olunan məhsulların müəyyən edilməsi, ölkədə potensial istehsal və emal imkanı olan və müqayisəli üstünlüyə malik olan məhsulların siyahısının tərtib edilməsi və bu malların istehsalının həyata keçirilməsi ilə bağlı təkliflərin hazırlanması;
- ölkə təqdimatının hazırlanması;
- qeyri-neft sektorunun cari vəziyyəti üzrə arayışların hazırlanması;
- Azərbaycan Respublikasında neft emalı və neft-kimya sənayesinin perspektiv inkişafına dair arayış;
- sahibkarlığa dövlət dəstəyi sahəsində müxtəlif ölkələrin təcrübələri;

- kənd təsərrüfatında ənənəvi məhsul istehsalı (regional aspektdə) üzrə arayışın hazırlanması;
- Azərbaycanda üzümçülük üzrə arayışın hazırlanması;
- Azərbaycanda meyvəçilik üzrə arayışın hazırlanması;
- Azərbaycan Respublikasında toxuculuq sənayesinin inkişafının qısa icmalı;
- "İqtisadi Meyil" sorğularının tərtib olunması;
- xüsusi iqtisadi zonaların yaradılması ilə əlaqədar təkliflər;
- kənd təsərrüfatına ayrılan subsidiyaların verilmə mexanizminin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması;
- kənd təsərrüfatı məhsullarının idxal kvotasının müəyyənləşdirilməsi;
- kənd təsərrüfatı və onunla əlaqədar emal sahələrinin inkişafı üçün layihə təklifləri (süd emalı, camışçılıq təsərrüfatı, nohur balıqçılığı, dəri emalı və dəri məmulatları istehsalı, anbar (kamera) yaradılması, nişasta istehsalı, texniki bitkilərin emalı, heyvandarlıq üçün qarışıq yem istehsalı):

Mövzu. Elmi-tədqiqat işlərinin istehsalata tətbiqini sürətləndirmək üçün texnoparkların yaradılmasına dair təklif və tövsiyələrin hazırlanması.

Birinci bölmədə elmi texnopark anlayışı, onun funksiya və vəzifələri, innovasiya infrastrukturu, klasterlər, növləri və praktiki əhəmiyyəti göstərilmişdir. İkinci bölmədə texnoparkların yaranması üzrə beynəlxalq təcrübənin öyrənilməsinin mühüm əhəmiyyəti, texnoparkların yaradılmasında ABŞ, Çin və Rusiya Federasiyasının təcrübəsindən yararlanmağın məqsədyönlülüyü göstərilmişdir. Üçüncü bölmədə, müvafiq olaraq, Azərbaycanda texnoparkların yaradılması və onun perspektivliyi nəzərə çatdırılmışdır. Belə ki, ölkədə aparılan məqsədyönlü işlər, elmi-texniki və innovasiya fəaliyyəti, beynəlxalq əməkdaşlıq və beynəlxalq layihələrdə iştirak etmək təcrübəsi əks etdirilmişdir.

Nəticədə aparılan tədqiqat prosesində alınmış nəticələr ümumiləşdirilmiş, həmçinin Azərbaycan Respublikasında texnoparkların inkişafı, o cümlədən sənaye və informasiya profilli texnoparkların yaranması ideyası və bu sahədə səmərəli təkliflər irəli sürülmüşdür. İnformasiya-kommunikasiya texnologiyaları sahəsində innovasiyayönümlü kiçik və orta sahibkarlığın dəstəklənməsi, elmi-tədqiqat işlərinin kommersiya prinsiplərinə əsaslanmaqla elmin dövlətdən asılılığının azaldılması, inkişafın müxtəlif mərhələlərində texnoloji layihələrə investisiyaların cəlb olunması kimi məqsədlərin reallaşması istiqamətində Azərbaycan kimi keçid iqtisadiyyatlı ölkə üçün texnoparkların yaradılması və inkişafının təmin edilməsi ölkədə həyata keçirilən dövlət siyasətinin hədəflərindən biri kimi qəbul edilmişdir

Mövzu. Azərbaycan Respublikasının regionlarında həyat səviyyəsinin qiymətləndirilməsi (məsul icraçı: Fərhad Qamboy oğlu Mikayılov).

Birinci bölmədə iqtisadi rayonlarda həyat səviyyəsinin qiymətləndirilməsinə dair nəzəri-metodoloji yanaşmalar tədqiq edilmişdir. Burada insanların fiziki, mənəvi və sosial tələbatının təmin edilməsi səviyyəsini xarakterizə edən sosial-iqtisadi kateqoriya kimi, təkcə gəlirlərə görə deyil, kompleks göstəricilərə əsaslanaraq əhalinin həyat səviyyəsini qiymətləndirərkən onların maddi vəziyyəti və tədqiq olunan dövrdə cəmiyyətin sosial-iqtisadi inkişafını xarakterizə edən bir sıra göstəricilər təhlil olunmuşdur. İkinci bölmədə iqtisadi rayonlarda həyat səviyyəsinin mövcud vəziyyəti təhlil edilmişdir. Üçüncü bölmədə iqtisadi rayonlarda regionlar üzrə əhalinin həyat səviyyəsinə təsir edən amillərin təhlili və inkişaf perspektivləri istiqamətində tədqiqat aparılmışdır.

Aparılan tədqiqat prosesində alınmış nəticələr ümumiləşdirilmiş, həmçinin regionların sosial-iqtisadi inkişafı problemlərinin tədqiqi fonunda həyat səviyyəsinin regional xüsusiyyətlərinin öyrənilməsilə bağlı araşdırmaların aparılması, bu inkişafın prioritetlərinin müəyyən edilməsi, onunla bağlı strategiyanın işlənib hazırlanması, regionların inkişaf səviyyəsini xarakterizə edən meyarların seçilməsi sosial-iqtisadi inkişaf amillərinin konkretləşdirilməsi, regional inkişafın idarəedilməsi metodlarının təkmilləşdirilməsi, bu məsələlərdə xarici təcrübədən bəhrələnmək istiqamətində tələb və təkliflər irəli sürülmüşdür.

Mövzu. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət proqramının həyata keçirilməsində bölgələrdə fəaliyyət göstərən elmi müəsisələrin və ali məktəblərin iştirakını təmin etməklə elmin inkişafına nail olmaq üçün təkliflərin hazırlanması (məsul icraçı Fərhad Qamboy oğlu Mikayılov).

Birinci bölmədə elmi-texniki potensial ən mühüm milli resurs, sənayenin inkişafının, ictimai və elmi həyatın yeniləşməsinin əsası kimi tədqiq edilmişdir. Elmi-texniki və təcrübi-konstruktor işlərinin (ETTKİ) səmərəli təşkili və elmi biliklərin istifadəsi, yüksək texnologiyalar bazarında dövlətlərin müvəffəqiyyətini, bu ölkələrin iqtisadi artımını təmin edən amil kimi öz əksini tapmışdır. İkinci bölmədə iqtisadi yüksəlişin təmin edilməsi, ilk növbədə elmin müasir tələblərə uyğun inkişaf etdirilməsindən asılıdır. İqtisadi sferada innovasiyalara əsaslanan inkişaf istiqamətlərinin müəyyən edilməsi, insan kapitalının formalaşması, intellektual potensialdan səmərəli istifadə edilməsi, elmi-tədqiqat işlərinin nəticələri, rəqabətə davamlı məhsul istehsalı, həyat səviyyəsinin yüksəldilməsi və s. bu kimi bir sıra aktual problemlərin həlli məhz elmin və elmi biliklərin inkişaf səviyyəsindən asılılığı tədqiq edilmişdir. Üçüncü bölmədə regionlarda elmin inkişaf səviyyəsinin təhlili tədqiq edilərək, postindustrial cəmiyyətdə bu məsələnin daha aktual olduğu göstərilmiş, inkişaf etmiş elmin iqtisadiyyata tətbiqi tədqiq edilmiş, bu haqda geniş şərh verilmişdir. Sonda aparılan tədqiqat prosesində alınmış nəticələr ümumiləşdirilmiş və elmi nəticələrdən səmərəli istifadə olunmasında qarşıya qoyulan məqsəd, daxili və xarici elmi-texniki məhsul bazarına rəqabət qabiliyyətli, prinsipcə yeni elmi-texniki, texnoloji məhsul çıxarmaqla ölkənin, o cümlədən regionların sosial-iqtisadi inkişafında nail oluna biləcək inkişaf meyilləri qeyd edilmiş və təkliflər irəli sürülmüşdür.

Mövzu. Makroiqtisadi mənzərə (rüblük bülletenlər)

İşdə rüblük səpkidə ölkə iqtisadiyyatında baş verən dəyişikliklər və mövcud vəziyyət makroiqtisadi səviyyədə təhlil edilmişdir.

Ölkə təqdimatının hazırlanması

İşdə respublikanın sosial, ictimai, tarixi, mədəni, coğrafi xüsusiyyətlərini də əks etdirməklə, əsasən iqtisadi yönümlü ölkə təqdimatı və eləcə də iqtisadiyyatın müxtəlif sahələri üzrə (investisiya, sahibkarlıq, regional və s.) təqdimatlar hazırlanmışdır. Bu təqdimatlar ölkə haqqında ümumi məlumat, eləcə də onun iqtisadiyyatının müxtəlif sahələri haqqında təfsilatı ilə informasiyanın əldə edilməsi baxımından xüsusilə xarici investorlar üçün faydalı ola bilər.

Mövzu. Kənd təsərrüfatı və onunla əlaqədar emal sahələrinin inkişafı üçün hazırlanmış layihə təkliflərinin qısa xülasəsi aşağıdakılardan ibarətdir:

- süd emalı zavodunun təşkili üzrə layihənin məqsədi regionun təbii xammalına əsaslanan gigiyenik və mikrobioloji baxımdan təmiz, yüksək keyfiyyətli süd məhsullarının istehsal olunmasıdır. Süd emalı zavodunun inşa edilməsi nəzərdə tutulan Dağlıq Şirvan iqtisadi rayonu üçün heyvandarlıq tarixən ənənəvi məşğulluq növü hesab oluna bilər. Regionun təbii-iqlim

şəraiti burada yüksək məhsuldarlığa malik heyvandarlıq kompleksinin inkişaf etdirilməsinə və bunun əsasında emal kompleksinin təşkilinə münbit şərait yaradır. Süd emalı zavodunun əsasən yerli süd xammalı hesabına və az miqdarda idxal olunan süd tozu hesabına fəaliyyət göstərməsi nəzərdə tutulur. Zavodun istehsal edəcəyi məhsullar ölkədə kənd təsərrüfatının inkişafının prioritet istiqamətlərindəndir. Zavodda təbii süd və az miqdarda süd tozundan ilkin xammal kimi istifadə edilməklə aşağıdakı cədvəldə göstərildiyi kimi müxtəlif yağlılıqda və geniş çeşiddə süd məhsulları növlərinin istehsal edilməsi nəzərdə tutulur;

- camışçılıq təsərrüfatının təşkili üzrə layihənin məqsədi camışçılıq təsərrüfatlarının yaradılmasıdır. Heyvandarlığın bu sahəsinin inkişafı üçün ölkədə əlverişli təbii iqlim və yem şəraiti vardır. Belə ki, Azərbaycanda 40294 bataqlıq, 20000 hektardan artıq qamış bitən ərazilər vardır ki, bu da camışların saxlanması və yetişdirilməsi üçün böyük əhəmiyyət kəsb edir. Camış məhsullarının maya dəyəri digər heyvandarlıq məhsullarının maya dəyərinə nisbətən 5-6 dəfə ucuz başa gəlir. Çünki camışların saxlanmasının təşkilində tövlə sistemindən daha çox düşərgə sisteminə üstünlük verilir ki, bu da baha başa gələn heyvandarlıq komplekslərinin tikintisinə qənaət etməyə imkan verir. Qeyd etmək lazımdır ki, camışlar mənfi 25 dərəcə temperaturda belə öz normal həyat tərzlərini təmin edə bilirlər. Camış südünün yağlılığı inək südü ilə müqayisədə 3 dəfə çoxdur. Camış südü süd kombinatlarının gəlirli işləməsinin mühüm amilidir;

- nohur balıqçılığının təşkili üzrə layihənin məqsədi regionlarda mövcud olan çay və təbii nohurlardan istifadə etməklə nohur balıqçılığının inkişaf etdirilməsidir. Balıq məhsulları ölkədə kənd təsərrüfatının inkişafının prioritet istiqamətlərindən birini təşkil edir və hesablamalar göstərir ki, bu sahənin müqayisəli və potensial üstünlükləri vardır. Nohur balıqçılığının səmərəli və gəlirli sahə olması onun bir sıra göstəricilərində özünü aydın şəkildə büruzə verir. Məsələn, bir sentner karp balığı əldə etmək üçün sərf olunan yemin miqdarı donuzçuluqda və ya maldarlıqda həmin miqdarda ət əldə etmək üçün sərf edilən yemin miqdarından 4-5 dəfə azdır. Ölkə ərazisində yerləşən nohurlarda yalnız təbii yem ehtiyatı hesabına balıq yetişdirildikdə, hər hektardan 2-3 sentner balıq götürmək mümkündür ki, bu da balıq məhsullarına olan tələbatın daxili imkanlar hesabına ödənilməsini təmin etməkdə mühüm əhəmiyyət kəsb edər. Balıq əti özünün yüksək qidalı və dadlı olması ilə də fərqlənir. Balıq ətində insan orqanizmi tərəfindən asanlıqla mənimsənilən çoxlu zülal, yağ və vitaminlər vardır. Ölkədə nohur balıqçılığının inkişaf etdirilməsi regionda digər əlaqədar sahələrin inkişafına öz təsirini göstərir və ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır;

- dəri emalı və dəri məmulatları istehsalı üzrə layihənin məqsədi dəri emalı və dəri məmulatları istehsalının inkişaf etdirilməsidir. Dəri emalı üçün tələb olunan iri və xırdabuynuzlu heyvan dərilərinin ölkəmizdə kifayət qədər tədarük edilməsi, dəri emalı sahəsində əhalinin tarixən formalaşmış vərdişləri (dabbaqçılıq sənəti), eyni zamanda ölkə daxilində istehsal olunan dəri məmulatlarının maya dəyərinin idxal olunan dəri məmulatlarının maya dəyərindən xeyli aşağı olması, ölkəmizin dəri məmulatlarının istehsalı üzrə müqayisəli üstünlüyə malik olması layihənin həyata keçirilməsinin zəruriliyini şərtləndirən amillər hesab edilir. Layihənin həyata keçirilməsi yeni iş yerlərinin yaradılması, əlaqədar sahələrin inkişafının stimullaşdırılması ilə yanaşı daxili bazarda dəri və dəri məmulatları məhsullarına olan tələbin yerli istehsal hesabına təmin edilməsi baxımından əhəmiyyətli hesab olunur. Xammal və əmək ehtiyatlarının mövcudluğu təklif olunan layihənin hər bir iqtisadi rayonda həyata keçirilməsini mümkün edir;

- anbar (kamera) yaradılması üzrə layihənin məqsədi kənd təsərrüfatı məhsullarının tədarükü, saxlanması və ticarətinin təşkili sahəsində icarə xidməti göstərməkdən ibarətdir. Anbar təsərrüfatı olmadan məhsul istehsalı və satışı prosesinin fasiləsizliyi təmin edilə bilməz. Kənd təsərrüfatı sahəsində anbar təsərrüfatlarının çatışmaması səbəbindən potensial məhsulun 15-20%-i xarab olduğundan son istehlakçılara çatdırıla bilmir. Digər tərəfdən saxlama şəraitinin olmaması, məhsulun keyfiyyətinin aşağı düşməsinə və onun kütləsində 20%-ə qədər təbii itkiyə səbəb olur. Məhsul yığımının əvvəllində saxlanma şəraitinin olmaması səbəbindən, fermerlər öz məhsullarını ucuz qiymətə satmağa məcbur olurlar. Saxlama kameraları isə itkinin qarşısını alaraq, il boyu fermerlərin öz məhsullarını sabit qiymətlərlə satmalarına imkan verir. Nəticədə isə kənd təsərrüfatı məhsullarının qiymətlərindəki kəskin mövsümi kənarlaşmalar aradan qaldırılmış olur. Digər tərəfdən kameralar məhsulların saxlanması rejiminə düzgün riayət etməyə imkan verdiyindən, saxlama rejiminin pozulması nəticəsində yarana bilən müxtəlif xəstəliklərin (məsələn, kartof özəyinin qaralması, fütapotogen mikroorqanizmlərin yaratdığı fitotrora, fomoz, boz kif, qara kif, bikterioz kimi xəstəliklərin) qarşısı alınmış olur;
- nişasta istehsalı layihəsinin məqsədi yerli və xarici sahibkarları cəlb etməklə nişasta istehsalını təşkil etməkdir. Layihə daxili bazarda nişastaya olan tələbi ödəməkdə və heyvandarlığın yemlə təminatında çox əhəmiyyətlidir. Nişasta kartofda olan bütün quru maddənin 75-80%-ni təşkil edir. Kartof nişastası adətən 20-25% amilozlardan və 75-80% isə amilopektinlərdən ibarətdir. Məhz bu maddələr onun köpməsinə səbəb olur. Kartofda nişastanın miqdarı coğrafi enlikdən də asılıdır. Belə hesab edilir ki, kartofda nişastanın miqdarı 50-57 ̊ şimal enliyindən 67 ̊ şimal enliyinə doğru hərəkət etdikcə azalmağa başlayır. Tezyetişən kartofda gecyetişən kartofa nisbətən az nişasta olur. Kartofda nişasta heç də bərabər paylanmamışdır. Daxilə doğru getdikcə nişastanın miqdarı azalmağa başlayır;
- texniki bitkilərin emalı üzrə layihənin məqsədi yerli və xarici sahibkarları cəlb etməklə texniki bitkilərin yağı və cecəsinin istehsalı layihəsini təşkil etməkdir;
- heyvandarlıq üçün qarışıq yem istehsalı üzrə layihənin məqsədi heyvandarlıq üçün qarışıq yem istehsalının təşkil edilməsindən ibarətdir. Çiyid cecəsi və qabığının istehsalının təşkil edilməsi üçün tələb olunan xammal mənbəyi olan çiyid Azərbaycanda kifayət qədərdir və hazırda ölkəmiz çiyid istehsalı üzrə müqayisəli üstünlüklərə malikdir. Digər tərəfdən heyvandarlığın yem tələbatının ödənilməsi üçün bu kimi sahələrin inkişafına böyük zərurət yaranmışdır.

Heyvandarlığın intensiv inkişafı hazırkı dövrün ən aktual problemidir. Hər yem vahidi hesabı ilə daha çox süd və ya ət istehsalı birinci dərəcədə yemin keyfiyyətindən və tərkibindən asılıdır. Qidalı yem daha çox ət və süd deməkdir. Yemlərin tərkibinin optimallaşdırılması, hər heyvan növü üzrə onların ayrılıqda hazırlanması heyvandarlığın intensivləşdirilməsinin əsas yoludur. Layihə daxili bazarda heyvandarlıq kompleksinin yemə olan tələbatının ödənilməsi, pambıq çiyidinin xam halda deyil, emal edildikdən sonra ixrac olunmasının təşviqi, ölkənin malik olduğu potensialdan səmərəli istifadə və heyvandarlığın inkişafına stimullaşdırıcı təsir etmək, əhalinin məşğulluğunun təmini baxımından böyük əhəmiyyət kəsb edir.

İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu tərəfindən kənd təsərrüfatının prioritet sahələri üzrə hazırlanmış bu konkret layihələr regionların sosial-iqtisadi inkişafı proqramına uyğun olaraq müxtəlif iqtisadi rayonlarda həyata keçirilmək və dövlət tərəfindən dəstəklənmək üçün Sahibkarlığa Kömək Milli Fonduna təklif edilmişdir (layihələr

2009-cu ilin iyun-iyul aylarında hazırlanmışdır). Hazırlanmış layihələrdə bütün hesablamalar aparılmış və layihələrin hər biri maliyyə cəhətdən əsaslandırılmışdır.

Analitik-təhlil işləri üzrə aşağıdakı işlər yerinə yetirilmişdir:

- vaxtaşırı ölkədə formalaşan iqtisadi durumun analitik təhlili və qiymətləndirilməsi aparılmışdır;
- İqtisadi İnkişaf Nazirliyinin və digər dövlət orqanlarının tapşırıqları əsasında cari operativ-analitik təhlil işləri aparılmışdır;
- Azərbaycanın dövri mətbuatında nəşr edilən iqtisadiyyata aid materiallar toplanmış, monitorinqi aparılmış və çap olunmuş iqtisadi məqalələrin sahələr üzrə kataloqu hazırlanmışdır;
- kütləvi informasiya vasitələrində yayılmış iqtisadi məlumatların mütəmadi olaraq şərhi təmin edilmişdir.

Elmi-təşkilati işlər üzrə aşağıdakılar yerinə yetirilmişdir:

- 16 dekabr 2009-cu il tarixdə Respublikada süd emalı və heyvandarlığın inkişaf etdirilməsi, bu sahədə məhsuldarlığın artırılması, aqrofermaların yaradılması, heyvandarlığın nümunəvi yem bazasının təşkil edilməsi və bu məqsədlə əkinə yararlı və əkinə yararsız torpaq sahələrindən istifadə, həmçinin sahənin regional inkişafı ilə bağlı problemlərin həlli yollarının müzakirəsinə həsr edilmiş Dəyirmi masa təşkil edilmişdir. Dəyirmi masanın işində Respublikanın bir sıra sahə institutlarından mütəxəssislər də iştirak etmişlər;
- İnstitutun əməkdaşları tərəfindən Kempbell P. Makkonell və Stenli L. Bryunun "Экономикс. Принципы, проблемы и политика" adlı kitabının 1-ci cildi Azərbaycan dilinə tərcümə edilmiş, institutun Elmi Şurasının qərarı ilə tərcümə variantı çapa tövsiyə edilmiş və kitabın 2-ci cildinin də tərcümə edilməsi haqqında qərar verilmişdir; iqtisadiyyat elminin və ölkə iqtisadiyyatının aktual problemlərinə dair mütəmadi olaraq metodoloji seminarlar təşkil edilmişdir;
- Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Baş Hesablama Mərkəzi ilə bağlanmış müqaviləyə əsasən institutun web səhifəsinin ilkin versiyası hazırlanmış və səhifə ilə bağlı materiallar redaktə edilmişdir;
- institutun əməkdaşlarının elmi məqalə və tezislərinin yerli və xarici jurnallarda dərc olunması ilə əlaqədar təşkilati yardım göstərilmişdir;
- institut əməkdaşlarının ölkə və beynəlxalq səviyyəli elmi-praktiki konfrans, simpozium, seminar və digər elmi məclislərdə iştirakına təşkilati yardım göstərilmişdir.

İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunda tədris işləri istiqamətində aşağıdakı işlər görülmüşdür:

- Nazirliyin regional və yerli qurumlarının əməkdaşları üçün treninqlərin təşkili ilə bağlı bütün zəruri işlər görülmüşdür;
- Azərbaycan Respublikasında aspirantura və doktorantura təhsil sisteminin fəaliyyətinin daha da təkmilləşdirilməsinə dair təkliflər hazırlanaraq İqtisadi İnkişaf Nazirliyinin "İqtisadi siyasət, təhlil və proqnozlaşdırma" şöbəsinə təqdim edilmişdir;
- Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Slavyan Universiteti və Qafqaz Universiteti olmaqla 3 ali təhsil müəssisəsindən göndərilən 19 tələbənin institutda təcrübə keçmələri təşkil edilmişdir.

2009-cu ildə Marketinq və İctimai əlaqələr istiqamətində aşağıdakı işlər görülmüşdür:

- institutun müsbət imicinin formalaşdırılması istiqamətində fəaliyyət davam etdirilmişdir;

- kütləvi informasiya vasitələri ilə mütəmadi işlər aparılmış və həmçinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunda təşkil olunan treninq-seminar, dəyirmi masa, metodoloji seminarların və digər elmi tədbirlərin ictimaiyyətə çatdırılması təmin edilmişdir;
- beynəlxalq donor təşkilatları ilə (ADB, UNCTAD, UNDP, USAID, UNESCAP) qurulmuş münasibətlər nəticəsində hazırlanmış və onlara təqdim olunmuş layihələrin reallaşması və bu əməkdaşlığın davam etdirilməsi istiqamətində işlər gücləndirilmiş və digər qrant proqramlarına sənədlər hazırlanaraq təqdim edilmişdir;
- xarici ölkələrdə analoji qurumların mütərəqqi iş təcrübəsi öyrənilmiş və Azərbaycana tətbiqi imkanları araşdırılmışdır;
- 2009-cu il 22 dekabrda institutun Elmi Şurasının yeni tərkibdə ilk iclası keçirilmiş və həmin iclas 2009-cu ildə keçirilən yeganə iclas olmuşdur. İclasda institutda yerinə yetirilən elmi-tədqiqat işlərinin mövzuları, aspirant, dissertant və doktorantların dissertasiya mövzuları, və s. bu kimi məsələlərin müzakirələri təşkil olunmuş və müvafiq qərarlar qəbul edilmişdir;
- aspirantura və doktorantura üzrə təhsilin keyfiyyətinin yüksəldilməsi, dissertasiyaların müdafiəsi ilə əlaqədar problemlərin həlli istiqamətində müvafiq işlər görülmüşdür;
- 2008-ci ildə institutun aspiranturasına ayrılmış 15 yer üzrə həyata keçirilən qəbul prosesi 2009-cu ilin əvvəlində yekunlaşmışdır. Ayrılmış 15 yerə 15 nəfər sənədlərini təqdim etmiş və keçirilən imtahanların (ixtisas, xarici dil, fəlsəfə) nəticələrinə əsasən onların hamısı qəbul edilmişdir. Lakin 1 nəfər öz arzusu ilə ərizə yazaraq aspirantura təhsilini davam etdirməkdən imtina etmişdir. Beləliklə, 2009-cu ildə instituta 8 nəfər əyani, 6 nəfər qiyabi olmaqla cəmi 14 aspirant qəbul edilmişdir;
- 2009-cu il ərzində institutun aspirant və dissertantlarından 10 nəfəri dissertasiya işlərini ilkin variantda bitirərək müzakirəyə təqdim etmiş, onlardan 7 nəfərin namizədlik dissertasiyası ilkin müzakirədən müvəffəqiyyətlə keçmiş və müvafiq Dissertasiya Şuralarına təqdim olunmaları haqda qərar qəbul edilmişdir. Eyni zamanda, İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu tərəfindən 10 namizədlik və 4 doktorluq dissertasiya işinə aparıcı təşkilat kimi və bir sıra dissertasiya işlərinin avtoreferatlarına institutun əməkdaşları tərəfindən müvafiq rəylərin verilməsi təmin olunmuşdur;
- İİETİ-nin kitabxana fondu yeni elmi ədəbiyyatlarla zənginləşdirilmişdir.

Həmin il elmi-redaksiya heyətinin sədri i.e.d., professor Vilayət Məmməd oğlu Vəliyevin rəhbərliyi ilə institutun "Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri" adlı elmi əsərlər toplusunun 15 ç.v. həcmində IX buraxılışı nəşr edilmişdir.



AZƏRBAYCAN RESPUBLİKASI

İQTİSADİ İNKİŞAF NAZİRLİYİ

İQTİSADİ İSLAHATLAR ELMİ-TƏDQİQAT İNSTİTUTU

AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ

*ELMİ ƏSƏRLƏR TOPLUSU*

IX BURAXILIŞ

BAKI-2009



Azərbaycan Respublikası
İqtisadi İnkişaf Nazirliyi
İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun
Elmi Şurasının qərarı əsasında çap olunur

**Elmi-redaksiya heyəti:**
**V.M. Vəliyev** (sədr)
**O.İ. İbrahimov**
**V.Ə. Rüstəmov**
**Ə.M. Babaşov**
**M.R. Rəsulova**
**S.Z. Abbasəliyeva** (məsul katib)
**T.Ş. Salıfova** (korrektor)

**Azərbaycan Respublikasında iqtisadi inkişafın xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu, IX buraxılış.**
**Bakı, 2009, 240 səh.**

**İSBN 9953-55-025-1**

İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu, 2009



MÜNDƏRİCAT-2009 (№IX)

V. VƏLİYEV, i.e.d., prof., V. RÜSTƏMOV, i.e.n., M. RƏSULOVA, i.e.n., E. QASIMOV, İİETİ-nin dissertantı, F. MİKAYILOV, İİETİ-nin dissertantı, N. EYNULLAYEV, İİETİ-nin dissertantı, M. MƏNSİMLİ, İİETİ-nin baş mütəxəssisi
**Ölkənin regionları üzrə kənd təsərrüfatının əsas ixtisaslaşma sahələri - ənənəvi sahələr üzrə mövcud variyyatın qiymətləndirilməsi** ........ 3

V. RÜSTƏMOV, iqtisad elmləri namizədi
**Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın indikativ planlaşdırılmasının tətbiqinin zəruriliyi və elmi-metodoloji əsasları haqqında** ........ 25

B. ƏHMƏDOV, iqtisad elmləri namizədi
**Milli iqtisadiyyatda investisiya resurslarının formalaşması xüsusiyyətləri** ........ 56

M. RƏSULOVA, iqtisad elmləri namizədi
**Azərbaycan Respublikasında əsas makroiqtisadi göstəricilərin dinamik sıralarının təhlili** ........ 76

N. EYNULLAYEV, İİETİ-nin dissertantı, V.ƏLİYEV, İİETİ-nin mütəxəssisi
**Regional rəqabətqabiliyyətliliyin nəzəri əsasları** ........ 112

F. MİKAYILOV, İİETİ-nin dissertantı, R. RZAYEV, İİETİ-nin dissertantı, K. MUSAYEV, İİETİ-nin baş mütəxəssisi
**Elmi-tədqiqat işlərinin istehsalata tətbiqinin sürətləndirilməsində texnoparkların roluna dair xəriçi ölkələrin təcrübələrinin tədqiqi** ........ 126



S. ABASOVA, iqtisad elmləri namizədi, dosent, İİETİ-nin baş elmi işçisi, N. ƏHMƏDOV, İİETİ-nin baş mütəxəssisi
**Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin təhlili və sahibkarlıq subyektləri üçün investisiya layihəsinin maliyyələşdirilməsi məsələləri (2009-2010-cu illər)** ........ 145

F. MİKAYILOV, İİETİ-nin dissertantı
**Azərbaycan Respublikasının iqtisadi regionlarında səhiyyənin inkişaf məsələləri** ........ 155

АБАСОВА С., к.э.н., доцент, главный научный сотрудник НИИЭР
**Возможности развития инновационно-инвестиционной инфраструктуры** Азербайджана ........ 165

M. MEHDİYEV, İİETİ-nin aparıcı elmi işçisi
**Azərbaycanda kənd təsərrüfatı məhsullarının rəqabətqabiliyyətliliyinin artırılması və kompleks inkişafına klaster yanaşma** ........ 171

E. İMANOV, İİETİ-nin aparıcı elmi işçisi
**Azərbaycan Respublikasında turizm və müalicəvi turizm-kurort müəssisələrinin inkişafı** ........ 195

M. MEHDİYEV, İİETİ-nin aparıcı elmi işçisi
**SAS (RAS) metodu və 2009-cu ilin xərc-buraxılış əmsallarının yenilənməsi** ........ 222

T. MURSAKULOVA, İİETİ-nin baş mütəxəssisi
**Kənd təsərrüfatında struktur dəyişməsi indeksinin hesablanması** ........ 232

**Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun strukturu (2010-cu il)**



| Vəzifənin adı | Adı və soyadı |
|---|---|
| 1. Rəhbərlik | |
| Direktor | Vilayət Vəliyev |
| Direktor müavini | Fəxri Həsənov |
| Direktor müavini | Oruc İbrahimov |
| Direktor müavini | [illegible] |
| Elmi katib | Gülnarə Nuriyeva |
| 2. Makroiqtisadi modelləşdirmə və strateji planlaşdırma şöbəsi | |
| Şöbə müdiri | Fərhad Mikayılov |
| Baş elmi işçi | Vaqif Rüstəmov |
| Baş elmi işçi | Yadulla Həsənli |
| Baş elmi işçi | [illegible] |
| Aparıcı elmi işçi | [illegible] |
| Baş mütəxəssis | [illegible] |
| Baş mütəxəssis | [illegible] |
| Baş mütəxəssis | [illegible] |
| Baş mütəxəssis | [illegible] |
| 3. Sahibkarlığın inkişafı və investisiya siyasəti şöbəsi | |
| Şöbə müdiri | Malik Mehdiyev |
| Baş mütəxəssis | [illegible] |
| Baş mütəxəssis | [illegible] |
| 4. Sahəvi və regional inkişaf problemləri şöbəsi | |
| Şöbə müdiri | Nurəddin Eynullayev |
| Aparıcı elmi işçi | [illegible] |
| Aparıcı elmi işçi | [illegible] |
| Baş mütəxəssis | [illegible] |
| Mütəxəssis | [illegible] |
| 5. Davamlı inkişaf problemləri şöbəsi | |



| | |
|---|---|
| Şöbə müdiri | Rauf Rzayev |
| Baş mütəxəssis | [illegible] |
| Baş mütəxəssis | [illegible] |
| 6. Tədris və koordinasiya şöbəsi | |
| Şöbə müdiri | [illegible] |
| Baş elmi işçi | [illegible] |
| Böyük elmi işçi | [illegible] |
| Baş mütəxəssis | [illegible] |
| Baş mütəxəssis | [illegible] |
| Mütəxəssis | [illegible] |
| 7. İnformasiya təminatı şöbəsi | |
| Şöbə müdiri | [illegible] |
| Baş mütəxəssis | [illegible] |
| Baş mütəxəssis | [illegible] |
| 8. Maliyyə-təsərrüfat və ümumi işlər şöbəsi | |
| Şöbə müdiri | [illegible] |
| Baş mühasib | [illegible] |
| Baş mütəxəssis | [illegible] |
| Baş mütəxəssis | [illegible] |
| Baş mütəxəssis | [illegible] |
| Baş mütəxəssis | [illegible] |
| Baş mütəxəssis | [illegible] |
| Baş mütəxəssis | [illegible] |
| Mütəxəssis | [illegible] |
| Mütəxəssis | [illegible] |

**2010-cu ilin** əvvəlində İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun Elmi-Tədqiqat İş Planı İqtisadi İnkişaf Nazirliyinin əlaqədar strukturları ilə razılaşdırılaraq, təsdiq olunmuş və bütün işlər bu plana uyğun olaraq təşkil edilmişdir.

2010-cu ildə İİETİ İş Planına müvafiq olaraq fəaliyyətini elmi-tədqiqat işləri, analitik təhlil işləri, elmi-təşkilati işlər, tədris işləri, marketinq və ictimai əlaqələr üzrə işlər, elmi katiblik işləri istiqamətləri üzrə müəyyənləşdirmişdir. Həmin il İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunda İş Planından əlavə olaraq, bir sıra Dövlət Proqramları üzrə həyata keçirilən tədbirlərə uyğun işlər yerinə yetirilmişdir.

2010-cu ildə İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda Azərbaycan Respublikası iqtisadiyyatının qeyri-neft sektorunun dayanıqlı inkişafı problemlərinin tədqiqi istiqamətində və həmçinin İş Planında yerinə yetirilməsi nəzərdə tutulan aşağıdakı elmi-tədqiqat işləri yerinə yetirilmişdir:

***Problem. Regionların inkişaf problemləri***

Mövzu. Regionların sosial-iqtisadi inkişafı üzrə reytinqinin müəyyən edilməsi (məsul icraçılar: i.e.d. Yadulla Həsənli, i.e.n. Fəxri Həsənov, Nurəddin Eynullayev). Tədqiqat işi çərçivəsində inkişaf indekslərinin hesablanması üzrə BMT İnkişaf Proqramı tərəfindən təklif edilmiş metodologiyaya uyğun olaraq iqtisadi rayonların reytinqi müəyyən edilmişdir. Tədqiqat Kəlbəcər-Laçın iqtisadi rayonu işğal altında olduğundan bu rayon istisna olmaqla qalan iqtisadi rayonları əhatə etmişdir. Qiymətləndirmə 2003-2009-cu illər üzrə aparılmış, sosial-iqtisadi inkişafın meyarları 2003-cü ildə 25, 2004-2005-ci illərdə 26, 2006-2008-ci illərdə 28, 2009-cu

ildə isə 27 parametr üzrə hesablanmış və nəticələrə əsasən iqtisadi rayonların reytinqi qurulmuşdur.

Mövzu. İqtisadi rayonların sosial-iqtisadi pasportunun hazırlanması (məsul icraçılar: i.e.d., prof. Vilayət Məmməd oğlu Vəliyev, i.e.n. Rofət Nofəl oğlu Hüseynəliyev, Nurəddin Əflatun oğlu Eynullayev). Bu iş çərçivəsində iqtisadi rayonların sosial-iqtisadi vəziyyətinin mövcud mənzərəsini, təbii və əmək resurslarını özündə əks etdirən informasiya bazasının formalaşdırılması məqsədilə ölkənin iqtisadi rayonları üzrə sosial-iqtisadi pasportları hazırlanmışdır. Pasportlar hazırlanarkən xarici ölkələrin bu sahədə təcrübəsi öyrənilmiş, Azərbaycanın iqtisadi rayonlarına dair sosial-iqtisadi məlumatlar toplanmış və yerləşdirilmişdir. Sosial-iqtisadi pasportlarda iqtisadi rayonların ərazisi, relyefi, iqlimi, faydalı qazıntı ehtiyatları, iqtisadi potensialı və s. əsas göstəriciləri müxtəlif cədvəl, diaqram və şəkillərdən istifadə olunmaqla şərh edilmişdir. Pasportlarda iqtisadi rayonların investisiya istiqamətləri göstərilmiş və burada mövcud olan müəssisə və təşkilatların siyahısı verilmişdir.

Mövzu. Regionların sosial-iqtisadi inkişafına klaster yanaşmasının tətbiqi üçün təkliflərin hazırlanması (məsul icraçılar: i.e.n. Fəxri Həsənov, Nurəddin Eynullayev). Bu işdə regionların sosial-iqtisadi inkişafına klaster yanaşmasının nəzəri-metodoloji əsasları araşdırılmışdır. Tədqiqat işində regional inkişafda bu yanaşmanın üstünlükləri tədqiq edilərək, bu sahədə dünya ölkələrinin təcrübəsi öyrənilmiş və ümumiləşdirilmişdir.

Mövzu. Lənkəran iqtisadi rayonunun sosial-iqtisadi vəziyyətinin qiymətləndirilməsi (məsul icraçılar: i.e.d., prof. Vilayət Məmməd oğlu Vəliyev, Nurəddin Əflatun oğlu Eynullayev). Tədqiqat işinin məqsədi Lənkəran iqtisadi rayonunun sosial-iqtisadi vəziyyətini xarakterizə edən göstəricilərin təhlili əsasında regionun sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına dair elmi-cəhətdən əsaslandırılmış təkliflərin verilməsindən ibarət olmuşdur. Bunun üçün bir sıra informasiya mənbələrindən – İqtisadi İnkişaf Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Statistika Komitəsi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi və s. məlumatlarından istifadə olunmuşdur. Tədqiqat işi hesabat dövründə tamamlanmış və müvafiq hesabat təqdim edilmişdir.

***Problem. Kənd təsərrüfatının inkişafı problemləri***

Mövzu. Kənd təsərrüfatının kompleks inkişafına dair təkliflərin hazırlanması (məsul icraçılar: i.e.d. Yadulla Həsənli, Malik Mehdiyev, i.e.n. Fəxri Həsənov). Tədqiqat işi üzrə aqrar-sənaye kompleksinə aid məhsulların büdcəsinin hazırlanması üzrə bütün məlumatlar sorğu vasitəsilə toplanmış və ümumiləşdirilmişdir. Həmin məlumatlar məhsullararası balans üçün hazırlanmış cədvəllərə köçürülmüş, bitkiçilik məhsulları istehsalının digər sahələrlə əlaqəsi qiymətləndirilmişdir. Əldə edilmiş nəticələr əsasında kənd təsərrüfatının kompleks inkişafına dair təkliflər hazırlanmışdır.

Mövzu. Kənd təsərrüfatı sahələrinin inkişafı üzrə layihə təkliflərinin hazırlanması (məsul icraçılar: i.e.d. Yadulla Həsənli, Malik Mehdiyev). Bu tədqiqat işində aşağıdakılar yerinə yetirilmişdir:

- kombinələşdirilmiş yem istehsalı üzrə layihə təkliflərinin hazırlanması məqsədilə Respublikamızda becərilən və yetişən yem bitkilərinin qida tərkibini əks etdirən cədvəllərin yığılması davam etdirilmiş, kənd təsərrüfatı heyvanlarının növləri və yaş tərkibinə müvafiq tələbatlar cədvəli tərtib edilmiş və optimal yem rasionlarının hazırlanması mərhələsi başa çatdırılmışdır;

- heyvandarlıq məhsullarının kompleks emalı üzrə layihə təkliflərinin hazırlanması üzrə iş davam etdirilmiş və səmərəli ərzaq normaları öyrənilmiş, ət kombinatının yaradılması və onun əsasında heyvanların kompleks emalının iqtisadi səmərəliliyinin hesablanması üzrə texniki-iqtisadi materiallar toplanmışdır.

- ət kombinatının yaradılmasının layihə təklifi, onun səmərəliliyinin qiymətləndirilməsi üzrə hazırlıq işləri bitmiş və bilavasitə qiymətləndirməyə başlanmış və layihə tamamlanmışdır.

***Problem. Davamlı inkişaf konsepsiyası və onun Azərbaycanda tətbiqi problemləri***

Mövzu. Azərbaycanda insan inkişafı indeksinin qiymətləndirilməsi (məsul icraçılar: i.e.d. Yadulla Həsənli, Fərhad Mikayılov). Tədqiqat işinin icra planına uyğun olaraq cari ilin ikinci yarımilliyində aşağıdakı işlər yerinə yetirilmişdir:

"İnsan yoxsulluğu davamlı insan inkişafı konsepsiyasının vacib tərkib hissəsi kimi" bölməsi üzrə BMT-nin İnkişaf Proqramı tərəfindən qəbul edilmiş vahid konsepsiyaya əsasən insan yoxsulluğunun azaldılması məsələləri araşdırılmış və nəticələr əldə edilmişdir;

"Yoxsulluğun növləri və onun ölçülməsi problemləri" bölməsi üzrə yoxsulluğun növləri və ölçülməsi metodları tədqiq olunmuşdur;

"İnsan inkişafı indeksinin nəzəri-metodoloji məsələləri" bölməsində insan yoxsuluğuna dair nəzəri yanaşmalar tədqiq olunmuş və ümumiləşdirilmiş, yoxsulluğun qiymətləndirilməsi metodologiyaları araşdırılmış və müvafiq metodologiya seçilmişdir;

"İnsan inkişafı indeksi, onun hesablanması və alınmış nəticələrin təhlili" bölməsində Azərbaycan Respublikasında insan inkişafı indeksi qiymətləndirilmiş, alınmış nəticələr seçilmiş xarici ölkələrlə müqayisə edilmiş, insan yoxsulluğu üzrə olan problemlər ümumiləşdirilmişdir;

"İnsan inkişafı indeksinin yaxşılaşdırılması yolları" bölməsində ölkəmizdə insan yoxsulluğunun azaldılmasının həlli yolları verilmişdir. Tədqiqat işinin sonunda nəticələr ümumiləşdirilmiş və insan yoxsulluğunun azaldılması istiqamətində müvafiq təklif və tövsiyələr verilmişdir.

Mövzu. Azərbaycan Respublikasının regionlarının, kənd təsərrüfatının, turizmin və nəqliyyat-tranzit sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi istiqamətində təkliflər paketinin hazırlanması (məsul icraçı: i.e.n. Fəxri Həsənov). Bu tədqiqat işində Azərbaycan Respublikasında kənd təsərrüfatı, nəqliyyat-tranzit, turizm sektorlarının və Lənkəran iqtisadi rayonu timsalında regional iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi istiqamətlərində təkliflər paketi hazırlanaraq təqdim edilmişdir.

Mövzu. Makroekonometrik modelin konseptual əsaslarının işlənməsi, dəyişənlərin və tənliklərin müəyyən edilməsi, məlumat bazasının formalaşdırılması (məsul icraçı: i.e.n. Fəxri Həsənov). Tədqiqat işi çərçivəsində Azərbaycan iqtisadiyyatı üçün makroekonometrik modelin konseptual əsasları ilkin variantda işlənmiş, model üçün zəruri olan dəyişənlər və tənliklər müəyyən edilmiş, məlumat bazası formalaşdırılmışdır.

***Problem. Sahibkarlığın inkişafı problemləri***

Mövzu. Aqrar-sənaye məhsullarının rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi (məsul icraçılar: i.e.d. Yadulla Həsənli, Malik Mehdiyev). Aqrar-sənaye məhsullarının aşkar müqayisəli üstünlük indekslərinin zaman sırası əsasında trend modellərinin qiymətləndirilməsi üçün 300-dən çox məhsulun idxal və ixracı barədə 2000-2008-ci illər üzrə məlumatlar toplanaraq zaman sıraları formalaşdırılmışdır. Statistik sıraların ilkin statistik təhlili başa çatdırılmışdır.

Mövzu. Azərbaycan Respublikasının kiçik və orta sahibkarlıq subyektlərinin korporativ idarəetmə sistemlərinin təkmilləşdirilməsi (məsul icraçılar: i.e.d., prof. Vilayət Vəliyev, i.e.n. Samirə Abasova). Bu tədqiqat işində korporativ idarəetmə və korporativ maliyyə sistemlərinin nəzəri-metodoloji əsasları araşdırılmış, Azərbaycan Respublikasının fəaliyyət subyektlərində korporativ idarəetmə və korporativ maliyyə sistemlərinin qurulması, həmçinin bu sistemlərin təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələr verilmişdir. Tədqiqat işində həmçinin kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinə təsir edən amillər araşdırılmış, innovasiya sahibkarlığına təsir göstərən amillər iqtisadi və sosial cəhətdən qiymətləndirilmiş, orta və kiçik sahibkarlıq obyektlərinin perspektiv innovasiya fəaliyyətinin inkişaf etdirilməsinə yönəldilən tədbirlərin həyata keçirilməsi istiqamətində təkliflər verilmişdir.

***Problem. Azərbaycan Respublikasının qeyri-neft ixracı: problemlər və perspektivlər***

Mövzu. Valyuta məzənnəsinin qeyri-neft ixracına təsirinin qiymətlən-dirilməsi (məsul icraçı: i.e.n. Fəxri Həsənov). Bu tədqiqat işində Johansenin Vektor Xətanın Təshih Modelini tətbiq etməklə manatın real mübadilə məzənnəsinin qeyri-neft ixracına təsiri tədqiq edilmişdir. Qiymətləndirmənin nəticələri onu göstərir ki, qeyri-neft ÜDM-i qısa və uzun müddətdə qeyri-neft ixracına müsbət təsir etməsinə baxmayaraq, real mübadilə məzənnəsi mənfi təsirə malikdir. Xətaların təshih əmsalı göstərir ki, qısamüddətli dalğalanmaların bir rüb ərzində 21%-i uzunmüddətli tarazlığa təshih olunur. Tədqiqatın nəticələrinə əsaslanaraq demək olar ki, real mübadilə məzənnəsinin möhkəmlənməsi qeyri-neft ixracının artımına mane olan əsas amillərdən biridir. Qeyri-neft ixracının dəstəklənməsi Azərbaycan Respublikasının ən mühüm strateji iqtisadi siyasət məsələlərindən biri olduğu üçün tədqiqatın nəticələri iqtisadi siyasət qərarları hazırlayanlar üçün faydalı olacaqdır.

Mövzu. Qeyri-neft sektorunun inkişafında optimal büdcə-vergi siyasətinin rolu (məsul icraçı: i.e.n. Fəxri Həsənov). Tədqiqat işində Azərbaycanda qeyri-neft sektorunun inkişafında büdcə-vergi siyasətinin rolu 2000-2009-cu illərin rüblük iqtisadi göstəriciləri əsasında ekonometrik araşdırılmışdır. Alınan nəticələr onu göstərir ki, uzunmüddətli dövrdə büdcə xərclərinin artması qeyri-neft ÜDM-nin artmasına, vergi daxilolmalarında artım isə qeyri-neft ÜDM-nin azalmasına səbəb olur.

Mövzu. Qeyri-neft ixracının əsas determinantları (məsul icraçı: i.e.n. Fəxri Həsənov). Bu tədqiqat işində Azərbaycanın qeyri-neft sektorunun ixracına təsir edən digər – hüquqi, institutional və mikro səviyyəli amillər araşdırılmışdır. Nəticələr göstərir ki, Azərbaycanda xarici ticarətin tənzimlənməsi sahəsində qanunvericiliyin və normativ-hüquqi aktların təkmilləşdirilməsi zərurəti aktual olaraq qalmaqdadır.

İş. Əsas istehlak məhsullarının qiymətlər monitorinqinin nəticələrinin təhlili (məsul icraçı: i.e.n. Fəxri Həsənov). Bu iş üzrə hər ayın 15-dək əsas istehlak məhsullarının qiymətlərinin monitorinqinin nəticələrinin təhlili aparılmış və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə təqdim edilmişdir. İstehlak bazarının monitorinqinin nəticələrinin təhlilinin əsas məqsədi İqtisadi İnkişaf Nazirliyi Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin istehlak bazarında istehlak məhsullarının qiymətləri üzərində apardığı monitorinqlərin təhlilindən ibarətdir. Monitorinqlər Bakı şəhərinin və regionların istehlak bazarlarında aparılır. Sözügedən istehlak məhsulları 57 adda ərzaq məhsulları, 26 adda meyvə və tərəvəz məhsulları və 49 adda tikinti materiallarından ibarətdir. Qeyd edilir ki, monitorinqlər həftədə bir neçə dəfə olmaqla hər ay həyata keçirilir. Monitorinqdən əldə olunan nəticələr əsasında yuxarıda qeyd edilən qruplar, o cümlədən qrupa daxil olan hər bir məhsul

üzrə qiymət indeksləri hesablanır. Qiymət indeksləri hesablanarkən baza dövrü kimi müvafiq ilin yanvar ayı götürülür. Təhlilin nəticələri istehlak bazarında qiymətlərin dinamikasını izləməyə imkan verir.

İş. Azərbaycanın dövri mətbuatında çap olunmuş iqtisadi materialların sahələr üzrə sistemləşdirilməsi və kataloqunun hazırlanması (məsul icraçı: i.e.n. Ramiz Rzaquliyev). İş planına müvafiq olaraq, institutda 2010-cu il ərzində “Azərbaycanın dövri mətbuatında və Rusiya jurnallarında çap olunmuş iqtisadi məqalələrin sahələr üzrə KATALOQU” hazırlanmışdır. “Kataloq”a iqtisadiyyatın 19 sahəsi üzrə Azərbaycanın dövri mətbuatında çap olunmuş 483 iqtisad yönümlü məqalələrin siyahısı daxil edilmiş, məqalələrin elektron versiyaları isə İİETİ-nin bazasına daxil edilmişdir. Həmçinin “kataloq”a Azərbaycanda və Rusiyada çap olunmuş iqtisadi jurnalların xülasələri, İqtisadi İnkişaf Nazirliyi KİV səhifələrində, İİETİ-nin Elmi-texniki kitabxanasına daxil olmuş yeni nəşrlər, Rusiyanın statistik məcmuələri bölmələri daxil edilmişdir. “Kataloq” İİETİ-nin Elmi-texniki kitabxanasında və institutun internet saytında yerləşdirilmişdir.

İş. Statistik məlumatların toplanması, işlənməsi, təsnifləşdirilməsi, tədqiqat tələblərinə uyğunlaşdırılması və dövri olaraq yeniləşdirilməsi (məsul icraçı: i.e.n. Oruc İbrahim oğlu İbrahimov). Bu tədqiqat işində mütəmadi olaraq makro və mezo iqtisadi göstəricilərin yenilənməsi, bazanın genişləndirilməsi və institutda yerinə yetirilən tədqiqatların məqsədlərinə müvafiq ilkin emalı həyata keçirilmişdir.

İş. Rüblük makroiqtisadi mənzərə-bülletenlərin hazırlanması (məsul icraçı: i.e.n. Fəxri Həsənov). 2010-cu ilin birinci, ikinci və üçüncü rübləri üzrə makroiqtisadi mənzərə bülletenləri hazırlanmış, dördüncü rüb üzrə bülleten isə 2010-cu ilin həmin dövr üçün əsas sosial-iqtisadi göstəriciləri Dövlət Statistika Komitəsi tərəfindən açıqlandıqdan sonra tamamlanmışdır.

İş. İqtisadi sahələr üzrə təqdimatların hazırlanması (məsul icraçılar: i.e.n. Fəxri Həsənov, Rofət Hüseynəliyev). Bu tədqiqat işində “Azərbaycan Respublikası haqqında təqdimat” toplusu və iqtisadi rayonların sosial-iqtisadi pasportları, həmçinin kənd təsərrüfatının sahələri üzrə informativ bülletenlər hazırlanmışdır.

Mövzu. Azərbaycan Respublikasında mənzil-kommunal təsərrüfatlarının mövcud problemləri (məsul icraçılar: i.e.d. Vilayət Məmməd oğlu Vəliyev). Tədqiqat işinin icra planına uyğun olaraq cari ildə ölkənin mənzil-kommunal təsərrüfatında mövcud olan problemlər kompleks tədqiq olunmuş və bu problemlərin həlli istiqamətində təklif və tövsiyələr hazırlanmışdır.

Həmçinin cari ildə İİETİ-də müxtəlif Dövlət Proqramları, əmr və tapşırıqlar çərçivəsində digər işlər də yerinə yetirilmişdir:

Mövzu. İxraca əsaslanan inkişaf hipotezi: Azərbaycan iqtisadiyyatı üçün empirik nəticələr (məsul icraçı: i.e.n. Fəxri Həsənov). Tədqiqat işində qeyri-neft sektorunun məlumatları əsasında kointeqrasiya təhlili aparmaqla İxraca Əsaslanan İnkişaf (İƏİ) hipotezinin Azərbaycan iqtisadiyyatına tətbiqi imkanları araşdırılmışdır. Qiymətləndirmə nəticələri qeyri-neft ixracının qeyri-neft iqtisadi artım dinamikasına müsbət təsir etdiyini göstərir. Bundan başqa, empirik nəticələr qeyri-neft iqtisadi artımı ilə Birbaşa Xarici İnvestisiyalar (BXİ) arasında da müsbət əlaqənin olduğunu üzə çıxarır. Səhvlərin təshihi dəyişənin qısamüddətli dəyişmələrin uzunmüddətli tarazlıq əlaqəsinə korreksiya oluna bildiyini göstərir. Tədqiqatın nəticələri əsasında bu qənaətə gəlmək olar ki, İƏİ strategiyası Azərbaycan iqtisadiyyatının post-neft dövründə əhəmiyyətli iqtisadi siyasət strategiyalarından biri ola bilər. İqtisadi artımın digər

mənbələrinin aşkar olunması Azərbaycan Respublikasının strateji iqtisadi siyasətinin təxirəsalınmaz məsələlərindən biri olduğundan bu tədqiqat işinin nəticələri siyasət qurucuları üçün faydalı ola bilər.

Mövzu. Azərbaycan iqtisadiyyatında iqtisadi artım və inflyasiya arasında əlaqənin ekonometrik qiymətləndirilməsi (məsul icraçı: i.e.n. Fəxri Həsənov). Tədqiqat işində Azərbaycanın iqtisadi inkişafının 3-cü mərhələsi hesab edilən sıçrayışlı iqtisadi artım dövründə (2004-2009-cu illərin rüblük göstəriciləri əsasında) inflyasiya və iqtisadi artım arasındakı əlaqə araşdırılmışdır. Aparılan ekonometrik qiymətləndirmələrin nəticəsi göstərir ki, uzun və qısamüddətli dövrlərdə inflyasiya iqtisadi artım üzərində statistik əhəmiyyətli təsirə malikdir. Xətanın təshih modelinin nəticəsi göstərir ki, qısamüddətli dövrdə yaranmış dalğalanma uzunmüddətli tarazlıqda 1 rüb ərzində özünü 76% təshih edir. Bu tədqiqatın digər mühüm nəticəsi olaraq müəyyən edilmişdir ki, inflyasiyanın iqtisadi artım üçün kənar həddi 13%-ə bərabərdir. Yəni, 13%-dək olan inflyasiya iqtisadi artım üçün təhlükəli deyil, lakin bu həddi keçən inflyasiya iqtisadi artım üçün təhlükəlidir.

Mövzu. Giriş-çıxış cədvəllərinə əsaslanaraq Azərbaycan iqtisadiyyatının sektorları üçün tarazlı qiymətlər modeli (məsul icraçılar: i.e.d. Yadulla Həsənli, i.e.n. Fəxri Həsənov). Tədqiqatda 2001-2006-cı illərdə Azərbaycan iqtisadiyyatının əmtəə və xidmətlərinin istehsalı və bölüşdürülməsinin sahələrarası balans cədvəlləri qurulmuş, müxtəlif ssenarilər əsasında simulyasiyalar aparmaqla müqayisəli təhlillər aparılmışdır.

Mövzu. Bank kreditlərinin qeyri-neft sektoruna təsiri (məsul icraçı: i.e.n. Fəxri Həsənov). Tədqiqat işində Azərbaycan Respublikasında bank kreditlərinin qeyri-neft sektoruna təsiri tədqiq edilmişdir. Bu məqsədlə Engle-Granger yanaşmasından istifadə edilərək göstəricilər arasında kointeqrasiyanın mövcudluğu yoxlanılmış, xətanın təshihi mexanizmi də nəzərə alınmaqla qısamüddətli dövr modeli qurulmuşdur. Tədqiqat işində belə bir nəticəyə gəlinmişdir ki, bank kreditləri istər uzun, istərsə də qısamüddətli dövrdə qeyri-neft sektoruna statistik əhəmiyyətli müsbət təsirə malikdir və qısamüddətli dövrdə bu əlaqədə baş verən kənarlaşmalar tezliklə uzunmüddətli tarazlığa təshih olunur. Tədqiqat işinin nəticələri qeyri-neft sektorunun inkişafında bank kreditlərindən səmərəli istifadə edilməsi məsələlərində iqtisadi qərarlar hazırlayanlar üçün faydalı ola bilər.

Mövzu. Kommersiya banklarının xaricdən borclanmasının bu qurumların kredit təkliflərinə təsiri (məsul icraçı: i.e.n. Fəxri Həsənov). Tədqiqat işində Azərbaycan Respublikasında 2005-2008-ci illərin rüblük səpkisində kommersiya banklarının xaricdən borclanmasının bu qurumlar tərəfindən iqtisadiyyata kredit qoyuluşlarına təsiri ekonometrik üsullarla kəmiyyətcə qiymətləndirilmiş və belə bir nəticəyə gəlinmişdir ki, kommersiya banklarının xarici öhdəliklərinin artım sürətinin 1 faiz-bənd yüksəlməsi onların iqtisadiyyata kredit qoyuluşlarının artım sürətini 0.11 faiz-bənd artırır.

Mövzu. Cari transferlərin qeyri-neft sektoruna təsirinin ekonometrik qiymətləndirilməsi (məsul icraçı: i.e.n. Fəxri Həsənov). Tədqiqat işində Azərbaycan Respublikasında 2001-2008-ci illərin rüblük səpkisində cari transferlər üzrə daxilolmaların əhalinin gəlirlərinə və qeyri-neft sektorunun əlavə dəyərinə təsiri araşdırılır. Nəticələrin adekvatlığını yoxlamaq məqsədilə iki müxtəlif ekonometrik üsulla kəmiyyət qiymətləndirmələri aparılmışdır. Hər iki üsuldan alınan nəticələr üst-üstə düşür və nəticələrə görə, qısamüddətli dövrdə cari transferlər üzrə daxilolmaların əhalinin gəlirləri üzərində bir və üç rüblük gecikmələr ilə, qeyri-neft sektorunun

əlavə dəyəri üzərində isə üç rüblük gecikmələr ilə müşahidə olunan statistik əhəmiyyətli müsbət təsiri vardır.

Mövzu. Regionların mövcud potensialının qiymətləndirilməsi və ölkə üzrə əlavə dəyərin formalaşmasında onların rolunun artırılmasına dair təkliflərin hazırlanması (məsul icraçı: Emil Filman oğlu Qasımov). Azərbaycan Respublikasının iqtisadi inkişafının hazırkı mərhələsində qarşıda duran vacib vəzifələrdən biri ölkə iqtisadiyyatının bütün sahələrinin, o cümlədən, qeyri-neft sektorunun həm sahəvi, həm də regional baxımdan tarazlı inkişafının reallaşdırılmasından, əhalinin ucuz və keyfiyyətli ərzaq təminatının daha da yaxşılaşdırılmasından ibarətdir. Regionlarda əlavə dəyərin formalaşmasında mövcud potensialın qiymətləndirilməsi prosesində Rusiya Federasiyası İqtisadi İnkişaf Nazirliyi tərəfindən hazırlanmış və tətbiq edilən kompleks qiymətləndirmə metodikasından istifadə olunmuşdur. Qiymətləndirmənin nəticələri nəzərə alınmaqla regionlarda məhsul buraxılışının artırılması istiqamətləri təklif edilmiş, bu zaman dövlət xərclərinin effektivliyinə də diqqət yetirilməsinin əhəmiyyəti nəzərə alınmışdır.

Analitik-təhlil işləri üzrə rüblük səpkidə ölkənin makroiqtisadi durumunun analitik təhlili aparılmış, İqtisadi İnkişaf Nazirliyinin və digər dövlət orqanlarının tapşırıqları əsasında cari operativ-analitik təhlil işləri yerinə yetirilmiş, Azərbaycanın dövri mətbuatında nəşr edilən iqtisadiyyata aid materiallar toplanmış, monitorinqi aparılmış və çap olunmuş iqtisadi məqalələrin sahələr üzrə kataloqu hazırlanmışdır.

Elmi-təşkilati işlər üzrə aşağıdakılar yerinə yetirilmişdir:

- 2010-cu il 09 iyun tarixində "Azərbaycan Respublikasının iqtisadi rayonlarının sosial-iqtisadi pasportları"nın təqdimatına həsr edilmiş Dəyirmi masa təşkil edilmişdir. Dəyirmi masanın işində bir sıra nazirliklərdən - Təhsil, Kənd Təsərrüfatı, Rabitə və İnformasiya Texnologiyaları nazirliklərindən, Azərbaycan Milli Elmlər Akademiyasından, Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutundan, Azərbaycan Sahibkarlar Konfederasiyasından, Davamlı İnkişaf İctimai Birliyindən və bir sıra digər təşkilatlardan da mütəxəssislər iştirak etmişlər;
- iqtisadiyyat elminin və ölkə iqtisadiyyatının aktual problemlərinə dair mütəmadi olaraq metodoloji seminarlar təşkil edilmişdir;
- institutun əməkdaşlarının elmi məqalə və tezislərinin yerli və xarici jurnallarda dərc olunması ilə əlaqədar təşkilati yardım göstərilmişdir;
- institut əməkdaşlarının ölkə və beynəlxalq səviyyəli elmi-praktiki konfrans, simpozium, seminar və digər elmi məclislərdə iştirakına təşkilati yardım göstərilmişdir.

İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda tədris istiqamətində İqtisadi İnkişaf Nazirliyinin regional və yerli qurumlarının əməkdaşları üçün treninqlərin təşkili ilə bağlı bütün zəruri işlər görülmüş, Azərbaycan Respublikasında doktorantura təhsil sisteminin fəaliyyətinin daha da təkmilləşdirilməsinə dair təkliflər hazırlanaraq İqtisadi İnkişaf Nazirliyinin "İqtisadi siyasət, təhlil və proqnozlaşdırma" şöbəsinə təqdim edilmiş, bir sıra ali təhsil müəssisələrindən göndərilən tələbələrin institutda təcrübə keçmələri təmin edilmişdir.

2010-cu ildə Marketinq və İctimai əlaqələr istiqamətində institutun müsbət imicinin formalaşdırılması istiqamətində fəaliyyət davam etdirilmiş, institutun veb səhifəsi restrukturizasiya edilmiş və məlumatların yenilənməsi operativ təmin edilmiş, institutda təşkil olunan treninq-seminar, dəyirmi masa, metodoloji seminarların və digər elmi tədbirlərin ictimaiyyətə çatdırılması təmin edilmişdir, beynəlxalq donor təşkilatları ilə (ADB, UNCTAD,

UNDP, USAID, UNESCAP) qurulmuş münasibətlər çərçivəsində hazırlanmış və onlara təqdim olunmuş layihələrin reallaşması və bu əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində işlər davam etdirilmiş, xarici ölkələrdə - Qazaxıstan, Polşa, Ukrayna, Almaniya, Türkiyə və Çində anoloji qurumların mütərəqqi iş təcrübəsi öyrənilmiş və Azərbaycana tətbiqi imkanları araşdırılmışdır.

Həmçinin bu ildə İİETİ ilə Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu; Ukrayna İqtisadiyyat Nazirliyinin Elmi-Tədqiqat İqtisadiyyat İnstitutu; Moldova Respublikasının İqtisadiyyat Nazirliyinin və Elmlər Akademiyasının İqtisadiyyat, Maliyyə və Statistika İnstitutu aralarında elmi-texniki əməkdaşlıq haqqında müqavilələr, həmçinin Koreyanın Beynəlxalq İqtisadi Siyasət İnstitutu arasında anlaşma memorandumu imzalanmışdır. Müqavilə və memorandumda elmi, nəzəri və tətbiqi tədqiqatların həyata keçirilməsi, eləcə də elmi kadrların hazırlanması sahəsində əməkdaşlıq nəzərdə tutulmuşdur:



**ДОГОВОР**
**о научно-техническом сотрудничестве**

г. Баку (Азербайджан) 19 мая 2010 г.

Научно-исследовательский институт экономических реформ Министерства Экономического Развития Азербайджанской Республики (в дальнейшем - НИИЭР) в лице директора, Валиева Вилаята Мамед оглы, действующего на основании Устава с одной стороны и Институт экономики, финансов и статистики Академии наук Молдовы и Министерства экономики Республики Молдова (в дальнейшем - ИЭФС) в лице директора Стратана Александра Николаевича, действующего на основании Устава с другой стороны, заключили договор о нижеследующем.

**Статья 1.**

Предметом настоящего договора является установление сотрудничества в сфере научно-прикладных исследований и подготовки научных кадров.

**Статья 2.**

Стороны выражают заинтересованность и договариваются сотрудничать по следующим направлениям:

2.1. Инициировать проведение совместных научных проектов по различным направлениям исследований, включая:
- Социально-экономические проблемы: международное экономическое сотрудничество, евроинтеграция, статистические и макроэкономические исследования, предпринимательство, малый и средний бизнес, региональные аспекты, развития агропромышленного комплекса, зарубежные инвестиции, гендерные вопросы, проблемы социального развития;
- Организация и управление научным потенциалом;
- Развитие инновационной деятельности в научно-технологической сфере и предпринимательстве в Азербайджане и Молдове.

2.2. Организовать регулярный обмен научной информацией (книгами, журналами, сборниками статей, статистическими данными и другими материалами, представляющими взаимный интерес).

2.3. Оказывать содействие в опубликовании научных статей в журналах и сборниках НИИЭР и ИЭФС и включении ученых из данных организаций в редакционные коллегии соответствующих журналов.

2.4. Содействовать подготовке совместных публикаций ученых НИИЭР и ИЭФС и их опубликования в журналах в Азербайджане и Молдове

2.5. Принимать участие в научных конференциях, семинарах, симпозиумах, проводимых договаривающимися сторонами.

2.6. Изучить возможности осуществления руководства аспирантами/докторантами, а также защит диссертационных работ, их рецензирования и оппонирования учеными НИИЭР и ИЭФС.

2.7. Изучить возможности проведения совместных исследований по зарубежным грантам.

2.8. Регулярно размещать информацию о ходе сотрудничества между НИИЭР а и ИЭФС на сайтах договаривающихся сторон.

2.9. Осуществлять иные мероприятия, вытекающие из предмета настоящего договора и не противоречащие положениям уставов договаривающихся сторон.

**Статья 3.**

Дополнительные организационные и финансовые вопросы по реализации конкретных проектов будут обсуждаться и согласовываться в рамках отдельных двусторонних договоров.

**Статья 4.**

4.1. Настоящий Договор вступает в силу со дня его подписания, действует в течение 5 (пяти) лет и автоматически продлевается на последующий

пятилетний период, если одна из сторон письменно не уведомит другую сторону о своем решении прекратить действие Договора.

4.2. Настоящий Договор составлен на русском языке в двух экземплярах, имеющих одинаковую юридическую силу.

**Статья 5.**

Юридические адреса и реквизиты сторон:

| | |
|---|---|
| Научно-исследовательский институт экономических реформ Министерства Экономического Развития Азербайджанской Республики, AZ1211, город Баку, ул. Г.Зардаби 88а.<br>Тел: + 99412 4308933<br>Факс: +99412 4300215<br>e-mail: ier@ier.az | Институт экономики, финансов и статистики Академии наук Молдовы и Министерства экономики Республики Молдова МД-2054, ул. Ион Крянгэ 45, Кишинев<br>Тел.(373-22) 74-87-36<br>Факс:(373-22) 74-37-94<br>e-mail: iefs@iefs.md |

Подписи сторон:

Доктор экономических наук — Валиев В. М.

Доктор хабилитат экономических наук — Стратан А. Н.

3

**Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu və Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu arasında elmi-texniki əməkdaşlıq haqqında**

MÜQAVİLƏ

**Bakı şəhəri** **16 iyul 2010-cu il**

Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu (bundan sonra AMEA İqtisadiyyat İnstitutu) direktor Əliyev İsa Hüseyn oğlunun şəxsində bir tərəfdən, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu (bundan sonra İİN İETİ) direktor Vəliyev Vilayət Məmməd oğlunun şəxsində digər tərəfdən aşağıdakılar barədə bu müqaviləni bağladılar.

**Maddə 1.**

Hazırki müqavilənin predmetini elmi, nəzəri və tətbiqi tədqiqatların həyata keçirilməsi, eləcə də elmi kadrların hazırlanması sahəsində əməkdaşlıq təşkil edir.

**Maddə 2.**

Tərəflər qarşılıqlı maraqlarını ifadə edərək aşağıdakı fəaliyyət istiqamətləri üzrə əməkdaşlıq haqqında razılığa gəldilər:

**2.1.** Aşağıdakı mövzular da daxil olmaqla, müxtəlif tədqiqat istiqamətləri üzrə birgə elmi layihələrin həyata keçirilməsinə təşəbbüs göstərmək:

- Sosial-iqtisadi məsələlər: beynəlxalq iqtisadi münasibətlər, statistik və makroiqtisadi tədqiqatlar, sahibkarlıq, inkişafın regional aspektləri, aqrar-sənaye kompleksinin inkişafı, xarici investisiya, gender məsələləri, sosial inkişaf problemləri;
- Elmi potensialın təşkili və idarə olunması;
- Elmi-texniki sahələrdə və sahibkarlıqda innovasiya fəaliyyətinin inkişafı.

**2.2.** İqtisadiyyatın müxtəlif sahələri (vergi, bank, pul tədavülü, investisiyaların və pul fondlarının idarə edilməsi, o cümlədən elmin inkişaf fondunun, neft fondunun, sosial müdafiə fondunun, sığorta fondlarının səmərəli istifadə olunması və s.) üzrə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf məqsədlərini dəstəkləyən layihə və proqramların, təlimat və digər sənədlərin birgə hazırlanması və həyata keçirilməsi.

**2.3.** Elmi məlumatların (qarşılıqlı maraq kəsb edəcək kitablar, jurnallar, məqalələr toplusu, statistik məlumatlar və s.) müntəzəm olaraq mübadiləsini və birgə hazırlanmasını təşkil etmək.

**2.4.** AMEA İqtisadiyyat İnstitutunun və İİN İETİ-nin elmi jurnal və toplularında bu təşkilatların əməkdaşlarının məqalələrinin nəşrinə yardım göstərmək və bu təşkilatların alimlərinin müvafiq jurnalların redaksiya heyətinə daxil etmək.

**2.5.** Yerli və xarici elmi jurnallarda nəşr olunması üçün birgə məqalələrin hazırlanmasına təşəbbüs göstərmək.

**2.6.** Tərəflərin təşkilatçılığı ilə milli iqtisadiyyatın və iqtisad elminin aktual problemlərinə dair respublika iqtisadçılarının, eləcə də müvafiq dövlət və qeyri-dövlət təşkilatlarının konfransının keçirilməsini birgə təşkil etmək;

**2.7.** Tərəflərdən birinin təşkil etdiyi elmi konfrans, seminar və simpoziumlarda digərinin iştirakın təmin edilməsi.

**2.8.** Dissertant və doktorantlara elmi rəhbərlik, həmçinin, dissertasiya işlərinə və avtoreferatlara müqavilənin tərəfləri olan təşkilatların alimləri tərəfindən rəylərin verilməsi, opponentlik edilməsi, həyata keçirilən tədqiqat işlərinə resenziyaların hazırlanması istiqamətində birgə fəaliyyətin təşkil edilməsi.

**2.9.** Qrantlar hesabına birgə tədqiqatların həyata keçirilməsində təşəbbüs göstərmək;

**2.10.** Tərəflərin nizamnaməsinə və hazırki müqavilənin məzmununa zidd olmayan digər tədbirlərin həyata keçirilməsi.

**Maddə 3.**

Konkret layihələrin həyata keçirilməsi üzrə əlavə təşkilati və maliyyə məsələləri ayrıca, ikitərəfli müqavilələr çərçivəsində müzakirə olunaraq razılaşdırılacaqdır.

**Maddə 4.**

**4.1.** Müqavilə imzalandığı gündən qüvvəyə minir və imzalandığı andan 5 (beş) il müddətində qüvvədədir.

**4.2.** Müqavilə tərəflərdən birinin rəsmi məktubla müraciəti əsasında qüvvədən düşmüş hesab edilir.

**4.2.** Müqavilə eyni hüquqi qüvvəyə malik olan 4(dörd) nüsxədə tərtib edilmişdir.

**Maddə 5.**

Tərəflərin hüquqi ünvanları və rekvizitləri:

| | |
|---|---|
| Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, Bakı ş. H.Cavid pros. 31. Azərbaycan Milli Elmlər Akademiyasının əsas binası, II mərtəbə<br>AZ 1143<br>Tel. (+99412) 5106805<br>Faks (+99412) 4394358<br>E-mail: economy@eco.ab.az<br>directorship@economics.baonet.by | Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu, Bakı ş. H.Zərdabi prospekti, 88a<br>AZ 1011<br>Tel (+99412) 4300170<br>Faks (+99412) 4319180<br>E-mail: office@ier.az |

Tərəflərin imzası:

İqtisad elmləri doktoru, professor — İ.H.Əliyev

İqtisad elmləri doktoru — V.M.Vəliyev



**Memorandum of Understanding**
Between
Korea Institute for International Economic Policy
And
Institute for Scientific Research on Economic Reforms

1. OBJECTIVE

2. COOPERATIVE ACTIVITIES

3. GENERAL PROVISIONS

4. FINAL PROVISIONS



**Azərbaycan Respublikası**
**İqtisadi İnkişaf Nazirliyi**

№ F-115 — 4 - Oktyabr 2010 il

**ƏMR**

Azərbaycan Respublikasının sosial – iqtisadi göstəricilərinin təhlili və proqnozlaşdırılmasının ümumi tarazlıq modelinin hazırlanması haqqında

2010-cu il 4 oktyabr tarixində Azərbaycan Respublikası İqtisadi İnkişaf naziri Şahin Mustafayevin Azərbaycan Respublikasının sosial-iqtisadi göstəricilərinin təhlili və proqnozlaşdırılmasının ümumi tarazlıq modelinin hazırlanması haqqında F-115 saylı əmri ilə AzMOD modelinin qurulması instituta tapşırılmışdır.

2010-cu il ərzində institutun Elmi Şurasının 5 iclası keçirilmişdir. İclaslarda institutda yerinə yetirilən elmi-tədqiqat işlərinin mövzuları, doktorant və dissertantlarının dissertasiya işlərinin mövzuları və s. bu kimi məsələlərin müzakirələri təşkil olunmuş, doktorant və dissertantlarının attestasiyalarının nəticələri, həmçinin 2010-cu ildə institut tərəfindən yerinə yetirilən elmi-tədqiqat işlərinin planına qismən dəyişikliklərin edilməsi ilə bağlı təkliflər müzakirə olunmuş və müvafiq qərarlar qəbul edilmişdir.

2010-cu il 12-17 fevral tarixlərində institutda təhsil alan doktorant və dissertantlar attestasiya edilmiş, ilkin attestasiyanın nəticələri qənaətbəxş olmadığından 2010-cu il 18 mart tarixində onların təkrar attestasiyası təşkil edilmişdir.

2010-cu il 01 dekabr tarixə institutda fəlsəfə doktoru proqramı üzrə 7 nəfər 2-ci kurs əyani, 7 nəfər 2-ci kurs qiyabi və 8 nəfər 3-cü kurs əyani şöbədə olmaqla 22 doktorant və 14 dissertant, elmlər doktoru proqramı üzrə isə 9 dissertant təhsil almışdır. 2010-cu il 30 dekabr tarixindən fəlsəfə doktoru proqramı üzrə təhsil alan doktorantlardan 8 nəfəri, dissertantlardan isə 2 nəfəri təhsil müddətinin sona çatması ilə əlaqədar olaraq doktoranturadan xaric edilmişdir.

2010-cu ildə institutun doktorant və dissertantlarından 4 nəfəri dissertasiya işlərini ilkin variantda bitirərək təqdim etmiş, onlardan 3 nəfərinin namizədlik dissertasiyası ilkin müzakirədən müvəffəqiyyətlə keçmiş və müvafiq Dissertasiya Şuralarına təqdim olunmaları haqqında qərar qəbul edilmişdir. Eyni zamanda, İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu tərəfindən aparıcı təşkilat kimi 15 namizədlik və 2 doktorluq dissertasiya işlərinin müzakirəsi təşkil edilmiş, onlara müvafiq rəylər verilmişdir. Bundan başqa, bir sıra dissertasiya işlərinin avtoreferatlarına, dissertasiya işlərinin əsas müddəalarını özündə əks etdirən təhriri-məruzələrə institutun əməkdaşları tərəfindən müvafiq rəylərin verilməsi təmin olunmuşdur.

Doktorantura üzrə təhsilin keyfiyyətinin yüksəldilməsi, dissertasiyaların müzakirəsi və müdafiəsi ilə əlaqədar problemlərin həlli istiqamətində müvafiq işlər görülmüşdür.

Bu ildə institutun kitabxana fondu yeni elmi ədəbiyyatlarla zənginləşdirilmişdir.

Həmin il elmi-redaksiya heyətinin sədri i.e.d., prof. Vilayət Məmməd oğlu Vəliyevin rəhbərliyi ilə institutun "Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri" adlı elmi əsərlər toplusunun 19,5 ç.v. həcmində X buraxılışı nəşr edilmişdir.



AZƏRBAYCAN RESPUBLİKASI
İQTİSADİ İNKİŞAF NAZİRLİYİ

İQTİSADİ İSLAHATLAR ELMİ-TƏDQİQAT İNSTİTUTU

AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ

*ELMİ ƏSƏRLƏR TOPLUSU*
**X BURAXILIŞ**

**BAKI-2010**



Azərbaycan Respublikası
İqtisadi İnkişaf Nazirliyi
İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun
Elmi Şurasının qərarı əsasında çap olunur

Elmi-redaksiya heyəti:
V.M. Vəliyev (sədr)
Ə.C. Muradov
O.İ. İbrahimov
R.N. Hüseynəliyev
V.Ə. Rüstəmov
Ə.M. Babaşov
S.Z. Abbasəliyeva (məsul katib)
T.Ş. Sahfova (korrektor)

**Azərbaycan Respublikasında iqtisadi inkişafın xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu, X buraxılış.**
**Bakı, 2010, 314 səh.**

**İSBN 9953-55-025-1**

İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu, 2010



MÜNDƏRİCAT-2010 (№10)

Vilayət VƏLİYEV, i.e.d., prof., Rufat HÜSEYNƏLİYEV, i.e.n., Rauf RZAYEV, İİETİ-nin dissertantı, Aral DAVUDOV, İİETİ-nin mütəxəssisi
İqtisadi artım və investisiyanın həcmi arasında qarşılıqlı əlaqənin tədqiqi.......6

Yadulla HƏSƏNLİ, iqtisad elmləri doktoru, Emil QASIMOV, iqtisad üzrə fəlsəfə doktoru, Mələhət MƏNSİMLİ, İİETİ-nin elmi işçisi, Nicat ƏHMƏDOV, İİETİ-nin baş mütəxəssisi
Azərbaycanda məhsul istehsalı və xidmətlərin göstərilməsinin Sahələrarası Balans Modeli əsasında qiymətləndirilməsi.......52

Samirə ABASOVA, iqtisad elmləri namizədi, dosent, İİETİ-nin baş elmi işçisi
Korporativ idarəetmə və korporativ maliyyənin metodoloji əsaslarının tədqiqi.......93

Fərhad MİKAYILOV, İİETİ-nin dissertantı
Əhalinin rifah səviyyəsinin qiymətləndirilməsinə dair bəzi məsələlər.......109



Samirə ABASOVA, iqtisad elmləri namizədi, dosent, İİETİ-nin baş elmi işçisi
Azərbaycan Respublikasının fəaliyyət subyektlərinin maliyyə vəziyyətinin təhlili (2008-2010).......127

Nurəddin EYNULLAYEV, iqtisad üzrə fəlsəfə doktoru
Regionların sosial-iqtisadi inkişafına klaster yanaşmasının tətbiqi imkanları.......144

Nərminə İSMAYILOVA, İİETİ-nin mütəxəssisi
Azərbaycanın qeyri-neft sektorunun ixracına təsir edən digər (hüquqi, institutional, mikro səviyyəli) amillər.......169

Malik MEHDİYEV, İİETİ-nin aparıcı elmi işçisi
Azərbaycanda aqrar-sənaye kompleksi məhsullarının rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi.......184



Nurəddin EYNULLAYEV, iqtisad üzrə fəlsəfə doktoru
Regionların sosial-iqtisadi inkişaf səviyyələrinə görə reytinqlərinin müəyyən edilməsi (ranqlaşdırılması).......237

Elxan YAQUBOV, İİETİ-nin dissertantı
Müəssisə səviyyəsində xarici iqtisadi fəaliyyətin formalaşması və inkişafının nəzəri məsələləri.......257

Nərminə İSMAYILOVA, İİETİ-nin mütəxəssisi
Çoxmənzilli evlərin idarə edilməsi üzrə beynəlxalq təcrübənin tədqiqi.......280

**2011-ci ildə** İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun fəaliyyəti və institutun Elmi-Tədqiqat İş Planı İqtisadi İnkişaf Nazirliyinin fəaliyyət istiqamətlərinə uyğun tərtib olunmuş və müvafiq şöbələr və struktur bölmələrlə razılaşdırılaraq təsdiq edilmişdir. İlin əvvəlindən etibarən institutun Elmi-Tədqiqat işləri qeyd olunan plana uyğun aparılmış və elmi-tədqiqat işləri, analitik təhlillər, elmi-təşkilati tədbirlər, tədris işləri, marketinq və ictimai əlaqələr, elmi katiblik üzrə işlər mühüm istiqamətlər kimi müəyyən edilmişdir.

2011-ci ildə bir sıra Dövlət Proqramları üzrə institutun icraçı olduğu tədbirlərin icrası uğurla davam etdirilmiş və aşağıdakı istiqamətlərdə və mövzularda elmi-tədqiqat işləri yerinə yetirilmişdir:

***Problem. Vahid platformada Azərbaycan Respublikasının Ümumi Tarazlıq Modelinin işlənməsi***

Mövzu. Sosial hesablar matrisinin tərtibi: Məlumatların toplanması və emalı (məsul icraçılar: i.e.d. Yadulla Həsənli, Malik Mehdiyev). Azərbaycan Respublikasının Sosial Hesablar Matrisi 7 blokdan ibarət olaraq formalaşdırılmışdır. 2006-cı il üçün on beş sahə və beş institutional sektoru və üç iriləşdirilmiş sahə (aqrar, sənaye və xidmət sahələri) və beş institutional sektoru əhatə etməklə tərtib edilmişdir.

Mövzu. Xərclər-buraxılış və tarazlı qiymətlər modellərinin işlənilməsi və müvafiq simulyasiyaların aparılması (məsul icraçı: i.e.d. Yadulla Həsənli). Ölkənin 100 sayda iqtisadi fəaliyyət növü üzrə Xərclər-buraxılış və tarazlı qiymətlər modelləri işlənmiş və müvafiq simulyasiyaların aparlması EXCEL və GAMS sistemində avtomatlaşdırılmışdır.

Mövzu. İnvestisiyalar, dövlət xərcləri, idxal və ixrac, əlavə dəyər və onun tərkib hissələri, sahələrin qiymət səviyyələri üzrə xərclər-buraxılış və tarazlı qiymətlər modellərinin kompüter realizasiyası və simulyasiyaların aparılması (məsul icraçı: i.e.d. Yadulla Həsənli). Kompüterdə avtomatlaşdırılmış Xərclər-buraxılış modeli ilə sahələrdə son məhsulun və ya onun hər hansı tərkib hissəsinin dəyişməsinin (ev təsərrüfatlarının istehlak xərcləri, investisiyalar, dövlət xərcləri, idxal və ixrac) sahələrin ümumi buraxılışına təsirinin ədədi qiymətini verən simulyasiyalar aparılmışdır.

Kompüterdə avtomatlaşdırılmış Tarazlı qiymətlər modeli ilə dövlət tərəfindən tənzimlənən əmtəə və xidmətlərin (elektrik enerjisi, qaz, su və s.) qiymətlərinin dəyişməsinin digər sahələrin qiymətlərinə, o cümlədən ölkədə inflyasiya səviyyəsinə təsirinin ədədi qiymətini verən simulyasiyalar aparılmışdır.

Mövzu. Əmək ehtiyatlarının sahələrarası balansının tərtibi və simulyasiyaların aparılması (məsul icraçı: i.e.d. Yadulla Həsənli). On beş iqtisadi fəaliyyət sahəsi üzrə birbaşa və tam əmək tutumu əmsalları hesablanaraq əmək ehtiyatlarının sahələrarası balansı tərtib edilmişdir. Müvafiq simulyasiya modeli ilə sahələrdə son məhsulun dəyişməsinin birbaşa və dolayı iş yerlərinin açılmasına təsirinin ədədi qiyməti müəyyənləşdirilmişdir.

Mövzu. İnvestisiyaların, dövlət xərclərinin, idxal və ixracın, əlavə dəyər və onun tərkib hissələrinin əmək ehtiyatlarının sahələrarası balansının kompüter realizasiyası və simulyasiyaların aparılması (məsul icraçı: i.e.d. Yadulla Həsənli). Yeni iş yerlərinin açılması simulyasiya modeli ilə sahələrin son məhsulunun (və ya onun tərkib hissəsi olan investisiyaların, dövlət xərclərinin, idxal və ixracın) dəyişməsinin birbaşa və dolayı iş yerlərinin açılmasına təsirinin ədədi qiymətlərinin müəyyənləşdirilməsi üzrə simulyasiyalar aparılmışdır. Müəyyən olunmuşdur ki, hər vahid pul vəsaiti ən çox iş yeri kənd təsərrüfatında, ən az iş yeri isə balıqçılıq və mədənçıxarma sənayesində yaradır.

Mövzu. Sahələrin qiymət səviyyələrinin dəyişmələrinin sahələrdə iş yerlərinin yaradılmasına təsiri üzrə simulyasiyaların aparılması (məsul icraçılar: i.e.d. Yadulla Həsənli, i.e.n. Vəfa Mütəllimova, Malik Mehdiyev). Sahələrin qiymət səviyyələrinin dəyişmələrinin sahələrdə iş yerlərinin yaradılmasına təsirini müəyyənləşdirmək üçün Tarazlı qiymətlər "xərclər-buraxılış" və "əmək balansı modeli" bir platformada birləşdirilmişdir.

Mövzu. Dövlət büdcəsi xərclərinin səmərəliliyinin artırılması və uçotun təkmilləşdirilməsi (məsul icraçılar: i.e.d. Vilayət Vəliyev, Xaqani Məmmədov). Azərbaycan Respublikasında büdcə sistemi və onun tənzimlənməsinin kompleks təhlili bir sıra mühüm nəticələrə gəlməyə və bunun əsasında əhəmiyyətli təklif və tövsiyələr irəli sürməyə imkan verir. Uzunmüddətli dövr üçün neft və qaz gəlirləri hesabına xərclərin proqnozlaşdırılması zamanı dəyişməz real xərclər prinsipi əsas götürülməli və bu strategiyanın əhatə etdiyi dövr ərzində nəzərdə tutulan xərclər üçün illik limitin müəyyənləşdirilməsi zəruridir. Büdcə gəlirlərinin təminatında birbaşa vergi gəlirlərinin yığım əmsalını artırmaq, vergi inzibatçılığını təkmilləşdirmək, vergi borclarının yaranma mənbələrinin araşdırılması tövsiyə olunur.

Mövzu. RMSM-X modelinin məlumat bazasının formalaşdırılması və işçi bloklarının əlaqələndirilməsi (məsul icraçılar: i.e.d. Yadulla Həsənli, i.e.n. Mətanət Rəsulova). RMSM-X modelinin mümkün məlumat bazası formalaşdırılmış və işçi blokları arasında əlaqələr öyrənilmişdir. Bəzi göstəricilərin sektorlar üzrə bölgüsü tələb olunur ki, bu da statistik problem olaraq qalır. Eyni zamanda, modelin kifayət qədər iri həcmli və mürəkkəb proqram təminatına malik olması bu göstəricilərin modeldən çıxarılaraq daha aqreqat göstəricilərdən istifadəni çətinləşdirir.

Mövzu. Makroekonometrik modelin əhatə edəcəyi sektorlar (real, monetar, fiskal və xarici sektorlar) üzrə tənliklərin və eyniliklərin müəyyən edilməsi (məsul icraçı: i.e.n. Fəxri Həsənov).

Makroekonometrik modelin strukturunun müəyyən edilməsi istiqamətində təkliflər hazırlanmış, dünya təcrübəsi öyrənilərək Azərbaycan iqtisadiyyatı üçün daha uyğun struktur formalaşdırılmış, makroekonometrik modelin strukturu ilkin olaraq beş blokda (real, monetar, fiskal, xarici sektor və qiymət, əmək haqqı) cəmlənmişdir. Bütün bloklar üzrə ilkin olaraq müəyyən tənlik və eyniliklər təyin edilmiş, real blok üzrə qeyri-neft ixrac tənliyi, ev təsərrüfatlarının son istehlak xərcləri, əsas kapitala investisiya qoyuluşları tənliyi, qiymət və əmək haqqı bloku üzrə inflasiya, fiskal blok üzrə büdcə xərcləri və gəlirlərinin tənliyi qiymətləndirilmişdir.

Mövzu. Makroekonometrik modelləşdirmənin metodoloji aspektləri (məsul icraçı: i.e.n. Fəxri Həsənov). Məsələ ilə əlaqədar olan müvafiq nəzəri modellər (Kleyn, Fair və s. modellər) və empirik yanaşmalar (kointeqrasiya yanaşmaları: Enql-Qreyncer, Yohansen, Pesaran) ehtiva edən müxtəlif saylı metodologiyalar araşdırılmış, Azərbaycan iqtisadiyyatı ilə oxşar (resursla zəngin olan) iqtisadiyyata malik ölkələrin makroekonometrik modellərinin qurulması təcrübəsi öyrənilmiş, müəyyən olunmuş metodologiyalara uyğun olaraq modelin qiymətləndirilməsi işlərinə başlanılmışdır.

***Problem. Regionların sosial-iqtisadi inkişaf göstəricilərinin təhlili***

Mövzu. Regionların inkişaf reytinqinin qiymətləndirilməsi modelinin işlənməsi və realizasiyası (məsul icraçılar: i.e.d. Yadulla Həsənli, Nurəddin Eynullayev). Tədqiqat işində inkişaf indekslərinin hesablanması üzrə BMT İnkişaf Proqramı tərəfindən təklif edilmiş metodologiyaya uyğun olaraq iqtisadi rayonların reytinqi müəyyən edilmişdir. Tədqiqat

Kəlbəcər-Laçın iqtisadi rayonu işğal altında olduğundan bu rayon istisna olmaqla qalan iqtisadi rayonları əhatə edir. Qiymətləndirmə 2003-2010-cu illər üzrə aparılmış, sosial-iqtisadi inkişafın meyarları 2003-cü ildə 25, 2004-2005-ci illərdə 26, 2006-2010-cu illərdə isə 28 parametr üzrə hesablanmış və nəticələrə əsasən iqtisadi rayonların reytinqi qurulmuşdur.

Mövzu. İqtisadi rayonlar (Gəncə-Qazax iqtisadi rayonu) üzrə Kobb-Duqlas istehsal funksiyasının qiymətləndirilməsi, alınmış nəticələrin interpretasiyası və təkliflərin hazırlanması (məsul icraçılar: i.e.d. Yadulla Həsənli, Nurəddin Eynullayev). Tədqiqat işinin məqsədi Gəncə-Qazax iqtisadi rayonunun Kobb-Duqlas istehsal funksiyasının qiymətləndirilməsi və alınmış nəticə əsasında təkliflərin hazırlanmasından ibarət olmuşdur. 2002-2010-cu illərin məlumatları əsasında Gəncə-Qazax iqtisadi rayonu üzrə Kobb-Duqlas istehsal funksiyası qiymətləndirilmişdir. Qiymətləndirmənin nəticəsinə əsasən regionda isifadəyə verilmiş əsas fondların bir nəfərə düşən həcminin bir faiz artımı həmin regionda adambaşına məhsul buraxılışının həcmini 0.063% artırır. Hər il zaman ənənəsi ilə məhsul buraxılışının həcmi 8% artır. Ümumiyyətlə, həmin regionda məhsul buraxılışının kapitala (əsas fondlara) görə elastiklik əmsalı 0,06, əməyə görə elastiklik əmsalı 0.937 kimidir. Yəni həmin regionda əməyin məhsul buraxılışında rolu xeyli böyükdür.

Mövzu. Regional inkişafın dövlət tənzimlənməsinin nəzəri-metodoloji əsasları (məsul icraçılar: Nurəddin Eynullayev, Maarif Məmmədov).

Regional inkişafı dövlət müxtəlif forma metodlarla tənzimləyir. Bu tənzimləmə metodları sistemləşdirilərək iqtisadi metodlar, təşkilati-inzibati metodlar, sosial-psixoloji metodlar başlığı ilə incələnmişdir. Xüsusilə kredit, vergi sistemi, qiymət siyasəti, büdcə vəsaitləri kimi məsələlər qeyd edilmişdir. Metodların kompleks şəkildə və ya şəraitə, insanların davranış səviyyəsinə uyğun olaraq həyata keçirilməli olduğu da nəzərə çatdırılır.

***Problem. Azərbaycan Respublikasında sosial inkişaf problemlərinin tədqiqi***

Mövzu. Əhalinin həyat (və ya rifah) səviyyəsinin əsas göstəriciləri üzrə təhlillər (məsul icraçılar: i.e.n. Vəfa Mütəllimova, Fərhad Mikayılov). Tədqiqatın aşağıdakı istiqamətlər üzrə aparılması nəzərdə tutulmuş və yerinə yetirilmişdir. Birinci bölmə "Həyat səviyyəsi anlayışı, yanaşmalar, göstəricilər sistemi" adlanır ki, burada həyat səviyyəsi ilə bağlı ədəbiyyat xülasələri aparılmış və müvafiq metodologiyalar tədqiq edilmişdir. İkinci bölmədə "Respublika üçün uyğun göstəricilər sisteminin seçilməsi" tədqiq edilmiş metodologiyalardan ölkə üçün xarakterik olan metodologiya seçilmişdir. Üçüncü bölmədə "Həyat səviyyəsinin inkişafı üzrə beynəlxalq müqayisələr aparılmışdır. Dördüncü bölmədə "Azərbaycan Respublikasında mövcud vəziyyətin təhlili" bölməsində isə müvafiq metodologiyaya əsaslanaraq ölkədə mövcud vəziyyət tədqiq olunmuş və seçilmiş makroiqtisadi göstəricilər və həyat səviyyəsi göstəriciləri arasında əlaqənin iqtisadi–riyazi üsullarla təhlili aparılmışdır. Sonda isə əldə olunmuş müvafiq nəticələr, təklif və tövsiyələr verilmişdir.

***Problem. Sahibkarlığın inkişafı problemləri***

Mövzu. Aqrar-sənaye məhsullarının rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi modelinin təkmilləşdirilməsi (məsul icraçılar: i.e.n. Rofət Hüseynəliyev, i.e.n. Vaqif Rüstəmov, Malik Mehdiyev).

Aqrar-sənaye məhsullarının rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi üzrə 2010-cu ildə institut tərəfindən hazırlanmış modelin aşağıdakı istiqamətlərdə təkmilləşdirilməsi nəzərdən keçirilmişdir:

- modeldə istifadə olunan məhsullararası balansın I və III kvadrantlarının tərtibi metodikasını milli hesablar sisteminin tələblərinə və xərc-buraxılış cədvəlinin tərtibi metodikasına maksimum uyğunlaşdırmaq;
- məhsullararası balansa daxil olan məhsul və xidmətlərin ticari və qeyri-ticari qruplar üzrə təsnifləşdirilməsinə yenidən baxmaq;
- məhsullararası balansın rəsmi statistikadakı məhsul balanslarının məlumatları əsasında aqreqatlaşdırılmış variantını hazırlamaq;
- aqreqatlaşdırılmış məhsullararası balans əsasında aqrar-sənaye məhsullarının məhsul qrupları üzrə rəqabət qabiliyyətinin müəyyənləşdirilməsi mümkünlüyünü araşdırmaq;
- GAMS tətbiqi proqram paketində aqrar-sənaye məhsullarının rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi modelinin avtomatlaşdırılmış yeni variantını hazırlamaq.

Mövzu. Müasir dövrdə ölkənin beynəlxalq rəqabətqabiliyyətliliyinin artırılmasının nəzəri-metodoloji əsasları (məsul icraçılar: i.e.n. Vaqif Rüstəmov, Ceyhun Qubatov). Bu tədqiqat işində rəqabətqabiliyyətlilik iqtisadi bir kateqoriya kimi tədqiq edilmiş, onun mahiyyətinə, eləcə də, ona təsir edən çoxsaylı amillərə dair müxtəlif nəzəri-konseptual yanaşmalar araşdırılmışdır. Ölkənin beynəlxalq rəqabətqabiliyyətliliyi, onun mahiyyəti öyrənilmiş və beynəlxalq rəqabətqabiliyyətliliyin qiymətləndirilməsindən ötrü mövcud metodologiyalar təhlil edilmişdir. Həmçinin müasir dövrdə çoxşaxəli qloballaşma prosesləri fonunda rəqabətqabiliyyətliliyin vacibliyi nəzərə alınmaqla, rəqabətqabiliyyətliliyin yüksəldilməsində mütərəqqi dünya təcrübəsinin əsas xüsusiyyətləri açıqlanmış və təhlil edilmişdir.

Mövzu. Azərbaycanda kiçik və orta sahibkarlığın inkişaf perspektivlərinin qiymətləndirilməsi (məsul icraçılar: i.e.n. Rofət Hüseynəliyev, i.e.n. Samirə Abasova). Azərbaycanda orta sahibkarlığın inkişafı üçün dövlət tərəfindən maliyyə və hüquqi dəstəyin gücləndirilməsi, uzunmüddətli kreditlərin həcmi və mənbələrinin (nəinki dövlət, həm də özəl və xarici) artırılmasının vacib olduğu qeyd edilmişdir. Kiçik sahibkarlığın daha da inkişaf etdirilməsi üçün dövlət prioritet sahələri seçməli (emal gücünə malik kənd təsərrüfatı, turizm, sənətkarlıq və incəsənət, elmtutumlu və innovasiya yönümlü sahələr) və onların inkişafı məqsədilə maliyyə lizinqi əməliyyatlarını genişləndirməsi vurğulanmışdır.

Mövzu. Logistika və sahibkarlığın inkişaf problemləri (məsul icraçılar: i.e.d., prof. Vilayət Məmməd oğlu Vəliyev, i.f.d. Emil Filman oğlu Qasımov). Azərbaycanda, xüsusilə regionlarda sahibkarlığın və logistikanın inkişafı qarşısında duran problemlər araşdırılmışdır. Bu istiqamətdə dünya təcrübəsi öyrənilmiş və logistika mərkəzlərinin yaradılmasının sahibkarlığın inkişafına, rəqabətqabiliyyətliliyə təsiri xarici təcrübədə öyrənilmişdir.

Mövzu. Ekoloji təmiz kənd təsərrüfatının inkişaf perspektivləri (məsul icraçılar: i.e.d., prof. Vilayət Vəliyev, i.e.n. Həzi Eynalov, Aral Davudov). Ekoloji təmiz kənd təsərrüfatının kənd təsərrüfatı sahəsində əlavə dəyər yaratması və ənənəvi kənd təsərrüfatına nisbətən daha çox əməktutumluluğu baxımından ölkəmiz üçün aktuallığı araşdırılmışdır. Konkret nəticələrin əldə edilməsi məqsədilə 2012-ci ildə İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu və Türkiyə Respublikası Türk Əməkdaşlıq və İnkişaf Agentliyi (TİKA) arasında birgə həyata keçirəcəyi “Azərbaycanda ekoloji təmiz kənd təsərrüfatının inkişaf etdirilməsi prosesində Türkiyə təcrübəsinin öyrənilməsi və qurumlararası əməkdaşlığın inkişaf etdirilməsi” layihəsi

çərçivəsində Türkiyə Respublikasından dəvət edilmiş mütəxəssislərin iştirakı ilə SWOT analizin aparılması, eyni zamanda pilot layihənin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Mövzu. Türkiyə təcrübəsi əsasında Azərbaycanda ekoloji təmiz kənd təsərrüfatının inkişaf perspektivlərinin tədqiqi (məsul icraçılar: i.e.n. Həzi Eynalov, Aral Davudov). Tədqiqat işi ekoloji təmiz kənd təsərrüfatı sahəsində Türkiyə Respublikasının təcrübəsinin araşdırılması əsasında aparılmışdır. Təcrübə əsasında Azərbaycan Respublikasında ekoloji təmiz kənd təsərrüfatının inkişaf imkanları araşdırılmış və əsas istiqamətlər üzrə mövcud vəziyyət qiymətləndirilmişdir.

***Problem. Enerji, infrastruktur və kommunal xidmətlərin sosial-iqtisadi inkişaf göstəricilərinə təsirinin qiymətləndirilməsi***

Mövzu. Azərbaycanın enerji balansının təhlili (məsul icraçı: i.e.d. Vilayət Məmməd oğlu Vəliyev). Azərbaycan Respublikasının enerji balansının göstəriciləri 2004-2010-cu illər dövrü üzrə toplanılmış və ilkin olaraq araşdırılmışdır. Eyni zamanda təbii qaz, elektrik enerjisinin hasilatı, istehsal və istehlakının 10 illik aylıq məlumatları mövsümi olaraq həm obyektlər, həm istehlakçı qruplar üzrə toplanmış və ilkin təhlil edilmişdir. Araşdırmaların nəticəsi olaraq enerji balansının göstəricilərinin formalaşmasında həm istehsal, həm də istehlakda dolayı effektlərin təsirinin nəzərə alınmadığı müəyyən edilmişdir. Ölkənin enerji balansının enerji potensialı, hasilat, istehsal, təchizat və istehlakın dolayı effektlər nəzərə alınmaqla tam mənzərəsini almaq üçün aşağıdakı istiqamətlər üzrə təkmilləşdirilərək dəqiqləşdirilməsi zəruridir:

- enerji istehlakı, xüsusilə Respublikanın regionlarında (hətta Bakı ətrafı ərazilərdə belə) istilik və bişirmə məqsədləri üçün istifadə olunan enerjinin kəmiyyətinin enerji balansında nəzərə alınması, eləcə də bu məqsədlə istifadə olunan enerji daşıyıcılarının növlərinin və kəmiyyətlərinin müəyyən edilməsi;
- elektrik enejisinin balans göstəricilərinin enerji sisteminə daxil olmayan və elektik enerjisi istehsal edən bütün stansiyalar (mülkiyyətindən asılı olmayaraq müəssisələrin, fərdi şəxslərin, kəndlər və icmaların mülkiyyətində olan) göstəricilərin, eləcə də istehlakın enerji balansında nəzərə alınması;
- Respublikada olan enerji daşıyıcılarının potensialının və ondan istifadənin müxtəlif üsullarla dəqiqləşdirilərək enerji balansında nəzərə alınması.

Mövzu. Enerjiyə qənaət və enerji effektivliyi problemlərinin tədqiqi (məsul icraçı: i.e.d., prof. Vilayət Məmməd oğlu Vəliyev). Azərbaycan özünün enerji təhlükəsizliyini təmin etməklə regionun enerji tələbatının ödənilməsində mühüm rol oynamağa başlamışdır. Bununla bərabər enerji resurslarının, əsasən də neft-qaz resurslarının səmərəli istifadəsi ölkənin uzunmüddətli iqtisadi inkişafının təmin edilməsini şərtləndirir. Neft-qaz resurslarının tükənən olması, ölkənin davamlı inkişafı və enerji təhlükəsizliyinin təminatı enerji resurslarından səmərəli istifadə edilməsini zəruri edir. Uzunmüddətli dövr üçün enerjiyə qənaət və enerjidən səmərəli istifadə üzrə ölkə planının 14 prioritet istiqamət (standartlarının işlənilməsi, dövlət və özəl sektor əməkdaşlığı, enerjidən səmərəli istifadə olunması və ətraf mühitin qorunması strategiyalarının əlaqələndirilməsi, texnologiyaların istehsalı və istifadəsinin stimullaşdırılması, neft və qaz hasilatı, emalı və nəqli, elektrik enerjisinin istehsalı, ötürülməsi və paylanması, istilik enerjisinin istehsalı, ötürülməsi və paylanması, ev təsərrüfatları və qeyri-yaşayış sahələri, nəqliyyat, su və irriqasiya sahələri üzrə enerjiyə qənaət və enerjidən səmərəli istifadə, layihələrin həyata keçirilə bilməsi üçün maliyyə mexanizmlərinin işlənilməsi,

maarifləndirici tədbirlərin aparılması, sənayenin və servis xidmətlərinin təşkili üzrə sahibkarlığın dəstəklənməsi) üzrə tərtib olunması müəyyənləşdirilmişdir.

Mövzu. İnfrastruktur və kommunal xidmətlərin inkişaf problemləri (məsul icraçılar: i.e.d., prof. Vilayət Vəliyev, i.e.d. Yadulla Həsənli). Azərbaycan Respublikasının mənzil-kommunal sektorunda islahatların aparılması üçün spesifik olan və ya nəzərə alınması vacib olan istiqamətlərin sinfi təsnifatı verilmişdir: institutional islahatların həyata keçirilməsinin zəruriliyi, tarif islahatları, müxtəlif qrupların - müəssisə, yerli orqanlar, investorlar, istehlakçıların maraqlarını əhatə edən məqsədlərin optimallaşdırılması üçün tənzimləmə prinsiplərinin işlənib hazırlanması, kommunal şirkətlər və kommunal infrastruktur obyektlərinin mülkiyyətçiləri arasında konkret nəticələrin əldə edilməsinə yönələn müqavilələrin bağlanması, kommunal müəssisələrin fəaliyyətinə monitorinq sisteminin yaradılması, antiinhisarlaşdırma siyasətinin texniki-iqtisadi məqsədyönlülüyü nəzərə alınmaqla ardıcıl tətbiqi, o cümlədən təbii inhisar subyektlərinin tərkibindən müstəqil müəssisələrin ayrılması, mülkiyyət formasından asılı olmayaraq bütün müəssisələrə kommunal infrastrukturun idarə edilməsi və inkişaf etdirilməsində bərabər şəraitin yaradılması, yeni servis xidmətlərinin yaradılması və yeni biznes növlərinin inkişaf etdirilməsi hesabına kommunal xidmətlərin çeşidinin və keyfiyyətinin artırılması və islahatların gedişinə təkan verə biləcək normativ hüquqi bazanın yaradılması .

Qeyd edilənlərin yerinə yetirilməsi əsas məsələlərin həll edilməsini qarşıya qoyur: bu sahədə yeni idarəetmə formasının tətbiqi, qeyri-rasional xərclərin azaldılması üzrə tədbirlərin görülməsi, yaşayış fondunun idarəedilməsində antiinhisarlaşdırma və rəqabətin inkişaf etdirilməsi; müəssisələr və onların xidmətindən istifadə edənlər arasındakı münasibətlərin müqavilə əsasında qurulması, modernləşdirilmə prosesinə investisiyaların cəlb edilməsi, müasir texnologiya və materiallardan istifadə, enerji resurslarına qənaət üzrə müasir tikinti standartlarının tətbiqi və onun tələblərinin gözlənilməsinə nəzarət, dövlətə məxsus yaşayış fondunun özəlləşdirilməsi prosesinin davam edilməsi, bu məqsədlə stimullaşdırıcı tədbirlərin görülməsi, qəza vəziyyətində olan və çox köhnəlmiş binaların müəyyən edilməsi məqsədi ilə onların inventarlaşdırılması və pasportlaşdırılmasının aparılaraq xüsusi proqramın hazırlanması. Bu işlərin yerinə yetirilməsi nəticədə yeni keyfiyyət standartlarına cavab verən yaşayış şəraitinin yaradılması, həm istehsalçını və həm də istehlakçını qane edə biləcək keyfiyyətli kommunal xidmətlərin göstərilməsinin təmin edilməsi, effektiv tarif sisteminin formalaşdırılması, eləcə də az təminatlı ailələrə sosial yardımın formalaşdırılması məsələlərinin həll edilməsi və istehsalçı-istehlakçı münasibətlərinin hüquqi müstəviyə keçirilməsi ilə bağlı təkliflər paketinin hazırlanmasına imkan verəcəkdir.

Mövzu. İnhisar subyektlərində dövlət tənzimlənməsinin nəzəri-metodoloji əsasları (məsul icraçılar: i.e.d., prof. Vilayət Vəliyev, Sadiq Əliyev). Təbii inhisarların formalaşması və yaradılması zərurəti araşdırılmış, inhisarların tənzimlənməsi mexanizmi və tənzimləmə metodları üzrə dünya təcrübəsi, tənzimləmənin Avropa və Amerika sistemi geniş şəkildə öyrənilmişdir.

***Problem. Məlumat bazasının formalaşdırılması və statistik təhlillər***

İş: Statistik məlumatların toplanması, işlənməsi, təsnifləşdirilməsi, tədqiqat tələblərinə uyğunlaşdırılması və dövri olaraq yenilənməsi. Bu istiqamətdə işlər müvafiq göstəricilər nəşr olunduqca dövrü olaraq həyata keçirilmişdir.

İş: Əsas istehlak məhsullarının qiymətlərinin monitorinqinin nəticələrinin təhlili. İstehlak bazarına nəzarət üzrə dövlət xidmətinin Bakı şəhəri üzrə 9 və 7 iqtisadi rayonun müxtəlif bazarlarında 132 adda məhsul, başqa sözlə, ərzaq məhsulları, tərəvəz, meyvə və giləmeyvələr və tikinti materialları olmaq üzrə üç qrup məhsullar arasında apardığı monitorinqlərin nəticələri müvafiq ilin baza dövrünə əsasən təhlil olunaraq qiymətlərdəki dəyişmələr və onların səbəbləri müəyyənləşdirilmişdir.

İş: Ölkənin müxtəlif iqtisadi sahələri üzrə təqdimatların hazırlanması. İqtisadiyyatın müxtəlif sahələri üzrə təqdimatlar hazırlanmış və ölkə təqdimatında sistemləşdirilmişdir. Həmçinin cari ildə İİETİ-də müxtəlif Dövlət Proqramları, əmr və tapşırıqlar çərçivəsində digər işlər də yerinə yetirilmişdir:

Mövzu. İqtisadi rayonların sosial-iqtisadi pasportunun hazırlanması (yenilənməsi) (məsul icraçı: Nurəddin Əflatun oğlu Eynullayev). Bu iş çərçivəsində iqtisadi rayonların sosial-iqtisadi vəziyyətinin mövcud mənzərəsini, təbii və əmək resurslarını özündə əks etdirən informasiya bazasının formalaşdırılması məqsədilə ölkənin iqtisadi rayonları üzrə sosial-iqtisadi pasportlar hazırlanmışdır. Pasportlar hazırlanarkən xarici ölkələrin bu sahədə təcrübəsi öyrənilmiş, Azərbaycanın iqtisadi rayonlarına dair sosial-iqtisadi məlumatlar toplanmış və yerləşdirilmişdir. Sosial-iqtisadi pasportlarda iqtisadi rayonların ərazisi, relyefi, iqlimi, faydalı qazıntı ehtiyatları, iqtisadi potensialı və s. əsas göstəriciləri müxtəlif cədvəl, diaqram və şəkillərdən istifadə olunmaqla şərh edilmişdir. Pasportlarda iqtisadi rayonların investisiya istiqamətləri göstərilmiş və burada mövcud olan müəssisə və təşkilatların siyahısı verilmişdir.

Mövzu. İnzibati rayonlar üzrə investisiya təkliflərinin hazırlanması (məsul icraçılar: i.e.n. Rofət Nofəl oğlu Hüseynəliyev, Nurəddin Əflatun oğlu Eynullayev). İqtisadi İnkişaf Nazirliyinin Kollegiyasının 2011-ci il 26 oktyabr tarixli, 4 nömrəli Qərarının icrası məqsədilə Respublikanın inzibati rayonları arasında sosial-iqtisadi inkişaf səviyyəsi və işgüzar fəallığı zəif olan 14 inzibati rayon seçilmiş meyarlar əsasında müəyyən olunmuşdur. Həmin inzibati rayonlar üzrə investisiya layihələrinin istiqamətləri müəyyən olunaraq aidiyyəti üzrə təqdim olunmuşdur.

Analitik-təhlil üzrə rüblük səpkidə ölkənin makroiqtisadi durumunun analitik təhlilinin aparılması, Nazirliyin və digər dövlət orqanlarının tapşırıqları əsasında cari operativ-analitik təhlil işlərinin yerinə yetirilməsi, Azərbaycanın dövri mətbuatında nəşr edilən iqtisadiyyata aid materialların toplanması, monitorinqinin aparılması və çap olunmuş iqtisadi məqalələrin sahələr üzrə kataloqunun hazırlanması işləri yerinə yetirilmişdir.

Elmi-təşkilati işlər üzrə aşağıdakı tədbirlər həyata keçirilmişdir:

- 2011-ci il sentyabrın 30-da İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunmuş "Milli iqtisadiyyat, modernləşmə, diversifikasiya və regional inkişaf" mövzusunda Dəyirmi masa keçirilmişdir. Tədbirdə İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun, AMEA-nın İqtisadiyyat İnstitutunun, Bakı Dövlət Universitetinin, Qafqaz Universitetinin, Turizm İnstitutunun, Azərbaycan Dövlət İqtisad Universitetinin, Sahibkarlar Milli Konfederasiyasının, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və digər elmi müəssisələrin nümayəndələri iştirak etmişlər;
- iqtisadiyyat elminin və ölkə iqtisadiyyatının aktual problemlərinə dair mütəmadi olaraq metodoloji seminarlar təşkil edilmişdir;
- institutun əməkdaşlarının elmi məqalə və tezislərinin yerli və xarici jurnallarda dərc olunması ilə əlaqədar təşkilati yardım göstərilmişdir;

- institut əməkdaşlarının ölkə və beynəlxalq səviyyəli elmi-praktiki konfrans, simpozium, seminar və digər elmi məclislərdə iştirakına təşkilati yardım göstərilmişdir.

İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda tədris işləri istiqamətində aşağıdakılar həyata keçirilmişdir:

- İqtisadi İnkişaf Nazirliyinin regional və yerli qurumlarının əməkdaşları üçün treninqlərin təşkili ilə bağlı zəruri işlər görülmüşdür;
- bir sıra ali təhsil müəssisəsindən göndərilən tələbələrin institutda təcrübə keçmələri təmin edilmişdir.

2011-ci ildə Marketinq və İctimai əlaqələr istiqamətində aşağıdakı işlər görülmüşdür:

- institutun müsbət imicinin formalaşdırılması istiqamətində fəaliyyət davam etdirilmişdir;
- institutun veb səhifəsi restrukturizasiya edilmiş və məlumatlarların yenilənməsi operativ təmin edilmişdir;
- institutda təşkil olunan treninq-seminar, dəyirmi masa, metodoloji seminarların və digər elmi tədbirlərin ictimaiyyətə çatdırılması təmin edilmişdir;
- xarici ölkələrdə - Qazaxıstan, Polşa, Ukrayna, Almaniya, Türkiyə və Çində anoloji qurumların mütərəqqi iş təcrübəsi öyrənilmiş və Azərbaycana tətbiqi imkanları araşdırılmışdır;
- 2011-ci ildə İİETİ ilə Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, Ukrayna İqtisadiyyat Nazirliyinin Elmi-Tədqiqat İqtisadiyyat İnstitutu, Moldova Respublikasının İqtisadiyyat Nazirliyinin və Elmlər Akademiyasının İqtisadiyyat, Maliyyə və Statistika İnstitutları arasında elmi-texniki əməkdaşlıq haqqında müqavilələr, həmçinin Koreyanın Beynəlxalq İqtisadi Siyasət İnstitutu arasında anlaşma memorandumu imzalanmışdır. Müqavilə və memorandumda elmi, nəzəri və tətbiqi tədqiqatların həyata keçirilməsi, eləcə də elmi kadrların hazırlanması sahəsində əməkdaşlıq nəzərdə tutulmuşdur;
- 2011-ci il ərzində institutun Elmi Şurasının 3 iclası keçirilmişdir. İclaslarda institutda yerinə yetirilən elmi-tədqiqat işlərinin mövzuları, doktorant və dissertantların dissertasiya işlərinin mövzuları və s. bu kimi məsələlərin müzakirələri təşkil olunmuş, doktorant və dissertantların attestasiyalarının nəticələri, həmçinin 2011-ci ildə institut tərəfindən yerinə yetirilən elmi-tədqiqat işlərinin planına qismən dəyişikliklərin edilməsi ilə bağlı təkliflər müzakirə olunmuş və müvafiq qərarlar qəbul edilmişdir;



MARMARA ÜNİVERSİTESİ

QAFQAZ ÜNİVERSİTESİ

ve

İKTİSADİ İNKİŞAF NAZIRLIĞI İKTİSADİ İSLAHATLAR İLMİ-ARAŞTIRMA ENSTİTÜSÜ

arasında

İŞBİRLİĞİ PROTOKOLÜ

Madde 1

İşbirliğinin Konuları

Madde 2

TARAFLAR

Madde 3

Madde 4

Ortak Araştırma Projeleri

Madde 5

Projenin İncelenmesi

Madde 6



Ortak Araştırma Projelerinin Uygulanması

Madde 7

Ortak Araştırma Projelerinin Sonuçlandırılması

Madde 8

Akademik Değişim

Madde 9

Öğrenci Değişimi

Madde 10



Madde 11

Ortak Mastır ve Doktora Programları

Madde12

Geçici ve Kesin Hükümler

Madde 13

Madde 14



AGREEMENT OF COOPERATION
between
Ministry of Economic Development of the Republic of Azerbaijan
The Institute for Scientific Research on Economic Reforms
(Baku, Azerbaijan)
and
Ege University
(Bornova-Izmir/Turkey)

ARTICLE 1:PREAMBLE

ARTICLE 2:GOALS

ARTICLE 3: THE AGREEMENT

ARTICLE 4: FINANCIAL OBLIGATIONS

ARTICLE 5: ACCOMMODATION

ARTICLE 6: DURATION, TERMINATION AND MODIFICATION OF AGREEMENT



**ARTICLE 7: CONTACT PERSONS**

**MINISTRY OF ECONOMIC DEVELOPMENT OF THE REPUBLIC OF AZERBAIJAN THE INSTITUTE FOR SCIENTIFIC RESEARCH ON ECONOMIC REFORMS**

Dr. Vilayat M. Valiyev
Director

88a H. Zardabi Avenue, Baku, AZ1011, The Republic of Azerbaijan

Telephone: (+994 12) 430 89 33
Fax: (+994 12) 430 02 15
E-mail: v.valiyev@ier.az
valiyev@gmail.com

**EGE UNIVERSITY**

Prof.Dr.Atilla Silki
Vice Rector,

Ege University, Rectorate Building, Bornova, Izmir-TURKEY

Telephone: 0090. 232. 3427374
Fax: 0090. 232. 3881071
E-mail: intrec@mail.ege.edu.tr

3

**ARTICLE 8: SIGNATURES**

For Ministry of Economic Development of the Republic of Azerbaijan The Institute for Scientific Research on Economic Reforms

For Ege University

Signature

Signature

Dr. Vilayat M. Valiyev
Name

Prof. Dr. Candeğer YILMAZ
Name

Director
Title

Rector
Title

Date

Date

4



**COOPERATION AGREEMENT**
**between**
**the Institute for World Economics of the Hungarian Academy of Sciences**
**and**
**the Institute for Scientific Research on Economic Reforms of the Ministry of Economic Development of the Republic of Azerbaijan**

*Baku* *December 22, 2011*

In order to establish and develop scientific contacts between the two institutions, the Institute for World of Economics of the Hungarian Academy of Sciences (IWE HAS) and the Institute for Scientific Research on Economic Reforms of the Ministry of Economic Development of the Republic of Azerbaijan (ISRER MoED) have agreed as follows in terms of cooperation.

1. Bearing in mind the mutuality of interest in encouraging scientific cooperation and exchange and the reciprocal advantages that would result from this cooperation in fields of common interest, the Parties will implement their cooperation through the following means:
   - regular exchange of detailed information on research projects of mutual interest;
   - organization of joint conferences and workshops;
   - opportunities provided for invitation of individual researchers;
2. The above provisions shall be carried out upon mutual consultation.
3. While this agreement does not commit either party to financial outlay, both parties will seek benefits from the sources of the Scientific Exchange Framework between IWE and ISRER.
4. This agreement shall come into force when representatives of the two institutions sign below, and shall remain effective for a period of five years.
5. This agreement may be amended by mutual consent and may be terminated by either party upon a written advance notice of one year.
6. The text of this agreement will be established in English, Azerbaijani and Hungarian all with equal bearing. Should any question on any part of the agreement emerge, the two institutions will confer with each other to reach a consensual solution.
7. Without excluding the possibility of extending cooperation to other areas as may be deemed necessary by the Parties, the following are identified as areas of mutual interest:
   - Regional disparities and transformation (SMEs, investment, labour market issues and etc.);
   - International trade relations (trade between Hungary and Azerbaijan and the impact of these trade relations on regional economic development);
   - Analysis of tendencies in the world economy and macroeconomic outlook of countries (investment flows between Hungary and Azerbaijan and the impact of these flows on the regional economic development. The impact of the oil prices on the world economy and macroeconomic performances of countries);
   - Global financial and economic challenges for the new era of economic development in the world;
   - Creation of a regional energy market through joint and efficient use of resources and global energy security;
   - Environment protection, innovative-technological progress and sustainable development.

Dr. András INOTAI
Director
Institute for World Economics
Hungarian Academy of Sciences
Institute of Economics
Budapest, Hungary

Dr. Vilayat VALIYEV
Director
Institute for Scientific Research
on Economic Reforms
Ministry of Economic Development
Baku, Azerbaijan

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın təsdiq edilməsi haqqında Qərarı və Azərbaycan Milli Elmlər Akademiyasının 2011-ci ildə elmi müəssisələr və təşkilatlar üçün fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə qəbul elanına ("Elm" qəzeti, 2011-ci il 22 avqust tarixli, 23-24 saylı) əsasən İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda doktoranturaya qəbul imtahanları keçirilmişdir. Ümumilikdə, dörd ixtisas üzrə 27 nəfər sənəd təqdim etmişdir. Qəbul imtahanlarında yüksək nəticə göstərən 12 nəfər namizəd plan üzrə instituta ayrılmış 12 yerə qəbul olunmuşlar. Dekabrın 21-də keçirilmiş institutun Elmi Şurasının qərarı ilə doktoranturaya qəbul olunanların mövzuları və elmi rəhbərləri təsdiq edilmişdir;

- 2011-ci il 12-17 may tarixlərində institutda təhsil alan doktorant və dissertantların attestasiyası keçirilmişdir;

- 2011-ci il 01 dekabr tarixə institutda fəlsəfə doktoru proqramı üzrə 7 nəfər 3-cü kurs əyani, 7 nəfər 3-cü kurs qiyabi olmaqla 14 doktorant və 11 dissertant, elmlər doktoru proqramı üzrə isə 9 dissertant təhsil almışdır. 2011-ci il 30 dekabr tarixindən fəlsəfə doktoru proqramı üzrə təhsil alan doktorantlardan 7 nəfəri, dissertantlardan isə 3 nəfəri təhsil müddətinin sona çatması ilə əlaqədar olaraq doktoranturadan xaric edilmişdir;

- 2011-ci ildə institutun doktorant və dissertantlarından 4 nəfəri dissertasiya işlərini ilkin variantda bitirərək təqdim etmiş, onların namizədlik dissertasiyası ilkin müzakirədən müvəffəqiyyətlə keçmiş və müvafiq Dissertasiya Şuralarına təqdim olunmaları haqda qərar qəbul edilmişdir. Eyni zamanda, İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu tərəfindən aparıcı təşkilat kimi 11 namizədlik və 2 doktorluq dissertasiya işlərinin müzakirəsi təşkil edilmiş, onlara müvafiq rəylər verilmişdir. Bir sıra dissertasiya işlərinin avtoreferatlarına, dissertasiya işlərinin əsas müddəalarını özündə əks etdirən təhriri-məruzələrə institutun əməkdaşları tərəfindən müvafiq rəylərin verilməsi təmin olunmuşdur;

- dissertantura və doktorantura üzrə təhsilin keyfiyyətinin yüksəldilməsi, dissertasiyaların müzakirəsi və müdafiəsi ilə əlaqədar problemlərin həlli istiqamətində müvafiq işlər görülmüşdür;

- Bu ildə həmçinin institutun kitabxana fondu yeni elmi ədəbiyyatlarla zənginləşdirilmişdir.

- 2011-ci ildə elmi-redaksiya heyətinin sədri i.e.d., professor Vilayət Məmməd oğlu Vəliyevin rəhbərliyi ilə institutun "Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri" adlı elmi əsərlər toplusunun 16 ç.v. həcmində XI buraxılışı çapdan çıxmışdır.



AZƏRBAYCAN RESPUBLİKASI
İQTİSADİ İNKİŞAF NAZİRLİYİ

İQTİSADİ İSLAHATLAR ELMİ-TƏDQİQAT İNSTİTUTU

AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU
XI BURAXILIŞ

BAKI-2011

Azərbaycan Respublikası
İqtisadi İnkişaf Nazirliyi
İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun
Elmi Şurasının qərarı əsasında çap olunur

Elmi-redaksiya heyəti:
V.M. Vəliyev (sədr)
Ə.C. Muradov
O.İ. İbrahimov
R.N. Hüseynəliyev
V.Ə. Rüstəmov
Ə.M. Babaşov
S.Z. Abbasəliyeva (məsul katib)
T.Ş. Salıfova (korrektor)

Azərbaycan Respublikasında iqtisadi inkişafın xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu, XI buraxılış.
Bakı, 2011, 252 səh.

İSBN 9953-55-025-1

İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu, 2011



MÜNDƏRİCAT-2011 (№11)

Vilayət VƏLİYEV, iqtisad elmləri doktoru, Samirə ABASOVA, İİETİ-nin baş elmi işçisi, i.e.n., dosent
Sahibkarlıq subyektlərinin fəaliyyətində ortaya çıxan risklər və onların idarə edilməsi 7

Yadulla HƏSƏNLİ, iqtisad elmlər doktoru
İqtisadi fəaliyyət sahələrində sahələrarası əmək balansı əsasında iş yerlərinin yaradılmasının simulyasiya modelinin hazırlanması 21

Samirə ABASOVA, İİETİ-nin baş elmi işçisi, i.e.n., dosent
Korporativ maliyyə idarəçiliyində marketinqin rolu 52

Bəhruz MƏMMƏDOV, iqtisad üzrə fəlsəfə doktoru, Fuad MƏMMƏDOV, ADİU-nun tələbəsi
Azərbaycan Respublikasında gömrük sisteminin təkmilləşdirilməsi istiqamətləri 59

Həzi EYNALOV, i.e.n., İİETİ-nin baş elmi işçisi, Aral DAVUDOV, İİETİ-nin şöbə müdiri, v.i.e. Regionların sosial-iqtisadi inkişafında alternativ kənd təsərrüfatı fəaliyyəti olan ekoloji təmiz kənd təsərrüfatının rolu 81

Emil QASIMOV, iqtisad üzrə fəlsəfə doktoru
Azərbaycanın nəqliyyat logistika sektorunun müasir vəziyyəti 94

Bağış ƏHMƏDOV, iqtisad elmləri namizədi
Azərbaycanda investisiya resursları və onların formalaşmasına təsir edən amillərin qiymətləndirilməsi 104

Fərhad MİKAYILOV, İİETİ-nin dissertantı, Fuad MƏMMƏDOV, İİETİ-nin baş mütəxəssisi
Sosial müdafiə xərclərinin qeyri-neft sektorunun inkişafına təsirinin qiymətləndirilməsinə dair bəzi məsələlər 131

Nərminə İSMAYILOVA, İİETİ-nin böyük elmi işçisi
Milli iqtisadiyyatın inkişafında daxili investisiyaların rolu 146

Malik Mehdiyev, İİETİ-nin aparıcı elmi işçisi
İqtisadi siyasət ssenarilərinin simulyasiyasının təşkili 156

Hüseyn MƏMMƏDOV, İİETİ-nin aparıcı elmi işçisi
Böhran şəraitində ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi 168

Nərminə İSMAYILOVA, İİETİ-nin böyük elmi işçisi
Sənaye parklarının yaradılmasının iqtisadi-hüquqi ilkin şərtləri 179

Sahil VƏLİYEV, İİETİ-nin baş mütəxəssisi
Dünya iqtisadi böhranı və Azərbaycanın dayanıqlığı 186

Malik MEHDİYEV, İİETİ-nin aparıcı elmi işçisi
Kənd təsərrüfatının dövlət tənzimlənməsinin nəzəri metodoloji məsələləri 194

Aytən Sayadova, İİETİ-nin baş mütəxəssisi
Müstəqil Azərbaycanın sosial-iqtisadi inkişafının mərhələləri və gələcək inkişaf istiqaməti 229

**2012-ci ildə** İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun Elmi-Tədqiqat İş Planı İqtisadi İnkişaf Nazirliyinin fəaliyyət istiqamətlərinə uyğun tərtib edilərək müvafiq şöbələr və struktur bölmələrlə razılaşdırılaraq təsdiq olunmuşdur. İlin əvvəlindən etibarən institutun Elmi-Tədqiqat işləri qeyd olunan plana uyğun təşkil edilmişdir. İş Planı elmi-tədqiqat işləri, xarici əlaqələr, veb səhifənin idarə olunması, layihələrin idarə olunması, elmi və elmi-texniki tədbirlərin təşkili, nəşr fəaliyyəti, kadr potensialının gücləndirilməsi, elmi katiblik istiqamətləri üzrə müəyyən edilmişdir. 2012-ci ildə İş Planından əlavə bir sıra Dövlət Proqramları üzrə institutun icraçı olduğu tədbirlər yerinə yetirilmişdir.

2012-ci ildə İş Planı üzrə nəzərdə tutulmuş aşağıdakı istiqamətlərdə və mövzularda elmi-tədqiqat işləri yerinə yetirilmişdir:

***Problem. Vahid platformada Azərbaycan Respublikasının Ümumi Tarazlıq Modelinin işlənməsi***

Mövzu. Əsas istehlak məhsullarının qiymətlərinin monitorinqinin nəticələrinin təhlili və ekonometrik qiymətləndirilməsi (məsul icraçılar: i.e.d.,prof. Vilayət Məmməd oğlu Vəliyev, i.e.n. Mətanət Rəsul qızı Rəsulova). İstehlak bazarına nəzarət üzrə dövlət xidmətinin Bakı şəhəri üzrə 9 və 7 iqtisadi rayonun müxtəlif bazarlarında 132 adda məhsul, başqa sözlə, ərzaq məhsulları, tərəvəz, meyvə və giləmeyvələr və tikinti materialları olmaq üzrə üç qrup məhsullar arasında apardığı monitorinqlərin nəticələri müvafiq ilin baza dövrünə əsasən təhlil olunaraq qiymətlərdəki dəyişmələr və onların səbəbləri müəyyənləşdirilmişdir. Müvafiq aylar üzrə tərtib olunan hesabatlar mütəmadi olaraq İstehlak Bazarına Nəzarət üzrə Dövlət Xidməti orqanına təqdim olunmuşdur. 2009-2012-ci illər ərzində aparılmış monitorinqlərin nəticələri ümumiləşdirilərək Eviews proqram zərfi vasitəsilə ekonometrik qiymətləndirilmişdir.

Mövzu. Regionların sahələrarası balans modelinin tərtibi üzrə ilkin tədqiqatların aparılması (məsul icraçı: i.e.d., prof. Vilayət Məmməd oğluVəliyev). Dünyada ilk dəfə region üçün sahələrarası balans Mur və Petercon tərəfindən ABŞ-ın Yuta ştatı üçün hazırlanmışdır. İtaliyada belə balans onun cənub regionunun, yaponlar Xokaydo adasının inkişaf etdirilməsi üçün belə balans hazırlamışlar. Daha sonra ABŞ-da Filadelfiyanın, İsveçdə Stokholm və Oslonun belə balansları hazırlanmışdır. Keçmiş Sovet İttifaqında belə balans 1959-cu ildə Mordva MSSR üçün hazırlanmışdır. 70-ci illərdə isə Pribaltika ərazisi üçün eksperimental formada belə balans hazırlanmışdır.

Regional balansların hazırlanması əlavə olaraq xeyli hesablamalar və vəsait tələb etdiyindən belə balansların hazırlanması xeyli çətindir. Digər tərəfdən bu balansların hazırlanması üçün əvvəlcədən məlumat bazasının formalaşdırılması statistika orqanlarının iş planında olmadığından həmin məlumatları mütəmadi olaraq heç olmasa 3-5 ildən bir əldə etmək çətindir. Odur ki, bu işlərin görülməsi həmişə eksperimental forma daşımışdır. Müasir dövrdə informasiya əldə etmək və onu işləmək informasiya texnologiyalarının inkişafı ilə əlaqədar asanlaşdığından, belə informasiyaların əldə edilməsini də mümkün etmişdir. Məsələn, gömrük orqanlarının avtomatlaşmış məlumat bazaları əsasında hər hansı ərazi üzrə sahəvi strukturu da daxil olmaqla idxal və ixrac barədə məlumat formalaşdırmaq mümkündür ki, bu da regional balansların tərtibi zamanı ən çətin əldə olunan informasiyalardan sayılır.

Digər tərəfdən əvvəllər sahələrarası balans əsasında aparılan proqnoz hesablamalarının özü o qədər əmək tutumlu idi ki, müvafiq orqanlar onun həyata keçirilməsinin öhdəsindən güclə gəlirdi. Müasir hesablama texnikalarının köməyi ilə məlumatların müəyyən əlamətlər üzrə təsnifləşdirilməsi və işlənməsi çox asanlaşdığından regional balansların tərtibinə də böyük imkanlar açılmışdır. Hal-hazırda ABŞ, Böyük Britaniya, Skandinaviya ölkələri, Yeni Zelandiya, Rusiya Federasiyası regional balansların tərtibini bilavasitə həyata heçirirlər. Lakin qeyd etmək lazımdır ki, bu balanslar adı çəkilən ölkələrin bütün regionları üçün tərtib edilməmişdir.

Statistika sahəsində də həmin balansların tərtibi barədə normativ hüquqi sənəd hələ mövcud deyildir. Qeyd etmək lazımdır ki, hər ölkə bu balansın tərtibində özünəməxsus metodlardan istifadə edir. Bəziləri dolayı hesablamalar əsasında, bəziləri isə bu məqsədlə xüsusi sorğular keçirməklə tələb olunan məlumatları əldə edirlər. Bu tədqiqat işinin aparılmasında

məqsəd Azərbaycanda belə balansların tərtib edilməsinə bir növ təşəbbüs göstərməkdir. Əlbəttə ki, belə təşəbbüs gələcəkdə regional balansın tərtibi və istifadəsi zamanı tələb olunan məlumat bazası və onun toplanılması barədə, habelə regional modellərin qurulması metodologiyası haqqında təcrübə əldə etməyə imkan verəcəkdir.

Mövzu. İqtisadi sahələr üzrə birbaşa vergi dərəcələrinin optimallaşdırılması (məsul icraçı: i.e.d., prof. Vilayət Məmməd oğlu Vəliyev). Tədqiqat işi üzrə ilk növbədə plan tərtib olunmuş və iş planına müvafiq olaraq iş qrafiki müəyyənləşdirilmişdir. Qeyd edilən iş planına və iş qrafikinə uyğun olaraq aşağıdakı bölmələr icra edilmişdir:

- mövzu üzrə müvafiq ədəbiyyat xülasəsi aparılmış və zəruri statistik məlumat bazası formalaşdırılmışdır;
- "Mənfəət vergisi üzrə mövcud vergi siyasətinin təhlili" bölməsi üzrə ölkəmizdə aparılan vergi siyasətinə, o cümlədən mənfəət vergisinə dair mövcud vəziyyətə dair təhlillər aparılmışdır;
- "Mənfəət vergisinin, eləcə də bu vergiyə birbaşa təsir göstərən vergi və tutulmaların optimallaşdırılmasının nəzəri-konseptual müddəaları" bölməsi üzrə mənfəət vergisi və onun optimallaşdırılmasına dair nəzəri müddəalar öyrənilərək müvafiq metodologiya müəyyənləşdirilmişdir;
- "Mənfəət vergisinin, eləcə də bu vergiyə birbaşa təsir göstərən vergi və tutulmaların optimallaşdırılmasına dair dünya təcrübəsinin öyrənilməsi" bölməsi üzrə təbii resurslarla zəngin kiçik miqyaslı açıq iqtisadiyyatların bu sahədəki mövcud təcrübəsi müqayisəli şəkildə araşdırılmışdır;
- "Sahələrarası balans münasibətlərinin köməyi ilə iqtisadi sahələrin qarşılıqlı təsirinin qiymətləndirilməsi" bölməsində iqtisadi fəaliyyət sahələri müvafiq olaraq yeddi sahə üzrə qruplaşdırılmış, bu sahələr üzrə mənfəət vergisinin, eləcə də bu vergiyə birbaşa təsir göstərən vergi və tutulmaların məhsul həcminə təsirlərinin hesablanması üsulları işlənilmiş və elastiklik əmsalları hesablanmışdır;
- "Mənfəət vergisinin optimal səviyyəsinin qiymətləndirilməsi modelinin işlənilməsi" bölməsi üzrə seçilmiş metodologiyaya uyğun olaraq qiymətləndirmə və simulyasiyaların GAMS proqram zərfində reallaşdırılması istiqamətində tamamlama işləri aparılmışdır.

Mövzu. Azərbaycanda vergilərin ölkənin ümumi iqtisadi tarazlığına təsirinin nəzəri-metodoloji bazasının araşdırılması və ilkin məlumatların işlənilməsi (məsul icraçı: i.e.d. Yadulla Həsənli). Toplanmış ədəbiyyatlardan lazımi fikirlər götürülmüş və ümumiləşdirilərək qruplaşdırılmışdır. Eyni zamanda sahələrarası balans metodu təhlil edilmiş və qeyd olunan balans cədvəllərində xalis vergilərin makroiqtisadi göstəricilər üzərindəki təsirləri araşdırılmışdır. Vergilərin iqtisadi tarazlığa təsirinin təhlil edilməsi ümumi tarazlıq modeli vasitəsi ilə aparılır. Bu modelin əsas sütunlarından biri sahələrarası balans cədvəlləridir. Bu baxımdan sahələrarası təhlilin əsası olan Leontiyev modeli öyrənilmiş və təhlil edilmişdir.

Mövzu. Azərbaycanın əmtəə və xidmətlər bazarında tələb və təklif tarazlığının qiymətləndirilməsinin nəzəri-metodoloji bazasının tədqiqi, məlumatlar bazasının formalaşması və emalı (məsul icraçılar: i.e.d. Vilayət Məmməd oğlu Vəliyev, i.e.n. Mətanət Rəsul qızı Rəsulova). Mövzu üzrə ədəbiyyatlar və eləcə də bu sahədə beynəlxalq təcrübədə həyata keçirilmiş tədqiqat işləri araşdırılmış, habelə Azərbaycan iqtisadiyyatı üçün tətbiqi məsələlərinə baxılmışdır. Bu tədqiqat işini həyata keçirmək üçün statistik məlumat bazasının formalaşdırılmasında işlər aparılmışdır.

***Problem. Xarici ticarət və ölkənin beynəlxalq rəqabətqabiliyyətliliyinin artırılması***

Mövzu. Xarici ticarət və əmək bazarı arasında əlaqələrin nəzəri-metodoloji aspektləri (məsul icraçı: i.e.n. Mətanət Rəsul qızı Rəsulova). Xarici ticarət və əmək bazarı arasında əlaqələrin müəyyənləşdirilməsi məqsədilə bu sahədə nəzəri əsaslar öyrənilmiş, Koreya Beynəlxalq İqtisadi Siyasət İnstitutunun (KİEP “Working paper) jurnalında məqalə çap edilmişdir.

Mövzu. Azərbaycanın beynəlxalq inteqrasiya üzrə meyarlarının tədqiqi, ilkin məlumatların toplanılması və təhlili (məsul icraçı: i.e.n. M.R. Rəsulova). Azərbaycanın beynəlxalq inteqrasiya üzrə meyarlarının müəyyənləşdirilməsi üçün bu sahədə nəzəri müddəalar araşdırılmışdır. 1995-2012-ci illər üçün tədiyə balansının maddələri üzrə statistik məlumatlar toplanılmışdır.

Mövzu. Müasir qloballaşma şəraitində milli iqtisadi maraqların təmin olunmasının elmi-nəzəri əsasları (məsul icraçılar: i.e.n. Vaqif Əli oğlu Rüstəmov, i.e.n. Mətanət Rəsul qızı Rəsulova). 2012-ci il ərzində “Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına qəbulu kontekstində ölkənin milli iqtisadi maraqlarının təmin olunması imkanları” mövzusunda elmi araşdırmalar çərçivəsində, müasir qloballaşma şəraitində milli iqtisadi maraqların təmin olunmasının elmi-nəzəri əsasları öyrənilmişdir. Eyni zamanda aparılmış bu təhlillər zamanı gələcəkdə Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına qəbulu kontekstində ölkənin milli iqtisadi maraqlarının təmin olunması imkanları baxımından önəm kəsb edəcək, üzvlük proseslərinin və mənafelərinin qorunmasına zəmin yaratmış olacaq normaların müəyyən olunması işinə üstünlük verilmişdir.

Mövzu. Azərbaycan Respublikasından Avropa İttifaqına ixracın artırılması və şaxələndirilməsi nəzəri problemlərinin araşdırılması (məsul icraçı: i.e.n., b.e.i. Vaqif Əli oğlu Rüstəmov, Elnur Vaqif oğlu Əliyev). Mövzu ilə bağlı yerli və xarici ədəbiyyatlara müraciət olunmuş, ixracın şaxələnməsi imkanlarının elmi-nəzəri əsasları araşdırılmış və dünya təcrübəsinə əsaslanan bir sıra elmi yanaşmalardan istifadə edilmişdir. İşdə ixracın şaxələnməsi imkanlarının elmi-nəzəri əsasları ilə bağlı əldə edilmiş mənbələrin çoxu xarici nəşrlərlə bağlı olduğundan tərcümələrə və sözügedən sənədlərin təhlilinə daha geniş vaxt ayrılmışdır.

Mövzu. Azərbaycanın milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması üzrə ilkin araşdırmaların aparılması (məsul icraçı: i.e.d. Ədalət Muradov). İş ilə bağlı Standartlaşdırma Meterologiya və Patent üzrə Dövlət Komitəsi ilə bir neçə dəfə görüşlər keçirilərək Azərbaycanın milli standartlaşdırma sistemi təhlil olunmuş, qanunvericilik bazası araşdırılmışdır.

Mövzu. Ticarətin liberallaşmasının qeyri-neft strukturunun inkişafına təsirinin modelləşdirilməsi üzrə ilkin araşdırmaların aparılması (məsul icraçılar: i.e.n. Cihan Bulut, i.e.n. Mətanət Rəsul qızı Rəsulova). Mövzu üzrə aşağıdakı istiqamətlər üzrə tədqiqatlar tamamlanmışdır:

- Azərbaycanda Aksiz Vergisinin Harmonize edilməsinin gəlirlərə və İstehsala təsirinin qiymətləndirilməsi;
- Azərbaycanda ƏDV-dən azadolmaların azaldılmasının Yerli Kənd Təsərrüfatı İstehsalçıları və Gəlirlərə təsirinin qiymətləndirilməsi;
- Azərbaycanda Konkret Məhsulların Timsalında İxrac Rüsumlarının azaldılmasının Gəlirlərə və İstehsala təsirinin qiymətləndirilməsi;
- Azərbaycanda Tarifin Liberallaşdırılmasının Prioritet Mallara təsirinin

Qiymətləndirilməsi.

Mövzu. Elmi ideyaların transferi və sənaye bölgələrinin yaradılması üçün təcrübələrin öyrənilməsi (məsul icraçı: i.e.n. Mətanət Rəsul qızı Rəsulova). Elm-istehsalat komplekslərinin (texnoparkların) mahiyyəti, resursları, əsas formaları müəyyənləşdirilmiş, elm-istehsalat komplekslərinin fəaliyyətinin dünya təcrübəsi (Böyük Britaniya, Fransa, Almaniya, ABŞ) araşdırılmışdır.

***Problem. Azərbaycanda sahibkarlığın və regionların sosial-iqtisadi inkişafı***

Mövzu. Regionların sosial-iqtisadi inkişaf göstəricilərinin təhlili və inzibati rayonlar üzrə prioritet investisiya istiqamətlərinə dair təkliflərin hazırlanması (məsul icraçı: i.e.n. Rofət Nofəl oğlu Hüseynəliyev). Regionların müasir sosial-iqtisadi inkişaf göstəricilərinin əks olunduğu regionların sosial-iqtisadi pasportları hazırlanmışdır.

Mövzu. Azərbaycanda kiçik və orta sahibkarlığın (KOS-un) inkişaf perspektivlərinin qiymətləndirilməsi (məsul icraçılar: i.e.n. Rofət Nofəl oğlu Hüseynəliyev, i.e.n. Vaqif Əli oğlu Rüstəmov). Sahibkarlıq təsərrüfatının maddi-texniki vasitələrlə təmin edilməsində mühüm rol oynayan faktorlardan biri kənd təsərrüfatının kənd təsərrüfatı müəssisələri istehsal vasitələri istehsal edən sənaye müəssisələri arasında əlaqələr mexanizminin təkmilləşdirilərək bazar iqtisadiyyatı tələbləri səviyyəsində yenidən qurulması, müştərək maddi-texniki servis müəssisələrin yaradılaraq inkişaf etdirilməsi, maddi-texniki vasitələrin istehsalı, tətbiq olunması, təmir işlərinin aparılması üçün yeni mütərəqqi texnologiyaların hazırlanması və tətbiqi problemlərinin həll edilməsidir. Biznes ideallaırn formalaşmasında KOS sahəsində işbirliyinin, əməkdaşlığın qurulması perspektiv amilə çevrilə bilər. Ümumiyyətlə, kiçik və orta sahibkarların strateji işbirliyi, əməkdaşlığı KOS tədqiqatçıları tərəfindən bu sahədə rəqabət qabiliyyətinin yüksəldilməsinin aktiv amilləri sırasına daxil edilir.

Mövzu. İqtisadi rayonlar üzrə Kobb-Duqlas istehsal funksiyasının qiymətləndirilməsi və təkliflərin hazırlanması (məsul icraçı: i.f.d. Nurəddin Əflatun oğlu Eynullayev). Tədqiqat işinin məqsədi Quba-Xaçmaz iqtisadi rayonunun Kobb-Duqlas istehsal funksiyasının qiymətləndirilməsi və alınmış nəticə əsasında təkliflərin hazırlanmasından ibarət olmuşdur. 2002-2011-ci illərin məlumatları əsasında Quba-Xaçmaz iqtisadi rayonu üzrə Kobb-Duqlas istehsal funksiyası qiymətləndirilmişdir. Qiymətləndirmənin nəticəsinə əsasən regionda istifadəyə verilmiş əsas fondların adambaşına düşən həcminin bir faiz artımı həmin regionda bir nəfərə düşən məhsul buraxılışının həcmini 0,266% artırır. Hər il zaman ənənəsi ilə məhsul buraxılışının həcmi 5% artır. Ümumiyyətlə, həmin regionda məhsul buraxılışının kapitala (əsas fondlara) görə elastiklik əmsalı 0,27, əməyə görə elastiklik əmsalı 0,73 kimidir. Yəni həmin regionda əməyin məhsul buraxılışında rolu xeyli böyükdür.

Mövzu. Azərbaycanda sahibkarlığın inkişafı üçün ehtiyacların öyrənilməsi (məsul icraçı: i.e.d., prof. Vilayət Məmməd oğlu Vəliyev). Əsas diqqət Respublikada regional sahibkarlığın inkişafı üçün ehtiyacların öyrənilməsinə yönəlmiş, bunun üçün üç istiqamətdə araşdırmaların aparılması planlaşdırılmışdır: (1) SWOT təhlilin aparılması, (2) regional sahibkarlığın inkişafında digər ölkələrin təcrübəsinin və (3) regional sahibkarlığın inkişafının təhlili üzrə biznes aktivliyinin öyrənilməsi üçün sorğuların keçirilməsi. SWOT təhlilin aparılması üçün ilkin olaraq Gəncə-Qazax iqtisadi rayonu üzrə sahibkarlığın inkişafında (əsasən aqrar-sənaye kompleksi üzrə) əsas problemlər araşdırılmış, baryerlər müəyyən edilmişdir. Sahibkarlığın inkişafında digər ölkələrin təcrübəsi Almaniya və Türkiyənin timsalında, Almaniya təcrübəsi isə dövrü mənbələr əsasında araşdırılmışdır. Türkiyə təcrübəsinin

öyrənilməsi məqsədi ilə institutun əməkdaşları Türkiyə Respublikasının İnkişaf Nazirliyində, Ankara, İzmir, Antalya və Ərzurum Regional Agentliklərində olmuşlar. Bu regional Agentliklərdə aqrar-sənaye komplekslərinin, sənayenin ənənəvi və qış turizminin inkişafı üzrə sahibkarlığın inkişafında verilən dəstəklər, institutional və hüquqi bazanın təkmilləşdirilməsi, rəqabətqabiliyyətliliyin artırılmasının digər məsələləri öyrənilmişdir. Regionlarda sahibkarlığın inkişafının təhlili üzrə biznes aktivliyinin öyrənilməsi üçün sorğu anketləri hazırlanmış və İqtisadi İnkişaf Nazirliyinin şöbələrinin iştirakı ilə ilkin sorğular keçirilmişdir. Belə sorğuların keçirilməsində subyektivliyin aradan qaldırılması üçün sorğuların keçirilməsinin təkmilləşdirilməsinə ehtiyac olduğu qənaətinə gəlinmişdir. Göstərilən istiqamətlər üzrə işlər davam etdirilmişdir.

***Problem. Azərbaycan Respublikasında sosial inkişaf problemlərinin tədqiqi***

Mövzu. Azərbaycan Respublikasında sosial sahələrin (sosial müdafiə istisna olmaqla) tədqiqi: mövcud vəziyyət və perspektiv istiqamətlər (məsul icraçılar: i.e.n. Vəfa Mütəllimova, Fərhad Mikayılov). Tədqiqat işi ilə bağlı beynəlxalq təcrübə öyrənilmiş və həmin təcrübədən istifadə etməklə müvafiq sahələr seçilmişdir. Seçilmiş bölmələr üzrə aşağıdakı müvafiq təhlillər aparılmışdır:

- təhsil sahəsinin göstəriciləri, dinamikası, meyilləri, təsiredici faktorları üzrə məlumat bazası toplanılmış, ədəbiyyat xülasələri tərtib edilmiş, eyni zamanda müvafiq təhlillər aparılmış və perspektiv inkişaf istiqamətlərinə dair tövsiyələr verilmişdir;
- səhiyyə sahəsinin göstəriciləri, dinamikası, meyilləri, təsiredici faktorları üzrə məlumatlar toplanılmış və ədəbiyyat xülasələri tərtib edilmiş, eyni zamanda, müvafiq təhlillər aparılmış və perspektiv inkişaf istiqamətlərinə dair tövsiyələr verilmişdir;
- turizm sahəsinin göstəriciləri, dinamikası, meyilləri, təsiredici faktorları üzrə işlər tamamlanmış və tədqiqat hesabatı hazırlanmışdır;
- demoqrafiya bölməsinin göstəricilər, dinamika, meyillər, təsiredici faktorlar- bölməsi üzrə məlumat bazası toplanılmış, ədəbiyyat xülasələri tərtib edilmiş, müvafiq təhlillər aparılmış, nəticə və tövsiyələr verilmişdir.

Mövzu. Azərbaycanda rifahın inteqral göstəricilərinin modelləşdirilməsi üzrə ilkin tədqiqatların aparılması (məsul icraçı: i.e.n. Vəfa Mütəllimova). Tədqiqat işinin məqsədi Respublikada əhalinin rifahının qiymətləndirilməsi ilə bağlı indikatorlar sisteminin təsnifləşdirilməsi və inteqral göstəricilər sistemini formalaşdırmaqla hesablamaların aparılması olmuşdur. Qoyulmuş məqsədə çatmaq üçün ilk olaraq rifah kateqoriyası təhlil edilərək, rifahı xarakterizə edən göstəricilər sistemi müqayisəli olaraq müəyyən olunmuşdur. Daha sonra müəyyən edilmiş sistem üzrə Respublika üçün bu göstəricilər əsasında təhlilin həyata keçirilməsi, inteqral göstəricilərin hesablanması nəzərdə tutulur. İşdə rifahı xaraketrizə edən göstəricilərə təsir edən faktorlar araşdırılmaqla həmin faktorların təsiri də modelləşdirilmişdir. Təhlilin ölkə üzrə olmaqla, eyni zamanda, regional olaraq həyata keçirilməsi nəzərdə tutulmuşdur. İşin sonunda aparılmış təhlillər və modelləşdirmənin nəticəsi əsasında təkliflər hazırlanmışdır.

Mövzu. Regionlarda orta və kiçik sahibkarlığın inkişafında insan resurslarının idarə edilməsinin nəzəri-metodoloji statistik bazasının araşdırılması (məsul icraçı: i.e.n. Rakif Fərəcov). İlkin olaraq insan resurslarının idarə edilməsinin sahibkarlığın inkişafında rolunun artırılması üzrə nəzəri-metodoloji aspektləri araşdırılmış, statistik bazanın formalaşması üçün

iqtisadi rayon üzrə sahibkarlıq subyektlərinin sahəvi təsnifatına müvafiq formalar hazırlanmışdır.

Mövzu. İnhisar subyektlərində dövlət tənzimlənməsinin nəzəri-metodoloji əsasları (məsul icraçı: i.e.d. Ədalət Muradov). Mövzu ilə əlaqədar xeyli ədəbiyyat mütaliə edilmiş, təbii inhisarlar barəsində dünya təcrübəsi və ölkədə olan mövcud vəziyyət öyrənilmişdir. Ötən müddətdə inhisarların iqtisadi fəaliyyətinə dövlət müdaxiləsinin zəruriliyinə dair dünya təcrübəsi öyrənilmiş, inhisarların yaranması səbəbləri, təbii inhisarlara dövlət nəzarəti və formaları, tənzimləmə metodları, inhisarlara dair ölkə qanunvericiliyi, tənzimləyici orqanlar və onların fəaliyyət istiqamətləri, təbii inhisarların strukturuna dair hesabat təqdim edilmişdir.

***Problem. Qeyri-neft sahələrinin inkişafının qiymətləndirilməsi***

Mövzu. Azərbaycanda kənd təsərrüfatının, o cümlədən ekoloji təmiz kənd təsərrüfatının inkişafının iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi (məsul icraçılar: i.e.n. Həzi Eynalov, Malik Mehdiyev).

İş. Ekoloji təmiz kənd təsərrüfatının inkişafının nəzəri aspektləri və prioritetlərinin tədqiqi (Quba-Xaçmaz iqtisadi rayonu timsalında) (məsul icraçı: i.e.n. Həzi Eynalov). 2012-ci il ərzində ekoloji təmiz kənd təsərrüfatının inkişafının nəzəri aspektləri istiqamətində xarici və yerli ədəbiyyat araşdırılmışdır. Ekoloji təmiz kənd təsərrüfatının inkişafının nəzəri aspektləri və prioritetlərinin tədqiqi istiqamətində mövcud yanaşmaların müəyyən edilməsi və dünyada mövcud yanaşmalar əsasında prioritetlərin araşdırılması istiqamətində müvafiq işlər yerinə yetirilmişdir.

İş. Almaniya təcrübəsi əsasında ekoloji təmiz kənd təsərrüfatının inkişaf perspektivlərinin tədqiqi (məsul icraçı: i.e.n. Həzi Eynalov). Tədqiqat işi çərçivəsində Almaniyada ekoloji təmiz kənd təsərrüfatının mövcud vəziyyəti öyrənilmiş, mövcud mexanizmlər araşdırılmışdır. O cümlədən, ölkəmizdə ekoloji təmiz kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində Almaniya təcrübəsinin tətbiq imkanları tədqiq edilmişdir.

İş. Azərbaycanda kənd təsərrüfatı məhsullarının rəqabətqabiliyyətliyinin artırılması və kompleks inkişafı üzrə təkliflərin işlənilməsi (məsul icraçılar: i.e.d. Vilayət Məmməd oğlu Vəliyev, i.e.n. Rofət Nofəl oğlu Hüseynəliyev, i.e.n. Vaqif Əli oğlu Rüstəmov). İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi və BMT-nin İnkişaf Proqramının birgə həyata keçirdiyi Milli Məşğulluq strategiyası çərçivəsində hazırlanmış layihədə cari və potensial üstünlüklərin nəzəri məsələləri araşdırılmışdır.

"Azərbaycanda kənd təsərrüfatı üzrə dövlət tənzimlənməsi sahəsində mövcud vəziyyətin təhlili və onun Ümumdünya Ticarət Təşkilatının tələblərinə uyğunlaşdırılması üçün tövsiyələrin hazırlanması" tədqiqat layihəsində Ümumdünya Ticarət Təşkilatına daxil olmağın şərtləri və ticarət qaydaları nəzərdən keçirilmişdir. Azərbaycanın daxili resurs dəyərinin təhlili yekun hesabatında ilk dəfə daxili resurs sərfi metodunun tətbiqi ilə kənd təsərrüfatı və bəzi digər məhsulların rəqabətqabiliyyətliliyi hesablanmışdır.

"Azərbaycan Respublikasında kənd təsərrüfatı sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri" İqtisadi İnkişaf Nazirliyi və BMT-nin İnkişaf Proqramı çərçivəsində İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda həyata keçirilmiş tədqiqat layihəsində ilk dəfə geniş formada Balassa indeksi ilə 200-dən çox aqrar-sənaye sahəsinə aid məhsulların aşkar müqayisəli üstünlüyü, 50-dən çox kənd təsərrüfatı məhsulu üzrə ayrıca olaraq daxili resurs sərfi metodu ilə rəqabətqabiliyyətlilik göstəricisi olan daxili resurs sərfi əmsalı və mühafizə əmsalları hesablanmışdır. Bu tədqiqatlarda kənd təsərrüfatı məhsullarının

rəqabətqabiliyyətliliyi müəyyən edilmiş və rəqabətqabiliyyətliliyin artırılması üzrə xeyli qiymətli təkliflər verilmişdir. Ölkədə qeyri-neft sektorunun inkişafının prioritet məsələ olduğunu nəzərə alaraq bu sahədə tədqiqatların davam etdirilməsi 2012-ci ildə də İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun İş Planına daxil edilmişdir. Bu tədqiqat işi əvvəlki tədqiqat işlərinin bilavasitə davamıdır. Tədqiqatın əsas məqsədi rəqabətqabiliyyətliliyin hesablanması metodologiyalarının təkmilləşdirilməsi, kənd təsərrüfatının iqtisadiyyatın digər sahələri ilə əlaqəli inkişaf etdirilməsi məsələlərinin öyrənilməsi, habelə bu əlaqələrin kənd təsərrüfatının rəqabətqabiliyyətliliyinə necə təsir etməsinin öyrənilməsidir.

İş. Üzümçülüyün, o cümlədən ekoloji təmiz süfrə üzümünün istehsalı və emalı üzrə təkliflərin hazırlanması (məsul icraçılar: i.e.n. Rofət Hüseynəliyev, i.e.n. Həzi Eynalov). Tədqiqat işi Dövlət Proqramının müvafiq olaraq 2.4.11.-ci "Ekoloji təmiz süfrə üzüm istehsalının dəstəklənməsi" bəndini və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 30 avqust tarixli 159 saylı qərarı ilə təsdiq olunmuş "Ekoloji təmiz kənd təsərrüfatının elmi təminatının həyata keçirilməsi Qaydaları" nəzərə alınaraq aparılmış və müvafiq təkliflər – regionlar üzrə mövcud vəziyyətlə bağlı toplanmış məlumatlar, ekoloji təmiz kənd təsərrüfatının inkişaf perspektivlərinə dair institutun müvafiq tədqiqat işlərinin nəticələri əsasında verilmişdir. Tədqiqat işində dünya təcrübəsi öyrənilərək ölkəmizdə inkişaf perspektivlərinə dair ilkin qiymətləndirmə aparılmışdır. Tədqiqat işinin sonunda ekoloji təmiz süfrə üzümünün istehsalı və emalı üzrə müvafiq təkliflər hazırlanmışdır.

İş. Üzümçülük üzrə təqdimatın hazırlanması (məsul icraçı: i.e.n. Həzi Eynalov). İş üzrə üzümçülük və şərabçılıq sahəsinə dair müvafiq məlumatlar toplanılmış, statistik göstəricilər qrafik şəkilə salınmış, bu sahədə mövcud vəziyyət və dövlət tərəfindən müvafiq tədbirlər qısa şəkildə nəzərə çatdırılmışdır. O cümlədən "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" qısa şəkildə şərhi ilə təqdim edilmişdir. Təqdimatda üzümçülüyün tarixi, Azərbaycanda keçmişi və bugünü, müvafiq növləri, emal istiqamətləri, mövcud göstəriciləri və Dövlət Proqramı öz əksini tapmışdır.

Mövzu. Nəqliyyat, logistika və turizmin inkişafının əsas istiqamətlərinin tədqiqi

İş. Regional iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsində logistikanın rolunun tədqiqi (məsul icraçı: i.e.d., prof. Vilayət Məmməd oğlu Vəliyev). İlkin olaraq regionlarda sahibkarlığın inkişafı üçün həm regional logistik infrastrukturun, həm də sahibkarlıq subyektlərinin fəaliyyətində logistikanın rolu araşdırılmışdır. Regional sahibkarlığın inkişaf etdirilməsi üçün müvafiq klasterlərin işlənilməsi qeyd olunan istiqamətlərdə logistik sistemin yenidən qurulmasına və nəticədə regionların rəqabət qabiliyyətinin artırılmasına imkan yaratmışdır. Qeyd olunan işlərin həyata keçirilməsi üçün ilk addım kimi əsasən sahibkarlar üçün nəzərdə tutulan logistika üzrə "sahibkarın cib kitabçası"nın hazırlanması nəzərdə tutulmuşdur. Eyni zamanda Milli Aviasiya Akademiyası ilə birlikdə həm sahibkarlar, həm də logistika sisteminin yaradılmasında maraqlı olanlar üçün "Logistika terminlərinin izahlı lüğəti"nin hazırlanması üzrə işlər başa çatmış və bu lüğət çapa hazırlanmışdır.

İş. Azərbaycanın beynəlxalq ticarətinin səmərəliliyinin artırılmasında logistika və tədarük şəbəkəsinin inkişaf etdirilməsi mexanizmlərinin işlənməsi (məsul icraçı: i.e.d., prof. Vilayət Məmməd oğlu Vəliyev). Azərbaycanın beynəlxalq ticarətinin səmərəliliyinin artırılmasında logistika və tədarük şəbəkəsinin inkişaf etdirilməsində beynəlxalq təcrübə

öyrənilmiş və Azərbaycanda sahibkarlığın inkişaf etdirilməsində tədarük şəbəkəsinin əhəmiyyətinin araşdırılması və inkişaf etdirilməsi mexanizmi müəyyən edilmişdir.

İş. Azərbaycanın turizm sektorunda nəqliyyat infrastrukturunun və logistika sisteminin səmərəliliyinin artırılması (məsul icraçı: i.e.d., prof. Vilayət Məmməd oğlu Vəliyev). Mövzu ilə əlaqədar nəzəri-metodoloji baza araşdırılmış, nəqliyyat-tranzit infrastrukturunun və logistika sisteminin əsas elementləri, qarşılıqlı əlaqələri və funksiyaları nəzərdən keçirilmişdir. "Eurovision-2012" mahnı müsabiqəsində tədbirin mükəmməl təşkili üzrə qonaqların yerləşdirilməsi və Kristal Hall-da müşayiət olunması ilə bağlı nəqliyyat və logistika sisteminin qurulmasının funksional mərhələləri, çoxsaylı treninqlərdə istifadə olunmuş və çap olunaraq vəsait kimi təşkilatçılara paylanmışdır.

İş. Ekoloji turizmin inkişaf etdirilməsi istiqamətində araşdırmaların aparılması (məsul icraçılar: i.e.n. Həzi Eynalov, i.e.n. Samirə Abasova). Mövzu ilə əlaqədar ədəbiyyat araşdırması başa çatdırılmış, xarici və yerli mütəxəssislərin əsərləri nəzərdən keçirilmişdir, ekoloji turizmin inkişaf istiqamətlərinin müəyyən edilməsi istiqamətində aparılmış təhlil və tədqiqatların nəzərdən keçirilməsi planlaşdırılmışdır.

İş. Azərbaycanda turizm sektorunun beynəlxalq rəqabət qabiliyyəti və onun artırılması imkanları (məsul icraçılar: i.e.d. Dünyamalı Vəliyev, i.e.n. Samirə Abasova). Xidmət sektorunda rəqabətqabiliyyətlilik anlayışı və turizm sektorunda beynəlxalq rəqabətqabiliyyətlilik istiqamətində ədəbiyyatlar araşdırılmış və onlardan istifadə olunmuşdur. Xarici ölkələrin təcrübəsi timsalında turizm sferasının rəqabətqabiliyyətliliyinin tədqiqi və araşdırılması aparılmışdır. Azərbaycanda turizm sektorunun SWOT təhlili aparılaraq üstün, zəif cəhətlər, imkanlar və təhlükələr qeyd olunmuşdur. Azərbaycanda turizm obyektlərinin rəqabətqabiliyyətliliyinin öyrənilməsi və tədqiqi məqsədilə turizm obyektlərində və əhali arasında sorğu keçirilmiş və nəticələri qeyd olunmuşdur.

Mövzu. Azərbaycanın qeyri-neft sektorunun sahələrarası təsirinin qiymətləndirilməsi (məsul icraçı: i.e.d., prof. Vilayət Məmməd oğlu Vəliyev).

İş. Azərbaycanın qeyri-neft sektorunun sahələrarası təsirinin qiymətləndirilməsi üzrə nəzəri və statistik bazanın tədqiqi (məsul icraçı: i.e.d. Vilayət Məmməd oğlu Vəliyev). Qeyri-neft sektorunun sahələrarası əlaqələrinin təsirinin qiymətləndirilməsi üzrə statistik baza institut və EcoMod şirkətinin birgə hazırladığı Azərbaycan Respublikasının Sosial Hesablar Matrisi bazasında hazırlanmışdır. Qeyri-neft sektorunun sahələrarası əlaqələrinin təsirinin qiymətləndirilməsi isə xüsusi olaraq müvafiq ssenarilərin qiymətləndirilməsi əsasında Azərbaycan Respublikasının Ümumi Tarazlıq Modeli bazasında tədqiq olunması planlaşdırılmışdır.

İş. Qeyri-neft sektorunun inkişafı, o cümlədən onun ixrac potensialının artırılmasında qərarların qəbulu modellərinin ilkin işlənilməsi (məsul icraçı: i.e.d., prof. Vilayət Məmməd oğlu Vəliyev). İlkin olaraq qeyri-neft sektorunun inkişafı, o cümlədən onun ixrac potensialının artırılmasına təsir göstərən amillər araşdırılmışdır. Müvafiq meyarların tələbi əsasında qeyri-neft sektorunun inkişafına təsir göstərən amillərin üstünlük dərəcələrinin qiymətləndirilməsi, ranqlaşdırılması və məhdud sayda üstün amillərin seçilməsinin qeyri-səlis modelinin işlənilməsi üzrə işlər görülmüşdür.

***Problem. Enerji, infrastruktur və kommunal xidmətlərin sosial-iqtisadi inkişaf göstəricilərinə təsirinin qiymətləndirilməsi***

Mövzu. Azərbaycanın enerji balansının sahələrarası təhlili (məsul icraçı: i.e.d., prof. Vilayət Məmməd oğlu Vəliyev). Respublikanın enerji balansı üzrə statistik baza dəqiqləşdirilmiş, tələb-təklif nöqteyi-nəzərdən araşdırılması üzrə nəzəri-metodoloji baza öyrənilmişdir. Eyni zamanda enerji balansının sahələrarası təsirinin qiymətləndirilməsi məqsədi ilə statistik bazanın qeyd olunan tələb və təklif münasibətlərinin ödənilməsinin təmin olunması imkanları araşdırılmışdır.

Mövzu. Azərbaycanın enerjiyə qənaət və enerji effektivliyi planının tərtibi (məsul icraçı: i.e.d., prof. Vilayət Məmməd oğlu Vəliyev). Respublikanın enerji effektivliyi planı iqtisadi sektorlar üzrə araşdırılmış və ilkin variantda tərtib edilmişdir. Enerji effektivliyi üzrə planın müvafiq məlumatları yeniləşdirilərək başa çatdırılması üzrə işlər görülmüşdür.

Mövzu. Azərbaycanda kommunal xidmətlərin səmərəliliyinin artırılması və tənzimlənməsi mexanizmlərinin işlənilməsi (məsul icraçı: i.e.d., prof. Vilayət Məmməd oğlu Vəliyev). Azərbaycanda kommunal xidmətlərin kəmiyyət və keyfiyyət göstəricilərinin qiymətləndirilməsi məqsədi ilə statistik məlumatlar təhlil edilmişdir. Kommunal sektorda son dövrlər böyük həcmdə investisiyaların qoyulması bütün sahələrdə böyük kəmiyyət kefiyyətləri yaratmış, sistemin dayanıqlılığı və xidmət əhatəliliyini xeyli artırmışdır. Bu istiqamətdə həm də yüksək kefiyyət göstəricilərinin əldə olunması məqsədi ilə kommunal sektorun hər bir istiqaməti (enerji, qaz, istilik və su təchizatı, zibilin daşınması və lift təsərrüfatında) üzrə SWOT təhlili aparılmışdır. Aparılmış təhlillər əsasında kommunal xidmətlərin səmərəliliyinin artırılması və tənzimlənməsi mexanizmlərinin işlənilməsi üzrə təklif və tövsiyələr hazırlanmışdır.

***Problem. Ermənistan tərəfindən Dağlıq Qarabağ və ona yaxın inzibati rayonların işğalı nəticəsində dəymiş ziyanın qiymətləndirilməsi***. Mövzu üzrə bütün hazırlanan sənədlərə ilk növbədə institutun müvafiq (aidiyyəti) şöbələri tərəfindən baxılmış və bundan sonra nazirliyin bütün şöbələrinə təklif və tövsiyələr bildirilməsi üçün göndərilmişdir. İş planı hazırlanmış, bu istiqamətdə olan statistik və digər məlumatlar toplanılmış və beynəlxalq təcrübə öyrənilmişdir.

***Problem. Məlumatlar bazasının formalaşdırılması, statistik göstəricilərin təhlili və cari işlərin yerinə yetirilməsi***

Mövzu. Statistik məlumatların yenilənməsi, təsnifləşdirilməsi və emalı (məsul icraçı: i.f.d. Emil Filman oğlu Qasımov). Müvafiq olaraq kənd təsərrüfatı, tikinti, sənaye, nəqliyyat, təhsil, turizm və s. bölmələr üzrə yenilənmələr icra edilmişdir.

Mövzu. İqtisadi rayonların pasportunun yenilənməsi (məsul icraçılar: i.f.d. Emil Filman oğlu Qasımov, i.f.d.Nurəddin Əflatun oğlu Eynullayev). Azərbaycan Respublikasının iqtisadi rayonları üzrə Pasportları 2011-ci ilin sosial-iqtisadi göstəriciləri əlavə edilərək yenilənmişdir.

Mövzu. Ölkənin müxtəlif iqtisadi sahələri üzrə təqdimatların hazırlanması (məsul icraçılar: i.e.n. Oruc İbrahim oğlu İbrahimov, i.f.d. Emil Filman oğlu Qasımov). Ölkənin müxtəlif iqtisadi sahələri üzrə təqdimatların hazırlanması “Azərbaycan təqdimatı” kitabının tərkib hissəsi kimi verilmişdir.

Mövzu. Regionların və inzibati rayonların elektron statistik bazasını yeniləmək (məsul icraçı: i.f.d. Emil Filman oğlu Qasımov). Regionların və inzibati rayonların elektron statistik bazası 2011-ci ci ilin rəqəmləri də əlavə edilərək yenilənmişdir.

Mövzu. Statistik baza üçün sahəvi göstəricilərin elektron bazasını yeniləmək (məsul icraçı: i.f.d. Emil Filman oğlu Qasımov). Statistik baza üçün sahəvi göstəricilərin elektron bazasında müvafiq sahələr üzrə rəqəmlər yenilənmişdir.

Mövzu. "Azərbaycan təqdimatı" kitabının yenilənməsi (məsul icraçı: i.f.d. Emil Filman oğlu Qasımov). "Azərbaycan təqdimatı" kitabı 2011-ci ilin rəqəmləri də əlavə edilərək yenilənmişdir.

Mövzu. MDB ölkələrinin əsas sosial-iqtisadi göstəricilərinin elektron bazasını yaratmaq (məsul icraçı: i.f.d. Emil Filman oğlu Qasımov). MDB ölkələrinin əsas sosial-iqtisadi göstəricilərinin elektron bazası hazırlanmışdır.

Mövzu. Dövlət proqramlarının, Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarından irəli gələn məsələlərin icrası (məsul icraçılar: i.e.d. Vilayət Vəliyev, i.e.n. Rofət Hüseynəliyev, i.e.n. Oruc İbrahimov). İnstitutda iyul-dekabr ayları ərzində Nazirlik tərəfindən tapşırılmış Dövlət Proqramlarının, Azərbaycan Respublikası Prezidentinin Fərman, Sərəncam və tapşırıqlarından irəli gələn məsələlərin icrasına dair işlər aidiyyəti üzrə yerinə yetirilmişdir.

Mövzu. İqtisadi İnkişaf Nazirliyinin Kollegiyasının qərarlarının, İqtisadi İnkişaf Nazirliyinin əmr və tapşırıqlarının, eləcə də müxtəlif qurumlardan daxil olmuş və digər sənədlərin icrası ilə bağlı cari işlərin yerinə yetirilməsi (məsul icraçılar: i.e.d. Vilayət Vəliyev, i.e.n. Rofət Hüseynəliyev, i.e.n. Oruc İbrahimov). İnstitutda iyul-dekabr ayları ərzində İqtisadi İnkişaf Nazirliyinin Kollegiyasının qərarlarının, İqtisadi İnkişaf Nazirliyinin əmr və tapşırıqlarının, eləcə də müxtəlif qurumlardan daxil olmuş, digər sənədlərin icrası və cari işlərin yerinə yetirilməsi ilə bağlı işlər aidiyyəti üzrə yerinə yetirilmişdir.

2012-ci ildə institutun əməkdaşlıq etdiyi təşkilatlarla işlərin davam etdirilməsi ilə yanaşı əlaqələrinin genişləndirilməsi istiqamətində də müvafiq işlər aparılmışdır. Belə ki, 2012-ci ildə biri yerli, ikisi xarici olmaqla üç təşkilat ilə əməkdaşlıq müqaviləsi imzalanmışdır:

- "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Milli Aviasiya Akademiyası və Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu arasında elmi-texniki əməkdaşlıq haqqında saziş (Bakı şəhəri, 01 mart 2012-ci il);
- Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu ilə Ukrayna İqtisadi İnkişaf və Ticarət Nazirliyinin Elmi-Tədqiqat İqtisadiyyat İnstitutu arasında 2012-2017-ci illərdə əməkdaşlıq barədə saziş (30 may 2012-ci il);
- Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu ilə Qazaxıstan Respublikasının İqtisadi İnkişaf və Ticarət Nazirliyi arasında əməkdaşlıq memorandum (Astana şəhəri, 14 dekabr 2012-ci il).

Sazişlərdə birgə tədqiqatların aparılması, elmi və elmi-texniki tədbirlərdə iştirak və kadr potensialının gücləndirilməsi istiqamətlərində əməkdaşlıq edilməsi nəzərdə tutulmuşdur. Son illərdə xarici əlaqələrin genişləndirilməsi istiqamətində məqsədyönlü şəkildə fəaliyyət göstərən institut ilə profilə uyğun digər təşkilatlar arasında 2010-2012-ci illər ərzində, ümumilikdə, doqquz əməkdaşlıq sazişi imzalanmışdır.



**"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Milli Aviasiya Akademiyası və Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu arasında elmi-texniki əməkdaşlıq haqqında**

**MÜQAVİLƏ**

Bakı şəhəri "01" mart 2012-ci il

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin ("AZAL" QSC) Milli Aviasiya Akademiyası, rektor akademik Arif Mir Cəlal oğlu Paşayevin şəxsində bir tərəfdən, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu, direktor Vilayət Məmməd oğlu Vəliyevin şəxsində digər tərəfdən aşağıdakılar barədə bu müqaviləni bağladılar.

**Maddə 1.**

Hazırkı müqavilənin predmetini elmi, nəzəri və tətbiqi tədqiqatların həyata keçirilməsi, eləcə də elmi kadrların hazırlanması sahəsində əməkdaşlıq təşkil edir.

**Maddə 2.**

Tərəflər qarşılıqlı maraqlarını ifadə edərək aşağıdakı fəaliyyət istiqamətləri üzrə əməkdaşlıq haqqında razılığa gəldilər:

**2.1**. Aşağıdakı mövzular da daxil olmaqla, müxtəlif tədqiqat istiqamətləri üzrə birgə elmi layihələrin həyata keçirilməsinə təşəbbüs göstərmək:

- Azərbaycanda regionların və sahibkarlığın, aqrar-sənaye kompleksinin, turizmin, sənayenin, eləcə də qeyri-neft sektorunun digər sahələrinin inkişafı, ixrac potensiallarının artırılması və beynəlxalq ticarətdə əlavə imkanların əldə edilməsi məqsədi ilə nəqliyyat-tranzit və logistikanın imkan və səmərəliliyinin artırılması;
- Elmi potensialın təşkili və idarə olunması;
- Elmi-texniki sahələrdə innovasiya fəaliyyətinin inkişafı.

**2.2.** Nəqliyyat-tranzit və logistika sahələri üzrə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf məqsədlərini dəstəkləyən layihə və proqramların, təlimat və digər sənədlərin birgə hazırlanması və həyata keçirilməsi.

**2.3**. Elmi məlumatların (qarşılıqlı maraq kəsb edəcək kitablar, jurnallar, məqalələr toplusu, statistik məlumatlar və s.) müntəzəm olaraq mübadiləsini və birgə hazırlanmasını təşkil etmək.

**2.4**. Milli Aviasiya Akademiyasının və İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun elmi jurnal və toplularında bu təşkilatların əməkdaşlarının məqalələrinin nəşrinə yardım göstərmək və bu təşkilatların alimlərini müvafiq jurnalların redaksiya heyətinə daxil etmək.

**2.5.** Yerli və xarici elmi jurnallarda nəşr olunması üçün birgə məqalələrin hazırlanmasına təşəbbüs göstərmək.

**2.6.** Tərəflərin təşkilatçılığı ilə milli iqtisadiyyatın və iqtisad elminin aktual problemlərinə dair respublika iqtisadçılarının, eləcə də müvafiq dövlət və qeyri-dövlət təşkilatlarının konfransının keçirilməsini birgə təşkil etmək.

**2.7.** Tərəflərdən birinin təşkil etdiyi elmi konfrans, seminar və simpoziumlarda digərinin iştirakının təmin edilməsi.

**2.8**. Dissertant və doktorantlara elmi rəhbərlik, həmçinin, dissertasiya işlərinə və avtoreferatlara müqavilənin tərəfləri olan təşkilatların alimləri tərəfindən rəylərin verilməsi, opponentlik edilməsi, həyata keçirilən tədqiqat işlərinə resenziyaların hazırlanması istiqamətində birgə fəaliyyətin təşkil edilməsi.

**2.9**. Qrantlar hesabına birgə tədqiqatların həyata keçirilməsinə təşəbbüs göstərmək.

**2.10**. Tərəflərin nizamnaməsinə və hazırkı müqavilənin məzmununa zidd olmayan digər tədbirlərin həyata keçirilməsi.

**Maddə 3.**

Konkret layihələrin həyata keçirilməsi üzrə əlavə təşkilati və maliyyə məsələləri ayrıca, ikitərəfli müqavilələr çərçivəsində müzakirə olunaraq razılaşdırılacaqdır.

**Maddə 4.**

**4.1.** Müqavilə imzalandığı gündən qüvvəyə minir və müqavilə tərəflərindən birinin rəsmi məktubla müraciəti əsasında qüvvədən düşmüş hesab edilir.

**4.2.** Müqavilə eyni hüquqi qüvvəyə malik olan 2 (iki) nüsxədə tərtib edilmişdir.

**Maddə 5.**

Tərəflərin hüquqi ünvanları və rekvizitləri:

"AZAL" QSC-nin Milli Aviasiya Akademiyası, Bakı ş., Binə qəsəbəsi, 25-ci kilometr, AZ-1045
Tel.: (+99412) 4972824
Faks: (+99412) 4972829
E-mail: mail@naa.edu.az

Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu, Bakı ş., H.Zərdabi pros., 88a, AZ-1011
Tel.: (+99412) 4300170
Faks: (+99412) 4319180
E-mail: office@ier.az

Tərəflərin imzası:

**Milli Aviasiya Akademiyasının rektoru** **akademik Arif Paşayev**

**İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun direktoru** **Vilayət Vəliyev**



**ДОГОВОР**

о сотрудничестве между Научно-Исследовательского Института Экономических Реформ Министерства Экономического развития Республики Азербайджана и Научно-Исследовательским Экономическим Институтом Министерства экономического развития и торговли Украины на 2012-2017 годы

30 мая 2012 года

**МЕМОРАНДУМ О СОТРУДНИЧЕСТВЕ**

между

Научно-исследовательским Институтом экономических реформ при Министерстве Экономического развития Азербайджанской Республики

и

АО «Институт экономических исследований» Министерства экономического развития и торговли Республики Казахстан

г. Астана «19» декабря 2012 г.

2012-ci il ərzində institutun əməkdaşları müxtəlif elmi və elmi-texniki tədbirlərdə iştirak etmək məqsədilə Respublika xarici və Respublika daxili ezamiyyətdə olmuşlar:

- Respublika xarici 20 ezamiyyət həyata keçirilmiş, onlardan 12-i İİETİ, digərləri isə beynəlxalq təşkilatlar (Dünya Bankı (2), İqtisadi Əməkdaşlıq Təşkilatı (1), Türkiyə Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) (4), Koreyanın Xarici İqtisadi Tədqiqatlar İnstitutu (KİEP) (1)) tərəfindən maliyyələşdirilmişdir;
- Respublika daxili isə 38 ezamiyyət həyata keçirilmiş və bütün ezamiyyətlər İİETİ tərəfindən maliyyələşdirilmişdir.

2012-ci il ərzində istər əməkdaşlıq məsələlərinin müzakirəsi, istərsə də institutun fəaliyyətinin tanıdılması istiqamətində xarici tədqiqatçılar və nümayəndələrlə bir sıra görüşlər keçirilmişdir. Görüşlər əsasən Türkiyənin (Bakıdakı Səfirliyinin, İnkişaf Nazirliyinin, Regional İnkişaf Agentliyinin, Türkiyə Əməkdaşlıq və Koordinasiya Agentliyinin Bakı Proqram koordinatorluğunun (TİKA)), İran İslam Respublikasının (İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT)), Amerika Birləşmiş Ştatlarının (West Texas və Universitetinin professoru və Williams Kollecinin tədqiqatçısı), İslam ölkələri Statistika, İqtisadi və Sosial Araşdırma və Təhsil Mərkəzinin (SESRİC), Türkiyənin Elm və Texnoloji Araşdırmalar Təşkilatının (TÜBİTAK), "EcoMod Networking" şirkətinin prezidenti və eksperti, Ukraynanın, Qazaxıstanın, Macarıstanın və Cənubi Koreyanın müvafiq tədqiqat institutlarının nümayəndələri ilə bir sıra görüşlər keçirilmişdir.

İnstitutun fəaliyyəti haqqında geniş ictimaiyyətin tanış edilməsi və müsbət imicin formalaşdırılması məqsədilə il ərzində institutun veb səhifəsində müvafiq yenilənmə işləri aparılmışdır. Veb səhifə vasitəsilə işıqlandırılma bu il də azərbaycan və ingilis dillərində aparılmışdır. Bundan başqa il ərzində saytın istər oxucular tərəfindən izlənilməsi, istərsə də xəbər (yayım) agentlikləri tərəfindən saytda olan xəbərlərə istinadların sayının artımı müşahidə olunmuşdur. Ümumilikdə, 2012-ci il ərzində veb səhifədə 42-si press-reliz, 5-i elan və 3-ü məlumat olmaqla müxtəlif məzmunlu 50 mətn yerləşdirilmişdir.

İl ərzində birgə əməkdaşlıq və digər mənbələrdən maliyyələşmə hesabına altı elmi-tədqiqat işi (layihə) həyata keçirilmişdir.

1. Birgə əməkdaşlıq çərçivəsində başa çatdırılmış işlər:

- "Azərbaycanda ekoloji təmiz kənd təsərrüfatının inkişaf etdirilməsi prosesində Türkiyə təcrübəsinin öyrənilməsi və qurumlararası əməkdaşlığın inkişaf etdirilməsi" layihəsi (Türkiyə Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) və İİETİ);
- "Azərbaycan Respublikasının Ümumi Tarazlıq Modelinin işlənilməsi" layihəsi ("EcoMod Networking" Şirkəti və İİETİ);
- "Logistika terminləri üzrə izahlı lüğətin hazırlanması" layihəsi ("Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti Milli Aviasiya Akademiyası (MAA) və İİETİ).

2. Digər mənbələrdən maliyyələşmə hesabına görülmüş işlər:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 02 iyul tarixli 155s saylı Sərəncamına əsasən Dövlət büdcəsinin "İqtisadi islahatların həyata keçirilməsi ilə bağlı xərclər" maddəsində nəzərdə tutulan vəsait hesabına başa çatdırılmış işlər aşağıdakılar olmuşdur:

- "Üzümçülük və şərabçılıq sahəsində mütərəqqi beynəlxalq sığorta və lizinq xidmətləri təcrübəsinin öyrənilməsi, müvafiq təklif və tövsiyələrin hazırlanması" mövzusunda tədqiqat işi;
- "Mənzil-kommunal sektorunda aparılan islahatlar çərçivəsində xidmətlərin təşkilinə və keyfiyyətinin yüksəldilməsinə dair təklif və tövsiyələrin hazırlanması" mövzusunda tədqiqat işi;

- “Sahələrarası əlaqələrin təsirləri nəzərə alınmaqla, iqtisadi sahələr üzrə mənfəət vergisinin optimallaşdırılması” mövzusunda tədqiqat işi.

3. Davam etdirilmiş işlər:

- “Azərbaycanın qısamüddətli makroekonometrik modelinin qurulması” layihəsi (Türkiyə Respublikasının İnkişaf Nazirliyinin İqtisadi Modeller və Strateji Araşdırmalar Baş İdarəsi və İİETİ);
- “İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda təlim otağının qurulması” layihəsi (Türkiyə Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) və İİETİ);
- “İqtisadi İnkişaf Nazirliyinin Regional şöbələrinin fəaliyyətinin təkmilləşdirilməsində Türkiyə təcrübəsinin öyrənilməsi (Kalkınma Ajanslarının timsalında)” layihəsi (Türkiyə Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) və İİETİ).

2012-ci ildə institutun iştirakı ilə keçirilmiş elmi və elmi-texniki tədbirlər aşağıdakılar olmuşdur:

1. Dəyirmi masalar:

- “Ekoloji təmiz kənd təsərrüfatının, o cümlədən üzümçülüyün inkişaf perspektivləri” mövzusunda Dəyirmi masa (2012-ci il 13 mart);
- “Azərbaycanda ekoloji təmiz kənd təsərrüfatının inkişaf istiqamətləri” mövzusunda Dəyirmi masa (2012-ci il 01 oktyabr);

2. Görkəmli ictimai-siyasi xadim Sabit Qasım oğlu Abbasəliyevin anadan olmasının 80 illiyinə həsr olunmuş tədbir (16 may 2012-ci il);






**Görkəmli ictimai-siyasi xadim Sabit Qasım oğlu Abbasəliyevin anadan olmasının 80 illiyinə həsr olunmuş tədbir**

**16 may 2012-ci ildə**

**PROQRAM**

- Giriş sözü
- “Sabit Abbasəliyevin iqtisadiyyatın idarə edilməsi və planlaşdırılmasının təşkilində rolu” – Azərbaycan Respublikasının Milli Məclisinin İqtisadi siyasət komitəsinin sədri, akademik **Ziyad Səmədzadə**
- “Sabit Abbasəliyevin Azərbaycan Statistikasının inkişafına töhfəsi” – Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədri **Arif Vəliyev**
- “Sabit Abbasəliyevin milli kadrların yetişməsinə qayğısı” – Azərbaycan Universitetinin rektoru, dosent **Eldar Qəhrəmanov**
- Xatirələr

**Ünvan: Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu (Zərdabi 88 a)**

3. Birgə təşkil edilmiş konfrans:

- “Üzümçülük və şərabçılığın inkişaf perspektivləri: qabaqcıl təcrübə və texnologiyalardan istifadə imkanları” mövzusunda beynəlxalq elmi-praktik konfrans (Gəncə şəhəri, 2012-ci il 07 oktyabr);

4. Beynəlxalq tədbirlər:

- İqtisadi Əməkdaşlıq Təşkilatının İqtisadi tədqiqatlar üzrə Daimi Komitəsinin 2-ci iclası (Bakı şəhəri, 2012-ci il 07 noyabr);

- İqtisadi Əməkdaşlıq Təşkilatının "İqtisadiyyat" Jurnalının Redaksiya Heyətinin 1-ci iclası (Bakı şəhəri, 2012-ci il 08 noyabr);

5. Təqdimatlar:

- "Planlaşdırma və Modelləşdirmə üzrə Türkiyə təcrübəsi" mövzusunda təqdimat (2012-ci il 26 yanvar, məruzəçi: Türkiyə Respublikasının İnkişaf Nazirliyinin İqtisadi modelləşdirmə şöbəsinin müdiri Hasan Yurtoğlu);

- "EuroMonitor İnternational" Ltd-nin verilənlər bazasının təqdimatı (online rejimdə) (2012-ci il 14 dekabr, məruzəçi: şirkətin məsul əməkdaşı Evelina Trifonova);

- "Azərbaycan Respublikasının Ümumi Tarazlıq Modeli (AZMOD): görülmüş işlər, nəticələr və perspektivlər" mövzusunda təqdimat (2012-ci il 26 dekabr, məruzəçilər: "EcoMod Networking" Şirkətinin prezidenti Əli Bayar və eksperti Suat Şişikin).

6. Xarici qonaqların məruzəsi ilə təşkil edilmiş seminarlar:

- "Türkiyənin inkişaf planları: 1923-2012-ci illər" mövzusunda seminar (2012-ci il 18 iyun, məruzəçi: Türkiyənin Bakıdakı səfirliyinin inkişaf məsələləri üzrə məsləhətçisi Fərrux Tığlı);

- "Beynəlxalq tədbirlərin təşkilinə hazırlıq və keçirilməsi" mövzusunda seminar (2012-ci il 19 iyun, Türkiyənin Bakıdakı səfirliyinin inkişaf məsələləri üzrə məsləhətçisi Fərrux Tığlı);

- "İqtisadiyyatın diversifikasiyası: gəlir və məhsuldarlığın hesablanması" mövzusunda seminar (2012-ci il 12 dekabr, Türk Hava Qurumu Universitetinin prorektoru, professor Murat Ali Yülek).

2012-ci ildə nəşr fəaliyyətinin davam etdirilməsi istiqamətində də müəyyən işlər görülmüşdür. Belə ki, İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) "İqtisadiyyat" Jurnalının Redaksiya Heyətinin 2012-ci il 08 noyabr tarixində Bakıda (İİETİ-də) keçirilmiş 1-ci iclasında Redaksiya Heyətinin tərkibi təsdiq edilmiş, jurnalın baş redaktoru İİETİ-nin direktoru i.e.d. Vilayət Vəliyev (Azərbaycan Respublikası) və müavinləri Qazaxıstanın "İqtisadi Tədqiqatlar İnstitutu" Açıq Səhmdar Cəmiyyətinin elmi rəhbəri, professor Sailau Baizakov (Qazaxıstan Respublikası) və Qırğızıstan İqtisadiyyat Universitetinin kafedra müdiri Elvira Nogoibayeva (Qırğızıstan Respublikası) seçilmişlər. Bundan sonra jurnalın fəaliyyətinin yeni formatda davam etdirilməsi üçün müvafiq işlərin həyata keçirilməsinə başlanılmışdır. Redaksiya Heyətinin üzvləri İƏT-in üzv ölkələrinin nümayəndələrindən ibarətdir və üzvlərin məqalələrindən ibarət olmaqla jurnalın yeni formatda ilk sayının 2013-cü ilin əvvəlində işıq üzü görməsi nəzərdə tutulmuşdur.

2012-ci il ərzində aşağıdakı kitablar nəşr olunmuşdur:

- "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı: 20 il" (2011-ci il üzrə);

- "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı və Azərbaycanda üzümçülük";

- "Dünyada və Türkiyədə Organik Tarım. Dünyada və Türkiyədə ekoloji təmiz kənd təsərrüfatı".

İl ərzində institutda 98 nəfər tələbə istehsalat təcrübəsində iştirak etmişdir. Təcrübədə Azərbaycan Dövlət İqtisad Universitetinin, Dövlət İdarəçilik Akademiyasının, Bakı Dövlət Universitetinin və Bakı Slavyan Universitetinin tələbələri iştirak etmişlər. Təcrübə zamanı

tələbələr üçün seminarlar təşkil edilmiş, ixtisasa uyğun məruzələr deyilmiş və fərdi tapşırıqlar verilmişdir.

İnstitutda təhsil alan doktorantlar üçün "İqtisadi analiz" və "Ekonometrika" fənləri üzrə dərslər tədris olunmuşdur. Bundan başqa, ümumilikdə. 1 təlim, xarici ekspertlərin məruzəsi ilə 3 və İİETİ-nin əməkdaşlarının məruzəsi ilə 2 seminar keçirilmişdir:

- "Ümumi Tarazlıq Modelinin qurulması" mövzusunda təlim (2012-ci il 19-23 noyabr, təlimçilər: "EcoMod" (Global Economic Modeling Network) şirkətinin prezidenti Əli Bayar və şirkətin eksperti Suat Şişikin);
- "Türkiyənin inkişaf planları: 1923-2012-ci illər" mövzusunda seminar (2012-ci il 18 iyun, məruzəçi: Türkiyənin Bakıdakı Səfirliyinin inkişaf məsələləri üzrə məsləhətçisi Fərrux Tığlı);
- "Beynəlxalq tədbirlərin təşkilinə hazırlıq və keçirilməsi" mövzusunda seminar (2012-ci il 19 iyun, məruzəçi: Türkiyənin Bakıdakı Səfirliyinin inkişaf məsələləri üzrə məsləhətçisi Fərrux Tığlı);
- "İqtisadiyyatın diversifikasiyası: gəlir və məhsuldarlığın hesablanması" mövzusunda seminar (2012-ci il 12 dekabr, məruzəçi: Türk Hava Qurumu Universitetinin prorektoru, professor Murat Ali Yülek);
- "V Astana Forumu: ümumdünya maliyyə-iqtisadi böhranı, problemlər, həlli yolları" və "İqtisadi sahələr üzrə mənfəət vegisinin optimal dərəcəsinin müəyyən edilməsi modeli" mövzusunda seminarlar (2012-ci il 14 iyun, məruzəçi: İİETİ-nin direktoru i.e.d. Vilayət Vəliyev);

İl ərzində institutun əməkdaşları, ümumilikdə, 7 seminar, 1 sərgi, 11 konfrans, 1 festival, 2 forum və 1 simpoziumda iştirak etmişlər.

- 2012-ci il ərzində institutun Elmi Şurasının 3 iclası keçirilmişdir. İclaslarda institutda yerinə yetirilən elmi-tədqiqat işlərinin mövzuları, doktorant və dissertantların dissertasiya işlərinin mövzuları və s. bu kimi məsələlərin müzakirələri təşkil olunmuş, doktorant və dissertantların attestasiyalarının nəticələri, həmçinin 2012-ci ildə institut tərəfindən yerinə yetirilən elmi-tədqiqat işlərinin planına qismən dəyişikliklərin edilməsi ilə bağlı təkliflər müzakirə edilmiş və müvafiq qərarlar qəbul edilmişdir;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 saylı "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın təsdiq edilməsi haqqında Qərarı və Azərbaycan Milli Elmlər Akademiyasının 2012-ci ildə elmi müəssisələr və təşkilatlar üçün fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə qəbul elanına ("Elm" qəzeti, 2012-ci il 30 avqust tarixli, 24-25 saylı) əsasən İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda doktoranturaya qəbul imtahanları keçirilmişdir. Ümumilikdə, altı ixtisas üzrə 18 nəfər sənəd təqdim etmişdir. Qəbul imtahanlarında yüksək nəticə göstərən 12 nəfər namizəd plan üzrə instituta ayrılmış 12 yerə qəbul edilmişdir. Dekabrın 28-də keçirilmiş institutun Elmi Şurasının qərarı ilə doktoranturaya qəbul olunanların mövzuları və elmi rəhbərləri təsdiq edilmişdir;
- 2012-ci il 01 dekabr tarixə institutda fəlsəfə doktoru proqramı üzrə 2 nəfəri 1-ci kurs əyani, 10 nəfəri 1-ci kurs qiyabi, 7 nəfəri 4-cü kurs qiyabi olmaqla 19 doktorant və 15 dissertant, elmlər doktoru proqramı üzrə isə 12 dissertant təhsil almışdır. 2012-ci il 17 dekabr tarixində institutda təhsil alan doktorant və dissertantların attestasiyası keçirilmişdir; 2012-ci il 30 dekabr tarixindən fəlsəfə doktoru proqramı üzrə təhsil alan doktorantlardan 7 nəfəri, dissertantlardan isə 6 nəfəri təhsil müddətinin sona çatması ilə əlaqədar olaraq doktoranturadan xaric edilmişdir;

- 2012-ci ildə institutun doktorant və dissertantlarından 4 nəfəri dissertasiya işlərini ilkin variantda bitirərək təqdim etmiş, onların namizədlik dissertasiyası ilkin müzakirədən müvəffəqiyyətlə keçmiş və müvafiq Dissertasiya Şuralarına təqdim olunmaları haqda qərar qəbul edilmişdir. Eyni zamanda, İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu tərəfindən aparıcı təşkilat kimi 13 namizədlik və 1 doktorluq dissertasiya işinin müzakirəsi təşkil edilmiş, onlara müvafiq rəylər verilmişdir. Bir sıra dissertasiya işlərinin avtoreferatlarına, dissertasiya işlərinin əsas müddəalarını özündə əks etdirən təhriri-məruzələrə institutun əməkdaşları tərəfindən müvafiq rəylərin verilməsi təmin olunmuşdur.
- Bu ildə institutun kitabxana fondu yeni elmi ədəbiyyatla zənginləşdirilmişdir.

2012-ci ildə elmi-redaksiya heyətinin sədri i.e.d., professor Vilayət Məmməd oğlu Vəliyevin rəhbərliyi ilə institutun "Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri" adlı elmi əsərlər toplusunun 21 ç.v. həcmində XII buraxılışı çap edilmişdir.


AZƏRBAYCAN RESPUBLİKASI
İQTİSADİ İNKİŞAF NAZİRLİYİ

İQTİSADİ İSLAHATLAR ELMİ-
TƏDQİQAT İNSTİTUTU

AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN
HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ
VƏ PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU
XII BURAXILIŞ

BAKI-2012

Azərbaycan Respublikası
İqtisadi İnkişaf Nazirliyi
İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun
Elmi Şurasının qərarı əsasında çap olunur

Elmi-redaksiya heyəti:
V.M. Vəliyev (sədr)
Ə.C. Muradov
O.İ. İbrahimov
R.N. Hüseynəliyev
V.Ə. Rüstəmov
Ə.M. Babaşov
S.Z. Abbasəliyeva (məsul katib)
T.Ş. Salıfova (korrektor)

Azərbaycan Respublikasında iqtisadi inkişafın xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu, XII buraxılış. Bakı, 2012, 340 səh.

İSBN 9953-55-025-1

İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu, 2012

MÜNDƏRİCAT-2012 (№ 12)

Vilayət VƏLİYEV, i.e.d., prof., Mətanət RƏSULOVA, i.e.n., Fərhad MİKAYILOV, İİETİ-nin dissertantı, Ayaz Əliyev,

**Sahələrarası əlaqələrin təsirləri nəzərə alınmaqla iqtisadi sahələr üzrə mənfəət vergisinin optimallaşdırılması............7**

Rəfət HÜSEYNƏLİYEV, i.e.n., Vaqif RÜSTƏMOV, i.e.n., İİETİ-nin baş elmi işçisi, Aral DAVUDOV, İİETİ-nin dissertantı, Nurəddin EYNULLAYEV, i.f.d., Qədir MUSTAFAYEV, İİETİ-nin baş mütəxəssisi

**Üzümçülük və şərabçılıq sahəsində mütərəqqi beynəlxalq sığorta və lizinq xidmətləri təcrübəsinin öyrənilməsi, müvafiq təklif və tövsiyələrin hazırlanması............34**

Vaqif RÜSTƏMOV, i.e.n., Elxan YAQUBOV, İİETİ-nin dissertantı

**Postsovet ölkələrində xarici iqtisadi fəaliyyətin təşkili və idarə olunmasının bazar münasibətlərinə uyğunlaşdırılması problemləri............75**

АБАСОВА Самира, к.э.н., доц., главный научный сотрудник НИИЭР

**Механизмы госрегулирования инновационных процессов Азербайджана со странами СНГ в области совместного предпринимательства............93**

Şamil YAQUBOV, i.e.n.

**Azərbaycan Respublikası ərazisində alternativ enerji mənbələrindən istifadə perspektivləri............108**

Nurəddin EYNULLAYEV, i.f.d.

**Quba-Xaçmaz iqtisadi rayonu kənd təsərrüfatının mövcud vəziyyəti və perspektiv inkişaf istiqamətləri............122**

Bəhruz MƏMMƏDOV, i.f.d., Fuad MƏMMƏDOV, ADİU-nun tələbəsi

**Azərbaycan Respublikasında gömrük daxilolmalarının tənzimlənməsi məsələləri............142**

Həzi EYNALOV, i.e.n., İİETİ-nin baş elmi işçisi, Aral DAVUDOV, İİETİ-nin doktorantı

**Ekoloji təmiz kənd təsərrüfatının konseptual məqamları və inkişaf perspektivləri............165**

İlham MİRZƏLİYEV, i.f.d., Aynurə İSMAYILOVA, İİETİ-nin dissertantı, Ülviyyə PİRİYEVA, İİETİ-nin dissertantı, Nərminə İSMAYILOVA, İİETİ-nin böyük elmi işçisi

**Mənzil-kommunal sektorunda aparılan islahatlar çərçivəsində xidmətlərin təşkilinə və keyfiyyətinin yüksəldilməsinə dair təklif və tövsiyələrin hazırlanması............194**

АБАСОВА Самира, к.э.н., доц.

**Инновационные приемы и методы обучения в образовательном процессе подготовки экономистов............220**

Emil QASIMOV, i.f.d.

**Azərbaycan Respublikasında sənayenin müasir vəziyyəti............231**

Fərhad MİKAYILOV, İİETİ-nin dissertantı

**Azərbaycan Respublikasında təhsil səviyyəsinin inkişafına təsir edən amillərin qiymətləndirilməsinə dair bəzi məsələlər............243**

Nərminə İSMAYILOVA, İİETİ-nin böyük elmi işçisi

**Elmi ideyaların transferi və sənaye bölgələrinin yaradılması üçün təcrübələrin öyrənilməsi............263**

Malik MEHDİYEV, İİETİ-nin aparıcı elmi işçisi

**Sosial hesablar matrisi və iqtisadiyyatda multiplikativ effektlərin hesablanması modeli............288**

Nərminə İSMAYILOVA, İİETİ-nin böyük elmi işçisi

**Rusiyada sənaye parklarının dövlət və təşkilati dəstəyi...322**

Ülviyyə PİRİYEVA, İİETİ-nin dissertantı

**Aztəminatlı ailələrin hüquqlarının qorunması məqsədi ilə effektli sosial müdafiə sisteminin yaradılması............331**

# İQTİSADİ İSLAHATLAR ELMİ TƏDQİQAT İNSTİTUTUNUN ƏMƏKDAŞLARI (2012-ci il)

| | | |
|---|---|---|
| **1.Rəhbərlik** | | |
| N | Vəzifəsi | Adı, soyadı |
| 1. | Direktor | Vilayət Vəliyev |
| 2. | Qəbul otağı | Samirə Yusifova |
| 3. | Direktor müavini | Oruc İbrahimov |
| 4. | Direktor müavini | Məhəmməd Pənahov |
| 5. | Direktor müavini | Rəfət Hüseynəliyev |
| 6. | Elmi katib | Ülviyyə Piriyeva |
| **2.Makroiqtisadi tədqiqatlar şöbəsi** | | |
| 1. | Şöbə müdiri | Mətanət Rəsulova |
| 2. | Baş elmi işçi | Vaqif Rüstəmov |
| 3. | Baş elmi işçi | Cihan Bulut |
| 4. | Baş elmi işçi | Nəcəfov Zakir |
| 5. | Aparıcı elmi işçi | Malik Mehdiyev |
| 6. | Aparıcı elmi işçi | Pərviz Heydərov |
| 7. | Böyük elmi işçi | Afət Həsənova |
| 8. | Böyük elmi işçi | Araz Süleymanov |
| 9. | Böyük elmi işçi | Ülviyyə İbrahimli |
| 10. | Baş mütəxəssis | Nərminə Cabbarova |
| 11. | Baş mütəxəssis | Elnur Ələkbərov |
| 12. | Baş mütəxəssis | Aysel İmanova |
| 13. | Baş mütəxəssis | Ömür Yaqublu |
| 14. | Baş mütəxəssis | Nicat Seyidov |
| 15. | Mütəxəssis | Samir Xankişiyev |
| 16. | Mütəxəssis | Vahid Mirvəlimov |
| **3.Sahibkarlıq və regional inkişaf problemləri şöbəsi** | | |
| 1. | Şöbə müdiri | Nərminə İsmayılova |
| 2. | Baş elmi işçi | Albert Tağıyev |
| 3. | Baş elmi işçi | Vahid Abbasov |
| 4. | Baş mütəxəssis | Dilarə Hüseynova |
| 5. | Baş mütəxəssis | Rauf Musayev |
| 6. | Mütəxəssis | Aynur Hüseynova |
| **4.Qeyri-neft sahələrinin inkişaf problemləri şöbəsi** | | |
| 1. | Şöbə müdiri | Anar Davudov |
| 2. | Baş elmi işçi | Samirə Abasova |
| 3. | Baş elmi işçi | Hadi Eynalov |
| 4. | Böyük elmi işçi | Gülnarə Salamova |
| 5. | Baş mütəxəssis | Aliyə Şabanova |
| 6. | Baş mütəxəssis | Nicat Əhmədov |
| 7. | Mütəxəssis | Qədir Mustafayev |
| 8. | Mütəxəssis | Yusif Çərkəzov |
| **5.Davamlı inkişaf problemləri şöbəsi** | | |
| 1. | Şöbə müdiri | Fərhad Mikayılov |
| 2. | Aparıcı elmi işçi | Elxan İmanov |
| 3. | Böyük elmi işçi | Aygün İsayeva |
| 4. | Baş mütəxəssis | Natəvan Bayramova |
| 5. | Baş mütəxəssis | İdris Zeynalov |
| 6. | Mütəxəssis | Elnur Məmmədov |
| 7. | Mütəxəssis | Kamil Beşirli |
| **6.Statistika və analitik təhlil şöbəsi** | | |
| 1. | Şöbə müdiri | Emil Qasımov |
| 2. | Aparıcı elmi işçi | Hüseyn Məmmədov |
| 3. | Baş mütəxəssis | Kamran Axundzadə |
| 4. | Mütəxəssis | Turanə Əliyeva |
| **7.Tədris və koordinasiya şöbəsi** | | |
| 1. | Şöbə müdiri | Aynurə İsmayılova |
| 2. | Baş mütəxəssis | Könül Hüseynova |
| 3. | Baş mütəxəssis | Saadət Nəcəfova |
| 4. | Baş mütəxəssis | Samirə Əkbərova |
| 5. | Baş mütəxəssis | Şəhla Babayeva |
| 6. | Baş mütəxəssis | İsmət Salmanova |
| 7. | Mütəxəssis | Fatma İsmayılova |
| **8.Kitabxana** | | |
| 1. | Şöbə müdiri | Səyyah Abbasəliyeva |
| 2. | Baş mütəxəssis | Təranə Sahibova |
| 3. | Mütəxəssis | Şəhla Əliyeva |
| **9.Mühasibatlıq** | | |
| 1. | Baş mühasib | Yasəmən Hüseynova |
| 2. | Baş mütəxəssis-mühasib | Pərvanə Əliyeva |
| 3. | Mühasib xəzinədar | Jalə İsmayılova |
| 4. | Mühasib xəzinədar | Günay Həsənova |
| **10.Ümumi şöbə** | | |
| 1. | Şöbə müdiri | Sevinc Talıbova |
| 2. | Baş mütəxəssis-kargüzar | Cəlalə Əlizadə |
| 3. | Baş mütəxəssis kadrlar üzrə | Mehriban Əliyeva |
| 4. | Baş mütəxəssis-arxiv üzrə | Təranə İsmayılova |
| 5. | Mütəxəssis-referent | Samirə Yusifova |
| **11.Təsərrüfat-təminat şöbəsi** | | |
| 1. | Şöbə müdiri | Sahil Vəliyev |
| 2. | Baş mütəxəssis-elektrik | Hünər Əliyev |
| 3. | Baş mütəxəssis-anbardar | Ənvər Hacıyev |
| 4. | Baş mütəxəssis-Mülki müdafiə | Nayiq Əhmədov |
| 5. | Baş mütəxəssis | Hüseyn Hüseynov |
| 6. | Mütəxəssis-İT | Qüdrət Qubadov |
| 7. | Mütəxəssis | Kənan Rüstəmov |
| 8. | Sürücü | Famil Həsənov |
| 9. | Sürücü | Rövşən Rəhimov |
| 10. | Xadimə | Mərziyyə Bəşirova |
| 11. | Xadimə | Xatirə Rüstəmova |

**2013-cü ildə** İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun fəaliyyətinin müasir tələblər səviyyəsində yenidən qurulması istiqamətində tədbirlər davam etdirilmişdir. Belə ki, ilin əvvəlində institutun Elmi-Tədqiqat İş Planı İqtisadi İnkişaf Nazirliyinin fəaliyyət istiqamətlərinə uyğun tərtib edilmiş, müvafiq şöbələr və struktur bölmələri ilə razılaşdırılmaqla cənab nazir tərəfindən təsdiq olunmuş, elmi-tədqiqat işləri qeyd olunan plana uyğun aparılmışdır. Elmi Tədqiqat işləri İş Planı üzrə nəzərdə tutulmuş aşağıdakı istiqamətlər və mövzular üzrə yerinə yetirilmişdir:

***Problem. Vahid platformada Azərbaycan Respublikasının Ümumi Tarazlıq Modelinin işlənməsi*** "Regionlar üzrə sahələrarası balans modelinin hazırlanması (iqtisadi rayonlar üzrə)" mövzusu üzrə tədqiqat işində sənaye, kənd təsərrüfatı və digər sahələr əhatə olunmaqla Bakı şəhəri və 10 iqtisadi rayonun üç sahəli regionlarının sahələrarası balans cədvəlləri hazırlanmışdır. Balans cədvəlləri hazırlanarkən texnoloji əmsallar və əlavə dəyər normaları ölkə üzrə tərtib olunmuş, balans cədvəlinə müvafiq olaraq sabit götürülmüş, eləcə də son istehlak və yığım ölkə üzrə orta göstəricilər əsasında hesablanmışdır. Balans cədvəllərinin tərtibi nəticəsində müəyyən edilmişdir ki, Bakı və Naxçıvan şəhəri istisna olmaqla digər regionlarda yaradılan əlavə dəyər həmin regionlardakı son istehlak xərclərindən xeyli azdır və regiona gətirilən məhsulların miqdarı regiondan aparılan məhsulların miqdarından xeyli çoxdur.

Regionların balans cədvəllərinin hazırlanması regionlar üzrə əmək və kapital qoyuluşu balanslarının hazırlanmasına, bununla da Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramlarının koordinasiyasına yeni imkanlar yaratmışdı. Növbəti mərhələdə regionların balans cədvəllərinin 6 sahə üzrə genişləndirilməsi planlaşdırılır (məsul icraçı: i.e.d. V.M. Vəliyev, icraçılar: M.M. Mehdiyev, S.X. Xankişiyev).

"Əsas istehlak mallarının qiymətlərinin monitorinqinin nəticələrinin təhlili" mövzusu üzrə tədqiqat işində 2009-cu ildən başlayaraq Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti tərəfindən Bakı şəhərinin 9 inzibati rayonunda və ölkənin 7 iqtisadi rayonun müxtəlif bazarlarında 132 adda məhsul - ərzaq məhsulları, tərəvəz, meyvə və giləmeyvələr və tikinti materialları üzrə 3 qrup məhsullar arasında monitorinqlərin nəticələri təhlil edilmişdir. Monitorinqin nəticələri müvafiq ilin baza dövrünə əsasən təhlil olunaraq qiymətlərdəki dəyişmələr və onların səbəbləri araşdırılmışdır. Müvafiq aylar üzrə tərtib olunan hesabatlar mütəmadi olaraq Dövlət Xidmətinə təqdim olunur və təhlilin nəticələri istehlak bazarında qiymətlərin dinamikasını izləməyə imkan verir (məsul icraçılar: i.e.d. V.M. Vəliyev, i.e.n. M.R. Rəsulova, icraçılar: A.S. Süleymanov, E.E. Ələkbərov, Ə.C. Yaqublu).

"İqtisadiyyatın müxtəlif sahələrində vergi güzəştlərinin tətbiqinin səmərəliliyinin qiymətləndirilməsinə dair tövsiyələrin hazırlanması" mövzusu üzrə tədqiqat işində Azərbaycan Respublikasının Vergi Məcəlləsində güzəştlərlə əlaqədar dəyişikliklər (vergi dərəcələri istisna olmaqla) araşdırılmış, vergi növləri üzrə tətbiq olunan güzəştlər təhlil olunmuş və bir sıra dünya ölkələrinin bu sahədə təcrübələrini öyrənmək məqsədilə araşdırmalar aparılmışdır. Həmçinin, Rusiyanın müxtəlif bölgələrində yerli vergilərə tətbiq olunan vergi güzəştlərinin büdcə, iqtisadi və sosial səmərəliliyinin qiymətləndirilməsi, planlaşdırılmış vergi güzəştlərinə görə büdcə daxilolmalarının miqdarının qiymətləndirilməsi metodikaları öyrənilmişdir (məsul icraçı: i.e.n. M.R. Rəsulova, icraçılar: V.İ. Mövsümov, A.O. Həsənova).

***Problem. Xarici ticarət və ölkənin beynəlxalq rəqabətqabiliyyətliliyinin artırılması.*** "Xarici ticarət və əmək bazarı arasında əlaqələrin araşdırılması" mövzusu üzrə tədqiqat işində qabaqcıl qərb ölkələrinin təcrübəsinə əsaslanaraq amil tutumu modeli əsasında Azərbaycan

üçün əməyin hansı növlərinin üstünlük təşkil etdiyi ixrac sahələrini müəyyənləşdirmək məqsədi ilə Azərbaycan, Rusiya, Qazaxıstan və İran iqtisadiyyatı üçün xalis ixrac və istehlak üzrə amil tutumu matrisi qurulmuşdur. Bu ölkələrin sahələrarası balanslarının əhatə etdiyi iqtisadi fəaliyyət sahələri üzrə əməyin ixtisaslara görə bölgüsü matrislərini qurmaq mümkün olmadığından ABŞ-ın əmək matrisindən istifadə edilmişdir. Amil tutumu modelinə əsaslanaraq qeyd olunan ölkələr üçün əməyin hansı növlərinin üstünlük təşkil etdiyi ixrac sahələri müəyyənləşdirilmişdir. Tədqiqatın nəticəsinə görə, Rusiya, İran və Qazaxıstanla müqayisədə Azərbaycanda qeyri-neft sektorunda hazırda istehsal olunan əmtəə və xidmətlər yüksək ixtisaslı əmək növündə daha az, lakin daha aşağı ixtisaslı əməkdə (kənd təsərrüfatı və s.) üç ölkə ilə müqayisədə daha yüksəkdir. Cari ildə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən 2011-ci ilin rəqəmləri əsasında sahələrarası balans nəşr olunduğu təqdirdə tədqiqat işinin nəticələrinin yenilənməsi nəzərdə tutulmuşdur (məsul icraçı: i.e.n. M.R. Rəsulova, icraçı: A.Ş. İmanova).

"Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrinin təhlili" mövzusu üzrə tədqiqat işində Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrinin mövcud vəziyyətinin təhlili məqsədilə tədiyə balansı üzrə 1995-2012-ci illəri əhatə edən zəruri statistik məlumatlar toplanılmış və ilkin təhlil aparılmışdır. Tədqiqat işi davam etdirilir və növbəti mərhələdə tədiyə balansının əsas komponentlərinin ekonometrik qiymətləndirilməsi nəzərdə tutulmuşdur (məsul icraçı: i.e.n. M.R. Rəsulova; icraçı: Ü.İ. İbrahimli).

"Azərbaycanın milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması üzrə nəzəri-metodoloji əsaslarının işlənilməsi" mövzusu üzrə tədqiqat işində milli standartlaşdırma sisteminin nəzəri metodoloji əsasları haqqında ilkin araşdırmalar aparılmış və standartlaşdırmanın iqtisadiyyata təsiri, milli standartlaşdırma sisteminə dair beynəlxalq tələblər və həmin tələblərin ölkəmizdə tətbiqi vəziyyəti təhlil edilmişdir. Nəticədə milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasının zəruriliyi və uyğunsuzluğun zərərləri müəyyənləşdirilmişdir (məsul icraçı: i.e.d. Ə.C. Muradov; icraçı: E.Ə. Mikayılov).

***Problem. Azərbaycanda sahibkarlığın və regionların inkişafı məsələləri***. "Regionların sosial-iqtisadi inkişaf göstəricilərinin təhlili və inzibati rayonlar üzrə prioritet investisiya istiqamətlərinə dair təkliflərin hazırlanması" mövzusu üzrə tədqiqat işində regionların sosial-iqtisadi inkişaf göstəricilərinin təhlili və inzibati rayonlar üzrə prioritet investisiya istiqamətlərinə dair təkliflərin hazırlanması institut tərəfindən hazırlanan və mütəmadi olaraq yenilənən "Regionların sosial-iqtisadi Pasportu"nun tərkib hissəsi kimi həyata keçirilmiş və hər il üzrə yenilənməsi planlaşdırılmışdır (məsul icraçı: i.e.n. R.N. Hüseynəliyev, icraçı: i.f.d. E.F. Qasımov).

"Sahibkarlığın inkişafında xüsusi iqtisadi zonaların rolu" mövzusu üzrə tədqiqat işində Xüsusi İqtisadi Zonalar (XİZ) və sahibkarlığın (kiçik və orta müəssisələrin) xarakteristikası, XİZ-lər tərəfindən sahibkarlara göstərilən xidmətlər əks edilmişdir. Beləliklə, XİZ-lər qabaqcıl texnologiyaların inkişaf mərkəzləri kimi regionların iqtisadi inkişafı üçün səmərəli üstünlükləri sürətlə yarada bilən, iqtisadi siyasətə asanlıqla uyğunlaşan çevik alət olaraq sahibkarlara müxtəlif xidmətlər göstərirlər:

1) kiçik və orta biznes müəssisələrini zəruri məlumatlarla (məsələn, XİZ-lər Ticarət və İnkişaf üzrə BMT-nin (UNCTAD) konfransında qəbul edilmiş EMPRETEC (Müəssisə və Texnologiya) proqramından istifadə etməklə) təmin edə bilərlər;

2) xüsusi inkubator ola bilərlər;

3) XİZ-lərin çoxillik xarici iqtisadi fəaliyyətinin formalaşması mexanizmləri üzrə təcrübəsindən istifadə edilə bilər;

4) birgə müəssisələrin yaradılması üçün biznes əməkdaşlığının, daxili bazarın təminatı üçün sazişlərin, malların və xidmətlərin istehsalının ötürülməsi, birgə istehsal, texnologiyanın ötürülməsi, sənaye binalarının bölüşdürülməsi və birgə istifadəsi haqqında müqavilələrin bağlanılması mexanizmləri yaradıla bilər;

5) xüsusi dəmiryol dəhlizləri, inzibati xərclərin azaldılması, sərhəddən malların daşınmasının asanlaşdırılmış proseduru kimi üsul və mexanizmlərdən istifadə edə bilərlər [mobilliyi (hərəkətliliyi) təmin etmək və məhsulların paylanmasını asanlaşdırmaq məqsədilə];

6) maddi-texniki baza ola bilərlər (məsul icraçı: i.e.n. H.Ə. Eynalov, icraçı: N.F. İsmayılova).

“Regionların iqtisadi potensialının qiymətləndirilməsi və ondan istifadə səviyyəsinin təhlili (Dağlıq Şirvan)” mövzusu üzrə tədqiqat işi “Dağlıq Şirvan iqtisadi rayonunun genişləndirilmiş pasportu” adı altında icra edilmişdir. Belə ki, institut tərəfindən hazırlanan və mütəmadi olaraq yenilənən “Regionların sosial-iqtisadi Pasportu”u nümunə olaraq Dağlıq-Şirvan iqtisadi rayonunun timsalında inzibati rayonların da göstəriciləri ayrıca verilməklə genişləndirilmiş və bu təcrübənin digər iqtisadi rayonlar üzrə də aparılması üçün imkanların araşdırılması vəzifə olaraq qarşıya qoyulmuşdur. (məsul icraçı: i.f.d. E.F. Qasımov).

“Azərbaycanda kiçik və orta sahibkarlığın inkişaf perspektivlərinin qiymətləndirilməsi” mövzusu üzrə tədqiqat işində il ərzində Azərbaycanda sahibkarlığın (kiçik və orta) inkişaf perspektivlərinin qiymətləndirilməsi üzrə elmi şəkildə təhlil aparılmış (SWOT və PEST analizləri, xarici təsir analizi, steykholder analizi və s.), əsaslandırılmış, nəticə və təkliflər hazırlanaraq müxtəlif elmi-praktiki konfranslarda təqdim edilmişdir. Gözlənilən nəticələr - Azərbaycanda sahibkarlığın (kiçik və orta) sahələr üzrə inkişaf perspektivlərinin göstərilməsi, innovasiya yönümlü sahibkarlıq subyektləri üçün uyğun strategiyanın qurulması üsullarının verilməsidir (məsul icraçı: i.e.n. S.H. Abasova).

“Ölkədə kiçik və orta sahibkarlığın inkişafı üzrə SWOT analizin aparılması, təklif və tövsiyələrin hazırlanması” mövzusu üzrə tədqiqat işi aparılmışdır. Azərbaycanda il ərzində sahibkarlığın (kiçik və orta) fəaliyyətinin SWOT təhlili aparılmış (SWOT analizi) və əsaslandırılmış, nəticə və təkliflər hazırlanaraq müxtəlif elmi-praktiki konfranslarda aprobasiya edilmişdir.

Gözlənilən nəticələr - Azərbaycanda sahibkarlığın (kiçik və orta) sahələr üzrə inkişaf perspektivlərinin göstərilməsi, innovasiya yönümlü sahibkarlıq subyektləri üçün uyğun strategiyanın qurulması üsullarının verilməsidir (məsul icraçı: i.e.n. S.H. Abasova).

“Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin səmərəli yerləşdirilməsi məqsədilə Respublika iqtisadiyyatının prioritet sahələrinin müəyyənləşdirilməsi” mövzusu üzrə Respublika iqtisadiyyatının bir sıra vacib məsələləri araşdırılmışdır:

1) mövcud nəzəri yanaşmalar, elmi-təcrübi materiallar və mütərəqqi dünya təcrübəsinin təhlili əsasında müasir dövrdə ölkə iqtisadiyyatının prioritet sahələrinin müəyyənləşdirilməsi üzrə nəzəri-metodoloji əsaslar öyrənilmiş və ümumiləşdirilmişdir;

2) müvafiq nəzəri-metodoloji əsaslara uyğun olaraq, bu vaxta kimi aparılmış analoji tədqiqatların (BMT-nin İnkişaf Proqramının dəstəyi ilə 2003-cü və 2005-2006-cı illərdə İqtisadi İslahatlar Mərkəzində, 2009-2010-cu illərdə İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda,

GTZ-in dəstəyi ilə 2009-cu ildə Finre Consulting və Yerli İqtisadi İnkişaf Mərkəzində, 2003-cü və 2005-ci ildə DB-nın dəstəyi ilə aparılmış müvafiq tədqiqatların) nəticələri də nəzərə alınmaqla ölkə iqtisadiyyatının inkişaf potensialına malik olması ehtimal olunan sektor və alt-sektorların ilkin siyahısı dəqiqləşdirilmişdir (bu zaman aşkar cari və potensial müqayisəli üstünlüklərin qiymətləndirilməsinin Balassa, xalis ixrac, ixrac oxşarlığı üsullarından istifadə edilməklə əldə olumuş nəticələrə istinad edilmişdir);

3) ölkənin xüsusiyyətləri nəzərə alınaraq, daha dərin və müfəssəl tədqiqatlar və təhlillər aparmaqla əvvəlki mərhələdə seçilmiş sektor və alt-sektorların siyahısı daha da dəqiqləşdirilmiş və konkretləşdirilmişdir;

4) seçilmiş prioritet sahələrin inkişaf etdirilməsi və bu sahələrə investisiyaların cəlb edilməsi siyasətinə dair təklif və tövsiyələr işlənib hazırlanmışdır (məsul icraçılar: i.e.n. R.N. Hüseynəliyev, icraçı: i.e.n. V.Ə. Rüstəmov).

Problem. İnsan resurslarının inkişafı və sosial-iqtisadi problemlər üzrə tədbirlərin keçirilməsi “İnsan inkişafının sosial-iqtisadi sahələrinin inkişafı üzrə tədris proqramlarının hazırlanması və treninqlərin keçirilməsi” mövzusu üzrə Türkiyə Respublikası Baş Bakanlığının Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Bakı nümyəndəliyi ilə əməkdaşlıq çərçivəsində institutda “İnnovasiya və Təlim Mərkəzi” yaradılması layihəsi həyata keçirilmişdir. Tədqiqat işi üzrə qarşıya qoyulmuş məqsəd - kadr hazırlığında və innovativ elmi-texniki imkanların genişləndirilməsində müasir texnoloji vasitələrdən istifadə edilməsi olmuşdur. Belə ki, məhz bu məqsədlə də Mərkəz “LifeSize” avadanlığı vasitəsilə video-əlaqə (telemost), “Smart Lövhə” (“Ağıllı Lövhə”) vasitəsilə təlimlərin intellektual idarə olunması, təlimdən sonra vəsaitlərin elektronlaşdırılması, istifadəçilərin hər birinin çap vasitələrindən faydalanma imkanları ilə təchiz olunmuşdur. Aktiv iştirakçı tutumu 35, qeyri-aktiv iştirakçı tutumu isə 80-100 nəfərdir. Bu işdə TİKA Bakı nümayəndəliyindən başqa Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin İstehlak Bazarına Nəzarət və Antiinhisar Siyasəti Dövlət Xidməti də dəstək göstərmişdir. Daha sonra isə kadr potensialının gücləndirilməsində Mərkəzdən istifadə edilməsi ilə Fəaliyyət Proqramının ilkin layihəsi hazırlanmış və bu Proqramın növbəti illərdə tətbiqi nəzərdə tutulmuşdur (məsul icraçı: i.e.d. V.M. Vəliyev, icraçı: A.M. İsmayılova, K.Q. Hüseynova).

“Sosial-iqtisadi inkişafın elmi əsaslarının işlənməsi üzrə beynəlxalq təcrübənin öyrənilməsi və əlaqələrin koordinasiya edilməsi” mövzusu üzrə tədqiqat işi aparılmışdır. Qeyd olunan tədqiqat işinin aparılması “Azərbaycanın, digər İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) ölkələri ilə regional və iqtisadi əməkdaşlığının prioritetlərinin qiymətləndirilməsi” mövzusu ilə davam etdirilmişdir. Belə ki, hesabat dövründə aparılmış tədqiqatlar üzrə nəticələr sistemləşdirilmiş və müxtəlif tədbirlərdə məruzə edilmişdir:

1) “İƏT-ə üzv ölkələrdə nəqliyyat və logistika” mözusunda məqalə hazırlanmış və 2013-cü il 5-6 sentyabr tarixlərində Bakıda keçirilmiş “Enerji, regional inteqrasiya və sosial-iqtisadi inkişaf” mövzusunda I Beynəlxalq Konfransa təqdim olunmuşdur;

2) məqalədə iki beynəlxalq nəqliyyat dəhlizinin kəsişməsində yerləşən İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin nəqliyyat sektoru araşdırılmışdır. Hal-hazırda beynəlxalq təcrübədə qəbul olunmuş və Dünya Bankı tərəfindən 150-dən artıq ölkəni əhatə etməklə hazırlanan “Logistics Performance Indeks” cədvəlində İƏT-ə üzv ölkələrin reytinq göstəricilərindən istifadə edilərək regionda bu sahədə mövcud olan problemlər öyrənilmiş və

həmmüəlliflər tərəfindən problemlərin aradan qaldırılması istiqamətində həyata keçirilməsi vacib olan tədbirlər haqqında təklif irəli sürülmüşdür;

3) "Azərbaycanla İƏT-ə üzv ölkələr arasında əməkdaşlıq çərçivəsində logistika infrastrukturunun inkişaf prioritetlərinin qiymətləndirilməsi" adlı məqalə və təqdimat hazırlanmış, konfransda məruzə edilmişdir. Qeyd olunanlarla yanaşı tədqiqat işinin icrası ilə əlaqədar olaraq, Azərbaycan Texniki Universitetində Ümumilli Lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan Təhsili" mövzusunda Respublika elmi konfransında və 2013-cü il 13-15 iyun tarixlərində Bakıda keçirilmiş "TransCaspian" 12-ci Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika sərgisində iştirak edilib (məsul icraçı: A.M.İsmayılova, icraçı: K.Q.Hüseynova).

"Sahibkarların maarifləndirilməsi məqsədilə Fondun fəaliyyət istiqamətlərinə uyğun metodiki materialların nümunələrinin hazırlanması" mövzusu üzrə institutun fəaliyyətinə uyğun olaraq, sahibkarların maarifləndirilməsi məqsədilə kitabçaların hazırlanması həyata keçirilməyə başlanmışdır. Belə ki, hesabat ilində bu məqsədlə institutun əməkdaşı Albert Tağıyev tərəfindən 3 cib kitabçası hazırlanmış və çapa təqdim edilmişdir:

1) "Müəssisələrin inkişafında françayzinq dəstəyindən necə istifadə etməli? (müəssisə menecerləri üçün)";

2) "Müəssisələrin rəqabətlilik qabiliyyətini necə yüksəltməli?";

3) "İnnovasiya: sual-cavabda" (məsul icraçı: A.M. İsmayılova, icraçı: A.Q. Davudov).

***Problem. Azərbaycan Respublikasında kommunal xidmətlərin sosial-iqtisadi göstəricilərinə təsirinin qiymətləndirilməsi.*** "Mənzil-kommunal sahəsində sosial-müdafiə mexanizmlərinin nəzəri-metodoloji aspektləri" mövzusu üzrə tədqiqat işi aparılmışdır. Tədqiqat işinin əsas məqsədi mənzil-kommunal təsərrüfatı kompleksinin (MKTK) fəaliyyətinin effektivliyi, dayanıqlılığı və etibarlılığının artırılması, sosial-müdafiə mexanizmlərinin nəzəri-metodoloji aspektlərinin işlənməsindən ibarət olmuşdur. Bu məqsədlə ilkin mərhələdə Azərbaycan Respublikasında MKTK-nın cari vəziyyəti təhlil edilmiş, problemlər araşdırılmış, mənzil-kommunal sektorunda keçmiş Sovet İttifaqına daxil olan ölkələrin də təcrübəsi nəzərə alınmaqla, beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində müxtəlif mənbələrdən məlumatlar toplanımış və sistemləşdirilmiş, Azərbaycan Respublikasında mənzil kommunal təsərrüfatı kompleksində qəbul edilmiş qanunvericilik aktlarının tələbləri nəzərə alınmaqla idarəetmə sisteminin formalaşdırılması və bu sahədə bazar iqtisadiyyatı və kommersiyalaşdırma prinsiplərinin tətbiqi yolu ilə kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsi imkanları araşdırılmış, mənzil-kommunal xidmətlərində keyfiyyətin yüksəldilməsi, eləcə də mənzil-kommunal təsərrüfatı sistemində sosial-müdafiə istiqamətində problemlər tədqiq edilmişdir (məsul icraçı: Ü.P. Piriyeva).

"Mənzil-kommunal təsərrüfatı sahəsi üzrə statistik uçotun təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması" mövzusu üzrə tədqiqat işində mənzil-kommunal təsərrüfatı sahəsi üzrə statistik uçotun təkmilləşdirilməsinə dair beynəlxalq təcrübə araşdırılmış, materiallar toplanmışdır. Növbəti ildə də yeniləşdirilməsi nəzərdə tutulur (məsul icraçı: i.f.d. E.F. Qasımov).

***Problem. Azərbaycan Respublikasında sosial inkişaf problemlərinin tədqiqi***. "İnsan potensialının inkişafına yönəldilmiş investisiyaların qiymətləndirilməsi" mövzusu üzrə tədqiqat işinin iki illik plan əsasında yerinə yetirilməsi nəzərdə tutulmuşdur. Cari ildə işin planı hazırlanmış və iş planına müvafiq olaraq "İnsan potensialının inkişafı səviyyəsinin nəzəri

metodoloji əsasları" adlanan birinci bölmədə insan potensialının nəzəri metodoloji aspektləri tədqiq edilərək ümumiləşdirilmiş, müvafiq qiymətləndirmə metodologiyası seçilmişdir. İkinci bölmədə təbii resurslarla zəngin olan oxşar iqtisadiyyatlı ölkələr üzrə insan potensialının inkişafına yönləndirilmiş investisiyalar və onun nəticələri müqayisəli tədqiq edilmişdir. Üçüncü bölmə Azərbaycan Respublikasında insan potensialının inkişafına yönəldilmiş investisiyaların mövcud vəziyyətinin tədqiqi adlanır ki, burada da ölkəmizdə insan inkişafına qoyulmuş investisiyalar onun insan potensialının inkişafına təsirlərinin qiymətləndirilməsi nəzərdə tutulmuşdur. Bu istiqamətdə müvafiq məlumatlar toplanmış, emalı prosesi davam etdirilir. Növbəti bölmədə isə insan potensialının inkişafının perspektiv inkişaf istiqmətləri və bu inkişafda investisiyaların yönəldilməsinin perspektiv istiqamətləri araşdırılacaq və müvafiq təklif və tövsiyələr veriləcəkdir (məsul icraçı: F.Q. Mikayılov).

"Qaçqınların və məcburi köçkünlərin məşğulluq vəziyyətinin analitik təhlili" mövzusu üzrə tədqiqat işi aparılmışdır. Bu istiqamətdə analitik təhlil materialları toplanılır, işin növbəti ildə tamamlanması nəzərdə tutulmuşdur (məsul icraçılar: F.Q. Mikayılov, i.f.d. E.F. Qasımov).

"Azərbaycan Respublikasında ali təhsil müəssisələrində maliyyələşmə mexanizminin tədqiqi" mövzusunda tədqiqat işi üzrə aşağıdakı kimi plan tərtib edilmiş və plana müvafiq olaraq işlər aparılmışdır. Ali təhsildə maliyyələşmə mexanizmlərinin nəzəri metodoloji aspektləri - nəzəri metodoloji məsələlər öz əksini tapmaqla bir sıra beynəlxalq təcrübələrə baxılmış, eyni zamanda ali təhsilin hazırkı durumu və onun iqtisadi inkişafda rolu tədqiq edilmiş və Boloniya sisteminə qoşulan ölkəmizdə ali təhsilin hansı mərhələdə olması araşdırılmış və Boloniya sisteminin ali təhsilin inkişafına verdiyi töhfələr tədqiq edilmişdir. Tədqiqat işinin "Ali təhsildə maliyyələşmə mexanizmlərinə dair xarici ölkələrin təcrübəsi" adlanan bölməsində istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələrdə ali təhsildə maliyyələşmə mexanizmləri qruplaşdırılaraq araşdırılmış və müqayisələr edilmişdir. Ali təhsildə maliyyələşmə mexanizminin tətbiqi ilə bağlı bölmədə bakalavr pilləsi üzrə maliyyələşmə mexanizmi ilə bağlı ölkəmizdə aparılan institutional işlər öz əksini tapmışdır. Sonuncu bölmədə isə magistratura və doktorantura üzrə görülmüş işlərin nəticəsi öz əksini tapacaqdır.

Yekunda araşdırmaların nəticələri olaraq perspektiv inkişaf istiqamətlərinə dair tövsiyələr veriləcək və növbəti ilin birinci yarısında başa çatdırılması nəzərdə tutulmuşdur (məsul icraçılar: F.Q.Mikayılov, E.S.İmanov).

***Problem. Qeyri-neft sahələrinin inkişafının qiymətləndirilməsi***

"Ekoloji təmiz kənd təsərrüfatı inkişafının nəzəri aspektləri, prioritetlərinin tədqiqi və inkişafı məsələləri (Quba-Xaçmaz iqtisadi rayonu timsalında)" mövzusu üzrə tədqiqat işində əsas məqsəd ekoloji təmiz kənd təsərrüfatının inkişafı prosesinin planlı şəkildə həyata keçirilməsi üçün dünya təcrübəsi öyrənilməklə və yerli şərait nəzərə alınmaqla müasir tələblərə cavab verən inkişaf planının hazırlanması təşkil etmişdir. Tədqiqat işində ekoloji təmiz kənd təsərrüfatı sahəsində nəzəri-metodoloji məsələlər müəyyən edilmiş, ekoloji təmiz kənd təsərrüfatı sahəsində beynəlxalq təcrübənin ölkəmizdə tətbiqi imkanlarının sistemli təhlili və qiymətləndirilməsi aparılmış, SWOT təhlili əsas qiymətləndirmə metodu seçilməklə ekoloji təmiz kənd təsərrüfatının ölkəmizdə inkişafı sahəsində güclü və zəif tərəflər müəyyən edilmiş, imkan və təhlükələr aşkar edilmişdir. Tədqiqat işi çərçivəsində ekoloji təmiz kənd təsərrüfatının ölkəmizdə inkişafı üçün qısa, orta və uzunmüddətli dövrləri əhatə edən tədbirlər əməli tövsiyələr şəklində verilmişdir. Tədqiqat işində müəyyən edilmişdir ki, kənd

təsərrüfatının əlavə dəyərinin artırılmasında unikal keyfiyyətli yerli məhsulların dünya bazarına “eko” sertifikatı ilə çıxarılması mühüm rol oynaya bilər. Həmçinin, regionlar üzrə mövcud ixtisaslaşma səviyyəsinə və dünya bazarında tələbi yüksək olan ekoloji təmiz məhsullara nəzər saldıqda demək olar ki, əksər iqtisadi rayonda bu sahənin dəstəklənməsi olduqca zəruridir. Tədqiqat işinin nəticəsində “Ekoloji təmiz kənd təsərrüfatının inkişaf etdirilməsinə dair təkliflər layihəsi” konsepsiyası, “Azərbaycan Respublikasında ekoloji təmiz kənd təsərrüfatının inkişafı strategiyası və fəaliyyət planı (2014-2020-ci illərə)” layihəsi hazırlanmışdır. “Azərbaycan Respublikasında ekoloji təmiz kənd təsərrüfatının inkişaf etdirilməsinə dair təkliflər layihəsi” konsepsiyası və “Azərbaycan Respublikasında ekoloji təmiz kənd təsərrüfatının inkişafı strategiyası və fəaliyyət planı (2014-2020-ci illərə)” layihəsi bu sahənin ölkəmizdə inkişafı istiqamətində zəruri dövlət siyasətinin konseptual istiqamətlərini, missiyanı, vizyonu, əsas dəyərləri, strateji məqsəd və hədəfləri, zəruri tənzimlənmə tədbirlərini və digər aktual məsələləri əhatə etməklə istifadəsi məqsədəuyğun hesab edilir (məsul icraçı: i.e.n. H.Ə. Eynalov, A.Q. Davudov).

“Azərbaycanda üzümçülüyün inkişafının aktual məsələləri” mövzusu üzrə tədqiqat işinin əsas məqsədi üzümçülük və şərabçılıq sahəsində təbii fəlakətlərin və digər risklərin yaratdığı fəsadların qarşılanması və müasir texnologiyaların tətbiq imkanlarının genişləndirilməsi üçün sığorta və lizinq üzrə mütərəqqi beynəlxalq təcrübənin öyrənilməsi və onun əsasında yerli xüsusiyyətlər də nəzərə alınmaqla, müvafiq sahədə siyasətə dair təklif və tövsiyələrin hazırlanmasından ibarət olmuşdur. Tədqiqat işi çərçivəsində üzümçülük və şərabçılıq sahəsində sığorta və lizinq xidmətlərinin təşkilinin nəzəri-metodoloji əsasları araşdırılmış və müvafiq sahədə mütərəqqi beynəlxalq təcrübə öyrənilərək mövcud vəziyyət təhlil edilmiş və problemlər müəyyən edilmişdir. Tədqiqatın nəticələrinə görə ölkəmizdə sığorta və lizinq mexanizmlərinin inkişafı bu sahənin maliyyələşmə imkanlarını genişləndirəcəyi kimi, kreditlər üçün daha asan şəkildə zəmanətlərin təmin edilməsinə də yol açacağı müəyyən edilmişdir. Eyni zamanda, müəyyən edilmişdir ki, lizinqin təkmilləşdirilməsi istiqamətində aparılan siyasət lizinq xidmətləri bazarının inkişafına, kiçik və orta sahibkarlığın maliyyələşdirmə vasitəsi kimi lizinqdən geniş istifadə edilməsinin həvəsləndirilməsinə, həmçinin, Azərbaycanın lizinq sektoruna xarici və daxili investisiyaların cəlb edilməsi üçün əlverişli mühit yaradılmasına yönəldilməlidir. Tədqiqat işində Türkiyə və İspaniya təcrübəsi əsas götürülməklə ümumilikdə, kənd təsərrüfatında, o cümlədən üzümçülükdə risklərin yüksəkliyini nəzərə alaraq, hökumətin təşəbbüsü ilə ölkədə Kənd Təsərrüfatı Sığortası Fondunun (bundan sonra Fond) yaradılması istiqamətində əməli tövsiyələr verilmişdir. Beynəlxalq maliyyə böhranları zamanı yüksək dayanıqlılıq göstərilməsi, davamlı və dinamik inkişaf etməsi və dünyada sürətlə yayılması səbəbilə, Azərbaycanda kənd təsərrüfatı, o cümlədən, üzümçülük üzrə sığortanın təkmilləşdirilməsi zamanı təkavul mexanizminə də diqqət yetirilməsi məqsədəuyğun sayılır. Ölkə əhalisinin əksəriyyətinin müsəlman olması da bu modelə üstünlük verilməsinin lehinə işləyən daha bir güclü arqumentdir (məsul icraçı: A.Q. Davudov).

“Müqayisəli üstünlük əsasında idxalı əvəz edən və ixracyönümlü rəqabətqabiliyyətli məhsulların müəyyənləşdirilməsi üzrə araşdırmanın aparılması” mövzusu üzrə tədqiqat işində aşkar müqayisəli üstünlük göstəricilərini hesablamaqla ölkəmizin aqrar-sənaye kompleksi məhsullarının əsas tərəfdaş ölkələrlə müqayisədə aşkar müqayisəli üstünlüyü müəyyən edilmişdir. Tədqiqat nəticəsində aşkar müqayisəli üstünlük göstəricisi kimi Balassa indeksləri

əsasında 200-ə qədər məhsul aşkar müqayisəli üstünlük əsasında araşdırılmışdır. Aparılmış tədqiqatın nəticələri yekunlaşdırıldıqdan sonra siyahısı müəyyənləşdiriləcək, idxalı əvəz edən və ixracyönümlü rəqabətqabiliyyətli məhsullar barədə konkret təkliflər veriləcəkdir (məsul icraçılar: i.e.n. V.Ə. Rüstəmov, icraçı: M.M. Mehdiyev).

"Yeyinti sənayesinin ayrı-ayrı sahələrində təmərküzləşmənin səviyyəsinin müəyyən edilməsi" mövzusu üzrə tədqiqat işində yeyinti sənayesinin ayrı-ayrı sahələrində təmərküzləşmə səviyyəsinin müəyyən edilməsi üzrə tədqiqat işində təmərküzləşmənin obyektiv əsası, yeyinti sənayesinin ayrı-ayrı sahələrində təmərküzləşmə səviyyəsi, yeyinti sənayesində təmərküzləşmə səviyyəsinin göstəriciləri, bazarda təmərküzləşmə səviyyəsinin müəyyən edilməsi indeksləri, Azərbaycanda yeyinti sənayesi istiqamətləri üzrə məlumatlar ümumiləşdirilmiş, Azərbaycanda yeyinti sənayesində mövcud olan təmərküzləşmə ilə bağlı təhlillər aparılmışdır (məsul icraçılar: i.e.n. R.N. Hüseynəliyev, icraçı: E.İ. Qədirov).

"Respublikanın idxal asılılığı olan əsas qida və yüngül sənaye məhsullarının və müqayisəli üstünlüyə malik olan məhsulların müəyyən edilməsi" mövzusu üzrə tədqiqat işində 2013-cü ildə ərzaq balanslarının təhlili və aşkar müqayisəli üstünlük göstəriciləri və potensial rəqabətqabiliyyətlilik göstəriciləri əsasında idxal asılılığı olan əsas qida və yüngül sənaye məhsullarının siyahısı müəyyən edilmişdir. Tədqiqatlar aşağıdakı göstəricilər əsasında aparılmışdır:

1) aşkar müqayisəli üstünlük göstəricisi kimi Balassa indeksləri;

2) potensial müqayisəli üstünlük göstəricisi olan daxili resurs sərfi əmsalı;

3) ərzaq balansı.

Aparılmış tədqiqatın nəticələri yekunlaşdırıldıqda idxal asılılığı olan əsas qida və yüngül sənaye məhsullarının siyahısının müəyyən edilməsi barədə konkret təkliflər veriləcəkdir (məsul icraçılar: i.e.n. R.N. Hüseynəliyev, i.e.n. V.Ə. Rüstəmov, M.M. Mehdiyev).

"Ölkənin qeyri-neft sektorunun 2003-2012-ci illər üzrə inkişaf dinamikasının təhlili (regional aspektdə)" mövzusu üzrə tədqiqat işində iqtisadi göstəricilərin (qeyri-neft, sənaye, kənd təsərrüfatı, pərakəndə ticarət dövriyyəsi, tikinti, nəqliyyat, telekommunikasiya və poçt, əhaliyə göstərilmiş pullu xidmətlər, turizm sahələrini əhatə edən) statistik tədqiq edilməsi əsasında iqtisadiyyatın aktual təmayülünün təhlili müəyyən edilmiş və müvafiq nəticələr əldə edilmişdir. Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, ölkədə qeyri-neft məhsullarının buraxılışında həm qeyri-neft sənayesi, həm də kənd təsərrüfatı məhsullarının xüsusi çəkisi azalmışdır (məsul icraçılar: N.F.İsmayılova, A.Q.Davudov).

"Təsərrüfat cəmiyyətlərində qiymətli kağızlardan istifadə məsələləri" mövzusunda tədqiqat işi üzrə bir sıra işlər görülmüşdür:

1) mövcud nəzəri yanaşmalar, elmi-təcrübi materiallar və mütərəqqi dünya təcrübəsinin təhlili əsasında müasir dövrdə təsərrüfat cəmiyyətlərində qiymətli kağızlardan istifadə üzrə nəzəri-metodoloji əsaslar öyrənilmiş və ümumiləşdirilmişdir;

2) müvafiq nəzəri-metodoloji əsaslara uyğun olaraq, təsərrüfat cəmiyyətlərində qiymətli kağızlardan istifadəni şərtləndirən səbəblər və bu prosesin müasir xüsusiyyətləri öyrənilmiş və sistemləşdirilmişdir;

3) ölkədə təsərrüfat cəmiyyətlərində qiymətli kağızlardan istifadə və bu prosesin dövlət tənzimlənməsi sahəsində mövcud vəziyyəti təhlil olunmuş və qiymətləndirilmişdir;

4) ölkədə qiymətli kağızlar bazarının inkişafı ilə bağlı siyasətə dair təklif və tövsiyələr işlənib hazırlanmışdır (məsul icraçı: i.e.n.V.Ə.Rüstəmov).

"Ekoloji turizmin inkişaf etdirilməsi istiqamətində araşdırmaların aparılması" mövzusu üzrə tədqiqat işində əsasən dünya ölkələrinin ekoturizm sahəsində təcrübələri tədqiq edilmiş, inkişaf etməkdə olan ölkələrdən Keniya nümunəsi üzərində dayanılmışdır. Bundan başqa ilk 10 ekoturizm üzrə ölkələrin təcrübəsi nəzərdən keçirilmişdir. Tədqiqat işində ekoturizmə qatılan turist profili incələnmiş və ekoturizmə qatılan turistlərin əsasən təhsilli, 35-54 yaş arasında olan yüksək gəlirli insanlar olduğu müəyyən edilmişdir. Tədqiqatları nəzərə alaraq, Azərbaycan nümunəsi verilmişdir. Qeyd edilmişdir ki, Azərbaycanın sahib olduğu iqlim, coğrafi yerləşməsi və təbii qaynaqların zənginliyi ekoturizmin inkişaf etdirilməsi üçün geniş şərait mövcuddur. Əsasən dağətəyi bölgələrdə, xüsusilə, Lənkəran iqtisadi rayonunda, Naxçıvan və Qafqaz sıra dağları ətəyində yerləşən bölgələrdə ekoturizm imkanları mövcuddur. Ölkədə ekoturizmin inkişaf etdirilməsi sahəsində kiçik müəssisələr üçün münbit şərait yaradılmalı, ümumi qiymət səviyyəsi yuxarı olduğuna görə onların aşağı salınması məqsədilə tədbirlər həyata keçirilməli, təbii qaynaqların qorunması üçün xüsusi bölgələr təşkil edilməli, dünya ölkələrindən Keniya Respublikası, Kanada kimi ölkələrin təcrübələrindən faydalanılmalıdır. Eyni zamanda, ekoturizmə qatılan turistlərin sakit, yaşıllığı bol olan ərazilərdə, kənd və qəsəbələrdə istirahəti üçün şərait yaxşılaşdırılmalıdır. Həmçinin, kənd turizmi üçün formalaşan tələbə cavab vermək məqsədilə Finlandiya təcrübəsi tətbiq edilə bilər(məsul icraçılar: i.e.n. H.Ə.Eynalov, icraçılar: i.e.n. S.H.Abasova, R.R.Məmmədov).

"Qeyri-neft sektorunun inkişafı, o cümlədən onun ixrac potensialının artırılmasında qərarların qəbulu modellərinin ilkin işlənilməsi" mövzusu üzrə tədqiqat işində qeyri-neft sektoruna, xüsusən də onun ixrac potensialının artırılmasına təsir göstərən amillər seçilərək təsir xüsusiyyətlərinə müvafiq olaraq sinfi təsnifat verilmişdir. Mövcud meyarların təsirinin qiymətləndirilməsi prosesində qeyri-səlis şəraitin ola biləcəyini nəzərə alaraq, belə şəraitdə müvafiq olaraq amillərin seçilməsi üçün xüsusi metodologiya seçilmişdir. Tədqiqat işi ekspert qiymətləndirmələr aparılması məqsədi ilə davam edir (məsul icraçı: i.e.d. V.M.Vəliyev, icraçı: A.M.İsmayılova).

***Problem. Enerji və infrastruktur xidmətlərinin sosial-iqtisadi inkişaf göstəricilərinə təsirinin qiymətləndirilməsi***. "Azərbaycanın enerji balansının sahələrarası təhlili" mövzusu üzrə tədqiqat işi aparılmışdır. Cari ildə 2003-2011-ci illər üzrə təbii qaz və elektrik enerjisinin tələb-təklif göstəriciləri üzrə məlumatlar toplanmış, əhali və iqtisadi sektorlarda istehlak göstəriciləri təhlil edilmişdir. Eyni zamanda, Azərbaycanın 2012-ci il enerji balansı üzrə məlumatlar yenilənmiş və enerji balansının xərclər-buraxılış modelinə müvafiq olaraq təhlil olunması üçün ilkin nəzəri baza işlənilmişdir (məsul icraçı: i.e.d. V.M.Vəliyev).

***Problem. Dağlıq Qarabağ və ona qonşu inzibati rayonların Ermənistan tərəfindən işğalı nəticəsində dəymiş ziyanın qiymətləndirilməsi***. Bu problem üzrə plan tərtib edilmiş, müvafiq metodologiya seçilmiş və məlumatlar toplanmışdır. Lakin, son illərdə bu səpkidə müxtəlif institutional qurumların apardığı qiymətləndirmələr və dəymiş zərərlə bağlı alınmış fərqli nəticələr əsas götürülərək Milli Məclis tərəfindən, dəymiş zərərin qiymətləndirilməsi ilə bağlı vahid komissiya yaradılmışdır. Bu qiymətləndirmə komissiyası tərəfindən zərərin qiymətləndirilməsinin aparılması nəzərdə tutulmuşdur. Bütün bunları nəzərə alaraq, bu bölmənin institut tərəfindən işlənilməsi dayandırılmış, toplanılmış işçi materialların həmin işçi qrupuna göndərilməsi planlaşdırılmışdır (məsul icraçı: i.e.d. V.M.Vəliyev, icraçılar: i.e.n.

R.N.Hüseynəliyev, i.e.n. O.İ.İbrahimov, i.e.n. V.Ə.Rüstəmov, i.e.n. M.R.Rəsulova, F.Q.Mikayılov, i.f.d. E.F. Qasımov, N.F.İsmayılova, A.Q.Davudov)

***Problem. Məlumat bazasının formalaşdırılması, statistik göstəricilərin təhlili və cari işlərin yerinə yetirilməsi.*** "Statistik məlumatların yenilənməsi, təsnifləşdirilməsi və emalı" mövzusuna müvafiq olaraq kənd təsərrüfatı, tikinti, sənaye, nəqliyyat, təhsil, turizm və s. bölmələr üzrə yenilənmələr edilmişdir (məsul icraçı: i.f.d. E.F.Qasımov).

"İqtisadi rayonların pasportunun yenilənməsi" mövzusu üzrə Azərbaycan Respublikasının iqtisadi rayonları üzrə Pasportlarına 2012-ci ilin sosial-iqtisadi göstəriciləri əlavə edilərək yenilənmişdir (məsul icraçılar: i.f.d. E.F. Qasımov, icraçı: N.F. İsmayılova).

"Regionların və inzibati rayonların elektron statistik bazasını yeniləmək" mövzusu üzrə regionların və inzibati rayonların elektron statistik bazası 2012-ci ilin rəqəmləri də əlavə edilərək yenilənmişdir (məsul icraçı: i.f.d. E.F. Qasımov).

"Statistik baza üçün sahəvi göstəricilərin elektron bazasını yeniləmək" mövzusu üzrə statistik baza üçün sahəvi göstəricilərin elektron bazasında müvafiq sahələr üzrə rəqəmlər yenilənmişdir (məsul icraçı: i.f.d. E.F. Qasımov).

"Azərbaycan təqdimatı" kitabının yenilənməsi" mövzusu üzrə "Azərbaycan təqdimatı" kitabı 2012-ci ilin rəqəmləri də əlavə edilərək yenilənmişdir (məsul icraçı: i.f.d. E.F. Qasımov).

"MDB ölkələrinin əsas sosial-iqtisadi göstəricilərinin elektron bazasını yaratmaq" mövzusu üzrə tədqiqat işi aparılmışdır. MDB ölkələrinin əsas sosial-iqtisadi göstəricilərinin elektron bazası hazırlanır (məsul icraçı: i.f.d. E.F. Qasımov).

Dövlət proqramlarının, Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarından irəli gələn məsələlərin icrası.

İnstitutda yanvar-dekabr ayları ərzində Nazirlik tərəfindən tapşırılmış Dövlət proqramları, Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarından irəli gələn məsələlərin icrasına dair işlər aidiyyəti üzrə yerinə yetirilmişdir (məsul icraçılar: i.e.d. V.M. Vəliyev, i.e.n. R.N. Hüseynəliyev, i.e.n. O.İ. İbrahimov).

İnstitutda yanvar-dekabr ayları ərzində İqtisadi İnkişaf Nazirliyinin Kollegiyasının qərarlarının, İqtisadi İnkişaf Nazirliyinin əmr və tapşırıqlarının, eləcə də müxtəlif qurumlardan daxil olmuş, digər sənədlərin icrası və cari işlərin yerinə yetirilməsi ilə bağlı işlər aidiyyəti üzrə yerinə yetirilmişdir (məsul icraçılar: i.e.d. V.M. Vəliyev, i.e.n. R.N. Hüseynəliyev, i.e.n. O.İ. İbrahimov).

Xarici əlaqələr. Əməkdaşlıq müqavilələri 2013-cü ildə institutun əməkdaşlıq etdiyi təşkilatlarla işlərin davam etdirilməsi ilə yanaşı əlaqələrinin genişləndirilməsi istiqamətində də müxtəlif tədbirlərin həyata keçirilməsi davam etdirilmişdir. Birgə tədqiqatların aparılması, elmi və elmi-texniki tədbirlərdə iştirak və kadr potensialının gücləndirilməsi kimi əməkdaşlıq əlaqələrinin nəzərdə tutulduğu 6 anlaşma memorandumu imzalanmışdır ki, onlardan 4-ü ikitərəfli, 2-si çoxtərəflidir.

5. COMMENCEMENT/EXPIRATION DATE. This agreement is executed as of the date of last signature and is effective through 3 years at which time it will expire unless extended.

6. LIABILITIES. It is understood that neither party to this Memorandum of Understanding is the agent of the other and neither is liable for the wrongful acts or negligence of the other. Each party shall be responsible for its negligent acts or omissions and those of its officers, employees, agents or students (if applicable), howsoever caused, to the extent allowed by their respective state laws.

IN WITNESS WHEREOF, the parties hereto have executed this agreement as of the last written date below.

For Institute for Scientific Research on Economic Reforms of Ministry of Economic Development of the Republic of Azerbaijan:

Date: 06.09.2013 Prof. Dr. Vilayat VALIYEV, Director

For ECOMOD:

Date: 6/9/2013 Prof. Dr. Ali BAYAR, President

For "Institute of Economic Research" JSC, Republic of Kazakhstan

Date: 06.09.2013 Dr. Maksat MUKHANOV, President

For National Institute for Strategic Studies under the Government of Kyrgyzstan

Date: 6/9/2013 Dr. Talant SULTANOV, Director

**MEMORANDUM OF UNDERSTANDING**

**BETWEEN**

**KYRGYZ ECONOMIC UNIVERSITY NAMED AFTER M.RYSKULBEKOV (KYRGYZ REPUBLIC),**

**"QAFQAZ" UNIVERSITY (REPUBLIC OF AZERBAIJAN)**

**AND**

**INSTITUTE FOR SCIENTIFIC-RESEARCH ON ECONOMIC REFORMS (REPUBLIC OF AZERBAIJAN)**

This Memorandum of understanding is made on 20 day of May, 2013 between Kyrgyz Economic University named after M.Ryskulbekov (Kyrgyz Republic), hereafter referred to as KEU and Caucasus University (Republic of Azerbaijan), hereafter referred to as CU and Institute for Scientific-Research on Economic Reforms under the Ministry of Economy (Republic of Azerbaijan), hereafter referred to as ISRER, hereafter collectively referred to as "Parties" to establish a trilateral cooperation that will underline relations between them on the following principles of cooperation:

**Article 1**

The purpose of the present Memorandum is to establish and develop international cooperation between the Parties in the field of education and research, exchange of experience in academic achievements.

**Article 2**

For realization of the purpose of the present Memorandum, Parties shall:

- develop and implement joint research projects;
- undertake exchange of administrative, academic staff and students.

The research personnel of the Parties should provide joint research project proposals in accordance with the terms set out below:

1) Clear description/define proposed research
2) Name of organizations, names of researchers and positions
3) Name and place of faculty/research center/institution
4) Name and biography (CV) of researchers who are responsible for the implementation of projects
5) Detailed description of the functionality of the project participants
6) Period and stages of the research
7) Research budget

**Article3**

To facilitate collaboration and research projects, Parties have agreed to:

1. provide at least two times a year an information and reports on research to determine compliance with the terms of the research projects of the Memorandum;
2. organize mutual visits between the Parties to develop collaborative research projects;
3. carry out research according to research program, and provide relevant information to managers of universities;
4. Within 15 days after signing the Memorandum, appoint responsible persons who shall deal on behalf of the concerned institution with all matters relating to this MoU.

**Article 4**

Parties agree that prior to initiation of any particular exchange and any other activity encompassed by this Memorandum, all terms of realization and financial arrangements with regard to that particular exchange and collaborative activity shall be settled in detail in a separate agreement or protocol.

**Article 5**

This Memorandum will come into force on the date of its signature by the Parties, and will be valid for a period of five years from that date. All Parties agree to review this Memorandum of Understanding after five years following the date of signing, and acknowledge that this Memorandum is subject to revision and termination at any time by a three-month' notice by either party.

**Article 6**

This Memorandum is made in three copies in triplicate in English.

| *On behalf of* | *On behalf of* | *On behalf of* |
|---|---|---|
| Kyrgyz Economic University named after M.Ryskulbekov | "Qafqaz" University | Institute for Scientific-Research on Economic Reforms |
| **Rector Dr., Prof. Tolobek KAMCHYBEKOV** | **Rector Dr., Prof. Ahmet SANIC** | **Director Dr., Prof. Vilayat VALIYEV** |
| Signature | Signature | Signature |
| "__" ______ 2013 | "__" ______ 2013 | "20" May 2013 |



MEMORANDUM OF UNDERSTANDING ON COOPERATION BETWEEN THE NATIONAL INSTITUTE FOR STRATEGIC STUDIES OF THE KYRGYZ REPUBLIC (NISS KR) AND THE INSTITUTE FOR SCIENTIFIC RESEARCH ON ECONOMIC REFORMS UNDER THE MINISTRY OF ECONOMIC DEVELOPMENT OF THE REPUBLIC OF AZERBAIJAN (ISRER)

The National Institute for Strategic Studies of the Kyrgyz Republic – NISS KR and the Institute for Scientific Research on Economic Reforms under the Ministry of Economic Development of the Republic of Azerbaijan - ISRER (hereinafter referred to as "Parties"),

Desiring to establish and develop cooperation regarding joint research, programs and staff training;

Have reached the following understanding:

Article 1

The scope of this Memorandum of Understanding (MoU) is to create conditions for maintaining regular contacts and promoting cooperation between the Parties. The cooperation shall not be guided by any commercial considerations and shall be carried out on the basis of reciprocity and mutual benefit.

Article 2

The parties shall give priority to joint research, introduction and elaboration of joint programs in the economic cooperation issues, investment, energy sector and other relevant areas. The Parties shall keep each other informed on matters related to research and teaching techniques in the above mentioned areas and shall exchange relevant literature and publications.

Article 3

Cooperation under this MoU may include:

(a) exchange of publications and teaching materials;
(b) carrying out joint projects and research in the areas of mutual interest;
(c) joint operation of basic and specialized training courses;
(d) exchange of researchers of the two Parties with a view to upgrading their qualifications;
(e) exchange experts for participation in conferences, symposia, and panel discussions in each other's country;
(f) any other form of cooperation that may be jointly decided upon by the Parties.

Article 4

Unless otherwise mutually agreed, on the basis of reciprocity, the sending Party shall cover its own international travel expenses. The receiving Party shall cover local accommodation and transportation, and those organization costs related to bilateral discussions. However, the Parties shall have consultation prior to sending their respective representatives and/or delegations, regarding the financial feasibility.

Article 5

Each party will fulfill its obligations undertaken by this MoU in conformity with the legislation of their respective countries.

Article 6

This MoU shall come into force on the date of signature and shall remain in force for a period of three (3) years. It shall be automatically extended for a subsequent one-year period, unless either of the Parties notifies the other, in writing, at least three months prior to its expiration, of its intent to terminate the validity of this MoU.

Signed in Baku, Azerbaijan on "_6_" September 2013, in English in two copies, all of which are equally valid.

| For the National Institute for Strategic Studies of the Kyrgyz Republic | For the Institute for Scientific Research on Economic Reforms under the Ministry of Economic Development of the Republic of Azerbaijan |
|---|---|
| Deputy Director<br>Arslanbek OMURZAKOV | Director<br>Dr. Vilayat VALIYEV 06.09.2013 |

***Ezamiyyələr.*** 2013-cü ildə institutun əməkdaşları ölkəmizdə və xaricdə müxtəlif elmi və elmi-texniki tədbirlərdə iştirak etmək, sorğuların keçirilməsi məqsədilə 21 respublikaxarici və 50 respublikadaxili ezamiyyələrdə olmuşlar.

Respublikaxarici ezamiyyələrin 5-i təşkilatçılar (Avropa İttifaqı, Beynəlxalq Valyuta Fondu, Dünya Bankının Tədqiqat İnstitutu), digərləri institut tərəfindən maliyyələşdirilmişdir. İnstitutun əməkdaşları Almaniya, Avstriya, Türkiyə, Rusiya, Qazaxıstan, Estoniya, Cənubi Koreya, Portuqaliya, Çexiya, Ukrayna və İran İslam respublikalarında ezamiyyədə olmuşlar.

***Görüşlər***. 2013-cü ildə institutda xarici qonaqlarla 20-dən çox görüş keçirilmişdir.

Türkiyə Respublikasının ölkəmizdəki Səfirliyinin inkişaf, iqtisadiyyat və ticarət üzrə müşavirləri, Türkiyə Respublikasının Elm, Sənaye və Texnologiya Nazirliyinin Kiçik və Orta Müəssisələrin İnkişafı Təşkilatının (KOSGEB) nümayəndə heyəti, Sabancı Universitetinin əməkdaşı, "Chemonics" Şirkətinin nümayəndələri, İslam İnkişaf Bankının nümyəndələri, Birləşmiş Millətlərin Qida və Kənd-təsərrüfatı Təşkilatının (UN FAO) aqrobiznes və sahibkarlığın inkişafı üzrə eksperti (Stjepan Tanic), İslam ölkələrinin Statistika, İqtisadiyyat və Sosial Tədqiqatlar və Təlim Mərkəzi (SESRİC) Təlim və Tədqiqatlar Departamentinin rəhbəri, Yalova Universitetinin əməkdaşları, Qırğızıstanın Turk-Manas Universitetinin rektoru, Türkiyənin Özyeğin Universitetinin əməkdaşları və Dünya Bankının nümayəndələri ilə keçirilmiş görüşlər gələcək əməkdaşlıq və perspektiv imkanların qiymətləndirilməsi cəhətdən institut üçün xüsusi əhəmiyyət daşımışdır.

Beynəlxalq təşkilatlarla iş. Son illərdə, xüsusi ilə 2011-ci ildən etibarən İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) ilə sıx əməkdaşlıq hesabat ilində də davam etdirilmişdir. Belə ki, 2013-cü ilin 26 dekabr tarixində İran İslam Respublikasının Tehran şəhərində keçirilən İƏT-in Nazirlər Şurasının 21-ci İclasında Bakıda "İƏT-in Tədqiqat Mərkəzi"nin Nizamnaməsi sonuncu dəfə müzakirə edilmiş və təsdiq edilmişdir. Mərkəzin yaradılması təşəbbüsü ilk dəfə

İƏT-in 5 may 2006-cı il tarixində Bakıda keçirilmiş IX sammitində (Zirvə Toplantısında) Azərbaycan Respublikasının prezidenti Cənab İlham Əliyev tərəfindən irəli sürülmüşdür. Bu təklif sammitin "Bakı Deklarasiyası–2006" sənədinin xxıı bəndində öz əksini tapmaqla yanaşı sonradan İƏT-in Daimi Nümayəndələr və Regional Planlaşdırma şuralarının iclaslarında və digər tədbirlərdə gündəliyə daxil edilmişdir. 2009-cu ildən başlayaraq İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu tərəfindən mərkəzin əsasnaməsi hazırlanmış və quruma təqdim edilməsi üçün müvafiq hazırlıq işləri aparılmışdır. Bundan sonra, 2010-2013-cü illərdə bu məsələ qurumun müxtəlif tədbirlərində davamlı olaraq gündəliyə daxil edilmiş, eləcə də institutun nümayəndələrinin iştirakı ilə keçirilən bir sıra tədbirlərdə (3-4 may 2011-ci ildə Astanada (Qazaxıstan) ekspertlərin 1-ci iclası, 7-8 noyabr 2012-ci ildə Bakıda Daimi nümayəndələrin 2-ci iclasında, 21-22 avqust 2013-cü ildə İssik-Kulda Daimi nümayəndələrin 3-cü iclasında, 5-6 sentyabr 2013-cü ildə Bakıda I "Bakı Forum-Konfransı"nda) geniş müzakirə olunmuşdur.

İƏT-lə əməkdaşlıq sadalananlarla bitməmişdir. 2012-ci ildə institut tərəfindən quruma maliyyələşmə üçün təqdim edilmiş iki layihə təklifi üzrə qərar 11 noyabr tarixində İran İslam Respublikasının Tehran şəhərində keçirilən Daimi Nümayəndələr Şurasının 189-cu iclasında qəbul edilmişdir. Belə ki, "İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrdə ekoloji təmiz kənd təsərrüfatının inkişaf etdirilməsi və qurumlararası əməkdaşlıq imkanlarının və təcrübənin gücləndirilməsi" mövzusunda tədqiqat layihəsinin 2014-cü ildə icrasına başlanması haqqında qərar qəbul edilmiş, "İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrdə Ümumi Tarazlıq Modelinin tətbiq imkanlarının araşdırılması və potensialın gücləndirilməsi" mövzusunda tədqiqat layihəsinin isə digər üzv ölkələrin, beynəlxalq təşkilatların iştirakı ilə genişləndirilmiş şəkildə təqdim olunması tövsiyə edilmişdir.

2013-cü ildə həmçinin, institutun İƏT-lə əməkdaşlıq və "EcoMod Network" Şirkəti ilə birgə təşkilatçılığı çərçivəsində 5-6 sentyabr tarixlərində Bakı şəhərində "İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin İqtisadi Beyin Mərkəzlərinin I Bakı Forumu" və "Enerji, regional inteqrasiya və sosial-iqtisadi inkişaf" mövzusunda I Beynəlxalq Konfrans keçirilmişdir. İƏT-in maliyyələşmə qaydalarına uyğun olaraq, üzv ölklərdən 2 nəfərin yol xərcləri İƏT, qonaqların üçün digər xərclər institut tərəfindən qarşılanmışdır.

İki gün davam edən I "Bakı Forum-Konfransı"nda İƏT-in Baş katibi Şamil Ələsgərov başda olmaqla, İƏT-in Ticarət və İnkişaf Bankını, Türk Əməkdaşlıq və İnkişaf Agentliyinin (TİKA) Baş ofisini, təşkilatçı "EcoMod Network" Şirkətini, Türkiyənin Orta Doğu Texniki Universitetinin Texnoparklar bölməsini, Birləşmiş Millətlər Universitetinin Müqayisəli Regional Tədqiqatlar İnstitutunun (UNU-CRIS) nümayəndələri ilə yanaşı ümumilikdə İran, Pakistan İslam, Brüssel, Türkiyə, Yaponiya, Malayziya, İtaliya, Qazaxıstan, Qırğızıstan və Tacikistan respublikalarından 50-yə yaxın xarici qonaq iştirak etmişdir. Geniş və maraqlı elmi müzakirələrin aparıldığı I "Bakı Forum-Konfransı"nın yekununda bir daha üzv ölkələrin bir-sıra sahələrdə birgə tədqiqatların aparılmasını, əməkdaşlıq əlaqələrinin istər bərpası, istərsə də yenilərinin qurulmasının əhəmiyyəti, həmçinin gənc alimlər və tədqqiatçılara yer ayrılması, onların öz potensiallarının üzə çıxarılmasına şərait yaradılmış olması xüsusilə vurğulanmış, bu kimi işlərin gənclərin inkişafında xüsusi həvəsləndirici rola malik olmasına görə daha da genişləndirilməsi tövsiyyə olunmuşdur. Tədbirdə həmçinin ən yaxşı təqdimat, yaxşı təşkilatçılığına və fəal iştiraklarına görə müxtəlif nominasiyalar üzrə qaliblərə mükafatlar təqdim olunmuşdur.

İnstitutun 50 illik yubileyi münasibətilə II "Bakı Forum-Konfrası"nın 2014-cü ilin 1-3 oktyabr tarixlərində ölkəmizdə keçirilməsi qərara alınmışdır və bu istiqamətdə müvafiq işlərin görülməsinə başlanılmışdır.

2013-cü ilin 6 dekabr tarixində Bakıda keçirilməsi planlaşdırılan İƏT-in "İqtisadiyyat" Jurnalının 2-ci iclası isə qurumda maliyyə çatışmamazlığı səbəbiylə 2014-cü ilin aprel ayına təyin edilmişdir.

2013-cü ildə digər İslam İnkişaf Bankının (IDB) müraciəti ilə institutun və İslam Ölkələrinin Statistika, İqtisadiyyat və Sosial Tədqiqatlar və Təlim Mərkəzinin (SESRIC) birgə təşkilatçılığı ilə 12-14 noyabr tarixlərində "Çoxtərəfli ticarət sistemi və ÜTT" mövzusunda təlim keçirilmişdir. Təlimdə institutun doktorantları və əməkdaşları ilə yanaşı, Bakı Dövlət və Qafqaz universitetlərinin də əməkdaşları da iştirak etmişlər.

Xarici təşkilatlarla iş. 2013-cü ildə Türkiyə Respublikasının Özyeğin Universitetinin müraciəti əsasında 3 iyun tarixində Özyeğin Universitetinin, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin, İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun, Bakı Biznes Tədris Mərkəzinin və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) birgə təşkilatçılığı ilə "Sosial-iqtisadi inkişafda sahibkarlığın rolu: Türkiyə-Azərbaycan təcrübəsi" mövzusunda beynəlxalq praktiki konfrans keçirilmişdir. 200-ə yaxın nümayəndənin iştirakı ilə təşkil edilmiş konfransda məqsəd sahibkarlığın inkişaf etdirilməsində Türkiyə təcrübəsinin öyrənilməsindən və bu sahədə Azərbaycandakı təşkilatlarla əməkdaşlıq imkanlarının müzakirə edilməsindən ibarət olmuşdur. Konfransda həmçinin "Virtual Birja" online müsabiqəsinin qalibləri də müklafatlandırılmışlar. "Virtual Birja" online müsabiqəsi ATİG (Advised Trading İnvestment Group) Qiymətli Kağızlar təşkilatının və Özyeğin Universitetinin birgə əməkdaşlığı ilə internet üzərində (online rejimdə) 8 aprel – 6 may tarixlərində keçirilmişdir, müsabiqədə Azərbaycandan 166 tələbə iştirak etmişdir. Qaliblərə (Təbriz Məmmədli (Qafqaz Universiteti), Ayxan Hüseynli və Tural Rüstəmov (Azərbaycan Dövlət Aqrar Universiteti)) mükafatları Universitetin rektoru Erhan Erkut və ATİG İdarə Heyətinin sədri Mustafa Özen təqdim etmişlər. Özyeğin Universiteti Hüsnü M.Özyeğin Vakfı tərəfindən təsis edilmişdir. 5 fakultəsi və 18 ali təhsil proqramı ilə 127 min kvadrat metrlik sahə ilə Çekmeköydə yerləşən Universitetdə 20-dən çox Azərbaycanlı tələbə təhsil alır.

"Ölkə turu: Azərbaycan" ("Country Tour: Azerbaijan") mövzusunda görüş isə ABŞ-ın Brandies Universitetinin müraciəti əsasında 4 iyun tarixində təşkil edilmişdir. Tədbir professor Can Erbilin rəhbərliyi ilə adı çəkilən Universitetin 26 MBA (Master Business Administaration) magistr tələbələrinin iştirakı ilə təşkil edilmişdir. Bununla yanaşı Universitetin müraciətinin təmin edilməsi məqsədilə xarici qonaq tələbələrin Azərbaycan Diplomatik Akademiyası, Milli Bankın Tədqiqat Mərkəzi, "Azərsun" holding, Qafqaz Universiteti, Azərbaycan-Türkiyə İş Adamları Birliyi (ATİB), Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO), Azərbaycan Türk Sənayeçi və İşadamları Beynəlxalq Cəmiyyəti (TUSİAB) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) ilə görüşlərin keçirilməsinə köməklik göstərilmişdir. Görüşlərdə tələbələrə ölkəmiz, onun müstəqillikdən bu günədək keçmiş olduğu inkişaf yolu haqqında ətraflı məlumat verilmiş, ölkəmiz haqında onları maraqlandıran suallar cavablandırılmışdır.

2013-cü ildə uğurla davam etdirilən əməkdaşlıqlardan biri də Türkiyə Respublikası Baş Bakanlığının Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TIKA) ilə olan əməkdaşlıqdır.

Qurumla əməkdaşlıq çərçivəsində institutda "İnnovasiya və Təlim Mərkəzi"nin qurulması layihəsi başa çatdırılmışdır.

Kadr hazırlığında və innovativ elmi-texniki imkanaların genişləndirilməsində müasir texnoloji vasitələrdən istifadə edilməsi məqsədilə qurulan Mərkəz "LifeSize" avadanlığı vasitəsilə video-əlaqə (telemost); "Smart Lövhə" ("Ağıllı Lövhə") vasitəsilə təlimlərin intellektual idarəolunması; təlimdən sonra vəsaitlərin elektronlaşdırılması; istifadəçilərin hər birinin çap vasitələrindən faydalanma imkanları ilə təchiz olunmuşdur. Mərkəzin qurulmasında TİKA tərəfindən avadanlıqların alınması, institut tərəfindən otaqların ayrılması, təmiri, zəruri gücdə internetə çıxış və informasiya texnologiyaları avadanlıqları ilə təmin olunması həyata keçirilmişdir. Bu işdə institut tərəfindən öhdəliklərin həyata keçirilməsində İstehlak Bazarına Nəzarət və Antiinhisar Siyasəti Dövlət Xidməti də köməklik göstərmişdir.

İstifadəsinə başlanılmış Mərkəzin aktiv iştirakçı tutumu 35, qeyri-aktiv iştirakçı tutumu isə 80-100 nəfərdir.

İctimaiyyətlə əlaqələr. Veb səhifənin idarə olunması. İnstitutun fəaliyyəti haqqında geniş ictimaiyyətin məlumatlandırılması və müsbət imicin formalaşdırılması məqsədilə hesabat ili ərzində veb səhifəsi vasitəsilə davam etdirilmişdir. Əvvəlki illərdə olduğu kimi məlumatların işıqlandırılması azərbaycan və ingilis dillərində olmaqla iki dildə aparılmışdır.

2013-cü il ərzində sayta istər oxucular, istərsə də xəbər (yayım) agentlikləri tərəfindən marağın artımı və sayt vasitəsilə yayımlanan xəbərlərə istinadların sayının artımı müşahidə olunmaqda davam etmişdir. Ümumilikdə hesabat ili ərzində veb səhifədə 58-i press-reliz, 14-ü elan və 6-sı məlumat olmaqla müxtəlif məzmunlu 78 xəbər mətni yerləşdirilmişdir.

Kütləvi İnformasiya Vasitələrində işıqlandırılma. İnstitutda görülən işlərin müxtəlif mətbu orqanlarda işıqlandırılması hesabat ilində davam etdirilmişdir. Belə ki, V.Vəliyev "Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar dərin elmi əsaslara malikdir" və Ə.Nuriyev, V.Vəliyev "Görkəmli dövlət xadimi, qayğıkeş insan" adlı məqalələr "Xalq qəzeti"nin 15 aprel və 26 sentyabr tarixlərində yayımlanmışdır. Bununla yanaşı institutun təşkilatçılığı ilə keçirilmiş müxtəlif tədbirlərin işıqlandırılması "Respublika", "Azərbaycan", "Palitra" qəzetlərinin ayrı-ayrı saylarında davam etdirilmişdir.

Layihələrin idarə olunması. 2013-cü ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 252s nömrəli 2013-cü il 12 sentyabr tarixli Sərəncamına əsasən "Dövlət büdcəsinin "İqtisadi islahatların həyata keçirilməsi ilə bağlı xərclər" maddəsində nəzərdə tutulan vəsait hesabına "Azərbaycan Respublikasında çoxölçülü meyarlar əsasında yoxsulluq indeksinin qiymətləndirilməsi", "Kənd təsərrüfatında subsidiyalaşdırma sahəsində mövcud vəziyyətin təhlili və mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla, bu prosesin təkmilləşdirilməsi üzrə tövsiyələrin hazırlanması" və "Ekoloji təmiz kənd təsərrüfatının inkişaf etdirilməsi sahəsində mütərəqqi beynəlxalq təcrübənin öyrənilməsi və inkişaf planının hazırlanması" mövzusularında tədqiqat işləri həyata keçirilmişdir.

Elmi və elmi-texniki tədbirlər. 2013-cü ildə kadr potensialının gücləndirilməsi məqsədilə müxtəlif elmi və elmi-texniki tədbirlərin təşkil edilməsi davam etdirilmişdir.

İnstitutun təşkilatçılığı ilə xarici məruzəçilərlə 7 seminar, 2 dəyirmi masa, 2 beynəlxalq konfrans, 1 Forum, beynəlxalq əməkdaşlıq çərçivəsində 1 təlim və xarici tələbələrlə görüş təşkil edilmişdir.

Eləcə də institutda təhsil alan doktorantlar üçün "Makroiqtisadiyyat", "Mikroiqtisadiyyat" və "İnnovasiya" fənləri üzrə dərslər tədris edilmişdir. Həmçinin Bakı




Dövlət, Azərbaycan Dövlət İqtisad, Qafqaz, Azərbaycan İctimai Siyasi və Bakı Slavyan universitetlərindən, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik və Milli Aviasiya akademiyaslarından 88 nəfər tələbə istehsalat təcrübəsində iştirak etmişlər.

2013-cü ildə institutun əməkdaşları Nazirliyin, tabelikdə olan və olmayan digər qurumlar tərəfindən təşkil edilmiş 30-dan çox müxtəlif təlim, konfrans və tədbirlərdə iştirak etmişlər.

***Nəşr fəaliyyəti***. İqtisadi Əməkdaşlıq Təşkilatının "İqtisadiyyat" Jurnalı. 2013-cü ildə İƏT-in "İqtisadiyyat" Jurnalının fəaliyyətinin davam etdirilməsi istiqamətində fəaliyyət davam etdirilmişdir. İlk iclası 8 noyabr 2012-ci il tarixində bakıda keçirilən Jurnalın Redaksiya Heyətinin üzvlərinin (Türkmənistan istisna olmaqla) məqalələri toplanmış və mütəxəssislərə rəyə təqdim olunmuşdur. Jurnalın fəaliyyətinin yenilənmiş qaydalarına uyğun olaraq, rəylər əsasında Jurnalın ilk nömrəsinin elektron variantda hazırlanmışdır.

Redaksiya Heyətinin 6 dekabr 2013-cü il tarixində Bakıda keçirilməsi planlaşdırılmış 2-ci iclası üzrə müvafiq hazırlıq işlərinin aparılmasına baxmayaraq, qurumda maliyyə çatışmamazlığı səbəbindən iclas təxirə salınmış və 2014-cü ilin aprel ayında keçirilməsi qərarlaşdırılmışdır. İclasda Jurnalın ilk sayının müzakirə edilməsi, Jurnalın fəaliyyət istiqamətlərinin, fəaliyyət üzrə yeni qaydaların, rəylərin toplanması mexanizmləri kimi məsələlərin müzakirə edilməsi nəzərdə tutulur.

Cip kitabçaları və metodiki vəsaitlərin hazırlanması. Kitabxana şöbəsi tərəfindən 2013-cü ildə institutun fəaliyyətinə uyğun olaraq, sahibkarların və geniş ictimaiyyətin maarifləndirilməsi istiqamətində A.H.Tağıyevin müəllifliyi ilə "Müəssisələrin inkişafında françayzinq dəstəyindən necə istifadə etməli? (müəssisə menecerləri üçün)", "Müəssisələrin rəqabətlilik qabiliyyətini necə yüksəltməli?" və "İnnovasiya: sual-cavabda" adlı 3 cib-kitabçası redaktə və korrektə olunaraq nəşrə hazırlanmışdır.

Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) dəstəyi ilə "Azərbaycanda ekoloji təmiz kənd təsərrüfatının inkişaf etdirilməsi sahəsində Türkiyə təc rübəsinin öyrənilməsi və qurumlar arasında əməkdaş lığın gücləndirilməsi" mövzusunda həyata keçirilən la yihə əsasında, Həzi Eynalov, Mehmet Ali Yetkin və Aral Davudovun müəllifliyi, "Göyərçin" jurnalının baş redak toru, professor Rafiq Əliyevin redaktorluğu ilə "Gələcək nəsillər üçün ekoloji təmiz kənd təsərrüfatı" kitabı nəşr edilmiş, Milli Aviasiya Akademiyası ilə birlikdə hazırlan mış "Logistika terminlərinin izahlı lüğəti" çapa təqdim edilmişdir.

qiyabi, 2 nəfəri 3-ci kurs əyani, 10 nəfəri 3-ci kurs qiyabi olmaqla, 24 doktorant və 22 dissertant, elmlər doktoru proqramı üzrə isə 7 dissertant təhsil alırdı. 2013-cü il 30 dekabr tarixindən fəlsəfə doktoru proqramı üzrə təhsil dissertantlardan 5 nəfəri təhsil müddətinin sona çatması ilə əlaqədar olaraq doktoranturadan xaric edilmişdir.

2013-cü ildə institutun doktorant və dissertantlarından 5 nəfəri dissertasiya işlərini ilkin variantda bitirərək təqdim etmiş, onların namizədlik dissertasiyası ilkin müzakirədən müvəffəqiyyətlə keçmiş və müvafiq Dissertasiya Şuralarına təqdim olunmaları haqda qərar qəbul edilmişdir. Eyni zamanda, İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitut tərəfindən aparıcı təşkilat kimi 14 namizədlik və 1 doktorluq dissertasiya işlərinin müzakirəsi təşkil edilmiş, onlara müvafiq rəylər verilmişdir. Bir sıra dissertasiya işlərinin avtoreferatlarına, dissertasiya işlərinin əsas müddəalarını özündə əks etdirən təhriri-məruzələrə institutun əməkdaşları tərəfindən müvafiq rəylərin verilməsi təmin olunmuşdur.

2013-cü ildə institutun kitabxana fondu yeni elmi ədəbiyyatlarla zənginləşdirilmişdir.

2013-cü ildə elmi-redaksiya heyətinin sədri i.e.d., professor Vilayət Məmməd oğlu Vəliyevin rəhbərliyi ilə institutun "Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri" adlı elmi əsərlər toplusunun 22 ç.v. həcmində XIII buraxılışı çap edilmişdir.



AZƏRBAYCAN RESPUBLİKASI
İQTİSADİ İNKİŞAF NAZİRLİYİ

İQTİSADİ İSLAHATLAR ELMİ-TƏDQİQAT İNSTİTUTU

AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU
XIII BURAXILIŞ

BAKI-2013

Azərbaycan Respublikası
İqtisadi İnkişaf Nazirliyi
İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun
Elmi Şurasının qərarı əsasında çap olunur

Elmi-redaksiya heyəti:
V.M. Vəliyev (sədr)
Ə.C. Muradov
O.İ. İbrahimov
R.N. Hüseynəliyev
V.Ə. Rüstəmov
Ə.M. Babaşov
S.Z. Abbasəliyeva (məsul katib)
T.Ş. Salıfova (korrektor)

**Azərbaycan Respublikasında iqtisadi inkişafın xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu, XIII buraxılış.
Bakı, 2013, 354 səh.**

İSBN 9953-55-025-1

İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu, 2013



MÜNDƏRİCAT-2013 (№13)

Vilayət VƏLİYEV, i.e.d., prof., Aral DAVUDOV, İİETİ-nin doktorantı, Aynurə İSMAYILOVA, İİETİ-nin dissertantı
Ekoloji təmiz kənd təsərrüfatının inkişaf etdirilməsi sahəsində mütərəqqi beynəlxalq təcrübənin öyrənilməsi və inkişaf planının hazırlanması.....7

Mətanət RƏSULOVA, i.e.n., Aysel İMANOVA, İİETİ-nin baş mütəxəssisi, Əminə YAQUBLU, İİETİ-nin baş mütəxəssisi, Ülviyyə İBRAHİMLİ, İİETİ-nin böyük elmi işçi
İqtisadiyyatın müxtəlif sahələrində vergi güzəştlərinin tətbiqinin səmərəliliyinin qiymətləndirilməsinə dair tövsiyələrin hazırlanması.....40

Vilayət VƏLİYEV, i.e.d., prof., Fərhad MİKAYILOV, i.f.d., Emil QASIMOV, i.f.d.
Azərbaycan Respublikasında sənayenin inkişafının müasir vəziyyətinin təhlili.....59

Rəfət HÜSEYNƏLİYEV, i.e.n., Vaqif RÜSTƏMOV, i.e.n., Malik MEHDİYEV, İİETİ-nin aparıcı elmi işçisi, Nərminə İSMAYILOVA, İİETİ-nin dissertantı, Rauf MUSAYEV, İİETİ-nin baş mütəxəssisi
Kənd təsərrüfatında subsidiyalaşdırma və mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla onun təkmilləşdirilməsi.....92



Samirə ABASOVA, i.e.n., dos.
Azərbaycan sənayesinin innovasiya yönümlü inkişafında ümummilli lider Heydər Əliyevin rolu.....137

Həzi EYNALOV, i.e.n., İİETİ-nin baş elmi işçisi, Aral DAVUDOV, İİETİ-nin doktorantı
Ekoloji təmiz kənd təsərrüfatı məhsullarının ixrac imkanlarının artırılaraq hədəf ölkə bazarlarının müəyyən edilməsi və regionlar üzrə ixtisaslaşma səviyyəsinə uyğun olaraq potensial "EKO" məhsullar.....169

Fərhad MİKAYILOV, i.f.d.
Azərbaycan Respublikası üzrə çoxölçülü faktorlar əsasında yoxsulluq indeksi və onun alt qrup göstəricilərinin təhlili.....196

Samirə ABASOVA, i.e.n., dos.
Azərbaycanın rəqabətqabiliyyətli məhsullarının beynəlxalq bazarlara çıxışını təmin etmək üçün dövlətin əsas tənzimləyici funksiyalarından istifadə etmə yolları.....229

Nərminə İSMAYILOVA, İİETİ-nin dissertantı
Ukraynada sənaye parklarının inkişaf perspektivləri haqqında.....247



Elxan İMANOV, İİETİ-nin aparıcı elmi işçisi, Kamil BƏŞİRLİ, İİETİ-nin mütəxəssisi
Azərbaycan Respublikasının ali təhsilində aparılan islahatlar.....256

Aygün İSAYEVA, İİETİ-nin böyük elmi işçisi
Ekoloji təmiz kənd təsərrüfatı: torpaqlar və kimyəvi analizi.....267

Nərminə İSMAYILOVA, İİETİ-nin dissertantı
Sahibkarlığın inkişafında xüsusi iqtisadi zonaların rolu.....289

Elxan MİKAYILOV, İİETİ-nin doktorantı
Azərbaycanda beynəlxalq standartların yerli müəssisələr tərəfindən tətbiqi problemləri.....300

Heybət İMANOV, İİETİ-nin dissertantı
Aztəminatlı ailələrin sosial-demoqrafik profilinin təhlilinin metodoloji aspektləri (ünvanlı sosial yardım benefisiarlarının timsalında).....318

Vəfa PİRİYEVA, İİETİ-nin böyük elmi işçisi
Xüsusi İqtisadi Zonaların təşkilinin iqtisadi-coğrafi xüsusiyyətləri.....342

2014-cü ildə Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun fəaliyyətinin müasir tələblər səviyyəsində yenidən qurulması istqamətində tədbirlər davam etdirilmişdir. Belə ki, ilin əvvəlində institutun Elmi Tədqiqat İş Planı İqtisadiyyat və Sənaye Nazirliyinin fəaliyyət istiqamətlərinə uyğun tərtib edilmiş, müvafiq şöbələr və struktur bölmələri ilə razılaşdırılmaqla cənab nazir tərəfindən təsdiq olunmuşdur. İlin əvvəlindən etibarən institutun Elmi Tədqiqat işləri qeyd olunan plana uyğun təşkil edilmişdir.

Elmi Tədqiqat İş Planı elmi-tədqiqat işləri, xarici əlaqələr, görüşlər, ezamiyyələr, kadr potensialının gücləndirilməsi, elmi və elmi-texniki tədbirlərin təşkili, ictimaiyyətlə əlaqələr, nəşr fəaliyyəti, elmi katiblik işləri istiqamətləri üzrə müəyyənləşdirmişdir. 2014-cü ilin yanvar-iyun aylarında İş Planından əlavə bir sıra Dövlət Proqramları üzrə institutun icraçı olduğu tədbirlər yerinə yetirilmişdir. 2014-cü ildə İş Planı üzrə nəzərdə tutulmuş aşağıdakı istiqamətlərdə və mövzularda elmi-tədqiqat işləri yerinə yetirilmişdir:

***Problem: Vahid platformada Azərbaycan Respublikasının Ümumi Tarazlıq Modelinin işlənməsi.***

İstehlak bazarında baş verən kəmiyyət və keyfiyyət dəyişiklərinin təhlili mövzusu üzrə tədqiqat işində 2009-cu ildən başlayaraq Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti tərəfindən Bakı şəhərinin 9 rayonunun və 7 iqtisadi rayonun müxtəlif bazarlarında 132 adda məhsul, başqa sözlə, ərzaq məhsulları, tərəvəz, meyvə və giləmeyvələr və tikinti materialları daxil olmaqla 3 qrup məhsullar üzrə aparılan monitorinqlərin nəticələri müvafiq ilin baza dövrünə əsasən təhlil olunaraq qiymətlərdəki dəyişmələr və onların səbəbləri müəyyənləşdirilmişdir. Müvafiq aylar üzrə tərtib olunan hesabatlar mütəmadi olaraq Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti orqanına təqdim olunmuşdur. Təhlilin nəticələri istehlak bazarında qiymətlərin dinamikasını izləməyəvə müvafiq istiqamətdə siyasətə dair təklif və tövsiyələr hazırlamağa imkan vermişdir (məsul icraçı: A.S.Süleymanov; icraçılar: A.Ş.İmanova, E.İ.Qədirov, Ə.C.Yaqublu, S.X.Xankişiyev).

Azərbaycan Respublikası üçün qısamüddətli makroekonometrik modelin qurulması mövzusu üzrə tədqiqat işində Azərbaycan iqtisadiyyatı üçün qısamüddətli makroekonometrik modelin əhatə edəcəyi sektorlar üzrə nəzəri əsaslar öyrənilmiş və 2000-2013-cü illər üçün rüblük statistik məlumat bazası formalaşdırılmışdır (məsul icraçılar: i.e.d. V.M. Vəliyev, i.e.n. M.R.Rəsulova; icraçılar: A.O.Həsənova, Ü.İ.İbrahimli, Ə.C.Yaqublu).

Mövcud makroiqtisadi proqnozlaşdırma metodunun və Nazirlikdə istifadə olunan modellərin qiymətləndirilməsi və təkmilləşdirilməsinə dair təkliflərin verilməsi mövzusu üzrə tədqiqat işində Azərbaycanda qısa, orta və uzunmüddətli dövrlər üzrə proqnozların hazırlanması üçün istifadə olunan mövcud modellər haqqında zəruri məlu matlar toplanmış, bu modellər təsnifləşdirilmiş, təhlil olunmuş və onların üstünlükləri və məhdudiyyətləri qiymətləndirilmişdir. Bu qiymətləndirmənin nəticələrinə istinad edilərək hazırda istifadə olunan makroiqtisadi proqnozlaşdırma metodunun və modellərinin təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmiş, həmçinin yeni vəzifə və məqsədlərə müvafiq olaraq görüləcək işlər də nəzərə alınmaqla, yeni modellərin yaradılmasının vacibliyi əsaslandırılmışdır. Eyni zamanda, Azərbaycanda qısa, orta və uzunmüddətli proqnozlaşdırma modellərinin yenilənməsi, kadr potensialının gücləndirilməsi və statistik bazanın formalaşdırılması üzrə təkliflər hazırlanmışdır (məsul icraçı: i.e.d. V.M. Vəliyev; icraçılar: i.e.n. M.R.Rəsulova, i.e.n. V.Ə.Rüstəmov, i.e.n. A.D.Hüseynova, M.M.Mehdiyev).

Ümumi Tarazlıq Modelinin qurulması istiqamətində işlərin başa çatdırılması mövzusu üzrə tədqiqat işində 2011-ci ildə məhsul və xidmətlərin istehsalı və bölüşdürülməsinin sahələrarası balansının Statistika Komitəsinin 2014-cü il 16 aprel tarixli kollegiyasının 12/3 №-li qərarı ilə təsdiq olunmuş yeni təsnifata uyğun olaraq tərtib olunması və öz növbəsində, Milli Hesablar Sistemində (MHS) bir sıra dəyişikliklər aparılması (belə ki, yeni təsnifata uyğun olaraq iqtisadi fəaliyyət növləri 19 sahə üzrə qruplaşdırılır) ilə əlaqədar olaraq 2006-cı il üzrə Sosial Hesablar Matrisində ayrıca göstərilən Maliyyə vasitəçilərinin şərti hesablanmış xidmət haqları (MVŞHXH) hesabının 2011-ci il üçün qurulan Sosial Hesablar Matrisində ləğv olunaraq sahələr üzrə paylanılması həyata keçirilmişdir. Qeyd olunanlar nəzərə alınaraq Ümumi Tarazlıq Modelinin(AZMOD) məlumat bazası olan Sosial Hesablar Matrisi tam olaraq yenilənmiş, bu bazaya uyğun olaraq proqram təminatı hazır lanmışdır.

Tərtib olunan yeni Sosial Hesablar Matrisi "AzMod" modelinin məlumat bazasının yenilənməsi məqsədilə EcoMod şirkətinə təqdim olunmuşdur. Hal-hazırda interfeysin

hazırlanması istiqamətində işlər davam etdirilir (məsul icraçı: M.M.Mehdiyev; icraçılar: A.S.Süleymanov, R.R.Musayev, E.E.Ələkbərov, E.H.Bağırova).

Ümumi Tarazlıq Modelindən istifadə etməklə uzunmüddətli dövr üzrə iqtisadi hədəflərə nail olma səviyyəsinin müəyyənləşdirilməsi mövzusu adlı tədqiqat işində aşağıdakı məsələlər araşdırılmışdır: Ümumi Tarazlıq Modelindən istifadə etməklə uzunmüddətli dövr üzrə iqtisadi hədəflərə nail olma səviyyəsinin (o cümlədən uzun müddətli siyasət planında siyasətin əhatə etdiyi bütün subyektlərin rolunun və onların verdiyi töhfələrin) müəyyənləşdirilməsinin metodiki məsələləri; uzunmüddətli və strateji proqnozlaşdırma və qiymətləndirmə alətləri və üsullarının, həmçinin müxtəlif ssenarilərin seçilməsi qaydaları; "AZMOD" ümumi tarazlıq modeli əsasında iqtisadi ssenarinin hazırlanması (müvafiq olaraq elmi və nəzəri baza araşdırılmış və "AZMOD"la müvafiq simulyasiyaların aparılması üçün ssenarilər hazırlanmışdır). Lakin "AZMOD" ümumi tarazlıq modelinin yeni versiyada hazırlıq işlərinin başa çatması ilə əlaqədar olaraq adı çəkilən işin görülməsinə ayrılmış vaxtın kifayət etməməsi səbəbindən işin yekunlaşdırılması 2015-ci ilə qədər təxirə salınmışdır (məsul icraçı: M.M.Mehdiyev; icraçılar: A.S.Süleymanov, R.R.Musayev, E.E.Ələkbərov, E.H.Bağırova).

Regionlar üzrə sahələrarası balans modelinin hazırlanması (iqtisadi rayonlar üzrə) mövzusu üzrə tədqiqat işində 2013-cü ildə institutda Bakı şəhəri və ölkənin 10 iqtisadi rayonu üzrə 6 əsas sahə: sənaye, kənd təsərrüfatı və digər sahələr kəsi mində regionların sahələrarası balansı eksperimental qaydada hazırlanmışdır. Gələcəkdə bu balansların daha təfərrüatlı hazırlanması planlaşdırılır. Eksperimental formada hazırlanmasına baxmayaraq, balanslar bir sıra mühüm iqtisadi mühakimələr yürütməyə əsaslar verir. Balans hazırlanarkən texnoloji əmsallar və əlavə dəyər normalarının sabit olması fərz edilmişdir. Eyni zamanda, son istehlak və yığım üzrə göstəricilər ölkə üzrə orta göstəricilər əsasında hesablanmışdır. Balansların tərtibi nəticəsində müəyyən edilmişdir ki, Bakı şəhəri də istisna olmaqla, digər regionlarda yaradılan əlavə dəyər həmin regionlardakı son istehlak xərclərindən xeyli azdır. Həmçinin regiona idxal olunan məhsulların miqdarı regiondan ixrac olunan məhsulların miqdarından xeyli çoxdur. Balansın hazırlanması, həm də regionlar üzrə əmək və kapital qoyuluşu balanslarının da eksperimental formada hazırlanmasına da şərait yaradır ki, bu da regional səviyyədə iş yerlərinin açılması və investisiya məsələlərinin həllində istifadə oluna bilər.

İqtisadi rayonlar üzrə sahələrarası balansın hazırlanması Azərbaycanda Regionların Sosial-İqtisadi İnkişafı üzrə Dövlət Proqramının daha dolğun koordinasiyasına xeyli kömək edə bilər.

Gələcəkdə sahələrarası balans modellərinin tətbiq imkanlarından geniş istifadə edilməsi zamanı kadrlara yaranacaq böyük ehtiyacın ödənilməsi məqsədilə, institutun əməkdaşlarından bir qrupu tədqiqat çərçivəsində bu sahədə təcrübə əldə etmişlər. Bu kadrların potensialından regional məsələlərin qoyuluşu və həllində istifadə edilə bilər. (məsul icraçı: M.M.Mehdiyev; icraçılar: A.S.Süleymanov, R.R.Musayev, E.E.Ələkbərov, E.H.Bağırova).

Avropa ölkələrində böhrandan sonra gözlənilən vəziyyətə dair yanaşmaların təhlili və Azərbaycan iqtisadiyyatına ortamüddətli təsirin qiymətləndirilməsi mövzusu üzrə tədqiqat işində mövcud nəzəri yanaşmaların, elmi-təcrübi materialların və dünyada əvvəllər baş vermiş böhranların yaranma səbəbləri, təzahür xüsusiyyətləri və nəticələrinin təhlili əsasında Avropa ölkələrində meydana gəlmiş böhranın səbəbləri, təzahürləri, gedişatı və nəticələri təhlil olunmuş və ümumiləşdirilmiş, Avropa ölkələrində böhranın digər ölkələrə qısamüddətli, ortamüddətli və uzunmüddətli dövrlərdə mümkün təsir (transmissiya) kanalları və bu təsirlərin

qiymətləndirilməsinin metodoloji məsələləri araşdırılmış və konkretləşdirilmiş, Avropa ölkələrində böhranın qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində qəbul edilən qərarlar, aparılan işlər və həyata keçirilən tədbirlər (beynəlxalq, regional və ölkələr səviyyələrində) araşdırılmış və ümumiləşdirilmiş, Avropa ölkələrində böhrandan sonra gözlənilən vəziyyətə dair yanaşmalar təhlil olunmuş və qiymətləndirilmiş, Avropa ölkələrində böhranın Azərbaycana təsir imkanları tədqiq olunmuş və ortamüddətli dövrdə bu təsirin qiymətləndirilməsi aparılmışdır. Tədqiqatın nəticələrinə əsaslanaraq, müvafiq istiqamətdə siyasətə dair təklif və tövsiyələr hazırlanmışdır (məsul icraçı: V.Ə.Rüs təmov; icraçılar: E.V.Əliyev, E.Ə.Mikayılov).

***Problem. Xarici ticarət və ölkənin beynəlxalq rəqabətqabiliyyətliliyinin artırılması***: Xarici ticarət və əmək bazarı arasında əlaqələrin araşdırılması mövzusu üzrə tədqiqat işində beynəlxalq ticarət nəzəriyyələri: müqayisəli üstünlüklər nəzəriyyəsi və ona müasir baxışlar (Hekşer-Olin, Leontyev nəzəriyyələri), beynəlxalq ticarətlə əmək bazarı arasında qarşılıqlı əlaqələrin nəzəri əsasları və əsas yanaşmalar öyrənilmiş, ölkə üçün hansı istehsal amilinin müqayisəli üstünlük mənbəyi olmasını müəyyən ləşdirmək məqsədilə mövcud statistika əsasında amil tutumu modeli hesablanmışdır. Tədqiqatda qabaqcıl qərb ölkələrinin təcrübəsinə uyğun olaraq, amil tutumu modeli və son illərin göstəriciləri əsasında Azərbaycan və ona texnoloji oxşar bir neçə ölkə üçün əməyin hansı növlərinin üstünlük təşkil etdiyi ixrac sahələrinin müəyyənləşdirilməsi nəzərdə tutulmuşdur. Tədqiqat növbəti ildə davam etdiriləcəkdir (məsul icraçı: i.e.n. M.R.Rəsulova; icraçı: A.Ş.İmanova, Ə.C.Yaqublu).

Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrinin təhlili mövzusu üzrə tədqiqat işində Azərbaycanın beynəlxalq iqtisadi inteqrasiya əlaqələrinin təhlilinin aparılması məqsədilə dünya təcrübəsində mövcud nəzəri metodoloji əsaslar öyrənilmiş və 1995 2013-cü illər üzrə ölkənin tədiyyə balansının maddələrində əks olunan göstəricilər rüblük statistik məlumatlar üzrə toplanılmış və sistemləşdirilmişdir (məsul icraçı: i.e.n. M.R.Rəsulova; icraçı: Ü.İ.İbrahimli).

Azərbaycanın milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması üzrə nəzəri-metodoloji əsasların işlənilməsi mövzusu üzrə tədqiqat işində milli standartlaşdırma sisteminin nəzəri metodoloji əsasları haqqında ilkin araşdırmalar aparılmış və standartlaşdırmanın iqtisadiyyata təsiri, milli standartlaşdırma sisteminə dair beynəlxalq tələblər və həmin tələblərin ölkəmizdə tətbiqi vəziyyəti təhlil edilmişdir. Nəticədə milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasının zəruriliyi əsaslandırılmış və uyğunsuzluğun zərərləri müəyyənləşdirilmişdir (məsul icraçı: i.e.d. Ə.C. Muradov; icraçı: E.Ə.Mikayılov).

Qeyri-neft sektorunun ixrac potensialının artırılmasına təsir edən amillərin seçilməsi mövzusu üzrə tədqiqat işində beynəlxalq təcrübə öyrənilmiş, Azərbaycanın digər ölkələrlə ixrac əlaqələri nəzərdən keçirilmiş və resursla zəngin ölkələrin təcrübəsində iqtisadiyyatın diversifikasiyası təcrübəsinə baxılmış, beynəlxalq ekspertlərin bu sahədə tədqiqatları araşdırılmışdır. Həmçinin tədqiqat işi çərçivəsində qeyri-neft ixracına təsir edən faktorlar öyrənilmiş, onların qruplaşması aparılmışdır. Növbəti mərhələdə qeyri-neft ixracına təsir edən faktorların sinfi təsnifatının verilməsi və üstünlük dərəcələrinin müəyyənləşdirilməsi məqsədilə ekspert rəylərinin öyrənilməsi planlaşdırılır (məsul icraçı: i.e.d. V.M. Vəliyev, icraçı: A.M.İsmayılova).

Azərbaycanın ECO ölkələri ilə əməkdaşlığının prioritet istiqamətlərinin qiymətləndirilməsi mövzusu üzrə tədqiqat işində regional və iqtisadi əməkdaşlığın prioritet

lərinin müəyyənləşdirilməsinin nəzəri-metodoloji əsasları araşdırılmış, bu istiqamətdə aparılmış tədqiqat işləri nəzərdən keçirilmişdir. Regional və iqtisadi təşkilatlar daxi lində müxtəlif əməkdaşlıq fəaliyyətlərinin iqtisadi artıma təsirinin qiymətləndirilməsi ilə bağlı ekonometrik modellərin nəzəri əsaslarına baxılmışdır. "İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT - ECO) Tədqiqat Mərkəzinin fəaliyyət Strategiyasının hazırlanması" layihəsi çərçivəsində Azərbaycanla İƏT arasında mövcud əməkdaşlığın tarixi xronologiyası araşdırılmış, Tədqiqatlar Mərkəzinin yaradılması ideyası ilə bağlı rəsmi yazışmalar və arxiv sənədləri təhlil edilmişdir (eləcə də Mərkəzin Strategiyasının hazırlanması prosesində SWOT təhlilin nəticələrinə istinad olunmuşdur). 2-ci "Bakı Forum-Konfransı" çərçivəsində İƏT Tədqiqat Mərkəzinin təqdimatında iştirak edilmişdir (məsul icraçı: i.e.d. V.M. Vəliyev; icraçı: A.M.İsmayılova, K.Q.Hüseynova).

***Problem. Azərbaycan Respublikasında sosial inkişaf problemlərinin tədqiqi*:**

İnsan potensialının inkişafına yönəldilmiş investisiyaların qiymətləndirilməsi mövzusu üzrə tədqiqat işində insan potensialının inkişafının nəzəri metodoloji aspektləri tədqiq edilərək ümumiləşdirilmiş, müvafiq qiymətləndirmə metodologiyası seçilmişdir. İşdə insan inkişafı indeksinin (İİİ) alt qrup göstəriciləri olan təhsil, elm, səhiyyə, mə dəniyət və rifah səfiyyəsi üzrə müvafiq təhlil və qiymətləndirilmələr aparılmışdır. Eyni zamanda, alt qrup sahələrə yönləndirilmiş investisiyaların həmin sahələrin inkişafına təsir səviyyələrinin təhlili verilmişdir. Qeyd edilən istiqamətlər üzrə insan potensialının inkişafının perspektiv inkişaf istiqamətləri və bu inkişafda investisiyaların rolunun artırılmasına dair müvafiq təklif və tövsiyələr verilmişdir (məsul icraçı: i.f.d. F.Q.Mika yılov; icraçı: E.Məmmədov).

Azərbaycan Respublikasının ali təhsil müəssisələrində adambaşına maliyyələşmə mexanizminin mövcud vəziyyətinin qiymətləndirilməsi və bu mexanizmin təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələrin hazırlanması mövzusu üzrə tədqiqat işinə uyğun olaraq hazırlıq işləri aparılmışdır. Belə ki, Avropa ölkələrində ali təhsilin maliyyələşdirilməsi yollarının öyrənilməsinə dair işlər görülmüş və müvafiq məlumatlar toplanılmışdır. Ali təhsil müəssisələrində xərclərin strukturunu müəyyənləşdirmək üçün müəyyən sorğu anketləri hazırlanmaqdadır. Tədqiqat işinin növbəti ilin birinci yarım ilində başa çatdırılması planlaşdırılmışdır (məsul icraçı: i.f.d. F.Q.Mikayılov; icraçı: E.S.İmanov, E.B.Məmmədov, N.M.Seyidov, D.A.Əhmədov, A.H.Orucova).

Fiziki fəaliyyəti məhdud şəxslərin cəmiyyətə adaptasiyası sahəsində dünya təcrübəsi mövzusu üzrə tədqiqat işində fiziki fəaliyyəti məhdud şəxslərin cəmiyyətə adaptasiyası sahəsində inkişaf etmiş ölkələrin Amerika, İngiltərə, Türkiyə və s. (SODES proqramı çərçivəsində aparılan araşdırmalar və Dünya Əlillər Fondu) təcrübəsi öyrənilmiş, bəzi təklif və tövsiyələr hazırlanmışdır (məsul icraçı: P.T.Hey dərov; icraçı: Ə.Q.Süleymanova, L.S.Xəlilzadə, Ə.C.Yaqublu).

Sığorta-pensiya sisteminin perspektiv inkişafının aktuar hesablama əsasında proqnozlaşdırılması (dünya təcrübəsi) mövzusu üzrə tədqiqat işində sığorta-pensiya sisteminin perspektiv inkişafının aktuar modelləşdirmə əsasında proqnozlaşdırıl manın dünya təcrübəsinə dair Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarət Xidmətinin təşkilatçılığı ilə Azərbaycan Sığortaçılar Assosasiyasında keçirilən Aktuar hesablamalar kursunun vasitəsi ilə Kanada, Qazaxıstan, Türkiyə, Almaniya, ABŞ və Rusiya təcrübəsi üzrə araşdırma aparılmışdır. Bu ölkələrdə istifadə edilən metodlar, onlara məxsus xüsusiyyətlər təhlil edilmişdir. Ödənişlər üzrə proqnozlaşdırma metodlarının üstün cəhətləri əsaslandırılmışdır.

Eyni zamanda, bu plana uyğun olaraq "Sığortada zərər ehtiyatları və aktuar zəncirvari nərdivan metodu", "Ölüm cədvəlləri" və "Actuarial calculation with triangle method of loss reserves" (Zərər ehtiyatlarının üçbucaq metodla aktuar hesablanması) mövzusunda məqalələr dərc olunmuşdur (məsul icraçı: i.e.n. M.R.Rəsulova; icraçı: A.O.Həsənova).

Sosial mənzil fondunun yaradılması və regionlarda sosial mənzillərin tikilməsi sahəsində dünya təcrübəsinin öyrənilməsi, təklif və tövsiyələrin hazırlanması mövzusu üzrə tədqiqat işində sosial mənzillərin tikilməsi sahəsində dünya təcrübəsi araşdırılmış və müvafiq təkliflər verilmişdir (məsul icraçılar: V.A.Abbasov, i.f.d. F.Q.Mikayılov, Ü.P.Piriyeva; icraçılar: H.R.İmanov, E.A.Abbasov, A.Y.Sadıqova, E.Ş.Rüstəmov, E.E.Əkbərov).

***Problem. Azərbaycanda sahibkarlığın və regionların inkişafı məsələlərinin tədqiqi***:

Regional inkişaf mərkəzlərinin fəaliyyətinin qiymətləndirilməsi və nəticələrə əsasən onların genişlənməsinə dair təkliflərin verilməsi mövzusu üzrə tədqiqat işi çərçivəsində Türkiyə təcrübəsi öyrənilmişdir. Hal-hazırda digər ölkələrin də təcrübəsi araşdırılır (məsul icraçı: i.f.d. E.F.Qasımov; icraçılar: N.Ə.Eynullayev, M.M.Osmanov). İqtisadi rayonların pasportunun yenilənməsi mövzusu üzrə tədqiqat işində işlər mütəmadi olaraq davam etdirilir (məsul icraçılar: i.f.d. E.F.Qasımov, N.F.İsmayılova, icraçılar: A.İ.Şabanova, N.A.Quliyeva).

"Azərbaycan təqdimatı" kitabının yenilənməsi mövzusu üzrə tədqiqat işində 2013-cü ilin göstəriciləri əlavə edilərək yenilənmişdir (məsul icraçı: i.f.d. E.F.Qasımov; icraçı: N.A.Quliyeva). Sahibkarların maarifləndirilməsi üçün vəsaitlərin hazırlanmasımövzusu üzrə təd qiqat işində sahibkarların ehtiyaclarına uyğun olaraq, prioritet sahələr üzrə aşağıda adları çəkilən maarifləndirici vəsaitlərin hazırlanması, eyni zamanda mövcud vəsaitlərin təkmilləşdirilməsi işi həyata keçirilmişdir:

- "Logistika: məlumat kitabı";
- "Logistika terminlərinin izahlı lüğəti";
- "Müəssisənin rəqabətqabiliyyətliliyini necə yüksəltməli?";
- "İnnovasiya: sual-cavabda";
- "Müəssisələrin inkişafında françayzinq dəstəyindən necə istifadə etməli? (müəssisə menecerləri üçün)".

Növbəti ildə vəsaitlərin təkmilləşdirilməsi üzrə işlərin başa çatdırılması və kitabçaların nəşrə təqdim olunması planlaşdılır (məsul icraçılar: i.e.n. A.H.Tağıyev, A.M.İsmayılova; icraçılar: K.Q.Hüseynova, İ.S.Salmanova, F.S.İmaməliyeva, F.N.İmamverdiyev). Regionların sosial-iqtisadi inkişaf göstəricilərinin təhlili və inzibati rayonlar üzrə prioritet investisiya istiqamətlərinə dair təkliflərin hazırlanmasımövzusu üzrə tədqiqat işində 2013-cü ilin regional göstəricilərinin rəsmi olaraq nəşr olunmaması səbəbindən baş vermiş dəyişikliklərə əsasən yeni təhlillər aparmaq mümkün olmamışdır. Hal hazırda verilmiş təkliflər isə 2012-ci ilin rəqəmlərinə əsaslanır və regionların pasportunda öz əksini tapmışdır. (məsul icraçılar: i.f.d. E.F.Qasımov, i.e.n. M.R.Rəsulova; icraçılar: A.Q.Davudov, N.F.İsmayılova, A.M.İsmayılova).

Azərbaycan iqtisadiyyatı üzrə prioritet investisiya istiqamətlərinin müəyyənləşdirilməsi (Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin səmərəli yerləşdirilməsinə yardım məqsədilə) mövzusu üzrə tədqiqat işində müvafiq nəzəri-metodoloji əsaslar və mütərəqqi dünya təcrübəsi nəzərə alınmaqla, ölkələrin rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin elmi və praktiki məsələləri öyrənilmiş, ölkənin aşkar və potensial müqayisəli üstünlüklərə malik məhsullarının dəqiqləşdirilməsi aparılmış və bu əsasda prioritet investisiya istiqamətləri

müəyyənləşdirilmişdir (məsul icraçı: i.e.n. V.Ə.Rüstəmov; icraçılar: M.M.Mehdiyev, A.Q.Davudov, Q.F.Mustafayev, N.N.Əhmədov).

***Problem.Qeyri-neft sahələrinin inkişafının qiymətləndirilməsi***:

Ekoloji təmiz kənd təsərrüfatının inkişafı mexanizmlərinin təkmilləşdirilməsi (Quba-Xaçmaz iqtisadi rayonu timsalında) mövzusu üzrə tədqiqat işində ekoloji təmiz kənd təsərrüfatının inkişafının nəzəri aspektləri və inkişaf prioritetlərinin müəyyənləşdirilməsi istiqamətində dünyada mövcud olan yanaşmalar araşdırılmış və bu əsasda Azərbaycan üçün prioritetlər, həmçinin ekoloji təmiz kənd təsərrüfatının inkişaf imkanlarının ilkin qiymətləndirilməsi aparılmışdır. Tədqiqat işində aparılmış qiymətləndirmənin nəticələrindən istifadə olunmaqla ölkədə ekoloji təmiz kənd təsərrüfatının inkişafına dair müasir iqtisadi mexanizmlərin tətbiq edilməsi imkanları müəyyənləşdirilmişdir (məsul icraçı: M.M.Mehdiyev; icraçılar: A.Q.Davudov, Q.F.Mustafayev, N.N.Əhmədov, A.M.İsayeva).

Qeyri-neft sektorunda müqayisəli üstünlüyə malik olan sahələrin (məhsulların) dəstəklənməsi üzrə təkliflərin verilməsi mövzusu üzrə tədqiqat işində mövcud nəzəri yanaşmalar, elmi-təcrübi materiallar və mütərəqqi dünya təcrübəsinin təhlili əsasında müasir dövrdə qeyri-neft sektoru üzrə müqayisəli üstünlüyə malik olan sahələrin (məhsulların) müəyyənləşdirilməsi və onlar üzrə istehsalın və ixracın dəstəklənməsi üzrə nəzəri-metodoloji əsaslar öyrənilmiş və ümumiləşdirilmiş, dünya ticarət statis tikasının "Malların təsviri və kodlaşdırılması üzrə harmonikləşdirilmiş sistemi"nin 6 rəqəmli təsnifat koduna uyğun bütün məhsulları əhatə edən məlumat bazalarından istifadə edilərək, ilk dəfə olaraq, 2001-2013-cü illəri əhatə edən on ildən də artıq bir dövr üçün müxtəlif üsullar əsasında Azərbaycan iqtisadiyyatının aşkar və potensial müqayisəli üstünlüklərinin (bütövlükdə və qeyri-neft sektoru üzrə ayrılıqda) hesab lanması aparılmış və müvafiq illər üzrə bu göstəricilərin dinamik sıraları yaradılmış, illər üzrə təhlil aparılmış və dəyişmə meyilləri qiymətləndirilmiş, aparılmış müqayisəli üstünlük tədqiqatlarının nəticələrinin ölkənin iqtisadi potensialının xüsusiyyətləri və mövcud iqtisadi inkişaf səviyyəsi ilə uyğunluq testi edilmiş və bunun əsasında Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunda müqayisəli üstünlüyə malik olan sahələrinin (məhsulların) siyahısının dəqiqləşdirilməsi aparılmış, qeyri-neft sektorunda müqayisəli üstünlüyə malik olan sahələrin (məhsulların) dəstəklənməsi üzrə mütərəqqi beynəlxalq təcrübələr öyrənilmiş və bunlar nəzərə alınmaqla Azərbaycan üçün müvafiq istiqamətdə siyasətə dair təkliflər və tövsiyələr hazırlanmışdır (məsul icraçılar: i.e.n. V.Ə.Rüstəmov, M.M.Mehdiyev; icraçılar: R.R.Musayev, Q.F.Mustafa yev, N.N.Əhmədov).

Ölkənin qida və digər əsas istehlak malları üzrə idxaldan asılılığının azaldılması üzrə potensial imkanların müəyyənləşdirilməsi mövzusu üzrə tədqiqat işində Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında ərzaq balansları toplanmış və onun əsasında ölkədə əsas ərzaq məhsullarına tələb və təklifin həcmi müəyyənləşdirilmişdir (məsul icraçı: i.e.n. V.Ə. Rüstəmov; icraçı: M.M.Mehdiyev).

2003-2013-cü illər üzrə ölkənin qeyri-neft sektorunun inkişaf dinamikasının təhlili (regional aspektdə) mövzusu üzrə tədqiqat işində ölkənin qeyri-neft sektorunun 2003-2012-ci illər üzrə iqtisadi göstəricilərinin (qeyri-neft sənaye, kənd təsərrüfatı, pərakəndə ticarət dövriyyəsi, tikinti, nəqliyyat, telekommunikasiya və poçt, əhaliyə göstərilmiş pullu xidmətlər, turizm sahələrini əhatə edən) analitik-statistik təhlili aparılaraq ölkənin qeyri-neft sektorunun inkişaf meyilləri müəyyən edilmişdir (məsul icraçı: N.F.İsmayılova).

Azərbaycan Respublikasında sənayenin inkişafının təhlili mövzusu üzrə tədqiqat işində Azərbaycan Respublikasında sənayenin inkişafı (sənayedə əlavə dəyər, əsas fondların həcmi, investisiyaların həcmi, orta aylıq nominal əmək haqqı və s. kimi göstəricilər üzrə) əvvəlki illərlə müqayisədə təhlil edilmiş və qiymətləndirilmişdir. Bu işlə əlaqədar olaraq sənayenin müasir vəziyyətinə dair arayış hazırlanmış və İqtisadiyyat və SənayeNazirliyinə təqdim edilmişdir (məsul icraçı: i.e.d. V.M.Vəliyev: icraçılar: i.f.d. F.Q.Mikayılov, i.f.d. E.F.Qasımov).

Azərbaycan Respublikasında turizm potensialı və onun mövcud vəziyyətinin tədqiqi mövzusu üzrə tədqiqat işində Azərbaycanda turizmin inkişaf meyillərinin tarixi xronikası, eyni zamanda, ölkədə turizm potensialı və onun ərazi üzrə yerləşməsi ətraflı araşdırılmış, onların rekreasiya potensialı geniş təhlil edilmişdir. Həmçinin turizmin iqtisadi inkişafda roluna dair araşdırmalar, təhlili qiymətləndirmələr də bu işdə öz əksini tapmışdır. İşdə Azərbaycan Respublikasında turizm növlərinin perspektiv inki şaf istiqamətləri göstərilmiş, eyni zamanda, təhlil zamanı müəyyənləşdirilmiş problemlərin aradan qaldırılması istiqamətində əsaslandırılmış tövsiyələr irəli sürülmüşdür (məsul icraçı: E.S.İmanov; icraçılar: E.B.Məmmədov, N.M.Seyidov, A.M.İsayeva, E.E.Əkbərov, R.R.Məmmədov).

Yerli mütəxəssislərin innovativ təkliflərinin sənaye sektorunda təşviqinə dair təklif və tövsiyələrin hazırlanması mövzusu üzrə tədqiqat işində aşağıdakı işlər görülmüşdür: yerli mütəxəssislərin innovativ təkliflərinin təşviqi üçün nazirliyin nəzdində yaradılan İnnovasiyaların Təşviqi Qrupunun əsasnaməsinin və tədbirlər planının layihəsi hazır lanmışdır; hazırlanan layihələr razılaşdırılmaq üçün Qrupun nümayəndələrinə göndərilmişdir; innovativ təkliflərin toplanması üzrə formalar hazırlanmışdır; yerli mütəxəssislərin təklif və tövsiyələrinin yığılmasına dair ümumi konsepsiya hazırlanmışdır (məsul icraçı: i.e.n. A.D.Hüseynova; icraçılar: Y.C.Özdəmir, T.M.Əliyeva). Üzüm istehsalı və emalı sahəsində klaster yanaşmasının tədqiqi mövzusu üzrə tədqiqat işində klasterin mahiyyətinə və müvafiq sahədə müxtəlif ölkələrin (Ukrayna, Moldova, Qazaxıstan və Çilinin) təcrübələrinə istinad edilərək aparılmış ekspert qiymətləndirməsi (məlumatın dolayı qiymətləndirilməsi) nəticəsində Azərbaycanın regionlarında üzüm istehsalı və emalı sahəsində klasterin elementləri (subyektləri) aşkar edilmiş, toplanılmış müvafiq statistik göstəricilər təhlil edilmiş və məlumatların tutuşdurulması aparılaraq nəticədə ölkədə Bakı və Gəncə şəhərlərində klaster subyektlərinin hamısının mövcudluğu müəyyən edilmişdir. Lakin Gəncə şəhərində nəticəli göstəricini klaster yanaşması nöqteyi-nəzərindən müsbət fəaliyyət kimi nəzərə alaraq ilkin şərtlərin mövcudluğu təyin edilmişdir. Bundan əlavə, işdə ölkələrin əksəriyyətində tətbiq edilən geniş klaster siyasəti, keyfiyyətli klaster siyasətinin işlənib hazırlanması üçün zəruri olan addımlar, regional klaster siyasətinin hazırlanma və reallaşdırılmasının dörd mərhələsi və klasterlərin inkişafında uğurun açar amillərinə də baxılmışdır. Nəticə etibarı ilə isə digər ölkələrdə tətbiq edilən klaster siyasətinə dair meyarları nəzərə alaraq Azərbaycanda Gəncə şəhərinin timsalında üzüm emalı və istehsalı sahəsində klaster siyasətinin tətbiqi üçün əməkdaşlıq qurumunun (və ya komitənin) yaradılması, regionda işçi qrupunun formalaşdırılması, müştərək cəhdlərin təyin edilməsi, vahid fəaliyyət planının hazırlanması və səmərəliliyin ölçülməsi kimi tədbirləri də ehtiva edən müəyyən ardıcıllığa malik bir plan variantı təklif edilmişdir (məsul icraçı N.F.İsmayılova, icraçılar: A.Q.Davudov, D.C.Hüseynova).

Sənaye parklarının yaradılması məqsədilə regional potensialın tədqiqi mövzusu üzrə tədqiqat işində aparılmış hesablamalar əsasında (məhsulun ümumi buraxı lışında sənaye məhsulunun xüsusi çəkisinin hesablanması vasitəsilə) müəyyən edilmiş ölkənin potensial

regionlarında - Bakı şəhərində, Abşeron iqtisadi rayonu üzrə Abşeron rayonu və Sumqayıt şəhərində, Naxçıvan iqtisadi rayonunda, Gəncə-Qazax iqtisadi rayonu üzrə Gəncə şəhərində, Aran iqtisadi rayonu üzrə Şirvan şəhəri, Mingəçevir şəhəri və İmişli rayonunda - sənaye parkının zəruri rəqabət üstünlüklərinin mövcudluğuna baxılaraq onların yaradılması imkanları tədqiq edilmiş və seçilmiş regionlar üzrə sənaye parkının sahəvi ixtisaslaşmasına dair təkliflər verilmişdir (məsul icraçı: i.e.n. S.H.Abbasova, icraçı: N.F.İsmayılova).

Azərbaycanın iqtisadi inkişafında mühüm əhəmiyyət kəsb edən texnoloji innovasiya məqsədli Texnopark və Kənd Təsərrüfatı Texnoparkının (AQROPARK) qurulması mövzusu üzrə tədqiqat işində aşağıdakı işlər görülmüşdür: İnnovasiya mərkəz lərinin (texnopark, aqropark, sənaye parkları, klasterlər) yaradılmasının nəzəri-metodoloji əsasları işlənilmiş, onların ümumi xüsusiyyətləri tədqiq olunmuş, bu sahədə mütərəqqi dünya təcrübəsi öyrənilmiş və ümumiləşdirilmələr aparılmışdır; bu sahədə terminoloji lüğət hazırlanmışdır; keçən müddət ərzində tədqiqat mövzusu üzrə Azərbaycanda olan Qafqaz Universitetinin texnoparkının və Sumqayıt Kimya Sənaye Parkının fəaliyyəti ilə yaxından tanış olmuş, onların nümayəndələri ilə bir neçə dəfə görüşlər keçirilmiş və hazırda bu işlər davam etdirilir; son illərdə Azərbaycanda innovasiya sahəsində qəbul edilən qanunvericilik, stimullaşdırma tədbirləri və sənaye və texnoloji parkların nümunəvi nizamnamələri, bu sahədə baş verən dəyişikliklər təhlil olunaraq qiymətləndirilmişdir; texnoparkların yaradılma konsepsiyası hazırlanmış; texnoparkların yaradılması və inkişafı üzrə tədbir və alətlər üzrə təklif və tövsiyələrin hazırlanması prosesinə başlanılmışdır (məsul icraçılar: i.e.d. V.M.Vəliyev, i.e.n. A.D.Hüseynova; icraçılar: M.M.Mehdiyev, Y.C.Özdəmir, N.F.İsmayılova).

Qeyri-neft sektorunda prioritet sahələrin müəyyən olunması istiqamətində mütəmadi təhlillərin aparılması mövzusu üzrə tədqiqat işləri iqtisadi rayonların pasportunun yenilənməsi mövzusu çərçivəsində görülən işlərlə birgə həyata keçirilmiş və nəticələr orada əks olunmuşdur (məsul icraçı: E.F.Qasımov; icraçılar: H.M.Məmmədov, Z.Ə.Bədirxanov, Q.F.Mustafayev, N.N.Əhmədov, Y.Ə.Çərkəzov).

***Problem.Enerji və infrastruktur xidmətlərinin sosial-iqtisadi inkişaf göstəricilərinə təsirinin qiymətləndirilməsi***:

Azərbaycanın enerji balansının sahələrarası təhlili mövzusu üzrə tədqiqat işində Sosial Hesablar Matrisi (SHM) əsasında beynəlxalq praktikada geniş istifadə olunan SHM multiplikator modelləri qurulmuşdur. Belə ki, əvvəlcə 19 iqtisadi sahə üzrə tərtib olunan Sahələrarası balansdan "Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı"sahəsi ayrılmış 20 iqtisadi sahə üzrə tərtib olunmuşdur. Görülən iş daha da genişləndirilərək 96 iqtisadi sahə üzrə Sahələrarası balans tərtib edilmişdir və bunun əsasında SHM də 20 və 96 iqtisadi sahə üzrə tərtib olunmuşdur. Eyni za manda SHM multiplikator modelləri də tərtib olunmuşdur. 20 sahə üzrə tərtib olunan multiplikator modelində "Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı" sahəsi ekzogenləşdirilmişdir. Daha geniş, yəni 96 sahə üzrə tərtib olunan modeldə isə istənilən sahəni ekzogenləşdirərək sahələrin qiymətindəki müəyyən faizlik dəyişimin digər sahələrə təsirini qiymətləndirmək olar. Qeyd edək ki, simulyasi yalar bütün digər şərtlər sabit qaldığı halda qəbul edilməlidir. Genişləndirilmiş SHM-in Leontyev qiymət multiplikatorları ilə "Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüş dürülməsi və təchizatı" sahəsində baş verən qiymət dəyişikliklərinin Azərbaycan iqtisadiyyatına və onun sahələrinin inkişafına təsirinin qiymətləndirilməsi ilə aşağıdakı nəticələrə gəlinmişdir:

- "Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı" sahəsi istisna olmaqla bütün digər sahələrdə məcmu təklifin qiymət səviyyəsi sabit saxlanılmış, "Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı" sahəsinin məcmu təklifinin qiymət səviyyəsində dəyişiklik edilmişdir. Nəticədə bütün sahələr üzrə ekzogen təklif normalarında baş verən dəyi şiklikliyin nəticələri alınmışdır;
- "Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı" sahəsi istisna olmaqla, bütün digər sahələrdə ekzogen təklif normaları sabit saxlanılmış, "Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı" sahəsinin ekzogen təklif normalarında dəyişiklik edilmişdir. Nəticədə bütün sahələr üzrə məcmu təklifin qiymət səviyyəsində baş verən dəyişiklikliyinin nəticələri alınmışdır;
- "Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı" sahəsinin ekzogen təklif normalarında və qalan digər sahənin məcmu təklifinin qiymət səviyyəsində edilən dəyişikliyin "Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüş dürülməsi və təchizatı" sahəsinin məcmu təkilifinin qiymət səviyyəsində və qalan digər sahənin ekzogen təklif normalarında yaratdığı təsirlərin nəticələri alınmışdır;
- "Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı" sahəsinin məcmu təklifinin qiymət səviyyəsində və qalan digər sahənin ekzogen təklif normalarında edilən dəyişikliyin "Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüş dürülməsi və təchizatı" sahəsinin ekzogen təklif normalarında və qalan digər sahənin məcmu təkilifinin qiymət səviyyəsində yaratdığı təsirlərin nəticələri alınmışdır (məsul icraçı: i.e.d. V.M.Vəliyev; icraçı: H.B.Həsənov, İ.A.Mirzəliyev, M.M.Mehdiyev, E.Ş.Rüstəmov, S.H.İbrahimova).

Azərbaycanın enerjiyə qənaət və enerji effektivliyi planının tərtibi mövzusu üzrə tədqiqat işində məqsəd Azərbaycanın enerjiyə qənaət və enerji effektivliyi planının tərtibi idi. Ona görə Azərbaycanın enerji istehlakı təhlil edilmiş, enerji səmərəliliyi üzrə məlumatlar toplanmışdır. Azərbaycanda enerji səmərəliliyi üzrə məlumatlanmanın az olmasını nəzərə alaraq, müəssisələrin bu sahədə fikrini öyrənmək üçün xüsusi anket sorğusu hazırlanmışdır. Hazırda bu sorğunun metodologiyası hazırlanır və buna əsasən onun planı tərtib edilərək həyata keçirilməsi növbəti hesabat dövrünə planlaşdırılmışdır (məsul icraçı: i.e.n. A.D.Hüseynova; icraçı: H.B.Həsənov, İ.A.Mirzəliyev, F.N.İmamverdiyev, S.H.İbrahimova).

Yanacaq-energetika sektorunun əsas göstəricilərinin qiymətləndirilməsi və proqnozlaşdırılması mövzusu üzrə tədqiqat işində neft-qaz ehtiyatları, hasilatı və istehlakı üzrə göstəricilər toplanmış və təhlil edilmişdir. Təhlillərin nəticəsi Azərbaycanda müxtəlif mənbələrdən neft-qaz hasilatının, onun gəlirlərinin və istifadəsinin daha da ətraflı tədqiq olunmasına ehtiyac olduğunu göstərir. Bu baxımdan, perspektivdə neft-qaz hasilatı və istifadəsi ilə yanaşı, neft-qaz gəlirlərinin də nəzərə alınmasını əks etdirən modelin qurulması məqsədəuyğun sayılmış və bu mövzunun növbəti hesabat dövrü üçün iş planına daxil edilməsi tövsiyə olunmuşdur (məsul icraçı: i.e.d. V.M.Vəliyev; icraçı: H.B.Həsənov, M.M.Mehdiyev, E.Ş.Rüstəmov, S.H.İbrahimova, G.V.Qədirova, T.A.Tağızadə).

***Problem. Məlumatlar bazasının formalaşdırılması, statistik göstəricilərin təhlili və cari işlərin yerinə yetirilməsi***:

Regionların və inzibati rayonların elektron statistik bazasının yenilənməsi mövzusu üzrə tədqiqat işində Regionların və inzibati rayonların elektron statistik bazası 2012-ci ilin rəqəmləri

də əlavə edilərək yenilənmişdir (məsul icraçı: i.f.d. E.F.Qası mov; icraçılar: N.A.Quliyeva, A.İ.Şabanova).

Statistik baza üçün sahəvi göstəricilərin elektron bazasının yenilənməsi mövzusu üzrə tədqiqat işində statistik baza üçün sahəvi göstəricilərin elektron bazasında müvafiq sahələr üzrə məlumatlar yenilənmişdir (məsul icraçı: i.f.d. E.F.Qasımov; icraçılar: N.A.Quliyeva, A.İ.Şabanova, H.M.Məmmədov).

MDB ölkələrinin əsas sosial-iqtisadi göstəricilərinin elektron bazasının yaradılması mövzusu üzrə tədqiqat işində MDB ölkələrinin əsas sosial-iqtisadi göstəricilərinin elektron bazası hazırlanmışdır (məsul icraçı: i.f.d. E.F.Qasımov; icraçılar: N.A.Quliyeva, H.M.Məmmədov).

Mənzil-kommunal təsərrüfatı sahəsi üzrə statistik uçotun təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması mövzusu üzrə tədqiqat işində Azərbaycan Respublikası Statistika Komitəsində istifadə olunan ölkənin mənzil-kommunal təsərrüfatı üzrə statistik uçot formaları araşdırılmış, digər dövlətlərin bu sahəyə dair statistik formaları ilə müqayisə edilərək onların təkmilləşdirilməsinə dair əsaslandırılmış təkliflər verilmişdir (məsul icraçı: i.f.d. E.F.Qasımov; icraçı: H.M.Məmmədov).

***Problem. İnsan kapitalının gücləndirilməsi, Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin əməkdaşlarının bilik və bacarıqlarının artırılması***:

Müvafiq sahələrdə tanınmış yerli və beynəlxalq təlim-tədris mərkəzləri ilə əlaqələrin qurulması mövzusu çərçivəsində mövcud əlaqələr üzrə əməkdaşlıqlar davam etdirilməklə yanaşı, yeni əlaqələrin qurulması da diqqət mərkəzində olmuşdur. Onlardan Türkiyənin ODTU Texnoparkı, "EcoMod Network" Şirkəti, İslam Tədqiqat və Təlim İnstitutu (IRTI) ilə olan əməkdaşlıqları göstərmək olar (məsul icraçı: A.M.İsmayılova; icraçılar: İ.S.Salmanova, F.S.İmaməliyeva, Ş.Ə.Babayeva).

Müəyyən olunmuş sahələr üzrə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi üçün xarici ekspertlərin dəvət olunması və ya əməkdaşların ezam olunması mövzusu çərçivəsində 2014-cü ilin 12 mart tarixində Türkiyənin ODTU Texnoparkının vitse prezidenti Ufuk Batumun məruzəsi ilə "Sənayedə brendləşmə" mövzusunda seminar, 4 iyun tarixində "Elsevier" Şirkətinin Türkiyə, İran, Orta Şərq ve Mərkəzi Asiya üzrə meneceri Gamzə Kəskinin məruzəsi ilə "Elmi məqalələrin yazılması qaydaları" ("Beynəlxalq jurnallarda necə uğurlu nəşr olunmalı?") və 24 iyun tarixində ABŞ-ın "Wiley" Nəşriyyatının redaktoru Kristen Severinqin məruzəsi ilə "Müəllifin iş planı", ABŞ-ın "Wiley" Nəşriyyatının Türkiyə, Şimali Kipr, Azərbaycan və Özbəkistan üzrə satış meneceri Deniz Yilmazoğlunun məruzəsi ilə "Wiley: online kitabxanası" mövzularında müəllif seminarları, 6 iyun tarixində "Euromonitor International" Şirkətinin Biznesin inkişafı üzrə maliyyə meneceri Mangirdas Ciocysin təqdimatında "Passport: qlobal strateji zəkaya sizin girişiniz" (Passport: Your Gateway To Global Strategic Intelligence) mövzusunda online təqdimatlar keçirilmişdir.

2014-cü il ərzində həmçinin İnstitutun əməkdaşları xarici təcrübənin öyrənilməsi məqsədilə müxtəlif elmi və elmi-texniki tədbirlərdə iştirak etmişlər. Bu məqsədlə prioritet sahələr üzrə Hindistanın İqtisadi Əməkdaşlıq Proqramı (ITEC), Avropa Komissiyası, Beynəlxalq Valyuta Fondu (IMF), Birləşmiş Viena İnstitutu (JVI)) və UNESCO tərəfindən təşkil edilmiş tədbirlərdə iştirak etmək üçün İnstitutun əməkdaşları Hindistan, İran, Türkiyə, Belçika, Avstriya, Qazaxıstan, Gürcüstan, Estoniya, İndoneziya, Malayziyaya (ümumilikdə 22

xarici ezamiyyə) ezam olunmuşlar (məsul icraçı: A.M.İsmayılova; icraçılar: K.Q.Hüseynova, F.S.İmaməliyeva, Ş.Ə.Babayeva).

Öyrənilmiş təcrübənin bölüşdürülməsi üçün Nazirliyin müvafiq qurumlarının iştirakı ilə hər bir qrup üçün təlim modullarının hazırlanması və digər əməkdaşların təlimlərə cəlb olunması mövzusu çərçivəsində İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO), "EcoMod Network" Şirkətinin və İİETİ-nin birgə maliyyə dəstəyi və təşkilatçılığı ilə 2014-cü il 21-25 aprel tarixlərində İƏT üzv ölkələrinin nümayəndələri üçün "Riyazi modelləş dirmə sistemi yolu ilə ümumi iqtisadi tarazlığın modelləşdirilməsi" mövzusunda təlim keçirilmişdir. Tədbirdə üzv ölkələrdən Özbəkistan və Türkmənistan istisna olmaqla, Əfqanıstan, Pakistan, İran, Türkiyə, Qırğızıstan, Qazaxıstan və Tacikistandan olan nümayəndələr iştirak etmişlər. Növbəti təlimin 2015-ci ilin avqust ayında Qırğızıstanın İssık-Kul şəhərində keçirilməsi planlaşdırılmışdır.

2014-cü il ərzində digər tədbir isə İslam İnkişaf Bankının (IDB) İslam Tədqiqatlar və Təlim İnstitutu (IRTI) və İqtisadiyyat və Sənaye Nazirliyinin birgə əməkdaşlıq haqqında razılığına əsasən 2014-cü il 22-26 sentyabr tarixlərində "Kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi» (Financing Small and Medium Enterpreneurship (SMEs))" mövzusunda regional təlimin keçirilməsi olmuşdur. IRTI və İİETİ-nin birgə maliyyə dəstəyi ilə həyata keçirilən təlimdə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistandan ümumilikdə 10 nümayəndə iştirak etmişdir.

***Problem. Elmi ədəbiyyatların xülasəsi və elmi nəşr işlərinin təşkili***:

Elmi ədəbiyyatların əldə edilməsi və müvafiq xülasələrin hazırlanması istiqamətində daxil olmuş ədəbiyyat qeydiyyata alınmış, "Onluq təsnifat" əsasında işlənmiş, əlifba sırası üzrə elektron kataloq hazırlanmış və məlumatlar şöbələrə göndərilmişdir. Yeni ədəbiyyatlar kitabxana fonduna daxil edilmişdir. Oxucuların istifadəsi üçün həmçinin elektron kataloqun çap olunmuş forması da hazırlanmışdır. Hər gün dövri mətbuat qəbul edilir və qeydiyyata salınır. Dövri mətbuatın qeydiyyatı həm elektron formada, həm də kağız üzərində aparılır. Gün ərzində İİETİ-nin, İSN-nin əməkdaşlarına, İİETİ-nin doktorantlarına, məktubla müraciət etmiş başqa idarə və müəssisələrin əməkdaşlarına kitabxana xidməti göstərilir (məsul icraçı: S.Z.Abbasəliyeva; icraçılar: T.Ş.Salıfova, Ş.M.Əliyeva).

"Elmi nəşrlərin hazırlanması" istiqamətində İİETİ-nin "Elmi əsərlər toplusu"nun 2010-cu il X buraxılışı, 2011-ci il XI buraxılışı, 2012-ci il XII buraxılışı, 2013-cü il XIII buraxılışları nəşr olunmuş, Kitabxana fonduna daxil edilmiş, Respublika kitabxanalarına və müəlliflərə təqdim edilmişdir. 2014-cü il XIV xüsusi buraxılış üçün müəlliflər dən məqalələr toplanılmış, redaktə və korrektə edilmiş və nəşr olunmuşdur.

İİETİ-nin 50 illik yubileyi ilə əlaqədar olaraq yazılan yubiley kitabı üçün materiallar toplanılmış, real faktlara və arxiv sənədlərinə əsaslanaraq yubiley kitabının yazılması işləri başa çatdırılmış və kitab çap olunmuşdur (məsul icraçı: S.Z.Abbasəliyeva; icraçılar: T.Ş.Salıfova, Ş.M.Əliyeva).

Dövlət proqramlarının, Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam, tapşırıqlarından irəli gələn və digər məsələlərin icrası istiqamətində İnstitutda Dövlət Proqramları, Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarından, eləcədə Nazirliyin Kollegiyasının qərarları, müvafiq əmr və göstərişlərindən irəli gələn məsələlərin icrası, həmçinin müxtəlif qurumlardan daxil olmuş cari işlərin yerinə yetirilməsi ilə bağlı kompleks işlər aidiyyəti üzrə yerinə yetirilmişdir.

2014-cü ildə İnstitutda beynəlxalq qurumlarla işin aparılması davam etdirilmişdir. Onlardan İqtisadi Əməkdaşlıq Təşilatı (ECO) ilə aparılan işlər xüsusi əhəmiyyətə malik olmuşdur. Belə ki, ilk olaraq, 2014-cü il 23-26 fevral tarixlərində İran İslam Respublikasının Tehran şəhərində keçirilən Regional Planlaşdırma Şurasının 24-cü iclasında İnstitutun direktoru, eyni zamanda İƏT-in Bakıda Tədqiqat Mərkəzinin rəhbəri i.e.d., prof. Vilayət Vəliyev iştirak etmişdir. Qeyd edilməlidir ki, İƏT-in Tədqiqat Mərkəzinin təsis olunması ilə Bakı nümayəndəliyinin RPŞ-nın iclaslarında daim təmsil olunması zərurəti yaranmışdır. Tədbirdə İƏT-ə üzv ölkələrin nümayəndələri ilə yanaşı, Azərbaycanın İran İslam Respublikasındakı Səfirliyinin, İqtisadiyyat və Sənaye, Xarici İşlər, Ekologiya və Təbii Sərvətlər, Rabitə və Yüksək Texnologiyalar nazirliklərinin nüma yəndələri də iştirak etmişlər. Həmçinin İƏT-in Regional Planlaşdırma Şurasının işçi iclasları keçirilmiş və iclaslarda kənd təsərrüfatı, sənaye və turizm, ticarət və investisiya, nəqliyyat və rabitə, energetika, insan resursları və davamlı inkişaf, beynəlxalq əməkdaşlıq və s. mövzuları üzrə hesabatlar dinlənilmişdir.

2014-cü il 26 aprel tarixində İƏT-in "İqtisadiyyat" Jurnalının Redaksiya Heyətinin 2-ci iclası keçirilmişdir. Qeyd etmək lazımdır ki, Jurnalın Redaksiya Heyətinin ilk iclası da 2012-ci ilin 8 noyabr tarixində Bakıda keçirilmişdir. Jurnalın növbəti iclasının 2015 ci ildə Tacikistanda keçirilməsi planlaşdırılmışdır.

Tədbirdə İƏT-in "İqtisadiyyat" jurnalının baş redaktoru Vilayət Vəliyev son iki ildə jurnalın fəaliyyəti, onun dövrlüyünün təmin olunması və reytinqinin artırılması istiqamətində görülən tədbirlər haqqında iştirakçıları məlumatlandırmış, növbəti illər üzrə görüləcək işlər barəsində isə geniş fikir mübadiləsi aparılmışdır.

Bundan başqa İƏT-in ənənəvi olaraq keçirilən və layihələrin idarəolunmasında üzv ölkələrin nümayəndələrinə kömək məqsədilə təşkil edilən 4-cü regional təlim proqramında iştirak edilmişdir. 2014-cü ilin 12-16 may tarixlərində Türkiyənin paytaxtı Ankara şəhərində təşkil edilən tədbirdə İnstitutdan nümayəndə iştirak etmişdir.

2014-cü ildə İƏT ilə əməkdaşlıq bununla bitməmişdir. Nəhayət, İİETİ-nin yaranmasının 50 illik yubileyinə həsr olunmuş İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin İqtisadi Beyin Mərkəzlərinin 2-ci Bakı Forumu və "Enerji, Regional İnteqrasiya və Sosial-İqtisadi İnkişaf" mövzusunda 2-ci Beynəlxalq Konfrans 2014-cü ilin 1-3 oktyabr tarixlərində İƏT-in, İqtisadiyyat və Sənaye Nazirliyinin, "EcoMod Network" Şirkətinin, İƏT-in Tədqiqat Mərkəzinin və İİETİ-nin birgə təşkilatçılığı ilə baş tutmuşdur.

Tədbirdə İƏT-ə üzv ölkələrin iqtisadi beyin mərkəzlərinin rəhbərləri ilə yanaşı, həmçinin Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Türkiyə, Əfqanıstan, İran, Pakistan, Macarıstan, Fransa, Avstriya, Yaponiya, Brüssel və ümumilikdə, 20-dən çox ölkədən nümayəndələr iştirak etmişlər. Eləcə də, İqtisadi Əməkdaşlıq Təşkilatının Elm Fondu (ECOSF), İslam İnkişaf Bankının (IDB) (Almata ofisinin) və SESRIC-in yüksək səviyyəli rəhbərləri də tədbirdə iştirak etmişdir. Ümumilikdə, isə Konfransa 26 ölkə dən 200-ə yaxın məqalə təqdim edilmişdir.

Forumun növbəti ildə Qazaxıstanın İqtisadi Tədqiqatlar İnstitutunun təşkilatçılığı ilə Astana şəhərində keçirilməsi qərarlaşdırılmışdır.

2-ci "Bakı Forum-Konfransı" çərçivəsində həmçinin "İqtisadi Əməkdaşlıq Təşki latına üzv ölkələrində ekoloji təmiz kənd təsərrüfatının inkişaf etdirilməsi sahəsində təcrübə

mübadiləsi və qurumlararası əməkdaşlığın gücləndirilməsi" mövzusunda tədqiqat işinin həyata keçirilməsinə dair müqavilə imzalanmışdır.

2014-cü ilin daha bir əməkdaşlığı İslam İnkişaf Bankının (IDB) İslam Tədqiqatlar və Təlim İnstitutu (IRTI) və İqtisadiyyat və Sənaye Nazirliyinin birgə əməkdaşlıq haqqında razılığına əsasən 2014-cü il 22-26 sentyabr tarixlərində "Kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi» (Financing Small and Medium Enterpreneurship (SMEs))" mövzusunda regional təlimin keçirilməsi olmuşdur. IRTI və İİETİ-nin birgə maliyyə dəstəyi ilə həyata keçirilən təlimdə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistandan ümumilikdə 10 nümayəndə iştirak etmişdir.

Təlim çərçivəsində iştirakçıların ətraflı məlumatlandırılması məqsədilə həmçinin 26 sentyabr 2014-cü il tarixində regiona səfər edilmiş və Quba-Xaçmaz regional mərkəzində sahibkarlıq müəssisələri ilə tanışlıq seminarı (Study Tour) təşkil edilmişdir.

Təlim çərçivəsində İqtisadiyyat və Sənaye Nazirliyinin əməkdaşları ilə yanaşı Sahibkarlığa Kömək Milli Fondunun, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO), Bakı Biznes Tədris Mərkəzinin (BBTM), «Azərbaycan İnvestisiya Şirkəti»nin ASC, «Sumqayıt Kimya Sənaye Parkı» MMC-nin və İİETİ-nin əməkdaşları tərəfindən məruzələr edilmişdir.

Qeyd olunanlarla yanaşı İqtisadi Əməkdaşlıq Təşkilatının Elm Fondu (ECOSF) ilə əməkdaşlıq qurulmuş və davam etdirilməkdədir. Belə ki, qurumla və İƏT çərçivəsində əməkdaşlığın aparılmasının perspektivləri barədə geniş fikir mübadiləsi aparılmaqla yanaşı, profilə uyğun müvafiq istiqamətlər üzrə məlumat mübadiləsinin aparılmasının dövriyyəsi genişləndirilmişdir. Belə ki, hətta qurumun təşkilatçılığı ilə 2015-ci ilin 10 yanvar tarixində Pakistanda keçiriləcək "Davamlı inkişaf üçün mühəndislərin hazırlanması (mühəndislik təhsili sahəsində kvalifikasiya üzrə standartlaşma yol xəritəsi") ("Developing the Roadmap on Engineering Qualification Standardization" Preparing Future Engineers for Sustainable Development") mövzusunda beynəlxalq görüşdə iştirak etmək üçün Azərbaycandan nümayəndənin seçilməsinə institut tərəfindən dəstək verilmişdir. Bununla yanaşı növbəti il ərzində keçiriləcək daha bir tədbir üçün İƏT EF-na uyğun iştirakçının təyin olunması və tədbirin təşkil edilməsi işində institut tərəfindən müvafiq dəstək göstərilməkdədir.

Bu ildə uğurla davam etdirilən əməkdaşlıqlardan biri də Türkiyə Respublikası Baş Bakanlığının Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TIKA) ilə olan əmək daşlıqdır. Qurumla əməkdaşlığın davam etdirilməsi və prioritet istiqamətlərin təyin olunması məqsədilə keçirilən görüşün nəticəsi olaraq, 2015-2016-cı illərdə həyata keçiriləcək əməkdaşlıq proqramı və eyni zamanda "Azərbaycanda elm-sənaye əmək daşlığının inkişafı üçün ODTU Texnoparkının təcrübəsinin öyrənilməsi və dayaq nöqtəsinin qurulması" mövzusunda layihə təklifi hazırlanaraq, müvafiq qaydada təqdim olunmuşdur. Qurumla birgə əməkdaşlıq çərçivəsində həyata keçirilmiş layihə çərçivəsində hazırlanmış "Gələcək nəsillər üçün ekoloji təmiz kənd təsərrüfatı" adlı kitabın təqdimatı 2014-cü ilin 7 aprel tarixində Avropa Azərbaycan Məktəbində keçirilmişdir.

Bu ildə həmçinin 1-ci "Bakı Forum-Konfransı"nın keçirildiyi tarixdən başlayaraq İnstitutla əməkdaşlıq edən Almaniyanın Keçid İqtisadiyyatlarında Kənd Təsərrüfatının İnkişafı Leibniz İnstitutu (IAMO) ilə məlumat mübadiləsi davam etdirilmişdir. Belə ki, qurumun ənənəvi olaraq təşkil etdiyi və növbəti il keçirilməsi planlaşdırılan "Cənubi Qafqazda və Mərkəzi Asiyada regional iqtisadiyyat və beynəlxalq inteqrasiya: potensialın gücləndirilməsi

və məlumatlılığın yüksəldilməsi" layihəsi çərçivəsində növbəti tədbirin keçirilməsi üçün dəstək məktubu göndərilmiş; qurumdan keçirilməkdə olan bir sıra tədbirlər haqqında məlumat alınmış və növbəti il üzrə perspektiv məlumat mübadiləsi aparılmışdır. Qeyd olunan işlərin yaxın perspektivdə fayda verməsi və ya İnstitutun əməkdaşlıq əlaqələri və imkanlarının artırılmasında İnstituta köməkçi olması gözlənilir.

Eyni zamanda 2010-cu ildən etibarən əməkdaşlıq edilən Koreyanın Xarici İqtisadi Tədqiqatlar İnstitutu (KIEP) ilə əlaqələr davam etdirilmişdir. Belə ki, il ərzində qurumun bütün tədbirləri və nəşrləri haqqında məlumat əldə edilməsi ilə yanaşı, 2015-ci ilin KIEP Qonaq Təqaüd Proqramına müraciət ünvanlanmış, lakin müraciət müsbət nəticələnməmişdir. Bununla belə proqram üzrə əməkdaşlıq davam etdirilməkdədir.

2014-cü ildəson illərdə olduğu kimi İnstitutun əməkdaşları ölkəmizdə və xaricdə müxtəlif elmi və elmi-texniki tədbirlərdə iştirak etmək, eləcə də sorğuların keçirilməsi məqsədilə 22 respublika xarici və 16 respublika daxili ezamiyyələrdə olmuşlar.

Respublika xarici ezamiyyələrin 6-sı təşkilatçılar (Hindistanın İqtisadi Əməkdaş lıq Proqramı (ITEC), Avropa Komissiyası, Beynəlxalq Valyuta Fondu (IMF), Birlışmiş Viena İnstitutu (JVI)) və UNESCO) tərəfindən, 5-i həm təşkilatçılar, həm də İİETİ tərəfindən, qalanları isə İİETİ tərəfindən maliyyələşdirilmişdir. Respublika daxili bütün ezamiyyələr isə birqayda olaraq, İnstitut tərəfindən maliyyələşdirilmişdir.

2014-cü ildə İnstitutda xarici qonaqlarla çoxsaylı görüşlərin keçirilməsi davam etdirilmişdir. Onlardan Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Bakı Proqram koordinatoru və nümayəndə heyətinin, Qırğızıstanın M.Rıskulbekov adına İqtisad Universitetinin Xarici əlaqələr şöbəsinin müdiri Kadıralıyev Almaz Toktobekoviç, Dünya Bankının Şərqi və Mərkəzi Asiya Qonşuluq Siyasətinin Regional Yol Təhlükəsizliyi (TRACECA) Layihəsinin rəhbəri cənab Alan Rossun və nümayəndə heyəti, AB tərəfindən maliyyələşdirilən "Azərbaycanda tədarük zəncirinin inkişafına dəstək" mövzusunda tədqiqat layihəsinin ipəkçilik, üzümçülük və çayçılıq üzrə eks pertləri Mike Burchell, Martin Mouter Markof və Birgit Boor, Türkiyə Respublikasının Sabancı Universitetinin nümayəndələri Cüneyt Evirgen və Aziz Murat Hatipagoglu, Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Qida Konfederasiyasının müdiri Hakan Yüksel və əməkdaşı İlhan Uzun, Avropa Yenidənqurma və İnkişaf Bankının Hissə darlarının Xüsusi Fondunun Biznes və maliyyə konsultasiya şirkətinin icraçı direktoru Maykl Kortenbuş, ODTU Texnoparkın virse prezidenti Ufuk Batum ilə olan görüşləri qeyd etmək yerinə düşər.

2014-cü ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 18 avqust tarixli 263s nömrəli iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı xərclər haqqında Sərəncamına əsasən İqtisadiyyat və Sənaye Nazirliyi ilə İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu arasında ümumi layihə dəyəri 51000 (əlli bir min) manat olan müqavilə (№ 5, 6) bağlanmış və aşağıda adları qeyd edilən tədqiqat işləri həyata keçirilmişdir:

- "Sərhədyanı regionlarda məşğulluq probleminin həlli istiqamətində təklif və tövsiyələrin hazırlanması (Füzuli-Beyləqan regionu üzrə)";
- "Azərbaycan Respublikasında beynəlxalq təcrübə əsasında texnoloji innovasiya məqsədli Texnopark və Aqroparkların yaradılması üzrə təklif və tövsiyələrin hazırlanması".

Bu ildə İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu tərəfindən İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) təqdim olunmuş layihənin maliyyələşməsi haqqında yekun qərarın qəbul

İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun direktoru i.e.d. prof. Vilayət Vəliyev yekunda öz çıxışında, İƏT-lə bağlanan müqavilənin, beynəlxalq müqavilə kimi, İİETİ nin 50 illiyinə töhfə olduğunu qeyd edərək İƏT ilə əməkdaşlığın bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu bildirdi. O, nəzərə çatdırdı ki, son dövrlərdə İƏT-ə üzv ölkələrin İqtisadi beyin mərkəzləri arasında əməkdaşlıq daha da genişlənmiş, Bakıda "İqtisadiyyat" jurnalının Redaksiya heyətinin 2-ci iclası keçirilmiş, jurnalın 2-ci nömrəsi hazırlanmış, 3-cü nömrə isə konfransın yekunları üzrə hazırlanacaqdır.

Vilayət Vəliyev konfransın keçirilməsinə verdiyi dəstəyə, İnstitut kollektivinə daim diqqət və qayğı göstərdiyinə görə İqtisadiyyat və sənaye naziri cənab Şahin Mustafayevə və eyni zamanda Nazirliyin Aparat işçilərinə konfransın keçirilməsində fəal iştiraklarına görə dərin təşəkkürünü bildirdi.

Sonda İqtisadi Əməkdaşlıq Təşkilatı ilə İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu arasında "İqtisadi Əməkdaşlıq Təşkilatı üzv ölkələrində ekoloji təmiz kənd təsərrüfatının inkişaf etdirilməsi sahəsində təcrübə mübadiləsi və qurumlararası əməkdaşlığın gücləndirilməsi" mövzusunda layihənin həyata keçirilməsi məqsədilə müqavilə imzalandı. Müqaviləni İƏT-in Baş Katibi Dr. Şamil Ələsgərov və İİETİ-nin direktoru, i.e.d. prof. Vilayət Vəliyev imzaladılar.




İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin İqtisadi Beyin Mərkəzlərinin 3-cü Forumunun Qazaxıstanın İqtisadi Tədqiqatlar İnstitutunun təşkilatçılığı ilə Qazaxıstanın Astana şəhərində keçirilməsi haqqın da ilkin razılığın əldə olunması elan edildi. 2-ci "Bakı Forum-Konfransı"nın bağlanış mərasimindən sonra Bakı Biznes Mərkəzində İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun yaranmasının 50 illik yubileyinə həsr olunmuş möhtəşəm Ziyafət (Qala Gecəsi) təşkil edildi. Ziyafətdə İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin nümayəndə heyətləri, Azərbaycan Res publikası İqtisadiyyat və Sənaye Nazirliyinin və İqtisa di İslahatlar Elmi Tədqiqat İnstitutunun keçmiş və hazırki əməkdaşları, çoxsaylı qonaqlar iştirak etdilər. Gecənin rəsmi hissəsini açıq elan edən Azərbaycan Respublikası İqtisadiyyat və sənaye nazirinin müavini Sevinc Həsənova bütün qonaqları salamlayaraq 50 il ərzində İİETİ-nin keçdiyi şərəfli yola qısa nəzər saldı. Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə 1964-cü il 2 oktyabr tarixində əsası qoyulmuş Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutu kimi fəaliyyətə başlayan və hal-hazırda İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu kimi fəaliyyət göstərən İnstitutun həm keçmiş, həm də indiki kollektivini yubiley münasibəti ilə təbrik edərək, onlara yüksək nailiyyətlər arzuladı.

Təbrik üçün söz alan "EcoMod Network" Şirkətinin Prezidenti cənab Ali Bayar, Türkiyə Respublikasının İnkişaf Nazirliyinin müşaviri cənab Fərrux Tığlı, Qazaxıstanın İqtisadi Tədqiqatlar İnstitutunun direktor müavini Aset İrqaliyev, həmin İnstitutun elmi rəhbəri cənab Sailau Baizakov, İqtisadi Əməkdaşlıq Təşkilatının Elm Fondunun prezidenti cənab Mazoor Soomro, Qırğızıstanın İqtisadiyyat Universitetinin prorektoru cənab Rustam Asizbayev, Başqırdıstan Respublikasının İdarəçilik Akademiyasının professoru Dinara Minnigulova (Rusiya, Ufa), Sidney Universitetinin professoru Truong Phuoc, Leyla Baştav və cənab Bülent Aşma (Türkiyə), cənab Majid Huseyn Memon (Pakistan), cənab Hiroshi Hamasaki (Yaponiya), cənab Muhammad Ahmed Faraz (Hindistan), elə cə də, keçmiş direktorlar adından i.e.d. prof. Qorxmaz İmanov, dosent Vaqif Rüstəmov və digərləri təşkilatçılara təşəkkürlərini bildirməklə yanaşı, yubiley münasibətilə İnstitutun kollektivinə öz təbriklərini çatdırdılar və xatirə hədiyyələrini təqdim etdilər.

Rəsmi hissənin sonunda Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun direktoru i.e.d., prof. Vilayət Vəliyev bütün kollektivi bir daha təbrik edərək, Gecənin bədii hissəsini açıq elan etdi. Öz möhtəşəmliyi ilə yadda qalan bədii hissəni Azərbaycan Respublikasının və keçmiş SSRİ-nin xalq artisti Fərhad Bədəlbəylinin rəhbərliyi ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Gənclər Kamera Orkestrinin, istedadlı gənc laureatların ifasında Azərbaycanın xalq və lirik musiqilərindən ibarət qonaqların zövqünü oxşayan proqramla xüsusi rövnəqləndirdilər.

**İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun 50 illik yubileyinə həsr olunmuş ziyafət (1-3 oktyabr, 2014-cü il)**













Fürsətdən istifadə edərək konfransa dəvət olunmuş xarici qonaqların vaxtlarının səmərəli keçməsi və Azərbaycan mədəni irsinin, tarixinin təbliği məqsədi ilə təşkil olunmuş

ekskursiyalar isə sözün əsl mənasında onları valeh etdi. Çox əsrlik tarixə malik Qobustan Milli Parkı, Bibi-Heybət məscidi, Dövlət Bayraq Meydanı, Bahar Palçıq Vulkanı, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı qonaqların böyük heyrətinə səbəb oldu. Bakının qədim tarixi abidələrini və muzeylərini də gəzməyi unutmayan qonaqlar səyahətlərini oktyabrın 4-də başa çatdılar.



## İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun əməkdaşlarına fəxri adlar və medallar verilmişdir

Azərbaycan Respublikasında iqtisadiyyatın bütün sahələrinin inkişafına Ümum milli Liderimiz Heydər Əliyev həmişə böyük qayğı ilə yanaşmışdır. Ulu Öndər respublika iqtisadiyyatının çiçəklənməsində özünəməxsus yeri olan Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunun fəaliyyətini daim yüksək qiymət ləndirmiş, İnstitutun maddi-texniki bazasının möhkəmləndirilməsinə, gələcəkdə ölkə idarəçiliyində iştirak edəcək yüksək potensiala malik kadrların yetişdirilməsinə xüsusi önəm vermişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev institutun layiqli kadrlarının müxtəlif yüksək dövlət vəzifələrinə irəli çəkilməsinə göstərişlər vermiş, bir çox əməkdaşların elmi-tədqiqat fəaliyyətini yüksək dövlət mükafatları ilə dəyərləndirmişdir.

Ümummilli liderimizin qoyduğu ənənənin, gördüyü işlərin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları onun həyata keçirdiyi dövlət siyasətini uğurla davam etdirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin işçilərinə Azərbaycan iqtisadiyyatının inkişafında göstərdikləri xidmətlərə görə 2014-cü il 21 oktyabr, 797 saylı sərəncamı ilə fəxri adlar vermiş və 2014-cü il 21 oktyabr 798 saylı sərəncamı ilə medallarla təltif etmişdir.

Çox sevindirici haldır ki, həmin sərəncamlarda İİETİ əməkdaşlarının da adları vardır. Bu diqqət hörmətli Prezidentimiz İlham Əliyev Cənabları tərəfindən İİETİ-nin 50 illik elmi-tədqiqat fəaliyyətinə verilmiş ən yüksək qiymətin ifadəsidir.

İİETİ-nin direktoru i.e.d., prof. Vilayət Məmməd oğlu Vəliyevə “Əməkdar elm xadimi”, İİETİ-nin Kitabxana və elmi nəşr şöbəsinin müdiri Sayalı Zal qızı Abbasəliyevaya “Əməkdar mədəniyyət işçisi” fəxri adları verilmiş, Oruc İbrahim oğlu İbrahimov, Vaqif Əli oğlu Rüstəmov, Mətanət Rəsul qızı Rəsulova, Fərhad Qamboy oğlu Mikayılov, Aynurə Manaf qızı İsmayılova, Pərviz Telman oğlu Heydərov isə “Tərəqqi” medalı ilə təltif edilmişlər.

Cənab Prezidentin İİETİ əməkdaşlarının 50 illik elmi-tədqiqat fəaliyyətinə verdiyi bu yüksək qiymət kollektivi daha da əzmlə çalışmağa ruhlandırır və əməkdaşlar öz gələcək fəaliyyətlərində respublika iqtisadiyyatının inkişafına yeni-yeni töhfələr verməyə çalışacaqlar. İİETİ əməkdaşlarının 50 illik elmi-tədqiqat fəaliyyətinə verdiyi bu yüksək qiy mətə görə İİETİ-nin kollektivi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarına səmimi qəlbdən dərin minnətdarlıqlarını bildirirlər.

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# SƏRƏNCAMI

**Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin işçilərinə fəxri adlar verilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan iqtisadiyyatının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar elm xadimi"**

Vəliyev Vilayət Məmməd oğlu
Yusifbəyli Nurəli Adil oğlu.

**"Əməkdar mədəniyyət işçisi"**

Abbasəliyeva Səyalı Zal qızı.

Azərbaycan Respublikası Prezidenti Administrasiyası
Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəheri, "21" oktyabr 2014-cü il

№ 797

UB AR İSN
3000004399124
№ 22.10.2014-cü il

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# SƏRƏNCAMI

Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin
bir qrup işçisinin təltif edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan iqtisadiyyatının inkişafında xidmətlərinə görə Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin aşağıdakı işçiləri təltif edilsinlər:

"Tərəqqi" medalı ilə

Abdullayev Şirzad Əyyub oğlu
Heydərov Pərviz Telman oğlu
İbrahimov Oruc İbrahim oğlu
İsmayılova Aynurə Manaf qızı
Mikayılov Fərhad Qamboy oğlu
Rəsulova Mətanət Rəsul qızı
Rüstəmov Vaqif Əli oğlu.

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə

Əliyev Kamran Əhəd oğlu
Dayıyev Rəşad Hikmət oğlu
Dənyarov Ramin Zakir oğlu
Qasımlı Faiq Cavad oğlu
Qasımov Nizami Yunis oğlu
Quliyev Cəmaləddin Əlibala oğlu
Məcidov İlkin Sabir oğlu
Mustafayev Siyavuş Abdulla oğlu
Vəliyev Samir Teymur oğlu.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası
Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi

Bakı şəhəri, "21" oktyabr 2014-cü il
№ 798

UB AR İSN
3000004399435
№ İSN ... 22.10.2014-cü il

**2015-ci ildə** İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması istiqamətində tədbirlər məqsədyönlü, sistemli və ardıcıl şəkildə davam etdirilmişdir. Belə ki, 2015-ci ilin əvvəlində İnstitutun İş Planı İqtisadiyyat və Sənaye Nazirliyinin (indiki İqtisadiyyat Nazirliyi) fəaliyyət istiqamətləri nəzərə alınmaqla tərtib edilmiş, müvafiq şöbələr və struktur bölmələri ilə razılaşdırılmaqla cənab nazir tərəfindən təsdiq olunmuşdur. İlin əvvəlindən etibarən İnstitutun fəaliyyəti qeyd olunan plana uyğun təşkil edilmişdir.

2015-ci ildə İnstitutda İş Planı üzrə nəzərdə tutulmuş aşağıdakı istiqamətlərdə və mövzularda elmi-tədqiqat işləri yerinə yetirilmişdir:

***Problem. Azərbaycan Respublikasında Ümumi Tarazlıq Modelinin işlənilməsi***.

İş 1. İstehlak bazarında baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərinin təhlili və modelləşdirilməsi.

Tədqiqatın məqsədi Azərbaycan Respublikasında istehlak bazarında baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərinin təhlili və qiymətləndirilməsi üçün tətbiqi modellər işlənilməsindən və mütəmadi olaraq, onların təkmilləşdirilməsindən ibarət olmuşdur. Hesabat dövründə mövzu üzrə tədqiqat planına uyğun olaraq, aşağıdakı işlər görülmüşdür:

- İstehlak bazarının mahiyyəti və sosial-iqtisadi sistemin tərəqqisində yeri və rolu araşdırılmış;
- Müasir dövrdə istehlak bazarının, formalaşması, inkişaf və tənzimlənməsinin nəzəri-metodoloji əsasları öyrənilmiş;
- İstehlak bazarında baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərini səciyyələndirən əsas göstəricilər, onların qiymətləndirilməsi meyarları və onlar arasında qarşılıqlı əlaqələr öyrənilmiş və sistemləşdirilmiş;
- İstehlak bazarınında kəmiyyət və keyfiyyət dəyişikliklərinə səbəb olan əsas amillər və onların təsir mexanizmləri öyrənilmiş;
- İstehlak bazarında baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərinin təhlili və qiymətləndirilməsinin metodiki məsələləri tədqiq olunmuş və bu məqsədlər üçün istifadə edilən modellərin müqayisəsi aparılmış, üstün və zəif cəhətləri müəyyənləşdirilmiş;
- İstehlak bazarında mütəmadi olaraq aparılan monitorinqlər üzrə toplanmış məlumatlar sistemləşdirilmiş;
- Azərbaycan üçün daha münasib modellər seçilmiş və yeniləri işlənilmiş, bu modellərin adekvatlığının yoxlanılmasına və onların köməyi ilə müvafiq təhlil və qiymətləndirmələr aparılmasına başlanılmışdır.

İş 2. Mövcud makroiqtisadi proqnozlaşdırma metodunun və Nazirlikdə istifadə olunan modellərin qiymətləndirilməsi və təkmilləşdirilməsinə dair təkliflərin verilməsi.

Tədqiqat işi çərçivəsində plana uyğun olaraq, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, Maliyyə Nazirliyi və Mərkəzi Bankında, eləcə də digər aidiyyəti qurumlarda qərar qəbuletmə prosesində istifadə edilən yardımçı modellərin işlənilməsi üzrə məlumatlar toplanılmış və bu istiqamətdə beynəlxalq təcrübə araşdırılmışdır. İlkin olaraq elmi tədqiqat məqsədi ilə istifadə olunan modellər - sahələrarası balans modelləri, sosial hesablar matrisi əsasında qurulmuş multiplikativ modellər, ümumi tarazlıq modelləri, stoxastik ümumi tarazlıq modelləri, orta və uzunmüddətli ekonometrik modellər seçilmişdir. Siyasət qərarlarının hazırlanması üçün iki modelin işlənilməsi vacib hesab edilmişdir: maliyyə proqramlaşması və siyasəti (FPP) modeli və qısamüddətli aqreqatlaşmış makro ekonometrik

model. Modellərin elmi tədqiqat və siyasət qərarlarının qəbulunda effektivlik və davamlılığın təmin olunması üçün onların əlaqələndirilməsi və istifadəsinin xüsusiyyətləri üzrə təkliflər verilmişdir.

İş 3. Azərbaycanın Ümumi Tarazlıq Modeli əsasında investisiyaların ölkə iqtisadiyyatına təsirlərinin qiymətləndirilməsi.

Tədqiqat işinin icrası istiqamətində nəzəri-metodoloji baza nəzərdən keçirilmiş, beynəlxalq səviyyədə işlənmiş məqalələrlə tanış olunmuşdur. Eyni zamanda İnstitutda Azərbaycanın Ümumi Tarazlıq modelinin qurulması tədqiqat işi çərçivəsində işlənilmiş modelin məlumat bazası olan sosial hesablar matrisi (SHM) və onun müxtəlif multiplikator modelləri tam olaraq araşdırılmışdır.

Tədqiqat işi çərçivəsində aşağıdakı istiqamətlər üzrə təhlillər, qiymətləndirmələr və təsir analizləri aparılmışdır:

- Azərbaycan Respublikası üçün özəl sektorun investisiya qoyuluşları və dövlət investisiya xərclərinin dinamikaları analitik olaraq təhlil edilmiş, dinamikaya təsir edən əsas amillər aşkarlanmış, daha sonra isə özəl sektorun investisiya qoyuluşlarının dövlət investisiya xərcləri və əvvəlki illərdəki investisiya qoyuluşlarının həcmindən asılılığı ekonometrik olaraq qiymətləndirilmişdir;
- Azərbaycan Respublikası üçün rüblük rəqəmlər əsasında xarici və daxili investisiyalar üzrə zaman sıraları ekonometrik təhlil edilmiş və qiymətləndirilmişdir. Eyni zamanda ölkədə xarici investisiyaların dinamikası araşdırılmış və dinamikaya təsir edən əsas amillər müəyyənləşdirilmfişdir;
- Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2011-ci ilin statistik göstəriciləri əsasında hazırlanmış məhsul və xidmətlərin sahələrarası balans modeli əsasında kapital qoyuluşları ekzogen olaraq ayrılmaqla 19 iqtisadi sahə timsalında məcmu tələbə təsirləri qiymətləndirilmişdir.

İş 4. Ümumi Tarazlıq Modelindən istifadə etməklə uzunmüddətli dövr üzrə iqtisadi hədəflərə nail olma səviyyəsinin müəyyənləşdirilməsi.

Tədqiqat nəticəsində uzunmüddətli dövr üzrə iqtisadi hədəflərə nail olma səviyyəsinin müəyyənləşdirilməsi üçün ilkin olaraq Ümumi Tarazlıq Modelinin xətti forması olan dinamik sahələrarası balans modelindən istifadə edilməsi məqsədəuyğun hesab olunmuşdur.

Tədqiqat işində dinamik sahələrarası balansın köməyi ilə aşağıdakı məsələlər araşdırılmışdır:

- kapital qoyuluşlarının sahə quruluşundakı dəyişikliyinin ümumi iqtisadi artıma təsiri;
- prioritet hesab olunan turizm, informasiya kommunikasiyaları və digər sahələrin hər birinə verilən hər hansı üstünlüyün növbəti mərhələlərdə nəticələrinin qiymətləndirilməsi;
- kapital qoyuluşunun daha səmərəli sahə strukturunu tapmaqla iqtisadiyyatın yüksək texnologiya ilə fəaliyyət göstərə bilməsinə, əmək bölgüsünün səviyyəsinin yüksəlməsinə, son məhsulun iştirakında daha çox müəssisələrin iştirakının təmin olunmasına, əhalinin məşğulluğunun daha yüksək səviyyədə təmin olunmasına nail olunması.

İş 5. Ümumi Tarazlıq Modeli vasitəsi ilə qeyri-neft sektoruna müxtəlif iqtisadi təsirlərin qiymətləndirilməsi (kənd təsərrüfatı timsalında).

Tədqiqat işində kənd təsərrüfatının iqtisadi problemləri iqtisadi ssenarilər əsasında ümumi tarazlıq modelində simulyasiyalar etməklə öyrənilmiş, əsas nəticələr və tövsiyələr simulyasiyaların nəticələrinə uyğun olaraq iqtisadi agentlərin vəzifələrində verilmişdir.

Tədqiqat işinin sonunda aşağıdakı nəticələr əldə edilmişdir:

1. Kənd təsərrüfatı sahəsinə verilmiş şoklar nəticəsində ÜDM-in dinamik artımı təmin olunmadığı üçün kənd təsərrüfatı məhsullarının ƏDV-yə cəlb edilməsi, son istehlakçı üzərinə düşən vergi yükünü artırır. Kənd təsərrüfatı məhsulları isə son istehlak malları kimi əhalinin ərzaq tələbatının və digər emal sahələrinin xammala tələbatının ödənilməsində mühüm rol oynadığından həmin sahələrdə yaranan əlavə dəyərin yenidən bölgüsünə gətirib çıxarır. Dövlət gəlirləri bu vergi hesabına artsa da, kənd təsərrüfatı digər sahələrin tələbatını bu cür qiymət səviyyəsi ilə ödəyə bilmir və nəticədə digər sahələrdə məhsul istehsalı azalır. Müvafiq olaraq dünya idxal və ixrac qiymətlərindəki dəyişiklik ölkə üzrə əsas emal sahələrinin idxal və ixracını da azaldır;

2. Makro göstəricilərə gəlincə isə nəticələr heç də optimist olmur, beləliklə də ÜDM real ifadədə azalır;

3. Deməli kənd təsərrüfatının ƏDV-yə cəlb edilməsi dövlət gəlirlərini artırsa da, son nəticədə makro göstəricilərin artmasını təmin etmir.

Simulyasiyaların nəticələri göstərmişdir ki, kənd təsərrüfatının ƏDV-yə cəlb edilməsi düzgün siyasət deyildir, lakin vergi nəzarətini təmin etmək üçün "0" dərəcəli vergi siyasətindən istifadə etmək olar.

***Problem. Xarici ticarət və ölkənin beynəlxalq rəqabətqabiliyyətliliyinin artırılması.***

İş 1. Azərbaycanın Avropa ittifaqına ixracının müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi (yekun hesabat).

Tədqiqat işinin məqsədi müvafiq nəzəri-metodoloji əsaslar və mütərəqqi dünya təcrübəsi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Avropa İttifaqına ixracının müasir vəziyyətini təhlil edib qiymətləndirərək bu sahədə potensial imkanları və problemləri müəyyənləşdirməkdən və bu əsasda müvafiq istiqamətdə siyasətə dair əsaslandırılmış tövsiyələr hazırlamaqdan ibarət olmuşdur.

Mövzu üzrə tədqiqat planına uyğun olaraq aşağıdakı işlər görülmüşdür:

- müasir dövrdə ixracın artırılması və şaxələndirilməsinin nəzəri-metodoloji əsasları öyrənilmiş və ümumiləşdirilmiş;
- Avropa İttifaqına ixraca qoyulan əsas tələblər və şərtlər öyrənilmiş;
- Azərbaycan Respublikasının ixracının həcmi, əmtəə strukturu və coğrafiyasında baş verən dəyişikliklərin təhlili əsasında onun inkişaf meyilləri və perspektivləri müəyyənləşdirilmiş;
- Azərbaycanın Avropa İttifaqına ixracının mövcud vəziyyəti təhlil olunmuş və qiymətləndirilmiş;
- Azərbaycanın Avropa İttifaqına ixracının artırılması və şaxələndirilməsi sahəsində potensial imkanlar və problemlər müəyyənləşdirilmiş;
- Azərbaycanın Avropa İttifaqına ixracının tənzimlənməsi xüsusiyyətləri öyrənilmiş;
- Azərbaycanın Avropa İttifaqına ixracının artırılması və şaxələndirilməsi istiqamətində siyasətə dair tövsiyələr hazırlanmışdır.

İş 2. Qeyri-neft ixracının artırılması və diversifikasiyası üzrə əsaslandırılmış təkliflərin verilməsi.

Tədqiqatın məqsədi Azərbaycan Respublikasında qeyri-neft ixracının müasir vəziyyətini təhlil edib qiymətləndirərək onun həcminin artırılması və strukturunun şaxələndirilməsi üçün mövcud olan imkanları müəyyənləşdirməkdən, bu imkanların tam və

səmərəli reallaşdırılması yollarını öyrənməkdən və bu istiqamətdə siyasətə dair əsaslandırılmış təkliflər hazırlamaqdan ibarət olmuşdur.

Mövzu üzrə tədqiqat planına uyğun olaraq, aşağıdakı işlər görülmüşdür:

- müasir dövrdə ixrac potensialının inkişafı, ixracın artırılması və şaxələndirilməsinin nəzəri əsasları və bu sahədə mütərəqqi dünya təcrübəsinin əsas xüsusiyyətləri öyrənilmiş;
- Azərbaycan Respublikasının ixracının həcmi, əmtəə strukturu və coğrafiyasında baş verən dəyişikliklər təhlil olunmuş, bu sahədə inkişaf meyilləri və perspektivlər müəyyənləşdirilmiş;
- Azərbaycan Respublikasında qeyri-neft ixracının həcminin dinamikası və şaxələnməsi sahəsindəki mövcud vəziyyət təhlil olunmuş və qiymətləndirilmiş;
- Azərbaycan Respublikasında qeyri-neft ixracının tənzimlənməsi xüsusiyyətləri öyrənilmiş;
- Azərbaycanın qeyri-neft ixracının artırılması və şaxələndirilməsi imkanları və bu imkanların tam və səmərəli reallaşdırılması üçün aktual vəzifələr müəyyənləşdirilmiş;
- Azərbaycanın qeyri-neft ixracının artırılması və şaxələndirilməsi istiqamətində siyasətə dair əsaslandırılmış təkliflər hazırlanmışdır.

İş 3. İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) çərçivəsində regional və iqtisadi əməkdaşlıq sahəsində beynəlxalq təcrübənin öyrənilməsi.

Tədqiqat işi əsasən dünyada mövcud olan və təcrübələri ECO və o cümlədən onun üzv ölkələrinin regional və iqtisadi sahələrdə səmərəli şəkildə əməkdaşlıq etməsində faydalı ola biləcək bir sıra əməkdaşlıq təşkilatlarının və birliklərinin təcrübələrinin araşdırılmasına yönəldilmişdir. Tədqiqat iki istiqamətdə aparılmışdır: (a) regionda və (b) dünyada mövcud olan təşkilat, birlik və qurumların təcrübələrinin araşdırılması.

Regional səpkidə Mərkəzi Asiya regionunda olan MDB – Müstəqil Dövlətlər Birliyi, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı, EurasEC – Avrasiya İqtisadi Birliyi, SPECA – Mərkəzi Asiya İqtisadiyyatları üçün Xüsusi Program, CAREC – Mərkəzi Asiya Regional Əməkdaşlıq Təşkilatı, SCO – Şanxay Əməkdaşlıq Təşkilatı kimi birlik və təşkilatların təcrübəsi nəzərdən keçirilmişdir. Bundan əlavə olaraq dünyanın başqa regionlarında olan EU – Avropa İttifaqı, ASEAN – Cənub Şərqi Asiya Ölkələrinin Assosiasiyasi, GMS – Böyük Mekonq Subregionu, MRC – Mekong Çayı Kommissiyasi, IIRSA – Cənubi Amerikada Regional İnfrastrukturun İnteqrasiyası, MERCOSUR, CAF – And Dağları İnkişaf Koorporasiyası kimi sosial-iqtisadi, ticarət, infrastruktur, maliyyə qurumlarının təcrübələri detallı şəkildə xülasə edilmişdir.

***Problem. Azərbaycan Respublikasında sosial inkişaf problemlərinin tədqiqi.***

İş 1. Avropa təcrübəsi əsasında ali təhsilin adambaşına maliyyələşmə mexanizmiinn və universitetlərdə keçiriləcək monitorinq əsasında ölkədə ali təhsilin maliyyələşmə vəziyyətinin öyrənilməsi.

Tədqiqat işinin məqsədi Respublikada ali təhsil müəssisələrində maliyyə mexanizminin tətbiqi prosesin tədqiqi və gələcəkdə iş mexanizminin təkmilləşdirilməsi üzrə təklif və tövsiyələrin hazırlanmasından ibarət olmuşdur.

Tədqiqat işinin "Ali təhsildə maliyyələşmə mexanizminin nəzəri metodoloji aspektləri" adlanan hissəsində işə dair nəzəri yanaşmalar və metodoloji əsaslar verilmişdir. Sonrakı bölmələrdə Avropa Birliyi ölkələrində ali təhsilin maliyyələşməsi təcrübəsi blok sxem şəklində verilmiş eyni zamanda hər blok üzrə qruplaşdırılmış ölkələrdə maliyələşmə mexanizmləri

ətraflı təhlil edilmiş və bu qrupların ayrı-ayrılıqda ölkəmizdə tətbiqi imkanları müqayisə edilmişdir. "Ali təhsildə maliyyələşmə mexanizminin tətbiqi istiqamətləri" adlanan bölmədə isə ölkəmizdə ali təhsil müəssisələrinin maliyələşdirilməsi ilə bağlı görülən işlər və gələcək perspektivlər öz əksini tapmışdır.

İş 2. Beynəlxalq təcrübə əsasında ilkin peşə təhsili üzrə adambaşına maliyyələşmə mexanizminin öyrənilməsi.

Tədqiqat işinin məqsədi beynəlxalq təcrübə əsasında ilkin peşə təhsili üzrə adambaşına düşən maliyyələşmə mexanizminin öyrənilməsi olmuşdur. İşdə peşə təhsili sisteminin mahiyyəti və onun iqtisadi inkişafda roluna dair yanaşmalar, peşə təhsilinin maliyələşdirilməsi mənbələrinə dair ətraflı təhlil öz əksini tapmış, peşə təhsilinin maliyyələşmə mexanizmlərinə dair geniş təhlillər verilmiş və ümumiləşdirmələr aparılmışdır. Peşə təhsilinin maliyyələşdirilməsinə dair xarici ölkələrdən Türkiyə, Almaniya, Fransa, Finlandiya və Danimarka ölkələrinin təcrübələri müqayisəli şəkildə tədqiq edilmişdir.

İş 3. Fiziki fəaliyyəti məhdud şəxslərin cəmiyyətə adaptasiyası sahəsində Azərbaycanda mövcud vəziyyətin öyrənilməsi.

Tədqiqat işinin məqsədi fiziki fəaliyyəti məhdud şəxslərin cəmiyyətə adaptasiyası sahəsində nəzəri-metodoloji əsaslara və mütərəqqi dünya təcrübəsinə istinad edərək, Azərbaycanda bu sahədə mövcud vəziyyəti təhlil edib qiymətləndirməkdən və bunun əsasında müvafiq istiqamətdə siyasətə dair əsaslandırılmış təklif və tövsiyələr hazırlamaqdan ibarət olmuşdur.

İş üzrə fiziki fəaliyyəti məhdud şəxslərin cəmiyyətə adaptasiyası sahəsində nəzəri-metodoloji əsaslar öyrənilmiş və ümumiləşdirilmiş, mütərəqqi dünya təcrübəsi, o cümlədən Amerika, İngiltərə, Türkiyə (SODES proqramı çərçivəsində aparılan araşdırmalar və Dünya Əlillər Fondu) və s. bu kimi inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin təcrübələri müqayisəli təhlil olunmuş, ümumi və fərqli cəhətləri öyrənilmiş, müvafiq sahədə Azərbaycanda mövcud vəziyyət təhlil olunub qiymətləndirilmiş, müsbət meyillər, problemlər və boşluqlar aşkarlanmışdır.

Aparılmış tədqiqat nəticəsində aşağıdakı tədbirlərin həyata keçirilməsinin fiziki fəaliyyəti məhdud insanların cəmiyyətə adaptasiya olunmasına təkan verəcəyi müəyyən edilmişdir:

- bu sahədə qanunvericilik bazası təkmilləşdirilməklə maddələrin icrasına nəzarətin gücləndirilməsi;
- fiziki məhdud qabiliyyətli şəxslərin işlə təminatını yaxşılaşdırmaq məqsədilə maarifləndirici treyninqlərin təşkil edilməsi;
- yaşam xərclərinin qarşılanması məqsədilə müraciətlərin qəbulu üçün İngiltərə Müstəqil Yaşam Fondunun (İndependent Living Fund Work and Pensions Department) təcrübəsinə əsaslanaraq müəyyən tədbirlərin həyata keçirilməsi;
- sağlamlıq və reabilitasiya mərkəzlərinin fəaliyyətinin gücləndirilməsi;
- fiziki fəaliyyəti məhdud valideynlərə informasiya dəstəyinin (internet səhifəsi məqalələrinin hazırlanması və jurnalların nəşri) göstərilməsi;
- könüllü ianələr hesabına fəaliyyət göstərən vəqflərin (Disabled Living Foundation) yaradılması və ya bunlara analoji olan qurumların fəaliyyətinin bu istiqamətə yönləndirilməsi;

- İngiltərə təcrübəsinə əsasən fiziki fəaliyyəti məhdud insanların məşğulluğunun fiziki məhdudiyyətin növləri üzrə ayrılması və onların məşğulluğu (Labour Force Survey) üzrə sorğuların aparılması;
- (www.disability.gov) ABŞ təcrübəsinə əsaslanaraq fiziki məhdud qabiliyyətli şəxslərin yararlana biləcəyi onların hüquqlarının təbliğatının təşkili, icraçı orqanların əlaqələndirilməsi, məsələn reabilitasiya məqsədilə səhiyyə nazirliyi ilə birgə fəaliyyətin təşkili, əlillərin müraciətlərinin qəbulunda sistemliliyin təmin edilməsi;
- Amerikalıların Əlillik Aktına (Americans with Disability Act 1990-cı ildə) müvafiq əlaqələndirilmiş tədbirlərin reallaşdırılması və əlillərin hüquqlarının müdafiəsi (Əlillik üzrə Milli Şura).

İş 4. Sığorta-pensiya sisteminin perspektiv inkişafının aktual hesablama əsasında proqnozlaşdırılması metodikasının işlənilməsi.

Tədqiqatın əsas məqsədi qabaqcıl ölkələrin təcrübəsindən istifadə edərək Azərbaycanın sığorta-pensiya sisteminin perspektiv inkişafının aktual hesablamalar əsasında proqnozlaşdırılma metodikasının işlənilməsidir. Tədqiqatın təhlil məqsədinə müvafiq olaraq beynəlxalq təcrübə üzrə sığorta pensiya sisteminin perspektiv inkişafı üçün aktual hesablamalar vasitəsi ilə metodlar araşdırılmış, xüsusilə İngiltərə, Almaniya, Türkiyə, Kanada, ABŞ ölkələri üzrə sığorta-pensiya sisteminin ödəniş metodlarının göstəriciləri təhlil edilmişdir.

İş 5. Sosial mənzil fondunun yaradılması, regionlarda sosial mənzillərin tikilməsi sahəsində ölkədəki movcud vəziyyətin təhlili və inkişafı üzrə təkliflərin hazırlanması.

Tədqiqatın əsas məqsədi beynəlxalq təcrübə öyrənilməklə sosial mənzillərin təsnifatının müəyyənləşdirilməsi və bu mənzillər üzrə ölkədə mövcud vəziyyətin təhlil edilməsi, sosial mənzil fondlarının yaradılması və inkişaf etdirilməsi istiqamətində təklif və tövsiyələrin hazırlanmasından ibarət olmuşdur. Tədqiqat işi üzrə mənzil fondu, o cümlədən sosial mənzil fonduna dair Türkiyə, İngiltərə, Avstriya, eləcə də Avropa ölkələri üzrə, həmçinin Baltikyanı ölkələr, MDB-yə üzv ölkələrin, eyni zamanda Hindistan, Yaponiya və s. ölkələrin təcrübəsi öyrənilmişdir.

Tədqiqat işi çəçivəsində aşağıdakı vəzifələrin icrası məqsədəuyğun hesab olunmuşdur:

- Mənzil fonduna dair nəzəri yanaşmaların ümumiləşdirilməsi;
- Xarici təcrübə əsasında mənzil fondunun təsnifatlara görə qruplaşdırılması;
- Sosial mənzillər və onların sosial iqtisadi inkişfada rolunun müəyyənləşdirilməsi sahəsində xarici təcrübənin öyrənilməsi;
- Ölkəmizdə sosial mənzil fondunun mövcud vəziyyətinin təhlili;
- Sosial mənzillər və onların ölkəmizin sosial-iqtisadi inkişafında rolunun qiymətləndirilməsi;
- Sosial mənzil fondunun genişləndirilməsinin perspektiv istiqamətlərinin müəyyən edilməsi.

İş 7. Ölkədə istehlak kreditlərinin əhalinin rifah səviyyəsinə təsirinin tədqiqi.

Tədqiqatın məqsədi ölkədə istehlak kreditlərinin əhalinin rifah səviyyəsinə təsirinin tədqiqindən ibarət olmuşdur. Tədqiqat göstərmişdir ki, ölkədə əhalinin adambaşına düşən gəlirləri 4180,6 manat olduğu şəraitdə, adambaşına düşən istehlak kreditlərinin həcmi gəlirlərin 74,6%-i həcmində olmaqla, 3119,8 manat təşkil edir. Həmçinin istehlak krediti alanların sayı kifayət qədər yüksək olmaqla, əmək qabiliyyətli 6,548 milyon əhalinin 35,4%-ni, yəni 2,316 milyon nəfəri əhatə edir.

Aparılan tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, ölkədə istehlak kreditləri əhalinin rifah səviyyəsinə əsasən iki istiqamətdə mənfi təsir göstərir:

1. Bank faizlərinin yüksək olmasına görə
2. Aztəminatlı ailələrin ünvanlı sosial yardım almaq imkanlarını məhdudlaşdırdığına görə.

Tədqiqat nəticələrinə əsasən aztəminatlı əhali təbəqəsinin yüksək bank faizlərindən asılılığının aradan qaldırılmasında ölkədə sosial kreditlərin verilməsinin təmin olunması müsbət rol oynaya bilər. Digər tərəfdən, əhalinin aztəminatlı təbəqəsinin istehlak kreditlərinə olan tələbini yaradan ehtiyaclarının dəqiq müəyyənləşdirilməsi və onların ödənilməsinin alternativ yollarının müəyyən olunması zəruridir. Eyni zamanda, aparılan təhlillər göstərir ki, ailələrin "yoxsulluq tələsi"nə düşməsində yüksək faizli istehlak kreditlərinin rolu xeyli dərəcədə yüksəkdir. Problemin həlli isə bu sahədə əsaslı tədqiqatların aparılması ilə baş verən tendensiyaların dəqiq müəyyən olunmasını və stimullaşdırıcı tədbirlərin həyata keçirilməsini tələb edir.

***Problem. Azərbaycanda regionların iqtisadi inkişaf səviyyəsinin və iqtisadi potensialının qiymətləndirilməsi və sahibkarlığın inkişafı məsələlərinin tədqiqi.***

İş 1. Regionların iqtisadi potensialının qiymətləndirilməsi məqsədi ilə inzibati rayonların seçilməsi və qiymətləndirilməsi kriteriyalarının müəyyənləşdirilməsi.

Bu tədqiqat işi Aran iqtisadi rayonunun timsalında yerinə yetirilmişdir. Bu məqsədlə, Aran iqtisadi rayonunda inzibati rayonlar üzrə iqtisadi potensial (sənaye, kənd təsərrüfatı və digər sahələr üzrə) və bu potensialdan istifadənin vəziyyəti təhlil olunaraq qiymətləndirilmiş, bu potensialın gücləndirilməsi və daha tam və səmərəli istifadəsi üçün əlavə imkanlar müəyyənləşdirilmişdir.

Tədqiqat nəticəsində iqtisadi regionların inkişafına kompleks yanaşma, prioritetlərin seçilməsi, sahələrarası əlaqələrin təkmilləşdirilməsi (xüsusilə kənd təsərrüfatı və sənaye istehsalı arasında) üzrə əsaslandırılmış təklif və tövsiyələr hazırlanmışdır.

İş 4. "Azərbaycan təqdimatı" kitabının yenilənməsi. 2015-ci ildə də "Azərbaycan təqdimatı" kitabı DSK-nın son nəşrlərinin məlumatları əsasında yenilənmişdir.

İş 5.Lənkəran-Ankara iqtisadi rayonunda rekreasiya potensialının qiymətləndirilməsi.

Tədqiqat planına uyğun olaraq, işdə Lənkəran iqtisadi rayonu ərazisində olan rekreasiya potensialının yerləşməsi, inkişaf xüsusiyyətləri və istifadəsi sahəsində mövcud vəziyyət təhlil olunmuş və qiymətləndirilmişdir. Tədqiqat nəticəsində Lənkəran iqtisadi rayonunda rekreasiya potensialının gücləndirilməsi və daha tam və səmərəli istifadə olunması, o cümlədən burada rekreasiya, turizm və kurort müəsisələri şəbəkəsinin artırılması üçün təkliflər və tövsiyələr verilmişdir.

***Problem. Qeyri-neft sahələrinin inkişafının qiymətləndirilməsi.***

İş 1. Yüngül sənaye üzrə müqayisəli üstünlüyə malik olan sahələrin (məhsulların) dəstəklənməsi üzrə təkliflərin verilməsi.

Tədqiqatın məqsədi Azərbaycan Respublikasında yüngül sənaye üzrə müqayisəli üstünlüyə malik olan sahələrin (məhsulların) dəqiqləşdirilməsi və onların dəstəklənməsi üzrə əsaslandırılmış təkliflər hazırlamaqdan ibarət olmuşdur.

Mövzu üzrə aşağıdakı işlər görülmüşdür:

- müvafiq sahədə müasir nəzəri-metodoloji əsasların və mütərəqqi dünya təcrübəsinin əsas xüsusiyyətləri öyrənilmiş;

- Azərbaycan Respublikasında yüngül sənaye üzrə müqayisəli üstünlüyə malik olan sahələrin (məhsulların) siyahısı dəqiqləşdirilmiş;
- Azərbaycan Respublikasında yüngül sənaye üzrə müqayisəli üstünlüyə malik olan sahələr (məhsullar) üzrə istehsalın, ixracın və bu sahədə tənzimləmənin mövcud vəziyyəti təhlil olunmuş və qiymətləndirilmiş;
- Azərbaycan Respublikasında yüngül sənaye üzrə müqayisəli üstünlüyə malik olan sahələr (məhsullar) üzrə istehsalın və ixracın artırılması perspektivləri və problemləri müəyyənləşdirilmiş;
- Azərbaycan Respublikasında yüngül sənaye üzrə müqayisəli üstünlüyə malik olan sahələr (məhsullar) üzrə istehsalın və ixracın dəstəklənməsi ilə əlaqədar əsaslandırılmış təkliflər hazırlanmışdır.

İş 2. Türkiyənin Orta Doğu Texnik Üniversitetinin təcrübəsi əsasında sənaye parkları üçün innovasiya mərkəzinin yaradılmasına dair təklif və tövsiyələrin hazırlanması.

Tədqiqat işində məqsəd Azərbaycanda səmərəli innovasiya infrastrukturunun formalaşması məqsədi ilə yerli İnnovasiya Mərkəzinin (İM) modelinin qurulması olmuşdur. Bu məqsədlə işdə innovasiya mərkəzlərinin yaradılmasının nəzəri-metodoloji əsasları işlənilmiş və bu sahədə mütərəqqi beynəlxalq təcrübələr öyrənilmiş və ümumiləşdirilmələr aparılmışdır. Azərbaycanda innovasiya sahəsi ilə əlaqədar qanunvericilik bazası, stimullaşdırma tədbirləri və sənaye və texnoloji parkların nümunəvi nizamnamələri, bu sahədə baş verən dəyişikliklər təhlil olunaraq qiymətləndirilmişdir. İnnovasiya infrastrukturunun subyekti kimi injinerinq mərkəzlərinin fəaliyyət mexanizmləri və xidmət sahələri açıqlanmış, konsepsiyası hazırlanmışdır. Konsepsiyada strateji məqsəd və hədəfləri, sahənin inkişafı üzrə dövlət siyasətinin konseptual istiqamətləri müəyyənləşdirilmiş, tənzimlənmə mexanizmləri və digər zəruri tədbirlər öz əksini tapmışdır.

İş 3. Regionların innovasiya aktivliyinin qiymətləndirilməsi.

Tədqiqat işinin məqsədi xarici təcrübələr araşdırılaraq Azərbaycanda innovasiya meyilli iqtisadiyyatın intensiv inkişafına, onun rəqabət qabilliyinin yüksəldilməsinə və ölkənin beynəlxalq miqyasda mövqeyinin möhkəmləndirilməsinə təminat yaradan innovasiya potensialının qiymətləndirmə mexanizmlərinin işlənməsi olmuşdur. İşin nəticəsində innovasiya aktivliyinin qiymətləndirilməsinin regional xüsusiyyətləri nəzərə alınmaqla beynəlxalq təcrübə araşdırılmışdır. Region anlayışı üzrə meyarlar əsasında Avropa Komissiyasının regional innovasiya cədvəlinə uyğun olaraq tərtib etdiyi göstəricilər və innovasiya liderlərini fərqləndirən göstəricilər, Avropa ölkələri üzrə innovasiyaların ərazi modelləri və modellər üzrə səmərəlilik göstəriciləri, İqtisadi Əməkdaşlıq və İnkişaf təşkilatının metodologiyasına uyğun olaraq innovasiya siyasətinin əhatə etdiyi sahələr tədqiq edilmişdir. İnnovasiya indeksinin hesablanması üzrə beynəlxalq meyarlar nəzərə alınmaqla regional innovasiya aktivliyi qiymətləndirilmişdir.

İş 4. Neft maşınqayırma klasteri: beynəlxalq təcrübənin tədqiqi.

Tədqiqat işində Rusiya Federasiyası (Tümen vilayətində neft-qaz maşınqayırma və servis klasterinin reallıqları və inkişaf perspektivləri, Samara vilayətində maşınqayırmanın inkişaf ssenariləri, Başkortostan Respublikasının Tuymazı-Oktyabrsk ərazi mikrosistemində klaster, Perm diyarının neft və dağ-mədən maşınqayırma klasteri və Krasnoyarskda neftservis və nefthazırlıq klasteri) və Qazaxıstan Respublikasında iqtisadiyyatın inkişafında klaster yanaşmasına dair təcrübələrə baxılaraq ümumiləşdirilmiş nəticələr əks edilmişdir.

İş 5. Yerli mütəxəssislərin sənaye üzrə innovativ təkliflərinin təşviqinə dair təklif və tövsiyələrin hazırlanması.

İqtisadiyyat Nazirliyinin tərkibində yerli mütəxəssislərin innovativ təkliflərinin sənaye sektorunda təşviqi məqsədi ilə dövlət orqanlarının, müəssisələrin və elmi təşkilatların nümayəndələrindən ibarət İnnovasiyaların Təşviqi Qrupu yaradılmışdır. 2015-cü il mart ayında İnnovasiyaların Təşviqi Qrupunun növbəti iclası keçirilmiş, innovasiyayönümlü texnologiyaların tətbiqi, texnologiyaların qiymətləndirmə meyarları və s. məsələlər müzakirə olunmuşdur. Təşviq Qrupu tərəfindən bir neçə texnologiyalara baxılmış və müvafiq rəy verilmişdir.

İş 6. Yerli ixtiraçılar tərəfindən patentlərinin rəsmiləşdirilməsinin dəstəklənməsinə dair beynəlxalq təcrübənin tədqiqi.

Tədqiqat işində xaricdə əqli mülkiyyətin hüquqi qorunması (xarici ölkələrdə əqli mülkiyyət obyektlərinin qeydiyyatında, patent kooperasiyası haqqında müqaviləyə uyğun olaraq ixtira və faydalı modellərin patentləşdirilməsində, Avropa patent konvensiyasına uyğun olaraq ixtiraların qeydiyyatında, Avrasiya patent konvensiyasına uyğun olaraq ixtiraların qeydiyyatında hüquqi dəstəyin əsas mərhələləri), ABŞ-da hökumət idarələri (Ticarət Nazirliyinin Milli Standartlar Bürosunun İstehsalat Texnologiyaları Mərkəzi, Patentlər və Ticarət Nişanələrinin İdarəsi) və qeyri-kommersiya təşkilatının (İxtiraçıların Amerikan Klubu) xidmətləri, Rusiya Federasiyasında Texnologiya və İnnovasiyaların Dəstəyi Mərkəzi (Protvin), İxtiraçıların Dəstəyi və Strateji Texnologiyaların Tətbiqi Fondu, patent büroları (Moskva ş., Sankt-Peterburq ş.) və müvafiq təklifləri, həmçinin Ukrayna (Kiyev ş.) və Belorusiyanın (Minsk ş.) patent MMC-lərinin fəaliyyətləri sahəsində aidiyyəti təcrübələr təhlil olunaraq ümumiləşdirilmiş və bu əsasda Azərbaycan Respublikasında yerli ixtiraçılar tərəfindən patentlərinin rəsmiləşdirilməsinin dəstəklənməsinə dair təklif və tövsiyələr hazırlanmışdır.

***Problem. Enerji və infrastruktur xidmətlərinin sosial-iqtisadi inkişaf göstəricilərinə təsirinin qiymətləndirilməsi*.**

İş 1. Azərbaycanın enerji balansının sahələrarası təhlili.

Tədqiqat işi çərçivəsində Sosial Hesablar Matrisi (SHM) əsasında beynəlxalq praktikada geniş istifadə olunan SHM multiplikator modelləri qurulmuşdur. Belə ki, əvvəlcə 19 iqtisadi sahə üzrə tərtib olunan Sahələrarası balansdan "Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı" sahəsi ayrılmış, 20 iqtisadi sahə üzrə tərtib olunmuşdur. Görülən iş daha da genişləndirilərək 96 iqtisadi sahə üzrə sahələrarası balans qurulmuşdur və bunun əsasında SHM də 20 və 96 iqtisadi sahə üzrə tərtib olunmuşdur. Eyni zamanda SHM multiplikator modelləri də tərtib olunmuşdur. 20 sahə üzrə tərtib olunan multiplikator modelində "Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı" sahəsi ekzogenləşdirilmişdir.

Genişləndirilmiş SHM-in Leontyev qiymət multiplikatorları ilə "Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı" sahəsində baş verən qiymət dəyişikliklərinin Azərbaycan iqtisadiyyatına və onun sahələrinin inkişafına təsirinin qiymətləndirilməsi ilə aşağıdakı işlər görülmüşdür:

- "Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı" sahəsi istisna olmaqla bütün digər sahələrdə məcmu təklifin qiymət səviyyəsi sabit saxlanılmış, "Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı" sahəsinin məcmu təklifinin qiymət

səviyyəsində dəyişiklik edilmişdir. Nəticədə bütün sahələr üzrə ekzogen təklif normalarında baş verən dəyişiklikliyin nəticələri alınmışdır;

- “Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı” sahəsi istisna olmaqla, bütün digər sahələrdə ekzogen təklif normaları sabit saxlanılmış, “Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı” sahəsinin ekzogen təklif normalarında dəyişiklik edilmişdir. Nəticədə bütün sahələr üzrə məcmu təklifin qiymət səviyyəsində baş verən dəyişiklikliyin nəticələri alınmışdır;
- “Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı” sahəsinin ekzogen təklif normalarında və qalan digər sahənin məcmu təklifinin qiymət səviyyəsində edilən dəyişikliyin “Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı” sahəsinin məcmu təklifinin qiymət səviyyəsində və qalan digər sahənin ekzogen təklif normalarında yaratdığı təsirlərin nəticələri alınmışdır.

İş 2. Azərbaycanın enerjiyə qənaət və enerji effektivliyi planının tərtibi.

Tədqiqat nəticəsində, ilk növbədə, enerjinin səmərəli istifadəsi sahəsində bir sıra ixtisaslaşmış xarici ölkələrin təcrübəsi, həmçinin Azərbaycanda enerji səmərəliliyinin perspektivləri araşdırılmış və müqayisəli təhlil aparılmışdır. Daha sonra ölkənin alternativ enerji perspektivləri tədqiq edilmiş, iqtisadi təhlili aparılmış və ölkədə bərpa olunan enerji istehsalının gücləndirilməsi nəticəsində ölkənin enerji ixracatında baş verəcək müsbət dəyişikliklər müəyyən olunmuşdur.

İş 3. “Azərbaycan neft modeli”nin qurulması üçün ilkin araşdırmaların aparılması.

Tədqiqat işinin məqsədi Azərbaycan Respublikasında neft-qaz sektorunda (hasilat, emal və istifadə) baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərinin təhlili və qiymətləndirilməsi məqsədilə tətbiqi modelin qurulması üçün ilkin araşdırmaların aparılmasından ibarət olmuşdur.

İşin icrası istiqamətində Excel bazasında aşağıdakı işlərin görülmüşdür:

- Azərbaycanın bütün neft-qaz yataqları üzrə aylıq hasilat verilənlərinin toplanması və emalı;
- ölkə daxilində neft-qaz və onun məhsullarnın istifadəsinin aylıq verilənlərinin toplanması və emalı;
- məlumat və idarəetmə bazasının strukturunun müəyyənləşdirilməsi.

***Problem. İnsan kapitalının gücləndirilməsi, bilik və bacarıqların artırılması.***

İş 1. Müvafiq sahələrdə tanınmış yerli və beynəlxalq təlim-tədris mərkəzləri ilə əlaqələrin qurulması (modulların hazırlanması və tədbirlərin keçirilməsi).

Bu istiqamətdə 9 fevral 2015-ci il tarixdə İİETİ-də “ODTÜ Texnopark: dünəni və bu günü” mövzusunda online seminar (məruzəçilər: Ufuk BATUM və Azər KARABIYIK), 7 may 2015-ci il tarixdə “Müasir iqtisadi modellər” mövzusunda seminar (məruzəçi: Murat ÇETİNKAYA), 15-17 sentyabr 2015-ci il tarixdə “İƏT Elm Fondu ilə əməkdaşlıq əlaqələri” mövzusunda müzakirə və görüş (məruzəçi qonaq: Mansur Hüseyn SOOMRO), 22 sentyabr 2015-ci il tarixdə “Yol nəqliyyatının təhlükəsizliyi” mövzusunda təqdimat-seminar (məruzəçi qonaq: Alan ROSS və Mariya İVÇENKO), 28 sentyabr-2 oktyabr 2015-ci il tarixdə “Azərbaycanda universitet-sənaye əməkdaşlığının cari vəziyyətinin tədqiqi” mövzusunda görüş və seminar (məruzəçi qonaq: Tolga ÖZBOLAT) keçirilmişdir.

Həmçinin 2015-ci ildə dövlət büdcəsi vəsaitləri ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 oktyabr 2015-ci il tarixli 290s nömrəli Sərəncamına əsasən İqtisadiyyat və

Sənaye Nazirliyi ilə İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu arasında müqavilə əsasında "Azərbaycanda innovasiya aktivliyinin qiymətləndirilməsi və innovasiya fəaliyyətinin səmərəsinin artırılması üçün təklif və tövsiyələrin hazırlanması" mövzusunda tədqiqat işi həyata keçirilmişdir. Həmçinin cari ildə "ADA" Universiteti ilə əməkdaşlıq davam etdirilmiş, "İqtisadi Əməkdaşlıq Təşkilatı Tədqiqat Mərkəzinin fəaliyyəti üzrə prosedur sənədlərinin və kadr potensialının gücləndirilməsi modulların hazırlanması" mövzusunda tədqiqat işi aparılmışdır.

2015-ci ildə İnstitutda beynəlxalq qurumlarla və xarici partnyorlarla əlaqələrin qurulması işləri davam etdirilmişdir. Belə k, İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) ilə əməkdaşlıq aşağıdakı istiqamətlər üzrə aparılmışdır:

İƏT-in Bakıda Tədqiqat Mərkəzinin Nizamnaməsinin Azərbaycan Hökuməti tərəfindən təsdiq edilməsi məqsədilə müvafiq yazışmalar aparılmış, zəruri sənəd layihələri araşdırılaraq tərtib edilmişdir;

İƏT-lə birgə əməkdaşlıq çərçivəsində"İqtisadi Əməkdaşlıq Təşkilatı üzv ölkələrində ekoloji təmiz kənd təsərrüfatının inkişaf etdirilməsi sahəsində təcrübə mübadiləsi və qurumlararası əməkdaşlığın gücləndirilməsi" mövzusunda tədqiqat layihəsi istiqamətində işlər davam etdirilmişdir;

Təqdim olunmuş digər "Ümumi Tarazlıq Modelinin (ÜTM) İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrdə tətbiq imkanlarının öyrənilməsi və potensialın gücləndirilməsi" mövzusunda tədqiqat təklifi üzrə İƏT-in müvafiq tövsiyəsi nəzərə alınmaqla işlərin aparılması davam etdirilmişdir;

3-4 dekabr 2015-ci il tarixlərində Ankara şəhərində (Türkiyə Respublikası) Türkiyə İnkişaf Nazirliyinin birgə təşkilatçılığı ilə İƏT-in İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) İqtisadi Tədqiqatlar üzrə Daimi İşçi Qrupunun 4-cü və "İqtisadiyyat" Jurnalının Redaksiya Heyətinin 3-cü iclaslarında iştirak edilmiş, birgə tədqiqat layihələrinin, eləcə də "İqtisadiyyat" Jurnalının fəaliyyəti üzrə hesabat-təqdimatlar keçirilmişdir. Jurnalın Baş redaktorluğu yenidən Azərbaycan tərəfinə (V.Vəliyev) həvalə olunmuşdur;

Nəhayət İƏT-in 13-17 dekabr 2015-ci il tarixlərində Tehran şəhərində (İran İslam Respublikası) Daimi Nümayəndələr Şurasının (RPC) 26-cı iclasında (N.Məmmədov) iştirak etmiş, yuxarıda sadalanan məsələlərlə yanaşı, İƏT-in Baş katibinin rəhbərliyi ilə nümayəndə heyətinin ölkəmizə planlaşdırılan səfəri işçi qaydada müzakirə edilmişdir.

Orta Doğu Texniki Universitetinin nəzdində Texnopark ilə əməkdaşlıq iki istiqamət üzrə aparılmışdır: - Universitet-sənaye əməkdaşlığının gücləndirilməsi, texnoparklarla işin təkmilləşdirilməsi istiqamətində Orta Doğu Texniki Universitetinin nəzdində Texnoparkla sıx əməkdaşlıq nəzərə çarpacaq dərəcədə inkişaf etdirilmişdir. Belə ki, ODTU Texnoparkın maliyyə dəstəyi ilə qurumun əməkdaşı xanım Azər Karabıyık 3 noyabr 2014-cü il - 30 iyun 2015-ci il tarixlərində Bakıda (İqtisadi İslahatlar ETİ-də) fəaliyyət göstərmişdir; - Azərbaycanda texnoparkların inkişafı və fəaliyyətinin ekspert qiymətləndirməsinin həyata keçirilməsi məqsədilə 2015-ci ilin 28 sentyabr – 2 oktyabr tarixlərində ODTU Texnoparkın əməkdaşı Tolga Özbolat tərəfindən "Azərbaycanda universitet-sənaye əməkdaşlığının cari vəziyyətinin tədqiqi" mövzusunda qısa müddətli tədqiqat aparılmışdır. İslam İnkişaf Bankının (IDB) və ODTU Texnoparkın birgə maliyyə dəstəyi ilə həyata keçirilən tədqiqatda 10 ali təhsil və tədqiqat müəssisələri ziyarət edilmiş, Azərbaycanda texnoparkların qurulması və inkişafı tədqiq edilmiş, müvafiq hesabat hazırlanmışdır.

İslam İnkişaf Bankı (IDB) və İslam Tədqiqat və Təlim İnsititutunun (IRTI) ilə əməkdaşlıq çərçivəsində 14-18 dekabr 2015-ci il tarixlərində Xaçmaz şəhərində "Yoxsulluğun azaldılması üçün İslami mikromaliyyələşmə" mövzusunda növbəti regional təlimin keçirilməsi baş tutmuşdur. Həmçinin Qazaxıstanın "Dövlət-Özəl Sektor Əməkdaşlıq Mərkəzi" ilə 2015-ci ilin 25 dekabr tarixində Anlaşma memorandumu imzalanmış və ilkin addım kimi "Qazaxıstanda regional səviyyədə ümumitarazlıq modelinin (CGE) genişləndirilməsi" mövzusunda birgə tədqiqatın aparılmasına dair razılığa gəlinmişdir.

2015-ci ərzində kadr potensialının gücləndirilməsi məqsədilə müxtəlif xarakterli elmi və elmi-texniki tədbirlərin keçirilməsi davam etdirilmişdir. Belə ki, 2015-ci ilin 9 fevral tarixində ODTU Texnoparkın (Türkiyə Respublikası) əməkdaşları "ODTÜ Texnopark: dünəni və bu günü" mövzusunda onlayn, 2015-ci ilin 6 may tarixində isə Gazi Universitetinin (Türkiyə Respublikası) dosenti cənab Murat Çetinkayanın məruzəsi ilə "Müasir iqtisadi modellər" mövzusunda seminarlar; 2015-ci ilin 15-17 sentyabr tarixlərində İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) Elm Fondunun prezidenti cənab Mansur Hüseyn Soomronun təqdimatında, 2015-ci ilin 22 sentyabr tarixində beynəlxalq ekspert cənab Alan Rossun və layihə əməkdaşı xanım Mariya İvçenkonun təqdimatında Avropa Komissiyası tərəfindən maliyyələşdirilən TRASEKA proqramının icrası istiqamətində həyata keçirilən layihə çərçivsində "Yol nəqliyyatının təhlükəsizliyi" mövzusunda təqdimat-seminar; 2015-ci ilin 28 sentyabr – 2 oktyabr tarixlərində isə ODTU Texnoparkın əməkdaşı cənab Tolga Özbolatın iştirakı ilə qısamüddətli mütəxəssis qiymətləndirməsi seminarı; və nəhayət 2015-ci ilin 14-18 dekabr tarixlərində İslam İnkişaf Bankı (IDB), İslam Tədqiqat və Təlim İnsititutunun (IRTI) və İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun (İİETİ) birgə təşkilatçılığı çərçivəsində Xaçmaz şəhərində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanın nümayəndələri üçün "Yoxsulluğun azaldılması üçün İslami mikromaliyyələşmə" mövzusunda təlim keçirilmişdir. Ümumilikdə, İnstitutun əməkdaşları İqtisadiyyat və Sənaye nazirinin 29 yanvar 2014-cü il tarixli, F-08 (Treninqlərin təşkil edilməsi haqqında) nömrəli əmrinin icrasına əsasən 15 təlimdə iştirak etmişlər.

Nəşr fəaliyyəti üzrə sahibkarların maarifləndirilməsi məqsədilə "Logistika: məlumat kitabı", "Müəssisənin rəqabətqabiliyyətliliyini necə yüksəltməli?", "İnnovasiya sual-cavabda" adlı vəsaitlərin hazırlanması üzrə iş aparılmışdır Onlardan "İnnovasiya sual-cavabda" adlı vəsait hesabat ilində ardıcıl olaraq "İqtisadiyyat" qəzetində işıq üzü görmüşdür.

2015-ci il ərzində İnstitutun Elmi Şurasının 5 iclası keçirilmişdir. İclaslarda İnstitutda yerinə yetirilən elmi tədqiqat işlərinin mövzuları, doktorant və dissertantların dissertasiya işlərinin mövzuları və s. bu kimi məsələlərin müzakirələri təşkil olunmuş, həmçinin doktorantlarının attestasiyalarının nəticələri, 2015-ci ildə İnstitut tərəfindən yerinə yetirilən elmi tədqiqat işlərinin planına dəyişikliklərin edilməsi ilə bağlı təkliflər müzakirə edilmiş və müvafiq qərarlar qəbul edilmişdir.

Fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə doktoranturaya qəbul məqsədilə "Respublika" qəzetinin 17 oktyabr 2015-ci il tarixli 226 (5387) nömrəli sayında verilmiş elana əsasən İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda doktoranturaya qəbul imtahanları keçirilmişdir. 25 dekabr 2015-ci il tarixdə keçirilmiş İnstitutun Elmi Şurasının qərarı ilə 6 nəfər namizəd fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya, 6 nəfər namizəd fəlsəfə doktoru hazırlığı üzrə dissertanturaya, 2 nəfər namizəd isə elmlər doktorluğu hazırlığı üzrə

dissertanturaya qəbul edilmişlər. 2015-ci ildə İnstitutda fəlsəfə doktoru proqramı üzrə 30 doktorant və 18 dissertant, elmlər doktoru proqramı üzrə isə 10 dissertant təhsil almışdır.

2015-ci ildə İnstitutun 2 doktorantı və 1 dissertantı dissertasiya işlərini ilkin variantda bitirərək təqdim etmiş, onların namizədlik dissertasiyası ilkin müzakirədən müvəffəqiyyətlə keçmiş və müvafiq Dissertasiya Şuralarına təqdim olunmaları haqda qərar qəbul edilmişdir. Eyni zamanda, İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu tərəfindən aparıcı təşkilat kimi 8 namizədlik dissertasiya işlərinin müzakirəsi təşkil edilmiş, onlara müvafiq rəylər verilmişdir. Bir sıra dissertasiya işlərinin avtoreferatlarına, dissertasiya işlərinin əsas müddəalarını özündə əks etdirən təhriri-məruzələrə İnstitutun əməkdaşları tərəfindən müvafiq rəylərin verilməsi təmin olunmuşdur.

2015-ci ildə elmi-redaksiya heyətinin sədri i.e.d., professor Vilayət Məmməd oğlu Vəliyevin rəhbərliyi ilə institutun "Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri" adlı elmi əsərlər toplusunun XV buraxılışı çap edilmişdir.





Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun Elmi Şurasının qərarı əsasında nəşr olunur

Elmi-redaksiya heyəti:

V.M.Vəliyev (sədr)
O.İ.İbrahimov (sədr müavini)
G.Z.Yüzbaşiyeva
N.A.Yusifbəyli
V.H.Abbasov
A.D.Hüseynova
E.F.Qasımov
S.H.Abasova
V.Ə.Rüstəmov
F.Q.Mikayılov
M.M.Mehdiyev
Ə.M.Babaşov
S.Z.Abbasəliyeva (məsul katib)
T.Ş.Salıfova (korrektor)

Azərbaycan Respublikasında iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu, XV buraxılış, Bakı, 2015, 224 səh.

$A\frac{0601000000-5}{071-2015}$ Qrifli nəşr

© İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu, 2015



MÜNDƏRİCAT

**Emil QASIMOV** *i.f.d., İİETİ-nin direktor müavini,*
**Arzu SÜLEYMANOV** *İİETİ-də şöbə müdiri*
İqtisadi inkişafa investisiyaların təsiri .......... 5

**Эсма ЭМИР-ИЛЬЯСОВА** *д.н., гл.н.сотр. отдела «Международные отношения и международное право» ИФП НАНА* Развитие международного туризма в Азербайджанской Республике .......... 15

**Vahid Abbasov** *i.e.d., prof.,*
**Fərhad Mikayılov** *i.f.d.,*
**Vəfa Cəfərova** *İİETİ-nin böyük elmi işçisi,*
**Aliya Şabanova** *İİETİ-nin mütəxəssisi*
Aran iqtisadi rayonunda istehsal sahələrinin mövcud vəziyyəti və inkişaf prioritetləri .......... 35

**Пархоменко А.В.,** к.э.н., *доцент Института интеллектуальной собственности Национального университета «Одесская юридическая академия» в г. Киеве*
Интеллектуальный капитал как основа развития постиндустриальной экономики .......... 64

**Fərhad MİKAYILOV** *i.f.d.,*
**Elxan İMANOV** *İİETİ-nin aparıcı elmi işçisi,*
**Kamil BƏŞİRLİ** *İİETİ-nin mütəxəssisi*
Lənkəran iqtisadi rayonunda rekreasiya potensialının ərazi üzrə yerləşdirilməsi .......... 76

**Samirə Abasova** *i.e.n.,dos.*
Azərbaycan və qonşu MDB dövlətlərində innovasiya yönümlü iqtisadiyyatın inkişaf istiqamətləri .......... 96

**Fərhad Mikayılov** *i.f.d.,*
**Vəfa Cəfərova** *İİETİ-nin böyük elmi işçisi*
Beynəlxalq təcrübə əsasında ilkin peşə təhsili üzrə adambaşına maliyyələşmə mexanizmlərinə dair bəzi məsələlər .......... 113

3

**Samirə Abasova** *i.e.n.,dos.*
Sosial müdafiə sisteminin nəzəri-metodoloji əsasları .......... 122

**Mehrəli BABAŞLI**, *magistr,*
**Əmirxan BABAŞOV** *i.e.n., dosent*
İnşaat materiallarının istehsalı iqtisadiyyatın dinamik inkişafının əsas amillərindəndir .......... 132

**Nərminə İSMAYILOVA** *İİETİ-nin dissertantı*
Üzüm istehsalı və emalı sahəsində klaster yanaşmanın tətbiqi .......... 142

**Könül Qəhrəmanova** *İİETİ-nin dissertantı*
Azərbaycanın dünya iqtisadiyyatına səmərəli inteqrasiyasında beynəlxalq və regional maliyyə institutları ilə əməkdaşlığın rolu .......... 172

**Səriyyə İbrahimova** *İİETİ-nin doktorantı*
Azərbaycanda yanacaq enerji kompleksinin yeni perspektivləri .......... 181

**Nərminə İSMAYILOVA,** *İİETİ-nin dissertantı*
Sənaye parklarının sahəvi xarakteristikasında klaster yanaşması .......... 191

**Xalid Cavadov** *İİETİ-nin doktorantı*
Sənayenin innovasiya infrastrukturu .......... 200

**Yəhya Sənan** *İİETİ-nin doktorantı*
Rəqabətqabiliyyətli milli iqtisadiyyatın formalaşdırılmasında dövlət marketinq strategiyasının rolu .......... 217

4

**2016-cı ildə** İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması istqamətində tədbirlər məqsədyönlü, sistemli və ardıcıl şəkildə davam etdirilmişdir. Belə ki, 2016-cı ilin əvvəlində İnstitutun İş Planı İqtisadiyyat Nazirliyinin fəaliyyət istiqamətləri nəzərə alınmaqla tərtib edilmiş, müvafiq şöbələr və struktur bölmələri ilə razılaşdırılmaqla təsdiq olunmuşdur. 2016-ci ildə İnstitutda İş Planı üzrə nəzərdə tutulmuş aşağıdakı istiqamətlərdə və mövzularda elmi tədqiqat işləri yerinə yetirilmişdir:

***Problem. Azərbaycan Respublikasının ümumi tarazlıq modelinin işlənməsi və modelləşdirmənin inkişafı*.**

İş 1. İstehlak bazarında baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərinin təhlili və modelləşdirilməsi.

Tədqiqatın məqsədi Azərbaycan Respublikasında istehlak bazarında baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərinin təhlili və qiymətləndirilməsi üçün tətbiqi modellər işlənilməsindən və mütəmadi olaraq, konkret şəraitin tələbləri və bu istiqamətdə əldə olunmuş yeni elmi və praktiki nəticələr nəzərə alınmaqla, onların təkmilləşdirilməsindən ibarət olmuşdur.

Tədqiqat işində müvafiq nəzəri-metodoloji müddəalarla yanaşı, dünya təcrübəsi əsas götürülməklə Azərbaycan Respublikasında istehlak bazarının məcmu tələb, məcmu təklif və bunun əsasında tarazlıq modelləri təklif olunub. Tədqiqat işi sistemli yanaşma əsasında məntiqi ümumiləşdirmə, qruplaşdırma, analitik təhlil və riyazi modelləşdirmə kimi tədqiqat üsullarının köməyi ilə yerinə yetirilmişdir. Tədqiqat işində qeyd olunmuş nəticələrin əldə edilməsi məqsədilə istifadə olunmuş və qurulmuş modellər tələb olunan şərtlərə cavab verməklə, istifadə olunan məlumatlar rəsmi mənbələrdən götürülmüşdür.

Əsas nəticələr müasir nəzəri-metodoloji yanaşmalara və mütərəqqi beynəlxalq təcrübələrə əsaslanaraq, Azərbaycanın istehlak bazarında baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərinin təhlili və qiymətləndirilməsi işini təkmiləşdirmək üçün tətbiqi modellər işlənilmiş, onlar vasitəsilə cari vəziyyətin təhlili və qiymətləndirilməsi aparılmış və bu əsasda

istehlak bazarının tənzimlənməsinin səmərəliliyinin yüksəldilməsi üçün əsaslandırılmış təklif və tövsiyələr hazırlanmışdır. Bununla yanaşı, işlənilmiş modellərin sonrakı dövrlərdə mütəmadi olaraq, konkret şəraitin tələbləri və bu istiqamətdə əldə olunmuş yeni elmi və praktiki nəticələr nəzərə alınmaqla, təkmilləşdirilməsi və yeni modellərin işlənilməsi və istifadəsi üzrə təkliflər hazırlanmışdır.

İş 2. Azərbaycanın Ümumi Tarazlıq Modeli əsasında investisiyaların ölkə iqtisadiyyatına təsirlərinin qiymətləndirilməsi.

Tədqiqat işindən ölkə iqtisadiyyatına yönəldilən investisiyaların təsirləri ilə bağlı qiymətləndirmələr üzrə alınmış nəticələr aşağıdakı kimi ümumiləşdirilmişdir:

➢ Sahələrarası əlaqələr nəzərə alınmaqla investisiya qoyuluşlarının təsirinin qiymətləndirilməsi üçün, baxılan məsələlərin xüsusiyyətlərindən asılı olaraq müvafiq ekonometrik, SAB, SHM multiplikator və ümumi tarazlıq modellərinin qurulması əsasında kompleks yanaşma verilmişdir ki, bu dövlət investisiyalarının rasional bölgüsünün aparılması, sahəvi və regional proqramlarının hazırlanması, ölkədə investisiya və biznes mühitinin inkişaf etdirilməsi, investisiyaların səmərəli istifadəsi mexanizmlərinin işlənilməsi və digər məsələlərin həll edilməsinə imkan verir;

➢ Müxtəlif mənbələrdən iqtisadiyyata qoyulan investisiyaların çoxamilli ekonometrik təhlili bir sıra kəmiyyət və keyfiyyət qiymətləndirmələrinin əldə olunmasına şərait yaratmışdır: (a) ümumilikdə istehsal faktorlarının hər birinin ayrı-ayrılıqda artımı ÜDM-in artımını təmin edə bilir və istehsal faktorlarının eyni sürətlə artımı istehsalın yüksələn səmərəli artımı ilə müşayiət olunur; (b) xarici investisiyalara daxili investisiyalar mənfi əmsalla statistik əhəmiyyətsiz, ÜDM və qeyri-neft ixracı müsbət statistik əhəmiyyətli, neft ixracı, qısamüddətli depozitlərə faiz dərəcəsi və real effektiv məzənnə mənfi statistik olaraq əhəmiyyətli təsir edir; (c) birbaşa xarici investisiyalara ÜDM-in həcmi müsbət, ixrac və daxili investisiyalar isə mənfi təsir edir; (d) dövlət investisiyaları daha çox özəl sektor üçün maraqlı sahələrə qoyulur ki, bu da özəl sektorun investisiyalarının həcminə mənfi təsir edir;

➢ Sahələrarası münasibətlər nəzərə alınmaqla investisiyaların ölkə iqtisadiyyatına təsirlərinin qiymətləndirilməsinin SAB və SHM multiplikator modelləri qurulmuşdur ki, bu əsasda tarazlıq şərti daxilində sahələrin qarşılıqlı təsir effektlərini qiymətləndirməyə, investisiyaların sahələr üzrə rasional paylanmasını müəyyən etməyə, sahəvi və reginal investisiya proqramlarının işlənməsinə, sahələrin rəqabətqabiliyyətliliyinin artırılmasına imkan verir. Modellər vasitəsilə simulyasiyaların aparılması kapital qoyuluşlarının dəyişməsi üzrə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq və tikinti kimi iqtisadi sahələrdə multiplikator əmsallarının yüksək olduğu müəyyənləşmişdir;

➢ Kapitaldan istifadə üzrə vergilərin dəyişilməsi əsasında Azərbaycanın Ümumi Tarazlıq Modeli − AzMOD vasitəsilə investisiyaların ölkə iqtisadiyyatına və onun ayrı-ayrı sahələrinin inkişafına təsiri müəyyənləşdirilmişdir və bu əsasda ssenari qiymətləndirmələri bir sıra effektləri müəyyən etməyə imkan vermişdir: (a) kapitaldan istifadəyə vergilərin artırılması cəmi investisiyalara tələbi, əsas kapitala investisiyaları, cəmi investisiya qoyuluşlarını, ixracı azaldır, dövlət gəlir və xərclərini artırır, nəticədə ÜDM-in azalmasına səbəb olur; (b) kapitaldan istifadəyə vergilərin azaldılması isə tamamilə əks mənzərə yaradır. Qiymətləndirmələr göstərir ki, investisiyalar daha çox əlavə dəyər yaradan, elm və innovasiya tutumlu sahələrə yönəldilməlidir.

İş 3. Ümumi Tarazlıq Modeli vasitəsi ilə qeyri-neft sektoruna müxtəlif iqtisadi təsirlərin qiymətləndirilməsi (qeyri-neft emalı sənayesi timsalında).

Tədqiqatın məqsədini Azərbaycan iqtisadiyyatında qeyri-neft emalı sənayesi üzrə ümumi tarazlıq modellərindən istifadə etməklə sahəvi təsirlərin qiymətləndirilməsi və təhlillərin aparılması təşkil edib.

Aparılmış təhlil və yerinə yetirilmiş qiymətləndirmələrdən aşağıdakı nəticələr əldə edilmişdir:

- Neft emalı iqtisadi sahəsi üzrə ekzogen tələbin 20% artımı nəticəsində həmin iqtisadi sahənin məcmu tələbi 7.03%, cəmi məcmu tələbi isə, 0.448% artır;
- Qeyri-neft sənayesi iqtisadi sahəsi üzrə ekzogen tələbin 20% artımı nəticəsində həmin sahənin məcmu tələbi 7.61%, cəmi məcmu tələb isə, 1.343% artır;
- Qeyri-neft emalı iqtisadi sahəsi üzrə kapital qoyuluşlarının 20% artırılması həmin sahənin məcmu tələbinin 6.47%, cəmi məcmu tələbin isə, 1.14% artmasına səbəb olur;
- Neft emalı sənayesi üzrə multiplikator əmsalı 2.2, qeyri-neft emalı sənayesi üzrə isə, 1.5 alınır;
- Emal sənayesi üzrə ÜDM istehsalının artımın vahid artımı ÜDM artımının 13.72 vahid artmasına səbəb olur.

Tədqiqat işində sahəvi təsirlərin qiymətləndirilməsində istifadə olunan SHM modeli Azərbaycan Respublikasının Milli Hesablar Sisteminin göstəricilərinə əsaslanmaqla, Birləşmiş Millətlər Təşkilatının qeyd olunan məsələlərlə bağlı təlimat və qaydalarına uyğun tərtib olunmuşdur.

İş 4. Maliyyə proqramlaşdırması və siyasəti (FPP) modelinin Azərbaycan Respublikasında tətbiqi üçün Nazirliyə dəstək verilməsi.

Tədqiqat işində Maliyyə Proqramlaşdırması modelinin xüsusiyyətləri və praktiki tətbiqi istiqamətləri müəyyənləşdirilmiş və müasir dövrdə çatışmayan cəhətləri orataya qoyulmuşdur. Məlum olmuşdur ki, qeyd olunan tədqiqat işinin qısa və ortamüddətli ekonometrik proqnozların işlənməsi ilə genişləndirilməsi istiqamətində tədqiqatların aparılması Nazirliyin əsas makroiqtisadi göstəricilərin proqnozlaşdırılmasında dəstəyin göstərilməsinə xidmət edəcəkdir.

Tədqiqat işinin praktik əhəmiyyəti makroiqtisadi sabitliyə nail olmaq məqsədilə geniş istifadə olunan maliyyə proqramlaşdırması aləti haqqında geniş informativ məlumat verməsi olmuşdur. Tədqiqat işində Maliyyə proqramlaşdırması modelinin nəzəri metodoloji əsasları Beynəlxalq Valyuta Fondunun təlimatına uyğun olaraq öyrənilmişdir.

İş 5. Azərbaycan Respublikasında qeyri-dövlət pensiya fondlarının fəaliyyətinin təşkili üçün aktual modellərin hazırlanması.

Tədqiqat işi emprik, analitik-statistik təhlil, aktual təhlil kimi tədqiqat üsullarının köməyi ilə yerinə yetirilmişdir. Tədqiqat işində inkişaf etmiş ölkələrin qeyri-dövlət pensiya fondlarının fəaliyyət mexanizmlərinin aktual hesablanmasının elmi-metodoloji əsasları işlənilmiş; qeyri-dövlət pensiya fondlarının BEL və MoS metodları ilə fəaliyyət mexanizminin aktuar modeli qiymətləndirilmiş; qeyri-dövlət pensiya fondlarında pul axınları və ödəmə qabiliyyəti aktuar hesablamaları ilə hesablanmış və fondların fəaliyyətinin təşkili istiqamətində əməli təklif və tövsiyələr hazırlanmışdır.

İş 6. Sistemli iqtisadi məlumat bazasının strukturunun hazırlanması. Tədqiqatın məqsədi Azərbaycan iqtisadiyyatının qısa və ortamüddətli proqnoz modelinin işlənilməsi üçün

sistemli məlumat bazasının strukturunun formalaşdırılması olmuşdur. Əsas nəticələr Excel proqram təminatında realizasiya olunan strukturda istehsal və xərclər üzrə Milli hesablar sistemi göstəriciləri, İstehsalın indeksləri, Qiymətlər və əməkhaqqı, tədiyyə balansı, dövlət maliyyəsi, pul və digər əsas göstəricilər illik, rüblük və aylıq formatda təsnifləşdirilmişdir. İlkin olaraq Excel bazasında hazırlanmış məlumat bazası iqtisadiyyatın monitorinqinin və qısamüddətli proqnozların aparılması üçün istifadə edilməsi nəzərdə turtulmuşdur.

***Problem. Xarici ticarət və ölkənin beynəlxalq rəqabətqabiliyyətliliyinin artırılması.***

İş 1. Çoxtərəfli beynəlxalq ticarət sazişlərinə qoşulmaq sahəsində təcrübələr, perspektivlər və təhdidlərin öyrənilməsi.

Tədqiqatın məqsədi Ümumdünya Ticarət Təşkilatı (ÜTT) çərçivəsində çoxtərəfli beynəlxalq sazişlərin Azərbaycan Respublikasının xarici ticarət potensialına mümkün təsirlərinin qiymətləndirilməsindən və yarana biləcək mənfi meyillərin aradan qaldırılması istiqamətində əməli təklif və tövsiyələr hazırlanmasından ibarətdir. Tədqiqatın başlıca nəticələri və bu əsasda irəli sürülən əməli təkliflər qısa və konkret şəkildə aşağıdakılardan ibarət olmuşdur:

1. Keçid iqtisadiyyatlı və inkişaf etməkdə olan ölkələrə məxsus olan xüsusiyyətlər bu ölkələrdə xarici ticarət potensialının inkişafı və səmərəli istifadəsinə xüsusi yanaşmanı tələb edir. Hesab edirik ki, onlar üçün xarici ticarət potensialının daha səmərəli reallaşdırılması üçün beynəlxalq sazişlərə qoşulmaq zərurətdən irəli gəlir və bu əməkdaşlıq işin birinci bölməsində müəyyən olunmuş metodoloji prinsiplərlər əsasında formalaşdırıla bilər;

2. Azərbaycanın xarici ticarətinin müasir vəziyyətinin təhlilinə əsaslanaraq bu qənaətə gəlirik ki, milli istehsalın rəqabət qabiliyyətliliyi aşağı səviyyədədir. Lakin bununla belə, beynəlxalq sazişlərdən məqsədyönlü istifadə xarici ticarət potensialının daha səmərəli reallaşdırılmasına təkan verər. Bu məqsədlə ÜTT-ə tam hüquqlu üzv statusunun əldə edilməsi istiqamətində iş aparmaq (potensial üstünlükləri və itkiləri müqayisə etmək, danışıqlar taktikasını müəyyən etmək, müvafiq təcrübəni öyrənmək, verilə biləcək güzəştlərin optimal variantını hesablamaq və s.), xarici iqtisadi fəaliyyətin milli tənzimlənmə sisteminin hüquqi-normativ bazasının beynəlxalq hüquq normaları və dünya praktikası, o cümlədən ÜTT-nin tələbləri əsasında tamamlamaq və təkmilləşdirmək lazımdır;

3. Azərbaycan Respublikasında çoxtərəfli beynəlxalq sazişlərə qoşulması keçid iqtisadiyyatlı ölkələr üçün birinci bölmədə göstərilən metodoloji prinsiplərə əsaslanmaqla işin ikinci və üçüncü bölmələrində ölkəmiz üçün müəyyən olunmuş yerli xüsusiyyətləri, inkişaf perspektivlərini, əsas istiqamətləri və konkret təklifləri nəzərə almalıdır;

4. Qida təhülkəsizliyinin təminatı sisteminin ÜTT-nin, Avropa Birliyinin və müvafiq beynəlxalq təşkilatların tələblərinə uyğunlaşdırılması və məhsulların təhlükəsizliyinin və keyfiyyətinin yüksəldilməsi istiqamətində işlər intensivləşdirilməklə ölkədə yeyinti məhsullarına dair norma və qaydalar qida təhlükəsizliyinə dair Kodeks Alimentarius, bitki məhsulları üzrə Beynəlxalq Bitki Mühafizəsi Konvensiyası, heyvan mənşəli məhsullar üzrə Beynəlxalq Epizootik Büronun tələblərinə uyğunlaşdırılması istiqamətində tədbirlər planı hazırlanacaq və plana uyğun şəkildə standartların harmonizasiyası aparılmalıdır;

5. ÜTT-ə üzv olduqdan sonra kənd təsərrüfatının qarşılaşa biləcəyi itkilərin qarşısının alınması məqsədilə baytarlıq-sanitariya və sanitariya-epidemioloji tələblərə uyğun ət kəsimi və satışı mərkəzlərinin yaradılması təmin olunmalı, ərzaq məhsullarının təhlükəsizlik

standartları beynəlxaq standartlara uyğunlaşdırılmaqla ÜTT-ə üzv olduqdan sonra beynəlxalq standartları geniş şəkildə tətbiq edən Rusiya bazarına çıxışla bağlı risklər aradan qaldırıla bilər.

İş 2. Qeyri-neft ixracının artırılması və diversifikasiyası üzrə əsaslandırılmış təkliflərin verilməsi.

Tədqiqat işində qeyri-neft ixracının artırılmasına təsir edən faktorların öyrənilməsi, iqtisadi-riyazi modelin qurulması, təklif və tövsiyələrin hazırlanması qarşıya məqsəd qoyulmuşdur. Sözügedən məqsədin həyata keçirilməsi üçün qeyri-neft ixracınına təsir edən amillər tədqiq edilmiş, iqtisadi xüsusiyyətləri nəzərə alınmaqla onların sinfi təsnifatı verilmiş, faktorların seçilməsinin meyarları müəyyən edilmişdir. Müəyyən edilmiş meyarların təsiretmə səviyyələrinin qiymətləndirilməsində çoxmeyarlılığın mövcud olması, eləcə də hər faktorun təsirinin ədədi qiymətləndirilə bilməməsi səbəbindən faktorların təsir etmə üstünlüklərinin qiymətləndirilməsi üçün qeyri-səlis məntiqin köməyi ilə metodoloji yanaşma işlənilmişdir.

İş 3. İqtisadi Əməkdaşlıq Təşkilat (ECO) çərçivəsində regional və iqtisadi əməkdaşlıq sahəsində beynəlxalq təcrübənin öyrənilməsi.

Tədqiqatın məqsədi müasir dövrdə milli iqtisadiyyatların inkişafı çərçivəsində regional və iqtisadi əməkdaşlığa dair beynəlxalq təcrübənin araşdırılmasıdır. Bu istiqamətdə dünya iqtisadiyyatının qloballaşması prosesləri dövlətlərin ərazi əlamətinə görə regional-iqtisadi yaxınlaşması iqtisadi əməkdaşlıq və regional inteqrasiya baxımından araşdırılmışdır. İqtisadi gücləri öz ətrafında cəmləşdirən mərkəzlərdən biri kimi tədqiqatda Avropa birliyinə xüsusi fikir verilmişdir. Belə ki, hesabat dövründə tədqiqat işi çərçivəsində xüsusilə Avropa regionunda yerləşən Regional İqtisadi Əməkdaşlıq (RİƏ) təşkilatlarının əhəmiyyəti, faydaları, təşkilati formaları şərh edilmiş, Avropa regionunda yerləşən Avropa İqtisadi Zonası (European Economic Area), Avropa İqtisadi Birliyi (European Economic Community), Avropa Birliyi (European Union), Regional Əməkdaşlıq Şurası (Regional Cooperation Council) və Aralıq Dənizi Birliyinin (Union for the Mediterranean) yaranmasının tarixi zərurəti, üzvləri, məqsəd və digər əsas xüsusiyyətləri tədqiq edilmişdir.

***Problem. Azərbaycanda regionların iqtisadi inkişaf səviyyəsinin və iqtisadi potensialının qiymətləndirilməsi və sahibkarlığın inkişafı məsələlərinin tədqiqi***.

İş 1. İqtisadi rayonların pasportlarının yenilənməsi.

Bu işin məqsədi ölkənin iqtisadi rayonları üzrə hazırlanmış sosial-iqtisadi pasportlarının mütəmadi olaraq hər il Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi nəşrləri əsasında yenilənməsindən ibarətdir. Hesabat ilində iqtisadi rayonların pasportları DSK-nın son nəşrlərinin məlumatları əsasında yenilənmişdir.

İş 2. Şəki-Zaqatala iqtisadi rayonunda turizm və kurort potensialının qiymətləndirilməsi və bunun nəticəsində Dünya Bankı layihəsinin səmərəliliyinin artırılması üçün təkliflərin verilməsi.

Tədqiqat işinin məqsədi Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi rayonunda rekreasiya potensialının yerləşməsi, müasir vəziyyətdə istifadə olunmasının təhlilinin aparılması və gələcəkdə bu potensialdan istifadə üçün təklif və tövsiyələrin hazırlanmasından ibarət olmuşdur.

Mövzu üzrə tədqiqat planına uyğun olaraq turizmin inkişafına təsir edən amillər statik və dinamik olaraq qruplaşdırılmış, ayrı-ayrılıqda təhlil edilmişdir. Turizm sektorunun digər sahələrə təsir imkanları öyrənilmiş, iqtisadi rayon üzrə mehmanxana və mehmanxana tipli müəssisələr araşdırılmışdır. Ümumilikdə, işdə Şəki-Zaqatala iqtisadi rayonunun inzibati

rayonlarında turizm-rekreasiya və istirahət sahələrinin yaradılması üçün imkanlar göstərilmiş, Dünya Bankı göstəricilərindən və metodoloji yanaşmalardan istifadə etməklə turizm sahəsində müqayisəli təhlillər aparılmış, iqtisadi rayonda rekreasiya-turizm və kurort müəssisələri şəbəkəsinin artırılması üçün təkliflər verilmişdir.

İş 3. Dağlıq Şirvan iqtisadi rayonunda ekoloji turizm (kənd turizmi) potensialının müəyyənləşdirilməsi.

Tədqiqat işinin məqsədi Azərbaycanın turizm potensialında mühüm çəkiyə malik olan Dağlıq Şirvan iqtisadi rayonunda ekoloji turizm (kənd turizmi) potensialını müəyyənləşdirmək və müvafiq olaraq inkişaf istiqamətləri haqqında təkliflər verməkdən ibarət olmuşdur. Tədqiqat işi istiqamətində Dağlıq Şirvan iqtisadi regionunun (ayrı-ayrı inzibati rayonlar nəzərə alınmaqla) ümumi turizm potensialı müyyənləşdirilmiş, beynəlxalq təcrübə əsasında ekoloji turizmin inkişaf istiqamətləri öyrənilmiş, Dağlıq Şirvan iqtsadi rayonunun ekoloji turizm potensialı müəyyənləşdirilmişdir. Bölgədə turizm fəaliyyətinin stimullaşdırılması, informasiya-təbliğat işinin gücləndirilməsi, milli, tarixi-mədəni, sosial-iqtisadi və təbii xüsusiyyətlərin nəzərə alınması yolu ilə turizm marşrutlarının yaradılması, yerli əhalinin yeni iş yerləri və gəlir imkanlarının artırılması istiqamətlər üzrə təkliflər hazırlanmışdır.

***Problem. Qeyri-neft sahələrinin inkişafının qiymətləndirilməsi.***

İş 1. Yeyinti sənayesi üzrə müqayisəli üstünlüyə malik olan sahələrin (məhsulların) müəyyənləşdirilməsi və onların istehsal və ixrac potensialının inkişafı üzrə təkliflərin hazırlanması.

Tədqiqat çərçivəsində aşağıdakı işlər yerinə yetirilmişdir:

- Müvafiq sahədə müasir nəzəri-metodoloji əsaslar və mütərəqqi dünya təcrübəsinin əsas xüsusiyyətləri öyrənilmiş;
- Azərbaycan Respublikasında yeyinti sənayesi üzrə müqayisəli üstünlüyə malik olan sahələr (məhsullar) dəqiqləşdirilmiş;
- Azərbaycan Respublikasında yeyinti sənayesi üzrə müqayisəli üstünlüyə malik olan sahələr (məhsullar) üzrə istehsalın və ixracın mövcud vəziyyəti təhlil olunmuş və qiymətləndirilmiş;
- Azərbaycan Respublikasında yeyinti sənayesi üzrə müqayisəli üstünlüyə malik olan sahələr (məhsullar) üzrə istehsalın və ixracın artırılması perspektivləri və problemləri müəyyənləşdirilmiş;
- Azərbaycan Respublikasında yeyinti sənayesi üzrə müqayisəli üstünlüyə malik olan sahələr (məhsullar) üzrə istehsalın və ixracın inkişafının dəstəklənməsi ilə əlaqədar əsaslandırılmış təkliflər hazırlanmışdır.

İş 2. Azərbaycanda innovasiya tipli məşğulluğun maliyyələşdirilməsinin müasir mexanizmləri.

Əsas nəticə olaraq innovasiya tipli məşğulluğun maliyyələşdirilməsinə imkan verən mexanizmlərə dair aşağıdakı təkmilləşdirmə tədbirləri təklif olunmuşdur:

- iqtisadiyyatın müxtəlif sahə və institutsional qurumlarını əhatə edən islahatların aparılması;
- innovasiyaları maliyyələşdirən müəssisələrə vergi kreditlərinin tətbiqi;
- beynəlxalq təcrübədə mövcud olan innovasiyaları maliyyələşdirmə mexanizm və stimullaşdırma tədbirlərinin qanunvericilik bazasında əks olunması, bu mexanizmlər barədə

sahibkarlar və investorlar üçün maarifləndirici tədbirlərin təşkili (məsələn, vençur maliyyələşdirilməsi);

➢ innovasiyaların maliyyələşdirilməsində risklərlə əlaqədar zəmanət mexanizminin təkmilləşdirilməsi;

➢ innovasiya tipli məşğulluğun dəqiq ölçülərinin müəyyən edilməsi üçün innovasiya statistikasında innovasiyaların tətbiq səviyyəsinə görə müəssisə və təşkilatların təsnifləşdirilməsi, innovativ və qeyri-innovativ firmaların müəyyən edilməsi, innovativ firmalarda tədqiqat və işləmələrə xərclər, daim təkmilləşdirilən məhsul və xidmətlər, işçilərin yenidən hazırlanmasına xərclər, universitet və tədqiqat mərkəzlərilə əməkdaşlıq, məhsulların sərgilərdə iştirak səviyyəsi və s. üzrə sorğuların aparılması, innovativ firmalarda işləyən və əldə edilən innovasiya məhsulunun həcmini, həmçinin, innovasiya məhsulu daxilində proses və məhsul innovasiyaları məhsulunun qruplaşdırılması;

➢ innovasiya auditi standartlarının milli inkişaf modelinə uyğun ölçülərini müəyyən etməklə standartların hazırlanması;

➢ innovasiya auditinin tədrisi və bu sahədə kadrların hazırlanması;

➢ innovasiya auditinin müəssisələrin fəaliyyətində riskləri azaltmasına rəvac verməsi rəhbər tutulmaqla maarifləndirmə tədbirlərinin reallaşdırılması.

İş 3. Yerli mütəxəssislərin sənaye üzrə innovativ təkliflərinin təşviqinə dair təklif və tövsiyələrin hazırlanması.

İnnovasiya infrastrukturunun bütün subyektləri ilə dövlət orqanlarının qarşılıqlı fəaliyyətini genişləndirmək məqsədi ilə İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu tərəfindən Azərbaycanın iqtisadi inkişafında mühüm əhəmiyyət kəsb edən “Azərbaycan Respublikasında innovasiya infrastrukturunun formalaşması və inkişafı haqqında” Qanunun və “İnnovasiya infrastrukturu subyektlərinin vahid dövlət reyestrinin yaradılması və aparılması haqqında” Əsasnamə layihələri hazırlanmışdır. Son illərdə Azərbaycanda innovasiya sahəsində verilən qanunvericilik, stimullaşdırma tədbirləri, sənaye və texnoloji parkların nümunəvi nizamnamələri, bu sahədə baş verən dəyişikliklər təhlil olunaraq qiymətləndirilmişdir.

Son nəticədə aşağıda adları sadalanan sənədləri özündə ehtiva edən Azərbaycanda innovasiya infrastrukturunun inkişaf konsepsiyası (strateji məqsəd və hədəfləri, sahənin inkişafı üzrə dövlət siyasətinin konseptual istiqamətləri, tənzimlənmə mexanizmləri və digər zəruri tədbirlər) işlənilmişdir:

➢ Azərbaycan Respublikasında innovasiya infrastrukturunun formalaşması və inkişafı haqqında” Azərbaycan Respublikasının Qanunu layihəsi;

➢ Azərbaycan Respublikasında innovasiya infrastrukturu subyektlərinin vahid dövlət reyestrinin aparılması qaydaları haqqında əsasnamə layihəsi;

➢ “Azərbaycanda beynəlxalq təcrübə əsasında texnoloji innovasiya məqsədli texnopark və aqroparkların yaradılması üzrə təklif və tövsiyələrin hazırlanması” tədqiqat işi üzrə hesabat;

➢ “İnnovasiya mərkəzlərinin yaradılmasına dair təklif və tövsiyələrin hazırlanması” tədqiqat işi üzrə hesabat.

İş 4. Ali məktəblər, elmi təşkilatlar və araşdırma mərkəzləri tərəfindən sənayenin inkişafı ilə bağlı elmi-tətbiqi, araşdırma və inkişaf etdirmə fəaliyyətinin dəstəklənməsi və sənaye müəssisələri ilə əlaqələrinin genişləndirilməsinə dair təcrübənin tədqiqi.

Tədqiqatın məqsədi “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”na müvafiq olaraq ali məktəblər, elmi təşkilatlar və

araşdırma mərkəzləri tərəfindən sənayenin inkişafı ilə bağlı elmi-tətbiqi, araşdırma və inkişaf etdirmə fəaliyyətinin dəstəklənməsi və sənaye müəssisələri ilə əlaqələrinin genişləndirilməsinə dair xarici təcrübənin tədqiqi əsasında ümumiləşdirilmiş təkliflərin hazırlanmasından ibarət olmuşdur.

Tədqiqat işində dünya təcrübəsində elmi təşkilatların və biznesin arasında qarşılıqlı fəaliyyət formaları kompleks təhlil edilmişdir. Rusiya Federasiyası, Tatarıstan Respublikası, Böyük Britaniya, ABŞ, İsveç və Avropa Komissiyası çərçivəsində ali təhsil, elmi-tədqiqat müəssisələrilə sənayenin qarşılıqlı fəaliyyət modelləri və elmi-tədqiqat, texniki-konstruktor işlərinin stimullaşdırılması vasitələri (inkişaf etmiş ölkələrdə dövlət tənzimlənməsinin birbaşa və dolayı vasitələri, ABŞ-da güzəştlər və əlavə hüquqlar, İƏİT ölkələrində vergi stimullaşdırılması, Rusiya Federasiyasında innovasiya fəaliyyətinin dövlət tənzimlənməsinin dolayı alətləri) sahələrində təcrübələrə baxaraq ümumiləşdirilmiş nəticələr əsasında təkliflər irəli sürülmüşdür.

İş 5. Postneft dövründə davamlı inkişafın təmin olunmasının struktur və investisiya problemləri.

Tədqiqatın məqsədi müvafiq nəzəri-metodoloji əsaslar və mütərəqqi dünya təcrübəsi nəzərə alınmaqla, Azərbaycanda iqtisadiyyatın formalaşmış sahə və ərazi strukturu ilə bağlı mövcud problemləri tədqiq edərək, postneft dövründə davamlı inkişafın təmin olunmasına imkan verən mütərəqqi struktur-investisiya siyasətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi və bu istiqamətdə həyata keçirilməsi zəruri olan siyasət tədbirlərinin hazırlanması üçün əməli təklif və tövsiyələr irəli sürməkdən ibarət olmuşdur.

Tədqiqat işində iqtisadiyyatda struktur-investisiya siyasətinin aparılması ilə davamlı inkişafın təmin olunmasının elmi-metodoloji əsasları konkretləşdirilmiş, struktur-investisiya siyasətinin aparılması sahəsində beynəlxalq təcrübə öyrənilmiş, Azərbaycanda iqtisadiyyatın formalaşmış sahə və ərazi strukturu və aparılan struktur dəyişiklikləri siyasəti ilə bağlı mövcud vəziyyət təhlil olunaraq qiymətləndirilmiş, postneft dövründə davamlı iqtisadi inkişafı təmin edə biləcək iqtisadiyyatın yeni strukturunun formalaşmalaşdırılması ilə bağlı əməli təklif və tövsiyələr hazırlanmışdır.

İş 6. İslam maliyyələşməsinin Azərbaycanın qeyri-neft sektorunun inkişafına tətbiqi imkanlarının araşdırılması.

Tədqiqatın məqsədi qeyri-neft sektorunun inkişaf etdirilməsində maliyyə mənbəyi kimi islam maliyyəsindən istifadə etmənin üstünlüklərinin və imkanlarının araşdırılmasıdır.

Tədqiqat işində Azərbaycanın qeyri-neft sektorunun vəziyyəti, islam maliyyə sisteminin xüsusiyyətləri, maliyyələşmə alətləri, müsəlman və qeyri-müsəlman ölkələrində inkişaf səviyyəsi və ölkəmizdə qarşıya çıxan problemlər araşdırılmışdır. Göstərilmişdir ki, islam maliyyə institutları ilə sıx əməkdaşlıq ölkəmiz üçün yeni investisiya mənbəyi, islam maliyyələşmə alətlərindən istifadə olunma isə qeyri-neft sektorunun, xüsusi ilə kiçik və orta sahibkarlığın inkişafına müsbət təsir göstərə bilər.

***Problem. Enerji və infrastruktur xidmətlərinin sosial-iqtisadi inkişafa təsirinin qiymətləndirilməsi.***

İş 1. Azərbaycanda enerji sektorunun sahələrarası təsirlərinin öyrənilməsi.

Enerji sektorunun iqtisadi sahələrə təsiri Sahələrarası balans və Sosial hesablar martisi multiplikator modelləri əsasında aparılmışdır. Bu modellər əsasında "mədənçıxarma və

elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələri"nin iqtisadiyyatın digər sahələrinə təsirləri qiymətləndirilmişdir.

İş 2. Azərbaycan Respublikası üçün neft modelinin işlənilməsi.

Tədqiqat işinin məqsədi Azərbaycanın Hasilatın Pay bölgüsü kontrakt sahələri üzrə mövcud tendensiyaları nəzərə almaqla müvafiq göstəricilərin qiymətləndirilməsinin və müvafiq proqnoz modelinin işlənilməsidir. Tədqiq edilən mövzu ilə əlaqədar Azərbaycanda istismarda olan kontrakt yataqları üzrə hasilatın pay bölgüsü haqqında məlumatlar, son illər üçün hasilatın göstəriciləri toplanmış və Excel cədvəlləri əsasında sistemləşdirilmişdir. Bununla ilkin olaraq Azərbaycanın quruda və dənizdə istismar olunan neft, qaz və kondensat yataqları üzrə məlumat bazası yaradılmışdır.

İş 3. 2020-ci ilədək dövr üçün istilik təchizatı sisteminin inkişaf proqramının hazırlanması.

Tədqiqat nəticəsində Azərbaycanda istilik təchizatının 2005-2015-ci illərdəki vəziyyəti ilkin olaraq təhlil edilmişdir. Təhlil zamanı ölkədə istiliyə olan tələbat, mövcud istilik mənbələri və mərkəzləşdirilmiş istilik təchizatı tarifləri araşdırılmışdır. Eyni zamanda, potensial yeni istilik mənbələri və yeni növ məhəlli istilik təchizatı sistemlərinin tətbiqinə baxılmış, Avropa və MDB ölkələrini istilik təchizatı sahəsində təcrübəsi öyrənilmişdir. 2020-ci ilədək dövr üçün istilik təchizatı sisteminin inkişaf proqramı hazırlanmışdır.

İş 4. Elektrik təchizatının dayanıqlı inkişaf modelinin hazırlanması.

İşin məqsədi kommunal sektorda enerjiyə qənaət olunması və ondan səmərəli istifadə olunması üçün dayanıqlı enerji təchizatı üzrə qiymətləndirmələrin aparılmasından ibarət olmuşdur. 1991-2015-ci illər üzrə Azərbaycanda elektrik enerjisinin istehsalı və istehlakı dinamikasının, elektrik enerjisinin idxal və ixracının və elektrik enerjisi tariflərinin təhlili aparılmışdır. Azərbaycanda mövcud olan baza elektrik stansiyaları üzrə ilkin texniki diaqnostikası və iqtisadi qiymətləndirilməsi həyata keçirilmişdir. Eyni zamanda, Qərbi Avropa, Asiya və MDB ölkələrində elektroenergetika bazarlarının strukturu, inkişaf meylləri və dayanıqlı enerji sistemi ilə bağlı fəaliyyəti araşdırılmışdır.

***Problem. İnsan kapitalının gücləndirilməsi, bilik və bacarıqların artırılması.***

İş 1. Müvafiq sahələrdə tanınmış yerli və beynəlxalq təlim-tədris mərkəzləri ilə əlaqələrin qurulması (modulların hazırlanması və tədbirlərin keçirilməsi) və İş 2. Müəyyən olunmuş sahələr üzrə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi üçün xarici ekspertlərin dəvət olunması və ya əməkdaşların ezam olunması.

Hər iki iş üzrə icraya müvafiq olaraq, "Thomson Reuters" şirkətinin informasiya resursları − "Web of Science" məlumat platforması, "Web of Science Core Collection" elmi nəşrlərin əsas referativ bazası, biblioqrafik məlumatlarla işləmək üçün "EndNoteOnline" proqram təminatı və tədqiqatçılar üçün "ResearcherID" müəllif profili kimi praktiki məsələlərə dair ətraflı məlumat əldə edilməsi məqsədilə cari ildə "Thomson Reuters" şirkətinin intellektual mülkiyyət və elmi tədqiqatlar üzrə əməkdaşları "Web of Science: müasir tədqiqatçılar üçün məlumat aləti" mövzusunda seminar təşkil etmişlər.

Ənənəvi olaraq 2016-cı ildə də İnstitutun əməkdaşları ümumilikdə 13 respublika xarici və 6 respublika daxili ezamiyyədə olmuşlar. Ölkə xarici ezamiyyələrin 9-u tədbir təşkilatçıları, digər bütün ezamiyyələr İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu tərəfindən maliyyələşdirilmişdir.

Ümumilikdə, 2016-cı ildə İnstitut əməkdşları Asiya İnkişaf Bankı (ADB) və Bankın Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) İnstitutunun (CI) birgə təşkilatçılığı ilə "Bütünləşmiş Mərkəzi Asiya üçün İqtisadi Əməkdaşlığın Dəstəklənməsi“ mövzusunda Mərkəzi Asiya Beyin Mərkəzlərinin İnkişaf Forumunda (Astana şəhəri, Qazaxıstan Respublikası); Mərkəzi Asiya regionunda 2050-ci ilə doğru əldə olunması arzu olunan perspektivin ifadə olunduğu tədqiqatın tədqimatı və geniş müzakirəsi məqsədilə "Mərkəzi Asiya 2050 – Regionun Potensialının Açılması" mövzusuna həsr olunmuş IV Avrasiya Forumunda (Astana şəhəri, Qazaxıstan Respublikası); "Yeni iqtisadi reallıqlar: diversifikasiya, innovasiya və bilik iqtisadiyyatı" mövzusunda Astana İqtisadi Forumu (AİF) və Forum çərçivəsində "Hiperqloballaşma dövrünün sonu: İqtisadi və maliyyə quruluşları üçün yeni şərtlər", "Böyük İpək yolu ölkələrinin forumu: Enerji, resurslar və dayanıqlı inkişaf" və "Yeni maliyyə texnologiyaları" mövzularında iclaslarda (Astana şəhəri, Qazaxıstan Respublikası); texnologiya və innovasiyaların idarəolunması üzrə Malaziya, İran təcrübələrinin öyrənilməsi ilə yanaşı, strateji marketinq, inkişaf etməkdə olan ölkələrdə əqli mülkiyyət məsələləri, onların kommersiyalaşdırılması, biznes təkliflərin hazırlanması, biznes strategiya və intellektual məhsulun təqdim olunması, kommersiyalaşdırılması, universitetlərin nəzdində Elm-Texnologiyalar Parklarında elmi tədqiqatların nəticələrinin kommersiyalaşdırılması, Elm Parkları üçün əsas uğur faktorları, yeni başlayanlar üçün kommersiyalaşdırma və s. bu kimi mövzuların əhatə olunduğu "İnkişaf etməkdə olan ölkələr üçün texnoloji sahibkarlıq" mövzusunda təlim və Şeyx Bahai Texnoloji Sahibkarlıq Festivalında (İsfahan şəhəri, İran İslam Respublikası) iştirak etmişlər.

2016-cı il ərzində İnstitutu kitabxanasının yeni elmi ədəbiyyatlarla zənginləşdirilməsi, nəşr işinin təşkili məqsədilə aşağıdakı işlər görülmüşdür:

- Mütəmadi olaraq kitabxana işləri yerinə yetirilmişdir. İl ərzində kitabxanaya 2 dəfə 45 ədəd kitab alınmışdır. Kitabxaya daxil olan dövri mətbuat və elmi ədəbiyyatların kataloqları və xülasələri hazırlanmışdır;
- Elmi-redaksiya heyətinin sədri i.e.d., professor Vilayət Məmməd oğlu Vəliyevin rəhbərliyi ilə İnstitutun "Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri" adlı elmi əsərlər toplusunun XVI buraxılışı nəşr edilmişdir;

2016-cı ildə də əvvəlki illərdə olduğu kimi beynəlxalq və regional təşkilatlarla, xarici tərəfdaşlarla işlərin aparılması davam etdirilmişdir:

Belə ki, İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) ilə əməkdaşlıq mövcud bir neçə istiqamət üzrə aparılaraq başa çatdırılmış və nəticələr ümumiləşdirilərək, müvafiq qaydada İƏT Katibliyinə təqdim olunmuşdur. Əməkdaşlıq çərçivəsində "İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) üzv dövlətlərində ümumi tarazlıq modelinin tətbiq imkanlarının öyrənilməsi və potensialın artırılması" (Study on Applicability of General Equilibrium Model in ECO Countries and Capacity Strengthening) mövzusunda tədqiqat layihəsi həyata keçirilmişdir. Adı çəkilən layihənin icrası çərçivəsində ilk regional təlim 2014-cü ilin 21-25 aprel tarixlərində İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO), İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu və EcoMod Şirkətinin birgə təşkilatçılığı ilə təşkil edilmişdir.

Ümumiyyətlə layihənin icrası istiqamətində İƏT üzv dövlətləri üçün Sosial Hesablar Matrisinin (SHM) hazırlanması və qurulmasına 2010-cu ildən başlanılmışdır. Birləşmiş Millətlər Təşkilatının (BMT) normativ hüquqi sənədlərinin tələbləri əsas götürülərək, hazırlanan SHM-ın ərsəyə gətirilməsində işlər:

(i) ölkənin Milli Hesablar Sisteminin (MHS) bütün göstəricilərinin əldə olunması və ilkin emalı;

(ii) MHS-in tərkib hissəsi olan məhsul və xidmətlərin istehsalı, bölüşdürülməsinin sahələrarası balansının (SAB) məhsula vergilərin sahələrarası cədvəli nəzərə alınmaqla istehlakçı qiymətlərlə hesablanması;

(iii) idxal və ixrac tariflərinin, istehsala vergilərin, məhsula vergilərin, faktor gəlirlərinə vergilərin və transfertlərin sahələr üzrə dərəcələrini və miqdarını göstərən məlumatların hazırlanması;

(iv) iqtisadi fəaliyyət növləri üzrə beynəlxalq təsnifata uyğun məhsul buraxılışının milli hesabların illik məlumatlarında göstərilən sahələrin sayı qədər aqreqatlaşdırılması; (v) iqtisadi agentlərin sayının milli hesabların illik məlumatlarında göstərilən iqtisadi agentlərin sayına qədər aqreqatlaşdırılması;

(vi) bütün məhsula vergilərin aralıq istehlak və son istehlak əlaməti üzrə təsnifləşdirilərək hazırlanmasından ibarət olmuşdur.

SHM hazırlandıqdan sonra oradakı bütün informasiyanın rəsmi statistik məlumatlara istinad olunması yenidən yoxlanılmış, məhz bundan sonra alınan nəticələr Ümümi Tarazlıq Modelinin (ÜTM) hazırlanmasında istifadə üçün istiqamətləndirilmişdir. Bundan başqa burada SHM bir sıra multiplikativ təsirlərin hesablanması üçün yenidən emal edilmiş və xətti multiplikator modellərinin tələblərinə uyğun formaya salınmışdır. Bu forma əsasında həm ümumi, həm də məhdud multiplikator modelləri qurulmuşdur. Məhz qeyd olunan bu metodologiyanın əsasında Qazaxıstan və Qırğızıstan respublikalarının SHM-i tərtib olunmuşdur.

"İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) üzv dövlətlərində ekoloji təmiz kənd təsərrüfatının inkişafı üzrə təcrübə mübadiləsi və agentliklər arasında əməkdaşlığın gücləndirilməsi" (Exchange of Experience and Strengthening Inter-Agency Cooperation on the Development of Ecologically Clean Agriculture in ECO Member Countries) mövzusunda tədqiqat layihəsi.

Sözügedən tədqiqat layihəsinin icrasına 2014-cü ildən başlanılmışdır. Ümumilikdə işin icrasına Azərbaycanla (layihə rəhbəri) yanaşı, Türkiyə, İran, Pakistan, Əfqanıstan, Qırğızıstan və Özbəkistandan mütəxəssislər cəlb edilmişdir.

İqtisadi Əməkdaşlıq Təşkilatı Tədqiqat Mərkəzinin (ECORC) Nizamnaməsinin müvafiq qaydada Azərbaycan Hökuməti tərəfindən təsdiq edilməsi (ratifikasiyası) istiqamətində işlərin aparılması davam etdirilmiş, İnstitutun üzrərinə düşən öhdəliklərin yerinə yetirilməsi demək olar ki, tamamilə başa çatdırılmışdır.

İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) Baş katibinin başçılığı ilə yüksək səviyyəli nümayəndə heyətinin ölkəmizə səfəri 2016-cı ilin 27-29 yanvar tarixlərində baş tutmuşdur. 2015-ci ilin 13 avqust tarixindən etibarən Azərbaycandan sonra ev sahibliyinə başlayan Türkiyə Hökumətinin təmsilçisi, səfir Halil İbrahim Akçanın İƏT-in Baş katibi seçildikdən sonra ilk səfəri İƏT üzv dövlətlərindən məhz Azərbaycana olmuşdur. Azərbaycanla əməkdaşlığa xüsusi diqqət ayıran qurum təmsilçisi səfər çərçivəsində ölkə başçısı Prezident İlham Əliyev cənabları, eləcə də iqtisadiyyat və xarici işlər nazirləri, habelə İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu ilə görüşlər keçirmişdir. Səfər çərçivəsində cənab Akçanı İƏT-in Baş katibinin müavini cənab Ali Ahşan Mangi (Pakistan) və İƏT-in Minerallar və Ətraf Mühit İdarəsinin rəhbəri cənab Orxan Zeynalov (Azərbayacan) müşayiət etmişlər.

Yanvarın 28-də İnstitutun direktoru cənab Vilayət Vəliyevlə keçirilən görüşdə cənab Akça İƏT-İİETİ əməkdaşlığının son illərdə daha intensiv və səmərəli təşkil olunmasından məmnunluğunu bildirmişdir. Görüşdə İƏT-in Bakıda yaradılması nəzərədə tutulan Tədqiqat Mərkəzinin fəaliyyətinin təşkili, "İqtisadi Əməkdaşlıq Təşkilatı üzv ölkələrində ekoloji təmiz kənd təsərrüfatının inkişaf etdirilməsi sahəsində təcrübə mübadiləsi və qurumlararası əməkdaşlığın gücləndirilməsi" və "İƏT ölkələrində Ümumi Tarazlıq Modelinin tətbiq imkanlarının öyrənilməsi və potensialın gücləndirilməsi" mövzularında layihələrin icrası ilə bağlı fikir mübadiləsi, habelə Qırğızıstanın paytaxtı Bişkek şəhərində təşkil ediləcək ikinci regional təlim üzrə hazırlıqların aparılması, İƏT-in "İqtisadiyyat" Jurnalının fəaliyyətinin təşkili və təkmilləşdirilməsi üzrə geniş fikir mübadiləsi aparılmışdır.

Görüşün sonunda cənab Akça Azərbaycan tərəfindən təsdiq edildikdən sonra Mərkəzin tamhüquqlu fəaliyyətinin təmin olunması məqsədilə Nizamnamənin Türkiyə və Pakistan hökumətləri tərəfindən təsdiq edilməsinə hazır olduqlarını bildirmişdir.

İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) tədqiqat layihəsinin (təklifin) təqdim edilməsi. İƏT-in İqtisadi Tədqiqatlar üzrə Daimi İşçi Qrupunun 4-cü (2015-ci il 3 dekabr, Ankara şəhəri (Türkiyə Respublikası)) iclasının yekunlarına, habelə İƏT-in müvafiq sorğusuna əsasən cari hesabat ilində "Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Tacikistanın Sosial Hesablar Matrisinin (SAM) qurulması və potensialın gücləndirilməsi" ("Setting Social Accounting Matrix (SAM) and Capacity Building for Azerbaijan, Kazakhstan, Kyrgyzstan and Tajikistan (Azerbaijan)") mövzusunda tədqiqat layihəsi baxılması üçün İƏT Katibliyinə təqdim edilmişdir (2016-cı il 14 mart tarixli İN-X/O-3384/2016 nömrəli məktub).

İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) üzv dövlətlərin tədqiqat təkliflərinə rəy verilməsi. İƏT-in İqtisadi Tədqiqatlar üzrə Daimi İşçi Qrupunun 4-cü (2015-ci il 3 dekabr, Ankara şəhəri (Türkiyə Respublikası)) iclasının yekunlarına, eləcə də iclasda geniş müzakirə olunan məsələlərdən biri − üzv dövlətlərin yeni layihə təkliflərinin təqdim edilməsinə dair İƏT-in müvafiq sorğusuna əsasən cari hesabat ilində İqtisadiyyat Nazirliyinin Elmi Tədqiqat İnstitutu tərəfindən Qazaxıstan Respublikası tərəfindən təqdim olunmuş "Regional səviyyədə "Xərc-Buraxılış" cədvəlinin dekompazisiyası" ("Decomposition of the İnput-Output Table at the Regional Level") və Pakistan İslam Respublikası tərəfindən təqdim olunmuş "İƏT regionunda ticarət modelləri üzrə tədqiqatın ikinci fazası" ("Second Study on Trading in ECO Region") mövzusunda tədqiqat layihələrinə müsbət rəy verilmişdir. Son illərdə geosiyasi dəyişikliklər və risklər, dünya əhalisinin sayının getdikcə artması, qaçqınçılıq, beynəlxalq ticarətdə baş verən aşağı sürətli artım tempi, dünya bazarlarında çaxnaşmalar və s. qlobal iqtisadi mühitindəki dəyişmələrin fonunda qabardılan məsələlərin "ECO Vision 2025" hədəflərinə, habelə qarşıdakı 10 il müddətində İƏT regionunda ölkələrin potensialın yüksəldilərək, birgə səmərəli şəkildə birgə istifadə olunması məqsədlərinə uyğun olduğu qənaətinə gəlinmişdir.

Həmçinin qeyd edək ki, Qazaxıstan və Pakistan İslam Respublikalarından tədqiqat layihələrini təqdim edən qurumlar − "İqtisadi Tədqiqatlar İnstitutu" ASC və Pakistanın İnkişaf edən İqtisadiyyatların Tədqiqi (PIDE) institutları kifayət qədər yüksək potensiala malik qurumlardır, bundan başqa İƏT-in İqtisadi Tədqiqatlar üzrə Daimi İşçi Qrupunun iclaslarında fəal iştirak etməklə yanaşı, İİETİ-nin İƏT-lə əməkdaşlıq əlaqələrinin qurulmasında daima dəstək göstərmişlər.

İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) "İqtisadiyyat" Jurnalının fəaliyyətinin təmin edilməsi istiqamətində işlər. İƏT "İqtisadiyyat" Jurnalının Redaksiya Heyətinin 3-cü (2015-ci

il 4 dekabr, Ankara şəhəri (Türkiyə Respublikası)) iclasının yekunlarına, habelə İƏT-in müvafiq sorğusuna əsasən cari hesabat ilində İƏT-in "İqtisadiyyat" Jurnalının fəaliyyətinin təkmilləşdirilməsi, alim və mütəxəssislər tərəfindən Jurnala olan akademik marağın artırılması məqsədilə növbəti 5 il (2016-2020-ci illər) ərzində icra edilməsi üçün Strateji Planın layihəsi hazırlanaraq, təqdim edilmişdir (2016-cı il 9 mart tarixli İSN-D/Y-4576/2016 nömrəli məktub).

Qeyd edək ki, İƏT-in "İqtisadiyyat" Jurnalının 1-ci və 2-ci iclasları müavafiq qaydada 2012-ci ilin 8 noyabr və 2014-cü ilin 26 aprel tarixlərində Bakı şəhərində İnstitutun ev sahibliyi ilə keçirilmişdir. Bu dövr ərzində Jurnalın Redaksiya Heyətinin tərkibi müəyyən edilmiş, 5-ci və 6-cı sayları (2013-2014-cü illərdə) işıq üzü görmüşdür. Belə ki, Jurnalın 5-ci sayı Redaksiya Heyətinin üzvlərinin məqalələrindən ibarət olmuş, 6-cı sayı isə 1-ci Bakı "Forum-Konfransı"nın (2013-cü il 5-6 sentyabr, Bakı şəhəri) nəticələrinə həsr olunmuşdur.

Jurnalın Redaksiya Heytinin növbəti − 3-cü iclasında isə yuxarıda sadalanan işlərlə məhdudlaşmamaq, Jurnalın İƏT regionunda tanınması və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətlərində işlərin aparılmasının zərurəti qeyd edilmişdir. Məhz bu məqsədlə İnstitut tərəfindən hazırlanan Strateji Planda mövcud çətinliklər və dünya təcrübəsi nəzərə alınaraq, Jurnalın İƏT üzv dövlətlərin Ali Attestasiya Komitələri və yaxud ona bərabər tutulan qurumlar tərəfindən qeydiyyata alınması, məqalələrin təqdim edilməsi və onlara rəylərin verilməsi mexanizminin işlənilməsi və tətbiqi üzrə addımların atılması – rəyçilərdən ibarət məlumat bazasının formalaşdırılması, məqalələrin qəbulu üçün Jurnalın internet səhifəsinin yaradılması, Jurnala Məsul Katibin təyin olunması, Jurnalın İƏT region ölkələrindəki mövcud istinad (indeksasiya) bazalarına daxil olunması istiqamətində işlərin aparılması, Jurnalın dövrülüyünün təmin edilməsi, müəlliflərin məlumatlandırılması, ümumilikdə Jurnal haqqında geniş ictimaiyyətin məlumatlandırılması və s. bu kimi işlərin aparılması sadalanmışdır.

İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) İllik İqtisadi Hesabatın təqdim edilməsi. İƏT-in İqtisadi Tədqiqatlar üzrə Daimi İşçi Qrupunun 4-cü (2015-ci il 3 dekabr, Ankara şəhəri (Türkiyə Respublikası)) iclasının yekunlarına, habelə İƏT-in müvafiq sorğusuna əsasən cari hesabat ilində Azərbaycanın sosial-iqtisadi göstəricilərinin əks olunduğu 2015-ci il üzrə hesabat ingilis dilində qarşı tərəfə təqdim edilmişdir.

2016-ci ilin digər bir əməkdaşlıq istiqaməti isə Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (Carec) İnstitutu ilə aparılan işlərdən ibarət olmuşdur. Belə ki, adı çəkilən İnstitutun sorğusu əsasında CAREC-in 2017-ci il üçün Fəaliyyət Proqramına daxil edilməsi məqsədilə təkliflər təqdim edilmişdir (2016-cı il 7 iyun tarixli İN-D/Y-9080/2016 nömrəli məktub). CAREC İnstitutu ilə əməkdaşlığın genişləndirilməsi məqsədilə qarşı tərəfin sorğusuna əsasən CAREC Ezamiyyə Proqramında (CAREC Secondment Program) iştirak etmək üçün İnstitutun əməkdaşının namizədliyi təklif olunmuşdur (2016-cı il 2 sentyabr tarixli İN-X/O-10409/2016 nömrəli məktub).

CAREC İnstitutunun İnstitutumuzla əməkdaşlıqda maraqlı olmaları qurumun cari ildə həyata keçirilmiş ekspert missiyalarında da özünü biruzə vermişdir. Belə ki, CAREC İnstitutunun direktor müavini cənab Yergali Dosmagambetin rəhbərliyilə ölkəmizdə işgüzar səfərdə olan nümayəndə heyəti ilə 2016-cı ilin 29 sentyabr tarixində İqtisadi İslahatlar ETİ-də görüş keçirilmişdir. Görüşdə İnstutumuzda aparılan tədqiqatlar, görülmüş işlər barəsində ətraflı məlumat əldə edən cənab Dosmagambet növbəti illərdə İnstitutumuzla birgə işlərin aparılmasına maraqlı olduqlarını bir daha vurğulamışdır. CAREC İnstitutunun nümayəndə heyətilə keçirilən görüşün nəticəsi kimi CAREC İnstitutuna məlumat və əməkdaşlığa çağırış

xarakterli məktub göndərilmiş, mövcud elmi və praktiki zəmin (potensial) bir daha qarşı tərəfin diqqətinə çatdırılmışdır.

2016-cı ilin digər bir əməkdaşlıq istiqaməti İsə İslam İnkişaf Bankının İslami Tədqiqat və Təlim İnstitutu (IRTI) ilə aparılacaq işlərə aid olmuşdur. Belə ki, əvvəlki illərə istinad edən səmərəli əməkdaşlıq əlaqələrinin 2017-2018-ci illərdə davam etdirilməsinə dair təklif irəli sürülmüşdür. İqtisadiyyat Nazirliyi tərəfindən prioritet olaraq, müəyyənləşdirilmiş mövzular, habelə İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun IRTI ilə əvvəlki illərdəki mövcud təcrübəsi, kadr potensialı, yerli qurumlarla əlaqələndirmə fəaliyyəti, eləcə də texniki imkanları nəzərə alınaraq, növbəti (2017-2018-ci) illərdə təlimlərin keçirilməsi üzrə əməkdaş qurum və əlaqələndirici seçilmişdir.

22-26 fevral tarixlərində Qırğızıstanın Bişkek şəhərində Qırğızıstanın Maliyyə Nazirliyi və Təlim Mərkəzinin ev sahibliyi və İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT), İslam İnkişaf Bankı (IDB), Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu və “AEEC Təlim və Tədqiqat Mərkəzi” MMC-nin həmtəşkilatçılığı ilə “İqtisadi siyasət üçün təsir analizləri” mövzusunda ikinci regional təlim keçirilmişdir. Tədbirdə İnstitutun əməkdaşları ilə bərabər Əfqanıstan, Pakistan, İran, Türkiyə, Qazaxıstan, Tacikistan, Qırğızıstan və Özbəkistandan olan nümayəndələri iştirak etmişlər. Təlim Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu və “AEEC Təlim və Tədqiqat Mərkəzi” MMC-nin əməkdaşları tərəfindən keçirilmişdir. Təlimin məqsədi iqtisadi siyasətin analitik təhlili üçün metodoloji yanaşmaların tətbiqinə dair müvafiq məlumat bazasının formalaşdırılması və sahə üzrə mütəxəssislərin hazırlanması olmuşdur. Belə ki, bu məqsədlə dinləyicilərə xərc-buraxılış cədvəlləri, Sosial Hesablar Matrisi (SHM), tarazlı qiymətlər, kapital modeli və ümumi multiplikativ modelləri haqqında məlumat verilmiş, praktiki məşğələlər keçirilmişdir.

2016-cı ilin 22-27 may tarixlərində Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) dəstəyi və İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun, Türk Katılım Bankaları Birliyi (TKBB), Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu, İstanbul Sabahattin Zaim Universiteti (İZU), İqtisadi Resursların Öyrənilməsi İctimai Birliyi (İRÖİB) və İqtisadi Araşdırmalar və Tədris Mərkəzinin (İATM) birgə təşkilatçılığı çərçivəsində “İslam bankçılığı” mövzusunda təlim keçirilmişdir. Türkiyənin Erciyes Üniversitenin professoru, Dr. Ekrem Erdem, Bülent Ecevit Üniversitenin dosenti, Dr. Hakan Sarıbaş, Sakarya Universitinin dosenti, Dr. Mahmut Bilen, İstanbul S.Zaim Üniversitenin professoru, Dr. İbrahim Güran Yumuşak və İstanbul Üniversitenin İlahiyat Fakültesi professoru, Dr. Servet Bayındırın məruzəsilə təşkil edilən təlimdə müvafiq sahədə fəaliyyət göstərən mütəxəssis, tədqiqatçı, mütəlif dövlət və özəl sektorun 40-dək nümayəndəsi iştirak etmişdir. Təlimdə “Müasir iqtisadi sistemlər”,”İslam iqtisadiyyatı və İslam düşüncəsi”, “İslam Bankçılığı və Maliyyəsinin əsas prinsipləri”, “Müasir İslami maliyyə məhsulları”, “İslam iqtisadiyyatı və mikromaliyyələşmə”, “Faizsiz bankçılıq düşüncəsinin yaranması və inkişafı” və s. bu kimi mövzu istiqamətində məruzələr dinlənilmiş, praktiki çalışmalar yerinə yetirilmişdir. Təlimin sonunda dinləyicilərə iştiraka dair sertifikat təqdim olunmuşdur.

2016-cı ilin 5 iyul tarixində İqtisadiyyat Nazirliyi, İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun və İqisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən "Sənayeləşmə və innovativ inkişaf" mövzusunda ictimai müzakirə olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 16 mart 2016-cı il tarixli

Sərənacamı ilə “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri”, 26 dekabr 2014-cü il tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı” təsdiq edilmiş və aidiyyəti qurumlara tapşırıqlar verilmişdir. Dövlət başçısı tərəfindən verilmiş tapşırıqların icrasına müvafiq olaraq, iyulun 5-də təşkil edilən "Sənayeləşmə və innovativ inkişaf" mövzusunda ictimai müzakirədə Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin, İqtisadiyyat Nazirliyinin nümayəndələri dövlət və özəl sənaye müəssisələrinin nümayəndələri, sahibkarlar, gənc alim və doktorantlar iştirak etmiş, sənayenin inkişafı istiqamətində görüləcək tədbirlər barədə müzakirələr aparılmış, ölkənin aparıcı sənaye müəssisələrinin nümayəndələrinin bu sahədə fikirləri dinlənilmişdir.

2016-cı ilin 12 oktyabr tarixində “Thomson Reuters” Şirkətinin intellektual mülkiyyət və elmi tədqiqatlar üzrə əməkdaşı cənab Valentin Boqorovun məruzəsilə “Web of Science: müasir tədqiqatçılar üçün məlumat aləti” mövzusunda seminar təşkil edilmişdir. 2016-cı ilin 9 dekabr və 23 dekabr tarixlərində “Regionların sosial-iqtisadi inkişafı: üzüm və fındıq istehsalı” və “Tətbiqi iqtisadi tədqiqatlar: problemlər və reallıqlar” mövzularında dəyirmi masaları keçirilmişdir.

Dəyirmi masalarda müvafiq olaraq, İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun 2016-cı il üzrə elmi tədqiqat iş planı və Azərbaycan Respublikası Prezidentinin sədirliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin 10 iyul və 7 oktyabr tarixlərində keçirilmiş iclaslarında verilmiş tapşırıqların, habelə iqtisadiyyat nazirinin 2016-cı il 21 iyul F-83 nömrəli əmri ilə təsdiq edilmiş Tədbirlər Planının 9-cu “Ölkənin müxtəlif bölgələrində fındıq istehsalı ilə bağlı araşdırmaların aparılması, bu sahəyə dövlət dəstəyinin davam etdirilməsi və fındıqçılığın inkişafına dair təkliflərin hazırlanması” və 2016-cı ilin 12 oktyabr tarixli F-111 nömrəli əmri ilə təsdiq edilmiş Tədbirlər Planının 16-cı “Üzümçülüyün şərabçılıqla əlaqələndirilməsi, yeni üzüm bağlarının salınmasına dövlət dəstəyinin daha da gücləndirilməsinə dair təkliflərin hazırlanması” bəndlərinin icrası istiqamətlərində aparılmış tədqiqatların nəticələrinə həsr olunmuşdur. Hər iki tədbirdə hesabat dövründə Azərbaycanın Ümumi Tarazlıq Modelinin (AzMod) əsasında investisiyaların olkə iqtisadiyyatına təsirlərinin qiymətləndirilməsi, habelə modeldən istifadə etməklə uzunmüddətli dövr üzrə iqtisadi hədəflərə nail olma səviyyəsinin müəyyənləşdirilməsi və qeyri-neft sektoruna müxtəlif iqtisadi təsirlərin qiymətləndirilməsi, eləcə də, uzunmüddətli və davamlı inkişafın təmin olunmasında Azərbaycanın regionlarında iqtisadi inkişaf səviyyəsinin, eləcə də iqtisadi potensialın qiymətləndirilməsi və sahibkarlığın inkişafı məsələləri də priotet tədqiqat sualları olmuşdur.

2016-cı il ərzində İnstitutun Elmi Şurasının 6 iclası keçirilmişdir. İclaslarda İnstitutda yerinə yetirilən elmitədqiqat işlərinin mövzuları, doktorant və dissertantların dissertasiya işlərinin mövzuları və s. bu kimi məsələlərin müzakirələri təşkil olunmuş, həmçinin doktorantların attestasiyalarının nəticələri, 2016-cı ildə İnstitut tərəfindən yerinə yetirilən elmi tədqiqat işlərinin planına dəyişikliklərin edilməsi ilə bağlı təkliflər müzakirə edilmiş və müvafiq qərarlar qəbul edilmişdir. Qeyd olunan ildə fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya altı ixtisas üzrə 19 nəfər, dissertanturaya isə 6 ixtisas üzrə 9 nəfər sənədlərini təqdim etmişdir. Elmlər doktorluğu hazırlığı üzrə dissertanturaya ayrılmış 2 ixtisas üzrə 1 nəfər sənədlərini təqdim etmişdir. 21 dekabr 2016-cı il tarixində İnstitutda təhsil alan doktorant və

dissertantların attestasiyası keçirilmişdir. 2016-cı ildə İnstitutda fəlsəfə doktoru proqramı üzrə 21 doktorant və 22 dissertant, elmlər doktoru proqramı üzrə isə 13 dissertant təhsil almışdır.

2016-cı ildə İnstitutun 7 doktorantı və 2 dissertantı dissertasiya işlərini ilkin variantda bitirərək təqdim etmiş, onların namizədlik dissertasiyası ilkin müzakirədən müvəffəqiyyətlə keçmiş və müvafiq Dissertasiya Şuralarına təqdim olunmaları haqda qərar qəbul edilmişdir. Eyni zamanda, İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu tərəfindən aparıcı təşkilat kimi 10 dissertasiya işinin müzakirəsi təşkil edilmiş, onlara müvafiq rəylər verilmişdir. Bir sıra dissertasiya işlərinin avtoreferatlarına, dissertasiya işlərinin əsas müddəalarını özündə əks etdirən təhriri-məruzələrə İnstitutun əməkdaşları tərəfindən müvafiq rəylərin verilməsi təmin olunmuşdur.




*Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin*
*İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun*
*Elmi Şurasının qərarı əsasında nəşr olunur*

**Elmi-redaksiya heyəti:**
**Vilayət Məmməd oğlu Vəliyev, İN İİETİ, direktor, i.e.d., prof.,** (sədr)
**Oruc İbrahim oğlu İbrahimov, İN İİETİ, direktor müavini, i.e.n.,** (sədr müavini)
**Emil Filman oğlu Qasımov, İN İİETİ, direktor müavini, i.ü.f.d.**
**Vəfa Hüseynağa qızı Rzayeva, İN İİETİ,elmi katib, i.e.n.** (şuranın katibi)
**Vahid Hacıbəy oğlu Abbasov, İN İİETİ, baş elmi işçi, i.e.d.**
**Gülənbər Arif qızı Əzizova, ADİU-nin "İqtisadiyyatın tənzimlənməsi" kafedrasının professoru, i.e.d.**
**Zakir Məcid oğlu Nəcəfov, İN İİETİ, baş elmi işçi, i.e.d.**
**Gülşən Zaid qızı Yüzbaşiyeva, AMEA, İqtisadiyyat İnstitutu, şöbə müdiri, i.e.d.**
**Yalçın Saleh oğlu Əzizov, İN, strateji planlaşdırma və proqnozlaşdırma şöbəsinin müdiri, i.e.n., dosent**
**Bulut Cihan Mehmet oğlu, İN İİETİ, baş elmi işçi, i.e.n., prof.**
**Hazi Əsgərxan oğlu Eynalov, İN İİETİ, baş elmi işçi, i.e.n.**
**Arzu Doğru qızı Hüseynova, İN İİETİ, şöbə müdiri, i.e.n.**
**Fərhad Qambəy oğlu Mikayılov, İN İİETİ, şöbə müdiri, i.ü.f.d.**
**Vaqif Əli oğlu Rüstəmov, İN İİETİ, baş elmi işçi,i.e.n.**
**Malik Məmməd oğlu Mehdiyev, İN İİETİ, baş elmi işçi, i.ü.f.d.**
**Sayalı Zal qızı Abbasəliyeva İN İİETİ, şöbə müdiri** (məsul katib)
**Tərana Şahvələd qızı Salifova, İN İİETİ, dissertant** (korrektor)

**Azərbaycan Respublikasında iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri.** Elmi əsərlər toplusu. XVI buraxılış. Bakı, 2016, 424 səh.

ISBN: 978-9952-8355-0-2

©İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu, 2016

***Problem. Azərbaycan Respublikasında makroiqtisadi proseslərin təhlili.***

İş 1. İqtisadi monitorinq və qısa müddətli proqnoz modelləri üçün məlumat bazasının hazırlanması.

İqtisadi modelləşdirmə və analitik təhlil şöbəsində hazırlanan Məlumat bazası Milli hesablar, Sənaye, Kənd təsərrüfatı, Qiymət, Dövlət maliyyəsi, Tədiyyə balansı, Bank və Pul göstəricilərini özündə birləşdirməklə 1995-2016-cı illəri əhatə edən dövrlər üzrə illik, rüblük və aylıq səpkidə məlumatları özündə əks etdirən məlumat bazasının strukturunun formalaşdırılması başa çatdırılmışdır.

İş 2. Ev təsərrüfatlarının gəlirləri ilə kommunal xidmətlərə xərcləri arasında əlaqənin tədqiqi.

Azərbaycan Respublikasında 2000-2015-ci illər üzrə aşağıdakı göstəricilərə görə məlumatlar toplanmışdır:

- Ev təsərrüfatlarının elektrik istehlakının həcmi (illər üzrə);
- Elektrik enerjisinin illər üzrə tarifləri;
- Ev təsərrüfatlarının illər üzrə kommunal xidmətlərinə görə adambaşına aylıq istehlak xərcləri;
- Uşaqlı və uşaqsız ev təsərrüfatlarının aylıq kommunal xidmətlər xərci;
- 1, 2, 3, 4 və çoxuşaqlı ev təsərrüfatlarının kommunal xidmətlərə dair adambaşına aylıq xərci;
- Ev təsərrüfatları başçısının cinsinə görə (kişi və ya qadın) aylıq kommunal xidmətlərə dair adambaşına xərci;
- Əhalinin sayının illər üzrə dəyişməsi;
- Ev təsərrüfatlarının illər üzrə gəlirləri;
- Uşaqlı və uşaqsız ev təsərrüfatlarının aylıq adambaşına gəlirləri;
- 1, 2, 3, 4 və çoxuşaqlı ev təsərrüfatlarının adambaşına aylıq gəlirləri;
- Ev təsərrüfatları başçısının cinsinə görə (kişi və qadın) adambaşına aylıq gəlirləri.

Müxtəlif kateqoriyalı (ev təsərrüfatı başçısının cinsi, uşaqlı, uşaqsız, 1, 2, 3, 4 və çoxuşaqlı) ev təsərrüfatları üzrə illik elektrik enerjisi xərcləri və ev təsərrüfatlarının illik kommunal xərcləri hesablanmışdır. Ev təsərrüfatlarının illik elektrik enerjisi xərclərinin məcmu kommunal xərclərdəki çəkisi müəyyən olunmuşdur. Kommunal xidmətlərin növləri üzrə xərclərin məcmu kommunal xərclərdən asılılığını göstərən xətti və loqarifmik asılılıqlar qurulmuşdur.

İş 3. Manatın mübadilə məzənnəsində dəyişikliklərin makroiqtisadi təsirlərinin modelləşdirilməsi.

Tədqiqat işinin məqsədi müvafiq sahədə mövcud olan elmi-nəzəri baxışların və beynəlxalq təcrübədə istifadə olunan metodoloji yanaşmaların ümumiləşdirilməsinə istinad etməklə, valyuta məzənnəsində dəyişikliklərin makroiqtisadi təsirlərinin modelləşdirilməsinin metodiki əsaslarının müasir dövrün xüsusiyyətləri nəzərə alınaraq təkmilləşdirməkdən, bu əsasda manatın mübadilə məzənnəsində dəyişikliklərin makroiqtisadi təsirlərinin təhlili və qiymətləndirilməsi üçün tətbiqi modellər qurulmasından ibarət olmuşdur.

Tədqiqat çərçivəsində plana uyğun olaraq aşağıdakı işlər yerinə yetirilmişdir:

- Valyuta məzənnəsində dəyişikliklərin makroiqtisadi təsirlərinin modelləşdirilməsinin elmi-nəzəri və metodoloji əsaslarını əks etdirən materiallar toplanaraq müqayisəli təhlil olunmuş və ümumiləşdirilmiş;

- Valyuta məzənnəsində dəyişikliklərin makroiqtisadi təsirlərinin modelləşdirilməsinin metodiki məsələləri öyrənilmiş və müəyyən seçimlər edilmiş;
- Valyuta məzənnəsində dəyişikliklərin makroiqtisadi təsirlərinin modelləşdirilməsi sahəsində mövcud təcrübələrin müqayisəli təhlili aparılmış;
- Manatın mübadilə məzənnəsində dəyişikliklərin makroiqtisadi təsirlərinin təhlili və qiymətləndirilməsi üçün tətbiqi modellər qurulmuş;
- Ölkə üçün qiymətləndirmələr və təhlillər aparılmış və bu əsasda müvafiq istiqamətdə siyasətə dair tövsiyələr hazırlanmışdır.

İş 4. Beynəlxalq təcrübə və ölkənin sosial-iqtisadi inkişaf səviyyəsi nəzərə alınmaqla Azərbaycan Respublikasında yoxsulluğun ölçülməsinin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması.

Bu tədqiqat işinin həyata keçirilməsi üçün iş planına uyğun olaraq müvafiq məlumatlar toplanılmış, davamlı olaraq müzakirələr aparılmaqla ədəbiyyatların xülasəsi tərtib olunmuşdur. Tədqiqat işinin birinci "Yoxsulluğun ölçülməsinin elmi-nəzəri və metodoloji əsasları" adlanan hissəsində yoxsulluq səviyyəsinə dair nəzəri yanaşmalar ümumiləşdirilmiş və bu sahədə araşdırma aparan müəlliflərin ədəbiyyatlarından xülasələr öz əksini tapmışdır. İkinci "Yoxsulluğun ölçülməsinin metodiki məsələləri" bölməsində yoxsulluq səviyəsinin ölçülməsinə dair müxtəlif metodologiyalar araşdırılmış və bu istiqamətdə olan qiymətləndirmə metodları geniş şərh edilmişdir. Üçüncü bölmə "Yoxsulluğun ölçülməsi sahəsində beynəlxalq təcrübələrin müqayisəli təhlili" adlanır ki, bu bölmədə BMT-nin İP-nın hesabatlarında verilmiş statistik baza əsasında Azərbaycan və digər oxşar ölkələr üzrə müqayisəli təhlillər öz əksini tapmış, həmçinin bir sıra ölkələrin bu istiqamətdə olan təcrübələri müqayisəli təhlil edilmişdir.

Növbəti bölmədə ölkəmizin sosial-iqtisadi, eləcə də milli-mənəvi dəyərləri nəzərə alınmaqla və BMT-nin İnkişaf Proqramı tərəfindən qəbul edilmiş metodologiyanın bazası əsasında hazırlanmış müvafiq sorğu əsasında Azərbaycan Respublikasında çoxölçülü amillər əsasında yoxsulluğun ölçülməsinə imkan verən sorğu anketləri hazırlanmış, keçirilmiş sorğuların nəticələrinə uyğun olaraq, həm ölkə üzrə ümumilikdə, həm də iqtisadi rayonlar üzrə yoxsulluq səviyyəsi qiymətləndirilmişdir. Ümumilikdə tədqiqat işi yekunlaşdırılmış və İqtisadiyyat Nazirliyinin 4 dekabr 2017-ci il tarixli İN X/O-15219/2017 nömrəli məktubu ilə Dövlət Statistika Komitəsinə təqdim edilmişdir.

***Problem. Xarici ticarət əlaqələrinin inkişafı və ölkənin beynəlxalq rəqabətqabiliyyətliliyinin artırılması.***

İş 1. İƏT çərçivəsində əməkdaşlığın regional prioritetlərinin müəyyənləşdirilməsi.

Regional və iqtisadi əməkdaşlığa hər zaman böyük önəm verən Azərbaycan Respublikasının İƏT ölkələri ilə münasibətləri 2017-ci ildə də çox yüksək səviyyədə olmuşdur. Xarici ticarət, tranzit nəqliyyatı və investisiyaların təşviqi Azərbaycanın İƏT ölkələri ilə regional və iqtisadi əməkdaşlığının prioritet istiqamətlərindən hesab olunduğundan bu sahələrdə qarşılıqlı əməkdaşlığın güclənməsi tərəflər üçün aktuallığını cari ildə də qorumuşdur.

Qeyri-neft sektorunun şaxələndirilməsi və yerli məhsulların yeni bazarlara çıxarılması istiqamətində hökumət tərəfindən atılan addımların davamı olaraq İƏT üzv dövlətləri ilə istər ikitərəfli, istərsə də üzv təşkilatlar çərçivəsində əməkdaşlıq 2017-ci ildə də yüksək səviyyədə həyata keçirilmişdir. Azərbaycanın sosial-iqtisadi inkişafı və İƏT çərçivəsində əməkdaşlığın regional prioritetləri üzrə analitik məlumat hazırlanmış və İƏT-in "Economic Cooperation

Organization: Fifteen Yeans of Cooperation and development (2000-2015)" xüsusi bülletenində çap edilmişdir.

İş 2. Azərbaycan iqtisadiyyatının açıqlıq dərəcəsinin qiymətləndirilməsi.

Tədqiqat işinin məqsədi müvafiq sahədə mövcud olan elmi-nəzəri baxışların və beynəlxalq təcrübədə istifadə olunan metodoloji yanaşmaların ümumiləşdirilməsinə istinad etməklə, milli iqtisadiyyatın açıqlıq dərəcəsinin qiymətləndirilməsinin metodiki əsaslarını müasir dövrün xüsusiyyətləri nəzərə alınaraq təkmilləşdirməkdən, bu əsasda Azərbaycan iqtisadiyyatının açıqlıq dərəcəsini qiymətləndirməkdən və müvafiq istiqamətdə siyasətə dair tövsiyələr hazırlamaqdan ibarət olmuşdur.

Tədqiqat çərçivəsində plana uyğun olaraq aşağıdakı işlər yerinə yetirilmişdir:

- Müvafiq nəzəri-təcrübi baxışları və beynəlxalq təcrübədə istifadə olunan metodoloji yanaşmaları əks etdirən materiallar toplanaraq müqayisəli təhlil olunmuş və ümumiləşdirilmiş;
- Müasir dövrün xüsusiyyətləri nəzərə alınaraq ölkə iqtisadiyyatının açıqlıq dərəcəsinin qiymətləndirilməsinin metodiki əsaslarınının təkmilləşdirilməsi istiqamətində işlər aparılmış;
- Azərbaycan iqtisadiyyatının açıqlıq dərəcəsini qiymətləndirmək üçün zəruri statistik, inzibati və digər məlumatların toplanaraq sistemləşdirilmiş və müvafiq qiymətləndirmələr aparılmışdır.

İş 3. Kimya və neft-kimya sənayesi üzrə müqayisəli üstünlüyə malik olan məhsulların müəyyənləşdirilməsi və onların istehsal və ixrac potensialının inkişafı üzrə təkliflər hazırlanması.

Tədqiqatın məqsədi Azərbaycan Respublikasında kimya və neft-kimya sənayesi üzrə müqayisəli üstünlüyə malik olan məhsulların dəqiqləşdirilməsi və onların istehsal və ixrac potensialının inkişafı üzrə əsaslandırılmış təkliflər hazırlamaq olmuşdur.

Tədqiqat çərçivəsində plana uyğun olaraq aşağıdakı işlər yerinə yetirilmişdir:

- Müvafiq sahədə müasir nəzəri-metodoloji əsaslar və mütərəqqi dünya təcrübəsi müqayisəli təhlil olunaraq tədqiqat obyekti və predmetinə nəzərən metodoloji və konseptual ümumiləşdirmələr aparılmış;
- Azərbaycan Respublikasında kimya və neft-kimya sənayesi üzrə cari və potensial müqayisəli üstünlüyə malik olan məhsulların siyahısı dəqiqləşdirilmiş;
- Bu məhsullar üzrə istehsalın və ixracın mövcud vəziyyəti təhlil olunmuş və qiymətləndirilmiş;
- Bu məhsullar üzrə istehsalın və ixracın artırılması perspektivləri və problemləri müəyyənləşdirilmiş və bu əsasda onların istehsal və ixrac potensialının inkişafı üzrə əsaslandırılmış təklif və tövsiyələr hazırlanmışdır.

İş 4. Yeyinti sənayesi üzrə müqayisəli üstünlüyə malik olan sahələrin istehsal və ixrac potensialının təhlili.

Tədqiqatın məqsədi Azərbaycan Respublikasında yeyinti sənayesi üzrə müqayisəli üstünlüyə malik olan məhsulların dəqiqləşdirilməsi və onların istehsal və ixrac potensialının inkişafı üzrə əsaslandırılmış təkliflər hazırlamaqdan ibarət olmuşdur.

Tədqiqat çərçivəsində plana uyğun olaraq aşağıdakı işlər yerinə yetirilmişdir:

- Müvafiq sahədə müasir nəzəri-metodoloji əsaslar və mütərəqqi dünya təcrübəsi müqayisəli təhlil olunaraq tədqiqat obyekti və predmetinə nəzərən metodoloji və konseptual ümumiləşdirmələr aparılmış;

- Azərbaycan Respublikasında yeyinti sənayesi üzrə müqayisəli üstünlüyə malik olan məhsulların siyahısı dəqiqləşdirilmiş;
- Bu məhsullar üzrə istehsalın və ixracın mövcud vəziyyəti təhlil olunmuş və qiymətləndirilmiş;
- Bu məhsullar üzrə istehsalın və ixracın artırılması perspektivləri və problemləri müəyyənləşdirilmiş və bu əsasda onların istehsal və ixrac potensialının inkişafı üzrə əsaslandırılmış təkliflər hazırlanmışdır.

İş 5. Davamlı İnkişaf Məqsədlərinin Azərbaycan Respublikasında tətbiqi üzrə təkliflər hazırlanması.

2017-ci ildə Dayanıqlı İnkişaf Məqsədlərinin icrasının institusional və siyasi baxımdan kompleks yanaşma tələb etdiyini nəzərə alaraq, Azərbaycanda daha dayanıqlı, əhatəli və şaxələndirilmiş iqtisadiyyatın inkişaf etdirilməsi, sosial sahələrin tarazlı inkişafının təmin edilməsi üçün Azərbaycanda və 2030-cu ilədək Dayanıqlı İnkişaf sahəsində Gündəlikdən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə ölkə Prezidentinin 2016-ci ilin 6 oktyabr tarixli 1066 nömrəli Fərman ilə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır. Sözügedən Fərmanla Şuranın fəaliyyətinin təmin edilməsi məqsədilə Şuranın Katibliyinin yaradılması və Katibliyin funksiyasının həyata keçirilməsinin İqtisadiyyat Nazirliyinə həvalə edilməsi tapşırılmış və bu məqsədlə iqtisadiyyat nazirinin 17 yanvar 2017-ci il tarixli əmri ilə Şuranın Katibliyi yaradılmışdır.

Azərbaycan Hökuməti DİM-lər üzrə fəaliyyətə onların milliləşdirilməsindən və ölkənin inkişaf gündəliyinə daxil edilməsindən başlamışdır. Bu məqsədlə işçi qrupları və tərəfdaşlarla birgə hazırda ölkədə qüvvədə olan strategiyalar, proqramlar və digər siyasət sənədləri DİM-lərə uyğunluq baxımından nəzərdən keçirilir və boşluqların aradan qaldırılması üçün işlər görülür. Bu tədbirlər nəticəsində Azərbaycan üçün uyğun məqsəd, hədəf və göstəricilərin ilkin layihəsi hazırlanmışdır.

İnstitut tərəfində, BMT tərəfindən cəlb edilmiş beynəlxalq ekspert və DİM-lər üzrə yerli məsləhətçinin dəstəyi ilə 2017-ci ilin iyul ayında Nyu-Yorkda keçiriləcək Yüksək Səviyyəli Siyasi Forum üçün BMT-nin müəyyən etdiyi tematik plana uyğun olaraq 6 DİM (1, 2, 3, 5, 9, 14-cü məqsədlər) və hər il nəzərdən keçiriləcək 17-ci Məqsəd üzrə Azərbaycanın könüllü hesabatının ilkin layihəsi hazırlanmış, Azərbaycanın Könüllü Milli İcmalının (VNR) “Main Message”ları və yekun hesabat hazırlanmış və BMT-nin internet səhifəsində yerləşdirilmişdir.

***Problem. İnnovasiyaların və qeyri-neft sahələrinin inkişaf problemləri.***

İş 1. Elmtutumlu və yüksək texnoloji məhsulların yeni milli təsnifatının işlənilməsi.

Yüksək texnologiyalı, elmtutumlu məhsulların (malların, xidmətlərin) uçotunun xarici təcrübəsi təhlil edilmiş, Azərbaycanın ÜDM, insan inkişafı indeksi və iqtisadiyyatın intellektuallaşması göstəriciləri digər ölkələrlə müqayisə aparılmışdır. Perspektiv beynəlxalq təsnifatların və Azərbaycanın bu sahədə təsnifatlarının uyğunlaşdırılması məsələlərinə baxılmışdır.

İş 2. İnnovativ sənaye sahələrində iş yerlərinin yaradılması üzrə təhlillərin aparılması.

Tədqiqat işində innovativ sənayenin inkişaf xüsusiyyətləri, müəyyənedici əsas meyarları araşdırılmış, beynəlxalq təcrübədə uğurlu sənaye siyasətilə fərqlənən ölkələrin həyata keçirdiyi iqtisadi siyasət nəzərdən keçirilmişdir. Həmçinin, ölkədə innovativ və qeyri-innovativ sənaye sahələrinin maliyyələşdirilməsi təhlil edilmiş, texnoloji intensivlik fərqləri

nəzərə alınmaqla sənayedə iş yeri yaratmaya meyillilik təhlil edilmişdir. İnvestisiyalara münasibətdə iş yeri tələbinin təhlilindən aydın olur ki, orta-yüksək və yüksək texnoloji intensivliyə malik sənaye sahələrində orta-aşağı və aşağı texnoloji intensivliyə malik sahələrlə müqayisədə iş yeri tələbi yüksəkdir və eyni sayda iş yerinin orta-aşağı və aşağı texnoloji intensivliyə malik sənaye sahələrində yaradılması daha çox investisiya ilə mümkündür. Həmçinin, tədqiq edilən mövzunun məqsədinə uyğun olaraq sənayenin mövcud vəziyyətilə əlaqədar strateji hədəflərin bir sıra tədbirləri şərh edilmiş və əldə edilən nəticələr əsasında təkmilləşdirmələr istiqamətində təkliflər təqdim edilmişdir.

Tədqiqatın təhlil nəticələri və mövcud strateji istiqamətlər üzrə siyasət nəzərə alınmaqla sənayedə innovativ məşğulluğun maliyyələşdirilməsinə imkan verən mexanizmlərə dair sənayenin strateji inkişafını nəzərdə tutan bütün sənədlərin əlaqələndirilməsi; orta və yüksək texnologiyalı sənaye sahələrinin maliyyələşdirilməsinin stimullaşdırılması (kadr təminatına uyğun sahələrin müəyyən edilməsi, bu sahələrə müvafiq təşviq mexanizmlərinin tətbiqi, bankların və fondların bu istiqamətdə investisiyalarının stimullaşdırılması); stimullaşdırma mexanizmlərinin fəaliyyətinin kəsişən olması və güzəştlərin müddəti ilə əlaqədar mövcud mexanizmlərin təkmilləşdirilməsi və ya daha təkmil müasir maliyyələşdirmə mexanizmlərindən istifadə edilməsi (vençur, innovasiya fondları, mezzanine maliyyələşdirmə və s.); sənaye parklarına edilən güzəştlərdə innovativ sənaye sahibkarlığının inkişafına dövlət dəstəyinin artırılması tədbirlərinin icrası istiqamətində təkmilləşdirmə tədbirləri təklif edilmişdir.

İş 3. Dayanıqlı sənayeləşmə üçün innovasiya təşviqi mərkəzlərinin yaradılması yolları.

Tədqiqat işində innovativ sənayenin inkişaf xüsusiyyətləri, müəyyənedici əsas meyarları araşdırılmış, beynəlxalq təcrübədə uğurlu sənaye siyasətilə fərqlənən ölkələrin həyata keçirdiyi iqtisadi siyasət nəzərdən keçirilmişdir. Həmçinin, ölkədə innovativ və qeyri-innovativ sənaye sahələrinin maliyyələşdirilməsi təhlil edilmiş, texnoloji intensivlik fərqləri nəzərə alınmaqla sənayedə iş yeri yaratmaya meyillilik təhlil edilmişdir. İnvestisiyalara münasibətdə iş yeri tələbinin təhlilindən aydın olur ki, orta-yüksək və yüksək texnoloji intensivliyə malik sənaye sahələrində orta-aşağı və aşağı texnoloji intensivliyə malik sahələrlə müqayisədə iş yeri tələbi yüksəkdir və eyni sayda iş yerinin orta-aşağı və aşağı texnoloji intensivliyə malik sənaye sahələrində yaradılması daha çox investisiya ilə mümkündür. Həmçinin, tədqiq edilən mövzunun məqsədinə uyğun olaraq sənayenin mövcud vəziyyətilə əlaqədar strateji hədəflərin bir sıra tədbirləri şərh edilmiş və əldə edilən nəticələr əsasında təkmilləşdirmələr istiqamətində təkliflər təqdim edilmişdir.

Tədqiqatın təhlil nəticələri və mövcud strateji istiqamətlər üzrə siyasət nəzərə alınmaqla sənayedə innovativ məşğulluğun maliyyələşdirilməsinə imkan verən mexanizmlərə dair sənayenin strateji inkişafını nəzərdə tutan bütün sənədlərin əlaqələndirilməsi; orta və yüksək texnologiyalı sənaye sahələrinin maliyyələşdirilməsinin stimullaşdırılması (kadr təminatına uyğun sahələrin müəyyən edilməsi, bu sahələrə müvafiq təşviq mexanizmlərinin tətbiqi, bankların və fondların bu istiqamətdə investisiyalarının stimullaşdırılması); stimullaşdırma mexanizmlərinin fəaliyyətinin kəsişən olması və güzəştlərin müddəti ilə əlaqədar mövcud mexanizmlərin təkmilləşdirilməsi və ya daha təkmil müasir maliyyələşdirmə mexanizmlərindən istifadə edilməsi (vençur, innovasiya fondları, mezzanine maliyyələşdirmə və s.); sənaye parklarına edilən güzəştlərdə innovativ sənaye sahibkarlığının

inkişafına dövlət dəstəyinin artırılması tədbirlərinin icrası istiqamətində təkmilləşdirmə tədbirləri təklif edilmişdir.

İş 4. Azərbaycanda dayanıqlı turizm sənayesinin təmin edilməsində turizm klasterlərinin inkişaf problemləri.

Tədqiqat işində turizm klasterlərinin yaradılmasının nəzəri metodoloji əsasları araşdırılmış, klasterlərin mövcudluq mərhələləri, klasifikasiyyası, turizm klasterlərinin elementlər sisteminə dair müxtəlif yanaşmalar, inkişaf problemləri, o cümlədən dayanıqlı inkişaf amilləri öyrənilmişdir. Həmçinin, ABŞ-ın Texas şataında yerləşən Frederiksburq qəsəbəsinin dayanıqlı turizm klasteri modeli təhlil olunmuş və bu model əsasında Göygöl rayonunda dayanıqlı turizm klasterinin yaradılmasına səbəb olan maneələr tədqiq olunmuş və inkişaf perspektivləri müəyyənləşmişdir. Tədqiqatda klaster və SWOT analiz aparılmışdır. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi nəzərə alınmaqla Azərbaycanda turizm klasterlərinin yaradılması üçün Göygöl rayonunun seçilməsi təklif edilmişdir.

İş 5. Sənayenin müxtəlif sahələri üzrə ixtisaslaşmış elmi-tədqiqat və layihə institutlarının fəaliyyətinin təkmilləşdirilməsi, dəstəklənməsi və sənaye müəssisələri ilə əlaqələrinin koordinasiyası ilə bağlı təkliflər hazırlanması və aidiyyəti üzrə təqdim olunması.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın "4.13. Sənayenin müxtəlif sahələri üzrə ixtisaslaşmış elmi tədqiqat və layihə institutlarının fəaliyyətinin təkmilləşdirilməsi, dəstəklənməsi və sənaye müəssisələri ilə əlaqələrinin koordinasiyası ilə bağlı təkliflər hazırlanması və aidiyyəti üzrə təqdim olunması (2015-2020-ci illər)" tədbirinin icrası Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"nin "5.2.1. KOS-un inkişafı üçün innovasiya infrastrukturunun təkmilləşdirilməsi (2017-2020)" və "5.2.2. Dövlət əhəmiyyətli və müstəqil elmi-tədqiqat (tədqiqat və inkişaf) mərkəzlərinin formalaşdırılması və elmi istehsalat birliklərinin yaradılması (2017-2020)" və "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi"nin müvafiq tədbirlərinin icrasına uyğunlaşdırılmaqla yerinə yetirilmişdir.

Belə ki, adıçəkilən tədbirlərin icrasına uyğunlaşdırılmaqla "Sənaye klasterlərinin yaradılması metodologiyası", "Sənaye zonalarının yaradılması üzrə qiymətləndirmə metodologiyası", "Beynəlxalq təcrübə əsasında innovasiya mərkəzlərinin yaradılması üzrə təklif və tövsiyələr", "Texnoparkların yaradılması üzrə beynəlxalq təcrübə" və "Texnologiyaların innovasiya yönümlülüyünün müəyyən edilməsi üçün müstəqil ekspertizanın aparılması metodologiyası" mövzularında təhlil işləri həyata keçirilmişdir.

İş 6. Azərbaycanda pambıqçılığın inkişafı üzrə potensial imkanların müəyyənləşdirilməsi.

Tədqiqat işində sahənin inkişafı istiqamətində mövcud qanunvericilik bazası nəzərdən keçirilmişdir. Pambıqçılığın regionlar üzrə inkişafının və pambıq emalı sənayesinin mövcud vəziyyəti araşdırılmış, regionlar üzrə pambıq əkin sahəsi, məhsul istehsalı, məhsuldarlıq göstəriciləri təhlil edilmişdir. Həmçinin pambıq əkin sahələri üzrə potensial rayonlar müəyyənləşdirilmişdir.

İşin ikinci hissəsində Azərbaycanda pambıq emalı sənayesinin mövcud vəziyyəti, pambıq tədarükü məntəqələri, fəaliyyətdə olan pambıq emalı müəssisələri və onların illik istehsal gücü təhlil edilmişdir. Eyni zamanda Azərbaycanın pambıq məhsullarının ixrac bazarları öyrənilmişdir. Nəticə olaraq sahənin kompleks inkişaf prioritetləri müəyyənləşdirilmiş və təkliflər verilmişdir.

***Problem. Regionların iqtisadi potensialının qiymətləndirilməsi və sahibkarlığın inkişafı.***

İş 1. İqtisadi rayonların pasportlarının yenilənməsi.

İşin məqsədi ölkənin iqtisadi rayonları üzrə hazırlanmış sosial-iqtisadi pasportlarının mütəmadi olaraq hər il Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi məlumatları əsasında yenilənməsindən ibarət olmuşdur.

Hesabat ilində işin icrası istiqamətində respublikanın 9 (Abşeron, Quba-Xaçmaz, Şəki-Zaqatala, Dağlıq Şirvan, Gəncə-Qazax, Yuxarı Qarabağ, Kəlbəcər-Laçın, Aran, Lənkəran-Astara) iqtisadi rayonu üzrə pasportlar yenilənmişdir. Hər bir iqtisadi rayonun ərazisi, inzibati ərazi bölgüsü, coğrafi yerləşməsi, relyefi, iqlimi, faydalı qazıntı ehtiyatları, iqtisadi potensialı, o cümlədən iqtisadi rayonun əhalisi, əmək ehtiyatları, məhsul buraxılışı, sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, rabitə, təhsil, elm, mədəniyyət, turizm, ticarət və xidmət, ekologiya sahələrinin əsas göstəriciləri müxtəlif cədvəl, diaqram və şəkillərdən istifadə edilməklə pasportda öz əksini tapmışdır. Həmçinin, hər bir regionun investisiya imkanları göstərilmişdir.

İş 2. Gəncə-Qazax iqtisadi rayonunun innovasiya potensialının öyrənilməsi.

Tədqiqat işində "İnnovasiya potensialı" kateqoriyasına dair müxtəlif yanaşmalar təhlil edilərək, innovasiya potensialı komponentlərinin qarşılıqlı əlaqəsi sxemi və innovasiya potensialı, innovasiya aktivliyi və innovasiya nəticəsi struktur qarşılıqlı əlaqəsi sxemi işlənilmişdir. Həmçinin regionun innovasiya potensialının qiymətləndirilməsi metodikası hazırlanmışdır. Hazırlanmış metodikaya əsasən Gəncə-Qazax üzrə inzibati rayonların innovasiya potensialının qiymətləndirilməsi aparılmışdır.

İş 3. Azərbaycan Respublikasında regional inkişafın planlaşdırılmasının konseptual əsaslarının işlənilməsi (Aran regionu timsalında).

Tədqiqat işinin məqsədi müvafiq sahədə mövcud olan elmi-nəzəri əsaslar, beynəlxalq təcrübə və ölkənin sosial-iqtisadi inkişaf səviyyəsi nəzərə alınmaqla Azərbaycan Respublikasında Aran regionunun timsalında regional inkişafın planlaşdırılmasının konseptual əsaslarının işlənilməsindən ibarətdir.

Tədqiqat çərçivəsində plana uyğun olaraq aşağıdakı işlər yerinə yetirilmişdir:

- Regional inkişafın planlaşdırılmasının elmi-nəzəri və metodoloji əsaslarını əks etdirən materiallar toplanmış, tədqiq olunmuş və ümumiləşdirilmişdir;
- Regional inkişafın planlaşdırılmasının metodiki məsələləri öyrənilmiş və müasir dövrün xüsusiyyətləri nəzərə alınmaqla dəqiqləşdirmələr aparılmış;
- Regional inkişafın planlaşdırılması sahəsində beynəlxalq təcrübələrin müqayisəli təhlili aparılmış və müvafiq seçimlər edilmişdir;
- Azərbaycan Respublikasında regional inkişafın planlaşdırılmasının konseptual əsasları (Aran iqtisadi rayonunun timsalında) işlənmiş və müvafiq istiqamətdə siyasətə dair tövsiyələr hazırlanmışdır.

2017-ci ildə də İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun kadr potensialının gücləndirilməsi və elmi-texniki tədbirlərin keçirilməsi davam etdirilmişdir. Belə ki, "Enerjiyə qənaət və enerji səmərəliliyi üzrə innovativ texnologiyaların tətbiqi" mövzusunda seminar 15 mart 2017-ci il tarixində İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu və "İnnovasiyalanın Təşviqi Qrupu", Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, "Schneider Electric" Şirkətinin birgə təşəbbüsü ilə İnstitutda keçirilmişdir.

26-28 aprel 2017-ci il tarixlərində Bakı şəhərində İslam İnkişaf Bankı (IDB) İslam Tədqiqatlar və Təlim İnstitutunun birgə əməkdaşlığı və təşkilatçılığı çərçivəsində "Kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi" mövzusunda təlim keçirilmişdir. Təlimdə kiçik və orta sahibkarlıq müəssisələrinin iqtisadiyyatın inkişafında rolu və bu müəssisələr üçün bank maliyyələşdirilməsi üzrə mühüm biliklərin verilməsi, KOS bank məhsullarından faydalanmaq üçün mühüm texniki vasitələr, islam maliyyəsi və onun töhfəsi, İİB-nin ən yaxşı təcrübələri, habelə Azərbaycanda kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi, risk faktorları, onların qiymətləndirilməsinə dair məruzələr dinlənilmiş, praktiki məşğələlər keçirilmişdir. İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu ilə yanaşı, İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO), Sumqayıt Kimya Sənaye Parkının, Azərbaycan İnvestisiya Şirkəti və Bakı Biznes Tədris Mərkəzinin, habelə, "DemirBank", "Access Bank", "Azərbaycan Beynəlxalq Bankı" və "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətlərinin, Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadi Araşdırmalar Elmi-Tədqiqat və Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat institutlarının nümayəndələri məruzələrlə çıxış etmişdilər.

30 iyun 2017-ci il tarixində İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun Türkiyə Respublikasının Dokuz Eylül Universiteti ilə birgə əməkdaşlığı çərçivəsində "Verilənlərin intellektual təhlili: problemlər və həll üsulları" mövzusunda seminar keçirilmişdir. Dokuz Eylül Universitetinin professoru, f.-r.e.d. Əfəndi Nəsibovun məruzəsi ilə keçirilən seminarda İnstitutun əməkdaşları və doktoranlar iştirak etmişlər. verilənlərin intellektual təhlili (VİT) sahəsində müasir vəziyyət, əldə olunan nəaliyyətlər, VİT prosesində həll edilən məsələlər, müasir sosial-iqtisadi proseslərin modelləşdirilməsi üzrə nümunələr nəzərdən keçirərək, mövcud çətinliklər və onların həlli yolları haqqında geniş məruzə ilə çıxış etmişdir.

Cari ilin birinci yarısında İnstitutun doktorant və dissertantlarına "Milli Hesablar" mövzusunda dərslər təşkil olunmuşdur. Dərslərdə İnstitutun İqtisadi modelləşdirmə və analitik təhlil şöbəsinin baş elmi işçisi, i.ü.f.d. Malik Mehdiyevin məruzələri dinlənilmişdir.

Oktyabrın 9-da Azərbaycan Memarlıq və İnşaat Universitetində (AMİU) rəhbərliklə görüş keçirilmiş, enerjiyə qənaət və enerji səmərəliliyi üzrə innovativ texnologiyaların tətbiqi üzrə layihələndirmə, laboratoriyaların qurulmasında "Schneider Electric" Şirkətinin təcrübəsindən faydalanmaq imkanları, habelə, qurulması nəzərdə tutulan "Texnoloji Mərkəz"in birgə layihəsinin hazırlanması, eləcə də kadr potensialının gücləndirilməsi istiqamətləri müzakirə edilmişdir.

Tədris prosesinin və elmi tədqiqatların bir-biri ilə və istehsalatla əlaqələndirilməsi, eləcə də, elmi yeniliklərin və innovasiyaların tədris prosesinə və istehsalata tətbiqi istiqamətində birgə elmi tədqiqatların aparılması üçün Bakı Dövlət Universiteti (BDU) və İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu arasında imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində Ekologiya və torpaqşünaslıq və Kimya fakultələrinin professor-müəllim və tələbə heyətinə oktyabrın 10-da BDU-da "İnnovasiya strukturlarının formalaşması və müqayisəli

təhlil" mövzusunda ilk təlim keçirilmiş, növbəti təlimlərin mövzuları və istiqamətləri müəyyən olunmuşdur.

20 oktyabr tarixində İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda "İqtisadi səmərəlilik: innovativ texnologiyalar və qənaətli istehsal" mövzusunda konfrans keçirilmişdir. Konfransda İqtisadiyyat Nazirliyinin, aidiyyəti qurumların, ölkəmizdə fəaliyyət göstərən bir sıra şirkətlərin nümayəndələri və elmi işçilər iştirak etmişlər. Tədbirdə sənayeyönümlü özəl müəssisələrin, universitetlərin və dövlətin əməkdaşlığının gücləndirilməsinin, ideya və texnologiyaların sənayedə tətbiqinin səmərəliliyin artırılmasında rolunu vurğulamışlar. Plenar sessiyada konfrans nümayəndələri kiçik və orta sahibkarlığın imkanlarının genişləndirilməsində innovativ infrastrukturun inkişafı, enerji effektivliyi, enerjidən səmərəli istifadə mövzularında təqdimatlarla çıxış etmişlər.

7 noyabr tarixində Bakı Dövlət Universitetinin Ekologiya və Torpaqşünaslıq fakultəsinin dekanı kimya elmləri doktoru, professor Nazim Şəmilov və kimya elmləri namizədi, dosent Qəzənfər Bayramov İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda olmuşlar. Görüşdə hazırda Universitetdə tikilməkdə olan texnoloji-innovasiya mərkəzinin fəaliyyət proqramının, o cümlədən, tədrisin elmi tədqiqatların bir-biri ilə və istehsalatla əlaqələndirilməsi, habelə, növbəti təlimlərin istiqamətləri və mövzuları müzakirə edilmiş, "SOCAR Polimer" klasterinin yaradılmasına dəstək" mövzusunda təqdimat dinlənilmiş, "SOCAR Polimer" ətrafında klasterlərin formalaşmasında Universitetin mövcud elmi potensialının tətbiq imkanlarına dair fikir mübadiləsi aparılmışdır.

7 noyabr tarixində "Schneider Electric" Şirkətinin Orta Asiya üzrə rəhbəri Emrah Tekdemir və qurumun enerji və infrastruktur üzrə rəhbəri Mirməhəmməd Səməndərzadə İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda olmuşlar. Görüşdə perspektiv əməkdaşlıq imkanlarına dair müzakirə aparılmış və əməkdaşlıq haqqında memorandum imzalanmışdır və görüşlər haqqında protokollar tərtib olunmuşdur. Ümumilikdə tərəflər enerji səmərəliliyi və qənaət üzrə innovativ texnologiyaların tətbiqi, baş verən dəyişikliklər, yerli və dünya bazarlarında təsirə malik tədbirlərə dair analitik və statistik məlumatların mübadiləsi, enerji səmərərliliyinin və qənaətinin yüksəldilməsi imkanlarının təhlil edilməsi, enerji avadanlıqlarının istehsalı, qənaət, layihələndirmə kimi istiqamətlərdə mövcud təcrübənin öyrənilməsinə dair təcrübə mübadiləsi, tətbiqi və nəticələrin qiymətləndirilməsi, sahəvi məhdudiyyətlərin müəyyən edilməsi və həllərin axtarılmasında birgə tədqiqatların aparılması və s. kimi məsələlərə dair razılığa gəlmişlər.

Noyabrın 13-də İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda "İqtisadi artımda innovasiyaların rolunun alternativ qiymətləndirilməsi" mövzusunda konfrans keçirilmişdir. Konfransda İqtisadiyyat Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının, ali təhsil müəssisələrinin nümayəndələri ilə yanaşı, Qazaxıstanın İqtisadi Tədqiqatlar İnstitutunun və Dövlət-Özəl Sektor Əməkdaşlıq Mərkəzinin əməkdaşları iştirak etmişdilər. Plenar sessiyada Qazaxıstanda enerji bazarının qlobal qeyri-müəyyənlik şəraitində uzunmüddətli inkişaf məqsədləri, dövlət və biznesin qeyri-mütənasib inkişafı: idarəetmə üçün yeni çağırışlar, intellektual təhlil üsulları və modellərinin tətbiqi, dəyər və indekslər nəzəriyyəsi arasındakı ziddiyyət və onun iqtisadi artımın statistik qiymətləndirilməsində yaratdığı problem mövzularında təqdimatlarla çıxış etmişdilər.

29-30 noyabr tarixlərində İqtisadiyyat Nazirliyinin Bakı Biznes Tədris Mərkəzinin və İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun birgə təşkilatçılığı ilə "Biznes inkubatorların

idarə edilməsində beynəlxalq təcrübə: Azərbaycanda tətbiqi imkanları” mövzusunda seminar keçirilmişdir. BBTM keçirilən tədbirdə Avropa İttifaqının beynəlxalq ekspertləri, Polşanın Azərbaycandakı səfirliyinin, texnoparkların, ölkədə fəaliyyət göstərən biznes inkubatorların və onların rezidentlərinin, ali təhsil müəssisələrinin nümayəndələri iştirak etmişlər. Seminarda ölkədə fəaliyyət göstərən biznes inkubatorların idarəedicilərinin, rezidentlərinin beynəlxalq təcrübənin Azərbaycanda tətbiqi ilə bağlı fikirləri dinlənilmiş, mövzu ilə bağlı müzakirələr aparılmışdır.

8 dekabr tarixində İqtisadiyyat Nazirliyinin dəstəyi, Nazirliyin Bakı Biznes Tədris Mərkəzinin və İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun birgə təşkilatçılığı ilə “KOS subyektləri üçün “ömür boyu öyrənmək” imkanlarının təmin edilməsi: nailiyyətlər və perspektivlər” mövzusunda konfrans keçirilmişdir. Konfrans 2 panel iclasla davam etmiş, “KOS subyektləri üçün "ömür boyu öyrənmək” imkanlarının təmin edilməsinin metodoloji məsələləri” panel iclasında kiçik və orta sahibkarların bacarıqlarının artırılması məqsədilə fundamental təhsildən sonrakı təlimlərin KOS subyektləri üçün faydaları, nəzəri təlimlərlə yanaşı, sektorlar üzrə praktiki biliklər verən xüsusi təlimlərin keçirilməsinin səmərəliliyi, KOS subyektlərinin təlim ehtiyaclarına müvafiq olaraq mövcud tədris və təlim proqramlarında təkmilləşdirmələrin aparılması və s. müzakirə olunmuşdur.

14 dekabr tarixində İqtisadiyyat Nazirliyinin Bakı Biznes Tədris Mərkəzinin, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun və İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun birgə təşkilatçılığı ilə kiçik və orta sahibkarların gömrük və maliyyə sahələrində bilik və bacarıqlarının artırılmasına dair tədbir keçirilib. "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"nin "KOS subyektlərinin maliyyə savadlılığının artırılması", "KOS subyektlərinin beynəlxalq ticarət əməliyyatlarının müvafiq maliyyə xidmətləri ilə təmin edilməsi" və "KOS subyektləri üçün "ömür boyu öyrənmək" imkanlarının təmin edilməsi" yarımbəndlərində müəyyən edilmiş tədbirlərin icrasını təmin etmək məqsədi ilə keçirilən tədbirin məqsədi KOS-ların gömrük və maliyyə sahələrində bilik və bacarıqlarının artırılması, bu sahələr üzrə yeni məlumatların verilməsidir. Tədbir çərçivəsində “Kiçik və orta sahibkarların gömrük sahəsində bilik və bacarıqlarının artırılması” və “Kiçik və orta sahibkarların maliyyə sahəsində bilik və bacarıqlarının artırılması” mövzularında təlimlər keçirilmişdir.

2017-ci ildə İnstitutun əməkdaşlıq etdiyi təşkilatlarla işlərin davam etdirilməsi ilə yanaşı əlaqələrinin genişləndirilməsi istiqamətində də müvafiq işlər aparılmış, 3 xarici təşkilat ilə əməkdaşlıq müqaviləsi imzalanmışdır:

- Türkiyə Respublikası

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu və Dokz Eylul Universiteti (İzmir, Türkiyə) arasında 2017-2020-ci illər üzrə elmi əməkdaşlıq protokolu (İzmir şəhəri, 4 aprel 2017-ci il);

- Qazaxıstan Respublikası

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu və “Almatı Enerji və Rabitə Universiteti" Qeyri-Kommersiya Açıq Səhmdar Cəmiyyəti (Almata, Qazaxıstan) arasında 2017-2025-ci illər üzrə əməkdaşlıq memorandumu (Almata şəhəri, 15 avqust 2017-ci il);

- Fransa Respublikası

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu və "Schneider Electric" Şirkəti (Paris şəhəri, Fransa) arasında əməkdaşlıq memorandumu (Bakı şəhəri, 7 noyabr 2017-ci il).

Həmçinin Mərkəzi Asiya Regional iqtisadi Əməkdaşlıq (CAREC) İnstitutu, "Schneider Electric" Şirkəti, ABŞ-ın Enerji İqtisadçılarının Beynəlxalq Assosiasiyası (IAEE), Gürcüstanın Texniki Təlim Mərkəzi (TTG), Qazxıstanın "Dövlət-Özəl Sektor Əməkdaşlıq Mərkəzi", "Sumqayıt Kimya Sənaye Parkı" MMC, "ATEF" Şirkətləri Qrupu, Almaniyanın Leibniz Keçid İqtisadiyyatında Kənd Təsərrüfatı İnkişaf İnstitutu (IAMO) ilə fəal və səmərəli əməkdaşlıq edilmişdir. Ənənəvi olaraq hesabat ilində İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun əməkdaşları ümumilikdə 11 respublika xarici və 11 respublika daxili ezamiyyədə olmuşlar. Ölkə xarici ezamiyyələrin 7-i tədbir təşkilatçıları, 1-i tədbir təşkilatçısı və İİETİ, digər bütün ezamiyyələr İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu tərəfindən maliyyələşdirilmişdir.

2017-ci ildə İnstitutun fəaliyyəti haqqında geniş ictimaiyyətin məlumatlandırılmasının yenilənmiş rəsmi internet səhifəsi (www.ier.az) vasitəsilə təmin edilməsi davam etdirilmişdir. Əvvəlki illərdə olduğu kimi məlumatların işıqlandırılması azərbaycan və ingilis dillərində olmaqla iki dildə aparılmışdır. Ümumilikdə hesabat ili ərzində veb səhifədə 30-u press-reliz, 11-i elan, 4-ü məlumat, 4-ü bilirsinizmi, 7-i Katiblik, 1-i analitika və 1- təbrik olmaqla 58 mətn yerləşdirilmişdir (bölməsinə aid olmuşdur). Bundan başqa internet səhifəmizin həm də potensialın artırılmasını nəzərə alaraq, "Təlim Kataloqu − 2017" və "Texnoloji Transfer Şəbəkəsi" bölmələri və bir sıra digər alt menyular daxil edilmişdir.

Kitabxananın yeni elmi ədəbiyyatlarla zənginləşdirilməsi, nəşr işinin təşkili məqsədilə aşağıdakı işlər görülmüşdür:

- Mütəmadi olaraq kitabxana işləri yerinə yetirilmişdir. İl ərzində kitabxanaya 2 dəfə 62 ədəd kitab alınmışdır. Kitabxaya daxil olan dövri mətbuat və elmi ədəbiyyatların kataloqları və xülasələri hazırlanmışdır;
- İnstitutda 1965−2016-cı illər ərzində yerinə yetirilmiş elmi-tədqiqat işlərinin kataloqu nəşrə təqdim edilmişdir;
- "Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri" adlı Elmi əsərlər toplusunun XVI buraxılışı nəşrə təqdim olunmuşdur;
- İnstitutun doktorantı Fərhad Qamboy oğlu Mikayılovun "Çoxölçülü meyarlar əsasında yoxsulluq indeksinin qiymətləndirilməsi məsələləri" adlı kitabı redaktə və korrektə edilərək nəşrə təqdim edilmişdir.

Sözügedən ildə "Təlim kataloqu 2017", "Beynəlxalq təcrübə əsasında innovasiya mərkəzlərinin yaradılması üzrə təklif və tövsiyələr", "İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası", "Kiçik və orta sahibkarların əmək bazarı üzrə ehtiyaclarının öyrənilməsi", "KOS subyektlərinin faydalanması üçün Azərbaycanda model müəssisənin yaradılması metodologiyası", "Qənaətli istehsal metodları, Qənaətli istehsal metodlarını tətbiq etməklə model müəssisənin yaradılması metodologiyası", "Qənaətli istehsal sisteminin alətləri", "Sənaye klasterlərinin yaradılması metodologiyası", "Sənaye zonalarının yaradılması üzrə qiymətləndirmə metodologiyası", "Texnoparkların yaradılması üzrə beynəlxalq təcrübə" adlı materiallar da nəşrə təqdim edilmişdir.

2017-ci il ərzində İnstitutun Elmi Şurasının 7 iclası keçirilmişdir. İclaslarda doktorant və dissertantların dissertasiya mövzuları və rəhbərlərinin təsdiqi, İnstitutun elmi tədqiqat

işlərinin planı, hesabatları, təlim və təhsilin, müxtəlif tədbirlərin təşkili və s. bu kimi məsələlərin müzakirələri təşkil olunmuşdur. Elmi katiblik tərəfindən Milli Aviasiya Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Dövlət İqtisad Universitetinin tələbələrinə elmi tədqiqat və istehsalat təcrübələrinin keçirilməsi təmin olunmuşdur.

Eyni zamanda, İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu tərəfindən aparıcı təşkilat kimi 16 dissertasiya işinin müzakirəsi təşkil edilmiş, onlara müvafiq rəylər verilmişdir. Bir sıra dissertasiya işlərinin avtoreferatlarına, dissertasiya işlərinin əsas müddəalarını özündə əks etdirən təhriri-məruzələrə İnstitutun əməkdaşları tərəfindən müvafiq rəylərin verilməsi təmin olunmuşdur. İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda iqtisad elmlərinə aid ixtisaslar üzrə doktorantura və dissertanturaya 2016-2017-ci tədris ili üçün qəbul həyata keçirilmişdir: fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya 7 nəfər, dissertanturaya 6 nəfər, elmlər doktoru hazırlığı üzrə dissertanturaya 1 nəfər qəbul edilmişdir. 2017-ci ildə İnstitutda fəlsəfə doktoru hazırlığı üzrə 20 doktorant və 20 dissertant, elmlər doktoru hazırlığı üzrə isə 14 dissertant təhsil almışdır.






*Azərbaycan Respublikası*
*İqtisadiyyat Nazirliyinin*
*İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun*
*Elmi Şurasının qərarı əsasında nəşr olunur*

**Elmi redaksiya heyəti:**
**Vilayət Məmməd oğlu Vəliyev, i.e.d., prof., İN İİETİ, direktor,** (sədr)
**Arzu Doğru qızı Hüseynova, i.e.d., İN İİETİ, direktor müavini**
**Oruc İbrahim oğlu İbrahimov, i.e.n., dosent, İN İİETİ, direktor müavini,** (sədr müavini)
**Aynurə Manaf qızı İsmayılova, İN İİETİ, direktor müavini**
**Vəfa Hüseynağa qızı Rzayeva, i.e.n., İN İİETİ, elmi katib,** (yazımın katibi)
**Ədalət Bayraməli oğlu Əliyev, i.e.d., t.e.d., prof., İN İİETİ, baş elmi işçi**
**Vahid Hacıbəy oğlu Abbasov, i.e.d., İN İİETİ, baş elmi işçi**
**Zakir Məcid oğlu Nəcəfov, i.e.d., İN İİETİ, baş elmi işçi**
**Fərhad Qumbəy oğlu Mikayılov, i.ü.f.d., İN İİETİ, baş elmi işçi**
**Vaqif Əli oğlu Rüstəmov, i.e.n., İN İİETİ, baş elmi işçi**
**Malik Məmməd oğlu Mehdiyev, i.ü.f.d., İN İİETİ, baş elmi işçi**
**Arzu Sahib oğlu Süleymanov, i.ü.f.d., İN İİETİ, şöbə müdiri**
**Əlvan Qərib qızı Süleymanova, İN İİETİ, şöbə müdiri v.i.e.**
**Təranə Şahvələd qızı Saldova, İN İİETİ, şöbə müdiri v.i.e.,**
**Sayalı Zal qızı Abbasəliyeva, İN İİETİ, şöbə müdiri** (məsul katib)
**Şəhla Murad qızı Əliyeva, İN İİETİ, baş mütəxəssis,** (korrektor)

**Azərbaycan Respublikasında iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu, XVII buraxılış, Bakı, 2017, 317.**

© İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu, 2017

xəritələri"ndə, Dövlət Proqramlarında icraçı olduğu tədbirlər nəzərə alınmaqla tərtib edilmiş, nazirliyin müvafiq şöbələr və struktur bölmələri ilə razılaşdırılmaqla təsdiq olunmuşdur. İş planına uyğun olaraq "Azərbaycan Respublikasında davamlı sosial-iqtisadi inkişafın təmin olunması problemlərinin tədqiqi" istiqaməti üzrə 6 problemi əhatə edən 30-dan çox iş yerinə yetirilmişdir. İş planında nəzərdə tutulan işlərdən əlavə olaraq Azərbaycan Respublikası Prezidentinin yeni Sərəncamları, Nazirliyin Kollegiya qərarları, yeni Dövlət Proqramları və Nazirliyin bölmələri tərəfindən İnstituta həvalə edilmiş bir sıra tapşırıqlar yerinə yetirilmişdir. Qeyd olunan ildə İnstitutda aşağıdakı elmi tədqiqat işləri həyata keçirilmişdir:

***Problem. Azərbaycan Respublikasında makroiqtisadi proseslərin təhlili***.

İş 1. Azərbaycanın sosial-iqtisadi göstəricilərinin proqnozlaşdırılmasının makroekonometrik modelinin işlənməsi.

Azərbaycanın Milli Hesablar Sisteminin 1995-2017-ci ilin məlumatları əsasında qısamüddətli iqtisadi monitorinq və proqnozların hazırlanması üçün məlumat bazası formalaşdırılmış və bunun əsasında ev təsərrüfatları, dövlət, firmalar və qalan dünya kimi iqtisadi subyektlərin (agentlərin) iştirakı ilə əmtəə və xidmətlər, pul və resurs bazarı arasındakı əlaqələr (axınlar) nəzərə alınmaqla qısamüddətli makroekonometrik model işlənib hazırlanmışdır. Model kifayət qədər kompakt ekzogen dəyişənləri (dövlətin son istehlak xərcləri, M2 pul kütləsi, Sərəncamda qalan ümumi gəlir, depozit və əmanətlər üzrə orta faiz dərəcəsi, valyuta məzənnəsi (dollara qarşı), dünya neft qiymətləri) və endogen dəyişənləri (ümumi daxili məhsul, ev təsərrüfatlarının son istehlak xərcləri, əsas kapitalın ümumi yığımı (investisiyalar), mal və xidmətlərin idxalı, mal və xidmətlərin ixracı, uçot faiz dərəcəsi) əhatə edir və qeyd olunan ekzogen göstəricilər üzrə qurulmuş ssenariləri nəzərə almaqla endogen göstəriciləri növbəti üç il üzrə proqnozlaşdırmağa imkan verir.

İş 2. Sosial əhəmiyyətli ərzaq məhsullarının qiymətlərində baş vermiş dəyişikliklərin təhlili.

Tədqiqat işində sosial əhəmiyyətli 19 məhsulun (uzun düyü, buğda unu, əla növ buğda çörəyi, makaron, sümüklü mal əti (doğranmış), sümüklü qoyun əti, toyuq əti, pasterizə olunmamış üzlü süd, brınza pendiri, toyuq yumurtası, kərə yağı, zeytun yağı, günəbaxan yağı, qarğıdalı yağı, baş soğan, kartof, şəkər, şəkər tozu, qara və yaşıl çay) baxılan dövr ərzində qiymətlərində baş vermiş dəyişmələr və bu dəyişmələrə təsir göstərən amillər seçilərək onların təsirləri ölçülmüşdür.

Təhlilin məlumat bazası aylıq səpkidə 2012-ci ilin yanvar ayından başlayaraq 2017-ci ilin dekabr ayına qədər olan dövrü əhatə etməklə formalaşdırılmışdır. Ərzaq balansları isə 2012-2016-cı illəri əhatə edən dövr üçün illik səpkidə araşdırılmışdır. Hər bir məhsul üçün ekonometrik təhlillər hazırlanmış metodologiyaya müvafiq olaraq Eviews program paketi vasitəsilə qiymətləndirilmiş, təsir amilləri üzrə alınmış nəticələr müvafiq cədvəllər üzrə təsnifləşdirilərək ümumiləşdirilmişdir.

İş 3. Örnək müəssisələr üçün enerji səmərəliliyi və enerji qənaəti üzrə amillərin müəyyən edilməsi.

Qənaətli istehsal üsullarının tətbiqi üzrə seçilmiş potensial örnək müəssisələrdə aparılacaq enerji auditinin metodologiyası əsasında enerji səmərəliliyi tədbirlərini şərtləndirən amillər müəyyənləşdirilmişdir. Ağır sənaye və maşınqayırma sahəsində fəaliyyət göstərən bu müəssisələrdə aparılması nəzərdə tutulan enerji auditinin ümumi prinsipləri bu sahədə müvafiq təcrübəsi olan beynəlxalq və yerli şirkətlər, eləcə də TİKA-nın dəstəyi ilə Turk Standartları

İnstitutu ilə birgə nəzərdən keçirilərək sistemləşdirilmişdir. Həmçinin bu auditin nəticələrinin praktiki istifadəsinin digər müəssisələrə əhəmiyyəti baxımından örnək müəssisələrdə araşdırılması və təhlili imkanlarını əhatə edən hesabatın işçi variantı hazırlanmışdır.

İş 4. İqtisadi monitorinq sisteminin nəzəri-metodoloji bazasının işlənilməsi.

Qeyd olunan mövzu istiqamətində beynəlxalq təcrübədə iqtisadi monitorinq sisteminə dair müvafiq ədəbiyyatlar toplanmış, xülasə olunmuş, Gömrük İttifaqına üzv dövlətlərin sosial-iqtisadi inkişafının aparıcı göstəricilərinin qurulmasına aid metodoloji yanaşmalar öyrənilmişdir. Hesabatda həmçinin hər hansı təsərrüfat proseslərinin və hadisələrin sistemli şəkildə izlənilməsini, gözlənilən dəyişikliklərin qiymətləndirilməsini, eləcə də müəyyən iqtisadi tendensiyaların proqnozu və aşkara çıxarılmasını ehtimal edən xüsusi bir iqtisadi müşahidə növü kimi iqtisadi monitorinq anlayışı və mahiyyəti araşdırılmış və müəyyən edilmişdir ki, iqtisadi monitorinq ən mühüm iqtisadi tədqiqat növü olub iqtisadi trendləri araşdırır, yəni iqtisadi inkişafın uzunmüddətli keyfiyyət və kəmiyyət parametrlərini müəyyən edir. Hesabatda, habelə iqtisadi monitorinq metodlarının əsaslandığı və qısa və uzunmüddətli dövrləri əhatə edən indikatorlar təsnifləşdirilmiş, iqtisadiyyatda baş verəcək dəyişikliklərin erkən siqnallarını verən aparıcı və ya qabaqlayıcı, dəyişiklik baş verdikdən sonra siqnallar verən və iqtisadi dəyişiklik haqqında məlumatlandıran gecikən, iqtisadiyyatın mövcud vəziyyətini izləməyə imkan verən və iqtisadi durumu təsdiq edən üst-üstə düşən indikatorlar barədə məlumat verilmişdir.

Problem. Sənayenin inkişaf perspektivlərinin qiymətləndirilməsi.

İş 1. Üzümçülük və şərabçılıq məhsullarının xarici bazarlara çıxışı üçün dövlət dəstəyinin göstərilməsi, şərab zavodlarının tam gücü ilə işləməsi üçün dəstəkləyici tədbirlərin həyata keçirilməsi.

Üzümçülük və şərabçılıq məhsullarının xarici bazarlara çıxışı üçün dövlət dəstəyinin göstərilməsi, şərab zavodlarının tam gücü ilə işləməsi üçün dəstəkləyici tədbirlərin həyata keçirilməsi məqsədilə üzümçülük və şərabçılıq məhsullarının xarici bazara çıxışı üçün dəstəkləyici tədbirlərin həyata keçirilməsinə dair Rusiya Federasiyasının müvafiq dövlət dəstəyi araşdırılmışdır. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, ölkənin ənənəvi iqtisadi fəaliyyət sahələrindən olan üzümçülük və şərabçılığın inkişaf etdirilməsi üçün bu sahədə hüquqi-normativ baza xeyli yaxşılaşdırılmış, eləcə də digər sahələrdə olduğu kimi həm istehsal, həm də ixracın təşviqi istiqamətində tədbirlər həyata keçirilir. Beynəlxalq təcrübənin araşdırılması, eləcə də ölkədə bu sahədə həyata keçirilən tədbirləri nəzərə almaqla üzümçülük və şərabçılıq məhsullarının xarici bazarlara çıxışı üçün dövlət dəstəyinin göstərilməsi, şərab zavodlarının tam gücü ilə işləməsi üçün dəstəkləyici tədbirlərin həyata keçirilməsinə dair üzümçülüyün və şərabçılığın regional inkişaf xüsusiyyətləri nəzərə alınmaqla subsidiyaların müəyyən edilməsi, subsidiyaların yalnız tinglərə deyil, həmçinin istehsal edilmiş məhsula da, onların digər xərcləri nəzərə alınmaqla, verilməsi, ixracın dəstəklənməsilə əlaqədar xarici bazarlara dair marketinq tədqiqatlarının maliyyələşdirilməsi və ixracatçıların məlumatlandırılması, beynəlxalq elektron ticarət platformaları vasitəsilə məhsulların satışına dair istehsalçıların maarifləndirilməsi və bu kimi təkliflər hazırlanmış və aidiyyatı üzrə təqdim edilmişdir.

İş 2. Mineral və qazlı sular bazarında mövcud vəziyyətin (istehsal, idxal, ixrac) təhlili, müvafiq təkliflərin hazırlanması və istehsalın dəstəklənməsi.

Mineral və qazlı sular bazarında mövcud vəziyyət istehsal, idxal və ixrac üzrə ətraflı təhlil olunmuşdur. Mineral sular üzrə təsnifatlaşdırma aparılmış, bu sahədə beynəlxalq təcrübə araşdırılmışdır. Azərbaycanda mineral su ehtiyatlarının icmalı verilmiş, habelə respublikamızda mineral və qazlı suların müqayisəli üstünlükləri qiymətləndirilmişdirdir. Qeyd olunan istiqamətlər üzrə bütün mərhələlərdə kifayət qədər zəngin statistik məlumatlar əsasında sistemləşdirilmiş hesablamalar aparılmış və müvafiq təklif və tövsiyələr verilmişdir.

İş 3. Qurudulmuş və dondurulmuş meyvə-tərəvəz məhsulları istehsalı üzrə diaqnostik təhlillərin aparılması.

Tədqiqat işi Azərbaycan Respublikası Prezidentinin 06.12.17. tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”nin icrası istiqamətində həyata keçirilmişdir. İşdə qurudulmuş və dondurulmuş meyvə-tərəvəz sektorunun istehlakçı tərəfindən seçilmə səbəbləri, sektorun üstünlükləri, istifadə edilə bilən sənaye sahələri və Avropa bazarında bu məhsullara olan tələbat araşdırılmışdır. Həmçinin, işdə ixrac potensialı böyük olan ərik, alma, xurmanın qurudulmuş məhsul növü, gilasın isə dondurulmuş məhsul növü üzrə müqayisəsi aparılmış, təkliflər hazırlanmışdır.

İş 4. Kiçik və orta ölçülü meyvə-tərəvəz məhsulları üzrə dəyər zəncirinin bütün həlqələrini əhatə edən diaqnostik təhlillərin aparılması.

Tədqiqat işi Azərbaycan Respublikası Prezidentinin 06.12.17. tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”nin icrası istiqamətində həyata keçirilmişdir. İşdə Azərbaycanın kənd təsərrüfatı ixracı təhlil edilmiş, meyvə-tərəvəz məhsulları istehsalı üzrə mövcud vəziyyət öyrənilmişdir. Həmçinin, kənd təsərrüfatı ixracında əsas payı olan məhsullar seçilmiş, hər bir məhsul üzrə əkin sahəsi, istehsalı və ixracı olmaqla təhlil aparılmış, eləcə də məhsulların dəyər zənciri üzrə müqayisəsi verilmiş, müvafiq təkliflər hazırlanmışdır.

İş 5. Texniki-iqtisadi və maliyyə əsaslandırmaları aparılmaqla istehsalı qısa zaman ərzində mümkün olan və nisbətən az investisiya tələb edən məhsul istiqamətlərinin seçilməsi, seçilmiş məhsul istiqamətlərinə dair rentabellik və investisiya ehtiyacları üzrə cədvəllərin hazırlanması.

Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi”nin 2.1.1. Regional bazarlara ixrac perspektivi olan malların siyahısının hazırlanması və təhlillər aparılması tapşırığının 4-cü “Texniki-iqtisadi və maliyyə əsaslandırmaları aparılmaqla ümumi siyahıdan istehsalı qısa zaman ərzində mümkün olan və nisbətən az investisiya tələb edən məhsul istiqamətlərinin seçilməsi, seçilmiş məhsul istiqamətlərinə dair rentabellik və investisiya ehtiyacları üzrə cədvəllərin hazırlanması” alt bəndinin icrası istiqamətində müəyyən edilmiş məhsullar üzrə iqtisadi fəaliyyət növlərinin kodları müəyyənləşdirilmiş, daha sonra Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin mal və xidmətlərin ehtiyat və istifadə cədvəlləri əsasında hazırladığı məhsul və xidmətlərin istehsalı və bölüşdürülməsinin 96 ölçülü sahələrarası balans cədvəli əsasında seçilmiş məhsullar üzrə uyğun fəaliyyət növü çərçivəsində rentabelliklər hesablanmış, eyni zamanda sahələrarası balans modeli əsasında multiplikator əmsalları qiymətləndirilmişdir. Həmçinin, seçilmiş məhsullar üzrə investisiya ehtiyacları cədvəlləri tərtib olunmuşdur.

İş 6. Maliyyə dəstəyinin növünün və səviyyəsinin müəyyən edilməsi (Əsas bitkiçilik məhsulları üçün müəyyən edilmiş ərazilərdə cari və potensial istehsal həcminin müəyyənləşdirilməsi və ya emal üzrə dəyər zəncirində potensialın qiymətləndirilməsi).

İşdə "Əsas bitkiçilik məhsulları üçün müəyyən edilmiş ərazilərdə cari və potensial istehsal həcminin müəyyənləşdirilməsi və ya emal üzrə dəyər zəncirində potensialın qiymətləndirilməsi" tədbiri üzrə emal dəyər zəncirinin qiymətləndirilməsi nəzərdə tutulmuşdur. Müvafiq olaraq, Yuxarı Şirvan kanalı ətrafı ərazilərin potensialına dair qiymətləndirmə aparılmışdır. Qiymətləndirmə zamanı kanal ətrafında Yevlax, Ağdaş, Zərdab, Göyçay, Ucar, Kürdəmir, İsmayıllı, Ağsu, Şamaxı və Hacıqabul rayonlarının ərazisi nəzərə alınmış, payızlıq taxıl, yonca, pambıq, üzüm, tərəvəz, qarğıdalı, soya, nar, xurma məhsullarının istehsal potensialı araşdırılmışdır. Nəticədə, əkin dövriyyəsinə cəlb ediləcək ərazilərə, ekoloji tarazlığa və kanalın investisiyalarına dair potensial səviyyə müəyyən edilmişdir.

***Problem. İnnovasiya infrastrukturunun formalaşması.***

İş 1. İnnovasiya xarakterli biznes planlarının həyata keçirilməsi üçün texnopark və biznes inkubatorlarında xüsusi proqramların hazırlanması və fəaliyyətlərinin maliyyələşdirilməsi üçün investisiya güzəştlərinin tətbiq edilməsi.

İş Azərbaycan Respublikası Prezidentinin 06.12.17. tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"nin icrası istiqamətində həyata keçirilmişdir. Tədbirin icrası üzrə "KOS subyektlərinin innovasiya xarakterli biznes planlarının həyata keçirilməsi üçün Xüsusi Proqram" hazırlanmışdır. Proqramın məqsədi KOS subyektlərinin innovasiya xarakterli biznes planlarının həyata keçirilməsi üçün dövlət dəstəyi mexanizmlərini müəyyən etməkdir. Dəstək mexanizlərindən biri kimi subsidiyaların verilməsi proqramda öz əksini tapmışdır ki, bu zaman KOS subyektlərinin seçimi müsabiqə əsasında aparılır. KOS subyektinin fəaliyyəti, haqqında hesabat forması, subsidiyaların həcminin hesablanması qaydası, rezidentlərə maliyyə dəstəyi göstərə biləcək təşkilatların siyahısı və "İnnovasiya xarakterli biznes-planların hazırlanması üzrə KOS subyektləri üçün metodiki tövsiyələr" da sənədə əlavə edilmişdir.

İş 2. İnnovasiya mərkəzlərində (FabLabs, İlabs) potensial sahibkarlıq və ya startap fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərin informasiya texnologiyaları avadanlığı ilə təmin edilməsi, onların hazır laboratoriya alətlərindən istifadə etməsinə şərait yaradılması.

İş Azərbaycan Respublikası Prezidentinin 06.12.17. tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"nin icrası istiqamətində həyata keçirilmişdir. İşdə FabLabs, İLabs laboratoriyalarının qurulması üzrə beynəlxalq təcrübə, əsasən Türkiyə və Rusiya ölkələrinin təcrübəsi araşdırılmış, arayış hazırlanmışdır. Arayışda "FabLab"ların əhəmiyyəti, standart təchizat avadanlıqları, laboratoriyanın tərkibinə daxil edilə bilən xüsusi şəxslər barədə məlumatlar öz əksini tapmışdır. Həmçinin, işin icrası istiqamətində ölkə ərazisində mövcud olan bütün universitet və elmi tədqiqat müəssisələrində mövcud laboratoriyalar, onların fəaliyyət istiqamətləri, avadanlıqlarla təchizat səviyyəsi, özəl sektorun tələb və təkliflərinin öyrənilməsi məqsədilə sorğu keçirilmişdir. Respublika üzrə 150-dən çox elmi müəssisəyə məktub vasitəsilə anketlər təqdim edilmiş və yalnız 34 müəssisədən cavab alınmışdır. Bu məlumatlar əsasında "KOS-a xidmət sahələri: təkliflər kataloqu" hazırlanmış, çapa təqdim edilmiş, həmçinin İnstitutun rəsmi internet səhifəsində yerləşdirilmişdir.

İş 3. Beynəlxalq təcrübə əsasında innovasiya fəaliyyətini stimullaşdıran beynəlxalq əhəmiyyətli və müstəqil elmi-tədqiqat institutlarının və elmi-istehsalat komplekslərinin (birliklərinin) yaradılması ilə bağlı təkliflərin hazırlanması.

İşdə "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"nin "İnnovasiya fəaliyyətini stimullaşdıran beynəlxalq əhəmiyyətli və müstəqil elmi-tədqiqat institutlarının və elmi-istehsalat komplekslərinin (birliklərinin) yaradılması ilə bağlı təkliflərin hazırlanması" tədbirinin icrası nəzərdə tutulmuşdur. Bu məqsədlə dünya ölkələrinin təcrübəsi araşdırılmış və Azərbaycanda fəaliyyətdə olan elmi-tədqiqat təşkilatlarının fəaliyyətinin ümumi qanunvericilik bazası təhlil edilərək, beynəlxalq təcrübəyə əsasən innovasiya fəaliyyətini stimullaşdıran beynəlxalq əhəmiyyətli və müstəqil emi-tədqiqat institutlarının və elmi-istehsalat komplekslərinin yaradılması ilə bağlı təkliflər paketi tərtib olunmuşdur. Qeyd edilən təkliflər innovasiya fəaliyyətinin qiymətləndirilməsi üzrə vahid idarəetmə mexanizminin müəyyən edilməsini, ölkədə mövcud olan elmi-tədqiqat institutları, mərkəzləri və akademiyaların fəaliyyətinin vahid məqsədlərdə birləşdirilməsini, həm mövcud dövlət elmi-tədqiqat institutları və mərkəzlərinin, həm də müstəqil elmi-tədqiqat mərkəzlərinin sənaye müəssisələrilə əməkdaşlığı və reallaşdırılan layihələr nəzərə alınmaqla güzəştlər mexanizminin hazırlanmasını nəzərdə tutur. Eyni zamanda, yaradılacaq elm-istehsalat birlikləri və müstəqil elmi-tədqiqat institutları qurularkən qiymətləndirilməsi təklif edilən ilkin meyarlar müəyyən edilmişdir.

İş 4. Yeni innovasiya mərkəzlərinin, texnologiya transfer mərkəzlərinin yaradılması, təşəbbüskar investorların ölkənin innovasiya infrastrukturunun formalaşdırılması istiqamətində fəaliyyətinin dəstəklənməsi ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi.

İşdə "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"nin "Yeni innovasiya mərkəzlərinin, texnologiya transfer mərkəzlərinin yaradılması, təşəbbüskar investorların ölkənin innovasiya infrastrukturunun formalaşdırılması" tədbirinin icrası istiqamətində innovasiya mərkəzlərinin yaradılmasının ilkin xüsusiyyətləri araşdırılaraq, innovasiya mərkəzlərinin, texnologiya transfer mərkəzlərinin yaradılmasında təşəbbüskar investorların dəstəkləyici tədbirləri Mərkəzi Avropa ölkələri, Belarusiya, Türkiyə, Rusiya Federasiyası və Çinin nümunəsində tədqiq edilmişdir. Təcrübəsi öyrənilən ölkələrdə tətbiq edilən güzəştlər ümumiləşdirilmiş və yeni şirkətlər üçün mənfəət vergisinə güzəşt, iş yeri yaratma qrantları, təlim və yenidənhazırlanma qrantları, fərdi maliyyələşdirilən xərclərin subsidiyalaşdırılması, innovativ məhsulların satışından əldə olunan mənfəətin vergidən azad olması, qeydiyyat tarixindən etibarən ilk 7 il ərzində ölkənin investisiya proqramına daxil edilmiş layihələrə investisiya qoyuluşu edən xarici investorlara güzəştlərin edilməsi və s. bu kimi mexanizmlər müəyyən edilmişdir.

İş 5. Model müəssisə metodologiyası və onun tətbiqi ilə fəaliyyətin qiymətləndirilməsi.

Azərbaycan Respublikası Prezidentinin 06.12.16. tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi"nə müvafiq olaraq Azərbaycanda qənaətli istehsal üsullarının təhlili, ölkənin sənye sahələrində tətbiqinə dair dünya təcrübəsi əsasında sorğular aparılmış, müvafiq meyarlar seçilmiş və qiymətləndirmə metodologiyası hazırlanmışdır. Azərbaycanın agır sənaye və maşınqayırma 50-yə yaxın ilkin seçilmiş müəssisələri toplanmış məlumatlar

əsasında yenidən hazırlanmış metodologiya əsasında qiymətləndirilmiş və reytinqləri müəyyən edilmişdir. Yol xəritəsinin tələblərinə müvafiq olaraq Metodologiya əsaslanmaqla müəssisələrin fəaliyyətinə dair qiymətləndirmə nəticəsində "ATEF Şirkətlər Qrupu" qənaətli istehsal üsullarını daha effektiv edən pilot model müəssisə kimi seçilmişdir.

İş 6. Qənaətli istehsal metodları üzrə qanunvericilik bazasının təhlili və müvafiq təkliflərin hazırlanması.

Tədqiqat işində Azərbaycanda ağır sənaye və maşınqayırma müəssisələrində qənaətli istehsal imkanları araşdırılmış və bu üsulların məhsuldarlığın xeyli artmasına kömək edə biləcəyi müəyyən edilmişdir. Ağır sənaye və maşınqayırma müəssisələrində istehsal fəaliyyətinin səmərəli təşkili məqsədilə ölkədə fəaliyyət göstərən bir çox müvafiq müəssiələrə dair məlumatlar toplanmış və sistemləşdirilmişdir. 2016-cı ilin ümumi fəaliyyət göstəriciləri normallaşdırma əsasında indekslərə çevrilmiş və orta göstəricilər müəyyənləşdirilmişdır. Qeyd edilən metodologiya üzrə hesablamalar 45 ağır sənaye və maşınqayırma müəssisəsi üzrə aparılmışdır. Eyni zamanda, enerji effektivliyinin qiymətləndirilməsi məqsədilə həmin müəssisələrə enerji auditi ilə əlaqədar Schiender Electrics şirkətilə birgə hazırlanmış sorğu göndərilmiş və 14 müəssisə tərəfindən sorğuya verilən cavablar əsasında qiymətləndirmə aparılmışdır. Bu isə sorğu göndərilmiş müəssisə sayının təxminən 31 faizini əhatə edir. Tədqiqatın praktiki əhəmiyyəti qənaətli istehsal metodlarının tətbiqinin təklif edildiyi müəssisələrdə istehsalın səmərəliliyinin artmasına və beynəlxalq standartlara uyğun təşkili tələbi baxımından təkmilləşdirilməsinə töhvə verməsidir. İşin icrasının nəticəsi olaraq "Sənayenin müxtəlif sahələrində qənaətli istehsal metodlarının tətbiqi Konsepsiyası" hazırlanmışdır.

İş 7. İnnovasiya fəaliyyətinə investisiya qoyuluşunun təşviq edilməsi.

İş Azərbaycan Respublikası Prezidentinin 06.12.17. tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nin icrası istiqamətində həyata keçirilmişdir. İşin məqsədi investorların innovasiya fəaliyyətinə cəlb edilməsidir. Bu sahədə beynəlxalq təcrübə və yerli vəziyyət öyrənilmiş, nəticə olaraq "İnnovasiya Fəaliyyətinin İnkişafı Dövlət Proqramı (20_-20_-ci illər)" layihəsi hazırlanmışdır. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planında ölkədə innovasiya fəaliyyətinin normativ-hüquqi və metodoloji bazasının təkmilləşdirilməsi, elmi potensialın, innovativ sahibkarlığın və innovasiya infrastrukturunun inkişafı, milli innovasiya sisteminin elementləri arasında qarşılıqlı münasibətlərin təmin edilməsi, beynəlxalq əməkdaşlıq, inovasiya siyasəti ilə bağlı tədbirlər nəzərdə tutulur, hər bir tədbir üzrə icraçı qurumlar və icra müddətləri müəyyən olunmuşdur.

***Problem. Regionların və sahibkarlığın inkişafı*.**

İş 1. Yüksək texnologiyalar parklarının özəl sektor tərəfindən yaradılması üçün təşviqedici proqramların hazırlanması.

İş Azərbaycan Respublikası Prezidentinin 06.12.17. tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"nin icrası istiqamətində həyata keçirilmişdir. İşdə yüksək texnologiyalar parklarının özəl sektor tərəfindən yaradılması üzrə beynəlxalq təcrübə öyrənilmiş və "Yüksək texnologiyalar parklarının (YTP) özəl sektor tərəfindən yaradılması üçün təşviqedici proqram" hazırlanmışdır. Proqramda YTP-lərin vəzifələri, özəl sektor tərəfindən yüksək texnologiyalar sahəsində texnoparkların yaradılmasına dövlət

dəstəyi, YT sahəsində texnoparkların idarəetmə sistemi məsələləri öz əksini tapmışdır. Həmçinin icra ilə əlaqədar yüksək texnologiyalar sahəsinin inkişaf etdirilməsi, texnoparkda fəaliyyətin həyata keçirilməsi, innovasiya məhsulunun və yüksək texnologiyaların hazırlanması, işlənilməsi və elmi tədqiqatların aparılması üçün dövlət tərəfindən tətbiq edilmiş stimullaşdırıcı tədbirlər və qəbul edilmiş qanunvericilik aktları barədə qısa məlumatları özündə əks etdirən kitabça hazırlanmışdır.

İş 2. Azərbaycan Respublikasında orta təbəqənin qiymətləndirilməsinin nəzəri-metodoloji əsasları.

Tədqiqat işində orta təbəqəyə dair xronoloji ardıcıllığa uyğun olaraq nəzəri yanaşmalar verilmiş və müvafiq ümumiləşdirmələr aparılmışdır. Eyni zamanda orta təbəqənin hansı səviyyədə olduğunu ölçmək üçün istifadə edilən kriteriyalar, metodoloji yanaşmalar araşdırılaraq, ölkəmizdə tətbiq edilməsi və digər ölkələrlə müqayisə edilməsi mümkün olan metodologiyalar müəyyənləşdirilmişdir. İşdə, həmçinin bu metodologiyaların tətbiq edildiyi bəzi ölkələrin təcrübələrinə baxılmış, olkəmizdə əhalinin orta təbəqəsini qiymətləndirməyə imkan verən nəzəri-metodoloji əsaslar verilmişdir.

İş 3.Sektorlar üzrə əmək məhsuldarlığının mövcud vəziyyətinin və bu sahədə qanunvericilik bazasının öyrənilməsi, beynəlxalq təcrübənin araşdırılması və 2019-2020-ci illər üçün tədbirlər planının hazırlanması.

İşin məqsədi əmək məhsuldarlığı üzrə beynəlxalq təcrübə əsasında qanunvericilik bazasının hazırlanmasıdır. Bu istiqamətdə beynəlxalq təcrübə araşdırılmış, respublikada mövcud vəziyyət öyrənilmişdir. Nəticə olaraq “Əmək məhsuldarlığının yüksəldilməsi və Sahə klasterlərinin inkişafına yönəldilmiş innovasiya fəaliyyəti subyektlərinə dövlət dəstəyi göstərilməsi Qaydaları” və icra üzrə tədbirlər planı layihəsi hazırlanmışdır və sənədlər müvafiq qurumlara göndərilmişdir.

***Problem. İnformasiyanın işlənməsi və statistikanın təşkili***.

İş 1.Regional sənaye pasportunun hazırlanması. Tədqiqat işində pilot layihə olaraq “Gəncə-Qazax regionunun sənaye pasportu” hazırlanmışdır.

İşdə Gəncə-Qazax regionun təbii-coğrafi xarakteristika; inzibati ərazi vahidinin inkişafı ilə bağlı tarixi və retrospektiv məlumatlar; demoqrafik xarakteristika və əhalinin yaşayış səviyyəsi; sosial-mədəni sfera; idarəetmə orqanları və ictimai nümayəndəliklər (təşkilatlar); ümumi sosial-iqtisadi indikatorlar; əsas iqtisadi subyektlər; regiona qoyulan investisiyalar; sənaye istehsalı sahəsində müvafiq layihələrin həyata keçirilməsi üçün regionun iqtisadiyyatına, sənaye potensialına və investisiya sahələrinə dair məlumatlar daxil edilmiş, regionun iqtisadi göstəriciləri, sənaye göstəriciləri, sənayenin mövcud infrastrukturu, sənayenin mövcud dövlət dəstəyinin və tənzimlənməsinin əsas istiqamətləri, regionun sənaye xammal bazası və ixrac olunan sənaye məhsulları (növləri, əsas bazarlar) işdə öz əksini tapmışdır.

İş 2.Kənd yerlərinin sosial-iqtisadi inkişafı üzrə statistik bazanın və monitorinq sisteminin yaradılması.

İş Azərbaycan Respublikası Prezidentinin 06.12.17. tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”nin icrası istiqamətində həyata keçirilmişdir. Qeyd edilən istiqamətdə "Statistik bazanın və monitorinq sisteminin yaradılması metodologiyası" işlənilmiş, həmçinin "Monitorinq sisteminin mexanizmi" qurulmuşdur. Statistik bazanı əks

etdirən göstəricilər kənd yerlərində rifah səviyyəsi, məşğulluğun strukturu, sosial xidmətlər və infrastrukturla təminat və digər məsələləri əhatə etməklə qruplaşdırılmışdır. Bu göstəricilərin toplanması üçün ölkənin 52 yerli icra hakimiyyəti orqanına rəsmi olaraq məktubla müraciət edilsə də cəmi 4 inzibati rayondan – Qazax, Saatlı, Kürdəmir, Quba inzibati rayonlarından kənd yerləri üzrə məlumatlar təqdim edilmişdir. Həmin rayonların kəndlərini əhatə edən statistik baza yaradılmışdır.

2018-ci ildə İnstitutda keçirilən elmi-təşkilati və kadr potensialının gücləndirilməsi məqsədilə işlər aşağıdakılardan ibarət olmuşdur:

- İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda "Clarivate Analytics" Şirkəti ilə əməkdaşlıq çərçivəsində "InCites: analitik platformasının imkanları" mövzusunda seminar keçirilmiş (6 iyul 2018-ci il);
- İqtisadi keçid yaşayan Ölkələrin Kənd Təsərrüfatı İnkişafı üzrə Leybnits İnstitutu (IAMO) və İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun birgə təşkilatçılığı ilə "Qafqazda və Mərkəzi Asiyada davamlı regional inteqrasiya üçün kənd təsərrüfatında ticarət və xarici investisiyalar" mövzusunda Beynəlxalq Konfrans keçirilmiş (6-7 sentyabr 2018-ci il);
- İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda "Qənaətli istehsal üsulları: resurs səmərəliliyi və auditi" mövzusunda (31 oktyabr 2018-ci il) və "Qənaətli istehsal üsulları: resurs səmərəliliyi və standartları" mövzusunda (06 noyabr 2018-ci il) təlimlər keçirilmişdir;
- İnstitutun rəsmi internet səhifəsi (www.ier.az) müntəzəm olaraq yenilənmiş, sayta Beynəlxalq Konfrans 2018, Texnoloji Transfer Şəbəkəsi bölmələri daxil edilmişdir;
- Kitabxananın yeni elmi ədəbiyyatlarla zənginləşdirilməsi, nəşr işinin təşkili məqsədilə işlər görülmüşdür: yeni kitablar alınmış, kitabxaya daxil olan dövri mətbuat və elmi ədəbiyyatların kataloqları və xülasələri hazırlanmış, "Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri" adlı Elmi əsərlər toplusu çap edilmişdir. Həmçinin "ISO üzrə qənaətlilik əsasinda keyfiyyətin idarə olunmasi sistemi", "Texnologiyalar parkının idarəedici təşkilatına və rezidentinə aid güzəştlər", "İnvestisiya təşviqi sənədi: ən vacib məqamlar", "Kiçik və orta sahiblarlığın xidmət sahələri: təkliflər kataloqu", "Qənaətli istehsal metodlarının tətbiq ediləcəyi müəssisələrə dair təhlillərin aparılması və müvafiq təkliflərin hazırlanması" adlı vəsaitlər hazırlanmış və institutun saytında (www.ier.az) yerləşdirilmişdir.

**AZƏRBAYCAN RESPUBLİKASI**
**İQTİSADİYYAT NAZİRLİYİNİN**
**İQTİSADİ İSLAHATLAR ELMİ TƏDQİQAT İNSTİTUTU**

**AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ**

*ELMİ ƏSƏRLƏR TOPLUSU*
***XVIII BURAXILIŞ***



**BAKI - 2018**

*Azərbaycan Respublikası*
*İqtisadiyyat Nazirliyinin*
*İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun*
*Elmi Şurasının qərarı əsasında nəşr olunur*

**"Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri" elmi əsərlər toplusunun redaksiya heyəti**

**Baş redaktor**
***Vilayət Məmməd oğlu Vəliyev**, iqtisad elmləri doktoru, professor*

**Məsul katib**
***Səyalı Zal qızı Abbasəliyeva***

**Üzvlər**
***Arzu Doğru qızı Hüseynova**, iqtisad elmləri doktoru*
***Oruc İbrahim oğlu İbrahimov**, iqtisad elmləri namizədi, dosent*
***Ədalət Bayraməli oğlu Əliyev**, iqtisad elmləri doktoru, texnika elmləri doktoru, professor*
***Zakir Məcid oğlu Nəcəfov**, iqtisad elmləri doktoru*
***Gülənbər Arif qızı Əzizova**, iqtisad elmləri doktoru, professor*
***Vəfa Hüseynağa qızı Rzayeva**, texnika elmləri namizədi*
***Arzu Sahib oğlu Süleymanov**, iqtisad üzrə fəlsəfə doktoru*
***Fərhad Qamboy oğlu Mikayılov**, iqtisad elmləri namizədi*
***Malik Məmməd oğlu Mehdiyev**, iqtisad üzrə fəlsəfə doktoru*
***Vladimir Dmitriyeviç Parxomenko**, Ukrayna Pedoqoji Elmlər Akademiyasının müxbir üzvü, professor (Ukrayna)*
***Yelena Borisovna Lençuk**, iqtisad elmləri doktoru, professor (Rusiya)*
***İqor Germanoviç Mantsurov**, iqtisad elmləri doktoru, professor (Ukrayna)*
***Aleksandr Nikolayeviç Stratan**, iqtisad elmləri doktoru, professor (Moldova)*
***Saylau Bayzakoviç Bayzakov**, iqtisad elmləri doktoru, professor (Qazaxıstan)*

Elmi əsərlər toplusu Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 2017-ci il 31 mart tarixli (protokol №06-R) qərarı ilə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı"nın iqtisad elmləri bölməsinə daxil edilmişdir.

Əlaqə üçün məlumat:
İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu
AZ 1011, Azərbaycan Respublikası, Bakı şəhəri, H.Zərdabi prospekti, 88a
Telefon: (+99412) 430 01 70; Faks: (+99412) 430 03 06
Elektron poçt: office@ier.az

© İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu, 2018

*"AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ" ELMİ ƏSƏRLƏR TOPLUSU, 2018, XVIII BURAXILIŞ* 3

**MÜNDƏRİCAT**

**ÖLKƏMİZDƏ SU TƏCHİZATI VƏ SUYUN TƏMİZLƏNMƏSİ YOLLARI** 5
*Ədalət ƏLİYEV, Suma ZEYNALOVA*

**СОДА – ЩЕЛОЧНОЙ СПОСОБ ПЕРЕРАБОТКИ АЛУНИТОВЫХ РУД (СПОСОБ РЕКОНСТРУКЦИИ ГЯНДЖИНСКОГО ГЛИНОЗЕМНОГО КОМБИНАТА И ВНЕДРЕНИЯ КОМПЛЕКСНОЙ, ЭКОЛОГИЧЕСКИ ЧИСТОЙ ТЕХНОЛОГИИ)** 14
*Эльдар ТАГИЕВ, Эльшад ТАГИЕВ, Лала АГАЕВА*

**AZƏRBAYCANIN RƏQABƏTQABİLİYYƏTLİ MƏHSULLARININ BEYNƏLXALQ BAZARLARA ÇIXIŞINI TƏMİN ETMƏK ÜÇÜN DÖVLƏTİN ƏSAS TƏNZİMLƏYİCİ FUNKSIYALARINDAN İSTİFADƏ ETMƏ YOLLARI: METODOLOJİ ASPEKT** 24
*Samirə ABASOVA*

**MİLLİ İQTİSADİYYATIN RƏQABƏTQABİLİYYƏTLİLİYİNİ ARTIRMAQ ÜÇÜN MARKETİNQ FƏALİYYƏTİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ** 34
*Sənan YƏHYA*

**MÜASIR İNKİŞAF MƏRHƏLƏSİNDƏ AZƏRBAYCANDA İQTİSADİ ŞAXƏLƏNDİRMƏ VƏ PUL SİYASƏTİ ÇAĞIRIŞLARI** 42
*Azər HƏSƏNLİ*

**QEYRİ-KOMMERSİYA TƏŞKİLATLARININ CƏMİYYƏT ÜZƏRİNDƏKİ POTENSİAL TƏSİRLƏRİ** 59
*Aydın İBADOV*

**İSLAM İNKİŞAF BANKININ REGİON ÖLKƏLƏRİNİN İNKİŞAFINDA ROLU** 69
*Elnur MƏMMƏDOV*

**AZƏRBAYCANDA İSTEHLAKÇI DAVRANIŞI VƏ BAZARIN SEQMENTLƏŞDİRİLMƏSİ** 80
*Faiq DADAŞOV*

**AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ DÜNYA BAZARINDA RƏQABƏT QABİLİYYƏTLİLİYİ** 89
*Fərid HÜSEYNOV*

**AZƏRBAYCANDA MAŞINQAYIRMA MÜƏSSİSƏLƏRİNİN İSTEHSALININ MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ** 96
*Fikrət QURBANOV*

**MALİYYƏ NƏZARƏTİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ İŞTİRAK EDƏN ORQANLARIN VƏZİFƏLƏRİ** 105
*Nüşabə HÜSEYNLİ*

*"AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ" ELMİ ƏSƏRLƏR TOPLUSU, 2018, XVIII BURAXILIŞ* 4

**АНАЛИЗ И ОЦЕНКА ПРОЦЕССА ФОРМИРОВАНИЯ ГОСУДАРСТВЕННОГО РЕГУЛИРОВАНИЯ ДЕЯТЕЛЬНОСТИ ПРОМЫШЛЕННЫХ ПАРКОВ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ** 113
*Наргиза ИСМАИЛОВА*

**THE BLOCKCHAİN SYSTEM AND APPLİCATİON İN FİNANCE** 125
*Kamal MUSAYEV*

**SAHİBKARLIQ FƏALİYYƏTİNƏ VERGİ MEXANİZMİ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ** 134
*Tərlan DADAŞOV, Nərminə QULİYEVA*

**NEFT MAŞINQAYIRMASI SƏNAYESİNİN VƏZİYYƏTİ** 144
*Fikrət QURBANOV*

**İNFRASTRUKTURLAR DAVAMLI İNKİŞAFDA İQTİSADİ ARTIMIN ENDOGEN AMİLİ KİMİ** 149
*Həsən MƏMMƏDOV*

**İNVESTİSİYA ÜÇÜN SİYASƏT ÇƏRÇİVƏSİNİN ƏSAS ELEMENTLƏRİ** 163
*Uğur İBRAHİMLİ*

**PERFORMANS DEĞERLENDİRME YÖNTEMLERİNİN ORTA VE ÜST DÜZEY YÖNETİCİLERİN İŞ BAŞARISI ÜZERİNE ETKİSİ: AZERBAYCAN BAKÜ'DEKİ ÖZEL BANKALARA YÖNELİK ARAŞTIRMA** 175
*Mina SHKHALİLİ, Murat Adil SALEPÇİOĞLU*

**ÖRGÜTSEL BAĞLILIK VE İŞ BAŞARISININ İŞ DOYUMU İLE İLİŞKİSİ VE AZERBAYCAN SOSYAL SİGORTALAR KURUMU (DSMF) ÖRNEĞİ** 192
*Anar TALIBLI*

**DAVAMLI SOSİAL-İQTİSADİ İNKİŞAFDA İNSAN KAPİTALININ ROLU** 203
*Fərhad MIKAYILOV, Ülkər SALIFOVA*

**AZƏRBAYCAN RESPUBLİKASINDA ELEKTRİK ENERJİSİNİN TƏLƏB VƏ TƏKLİFİNİN QISAMÜDDƏTLİ EKONOMETRİK PROQNOZ MODELİ** 212
*Fariz MƏMMƏDOV*

**MÜƏLLİFLƏR ÜÇÜN QAYDALAR** 230

**2019-cu ildə** də İnstitut əsas fəaliyyət istiqamətini Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"ndə, Dövlət Proqramlarında icraçı olduğu tədbirlər əsasında, Nazirliyin müvafiq şöbələri və struktur bölmələri ilə razılaşdırılmaqla qurmuşdur. 2019-cu ildə İqtisadi Elmi Tədqiqat İnstitutunda yerinə yetirilən elmi tədqiqat işləri aşağıdakılardan ibarət olmuşdur:

***Problem. Azərbaycanın sosial-iqtisadi göstəricilərinin makroekonometrik proqnoz modelinin qurulması*.**

Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın proqnoz modelinin təkmilləşdirilməsi barədə İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş tapşırıq əsasında İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda müvafiq işlər yerinə yetirilmiş və Azərbaycan iqtisadiyyatı üçün qısamüddətli makroekonometrik model qurulmuşdur. Makroekonometrik modellər bilavasitə məlumat əsaslı olduğundan, ilkin olaraq modelin qurulması üçün mükəmməl statistik məlumatlar bazasının formalaşdırılması işləri yerinə yetirilmişdir. Dövlət Statistika Komitəsinin və eləcə də digər dövlət orqanlarının tədqim etdiyi məlumatlar modelin qurulması üçün yetərli olmadığından məlumatlar bazasının yenidən işlənilməsi məqsədilə DSK tərəfindən nəşr edilən Milli Hesablar Sisteminin göstəriciləri müxtəlif dövrlər üzrəfərqli metodologiyalar tətbiq edilməklə formalaşdırıldığı nəzərə alınaraq, bu göstəricilərin eyni metodologiya əsasında yenidən hazırlanması Komitə ilə birlikdə təkrar həyata keçirilmiş və modelin statistik məlumat bazası və buna müvafiq müfəssəl hesabatı hazırlanmışdır. Məlumat bazası ümumi daxili məhsul istehsal və xərclər üsulu ilə, məhsul istehsalı, deflyatorlar, tədiyə balansı, dövlət maliyyəsi və pul bazarı olmaqla yeddi bölmədən ibarət formalaşdırılmışdır.

Qeyd edilən model formalaşdırılmış statistik məlumatlar bazası əsasında, Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Təşkilatı (CAREC) ölkələrində tətbiq edilən və Asiya İnkişaf Bankı (ADB) tərəfindən tövsiyə olunan metodologiya rəhbər tutularaq, elmi əsaslara söykənərək Azərbaycanın sosial-iqtisadi inkişafına uyğun formada tam olaraq İnstitutun daxili imkanları və kadr potensialı əsasında xarici ekspert dəstəyi olmadan qısa zaman ərzində hazırlanmışdır. Eyni zamanda, İnstitut tərəfindən aparılmış tədqiqat işləri nəticəsində "Makroiqtisadi göstəricilər sisteminin formalaşdırılmasının metodoloji əsasları" hazırlanmış və onun əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 may tarixli 75 nömrəli qərarına, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 235 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası"nın tələbləri baxımından dəyişikliklər edilməsi barədə təkliflər işlənmiş və sosial-iqtisadi göstəricilərin proqnozunun verilməsi üzrə Nazirlər Kabinetinin qərar layihəsi hazırlanaraq aidiyyəti üzrə Nazirliyə təqdim olunmuşdur. (İcraya məsul rəhbər: Arzu Süleymanov. İcraçılar: Malik Mehdiyev, Elnur Ələkbərov, Elmira Bağırova, Rauf Musayev, İlkin Qasımov, Məryəm Quliyeva)

***Problem. Müqayisəli üstünlük əsasinda yerli istehsalı rəqabətqabiliyyətli olan konkret məhsulların müəyyən edilməsi*.**

Tədqiqat işi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Kollegiyasının 12 nömrəli Qərarının 4.3. bəndi və "Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 19

sentyabr 2018-ci il 497 nömrəli Sərəncamının 2.2. Yerli istehsalı rəqabətqabiliyyətli olan konkret məhsulların siyahısının hazırlanmasının və istehsalının təşkili kommersiya cəhətdən səmərəli olan məhsulların təşviqinin təmin edilməsi” tapşırığının icrası istiqamətində yerinə yetirilmişdir. İşdə dünya təcrübəsində geniş istifadə olunan Aşkar müqayisəli üstünlüklərin (AMÜ) Ballassa metodu və Daxili resurs sərfi metodlarından istifadə edilmişdir. İlkin mərhələdə qeyri-neft məhsulları üzrə xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının həmahəng sisteminin (XİFMN) 6 rəqəmli əmtəə mövqeləri üzrə ixrac olunan 3500-dən çox əmtəə mövqelərinin Balassa metodu tətbiq etməklə aşkar müqayisəli üstünlüyü (AMÜ) qiymətləndirilmişdir. Qiymətləndirmə nəticəsində 2015-2017-ci illər üzrə aşkar müqayisəli üstünlüyə malik olan 85 alt əmtəə mövqeyinə aid məhsul seçilmişdir. İdxal göstəriciləri üzrə rəqabətqabiliyyətlilik İqtisadiyyat Nazirliyinin aidiyyəti şöbələri ilə işçi qaydada müzakirələr əsasında ölkədə hazırda istehsal olunan və istehsalı mümkün hesab olunan məhsullar istiqamətində müəyyən edilmişdir.

Belə ki, birgə müzakirələr nəticəsində XİFMN-nin 10 rəqəmli kodları əsasında ölkəyə idxal olunan və dəyər ifadəsində ən böyük paya malik 200 alt əmtəə kateqoriyası (10 rəqəmli kodlarla) müəyyən edilmiş və onların içərisindən ölkədə istehsal imkanları ola biləcək, həmçinin idxalın əvəzləşdirilməsi baxımından əhəmiyyətli olan 124 alt əmtəə kateqoriyası seçilmişdir. Növbəti mərhələdə idxal üzrə seçilmiş 124 müxtəlif kod altında olan alt əmtəə kateqoriyası üzrə rəqabət üstünlüyünü müəyyən etmək məqsədilə daxili resurs sərfi metodu tətbiq edilmişdir. Müvafiq qiymətləndirmələr aparılmış, nəticədə siyahı üzrə 124 alt əmtəə kateqoriyasından 57 rəqabətqabiliyyətli məhsul müəyyən edilmişdir. İnstitutda istehsalı və ixracı rəqabətqabiliyyətli olan məhsulların konkret siyahısı hazırlanaraq müvafiq məktublarla bəndin icrası ilə əlaqədar aidiyyəti dövlət orqanlarının nümayəndələrindən ibarət yaradılmış İşçi qrupunda bir neçə dəfə müzakirə edilmiş, eyni zamanda həmin dövlət orqanlarının seçilmiş məhsullara dair münasibəti rəsmi qaydada Nazirliyə təqdim edilmişdir. Müvafiq rəy vətəkliflər nəzərə alınmaqla məhsulların sıyahısı yenidən tərtib edilmişdir (İcraya məsul rəhbərlər: Elnur Ələkbərov, Malik Mehdiyev İcraçılar: Rauf Musayev, Vüsal Hüseynov).

***Problem. Kənd yerlərinin sosial-iqtisadi inkişafi üzrə statistik bazanın və monitorinq sisteminin məlumatlarının təhlili əsasında (yerli icmaların, bələdiyyələrin və yerli icra hakimiyyəti orqanlarının aktiv iştirakının təmin olunması ilə və s.) kəndlər üzrə qısa, orta və uzunmüddətli inkişaf planlarının hazırlanması*.**

İş Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi” üzrə təfsilatlı tədbirlər planının 9.1.2 bəndinin 3-cü altbəndinin icrası istiqamətində yerinə yetirilmişdir. Görüləcək işlər 10 sentyabr 2019-cu il tarixində İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində və 16 sentyabr 2019-cu il tarixində Aqrar Tədqiqatlar Mərkəzində geniş müzakirə edilmiş, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu ilə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Tədqiqatlar Mərkəzi tərəfindən Azərbaycanın milli xüsusiyyətləri nəzərə alınmaqla, kənd yerlərinin sosial-iqtisadi inkişafının monitorinqi və təhlili proseslərinin həyata keçirilməsində idarəetmə qərarlarının hazırlanması və qəbul edilməsinə informasiya dəstəyi üçün nəzərdə tutulmuş monitorinq sisteminin texniki-tapşırığının hazırlanması qərara alınmışdır. Bununla əlaqədar aidiyyəti dövlət qurumlarının mövcud bazaları və bu bazalarda yığılmış aidiyyəti göstəricilər (kənd yerlərində rifah

səviyyəsi, məşğulluğun strukturu, sosial xidmətlər və infrastrukturla təminat və digər bu kimi məsələləri əhatə edən) barədə məlumatların əldə edilməsi məqsədilə Vergilər, ƏƏSM, Təhsil, Səhiyyə nazirlikləri, DSK, ƏMDK, Azərsu, Azərişıq, Azəriqaz və digər aidiyyəti qurumlara müraciət ünvanlanmışdır. Əldə edilmiş məlumatlar əsasında "Kənd yerlərinin sosial-iqtisadi inkişafı üzrə statistik bazanın və monitorinq sistemi"nin yaradılması üzrətexniki-tapşırıq hazırlanmış və münasibət bildirilməsi məqsədilə aidiyyəti qurumlara təqdim edilmişdir (İcraya məsul rəhbər: Arzu Hüseynova İcraçılar: Nigar Ələsgərova, Elnur Ələkbərov, Ülkər Salıfova, Afaq Qasımova).

***Problem. Kiçik və orta sahibkarliğin xidmət sahələri: təkliflər kataloqu.***

Kataloq Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi"nin və "Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"nin tədbirlərinin icrasının təmin edilməsi məqsədilə İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu tərəfindən işlənilmişdir. Ölkəmizdə təhsil, elm və sənaye tendeminin yaradılması, eləcə də universitet və elmi müəssisələrin sahibkarlığa özəl xidmət spektrinin müəyyənləşdirilməsi və əlaqələndirilməsi, əlavə gəlir əldə edilməsi və rəqabətliliyin artırılması, tədqiqat və tərəqqinin daha sürətlə inkişafının stimullaşdırılması, KOS subyektlərinin peşəkar tədqiqatçıların təkliflərindən yararlanması və sahibkarlıq fəaliyyətlərinin daha da möhkəmləndirilməsi məqsədilə universitet və elmi-tədqiqat müəssisələrində mövcud laboratoriyalar, onların fəaliyyət istiqamətləri, avadanlıqlarla təchizat səviyyəsi və s., həmçinin də özəl sektorun tələb və təkliflərinin öyrənilməsi zərurətindən irəli gələrək elmi müəssisələr arasında sorğu keçirilmişdir. Sözügedən sorğularda məqsəd innovativ infrastrukturun daha da gücləndirilməsi, kiçik və orta sahibkarlar arasında araşdırma fəaliyyətlərinin dəstəklənməsi, elm ilə özəl sektor arasında praktiki əlaqələrin genişləndirilməsi məqsədilə istehsal müəssisələrinin tələbi üzrə mövcud və yaxın gələcəkdə istifadəyə verilməsi nəzərdə tutulan laboratoriyalar, kompüter, innovasiya mərkəzləri və s. xidmət obyektləri haqqında məlumatların toplanması məqsədilə anket (sorğu) vərəqələri hazırlanmışdır. Sözügedən anket hazırda ölkəmizdə fəaliyyət göstərən universitet, elmi-tədqiqat və sənaye qurumları daxil olmaqla ümumilikdə, 95 təşkilata göndərilmişdir. Anket vasitəsilə əldə olunan məlumatlar fəaliyyət sahələrinə görə qruplaşdırılaraq, geniş auditoriyaya çatdırılması, habelə KOS subyektlərinin faydalanmasına nail olunması məqsədilə "KOS-lara xidmət sahələri: təkliflər kataloqu" adlı vəsait hazırlanmışdır (İcraya məsul rəhbər: Arzu Hüseynova İcraçılar: Təranə Salıfova, Ülkər Salıfova, Aliya Şabanova, Nərminə Quliyeva, Afaq Qasımova).

***Problem. Peşə təhsili müəssisələrində satış məqsədli istehsal fəaliyyətinin qiymətləndirilməsi.***

İş "Azərbaycan Respublikasında peşətəhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"nin tədbirlər planının 2.1.5. bəndinin icrası istiqamətində yerinə yetirilmişdir. Pilot peşə təhsili müəssisələrində məhsul və xidmətlərin istehsalı və satışı üzrə fəaliyyətin qiymətləndirilməsi metodologiyasının ilkin variantı hazırlanmışdır. Metodologiyada fəaliyyətin səmərəliliyinin universal bir göstərici olaraq gəlir və onun nisbi göstəricisi rentabellik təklif edilmişdir. Bununla yanaşı metodologiyada əmək, maliyyə və maddi ehtiyatlardan istifadə göstəricilərinin hesablanma qaydası da öz əksini tapmışdır. AR Təhsil Nazirliyi Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən seçilmiş pilot peşə təhsili

müəssisələrində sorğuların keçirilməsi məqsədilə anket forması hazırlanmış və qiymətləndirmə məlumatlarının əldə edilməsi məqsədilə müəssisələrə təqdim edilmişdir. Pilot müəssisələr tərəfindən doldurulmuş formaların təhlili aparılarkən məlum olmuşdur ki, hazırda seçilmiş pilot peşə təhsili müəssisələri hər hansı istehsal və xidmət satışı fəaliyyəti ilə məşğul deyildir. Satış fəaliyyətinin təşkili istiqamətində müəyyən işlər görülməkdədir. Əldə olunmuş məlumtlar əsasında pilot peşə təhsili müəssisələrinin mövcud vəziyyətinə dair arayış hazırlanmış, peşə təhsili müəssisələri sistemlərinin inkişafı üçün təkliflər verilmişdir (İcraya məsul rəhbər: Fərhad Mikayılov. İcraçılar: Aliya Şabanova, Əhliman Qasımov).

***Problem. Qənaətli istehsal metodları ilə bağli məlumatlandırma tədbirlərinin görülməsi (analitik və təşviq nəşrlərinin çap edilməsi).***

İş "Azərbaycan Respublikasının ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi" üzrə təfsilatlı tədbirlər planının 1.1.1 bəndinin 6-cı altbəndinin icrası istiqamətində yerinə yetirilmişdir. Bu məqsədlə "Qənaətli istehsal üsulları: tam zamanında istehsal (Just-InTıme)", "Qənaətli istehsal üsulları: "5S" və "Qənaətli istehsal üsulları: "Altı Sigma" − maarifləndirici məlumatları özündə əks etdirən kitabçalar hazırlanmışdır. Kitabçalarda qənaətli istehsalın mahiyyəti və istehsalda tətbiqi xüsusiyyətləri və tam zamanında istehsal üsulunun və 6 sigma üsuluna dair məlumatlar öz əksini tapmışdır. Kitabçalar İnstitutun rəsmi internet səhifəsində yerləşdirilmişdir. Tədbirin icrası ilə əlaqədar, İnstitut tərəfindən aidiyyatı müəssisələrdə qənaətli istehsal üsullarının tətbiqi, eləcə də, məlumatlılığın öyrənilməsinə dair sorğu anketi hazırlanmışdır. Tərtib olunmuş sorğu anketində: müəssisələrin istehsal etdiyi məhsul və xidmətlərin siyahısı, 2018-ci il üzrə müəssisədə işləyənlərin sayı, natura və dəyər ifadəsi iləillik satış həcmi, müəssisədə tətbiq olunan idarəetmə və istehsal standartları, istehsal texnologiyaları, qənaətli istehsal üsulları haqqında müəssisələrin məlumatlı olub olmaması, tətbiq olunan qənaətli istehsal üsulları, müəssisə tərəfindən işçilərin ixtisasartırmasının keçirilib keçirilməməsi kimi məsələlər öz əksini tapmışdır. Qənaətli istehsal üsullarının tətbiqi, eləcə də, məlumatlılığın öyrənilməsinə dair sorğu anketi Azərbaycan Respublikasında fəaliyyət göstərən 53 ağır sənaye və maşınqayırma müəssisəsinə göndərilmişdir (İcraya məsul rəhbər: Nərminə Quliyeva İcraçılar: Günel İbrahimli).

***Problem. Barama istehsalı və emalı sahəsində innovativ layihələrin dəstəklənməsi.***

İş "Baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın "Barama istehsalı və emalı sahəsində innovativ layihələrin dəstəklənməsi" tədbirinin icrası istiqamətində yerinə yetirilmişdr. Bu məqsədlə barama istehsalı və emalı prosesi öyrənilmiş, ipək qurdunun həyat dövrü bütün etaplar üzrə izah edilmiş, ipəyin növləri, xüsusiyyətləri, quruluşu, faydaları və istifadəsi araşdırılmışdır. Bundan başqa Azərbaycanda baramaçılığın və ipəkçiliyin mövcud vəziyyəti haqqında qısa məlumat verilmiş, hər bir rayon üzrə yaş barama qəbulunun 2015-2019-cu illər üzrə statistikası göstərilmişdir. Tədqiqat işində dünyada ipəkçiliyin inkişaf meyilləri, barama istehsalı və emalı sahəsində dövlət dəstəyinin beynəlxalq təcrübəsi öyrənilmişdir. Belə ki, barama istehsalı vəemalı sahəsindəinnovativ layihələrin icrası üçün dəstəkləyici tədbirlər Türkiyə və Hindistanın timsalında nəzərdən keçirilmişdir. Tədbirin icrası istiqamətində Zərdab, Şəki, Qax, Balakən və Zaqatala rayonlarına ezam edilmiş institut əməkdaşları baramaçılıq sahəsindəki mövcud vəziyyəti araşdırıb, baramaçılıqla məşğul olan sahibkarlarla görüşlər keçirmişlər.

Həmçinin, ölkəmizdə təhlillərin aparılması və dəstəkləyici tədbirlərin müəyyən edilməsi üçün barama istehsalı sahəsində Kənd Təsərrüfatı Nazirliyi Dövlət Aqrar İnkişaf Mərkəzlərinin, Qax Damazlıq İpəkçilik Stansiyasının, "Azərİpək MMC"-nin, eləcə də, barama istehsalçılarının (kümçülərin) fəaliyyətinə dair sorğu anketləri hazırlanmış, nəticələr təhlil edilərək arayış forması hazırlanmışdır. Tərtib olunmuş sorğu anketində: rayon üzrə tut ağaclarının yetişdirilməsi, rayonun təmin etdiyi tut yarpağının miqdarı, tut bağlarının və ya yarpaqlarının zərərvericilər vəxəstəliklərdən zərər görməməsi üçün nə kimi tədbirlərin görülməsi, ipəkqurdu sürfələrinin paylandığı kümçülərin sayı, kümçülərə paylanmış sürfələrin miqdarı, ipəkqurdu istesalı və idxalına tətbiq edilən mövcud güzəştlər, ipəkqurdu yumurta və sürfələrinin nəql edilməsi üçün nəqliyyat vasitələrində təmizləmə və dezinfeksiya tədbirlərinin aparılıb aparılmaması kimi məsələlər öz əksini tapmışdır. Sorğuda 36 rayon iştirak etmişdir (İcraya məsul rəhbər: Əlvan Süleymanova. İcraçılar: Ülkər Salıfova, Günel İbrahimli).

***Problem. Şərabçılıqla məşğul olan regionların mikrozonalara ayrılması və tanıdılması*.**

İş "2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"nın icrası istiqamətində yerinə yetirilmişdir. İlk mərhələdə "Şərabçılıqla məşğul olan regionların mikrozonalara ayrılması və tanıdılması üzrə Gürcüstan təcrübəsi" adlı tədqiqat işi yerinə yetirilmiş və nəşrə təqdim edilmişdir. Daha sonra Azərbaycanın üzümçülük və şərabçılıq bölgələrinin ərazi xüsusiyyətləri sistemləşdirilmiş, üzümçülük və şərabçılıq zonaları müəyyən edilmişdir. Sözügedən zonalar üzrə kataloq hazırlanmış və Gəncə-Qazax iqtisadi rayonunda şərab emalı müəssisələrinə təqdim edilmişdir. "Şərabçılıqla məşğul olan regionların mikrozonalara ayrılması və tanıdılması" üzrə kitabça əsas şərabçılıq regionlarının mikrozonalara bölünməsi və hər zonaya məxsus xüsusiyyətləri - üzüm əkin sahəsi; məhsuldarlıq; üzüm əkinlərinin yerləşdiyi hündürlük; zonanın iqlim tipi; torpaq örtüyü; illik istilik miqdarı; illik orta temperature; illik yağış miqdarı; məhsul yığımı; mikrozonada yerləşən şərab istehsal edən müəssisələr; istehsal edilən şərab növləri; şərab istehsalı üçün istifadə edilən üzüm növləri özündə əks etdirir. Kataloqda şərabçılıqla məşğul olan zonalar Abşeron, Quba Xaçmaz, Şirvan, Qarabağ-Mil, Dağlıq Qarabağ, Lənkəran, Gəncə-Qazax, Şəki-Zaqatala bölgələri olmaqla mikrozonalara ayrılmışdır (İcraya məsul rəhbər: Əlvan Süleymanova. İcraçılar: Nərminə Quliyeva, Günel İbrahimli).

***Problem. Regional bazarlara ixrac perspektivi olan malların siyahısının hazırlanması və təhlillər aparılması.***

İş "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi"nin "2.1.1. Regional bazarlara ixrac perspektivi olan malların siyahısının hazırlanması" tapşırığının icrası istiqamətində yerinə yetirilmişdir. Geniş tədqiqat işi aparılmış və tədqiqatın nəticələri hesabatlaşdırılmışdır.

İşin yerinə yetirilməsi mərhələləri aşağıdakı kimi olmuşdur:

- Ağır sənaye və maşınqayırma sahəsində məhsullar üzrə məlumat bazası formalaşdırılmışdır; 13 region ölkəsi üzrə qarşılıqlı idxal-ixrac məlumatları toplanmışdır; - Toplanmış məlumatlar üzrə idxal və ixrac qiymətləri hesablanmışdır;

- Hesablanmış idxal və ixrac qiymətləri əsasında qiymət indeksləri müəyyənləşdirilmişdir;

- 6 rəqəmli HS kodları əsasında yığılmış məlumatları DSK-nın keçid açarları vasitəsilə SMST kodlarına çevrilmiş və bu əsasda sahələr üzrə qruplaşdırılmalar aparılaraq qiymətlər və qiymət indeksləri müəyyən edilmişdir;
- Region ölkələri üzrə hər bir məhsula görə lokallaşma əmsalları hesablanmış və bu əsasda qeyd olunan ölkələr üzrə qarşılıqlı ticarət əlaqələrində idxal və ixrac olunan məhsullara görə ən uyğun bazarlar müəyyən edilmişdir;
- Regional bazarlarda tələbi olan məhsullar üzrə Azərbaycanda ixrac edilə bilməsi məqsədilə rəqabətqabiliyyətlilik (Daxili Resurs Sərfi əmsalları) qiymətləndirilmiş və konkret məhsulların siyahısı müəyyən edilmişdir;
- Rəqabətqabiliyyətli məhsullar üzrə region bazarında baxılan illərdə aşkar müqayisəli üstünlüyü ən yüksək olan ölkələr qiymətləndirilərək müəyyənləşdirilmişdir;
- Hazırlanmış siyahı üzrə hər bir məhsula görə rentabellik və investisiya cədvəlləri qiymətləndirilmişdir ki, bu da istehsalı qısa zaman ərzində və az investisiya tələb edən məhsullar seçilməsinə imkan vermişdir.

Beləliklə yerinə yetirilmiş tədqiqat işində regional bazarların (Azərbaycan, Türkiyə, Rusiya Federasiyası, Gürcüstan, İran, Moldova, Belarus, Ukrayna, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan və Ermənistan) tam təhlil edilməsi əsasında həm tələbat, həm də ixrac potensialı nəzərə alınmaqla regional dəyər zəncirində üstünlüyə malik məhsullar müəyyən edilmişdir. Regional bazarların tələbatı yüksək olduğu məhsullar üzrə ölkə sənayesinin mövcud vəziyyəti və potensialı əsasında rəqabətqabiliyyətli məhsul istiqamətləri müəyyən edilmiş, rentabellik və investisiya ehtiyacları cədvəlləri hazırlanmışdır ki, bu da regional dəyər zəncirinin hansı seqmentlərinə inteqrasiya edilməsini müəyyənləşdirməyə imkan verəcəkdir (İcraya məsul rəhbər: Arzu Süleymanov. İcraçılar: Malik Mehdiyev, Rauf Musayev, Vüsal Hüseynov).

***Problem. Kənd təsərrüfati, emal sənayesi, turizm və rabitə sahəsində investisiyaların 10% artımı.***

Kənd təsərrüfatı, emal sənayesi, turizm və rabitə sahəsində investisiyaların 10% artımı nəticəsində yaranacaq makroiqtisadi effektlər baza səviyyəsi ilə müqayisədə qiymətləndirilərək aidiyyəti üzrə təqdim olunmuşdur. Sosial Hesablar Matrisi multiplikator modeli vasitəsilə aparılmış qiymətləndirmələrdə ixrac ekzogen dəyişən olaraq müəyyən edilmişdir. İxracın miqdarına təsir göstərən amillər əsasən valyuta məzənnəsi, tərəfdaş ölkələrin ÜDM-nin miqdarı və s kimi digər faktorlar təsir etdiyi üçün yerinə yetirilmiş simulyasiyalarda ixrac sabit olaraq qeyd edilmişdir. Cədvəldə qeyd olunan faiz dəyişmələri Sosial Hesablar Matrisi multiplikator modeli vasitəsilə Texnoloji matrisi əsas götürərək hesablanmışdır. Belə ki, hər hansı bir ildə investisiya xərclərinin 10% artımı nəticəsində ÜDM həmin ildə 0.27% artacaqdır. Bu dəyişmə ancaq həmin ildə artırımış investisiya xərclərinin miqdarına görə alınan faiz artımıdır (İcraya məsul rəhbər: Arzu Süleymanov. İcraçılar: Malik Mehdiyev).

***Problem. Yol-nəqliyyat hadisələri nəticəsində dəyən sosial-iqtisadi və ekoloji zərərin qiymətləndirilməsi və hesablanması qaydalarının hazırlanması.***

İş Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2018-ci il tarixli 852 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019- 2023-cü illər üçün Dövlət Proqramı”nın icrasına dair tədbirlər planında nəzərdə tutulmuş 7.1.4. “Yol-nəqliyyat hadisələri nəticəsində dəyən zərərin müəyyənləşdirilməsi

qaydalarının hazırlanması və təsdiqi" bəndinin icrası istiqamətində yerinə yetirilmişdir. Bu qaydaların hazırlanmasında əsas məqsəd yol nəqliyyat hadisələri nəticəsində ölkə iqtisadiyyatına dəyən zərərin qiymətləndirilməsi və hesablanmasıdır. YNH nəticəsində dəyən sosial-iqtisadi zərərin məbləği aşağıdakı komponentlərdən ibarətdir:

- İnsan ölümü və ya müxtəlif dərəcəli bədən xəsarəti alması nəticəsində dəyən zərər;
- Nəqliyyat vasitələrinə dəyən zərər;
- Daşınan yükə dəyən zərər; -Yol qurğularına dəyən zərər.

YNH nəticəsində dəyən ekoloji zərərin qiymətləndirilməsində isə aşağıdakı komponentlər nəzərə alınmışdır:

- Atmosferin çirklənməsi ilə bağlı zərər;
- Su ehtiyatlarının çirklənməsi ilə bağlı zərər;
- Torpaq sahələrinin çirklənməsi ilə bağlı zərər;
- Yaşıllıqların zədələnməsi və ya məhv olması ilə bağlı zərər.

YNH zamanı dəymiş zərərin qiymətləndirilməsi yol təhlükəsizliyi sahəsində idarəetmə qərarlarının alınmasına, problemin miqyasını və əhəmiyyətini obyektiv qiymətləndirməyə, həmçinin, YNH qarşısının alınması ilə bağlı tədbirlərin həyata keçirilməsinə lazım olan maddi vəsaitlərin miqdarını müəyyənləşdirməyə imkan verir (İcraya məsul rəhbər: Arzu Hüseynova. İcraçılar: Nigar Ələsgərova).

***Problem. Regional ticarət və logistika mərkəzlərinin (RTLM) yaradılmasının texniki-iqtisadi əsaslandırılması.***

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"nin Tədbirlər Planının "2.3. Bakıda və ölkənin müxtəlif yerlərində logistika və ticarət mərkəzlərinin yaradılması" prioritet istiqmətinə müvafiq olaraq İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu tərəfindən Tovuz, Xaçmaz, Masallı və Yevlax regional ticarət və logistika mərkəzlərinin yaradılmasının texniki-iqtisadi əsaslandırılması hazırlanmışdır (İcraya məsul rəhbər: Malik Mehdiyev. İcraçılar: Arzu Süleymanov, Elnur Ələkbərov, Rauf Musayev, Vüsal Hüseynov, Elmira Bağırova).

***Problem. Azərbaycanın əsas su anbarları və su kanalları.***

İş Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin xüsusi tapşırığı əsasında icra edilmişdir. Kataloqa yalnız kənd təsərrüfatında suvarma məqsədilə ilə istifadə olunan su təsərrufatı obyektləri haqqında məlumatlar daxil edilmişdir (İcraya məsul rəhbər: Arzu Hüseynova İcraçılar: Samirə Mirzəliyeva, Firuzə Hüseynzadə , İlahə Şamirova, Aynur Hüseynova, Selcan Əhmədova).

***Problem. Ali təhsil müəssisələrinin tədqiqat potensiali: maarifləndirici kataloq*.**

Kataloq Azərbaycan Respublikası Baş nazirinin birinci müavininin 2019-cu il 26 yanvar tarixli 02/5-18 nömrəli dərkənarı ilə təsdiq edilmiş "Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Texnologiya və İnnovasiyalar İşçi qrupunun 2019-cu il üçün fəaliyyət planı"nın müvafiq tədbirlərinin icrasının təmin edilməsi məqsədilə İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu tərəfindən işlənilmişdir. Ölkəmizdə təhsil, elm və sənaye tendeminin yaradılması, elmi tədqiqat işlərinin nəticələrinin kommersiyalaşdırılmasının, ali təhsil müəssisələri ilə sənaye müəssisələri arasında strateji ittifaq sövdələşmələrinin bağlanmasının genişləndirilməsi məqsədilə ali təhsil müəssisələrinin tədqiqat potensialının – elmi tədqiqatların istiqamətləri, kadr potensialı, tədqiqatlarda istifadə edilən avadanlıqların siyahısı

və s. haqqında zəruri məlumatların sənaye müəssisələrinə, eləcə də KOS-lara çatdırılması zərurətindən irəli gələrək ali təhsil müəssisələri arasında sorğu keçirilmişdir. Sorğu formaları Təhsil Nazirliyinin, habelə digər nazirlik və komitələrin tabeliyində olan ali təhsil müəssisələri və özəl ali təhsil müəssisələri daxil olmaqla, ümumilikdə 44 təşkilata göndərilmişdir. Anket vasitəs0ilə əldə olunan məlumatlar fəaliyyət sahələrinə görə qruplaşdırılaraq, sənaye müəssisələrinə çatdırılması, habelə KOS subyektlərinin faydalanmasına nail olunması məqsədilə “Ali təhsil müəssisələrinin tədqiqat potensialı: maarifləndirici kataloq” adlı vəsait hazırlanmışdır (İcraya məsul rəhbər: Təranə Salıfova. İcraçılar: Ülkər Salıfova, Afaq Qasımova, Aliya Şabanova).

2019-cu ildə İnstitutun fəaliyyət sahələri üzrə elmi seminar, təlim və treninqlərin keçirilməsi ənənəsi davam etdirilib. Həmçinin İnstitutun əməkdaşlarının daxili və xarici səfərləri davam etdirilmiş, müxtəlif yerli və xarici qurumlarla əməkdaşlıq memorandumları imzalanmışdır.

Belə ki, 19-20 sentyabr 2019-cu il tarixlərində Ukraynanın Kiyev şəhərində Ukrayna Təhsil və Elm Nazirliyi, "Ukrayna Elmi-Texniki Ekspertiza və İnformasiya İnstitutu" Dövlət Elm Qurumu, "Ukrayna Milli Elmlər Akademiyasının İqtisadiyyat və Proqnozlaşdırma İnstitutu" Dövlət Qurumu və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun (ISRER) təşkilatçılığı ilə "İnformasiya Cəmiyyətinin Qurulması: Ehtiyatlar və Texnologiyalar" mövzusunda XVIII Beynəlxalq Elmi-Praktik Konfrans keçirilmişdir. Konfransda Azərbaycanla yanaşı, Belarusiya, Qazaxstan, Moldova, Polşa və Niderlandan olan mütəxəssislər iştirak etmişdir. Konfransda ölkəmizi İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun əməkdaşları təmsil etmiş və Ukrayna Elmi-Texniki Ekspertiza və İnformasiya İnstitutu ilə İİETİ arasında elmi sahədə əməkdaşlığa dair memorandumlar imzalanmışdır.

2019-cu il oktyabrın 10-da Bakıda İqtisadiyyat Nazirliyinin dəstəyi, "Sumqayıt Kimya Sənaye Parkı” MMC və İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun təşkilatçılığı ilə “Standartların tətbiqi: Azərbaycan-Türkiyə Əməkdaşlığı” mövzusunda Beynəlxalq Konfrans keçirilmiş, Türk Standartları İnstitutu, “Sumqayıt Kimya Sənaye Parkı” MMC və İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu arasında üçtərəfli əməkdaşlığa dair Protokol imzalanmışdır.

2019-cu ildə i.e.d. Arzu Hüseynovanın rəhbərliyi ilə institutun “Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri” adlı elmi əsərlər toplusunun XIX buraxılışı çap edilmişdir.




*Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin*
*İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun*
*Elmi Şurasının qərarı əsasında nəşr olunur*

*Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən*
*Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir: № 4271, 19.11.2019*

**"Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri" elmi əsərlər toplusunun redaksiya heyəti**

**Baş redaktor**
***Arzu Doğru qızı Hüseynova,*** *iqtisad elmləri doktoru*

**Məsul katib**
***Sayalı Zal qızı Abbasəliyeva***

**Üzvlər**
***Vilayət Məmməd oğlu Vəliyev,*** *iqtisad elmləri doktoru, professor*
***Oruc İbrahim oğlu İbrahimov,*** *iqtisad elmləri namizədi, dosent*
***Ədalət Bayraməli oğlu Əliyev,*** *iqtisad elmləri doktoru, texnika elmləri doktoru, professor*
***Zakir Məcid oğlu Nəcəfov,*** *iqtisad elmləri doktoru*
***Gülənbər Arif qızı Əzizova,*** *iqtisad elmləri doktoru, professor*
***Vəfa Hüseynağa qızı Rzayeva,*** *texnika elmləri namizədi*
***Arzu Sahib oğlu Süleymanov,*** *iqtisad üzrə fəlsəfə doktoru*
***Fərhad Qambay oğlu Mikayılov,*** *iqtisad elmləri namizədi*
***Malik Məmməd oğlu Mehdiyev,*** *iqtisad üzrə fəlsəfə doktoru*
***Vladimir Dmitriyeviç Parxomenko,*** *Ukrayna Pedoqoji Elmlər Akademiyasının müxbir üzvü, professor (Ukrayna)*
***Yelena Borisovna Lençuk,*** *iqtisad elmləri doktoru, professor (Rusiya)*
***İqor Germanoviç Mantsurov,*** *iqtisad elmləri doktoru, professor (Ukrayna)*
***Aleksandr Nikolayeviç Stratan,*** *iqtisad elmləri doktoru, professor (Moldova)*
***Saylau Bayzakoviç Bayzakov,*** *iqtisad elmləri doktoru, professor (Qazaxıstan)*

Elmi əsərlər toplusu Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 2017-ci il 31 mart tarixli (protokol №06-R) qərarı ilə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı"nın iqtisad elmləri bölməsinə daxil edilmişdir.

Əlaqə üçün məlumat:
İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu
AZ 1122, Azərbaycan Respublikası, Bakı şəhəri, H.Zərdabi prospekti, 88a
Telefon: (+99412) 430 01 70; Faks: (+99412) 430 03 06
Elektron poçt: journal.iserr@gmail.com

© İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu, 2019



**MÜNDƏRİCAT**

**İQTİSADİYYATDA QİYMƏTLƏNDİRMƏ ÜSUL VƏ MODELLƏRİNİN TƏSNİFLƏŞDİRİLMƏSİ VƏ MÜQAYİSƏLİ TƏHLİLİ**
*Arzu SÜLEYMANOV* 5

**AVROPA İTTİFAQI DÖVLƏTLƏRİNDƏ ƏMƏYİN TƏHLÜKƏSİZLİYİNƏ QARŞI QOYULAN TƏLƏBLƏR HAQQINDA**
*Samirə ABASOVA* 15

**YERLİ NEFT MAŞINQAYIRMASI MÜƏSSİSƏLƏRİNİN MƏHSULLARINDAN İSTİFADƏ KVOTALARIN TƏTBİQİ İMKANLARI**
*Fikrət QURBANOV, Əhməd HÜSEYNZADƏ* 24

**İSLAM İQTİSADİ SİSTEMİ İLƏ KAPİTALİST İQTİSADİ SİSTEMİNİN MÜQAYİSƏLİ TƏHLİLİ**
*Nigar ƏLƏSGƏROVA* 34

**TİBBİ SIĞORTA SİSTEMİ VƏ İCBARİ TİBBİ SIĞORTA MODELLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ**
*Səidə HÜSEYNOVA* 41

**РОЛЬ МАШИНОСТРОИТЕЛЬНОЙ ПРОМЫШЛЕННОСТИ В РАЗВИТИИ ЭКОНОМИКИ СТРАНЫ**
*Мехрали БАБАШЛЫ* 53

**KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFININ İQTİSADİ İNKİŞAFA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN METODOLOJİ ƏSASLARI**
*Samir ORUCOV* 64

**AZƏRBAYCANDA İNNOVASİYA YÖNÜMLÜ KLASTERLƏRİN SƏNAYEDƏ İSTEHSAL HƏCMİNİN ARTIRILMASINDA ROLU**
*Vəfa CƏFƏROVA* 77

**İNVESTİSİYA LAYİHƏLƏRİ VƏ ƏSAS KAPİTALA İNVESTİSİYALAR**
*Vilayət RAMAZANOV* 85

**МЕТОДОЛОГИЯ ИССЛЕДОВАНИЯ ОЦЕНОК ПОКАЗАТЕЛЕЙ И ПАРАМЕТРОВ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ ГОСУДАРСТВА**
*Айгюр ГУРБАНОВА* 95

**AZƏRBAYCANDA GÖN-DƏRİ MƏHSULLARI İSTEHSALI: MÖVCUD VƏZİYYƏT, ÇƏTİNLİKLƏR VƏ ÇIXIŞ YOLLARI**
*Rəşad HƏSƏNOV* 105



**ЦИФРОВАЯ ЭКОНОМИКА: СТАНОВЛЕНИЕ И ОСНОВНЫЕ ВЫЗОВЫ ДЛЯ ОБЩЕСТВА**
*Самиль ГУСЕЙНОВ* 115

**TƏHSİL SİSTEMİNDƏ ELEKTRON RESURSLARIN TƏHLİLİ**
*Ofelya MAZANOVA* 121

**ÜZÜMÇÜLÜYÜN ŞƏRABÇILIQLA ƏLAQƏLƏNDİRİLMƏSİ**
*Üllər SALIFOVA* 127

**AZƏRBAYCAN İQTİSADİYYATINDA AĞIR MAŞINQAYIRMA VƏ KİMYA SƏNAYESİ MƏHSULLARI ÜZRƏ RƏQABƏTQABİLİYYƏTLİLİYİN QİYMƏTLƏNDİRİLMƏSİ**
*Arzu SÜLEYMANOV, Rauf MUSAYEV, Mehparə ORUCOVA, Vüsal HÜSEYNOV, Rüstəm İMANOV* 135

**AZƏRBAYCANIN ELEKTRİK ENERJİSİ BAZARI ÜÇÜN TARİF DİFFERENASİYA MODELİ**
*Fariz MƏMMƏDOV* 143

**RƏQABƏTQABİLİYYƏTLİLİYƏ NƏZƏRİ YANAŞMALAR**
*Elnur ƏLƏKBƏROV* 167

**MÜƏLLİFLƏR ÜÇÜN QAYDALAR** 178

**2020-ci ildə** də İnstitut əsas fəaliyyət istiqamətini Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri", Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Texnologiya və innovasiyalar üzrə işçi qrupunun 2020-ci il üzrə Fəaliyyət Planı, Dövlət Proqramlarının icrası çərçivəsində müvafiq tədbirlər əsasında, Nazirliyin müvafiq şöbələri və struktur bölmələri ilə razılaşdırılmaqla qurmuşdur.

2020-ci ildə İnstitutda aşağıdakı problemlər ətrafında elmi tədqiqat işləri həyata keçirilmişdir:

***Problem. Proqnozlaşdırma modellərinin metodologiyasının hazırlanması*.**

Tədqiqat işinin yerinə yetirilməsi üzrə ilk olaraq dünya təcrübəsində və Azərbaycanda istifadə olunan əsas makroiqtisadi modellər təhlil edilərək sistemləşdirilmişdir. Eyni zamanda, göstəricilərin qiymətləndirmə üsulları, modellərin xüsusiyyətlərə görə təsnifləşdirilməsi aparılmışdır. Mövcud modellər güclü, zəif tərəfləri, eləcə də xüsusiyyətləri baxımından təhlil edilmiş, aparılan elmi araşdırmalar və təhlillərin nəticəsi olaraq praktik yanaşma metodologiyasını, üsullarını və əsas iqtisadi balansların təmin olunması prinsiplərini özündə ehtiva edən proqnozlaşdırma metodologiyası işlənib hazırlanmışdır. Bu metodologiya əsasında Excel proqramında ilkin proqnozlar işlənmişdir. Belə ki, İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunda hazırlanmış proqnoz modeli vasitəsilə 1995-2017-ci illəri əhatə edən əsas makroiqtisadi göstəricilərin faktiki zaman sıraları nəzərə alınmaqla zaman sıralarının sadə ekrtapolyasiyaları ilə tarazlı iqtisadi balanslarla 2018-2030-cu illəri əhatə edən əsas makroiqtisadi göstəricilərin uzunmüddətli proqnozunun verilməsinə imkan verir. Eyni zamanda modeldə əsas makroiqtisadi göstəricilərin faktiki zaman sıralarını əlavə etmək, yeniləmək və əsas makroiqtisadi göstəricilərin uzunmüddətli proqnozunun zaman sıralarını artırmaq mümkündür. Bu baxımdan təqdim edilən model bütün iqtisadi situasiyalarda proqnozlaşdırma zamanı qarşıya çıxan problemləri həll etməyə yönəli hər hansı iqtisadi mülahizələri nəzərə almağa imkan verir. Əsas ekzogen göstəricilərin ayrıca olaraq proqnozlaşdırılması və alınan nəticələr əsasında əsas makroiqtisadi göstəricilərin balanslaşdırılmaqla proqnozlaşdırılması təklif edilən metodologiyanın əsasında dayanır. Metodologiya uzun zaman sıralarının işlənməsinə əsaslanan mürəkkəb iqtisadi riyazi tənliklər sistemini və mürəkkəb meyarlara cavab verən çoxsaylı ekonometrik tənliklərin qurulmasını nəzərdə tutmur, əksinə qısa zaman sıralarının sadə ekrtapolyasiyaları ilə tarazlı iqtisadi balanslarla proqnozlar verməyə imkan verir. Praktik proqnozlaşdırma metodologiyasının məlumat bazası Milli Hesablar Sistemi, Tədiyyə balansı, Mərkəzi Bank və Dövlət büdcəsinin göstəricilərinə əsaslanır (İcraya məsul rəhbər: Arzu Süleymanov. İcraçılar: Malik Mehdiyev, Elnur Ələkbərov, Rauf Musayev).

***Problem. Koronavirus pandemiyasının Azərbaycan iqtisadiyyatına ehtimal oluna biləcək təsirlərinin iqtisadi qiymətləndirilməsi.***

Tədqiqat işi İqtisadiyyat Nazirinin 02 mart 2020-ci il tarixli F-15 nömrəli əmri ilə təsdiq edilmiş "Koronavirus xəstəliyinin Azərbaycan Respublikasına ehtimal olunan təsirləri ilə bağlı İqtisadiyyat Nazirliyinin fəaliyyət istiqamətləri üzrə Tədbirlər Planı"nın 3.1 bəndinin icrasını təmin etmək məqsədilə aparılmışdır. İşdə dünyada baş vermiş pandemiyaların qısa xronologiyası verilmiş, koronavirus pandemiyasının iqtisadiyyata təsir mexanizmi araşdırılmışdır. Beynəlxalq təşkilatların COVİD-19 pandemiyasının yaratdığı neqativ təsirlərlə bağlı gözləntiləri, eləcə də Dövlət Statistika Komitəsinin cari ilin yanvar-aprel ayları

üçün açıqlanan sosial-iqtisadi inkişaf göstəricilərinin təhlili aparılmış, eyni zamanda Sahələrarası balans modeli əsasında simulyasiyalar edilərək pandemiyanın iqtisadi fəaliyyət sahələrinə təsirlərinə baxılmışdır. Koronovirus pandemiyasının təsirlərinə məruz qala biləcək ən çox etimal olunan sahələr olaraq 20 sahə seçilmiş və qiymətləndirmələr aparılmışdır. Koronavirus təhlükəsinə məruz qalan ən çox ehtimal olunan sahələr üzrə yerli və idxal məhsullarının strukturu verilmişdir. Hər bir sahə üçün idxalın minimum 10% və maksimum 50% azalması ssenarisi üzrə sahələrdə ümumi buraxılışın təsirə məruz qalaraq azalmasının tam iqtisadi təsirlərinə də baxılmışdır. Nəticə olaraq müəyyən edilmişdir ki, məhsul, iş və xidmətlərin istehsalı və bölüşdürülməsinin sahələrarası balans modeli əsasında hazırlanmış leontyevin tam xərclər əmsalları əsasında aparılmış simulyasiyalar göstərir ki, il ərzində koronavirus təhlükəsinə ən çox məruz qalan sahələrdə idxalın 10% və müvafiq olaraq 50% azalması ölkə iqtisadiyyatında ümumi buraxılışı 1091210 min manat və 5456051 min manat, son məhsulu (ÜDM) isə 571868 min manat və 2859341 min manat azalda bilər (İcraya məsul rəhbər: Arzu Süleymanov. İcraçılar: Elnur Ələkbərov, Rauf Musayev).

***Problem. Koronavirus (COVID-19) pandemiyasının Azərbaycan iqtisadiyyatına təsirlərinin təhlili.***

Tədqiqat işi pandemiyanın yaratdığı şəraitdən irəli gələrək aparılmışdır. İşdə koronavirus infeksiyasının qlobal iqtisadiyyata, o cümlədən Azərbaycan iqtisadiyyatına ehtimal olunan təsirləri araşdırılmışdır. Ölkə iqtisadiyyatının pandemiyadan əvvəl və pandemiya dövründə makroiqtisadi göstəriciləri təhlil edilmiş, həmçinin müxtəlif beynəlxalq təşkilatların dünya və Azərbaycan iqtisadiyyatı üçün gözlənilən proqnozları əksini tapmışdır. Müəyyən edilmiş ssenari əsasında yeni növ koronavirus xəstəliyinin Azərbaycan iqtisadiyyatına, xüsusilə də Ümumi Daxili Məhsula (ÜDM) təsirləri həm iqtisadi fəaliyyət növləri üzrə, həm də bütövlükdə iqtisadiyyat üzrə qiymətləndirilmişdir. Eyni zamanda, COVİD-19 pandemiyasından ən çox zərər çəkən turizm sektoru üzrə ssenari qiymətləndirilməsi aparılmışdır (İcraya məsul rəhbər: Elnur Ələkbərov. İcraçılar: Fərhad Mikayılov, Rauf Musayev).

***Problem. Real sektorun monitorinqi məqsədilə konyuktur sorğuların hazırlanması və icra edilməsi.***

İqtisadiyyat Nazirliyində iqtisadi və sosial proqnozların işlənib hazırlanmasının təkmilləşdirilməsi barədə İqtisadiyyat nazirinin 10 mart 2020-ci il tarixli F-21 nömrəli Əmri ilə "İqtisadi və sosial proqnozların hazırlanması işlərinin təkmilləşdirilməsinə və optimallığının daha da artırılmasına dair Tədbirlər Planı"nın 15-ci bəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır. İqtisadiyyatın real sektorunda gedən proseslərin izlənilməsi və monitorinqlərin aparılması məqsədilə statistik məlumatlara əlavə olaraq biznesin vəziyyətinin və onun inkişafının əsas tendensiyasının keyfiyyət qiymətləndirilməsi, iş fəaliyyətini məhdudlaşdıran amillərin və s. qiymətləndirilməsinə istiqamətlənməklə, iqtisadiyyatın müxtəlif sahələri üzrə işgüzar mühitin vəziyyəti və dinamikası haqqında informasiyanın təhlil edilməsi üçün investisiya bloku üzrə sorğu formaları hazırlanmış və konyuktur sorğular keçirilmişdir. Sorğuya müxtəlif iqtisadi fəaliyyət sahələri ilə məşğul olan sahibkarlıq subyektləri arasında aparılmışdır. Sorğular sahibkarlıq subyeklərinin 2020-ci ilin 1-ci, 2-ci və 3-cü rüblərindəki fəaliyyətlərini və növbəti rübdə gözləntilərinin nə olacağına istiqamətlənmişdir. Daha dəqiq desək, rəsmi açıqlanan statistik məlumatlara əlavə olaraq aparılmış sorğu biznesin vəziyyətinin və onun inkişafının əsas tendensiyalarının keyfiyyət

qiymətləndirilməsi, iş fəaliyyətini məhdudlaşdıran amillərin və s. qiymətləndirilməsinə istiqamətlənmişdir. Cari ilin hər 3 rübündə aparılmış sorğu nəticələrinin təhlili əsasında "Real sektorun monitorinqinin təhlilinin nəticələrinə dair Arayış (2020-ci ilin I rübü üzrə)", "Real sektorun monitorinqinin təhlilinin nəticələrinə dair Arayış (2020-ci ilin I və II rübü üzrə)" və "Real sektorun monitorinqinin təhlilinin nəticələrinə dair Arayış (2020-ci ilin III rübü üzrə)" hesabatlar hazırlanmışdır (İcraya məsul rəhbər: Arzu Hüseynova, İcraçılar: Elnur Ələkbərov, Təranə Salıfova, Afaq Qasımova).

***Problem. Dövlət investisiyalarının makroiqtisadi təsirlərinin qiymətləndirilməsi.***

İş İqtisadiyyat nazirinin 25 fevral 2020-ci il tarixli F-8 nömrəli əmri ilə təsdiq edilmiş Tədbirlər Planının 2.2-ci bəndinin icrası istiqamətində həyata keçirilmişdir. İşdə dövlət investisiya qoyuluşlarının makroiqtisadi təsirlərinin qiymətləndirilməsi məsələlərinə baxılmışdır. Bu məqsədlə, dövlət investisiya qoyuluşlarının iqtisadi sahələr üzrə təsirlərini qiymətləndirməyə imkan verən sahələrarası balans modeli və onun müxtəlif modifikasiya modellərindən istifadə olunmuşdur. Qeyd olunan modellər Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (DSK) rəsmi olaraq təqdim etdiyi 2016-cı ilin ehtiyat istifadə cədvəlləri ilə hazırlanmış məhsul və xidmətlərin istehsalı və bölüşdürülməsinin sahələrarası balans cədvəlləri əsasında empirik olaraq işlənmişdir. Dövlət investisiya qoyuluşlarının 2016-2020-ci illəri əhatə edən illik məlumatları ekzogen olaraq daxil edilmişdir. Bu məlumatlar ilk öncə emal edilərək iqtisadi fəaliyyət növləri qruplaşdırılmışdır. Qiymətləndirmələr iki ssenari (1) 2016-2019-cu illər və (2) 2020-ci il üzrə ayrılıqda yerinə yetirilmişdir. Nəticədə hər bir iqtisadi fəaliyyət sahəsi və ümumilikdə iqtisadiyyat üzrə ümumi buraxılışların və yeni yaranan iş yerlərinin sayı müəyyən edilmişdir (İcraya məsul rəhbər: Arzu Süleymanov. İcraçılar: Malik Mehdiyev, Rauf Musayev).

***Problem. Qənaətli istehsal metodları ilə bağlı məlumatlandırma tədbirlərinin görülməsi (analitik və təşviq nəşrlərinin çap edilməsi).***

İş "Azərbaycan Respublikasının ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi" üzrə təfsilatlı tədbirlər planının 1.1.1 bəndinin 6-cı altbəndinin icrası istiqamətində yerinə yetirilmişdir. Tapşırığın icrası ilə bağlı ötən il hazırlanmış və çap olunmuş "Qənaətli istehsal üsulları: tam zamanında istehsal (Just-In-Tıme)", "Qənaətli istehsal üsulu "Altı Sigma" - maarifləndirici məlumatları özündə əks etdirən kitabçaların davamı olaraq "Qənaətli istehsal üsulları: Poka-Yoke" və "Qənaətli istehsal üsulları: İstehsalın "dartıcı" sistemi ("PULL" production)" adlı kitabçalar hazırlanmışdır. Kitabçalarda qənaətli istehsal metodlarının xərcləri və istehsal müddətini azaldan və proseslərdəki tullantıları aradan qaldıraraq keyfiyyətin artırılması məsələləri əks etdirilmişdir (İcraya məsul rəhbər: Təranə Salıfov. İcraçılar: Afaq Qasımova).

***Problem. İnnovasiyayönümlü klasterlərin Azərbaycan üçün uyğun modelinin müəyyən edilməsi.***

Tədqiqat işinin icrası çərçivəsində "İnnovasiya tipli iqtisadiyyatın təşəkkülü şəraitində effektiv klaster modellərinin təhlili (Xarici tədqiqatçıların klaster modellərinin təhlili - Beynəlxalq təcrübə)" aparılmışdır. Buna uyğun olaraq xarici tədqiqatçılardan Ö. Sölvell, E. Feserin, K. Ketels və C. Lindkvist, D. L. Napolski, Ö. Sölvell, K. Ketels – Qıf modelləri öyrənilmiş və təhlil edilmişdir. Klaster modellərinin təhlili nəticəsində klasterin formalaşmasına və inkişafına təsir göstərə biləcək əsas struktur elementlərini və onların

qarşılıqlı əlaqələri müəyyən edilmişdir. Azərbaycanda regionların iqtisadi inkişaf məqsədləri üçün klaster inkişafının effektivliyinə təsir edən amillər araşdırılmış, klasterin əsas iştirakçıları müəssisə-elm-dövlət orqanları arasında klasterdaxili əlaqələrin formalaşmasına və intensivləşdirilməsinə, habelə klasterlərin institusionallaşdırılması proseslərinin əhəmiyyəti vurğulanmış və müvafiq təkliflər hazırlanmışdır (İcraya məsul rəhbər: Nərminə Quliyeva. İcraçılar: Gülnarə Səlimova, Şəkər Mustafayeva).

***Problem. Kiçik və orta sahibkarlığın müflisləşmə problemlərinin müəyyən edilməsi və təkliflərin işlənməsi.***

Tədqiqat işində beynəlxalq təcrübə (Türkiyə və Rusiya) əsasında kiçik və orta sahibkarlığın üstünlükləri və çatışmamazlıqları, müflisləşmə problemləri və müflisləşmənin səbəbləri müəyyən edilmiş, KOS-ların müflisləşmə riskini azaltmağın həll yolları araşdırılmışdır. Bu həll yollarına aktivlərin qaytarılması, ümumi borc nisbəti, iflas olma ehtimalını qiymətləndirmək üçün ekonometrik modellərdən istifadə və s. daxildir. İşdə KOS subyektlərinin müflisləşmə məsələlərinə maliyyə və hüquqi cəhətdən yanaşmalar, müflisləşmə probleminə daxili və xarici mühit amillərinin təsirləri müəyyən edilmişdir. Həmçinin, ölkənin kredit bank sisteminin KOS-ların müflisləşmə probleminə təsiri araşdırılmışdır. Aparılan araşdırma və təhlillər nəticəsində böhran vəziyyətinin mümkün səbəblərinin kompleks diaqnostikası aparılmışdır. KOS-ların müflisləşməsi səbəblərinin aradan qaldırılması istiqamətində təklif və tövsiyələr işlənmişdir (İcraya məsul rəhbər: Arzu Hüseynova.İcraçılar: Malik Mehdiyev, Arzu Süleymanov, Elnur Ələkbərov).

***Problem. Azərbaycan iqtisadiyyatında istehsal faktorlarının məhsuldarlığı*.**

Tapşırığın icrası ilə bağlı əmək dəyər nəzəriyyəsi və marjinalist nəzəriyyələri baxımından qiymətləndirmə metodologiyaları nəzərdən keçirilmişdir. İşdə Ümumi buraxılışın və ÜDM-in istehsal faktorlarından asılılığı istehsal funksiyaları empirik qiymətləndirilmişdir. İstehsal faktorları kimi iqtisadiyyatda məşğul əhalinin sayı və əsas istehsal fondlarının dəyəri əsas götürülmüşdür. Hazırlanmış məlumat bazası əsasında faktorların məhsuldarlığı Kobb-Duqlas istehsal funksiyasından istifadə etməklə qiymətləndirilmiş və Eviews 7 proqram paketinin vasitəsilə müvafiq model qurulmuşdur (İcraya məsul rəhbər: Arzu Süleymanov. İcraçılar: Malik Mehdiyev, Rauf Musayev).

***Problem. İnternetdə Qarabağ hadisələri ilə bağli məlumatların reallıq indeksi.***

Araşdırmada rəqəmsallaşmanın inkişaf etdyi dövrdə informasiya həcminin böyüməsi və böyük həcmli məlumatların emalının yeni üsullarının tətbiqi məsələlərinə baxılmış, müasir proqram təminatından istifadə edilərək böyük həcmli məlumatlar intellektual üsullar vasitəsi ilə təhlil edilmiş, Azərbaycanda intellektual üsulların tətbiqi problemləri göstərilmişdir. Təhlil obyekti olaraq Azərbaycan üçün aktual olan Qarabağ mövzusu götürülmüşdür. Müxtəlif intellektual təhlil proqramlarından istifadə edərək göstərilən mövzuda informasiya axını, axtarış nəticələri və s. təhlil edilmiş, "İnternetdə məlumatın reallıq indeksi" hesablanmışdır. Hər səhifədə "Qarabağ" hadisələrinə aid olan məlumatları bir-bir qiymətləndirdikdən sonra "İnternetdə məlumatın reallıq indeksi" hesablanmışdır. Mangools (https://app.kwfinder.com/) proqramı vasitəsilə müəyyən olunmuş populyar informasiya mənbələrində məlumatların hər biri reallığa "neqativ", "pozitiv" və "neytral" nöqteyi-nəzərindən təhlil edilmişdir. Müəyyən edilmişdir ki, "neytral" hesab edilən informasiyaların çox hissəsi reallıqdan daha çox

neqativliyə yönümlüdürlər (İcraya məsul rəhbər: Arzu Hüseynova.İcraçılar: Elnur Ələkbərov, Afaq Qasımova).

Sözügedən ildə "Banklara ucuz kreditləşməyə getmək sərfəlidirmi?", "Sahibkarliğa dəstək mexanizmlərinin iqtisadi fəallığın artmasında rolu", "İxracın təşviqi üzrə güzəştlərin tətbiq metodologiyası", "Vergi azadolmalarının və güzəştlərinin ləğv edilməsinin, habelə cari maliyyə dəstəklərinin təkmilləşdirilməsinin bütövlükdə iqtisadiyyata və sahibkarlığın inkişafina təsirinin araşdırılması" istiqamətləri üzrə icmal xarakterli araşdırmalar aparılmışdır.

2020-ci ildə İnstitut, həmçinin, Dövlət proqramlarının, Strateji Yol Xəritələrinin, digər mühüm tapşırıqların icrası çərçivəsində nazirlik daxilində və hökumət səviyyəsində proqnoz modellərinin işlənilməsi, innovasiya sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi, diaqnostik təhlillərin aparılması, texniki-iqtisadi əsaslandırılmaların yerinə yetirilməsi və bu kimi digər istiqamətlərdə yeni iqtisadi şəraitin tələblərinə cavab verən araşdırmalara cəlb olunmuşdur. İnsititutda, bunlarla yanaşı, "Koronavirus (COVID-19) pandemiyasının Azərbaycan iqtisadiyyatına təsirlərinin təhlili", "Koronavirusun yoxsulluğun səviyyəsinə təsiri", "İş yerlərini koronavirusdan necə qoruduq?", "vergi güzəştləri və tətilləri büdcəyə neçəyə başa gəlir?", "koronavirusun təsirlərinin minimallaşdırılması üçün dövlət sahibkara büdcə hesabına necə dəstək göstərir?" və ümumiyyətlə, "Koronavirus pandemiyasının Azərbaycan iqtisadiyyatına ehtimal oluna biləcək təsirlərinin iqtisadi qiymətləndirilməsi"nə dair təhlillər edilmiş, bu istiqamətdə iqtisadi fəaliyyət növləri ilə yanaşı bütövlükdə iqtisadiyyat üzrə qiymətləndirilmə aparılmışdır.

Həmçinin, xüsusi tapşırıqlar üzrə institutda dövlət investisiya qoyuluşlarının makroiqtisadi təsirlərinin qiymətləndirilməsi məsələlərinə dair "Dövlət investisiyalarının makroiqtisadi təsirlərinin qiymətləndirilməsi", Dövlət Vergi Xidmətinin məlumatları əsasında Ümumi Daxili Məhsulun gəlirlər üsulu ilə hesablanması, Azərbaycan iqtisadiyyatında istehsal faktorlarının məhsuldarlığı, "məlumat pasportlarının hazırlanması", "su ehtiyatları və onların idarə edilməsi sahəsində beynəlxalq təcrübə", eyni zamanda Gürcüstan Respublikasının sosial-iqtisadi inkişafını əks etdirən qısa arayış, Ermənistanda yoxsulluq problemi üzrə qısa arayış, Pakistan və Rusiya Federasiyasının bir çox makroiqtisadi göstəricilərinin toplanması və vizuallaşdırılmasına üzrə işlər aparılmış və hesabatlar təqdim edilmişdir.

İnstitut, eyni zamanda, mətbuat üçün icmal xarakterli materiallar hazırlanmış, əsas icraçısı olduğu strateji yol xəritələrini əhatə edən 15 tədbir üzrə işlər aparmışdır. Vətəndaş müraciətinə dair 2020-ci il ərzində İnstituta birbaşa daxil olmuş 24 məktuba baxılmış və Nazirliyin İnnovasiyaların Təşviqi Qrupunun fəaliyyəti çərçivəsində müzakirə edilərək, həlli istiqamətində müvafiq qərarlar qəbul edilmişdir.

İqtisadi Elmi Tədqiqat İnstitutunda iqtisad elmlərinə aid ixtisaslar üzrə doktorantura və dissertanturaya 2019-2020-ci tədris ili üçün qəbul həyata keçirilmiş, kadr hazırlığına dair kurslar təşkil olunmuşdur. İnstitutun əməkdaşlarının bilavasitə iştirakı ilə sahəvi məsələlər üzrə kitab, metodologiya, istifadəçi təlimatı hazırlanaraq, geniş oxucu kütləsinə təqdim edilərək, kitabxana fondu yeni elmi ədəbiyyatlarla zənginləşdirilmiş, elmi ədəbiyyatların kataloqları və xülasələri hazırlanmışdır.

Hesabat dövründə elmi əməkdaşlıq çərçivəsində institut, 13 may 2020-ci il tarixində "COVİD-19: qlobal dəyişmələr və təsirlərin qiymətləndirilməsi" mövzusunda vorkşop, 22

may 2020-ci il tarixində isə “Schneider Electric” Şirkətində İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu (İSRER), Azərbaycan Texniki Universiteti (AzTU) iştirakı ilə görüşlər keçirilmiş, həmçinin, 10 iyul 2020-ci il tarixində Sankt-Peterburq Mühəndislik Akademiyası "İnnoprom" İnnovativ İnkişaf və Sertifikatlaşdırma Mərkəzi” qeyri-kommersiya təşkilatı ilə İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu (İSRER) arasında online fikir mübadiləsi baş tutmuşdur. 07 oktyabr 2020-ci il tarixində isə AMEA Neft-Kimya Prosesləri İnstitutu, Niderland Krallığının "Eninco Engineering B.V." Şirkəti, "AMEA Yüksək Texnologiyalar Parkı" MMC və "Dəmir Texnika Mərkəzi" MMC arasında laborator, texniki-texnoloji avadanlıq bazasında təcrübi-eksperimental istehsalın həyata keçirilməsində birgə əməkdaşlıq məqsədilə anlaşma memorandumu imzalanmışdır.

2020-ci ildə i.e.d. Arzu Hüseynovanın rəhbərliyi ilə institutun “Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri” adlı elmi əsərlər toplusunun XX buraxılışı çap edilmişdir.






*Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun Elmi Şurasının qərarı əsasında nəşr olunur*

*Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir: № 4271, 19.11.2019*

**“Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri” elmi əsərlər toplusunun redaksiya heyəti**

**Baş redaktor**
***Arzu Doğru qızı Hüseynova,*** *iqtisad elmləri doktoru*

**Məsul katib**
***Sayalı Zal qızı Abbasəliyeva***

**Üzvlər**
***Vilayət Məmməd oğlu Vəliyev****, iqtisad elmləri doktoru, professor*
***Oruc İbrahim oğlu İbrahimov****, iqtisad elmləri namizədi, dosent*
***Ədalət Bayraməli oğlu Əliyev****, iqtisad elmləri doktoru, texnika elmləri doktoru, professor*
***Zakir Məcid oğlu Nəcəfov****, iqtisad elmləri doktoru*
***Gülənbər Arif qızı Əzizova****, iqtisad elmləri doktoru, professor*
***Vəfa Hüseynağa qızı Rzayeva****, texnika elmləri namizədi*
***Arzu Sahib oğlu Süleymanov****, iqtisad üzrə fəlsəfə doktoru*
***Fərhad Qamboy oğlu Mikayılov****, iqtisad elmləri namizədi*
***Malik Məmməd oğlu Mehdiyev****, iqtisad üzrə fəlsəfə doktoru*
***Vladimir Dmitriyeviç Parxomenko****, Ukrayna Pedoqoji Elmlər Akademiyasının müxbir üzvü, professor (Ukrayna)*
***Yelena Borisovna Lençuk****, iqtisad elmləri doktoru, professor (Rusiya)*
***İqor Germanoviç Mantsurov****, iqtisad elmləri doktoru, professor (Ukrayna)*
***Aleksandr Nikolayeviç Stratan****, iqtisad elmləri doktoru, professor (Moldova)*
***Saylau Bayzakoviç Bayzakov****, iqtisad elmləri doktoru, professor (Qazaxıstan)*

Elmi əsərlər toplusu Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı"nın iqtisad elmləri bölməsinə daxil edilmişdir.

Əlaqə üçün məlumat:
İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu
AZ 1122, Azərbaycan Respublikası, Bakı şəhəri, H.Zərdabi prospekti, 88a
Telefon: (+99412) 430 01 70; Faks: (+99412) 430 03 06
Elektron poçt: journal.isrer@gmail.com

© İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu, 2020



“AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ” ELMİ ƏSƏRLƏR TOPLUSU, 2020, XX BURAXILIŞ 3

MÜNDƏRİCAT


**İNTERNETDƏ QARABAĞ HADİSƏLƏRİ İLƏ BAĞLI MƏLUMATLARIN REALLIQ İNDEKSİ**
*Arzu HÜSEYNOVA, Elnur ƏLƏKBƏROV* 5

**QEYRİ-NEFT SEKTORUNA MÜXTƏLİF İQTİSADİ TƏSİRLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ (QEYRİ-NEFT EMALI SƏNAYESİ TİMSALINDA)**
*Arzu SÜLEYMANOV* 17

***ƏMƏK RESURSLARININ BEYNƏLXALQ MOBİLLİYİNƏ ELMİ BAXIŞLARIN İCMALI***
*Elnurə HÜSEYNOVA* 27

**QLOBAL-İQTİSADİ ÇAĞIRIŞLARIN TƏHLİLİ VƏ İQTİSADİ BƏRPA MEYİLLƏRİ**
*Elmir EYVAZ-ZADƏ* 35

**AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ BİZNES FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VE İNVESTİSİYA MÜHİTİ ARASINDA ƏLAQƏ**
*Yusif MƏMMƏDOV* 49

**ÖLKƏNİN MİLLİ SƏRVƏTİNİN YARADILMASINDA İNTELLEKTUAL MÜLKİYYƏTİN QORUNMASI PROBLEMLƏRİ**
*Şəfiqə MƏMMƏDOVA* 59

**AZƏRBAYCANIN CƏNUBİ QAFQAZ REGİONUNUN İSTEHSAL VƏ İSTEHLAKININ BALANSLAŞDIRILMASINDAKI YERİ VƏ ROLU**
*Samir TACİRZADƏ* 67

**ÖLKƏDƏ HƏYATA KEÇİRİLƏN İQTİSADİ İSLAHATLARIN YERLİ SAHİBKARLARIN FƏALİYYƏTİNƏ BİRBAŞA TƏSİRİ**
*Cavid KƏRİMOV* 77

**AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAFININ TƏHLİLİ**
*Səfər HÜSEYNOV* 85

**AZƏRBAYCANIN QEYRİ-NEFT İXRACATI POTENSİALI, ÜTT-NA ÜZVLÜK KONTEKSTİNDƏ TƏSİRLƏRİN TƏHLİLİ**
*Ramil ABAKAROV* 105




“AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ” ELMİ ƏSƏRLƏR TOPLUSU, 2020, XX BURAXILIŞ 4


**RƏQƏMSALLAŞMA, XÜSUSİYYƏTLƏRİ VƏ İQTİSADİ TƏSİRLƏRİ**
*Günay ABBASOVA* 112

**SƏNAYENİN QEYRİ-NEFT SEKTORUNA ÖZƏL İNVESTİSİYALAR ÜÇÜN DÖVLƏT TƏŞVİQLƏRİNİN MÖVCUD VƏZİYYƏTİ**
*Elnur İBRAHİMLİ* 119

**REGİONAL XƏRC-BURAXILIŞ MODELLƏRİNİN TƏDQİQİ (AZƏRBAYCAN NÜMUNƏSİ)**
*Elnur RÜSTƏMOV* 131

**AZƏRBAYCANDA İCTİMAİ NƏQLİYYAT TARİFLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ MƏSƏLƏLƏRİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ**
*Fuad ƏMİRHÜSEYNOV* 145

**İNSANA YÖNƏLİK İNVESTİSİYALARIN GERİ DÖNÜŞ SƏVİYYƏSİ VƏ DÜNYA ÖLKƏLƏRİNDƏKİ MÜQAYİSƏLİ TƏHLİLİ**
*Könül ƏHMƏDOVA* 154

**MÜƏLLİFLƏR ÜÇÜN QAYDALAR** 164

# III FƏSİL

# YENİ DÖVR: İQTİSADİ ELMİ TƏDQİQAT İNSTİTUTU PUBLİK HÜQUQİ ŞƏXSİ

**2021-ci il** ərzində İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda həm iş planı üzrə, həm də xüsusi tapşırıqlar əsasında elmi-tədqiqat işləri və icmal xarakterli araşdırmalar aparılmışdır. Görülmüş işlər müvafiq Dövlət Proqramlarında, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın 2021-ci il üzrə Fəaliyyət Planında nəzərdə tutulmuş tapşırıqlar, ölkə əhəmiyyətli məsələlər, yeni iqtisadi şəraitin tələblərinə cavab verən aktual mövzular, eləcə də əlavə tapşırıqlar istiqamətində yerinə yetirilmişdir.

2021-ci il ərzində İnstitutda aşağıdakı elmi tədqiqat və analitik təhlil işlər aparılmışdır:

***Problem. "Ölkə hesabatının hazırlanması".***

Əsas iqtisadi fəallıq indikatorları nəzərə alınmaqla ölkənin hesabatı hazırlanmışdır. Hesabat iqtisadiyyatın sektorları üzrə bölmələrə ayrılaraq, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsaslanaraq hazırlanmışdır və göstəricilər 2019-2021-ci illəri əhatə edir. Hesabatda ölkəyə dair ümumi məlumat, Ümumi Daxili Məhsulun həcmi, sahələr üzrə strukturu və artım tempi üzrə göstəricilər təqdim olunmuşdur. İnvestisiyalar bölməsi üzrə əsas kapitala investisiyaların həcmi, investisiyaların ÜDM-də xüsusi çəkisi; Xarici ticarət bölməsi üzrə ixrac və idxalın artım tempi, xarici ticarət saldosu verilmişdir. Biznes sektoru bölməsi üzrə özəl sektor müəssisələrinin sayı, elektrik enerjisi, qaz və su təchizatı, kommunikasiya sektoru, nəqliyyat sektoru (hava, su, dəmiryolu və avtomobil) sahəsində məlumatlar əks olunmuşdur. Ölkəmizdə biznes sektorunda böyük rol oynayan özəl və dövlət sektoru müəssisələri, xüsusi iqtisadi zonalar (XİZ) və s. haqqında məlumat verilmişdir. Azərbaycanda tətbiq olunan vergi növləri və dərəcələri, tədiyyə balansı, sosial vəziyyət bölməsi üzrə - infilyasiya səviyyəsi, istehlak qiymət indeksi, əhalinin gəlirləri, işsizlik səviyyəsi, orta aylıq pensiya məbləği, manatın məzənnəsi; dövlət büdcəsinin göstəriciləri, bank kredit və əmanətlərinin həcmi, valyuta ehtiyatları göstəriciləri, Azərbaycanın xarici iqtisadi əlaqələri haqqında qısa məlumatlar təqdimatda öz əksini tapmışdır (İcraya məsul rəhbər: Ülkər Salıfova, Elnur Ələkbərov, İcraçılar: Aliyə Şabanova).

***Problem. "Azərbaycanda klasterlərin təşkili və idarə edilməsi siyasətinin xüsusiyyətlərinin təhlili".***

Tədqiqat işinin ilkin mərhələsində klasterlərin inkişafının əsas xüsusiyyətlərinin təhlili aparılmışdır. Buna uyğun olaraq xarici klasterlərin inkişafının əsas xüsusiyyətləri nəzərdən keçirilmişdir. Növbəti mərhələdə sənaye klasterlərinin formalaşdırılması üzrə araşdırmalar aparılmış, klasterin formalaşdırılmasının bir neçə mərhələdə həyata keçirilməsi müəyyənləşdirilmiş, sənaye klasterlərinin milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə və innovasiya aktivliyinə əsas təsir göstərən amillər 3 aşkarlanmışdır. Aparılan araşdırmalar nəticəsində Azərbaycanda klasterlərin təşkili və idarə edilməsi siyasətinin xüsusiyyətləri təhlil edilmişdir (İcraya məsul rəhbər: Malik Mehdiyev, İcraçı: Nərminə Quliyeva)

***Problem. "Ölkənin əmək bazarında ixtisaslara tələblərin müəyyən edilməsi".***

Tədqiqat işində əmək bazarının nəzəri metodoloji aspektləri araşdırılmış, Azərbaycanda əmək bazarının inkişafının mövcud vəziyyəti öyrənilmişdir. Bununla yanaşı

işsizlik səviyyəsi, ölkənin əmək bazarında tələbat olan ixtisas və peşələr üzrə təhlil aparılmışdır. İşdə həmçinin əmək bazarı və məşğulluq sahəsində qanunvericilik bazası təhlil olunmuşdur. Əmək bazarının təhsil sistemi ilə qarşılıqlı əlaqəsi nəzərdən keçirilmişdir. Əmək bazarında tələbat olan peşə və ixtisasları müəyyənləşdirmək üçün ən yaxşı və əlçatan vasitələrdən biri kimi sosial şəbəkədə qabaqcıl rekrutinq, yəni işədüzəltmə saytlarının təklif etdikləri iş yerləri, tələb olunan ixtisasların müqayisəli təhlili aparılmışdır. Mövcud olan problemlər müəyyən edilmiş və müvafiq təkliflər hazırlanmışdır (İcraya məsul rəhbər: Ülkər Salıfova).

***Problem. "İnam İndekslərinin qiymətləndirilməsi və ÜDM-in qısamüddətli proqnozunun hazırlanması".***

İşin icrası çərçivəsində inam indekslərinin və iqtisadi inam indeksinin hesablanması və tətbiqi metodologiyası üzrə ilkin məlumatlar emal edilmişdir. Belə ki, iqtisadi fəaliyyət növləri üzrə sorğu anketləri hazırlanmış və cavablara əsasən hesablanmış balans indeksinin zaman sıraları formalaşdırılmışdır; iqtisadi fəaliyyət növləri üzrə inam indekslərinin və iqtisadi inam indeksinin kompozit indeksi hesablanmışdır; real ÜDM və iqtisadi inam indeksinin kompozit indeksində uzunmüddətli dövrlər müəyyən edilmiş və onların müqayisəli təhlili aparılmışdır. Tədqiqatın ilkin statistik bazası olaraq AR Mərkəzi Bankının 2015-ci ilin yanvar ayından 2021-ci ilin mart ayınadək müşahidə dövrü üçün Konyunktur anketindən istifadə edərək aparılan sorğular əsasında formalaşmış "Real sektorda İşgüzar Fəallıq İndeksləri» bazası əsasında iqtisadi sektorlar üzrə inam indekslərinin və iqtisadi inam indeksinin kompozit indeksi hesablanmışdır. İqtisadi sektorlar üzrə inam indeksləri, iqtisadi inam indeksi və real ÜDM üzərində mövsümi hamarlama aparılmışdır. Hesablanmış iqtisadi inam indeksinin qabaqlayıcı xarakteri müəyyənləşdirilmiş və Azərbaycan iqtisadiyyatının biznes dövrlərinin dönüş nöqtələri qiymətləndirilmişdir. Real ÜDM artım templərinin iqtisadi inam indeksindən (İİİ) asılılığı ekonometrik qiymətləndirilmiş və biznes dövrlərin dönüş nöqtələrinin təhlil modelləri qurulmuş, VAR (vektor avtoreqressiya) modeli əsasında 2022-ci ilin mart ayına qədər proqnozlar hazırlanmışdır. Müəyyən edilmişdir ki, İİİ və real ÜDM dövrlərinin dönüş nöqtələri bir-birinə uyğundurlar. Buradan bu nəticəyə gəlmək olar ki, iqtisadi inam indeksi iqtisadi artım templərinin qısamüddətli proqnozlarını hazırlamaq üçün istifadə edilə bilər və proqnozlaşdırma xüsusiyyətinə malikdir. Üstəlik, bu proqnozlaşdırıcı xüsusiyyətlər iki şəkildə istifadə edilə bilər. Birincisi, İİİ iqtisadi fəallıq baxımından qabaqlayıcı göstərici kimi qiymətləndirilə bilər. Bu kontekstdə iqtisadi fəallığın gözlənilən istiqamət dəyişmələri və biznes-dövrlərin yaxınlaşacaq faza dəyişikliyi haqqında məlumat verilir. İkincisi, İİİ müvafiq proqnozlaşdırıcı modellərdə ÜDM-in artım tempi üçün izahlı dəyişən kimi istifadə edilə bilər (İcraya məsul rəhbər: Arzu Hüseynova, İcraçılar: Elnur Ələkbərov, Təranə Salıfova).

***Problem. "İstehlakçı inam indeksinin qiymətləndirilməsi tapşırığı".***

2021-ci ilin yanvar-noyabr ayları üçün sorğular aparılması yolu ilə iqtisadiyyatın mövcud vəziyyəti ilə əlaqəli olaraq istehlakçı qiymətləndirmələrini özündə ehtiva edən istehlakçı inam indeksi hesablanmışdır. İndeks özəl indekslərin ədədi ortalaması kimi hesablanmışdır: fərdi maliyyə vəziyyətində cari və gözlənilən dəyişikliklər, iqtisadi vəziyyətdə cari və gözlənilən dəyişikliklər, böyük alış-veriş üçün əlverişli şərtlər. Hər bir ay özündən əvvəlki aylarla müqayisəli təhlil edilmiş və müvafiq arayışlar hazırlanmışdır.

***Problem.** "Beynəlxalq hesablamalarda xidmətlər sektorunun həcmi və ÜDM-də payı ilə əlaqədar metodoloji araşdırma"*

İcmal xarakterli araşdırmada tədqiq edilmişdir ki, xidmət sektoru 2018-ci ildə qlobal iqtisadiyyatda yaradılan əlavə dəyərin təxminən 65% ni təşkil etmişdir. Xidmət sektoru getdikcə daha əhəmiyyətli hal almış, Dünya Bankının məlumatına görə beynəlxalq ticarətdə xidmətlərin həcmi 2010-cu ildə təxminən 4 trilyon ABŞ dollarından 2019-cu ildə 6.2 trilyon ABŞ dollarına çatmışdır. Xidmət sektorunda yaradılan əlavə dəyərin ÜDM-də payının hesablanması 1948-ci ildə qəbul edilən hazırkı dövrə qədər təkmilləşən İqtisadi Fəaliyyətlərin Beynəlxalq Standart Sahə Təsnifatına (BSST) görə aparılır. Belə ki, Dünya Bankının Xidmətlərdə yaradılan əlavə dəyərin ÜDM-də payı göstəricisinin hesablanması BSST-nin 50-99-cu bölmələrinə uyğun gəlir və onlara topdan və pərakəndə ticarət (otel və restoranar daxil), nəqliyyat, dövlət, maliyyə, peşə və təhsil, səhiyyə, daşınmaz əmlak xidmətləri kimi fərdi xidmətlərin əlavə dəyərləri daxildir. Bundan başqa bank xidməti xərcləri, idxal rüsumları və milli tərtibçilər tərəfindən qeyd olunan statistik fərqlər və yenidən ölçmədən qaynaqlanan fərqlər də daxildir. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, ölkədə xidmət sahələrində yaradılmış əlavə dəyərin ÜDM-də payı göstəricisini hesablayarkən 19 iqtisadi fəaliyyət sahələri arasından A - Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, B - Mədənçıxarma sənayesi, C - Emal sənayesi, D - Elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat, E - Su təchizatı; Çirkli suların və tullantıların təmizlənməsi, F – Tikinti sahələri nəzərə alınmamaqla hesablanır (İcraya məsul rəhbər: Elnur Ələkbərov).

***Problem.** "Dövlətin iqtisadiyyatda rolu".*

İcmal xarakterli arayışda Azərbaycan, Finlandiya, Fransa, Norveç, İsveç, Türkiyə kimi ölkələr dövlətin iqtisadiyyatda roluna görə müqayisəli təhlil edilmişdir. Dövlət xərclərinin ÜDM-də payına görə təhlil aparılmış, daha yüksək olduğu ölkələr kimi Fransa, Norveç və Finlandiya müəyyən edilmişdir. Arayışda dövlətin iqtisadiyyata müdaxiləsinin səmərəliliyi göstəriciləri olaraq ÜDM-in artımı; inflyasiya səviyyəsi; ümumi qənaətin ÜDM-də payı; əsas kapitalın ümumi yığımının ÜDM-də payı götürülmüşdür. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, ölkələr üzrə reqressiya tənliklərinin determinasiya əmsalları (Türkiyə istisna) qənaətbəxşdir. Ölkələr üzrə inflyasiyanın artması və ümumi qənaətin ÜDM-də payının artması dövlət xərclərinin ÜDM-də payına, əsasən, mənfi təsir edir. Yəni dövlət xərclərinin ÜDM-də payının azalması ilə nəticələnir. İnflyasiyanın artması dövlətin antiinfilyasiya tədbiri olaraq dövlət xərclərini azaltmasına səbəb olur ki, nəticədə dövlət xərclərinin ÜDM-də payı da azalır. Ölkələr üzrə ÜDM-in artımı və əsas kapitalın ümumi yığımının ÜDM-də payının artımı dövlət xərclərinin ÜDM-də payının artması ilə nəticələnir (İcraya məsul rəhbər: Arzu Hüseynova. İcraçılar: Əlvan Süleymanova, Elnur Ələkbərov, Təranə Salıfova).

***Problem. "Yaşıl enerjinin inkişafı ilə iqtisadi strukturda baş verə bilən dəyişikliklərə baxılması".***

İcmal xarakterli araşdırmada Azərbaycanda yaşıl enerji istehsalının mövcud vəziyyəti yaşıl enerjinin növlərinin ən çox yayılmış 6 növündən (günəş enerjisi; 6 külək enerjisi; su enerjisi; geotermal enerji; biokütlə və bioyanacaq enerjisi) bərpa olunan enerji növləri olmaqlatədqiq edilmişdir. 2019-cu il üzrə iqtisadi fəaliyyət növləri üzrə enerji məhsullarının istehlakı, eləcə də yaşıl energetikanın inkişafının mümkün təsirləri: qlobal və yerli baxış

nəzərdən keçirilmiş və Beynəlxalq Enerji Agentliyinin, məcmu qlobal enerji tələbatının proqnozu (milyon ton neft ekvivalenti) ilə müqayisəli təhlil aparılmaqla Azərbaycanla bağlı gözlənilən meyillər, təsirlər və bir sıra təkliflər təqdim edilmişdir (İcraya məsul rəhbər: Əlvan Süleymanova, İcraçılar: Fariz Məmmədov, Vüsal Həsənov).

***Problem. "Azərbaycan iqtisadiyyatına xarici şokların təsiri".***

İcmal xarakterli araşdırmada ölkədəki mövcud vəziyyət və perspektiv öyrənilmişdir. 2020-ci ildə ölkədə presedenti olmayan xarici və daxili şokların idarə olunması, 2021-ci il və ortamüddətli dövrdə ölkə iqtisadiyyatı qarşısında dayanıqlı iqtisadi artım trayektoriyasına qayıdış, növbəti 10 ildə ümumi daxili məhsulun ikiqat artımına nail olunması, yeni reallıqlar nəzərə alınmaqla dayanıqlı makroiqtisadi sabitliyin təmin edilməsi, habelə işğaldan azad olunmuş ərazilərin bərpası kimi mühüm çağırışlar arayışda öz əkini tapmışdır. Xarici şok dəyişənləri olaraq neft qiyməti və əsas ticarət tərəfdaşlarının – Avropa İttifaqı, Rusiya və Türkiyə - makroiqtisadi indikatorları götürülməklə bu şokların Azərbaycan iqtisadiyyatına təsiri rüblük səpkidə 2000-2017-ci illər üçün blok ekzogenlik məhdudiyyətli struktur vektor avtoreqressiv modeli vasitəsilə qiymətləndirilmişdir (İcraya məsul rəhbər: Malik Mehdiyev).

***Problem. "Türkiyə, Gürcüstan, İsrail, Rusiya, Çin, BƏƏ, Əfqanıstan və İranın sosial-iqtisadi, o cümlədən beynəlxalq əməkdaşlığa dair bir sıra məlumatlarından ibarət ölkə təqdimatlarının hazırlanması".***

Türkiyə, Gürcüstan, İsrail, Rusiya, Çin, BƏƏ, Əfqanıstan və İran ölkələrinin hər biri üzrə təqdimatlar hazırlanmışdır. Təqdimatlarda ölkələr haqqında qısa məlumat, ümumi daxili məhsulun həcmi, strukturu, artım tempi, investisiyalar (əsas kapitala investisiyalar və BXİ), xarici ticarət – ixracın həcmi və artım tempi, ticarət dövriyyəsi üzrə əsas ticarət tərəfdaşları, biznes sektoru, biznesin, ixracın və investisiyaların təşviqi üzrə əsas alətlər və institutlar, vergilər, eləcə də xüsusi vergi güzəştləri, texnologiya və xüsusi müəssisələrə tətbiq olunan vergilər və onların dərəcələri, xarici şirkətlər vergi dərəcəsi, tədiyə balansı, sosial vəziyyət, dövlət büdcəsi, bank sektoru, valyuta ehtiyatları, xarici iqtisadi əlaqələr bölmələri üzrə məlumatlar öz əksini tapmışdır (İcraya məsul rəhbər: Elnur Ələkbərov, İcraçılar: Ülkər Salıfova, Nərminə Quliyeva, Nigar Ələsgərova).

2021-ci ildə Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın 2021-ci il Fəaliyyət Planı çərçivəsində aşağıdakı işlər görülmüşdür:

Texnologiya və innovasiyalar işçi qrupu üzrə:

- "Qlobal İnnovasiyalar İndeksi"nin 5.2.1-5.2.4-cü, 5.3.1-5.3.3-cü və 7.1.1-7.1.3-cü altindekslərində Azərbaycanla bağlı göstəricilərin müvafiq metodologiyanın tələbləri baxımından araşdırılmış;
- "12.07 Tədqiqat və inkişaf xərclərinin ÜDM-də payı, %-lə" alt-indikator üzrə "Tədqiqat işlərinin dövlət qeydiyyatının aparılması ilə bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi" tədbiri üzrə müvafiq arayış hazırlanmış;
- Refinitiv Kompaniyası (Refinitiv Bazası) haqqında məlumat xarakterli arayış hazırlanmışdır;
- İnnovativ layihələrə və startaplara dəstək mexanizmləri, o cümlədən investisiyalar (vençur maliyyələşmə, vençur fondlar, "mələk" investorlar, kraudfandinq platformaları və s.) ilə bağlı vençur və kraudfandinq fəaliyyətinin tənzimlənməsi məqsədilə mövcud qanunvericiliyə dəyişiklik layihələri hazırlanmış və işçi qrupa təqdim edilmişdir;

- Kiçik və orta sahibkarlıq subyektlərinin İKT-yə olan tələbatı sorğu nəticələrinə əsasən təhlil edilmişdir;

Təhsil müəssisələrində İKT-nin biznesdə tətbiqi üzrə tədrisin çatışmazlıqlarının öyrənilməsi məqsədilə sorğular aparılmış və nəticələri təhlil edilmişdir. Korporativ idarəetmə, investisiyalar, investorların maraqlarının qorunması, biznes etikası və korporativ sosial məsuliyyət işçi qrupu üzrə:

- Xarici investisiyanın qorunması, xarici investisiyaya tətbiq edilən rejim ilə bağlı ölkə qanunvericiliyinin təhlili və beynəlxalq təcrübənin öyrənilməsinə dair arayış hazırlanmışdır;
- Prioritet iqtisadi sahələr üzrə vəziyyətin təhlil edilməsi və klasterlərin yaradılması üçün əlverişli sahələrin müəyyənləşdirilməsi məqsədilə arayış hazırlanmışdır;
- İnnovativ sahibkarlığın inkişaf etdirilməsi, şirkətlərin rəqəmsal və qənaətcil istehsal texnologiyalarına keçidinin (Digital Business Transformation) stimullaşdırılması məqsədilə müvafiq təkliflər hazırlanmışdır.

2021-ci il ərzində İnstituta birbaşa 23 müraciət daxil olmuşdur. Onlardan 17 müraciət müsbət həll olunmuş, 6 müraciətə müvafiq izahat verilmişdir. Qarabağ müharibəsinin iştirakçılarının və onların ailə üzvlərinin işlə təmin edilməyinə köməklik göstərilməsi məqsədilə 18 nəfər namizədlə müsahibə aparılmış, onlardan 1 nəfəri İnstitutun təcrübə proqramına qəbul edilmişdir.

İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda iqtisad elmlərinə aid ixtisaslar üzrə doktorantura və dissertanturaya 2021-2022-ci tədris ili üçün qəbul həyata keçirilmişdir: fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya 2 nəfər qəbul edilmişdir. Həmçinin, 2021-ci ildə İnstitutun 9 doktorant və dissertantı dissertasiya işlərini yekunlaşdırmışlar. İşlər ilkin müzakirədən keçməklə müvafiq Dissertasiya şuralarına təqdim edilmişdir.

İnstitutun əməkdaşlarının bilavasitə iştirakı ilə sahəvi məsələlər üzrə kitab, metodologiya, istifadəçi təlimatı hazırlanaraq, geniş oxucu kütləsinə təqdim edilmişdir. “İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda 2021-ci ilin I yarımilliyində yerinə yetirilmiş elmi-tədqiqat işlərinin referativ toplusu” hazırlanmış və məlumat və xidməti istifadə üçün Nazirliyin müvafiq şöbələrinə təqdim edilmişdir. “Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri” Elmi Əsərlər Toplusunun XXI buraxılışı elektron olaraq hazırlanmış və İnstitutun rəsmi internet səhifəsində yerləşdirilmişdir. Həmçinin, İnstitutun elmlər doktoru proqramı üzrə dissertantı Ş.S.Məmmədovanın “Azərbaycanın milli sərvətində torpaq resursları və onun qiymətləndirilməsi istiqamətləri” mövzusunda tədqiqat işi və İnstitutun əməkdaşı Z.M.Nəcəfovun “İnnovasiya fəaliyyəti: beynəlxalq təcrübə və inkişaf” adlı monoqrafiyası nəşr olunmuşdur. 2021-ci il ərzində İnstitut əməkdaşlarının yerli və xarici jurnallarda olmaqla 13 məqaləsi, həmçinin beynəlxalq və yerli konfranslarda 8 konfrans materialı və tezisləri nəşr olunmuşdur.

2021-ci ildə İnstitut tərəfindən kadr potensialının gücləndirilməsi istiqamətində həm İnstitut əməkdaşlarına, doktorant və dissertantlarına, həm Azərbaycan Texniki Universitetinin doktorant və dissertantlarına, həm də vətəndaşlara bir sıra mövzularda təlim keçrilmişdir. Makroiqtisadi tədqiqatlar şöbəsi tərəfindən “Məlumatların təhlili üçün Excel-in əsasları” mövzusunda təlim modul hazırlanmış və 10 həftə davam edən təlim keçirilmişdir.

Sözügedən ildə də yerli və beynəlxalq qurumlarla əməkdaşlıqların aparılması davam etdirilmişdir. İnstitutun əməkdaşı 7 dekabr 2021-ci il tarixində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) İqtisadi araşdırmalar üzrə daimi idarə komitəsinin 6-cı və “İqtisadiyyat”

jurnalının redaksiya heyətinin 5-ci onlayn iclaslarında iştirak etmişdir. İclasda müzakirə olunacaq məsələlər sırasında Azərbaycanda İƏT-in Tədqiqat Mərkəzinin yaradılması ilə yanaşı, İƏT-in iqtisadi tədqiqat strategiyası, “İqtisadiyyat” “İqtisadiyyat” jurnalının nəşr siyasəti, eləcə də İƏT-in İllik İqtisadi Hesabatı müzakirə edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 26 iyun tarixli 1382 nömrəli Fərmanı ilə İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun əsasında Nazirliyin tabeliyində “İqtisadi Elmi Tədqiqat İnstitutu” publik hüquqi şəxs və İnstitutun tabeliyində “Təlim Tədris Mərkəzi” publik hüquqi şəxs yaradılmışdır. Publik hüquqi şəxsə keçidlə əlaqədar İnstitutun nizamnaməsi, büdcə proqnozu, struktur və ştat cədvəli tərtib edilmişdir. Həmçinin İnstitutda kargüzarlıq sistemi təkmilləşdirilmiş, daxili nəzarət qaydaları formalaşdırılmışdır. Yeni akademik yanaşma ortaya qoyulmuş, kadr potensialının artırılması istiqamətində mühüm işlər görülmüşdür.

## İqtisadi Elmi Tədqiqat İnstitutu publik hüquqi şəxsin STRUKTURU

| S/s | Struktur bölməsinin, vəzifənin adı | Ştat sayı (vahid) |
|---|---|---|
| 1 | 2 | 3 |
| | **1. Rəhbərlik** | |
| 1 | İdarə Heyətinin sədri | 1 |
| 2 | İdarə Heyəti sədrinin birinci müavini | 1 |
| 3 | İdarə Heyəti sədrinin müavini | 1 |
| 4 | İdarə Heyəti sədrinin müşaviri | 1 |
| 5 | Elmi katib | 1 |
| | CƏMİ: | 5 |
| | **2. Makroiqtisadi siyasət və tənzimlənmə şöbəsi** | |
| 1 | Şöbə rəhbəri | 1 |
| 2 | Baş elmi işçi | 2 |
| 3 | Aparıcı elmi işçi | 1 |
| 4 | Böyük elmi işçi | 1 |
| 5 | Elmi işçi | 1 |
| 6 | Mütəxəssis | 1 |
| | CƏMİ: | 7 |
| | **3. Pul siyasəti, banklar, sığorta, qiymətli kağızlar şöbəsi** | |
| 1 | Şöbə rəhbəri | 1 |
| 2 | Baş elmi işçi | 2 |
| 3 | Aparıcı elmi işçi | 1 |
| 4 | Böyük elmi işçi | 1 |
| 5 | Elmi işçi | 1 |
| 6 | Mütəxəssis | 1 |
| | CƏMİ: | 7 |
| | **4. Dövlət büdcəsi və büdcədənkənar fondlar şöbəsi** | |
| 1 | Şöbə rəhbəri | 1 |
| 2 | Baş elmi işçi | 1 |
| 3 | Aparıcı elmi işçi | 2 |
| 4 | Böyük elmi işçi | 1 |
| 5 | Mütəxəssis | 1 |
| | CƏMİ: | 6 |
| | **5. Dayanıqlı inkişaf şöbəsi** | |
| 1 | Şöbə rəhbəri | 1 |
| 2 | Baş elmi işçi | 2 |
| 3 | Aparıcı elmi işçi | 2 |
| 4 | Böyük elmi işçi | 2 |
| 5 | Elmi işçi | 2 |
| 6 | Mütəxəssis | 1 |
| | CƏMİ: | 10 |
| | **6. İstehsal sahələri şöbəsi** | |
| 1 | Şöbə rəhbəri | 1 |
| 2 | Baş elmi işçi | 2 |
| 3 | Aparıcı elmi işçi | 1 |
| 4 | Mütəxəssis | 1 |
| | CƏMİ: | 5 |
| | **7. Rəqəmsal iqtisadiyyat və innovasiyalar şöbəsi** | |
| 1 | Şöbə rəhbəri | 1 |
| 2 | Baş elmi işçi | 1 |
| 3 | Aparıcı elmi işçi | 1 |
| 4 | Böyük elmi işçi | 1 |
| 5 | Elmi işçi | 1 |
| 6 | Mütəxəssis | 1 |
| | CƏMİ: | 6 |
| | **8. İnfrastruktur sahələr şöbəsi** | |
| 1 | Şöbə rəhbəri | 1 |
| 2 | Baş elmi işçi | 1 |
| 3 | Aparıcı elmi işçi | 2 |
| 4 | Böyük elmi işçi | 1 |
| 5 | Elmi işçi | 1 |
| 6 | Mütəxəssis | 1 |
| | CƏMİ: | 7 |
| | **9. Sosial siyasət və humanitar sahələr şöbəsi** | |
| 1 | Şöbə rəhbəri | 1 |
| 2 | Baş elmi işçi | 2 |
| 3 | Aparıcı elmi işçi | 1 |
| 4 | Böyük elmi işçi | 1 |
| 5 | Mütəxəssis | 1 |
| | CƏMİ: | 6 |
| | **10. Xarici iqtisadi əlaqələr şöbəsi** | |
| 1 | Şöbə rəhbəri | 1 |
| 2 | Baş mütəxəssis | 1 |
| 3 | Mütəxəssis | 2 |
| | CƏMİ: | 4 |
| | **11. Kitabxana və mətbuat şöbəsi** | |
| 1 | Şöbə rəhbəri | 1 |
| 2 | Baş mütəxəssis | 2 |
| 3 | Mütəxəssis | 1 |
| | CƏMİ: | 4 |
| | **12. Hüquq, kadr və kargüzarlığın təşkili şöbəsi** | |
| 1 | Şöbə rəhbəri | 1 |
| 2 | Kadrlar üzrə baş mütəxəssis | 1 |
| 3 | Baş mütəxəssis | 2 |
| 4 | Mütəxəssis | 2 |
| | CƏMİ: | 6 |
| | **13. Maliyyə və təminat şöbəsi** | |
| 1 | Şöbə rəhbəri | 1 |
| 2 | Baş mühasib | 1 |
| 3 | Baş mütəxəssis | 2 |
| 4 | Mütəxəssis | 2 |
| 5 | Texniki işçi | 1 |
| 6 | Sürücü | 2 |
| 7 | Xadimə | 2 |
| | CƏMİ: | 11 |
| | YEKUN | 84 |

İqtisadi Elmi Tədqiqat İnstitutunun
İdarə Heyətinin sədri — Şahin Sadıqov



Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
İQTİSADİ İSLAHATLAR ELMİ TƏDQİQAT İNSTİTUTU

İQTİSADİ İSLAHATLAR ELMİ TƏDQİQAT İNSTİTUTUNDA YERİNƏ YETİRİLMİŞ ELMİ-TƏDQİQAT İŞLƏRİNİN REFERATİV TOPLUSU

(2021-ci ilin I yarısı üzrə)



MÜNDƏRİCAT

ÖN SÖZ ... 4
İŞ PLANI ÜZRƏ YERİNƏ YETİRİLMİŞ İŞLƏR ... 5
AZƏRBAYCANDA KLASTERLƏRİN TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ SİYASƏTİNİN XÜSUSİYYƏTLƏRİNİN TƏHLİLİ ... 5
ÖLKƏNİN ƏMƏK BAZARINDA İXTİSASLARA TƏLƏBLƏRİN MÜƏYYƏN EDİLMƏSİ ... 5
ÖLKƏ HESABATININ HAZIRLANMASI ... 6
İCMAL XARAKTERLİ İŞLƏR ... 7
İNSAN KAPİTALININ QİYMƏTLƏNDİRİLMƏSİNİN MÜASİR YANAŞMA VƏ METODLARI ... 7
İSTEHLAKÇI İNAM İNDEKSİNİN MÜQAYİSƏLİ TƏHLİLİ ... 7
ÜDM-İN ALTERNATİV ÜSULLA HESABLANMASININ NƏTİCƏLƏRİ ... 8
İQTİSADİ FƏALLIĞIN MƏLUMATLARIN İNTELLEKTUAL TƏHLİL ÜSULLARI VASİTƏSİ İLƏ QİYMƏTLƏNDİRİLMƏSİ ... 8
İNAM İNDEKSLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ ÜDM-İN QISAMÜDDƏTLİ PROQNOZUNUN VERİLMƏSİ ... 9
BEYNƏLXALQ HESABLAMALARDA XİDMƏTLƏR SEKTORUNUN HƏCMİ VƏ ÜDM-DƏ PAYI İLƏ ƏLAQƏDAR METODOLOJİ ARAŞDIRMA ... 10
DÖVLƏTİN İQTİSADİYYATDA ROLU ... 11
YAŞIL ENERJİNİN İNKİŞAFI İLƏ İQTİSADİ STRUKTURDA BAŞ VERƏN DƏYİŞİKLİKLƏRƏ BAXILMASI ... 11
QLOBAL GEOSİYASİ TƏSİRLƏRİN ÖLKƏ İQTİSADİYYATINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ ... 12
TÜRKİYƏ, GÜRCÜSTAN, İSRAİL, RUSİYA, ÇİN, ABŞ, ƏFQANISTAN VƏ İRANIN SOSİAL-İQTİSADİ, O CÜMLƏDƏN BEYNƏLXALQ ƏMƏKDAŞLIĞA DAİR BİR SIRA MƏLUMATLARINDAN İBARƏT ÖLKƏ TƏQDİMATLARININ HAZIRLANMASI ... 12
İNSTİTUTDA YERİNƏ YETİRİLMİŞ VƏ 2021-ci İLİN I YARISINDA İLKİN MÜZAKİRƏYƏ ÇIXARILMIŞ DİSSERTASİYA İŞLƏRİ ... 13
QEYRİ-NEFT SEKTORUNDA RƏQABƏTQABİLİYYƏTLİ DAXİLİ İSTEHSALIN İQTİSADİ TƏSİRLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ ... 13
REGİONAL İNNOVASİYA AKTİVLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ ... 13
ELEKTRİK ENERJİSİNİN İSTEHSAL VƏ İSTEHLAKININ ÖLKƏ İQTİSADİYYATINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ ... 15
İXRACIN STİMULLAŞDIRILMASINDA KREDİTLƏŞMƏ MEXANİZMLƏRİNİN ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ ... 16
XARİCİ İNVESTİSİYALARIN DÖVLƏT TƏNZİMLƏNMƏSİ – DÜNYA TƏCRÜBƏSİ VƏ AZƏRBAYCAN İQTİSADİYYATI ... 16
GƏNCƏ-QAZAX İQTİSADİ RAYONUNUN İQTİSADİ İNKİŞAF VƏZİYYƏTİNİN XƏRC-BURAXILIŞ MODELİ ƏSASINDA QİYMƏTLƏNDİRİLMƏSİ ... 17
QEYRİ-NEFT İXRACININ ARTIRILMASININ TƏSİR AMİLLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ MODELİNİN İŞLƏNİLMƏSİ ... 18
DƏYƏR ZƏNCİRİNİN GENİŞLƏNDİRİLMƏSİ KONTEKSTİNDƏ AZƏRBAYCANDA NEFT KİMYA SƏNAYESİNİN DÜNYA BAZARINA İNTEQRASİYASININRASİONAL İSTİQAMƏTLƏRİ ... 19



ISSN 2413-7235

AZƏRBAYCAN RESPUBLİKASI
İQTİSADİYYAT NAZİRLİYİNİN
İQTİSADİ İSLAHATLAR ELMİ TƏDQİQAT İNSTİTUTU

AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ

*ELMİ ƏSƏRLƏR TOPLUSU*

*XXI BURAXILIŞ*

BAKI - 2021



*Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun Elmi Şurasının qərarı əsasında nəşr olunur*

*Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir: № 4271, 19.11.2019*

**"Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri" elmi əsərlər toplusunun redaksiya heyəti**

**Baş redaktor**
***Arzu Doğru qızı Hüseynova***, *iqtisad elmləri doktoru*

**Məsul katib**
***Səyalı Zal qızı Abbasəliyeva***, *əməkdar mədəniyyət işçisi*

**Üzvlər**
***Vilayət Məmməd oğlu Vəliyev***, *iqtisad elmləri doktoru, professor*
***Oruc İbrahim oğlu İbrahimov***, *iqtisad elmləri namizədi, dosent*
***Ədalət Bayraməli oğlu Əliyev***, *iqtisad elmləri doktoru, texnika elmləri doktoru, professor*
***Zakir Məcid oğlu Nəcəfov***, *iqtisad elmləri doktoru*
***Gülənbər Arif qızı Əzizova***, *iqtisad elmləri doktoru, professor*
***Vəfa Hüseynağa qızı Rzayeva***, *texnika elmləri namizədi*
***Arzu Sahib oğlu Süleymanov***, *iqtisad üzrə fəlsəfə doktoru*
***Fərhad Qamboy oğlu Mikayılov***, *iqtisad üzrə fəlsəfə doktoru*
***Malik Məmməd oğlu Mehdiyev***, *iqtisad üzrə fəlsəfə doktoru*
***Vladimir Dmitriyeviç Parxomenko***, *Ukrayna Pedoqoji Elmlər Akademiyasının müxbir üzvü, professor (Ukrayna)*
***Yelena Borisovna Lençuk***, *iqtisad elmləri doktoru, professor (Rusiya)*
***İqor Germanoviç Manturov***, *iqtisad elmləri doktoru, professor (Ukrayna)*
***Aleksandr Nikolayeviç Stratan***, *iqtisad elmləri doktoru, professor (Moldova)*
***Saylau Bayzakoviç Bayzakov***, *iqtisad elmləri doktoru, professor (Qazaxıstan)*

Elmi əsərlər toplusu Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı"nın iqtisad elmləri bölməsinə daxil edilmişdir.

Əlaqə üçün məlumat:
İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu
AZ 1122, Azərbaycan Respublikası, Bakı şəhəri, H.Zərdabi prospekti, 88a
Telefon: (+99412) 430 01 70; Faks: (+99412) 430 03 06
Elektron poçt: journal.iseer@gmail.com

© İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu, 2021



"AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ" ELMİ ƏSƏRLƏR TOPLUSU, 2021, XXI BURAXILIŞ 3

MÜNDƏRİCAT


AZƏRBAYCANDA TURİZM POTENSİALININ REALLAŞMASINDA MÜLKİ AVİASİYANIN ROLUNUN ARTIRILMASI İSTİQAMƏTLƏRİ
*Arzu HÜSEYN* 5

SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İNNOVASİYA FƏALİYYƏTİNİN AKTİVLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ
*Təranə ƏHMƏDOVA* 17

МИРОВАЯ ПРАКТИКА ЛЬГОТНОГО КРЕДИТОВАНИЯ ЧАСТНОГО СЕКТОРА ЭКОНОМИКИ
*Лиман КАШИЕВА* 27

AZƏRBAYCANDA SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ MALİYYƏ VƏ İNVESTİSİYA RESURSLARININ FORMALAŞMASI İMKANLARI
*Pərvanə MƏMMƏDOVA* 44

MDB ÖLKƏLƏRİNİN İNNOVASİYA SİSTEMİNİN SƏMƏRƏLİLİK GÖSTƏRİCİLƏRİ VƏ MÜQAYİSƏLİ TƏHLİLİ
*Mətanət RƏSULOVA, Nilufər MURADOVA* 56

AZƏRBAYCANDA ELMTUTUMLU MƏHSUL İSTEHSALI POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ
*Samirə ABASOVA* 70

COVİD-19 PANDEMİYASINDA İXRACA DÖVLƏT DƏSTƏYİ VƏ İXRACIN ƏMTƏƏ DİVERSİFİKASİYASI
*Nicat HACIZADƏ* 80

AZƏRBAYCANDA ƏHALİNİN SOSİAL MÜDAFİƏ SİSTEMİNİN İDARƏ EDİLMƏSİ SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ
*Novruz HÜSEYNOV* 94

TEXNİKİ TƏNZİMLƏNMƏNİN AKSİOLOJİ ƏSASLARI VƏ İQTİSADİ EFFEKTLƏRİ
*Nurlan HACIZADƏ* 106

AZƏRBAYCAN BANK SEKTORUNDA QEYRİ-İŞLƏK KREDİTLƏR PROBLEMATİKASININ TƏHLİLİ
*Əfqan İMANZADƏ, Ayaz MUSEYİBOV* 115

KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN MÜFLİSLƏŞMƏ PROBLEMLƏRİ
*Ülkər SALIFOVA* 130

KLASTERLƏRİN FORMALAŞMASINA DAİR BEYNƏLXALQ TƏCRÜBƏ
*Nərminə QULİYEVA* 140




"AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLƏRİ" ELMİ ƏSƏRLƏR TOPLUSU, 2021, XXI BURAXILIŞ 4


ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ ПРОМЫШЛЕННЫХ ПАРКОВ В РОССИЙСКОЙ ФЕДЕРАЦИИ: АНАЛОГИЯ С АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ
*Нармина ИСМАЙЛОВА* 149

BIG DATA-NIN İQTİSADİ POTENSİALI
*Məhrub HACIRƏHİMOVA, Aybəniz ƏLİYEVA* 159

SU TƏCHİZATI SEKTORUNDA XƏRCLƏRİN AZALDILMASINDA TƏBİİ İNHİSARIN MİQYAS VƏ SIXLIQ EFFEKTLƏRİNİN ÖLÇÜLMƏSİNİN ƏHƏMİYYƏTİ BARƏDƏ
*Kəmalə YUSİBOVA* 169

KƏND TƏSƏRRÜFATININ İNKİŞAFINDA "BİRLƏŞDİRİLMİŞ İXRAC" MARKETİNQ MODELİNİN PERSPEKTİVLƏRİ
*Sənan YƏHYA* 177

KOMMERSİYA TƏŞKİLATLARININ FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ VƏ DÜZGÜN QƏRAR VERİLMƏSİNDƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABATIN DOLAYI METODLA HAZIRLANMASI VƏ ROLU
*Abdullah ADİLLİ* 187

MÜƏLLİFLƏR ÜÇÜN QAYDALAR 196


**2022-ci il** ərzində İqtisadi Elmi Tədqiqat İnstitutunda həm iş planı üzrə, həm də xüsusi tapşırıqlar əsasında elmi tədqiqat işləri və icmal xarakterli araşdırmalar aparılmışdır. Görülmüş işlər müvafiq Dövlət Proqramlarında, Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın 2022-ci il üzrə Fəaliyyət Planında nəzərdə tutulmuş tapşırıqlar, ölkə əhəmiyyətli məsələlər, yeni iqtisadi şəraitin tələblərinə cavab verən aktual mövzular, eləcə də əlavə tapşırıqlar istiqamətində yerinə yetirilmişdir.

2022-ci ildə İnstitutu tərəfindən aparılan elmi tədqiqatlar və analitik təhlil işləri aşağıdakılardan ibarət olmuşdur:

***Problem. "Rusiya – Ukrayna müharibəsinin təsirinin azadılması: Azərbaycana İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrindən ərzaq məhsulu idxalının artırılmasının təhlili".***

Tədqiqatda Rusiya-Ukrayna müharibəsi nəticəsində dünya bazarında ərzaq məhsullarının qiymətlərinin artması fonunda Azərbaycanda vəziyyətin stabilləşməsi üzrə bəzi təhlillər aparılmışdır. Müharibənin dünya və Azərbaycanın idxal bazarlarına təsirləri araşdırılmışdır. Azərbaycanın ən böyük məhsul idxalçısı olduğu Rusiya və Ukraynadan gətirilən idxal məhsullarının İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin əvəzləmək imkanları təhlil edilmişdir. Tədqiqatda İƏT-ə üzv dövlətlərin alternativ bazar qəbul edilə bilməsi sualı araşdırılmışdır. Nəticədə Beynəlxalq Ticarət Mərkəzinin "Market Access Map", "Export Potential Map" və s. alətlərdən istifadə edərək İƏT-ə üzv dövlətlərdən Azərbaycan üçün strateji ərzaq məhsulları üzrə yüksək potensiala malik üç dövlət (Türkiyə, Qazaxıstan və Pakistan) müəyyən edilmişdir.

***Problem. "ABŞ-nin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyaların ölkəmizə mümkün təsirlərinin qiymətləndirilməsi".***

Tədqiqat işində ABŞ-nin Rusiyaya tətbiq etdiyi sanksiyaların ölkəmizə mümkün təsirlərini müəyyən etmək üçün neft-qaz sektoru, tranzit daşımaları, gübrə qiymətləri, idxal

və ixrac olunan məhsulların qiymət indeksləri, Azərbaycan – Rusiya ticarət dövriyyəsi, FAO üzrə ərzaq məhsulları indeksi, dünya bazarında ərzaq məhsullarının dinamikası, Azərbaycanda bir sıra ərzaq məhsullarının qiymət dəyişməsi, ərzaq inflyasiyası və istehlak qiymətləri indeksi istiqamətlərində mövcud vəziyyətin təhlili aparılmışdır. Təhlil nəticəsində ABŞ-nin Rusiyaya tətbiq etdiyi sanksiyaların Azərbaycana aşağıdakı təsirləri müəyyən edilmişdir:

Enerji böhranı hesabına istehsalın azalması dünyada bahalaşmaya gətirib çıxarmışdır ki, bu da Azərbaycanda bütün sahələrə təsir edir:

➢ Enerji böhranı və quru sərhədlərinin bağlanması səbəbindən quru, hava və dəniz daşınmaları qiymətlərinin artması sahibkarlara və vətəndaşlara geolokasiya çətinliyi törədir və bahalaşmaya səbəb olur.

➢ Dünyada tranzit daşımaların gübrə qiymətlərinə təsiri, eləcə də baş vermiş enerji böhranı Azərbaycanda ərzaq və kənd təsərrüfatı məhsullarının bahalaşmasına gətirib çıxarır.

➢ Rusiyada gübrə qiymətlərinin artımı və enerji böhranı olmadığından ərzaq məhsullarının və kənd təsərrüfatı məhsullarının qiymətlərinin ucuz olması Azərbaycandan Rusiyaya bu məhsulların ixracını azaldır.

➢ Rusiyaya ixracda qeyri-neft, xüsusən kənd təsərrüfatı məhsullarının istehsalçıları və ixracatçılarının gəlirlərinin azalması səbəbindən Azərbaycan ixracatçılarının itkilərlə üzləşməsi baş verir.

➢ Rusiyada bank sektoruna tətbiq edilən sanksiyalar hesabına İT və digər xarici şirkətlərin yaradılması məqsədilə Ermənistana investisiya axının artması baş verir.

➢ Bank sektoruna tətbiq edilən sanksiyalar Azərbaycanla Rusiya arasında pul köçürmələrində sahibkarlara müəyyən problemlər yaradır.

➢ Rusiyada və Ukraynada Azərbaycandan gedən miqrantların pul köçürmələrinin azalmasına, bəzi hallarda isə iş yerlərinin itirilərək ölkəyə geri qayıtmalarına səbəb olur.

***Problem.* "*İstehlakçı İnam İndeksinin qiymətləndirilməsi*".**

2021-ci ilin aprel ayından 2022-ci ilin mart ayınadək sorğuların aparılması yolu ilə iqtisadiyyatın mövcud vəziyyəti ilə əlaqədar olaraq istehlakçı qiymətləndirmələrini özündə ehtiva etmiş İstehlakçı İnam İndeksi hesablanmışdır. İndeks özəl indekslərin ədədi ortalaması kimi hesablanmışdır: fərdi maliyyə və iqtisadi vəziyyətdə cari və gözlənilən dəyişikliklər, böyük alış-veriş üçün əlverişli şərtlər. Hər bir ay özündən əvvəlki aylarla müqayisəli təhlil edilmiş və müvafiq arayışlar hazırlanmışdır.

2022-ci ildə Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Kommisiyanın Fəaliyyət Planı çərçivəsində görülmüş işlər aşağıdakılardan ibarət olmuşdur:

Texnologiya və innovasiyalar işçi qrupu üzrə:

➢ Qlobal Rəqabətlilik Hesabatının "12.07 Tədqiqat və inkişaf xərclərinin ÜDM-də payı (%) indikatorunun" "Sahibkarlar arasında sorğuların keçirilməsi, özəl sektorun elm sahəsinə investisiya yatırması üzrə mövcud vəziyyətin müəyyən edilməsi və nəticələri üzrə müvafiq təkliflərin Komissiyaya təqdim edilməsi" tədbirləri ilə bağlı müvafiq sorğu anketləri hazırlanmış, sorğular başa çatdırıldıqdan sonra nəticələr təhlil edilmiş və komissiyaya təqdim edilmiş;

➢ Kiçik və orta sahibkarlıq subyektlərinin İKT-yə olan tələbatı sorğu nəticələrinə əsasən təhlil edilmiş;

- Təhsil müəssisələrində İKT-nin biznesdə tətbiqi üzrə tədrisin çatışmazlıqlarının öyrənilməsi məqsədilə sorğular aparılmış və nəticələri təhlil edilmiş;
- Qlobal innovasiyalar indeksinin "5.2.4 Birgə müəssisə, Strateji ittifaq sövdələşmələri" indikatoru ilə bağlı birgə müəssisə və strateji ittifaq sövdələşmələrinə dair təkliflər işlənmiş;.
- Qlobal innovasiyalar indeksinin "6.3.2 İstehsal və ixracın mürəkkəbliyi" indikatoru ilə bağlı araşdırma aparılmış, müvafiq arayış hazırlanmış;

Texnologiya və innovasiyalar işçi qrupu "Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin (H indeksi) yaxşılaşdırılması üzrə" altqrupu üzrə:

- "Əqli potensialın artırılması" bölməsi üzrə hesabat və təkliflər paketi hazırlanmışdır:
- Dissertasiya və elmi işlərin yazılması zamanı beynəlxalq səviyyədə qəbul olunan istinad sistemlərinden ("Harvard", "APA", "Chicago", "ACM/IEEE", "Vancouver", "MLA" və s.) istifadəni məcburi edən qaydaların hazırlanması və aidiyyəti üzrə təqdim olunmuş;
- Tədqiqatçıların xarici akademik dil bacarıqlarının və rəqəmsal səriştələrinin artırılması üçün proqram(lar)ın hazırlanması və həyata keçirilməsi;
- Elmi nəşrlərin stimullaşdırılması üzrə ölkələrin təcrübələrinin öyrənilmiş;
- Elm və ali təhsil müəssisələrində tədqiqat səriştələrinin təkmilləşdirilməsi və tədqiqat mədəniyyətinin formalaşdırılması üçün pilot proqram(lar)ın hazırlanması və tətbiqinin təmin olunmuş;
- Elm və təhsil müəssisələrində tələbələrin tədqiqat yönümlü bacarıqlarının və metodoloji səriştələrinin artırılması (o cümlədən istinad mədəniyyətinin formalaşdırılması) üçün tədbirlər planının hazırlanması və həyata keçirilməsi.
- Özəl sektor tərəfindən elmi tədqiqatlara investisiya qoyuluşunun təşviq olunması ilə bağlı təkliflər hazırlanmış;
- Elmi-texniki məlumatların, hesabatların toplanması və transfer bazalarına çıxışın təmin edilməsi üçün zəruri tədbirlərin görülməsi ilə bağlı təkliflər hazırlanmış;.
- "Elmi nəşrlərin stimullaşdırılması məqsədilə qabaqcıl ölkələrə səfərlərin təşkil edilməsi və nəticələri barədə təkliflərin hazırlanması" bəndinin icrası ilə əlaqədar İnstitut əməkdaşları 26-29 sentyabr 2022-ci il tarixində Türkiyə Respublikasının, Ankara şəhərində olmuş, ODTÜ Texnoparkı, Ankara Universiteti, Bilkent Universiteti, Hacettepe Universiteti ilə görüşlərdə iştirak etmişlər. Həmçinin İnstitut ilə əməkdaşlığın genişləndirilməsi istiqamətində TÜBİTAK nümayəndələri ilə də görüş keçirilmiş.

Korporativ idarəetmə, investisiyalar, investorların maraqlarının qorunması, biznes etikası və korporativ sosial məsuliyyət işçi qrupu üzrə:

- "Aparıcı ali təhsil müəssisələrinin iştirakı ilə ölkənin ali təhsil müəssisələrində "İKT-nin biznesdə tətbiqi" üzrə mövcud vəziyyətin kompleks təhlili, o cümlədən sorğuların keçirilməsi, təkmilləşmə imkanlarının müəyyən edilməsi və təkliflər paketinin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması" sorğu anketləri hazırlanmış və sorğu nəticələri təhlil edilmişdir.

2022-ci il üzrə İnstitutun doktorantura üzrə ixtisaslarının öncəki ilə nisbətən sayı 6-dan 12-yə, ixtisaslar üzrə yerlərin sayı 18-dən 33-ə çatdırılmış və keçən illə müqayisədə doktorantura və dissertanturaya qəbul olmuş namizədlərin sayı da artaraq 2 nəfərdən 15 nəfərə çatmışdır. 2022-ci ildə İnstitutun 11 nəfər doktorantı dissertasiya işlərini tamamlayaraq ilkin müzakirədən, 6 nəfər isə müdafiədən keçmişdir.

İnstitutun əməkdaşı İsveçrənin Qərbi İsveçrə Tətbiqi Elmlər və İncəsənət Universitetinin (HES-SO) Ali İdarəetmə Məktəbi ARC tərəfindən elan olunmuş tam təqaüdlü beynəlxalq mübadilə proqramında bir semestrlik təhsil almaq hüququ qazanmışdır.

Qarabağ müharibəsi iştirakçılarının və onların ailə üzvlərinin işlə təmin edilməsinə köməklik göstərilməsi məqsədilə İnstitut tərəfindən 22 nəfər namizədlə müsahibə aparılmışdır. Füzuli, Xocavənd və Cəbrayılın azad olunmasına görə medalları ilə təltif olunmuş Faiq Qasımlı, “Şuşanın azad olunmasına görə” medalı ilə təltif olunmuş Pərvin İdrisli və “Kəlbəcərin azad olunmasına görə” medalı ilə təltif olunmuş Kərim Hacıyev müvafiq işlərlə təmin edilmişlər.

Sözügedən ildə yerli və beynəlxalq qurumlarla əlaqələrin formalaşdırılması istiqamətində işlər davam etdirilmişdi. Belə ki,

- 17-26 yanvar tarixlərində İnstitutun nümayəndələrinin iştirakı ilə hibrid formatda İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Regional Planlaşdırma Şurasının 32-ci iclası keçirilmiş, İqtisadi Tədqiqatlar və Statistika Komitəsinin iclasında İƏT “İqtisadiyyat” jurnalının baş redaktoru vəzifəsinə İnstitutun İdarə Heyəti sədrinin birinci müavini i.e.d. prof. Arzu Hüseynova seçilmişdir;
- 10 iyun 2022-ci il tarixində Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası tərəfindən həmkarlar ittifaqı kadr və fəalları üçün təşkil edilən seminarda “Dövlətin sosial siyasəti: modernləşmə, innovasiyalar, islahatlar” mövzusunda çıxış təqdim edilmiş və eyni mövzuda konfrans materialı layihəsi hazırlanır;
- 21 iyun 2022-ci il tarixində İƏT-in “İqtisadiyyat” jurnalının Redaksiya Heyətinin ilkin hazırlıq iclası virtual formatda keçirilmişdir. İƏT-in “İqtisadiyyat” jurnalının baş redaktorluğunun İnstitutda olması, jurnalın redaktorluq siyasəti, eləcə də jurnalın Redaksiya Heyətinin 6-cı iclasının keçirilməsi, kənar rəyçilər bazasının formalaşdırılması və digər məsələlər müzakirə edilmişdir. İclasda jurnalın yeni sayının hazırlanması üzrə konsepsiya, jurnal üçün məqalələrin təqdimat şərtləri, məqalələrin tərtibatına dair tələblər və müəlliflər üçün qaydalar layihələri nəzərdən keçirilmişdir;
- 24 noyabr 2022-ci il tarixində İnstitutun nümayəndəsi Azərbaycan Respublikasının Gənclər Fondu və Təhsilin İnkişafı Agentliyinin dəstəyi, “Bir Könüllü” Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin təşkilatçılığı ilə ADA Universitetində keçirilmiş Gənclər, Sülh və Təhlükəsizlik üzrə Beynəlxalq Tələbə Forumunda “Postmünaqişə bərpası: yenidənqurma, uzlaşma və sülh quruculuğu” mövzusunda paneldə çıxış etmişdir;
- CAREC İnstitutunun və İqtisadi Elmi Tədqiqat İnstitutunun həmtəşkilatçılığı ilə 2022-ci ilin 15-16 sentyabr tarixlərində “İnklüziv və davamlı iqtisadiyyatlar üçün artım dinamiklərinin yenidən kalibrlənməsi” mövzusunda CAREC Beyin Mərkəzlərinin 6-cı İnkişaf Forumu keçirilib. İnstitut ilə CAREC İnstitutu arasında imzalanmış əməkdaşlıq haqqında Anlaşma Memorandumuna əsasən, hər iki təşkilat üçün prioritet məsələlər müəyyən edilərək növbəti illər üzrə Yol Xəritəsi hazırlanmışdır;
- 2022-ci ilin aprel və sentyabr aylarında İnstitutda “Azərbaycanın biznes ictimaiyyətində menecerlərin ixtisasının artırılması üzrə Almaniya – Azərbaycan birgə Proqramı” çərçivəsində keçirilmiş müsabiqədə uğur qazanmış menecerlərə KOBİA, “GIZ” təşkilatı və Almaniyanın Tədris Mərkəzləri ilə tərəfindən təlimlər keçirilmişdir;
- 26-29 sentyabr 2022-ci il tarixlərində İnstitutun nümayəndələri “Texnologiya və innovasiya” üzrə İşçi qrupunun “Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin (H

indeksi) yaxşılaşdırılması üzrə" altqrupun "Elmi nəşrlərin stimullaşdırılması məqsədilə qabaqcıl ölkələrə təcrübələrinin öyrənilməsi" tədbiri ilə bağlı Ankara şəhərində ezamiyyətdə olmuşlar;

➢ İƏT-in "İqtisadiyyat" jurnalının İnstitutun redaktorluğu ilə 7-ci nömrəsinin nəşrə hazırlanması üzrə işlər yekunlaşmışdır;

➢ İnstitutun baş redaktorluğu ilə tərtib və nəşr edilən İƏT-in "İqtisadiyyat" jurnalının davamlı maliyyələşdirilməsi üzrə layihə İƏT-in Katibliyinə təqdim olunmuşdur;

➢ 7 oktyabr 2022-ci il tarixində İnstitutda Polşanın Şərqi Araşdırmalar İnstitutunun (ŞAİ) əlaqələndiricisi Piotr Sieniavski ilə görüş keçirilib. Görüşdə potensial əməkdaşlıq imkanları, qarşılıqlı maraq doğurmuş mövzular üzrə fikir mübadiləsi aparılıb. P.Sieniavski Polşanın Karpaç şəhərində ŞAİ tərəfindən hər il təşkil olunan və "Polşanın Davosu" kimi də adlandırılan Beynəlxalq İqtisadi Forum haqqında ətraflı məlumat verib və 2023-cü ilin 5-7 sentyabr tarixlərində keçiriləcək növbəti Foruma İnstitutun nümayəndələrini dəvət edib. İnstitut öz növbəsində bu mötəbər forumda ölkəmizin işğaldan azad edilmiş ərazilərində quruculuq işləri və yaradılan investisiya mühitindən bəhs edəcəkdir;

➢ 15 oktyabr-3 dekabr 2022-ci tarixlərində "Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin (H indeksi) yaxşılaşdırılması üzrə" altqrupun fəaliyyət planının icrası ilə bağlı İnstitutun təşkilatçılığı ilə "British Petroleum" və "Ekvita" şirkətləri ilə birgə "Elmmetrik bacarıqlar: tədqiqat metod və alətləri" mövzusunda İnstitutda təlim keçirilib. Keçirilmiş təlimdə İnstitutun İdarə Heyəti sədrinin birinci müavini i.e.d., prof. Arzu Hüseynova təlimçi qismində iştirak edib;

➢ İnstitutun nümayəndələri 19-22 oktyabr 2022-ci ilin tarixlərində Şərq Tərəfdaşlığının Tədqiqat və İnnovasiyalar Paneli nəzdində 4-cü Qeyri-rəsmi İşçi Qrupunun iclasında iştirak etmiş, Gürcüstanın "ISET" Siyasət İnstitutu, Strateji və Beynəlxalq Araşdırmalar üzrə Gürcüstan Fondu və Siyasət və İdarəetmə Konsaltinq Qrupunun nümayəndə heyətləri ilə görüşlər keçirmişlər. Görüşlərdə qurumların təhsil proqramları, səriştələrin gücləndirilməsi layihələri, birgə regional fəaliyyətlər və əməkdaşlıq imkanları müzakirə edilmişdir;

➢ 27 oktyabr 2022-ci il tarixində "Bloomberg L.P." şirkətinin İnkişaf etməkdə olan bazarlar üzrə satış rəhbəri Pitr Conston və Mərkəzi Asiya və Qafqaz üzrə satış meneceri Bulat Yussupov ilə İnstitutda görüş keçirilmişdir. Görüşdə "Bloomberg L.P." şirkətinin nümayəndələri ilə "Bloomberg" terminalının üstünlükləri, terminalın xidmətlərinə daxil olan "Bloomberg" xəbərləri, "Bloomberg Query Language", "Bloomberg Intelligence" barədə müzakirələr aparılıb;

➢ 31 oktyabr-04 noyabr 2022-ci il tarixlərində İnstitutun nümayəndəsi Avstriyanın Vyana şəhərində "Joint Vienna Institute" tərəfindən təşkil olunmuş "İşin gələcəyi: iş qazancı və bərabərsizlik üçün imkanlar və çətinliklər" mövzusunda təlimdə iştirak etmişdir;

➢ İnstitutun nümayəndələri 3-4 noyabr 2022-ci ilin tarixlərində İkinci Özbəkistan İqtisadi Forumunda iştirak etmiş, Asiya İnkişaf Bankının Özbəkistandakı Daimi Nümayəndəliyi, Avropa Yenidənqurma və İnkişaf Bankının Özbəkistandakı Daimi Nümayəndəliyi ilə görüşlər keçirmişlər;

➢ Özbəkistana səfər çərçivəsində İnstitutun nümayəndələri İqtisadi İnkişaf və Yoxsulluğun Azaldılması Nazirliyinin Proqnozlaşdırma və Makroiqtisadi Tədqiqatlar İnstitutu, Özbəkistan Respublikasının Prezident Administrasiyasının nəzdində olan İqtisadi Tədqiqat və İslahatlar Mərkəzi, Bank və Maliyyə Akademiyası, İnkişaf Strategiyası

Mərkəzində görüşlər keçirilmiş, eləcə də Vestminster Beynəlxalq Universiteti və Dünya İqtisadiyyatı və Diplomatiya Universitetində Azərbaycanın sosial-iqtisadi inkişafı və Azərbaycan–Özbəkistan mövzusunda tələbələrə ictimai mühazirə oxumuşlar;

➢ İnstitut "Weglobal" şirkəti tərəfindən "Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara iqtisadi rayonuna dəstəyi" texniki yardım layihəsi çərçivəsində Lənkəran-Astara iqtisadi rayonunun potensialının gücləndirilməsi, meyvə-tərəvəz sektorunun rəqabətqabiliyyətliliyinin dayanıqlı şəkildə artırılması, rayon səviyyəsində ərazi planlaşdırma sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlərin icra olunması məqsədilə tədqiqatların aparılmasına cəlb olunmuşdur;

2022-ci il ərzində İnstitut Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Texnologiya və innovasiyalar işçi qrupunun və onun "Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin (H indeksi) yaxşılaşdırılması üzrə" altqrupun, Mərkəzi Asiya üzrə Subregional Ofis ölkələrində ərzaq israfı və tullantısının azaldılması (GCP/SEC/015/TUR) işçi qrupunun, Lomonosov adına MDU-nun Bakı filialında Dövlət İmtahan Komissiyasının, "Startap" şəhadətnaməsinin verilməsi üzrə Ekspertlər Şurasının işlərində iştirak etmişdir.

2022-ci ilin dekabr ayında İnstitut Özbəkistanın İqtisadi İnkişaf və Yoxsulluğun Azaldılması Nazirliyinin Proqnozlaşdırma və Makroiqtisadi Tədqiqatlar İnstitutu, Prezident Administrasiyasına bağlı İnkişaf Strategiyası Mərkəzi və Dünya İqtisadiyyatı və Diplomatiya Universitetinin Qabaqcıl Beynəlxalq Araşdırmalar İnstitutu ilə birgə Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) və Özbəkistan Respublikası İnnovativ İnkişaf Nazirliyinin layihə müsabiqəsinə qrant layihələri təqdim etmişlər.

2022-ci il ərzində İnstitut əməkdaşlarının yerli və xarici jurnallarda olmaqla 8 məqaləsi, həmçinin beynəlxalq və yerli konfranslarda 22 konfrans materialı və tezislərinin nəşri həyata keçirilmişdir. Hesabat ilində İnstitutun İdarə Heyəti sədrinin birinci müavini, i.e.d. Arzu Hüseynovanın tərtibatçılığı ilə "Rəqəmsal iqtisadiyyat izahlı lüğət"i və Makroiqtisadi siyasətin təhlili şöbəsinin elmi işçisi Faiq Qasımlının "Nəticəəsaslı Monitorinq və Qiymətləndirmə Sistemi – Metodoloji Tövsiyələr" kitabı nəşrə təqdim edilmişdir.

**2023-cü il** ərzində İqtisadi Elmi Tədqiqat İnstitutunda həm iş planı üzrə, həm də xüsusi tapşırıqlar əsasında elmi tədqiqat işləri və icmal xarakterli araşdırmalar aparılmışdır. Görülmüş işlər müvafiq Dövlət Proqramlarında, Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın 2023-cü il üzrə Fəaliyyət Planında nəzərdə tutulmuş tapşırıqlar, ölkə əhəmiyyətli məsələlər, yeni iqtisadi şəraitin tələblərinə cavab verən aktual mövzular, eləcə də əlavə tapşırıqlar istiqamətində yerinə yetirilmişdir.

2023-cü ildə İnstitutda aparılan elmi tədqiqat və analitik təhlil işləri aşağıdakılardan ibarət olmuşdur:

***Problem. "Kölgə iqtisadiyyatı səviyyəsinin makroiqtisadi, monetar və vergi nəzarəti aspektindən qiymətləndirilməsi və kölgə iqtisadiyyatının azaldılması üçün təkliflərin hazırlanması".***

Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2023-cü il tarixli 3770 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023 – 2025-ci illər üzrə Milli Fəaliyyət Planı"nın icrası haqqında iqtisadiyyat nazirinin 20 aprel 2023-cü il tarixli 3-21/3-1-F-72/2023 nömrəli əmrinin 2.1 və 2.2 bəndləri ilə kölgə iqtisadiyyatı səviyyəsinin makroiqtisadi, monetar və vergi nəzarəti aspektindən qiymətləndirilməsi məqsədilə

məlumatların toplanılaraq təhlillərin aparılması və nəticəsi üzrə kölgə iqtisadiyyatının azaldılması üçün təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması İqtisadi Elmi Tədqiqat İnstitutuna (ESRI) tapşırılmışdır. Bu əsasla ESRI tərəfindən kölgə iqtisadiyyatı səviyyəsinin makroiqtisadi, monetar və vergi nəzarəti aspektindən qiymətləndirilməsi üzrə nəzəri metodoloji əsaslar tədqiq edilmiş və beynəlxalq təcrübə öyrənilmişdir. Kölgə iqtisadiyyatının həcminin müəyyən edilməsi məqsədilə məlumat bazasının yaradılması üçün əlaqədar qurumlarla görüşlər keçirilmiş və məlumatların toplanması üçün sorğular təqdim edilmişdir. Əldə edilmiş statistik məlumatlar, sorğuların nəticələri və s. əsasında məlumat bazası formalaşdırılmışdır. Kölgə iqtisadiyyatı makroiqtisadi, monetar və vergi nəzarəti aspektindən qiymətləndirilmişdir. Makroiqtisadi, monetar və vergi nəzarəti aspektlərindən kölgə iqtisadiyyatı 6 üsulla ölçülmüşdür. Alınan nəticələr təhlil edilmiş, yerli və xarici ekspertlər tərəfindən əvvəl alınmış nəticələrlə müqayisə edilərək yekun nəticə əldə edilmişdir. Kölgə iqtisadiyyatının həcminin azaldılması istiqamətində müxtəlif aspektlərdən təkliflər işlənilib, müvafiq qurumlara təqdim edilmişdir.

***Problem. "Standartların tətbiqinin iqtisadi artımda rolu və onun qiymətləndirilməsi".***

Tədqiqat işinin əsas məqsədi standartların tətbiqinin ölkənin iqtisadi artımına təsirinin qiymətləndirilməsi və standartların tətbiqi istiqaməti üzrə praktiki tövsiyələrin işlənməsidir. Bunun üçün standartların tətbiqinin iqtisadi artımda rolunun qiymətləndirilməsinin metodoloji əsasları araşdırılmış, standartların tətbiqinin iqtisadi artımda rolunun qiymətləndirilməsi üzrə beynəlxalq təcrübə, qiymətləndirmə üzrə metodologiyalar öyrənilmiş, standartların tətbiqi üzrə normativ hüquqi bazanın mövcud vəziyyəti təhlil edilmişdir. Standartların tətbiqinin iqtisadi artıma təsirinin qiymətləndirilməsi üçün məlumat baza formalaşdırılmış və qiymətləndirilmə aparılmışdır. Standartların tədbiqinin ÜDM-ə təsiri ölçülmüşdür. Alınan nəticələr və tövsiyələr ilkin nəticələrdir, gələcəkdə standartlaşmanın sahəvi təsirlərinin ölçülməsi də nəzərdə tutulur. Əldə olunmuş nəticələr və normativ hüquqi bazanın təhlili əsasında standartlaşmanın inkişaf etdirilməsi və standartların tətbiqini artırmaq üçün tövsiyələr hazırlanmışdır. Tədqiqat işinin nəticə və tövsiyələri tətbiq üçün müvafiq orqanlara təqdim edilmişdir.

***Problem.*** "***Yeni Nəsil İqtisadiyyat Strategiyası: Rəqəmsal İqtisadiyyat" üzrə sorğu layihəsi.***

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planının 1.1.8-ci fəaliyyət istiqamətinin "rəqəmsal iqtisadiyyatın inkişafı üzrə strategiyasının hazırlanması və tətbiqi" bəndinin icrası əsasında ESRI tərəfindən Azərbaycanda rəqəmsallaşmanın vəziyyətinin öyrənilməsi üçün beynəlxalq məsləhətçi şirkətin sifarişi əsasında 250 şirkətlə üzbəüz sorğular keçirilmiş və nəticələri emal edilərək təhlil edilmişdir. Sorğular kənd təsərrüfatı, neft-qaz, nəqliyyat, inşaat, istehsalat, ticarət, maliyyə, media kimi ayrı-ayrı sahələrdə fəaliyyət göstərən mikro, kiçik, orta və iri kateqoriyalı şirkətlərlə aparılmışdır. Sorğuda əsas üstünlük istehsal sahəsində iri şirkətlərə verilmişdir. Sorğunun nəticələrinin emalının təhlili nəticəsində Azərbaycanda rəqəmsallaşma indeksi hesablanmış və rəqəmsallaşma səviyyəsi müəyyən edilmişdir.

***Problem. "Yeni Nəsil İqtisadiyyat Strategiyası"nın ilkin versiyasının redaktəsi.***

Strategiyanın icraçısı olan beynəlxalq məsləhətçi şirkətin sifarişi əsasında Yeni Nəsil İqtisadiyyat Strategiyası ingilis dilindən Azərbaycan dilinə tərcümə edilmiş, ümumilikdə sənəd iqtisadi nəzəri və praktiki cəhətlərdən korrektə və redaktə edilmişdir.

2023-cü ildə "Heydər Əliyev" ili çərçivəsində İnstitutun fəaliyyəti uğurlu olmuşdur. Belə ki, 10 fevral 2023-cü il tarixində ESRI rəhbərliyi İqtisadiyyat Nazirliyində ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş "Heydər Əliyev və Azərbaycanın vergi sistemi: yeni çağırışlara doğru" mövzusunda konfransda "Heydər Əliyevin müasir vergi sisteminin formalaşdırılmasında rolu və iqtisadi siyasət sahəsində fəaliyyəti" mövzusuna həsr edilmiş ilk sessiyada çıxış etmişdir. İqtisadiyyat nazirinin təsdiq etdiyi Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın İqtisadiyyat Nazirliyi üzrə icrasına dair Fəaliyyət Planı çərçivəsində ESRI tərəfindən 10 aprel tarixində ümummilli lider Heydər Əliyevin səyi və təşəbbüsü ilə həyata keçirilmiş və onun dövründə təməli qoyulmuş iqtisadi və institusional islahatların Azərbaycanın iqtisadi və institusional inkişafına töhfəsini, eləcə də ölkəmizin hazırkı sosial-iqtisadi kursunun tədqiq edilməsini təşviq etmək məqsədilə "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" adlı ümumrespublika və beynəlxalq elmi və praktiki məqalə müsabiqəsi keçirilmişdir. Müsabiqənin nəticələrinin qiymətləndirilməsi üzrə komissiyada digər qurumların da əməkdaşları iştirak etmişlər. Müsabiqəyə Azərbaycan, Belarus, Gürcüstan, Küveyt, Qırğız Respublikası, Moldova, Özbəkistan, Pakistan, Rusiya, Serbiya, Tacikistan, Türkiyə, Türkmənistan və Ukraynadan təqdim edilmiş 80-ə yaxın məqalə arasından 8 qalib seçilmiş və ictimaiyyətə təqdim edilmişdir.

26 may tarixində ESRI rəhbərliyi ulu öndər Heydər Əliyevin 100 illiyi münasibətilə İqtisadiyyat Nazirliyi tərəfindən KİV nümayəndələri üçün keçirilmiş "Heydər Əliyev və iqtisadi islahatlar" mövzusunda seminarda çıxış etmişdir. Həmçinin ESRI "Heydər Əliyev İli" çərçivəsində iqtisadiyyat nazirinin 15 dekabr 2022-ci il tarixli F-184 nömrəli əmri ilə təsdiq olunmuş Fəaliyyət Planına uyğun olaraq, ümummilli liderin irsinin təbliği məqsədilə media nümayəndələri üçün "İqtisadi siyasət və inkişafın Heydər Əliyev fəlsəfəsi" mövzusunda yaradıcılıq müsabiqəsinin qiymətləndirmə komissiyasında yer almış və 30 məqalənin qiymətləndirilməsində iştirak etmişdir.

Bundan başqa "Heydər Əliyev İli" çərçivəsində 27 noyabr tarixində ESRI tərəfindən "Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. 200 nəfərin iştirak etdiyi konfransda "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" adlı ümumrespublika və beynəlxalq elmi və praktiki məqalə müsabiqəsinin qalibləri də təltif edilmişdir.

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Kommissiyanın 2023-cü il Fəaliyyət Planı çərçivəsində İnstitutu tərəfindən görülmüş işlər aşağıdakılardan ibarət olmuşdur:

- Qlobal İnnovasiya üzrə əlaqələndirmə qrupu üzrə:

Hesabat dövründə Qlobal İnnovasiya üzrə əlaqələndirmə qrupunun sədrliyi İqtisadiyyat Nazirliyinə tapşırılmışdır. İşçi qrupunun Tədbirlər Planının matrisinə uyğun olaraq il ərzində "Texnologiya və innovasiyalar" və digər işçi qruplarında müvafiq bəndlər üzrə icra vəziyyəti və icra problemlərinə dair məlumatlar verilmişdir.

- "Texnologiya və innovasiyalar" işçi qrupu üzrə:

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Texnologiya və innovasiyalar" üzrə işçi qrupunun 2023-cü il üzrə Fəaliyyət Planının İqtisadiyyat Nazirliyinə

aid bəndlərinin icrası həyata keçirilmişdir. İl ərzində işçi qrupunun iclasında bəndlərin icrası və problemlər haqqında mütəmadi çıxışlar edilmişdir.

"5.2.4 Birgə müəssisə, strateji ittifaq sövdələşmələri" bəndi üzrə Azərbaycan İnvestisiya Holdinqinə Azərbaycanda "Refinitiv" bazasına aid müəssisələri müəyyən etmək üçün sorğular yönəldilmişdir. "Refinitiv" bazasına çıxışın əldə edilməsi üçün danışıqlar aparılmışdır. Həmin bənd üzrə görüləcək tədbirlərə uyğun olaraq, İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış "İnnovasiya fəaliyyəti haqqında" qanun layihəsi işçi qrupunun müzakirəsinə təqdim edilmişdir;

"6.3.2 İstehsal və ixracın mürəkkəbliyi" bəndi üzrə "Harvard Growth Lab" metodologiyası əsasında Azərbaycanda yeni diversifikasiya üçün yüksək potensiala malik sektorlar müəyyən edilmiş və Harvard laboratoriyasının məlumatları əsasında mürəkkəblik indeksi yüksək olan məhsulların siyahısı hazırlanmış və Komissiyaya təqdim edilmişdir;

"7.1.1 Qeyri-maddi aktivlərin intensivliyi" bəndi üzrə məlumatın "Brand Finance" bazasından götürüldüyü və bu bazada Azərbaycan şirkətləri üzrə məlumatların yayımlanmaması səbəbi ilə qeyri-maddi aktivlərin hesablanması üzrə metodologiyalar hazırlanıb Komissiyaya təqdim edilmişdir;

"7.1.3 Qlobal marka dəyəri" bəndi üzrə də məlumatların "Brand Finance" bazasından əldə olunduğu və bazaya çıxışın olmaması səbəbi ilə baza və bazanın xidmətləri haqqında arayışlar hazırlanaraq İqtisadiyyat Nazirliyinə təqdim edilmişdir. 26 dekabr tarixində Türkiyənin Ankara şəhərində ESRI əməkdaşları dünyada markaların brend qiymətləndirilməsi üzrə qabaqcıl şirkətlərdən biri olan "Brand Finance"ın Türkiyə təmsilçisi Muhterem İlgünər ilə görüş keçirmişlər. Görüş zamanı tərəflər gələcəkdə bu sahədə əməkdaşlıq perspektivləri haqqında fikir mübadiləsi aparmışlar. ESRI əməkdaşlarının səyləri nəticəsində "Brand Finance" şirkətinin data bazası olan "Brandirectory"də Azərbaycanla bağlı ölkə dəyərləndirməsinin ("Nation Brand") yenidən yerləşdirilməsi mümkün olmuşdur.

➢ "İnsan kapitalı" işçi qrupunun "Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin (H indeksi) yaxşılaşdırılması üzrə" altqrupu üzrə:

"Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin (H-indeksi) yaxşılaşdırılması üzrə" altqrupun 2023-cü il üçün təsdiqlənmiş "Yol Xəritəsi"ndə nəzərdə tutulmuş tədbirlərə müvafiq işlər aparılmış, təkliflər hazırlanıb təqdim edilmiş, "Elmi potensialın artırılması", "Uğurlu nəşrlərin sirri" mövzularında keçirilmiş təlimlərdə təlimçi qismində iştirak edilmişdir.

2023-cü ili ərzində ESRI-də "Rəqəmsal iqtisadiyyat: İzahlı lüğət" və "Nəticə əsaslı monitorinq və qiymətləndirmə sistemi: metodoloji tövsiyələr" kitabları nəşr olunmuş və təqdimatı keçirilmiş, "Dövlət-özəl tərəfdaşlığı" və "İqtisadi diplomatiya: dəyişilmədən yenilənən strategiya" mövzularında tədqiqat əsaslı kitab layihəsinin yazılmasına başlanılmışdır. ESRI əməkdaşlarının beynəlxalq elmi və praktiki konfranslarda və elmi reytinq bazalarına daxil olmuş jurnallarda məqalələri dərc edilmişdir.




Hesabat dövründə keçirilmiş İslam İnkişaf Bankının Müdirlər Şurasının 48-ci illik Toplantısının bülletenində ESRI əməkdaşları tərəfindən hazırlanmış "Public-Private Partnership: Prospects for Azerbaijan" adlı məqalə nəşrə təqdim edilmişdir. Həmçinin ESRI əməkdaşının "Elmin ölçülməsi elmi haqqında: suallara cavab" kitabı nəşr edilmişdir.

Baş redaktorluğu ESRI-də olan İƏT "İqtisadiyyat" jurnalının 8-ci buraxılışı üçün təqdim edilmiş məqalələr redaktə edilmiş və jurnal Bakıda çap olunmuşdur. ESRI tərəfindən keçirilmiş "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" adlı ümumrespublika və beynəlxalq elmi və praktiki məqalə müsabiqəsinə təqdim edilmiş məqalələr arasından seçilmiş materiallar "İqtisadiyyat" jurnalının 8-ci sayında dərc edilmişdir.

İl sonu ESRI tərəfindən təsis edilmiş yeni beynəlxalq jurnal – "Strateji iqtisadi düşüncə" jurnalının (JSET) ilk buraxılışı çap olunaraq ictimaiyyətə təqdim edilmişdir.


JSET

MÜNDƏRİCAT

ÖN SÖZ
Mahir HÜMBƏTOV ____ 6
AZƏRBAYCAN RESPUBLİKASINDA GÖMRÜK ORQANLARI TƏRƏFİNDƏN DÖVLƏT BÜDCƏSİNƏ TƏMİN EDİLƏN GƏLİRLƏRƏ TƏSİR EDƏN AMİLLƏRİN EKONOMETRİK QİYMƏTLƏNDİRİLMƏSİ (2012 – 2022)
Cəlal ABASOV ____ 7
HEYDƏR ƏLİYEVİN UĞURLU NEFT STRATEGİYASINDAN QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFINA DOĞRU: İQTİSADİ ARTIM VƏ ONUN ƏSAS DRAYVERLƏRİ
Nuranə BABAYEVA ____ 18
HEYDƏR ƏLİYEVİN İQTİSADİ SİYASƏTİ VƏ ONUN QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFINA TƏSİRLƏRİ
Xanəy CAHANGİROV ____ 29
AZƏRBAYCANDA TURİZM İNKİŞAFININ ƏHALİ SAĞLAMLIĞINA TƏSİRİ
Səbinə CUMAZADƏ ____ 42
AZƏRBAYCANDA RƏQƏMSALLAŞMANIN İQTİSADİ ARTIMA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ
Səbinə İSGƏNDƏROVA ____ 55
AZƏRBAYCAN İQTİSADİYYATININ ƏSAS ÖZƏYİ KİMİ ENERJİ SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİ VƏ İNKİŞAFINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MÜSTƏSNA XİDMƏTLƏRİ
Könül KƏRİMOVA ____ 67
İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN YENİDƏNQURMA VƏ BƏRPASINDA ÖLKƏNİN İQTİSADİ DİPLOMATİYASININ ROLU: AZƏRBAYCAN TİMSALINDA
Aqil MƏMMƏDOV ____ 75
DAYANIQLI İNKİŞAF KONSEPSİYASI VƏ MİLLİ SƏRVƏT MODELİNİN QARŞILIQLI ƏLAQƏSİ
Səfiqə MƏMMƏDOVA ____ 82
RƏQƏMSAL MÜHİTDƏ BRENDİN FORMALAŞDIRILMASI MƏSƏLƏLƏRİ
Gülbəs RÜSTƏMOVA ____ 94
MÜSTƏQİL AZƏRBAYCANIN RƏQƏMSAL TRANSFORMASİYASINDA HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ VƏ BU TRANSFORMASİYANIN İQTİSADİ

3


JSET

İNKİŞAFDAKI ƏHƏMİYYƏTİ
| **AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİYYAT NAZİRLİYİNİN İQTİSADİ ELMİ TƏDQİQAT İNSTİTUTU (ESRI) İLƏ TÜRKİYƏ İQTİSADİ SİYASƏTLƏRİ ARAŞDIRMA FONDU (TEPAV) ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU**<br>***2023, Ankara*** | **AZERBAYCAN CUMHURİYETİ EKONOMİ BAKANLIĞININ İKTİSADİ BİLİMSEL ARAŞTIRMA ENSTİTÜSÜ (ESRI) İLE TÜRKİYE EKONOMİ POLİTİKALARI ARAŞTIRMA VAKFI (TEPAV) ARASINDA İŞBİRLİĞİ ANLAŞMASI**<br>***2023, Ankara*** | **MEMORANDUM OF UNDERSTANDING ON COOPERATION BETWEEN THE ECONOMIC SCIENTIFIC RESEARCH INSTITUTE OF THE MINISTRY OF ECONOMY OF THE REPUBLIC OF AZERBAIJAN (THE ESRI) AND THE ECONOMIC POLICY RESEARCH FOUNDATION OF TÜRKİYE (TEPAV)**<br>***2023, Ankara*** |
| Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin İqtisadi Elmi Tədqiqat İnstitutu (ESRI) və Türkiyə İqtisadi Siyasətləri Araşdırma Fondu (TEPAV) (bundan sonra "Tərəflər" olaraq adlandırılacaqdır). | Azerbaycan Cumhuriyetinin Ekonomi Bakanlığının İktisadi Bilimsel Araştırma Enstitüsü (ESRI) ile Türkiye Ekonomi Politikaları Araştırma Vakfı (TEPAV) (bundan sonra "Taraflar" olarak anılacaktır); | The Economic Scientific Research Institute of the Ministry of Economy of the Republic of Azerbaijan – The ESRI and The Economic Policy Research Foundation of Türkiye (TEPAV) (hereinafter referred to as "Parties"); |
| Ümumi araşdırmalara, texniki yardım layihələrinə qoşulmağa, personalın təliminə, tədbirlərin təşkili və birgə nəşrlərə nail olmağa dair əməkdaşlıq qurmağı arzulayaraq, regional iqtisadi əməkdaşlığı və inteqrasiyanı genişləndirmək məqsədilə siyasət, proqram və layihələrin tərtibat və tətbiqində əməkdaşlığa nail olmağı; regional və qlobal səviyyədə yaxşı təcrübələrin paylaşılmasını təşviq etməyi istəyərək, | Ortak araştırmalar, teknik yardım projelerine katılım, personel eğitimi, etkinliklerin düzenlenmesi ve ortak yayınlar konusunda işbirliği kurmayı; bölgesel ekonomik işbirliği ve entegrasyonu teşvik etmeyi amaçlayan politika, program ve projelerin tasarımı ve uygulanması konularında işbirliği yapmayı; bölgenin ve dünyanın güncel iyi uygulamalarının paylaşımını kolaylaştırmayı isteyerek; | Desiring to establish and develop cooperation regarding joint research, participation in technical assistance projects, staff training, organization of events and joint publications; to cooperate in the field of design and implementation of policies, programs, and projects aiming to promote regional economic cooperation and integration; to facilitate sharing of good practices of the region and the world; |

ECONOMIC SCIENTIFIC RESEARCH INSTITUTE

ANKASAM AHKACAM ANKARA KRİZ VE SİYASET ARAŞTIRMALARI MERKEZİ ANKARA CENTER FOR CRISIS AND POLICY STUDIES

| | | |
|---|---|---|
| **AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİNİN İQTİSADİ ELMİ TƏDQİQAT İNSTİTUTU (ESRI) İLƏ ANKARA BÖHRAN VƏ SİYASƏT ARAŞDIRMALARI MƏRKƏZİ (ANKASAM) ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU**<br>***2023, Ankara*** | **AZERBAYCAN CUMHURİYETİNİN EKONOMİ BAKANLIĞININ İKTİSADİ BİLİMSEL ARAŞTIRMA ENSTİTÜSÜ (ESRI) İLE ANKARA KRİZ VE SİYASET ARAŞTIRMALARI MERKEZİ (ANKASAM) ARASINDA İŞBİRLİĞİ ANLAŞMASI**<br>***2023, Ankara*** | **MEMORANDUM OF UNDERSTANDING ON COOPERATION BETWEEN THE ECONOMIC SCIENTIFIC RESEARCH INSTITUTE OF THE MINISTRY OF ECONOMY OF THE REPUBLIC OF AZERBAIJAN (THE ESRI) AND ANKARA CENTER FOR CRISIS AND POLICY STUDIES (ANKASAM)**<br>***2023, Ankara*** |
| Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin İqtisadi Elmi Tədqiqat İnstitutu (ESRI) və Ankara Böhran və Siyasət Araşdırmaları Mərkəzi (ANKASAM) (bundan sonra "Tərəflər" olaraq adlandırılacaqdır). | Azerbaycan Cumhuriyetinin Ekonomi Bakanlığının İktisadi Bilimsel Araştırma Enstitüsü (ESRI) ile Ankara Kriz ve Siyaset Araştırmaları Merkezi (ANKASAM) (bundan sonra "Taraflar" olarak anılacaktır); | The Economic Scientific Research Institute of the Ministry of Economy of the Republic of Azerbaijan – The ESRI and Ankara Center for Crisis and Policy Studies (ANKASAM) (hereinafter referred to as "Parties"); |
| Ümumi araşdırmalara, texniki yardım layihələrinə qoşulmağa, personalın təliminə, tədbirlərin təşkili və birgə nəşrlərə nail olmağa dair əməkdaşlıq qurmağı arzulayaraq, regional iqtisadi əməkdaşlığı və inteqrasiyanı genişləndirmək məqsədilə siyasət, proqram və layihələrin tərtibat və tətbiqində əməkdaşlığa nail olmağı; regional və qlobal səviyyədə yaxşı təcrübələrin paylaşılmasını təşviq etməyi istəyərək, | Ortak araştırmalar, teknik yardım projelerine katılım, personel eğitimi, etkinliklerin düzenlenmesi ve ortak yayınlar konusunda işbirliği kurmayı; bölgesel ekonomik işbirliği ve entegrasyonu teşvik etmeyi amaçlayan politika, program ve projelerin tasarımı ve uygulanması konularında işbirliği yapmayı; bölgenin ve dünyanın güncel iyi uygulamalarının paylaşımını kolaylaştırmayı isteyerek; | Desiring to establish and develop cooperation regarding joint research, participation in technical assistance projects, staff training, organization of events and joint publications; to cooperate in the field of design and implementation of policies, programs, and projects aiming to promote regional economic cooperation and integration; to facilitate sharing of good practices of the region and the world; |
| Aşağıdakı kimi razılığa gəlmişlər: | Aşağıdaki anlaşmaya ulaşmışlardır: | Have reached the following understanding: |

1

# IV FƏSİL

# İQTİSADİ ELMİ TƏDQİQAT İNSTİTUTUNUN DİREKTORLARI

## SALEH İSMAYIL OĞLU SƏMƏDOV

**(1911-1990)**



S.Səmədov 1911-ci il may ayının 2-də Şamaxı şəhərində anadan olmuşdur. 1931-1936-cı illərdə K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda təhsil alıb. Əmək fəaliyyətinə Şamaxı rayon taxıl birliyində baş hesabdar vəzifəsi ilə başlamışdır. 1936-cı ildə "Bakı Statistika Texnikumu"nun direktoru vəzifəsinə təyin edilib və eyni zamanda K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda müəllim kimi fəaliyyət göstərib.

1953-1958-ci illərdə K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda "Mühasibat uçotu" kafedrasının müdiri vəzifəsində işləyib. 1954-cü ildə Tbilisi Dövlət Universitetində namizədlik dissertasiyasını müdafiə edib. 1958-1961-ci illərdə Bakı Ali Partiya Məktəbində "İqtisadiyyat" kafedrasının dosenti, 1961-1965-ci illərdə "İqtisadiyyat" fakültəsində dekan müavini kimi fəaliyyət göstərib.

1965-ci ildə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında yeni təşkil edilən Elmi Tədqiqat İqtisadiyyat İnstitutunun (indiki İqtisadi Elmi Tədqiqat İnstitutu) ilk direktoru təyin edilib. 1969-cu ildən D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda kafedra müdiri, kafedranın dosenti işləyib.

S.Səmədov 1990-cı il 23 yanvar tarixində vəfat edib.

## MƏDƏT MUSTAFA OĞLU ALLAHVERDİYEV

**(1929-1992)**



1929-cu il dekabr ayının 21-də Qubadlı rayonunun Dəmirçilər kəndində anadan olmuşdur.

1950-ci ildə K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunu bitirdikdən sonra Azərbaycan SSR Elmlər Akademiyasının iqtisadiyyat bölməsinin aspiranturasında təhsil alıb. 1954-cü ildə Moskva şəhərində namizədlik dissertasiya işini müdafiə edib.

M. Allahverdiyevin məhsuldar həyatının böyük bir dövrü Azərbaycan SSR EA İqtisadiyyat İnstitutunda

keçmişdir. O, burada baş elmi işçi, elmi katib, şöbə müdiri vəzifələrində çalışmışdır.

1968-1975-ci illərdə isə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunun (indiki İqtisadi Elmi Tədqiqat İnstitutu)) direktoru vəzifəsində işləyib.

1966-cı ildə "Azərbaycan SSR-də işçi qüvvəsinin təkrar istehsalı problemləri" adlı doktorluq dissertasiyasını müdafiə edərək Azərbaycan EA İqtisadiyyat İnstitutunda iqtisad elmləri doktoru olub. 1968-ci ildə ona professor elmi adı verilib.

M.Allahverdiyevin "Azərbaycan SSR-in çayçılıq kolxozlarının iqtisadiyyatının inkişafı", "Kolxozlarda ictimai və şəxsi mənafelərin əlaqələndirilməsi", "Kolxoz istehsalının inkişafında maşın-traktor stansiyalarının rolu", "Dağ rayonları şəraitində kompleks mexanikləşdirmənin bəzi məsələləri", "Pambıqçılıqda əmək məhsuldarlığı və onun artırılması yolları", "Kolxoz və sovxozlarda əməyin və istehsalın düzgun təşkili" kimi əsərləri çap olunub. O cümlədən "Əmək resursları və Azərbaycan SSRİ kənd təsərrüfatında onlardan istifadə olunması", "Sosialist əhali sakinliyi qanunu", "Azərbaycan SSR-də iş qüvvəsinin təkrar istehsalı məsələləri", "Məhsuldar və qeyri-məhsuldar əmək" kitabları müəllifin elmi yaradıcılığının ən uğurlu yekunlarından olub.

M.Allahverdiyev 1992-ci ildə vəfat edib.

**TOFİQ HƏSƏN OĞLU HÜSEYNOV**



T.Həsənov 1937-ci il dekabr ayının 27-də Laçın rayonunun Şəlvə kəndində anadan olmuşdur.

1960-cı ildə K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) "Sənayenin iqtisadiyyatı" fakültəsini bitirib. 1961-1964-cü illərdə Bakı Baş Tikinti İdarəsinin Bakı şəhərində yerləşən 1 saylı Evtikmə kombinatında iqtisadçı vəzifəsində çalışıb. 1967-ci illərdə Moskva şəhərində SSRİ Dövlət Tikinti və Arxitektura Komitəsinin Tikintinin İqtisadiyyatı Elmi Tədqiqat İnstitutunun əyani aspiranturasını bitirib və orada iqtisad elmləri namizədi elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə edib.

1967-1980-ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda (indiki İqtisadi Elmi Tədqiqat İnstitutu) şöbə müdiri, elmi işlər üzrə direktor müavini və institutun direktoru vəzifəsinin icraçısı olub.

1980-2000- ci illərdə Dövlət Plan Komitəsində və Dövlət Əmlak Komitəsində şöbə müdiri vəzifəsində çalışıb. 2000-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda şöbə müdiri işləyib. 2009-cu ildən iqtisad elmləri doktorudur. 40-dan çox elmi əsərin, o cümlədən 5 monoqrafiyanın müəllifi və həmmüəllifidir.

Tofiq Hüseynov AMEA İqtisadiyyat İnstitutunda fəaliyyət göstərən müdafiə şurasının üzvü kimi dissertasiya işlərinin müzakirələrində də fəal iştirak edib və hazırda fəaliyyətini burada davam etdirir.

## FƏRİD ƏLİQULU OĞLU FƏRƏCOV
## (1927-2000)



F.Fərəcov 1927-ci il iyun ayının 23-də Bakı şəhərində görkəmli alim Əliqulu Fərəcovun ailəsində dünyaya göz açmışdır.

1949-cu ildə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunu (indiki İqtisad Universitetiti) bitirən Fərid Fərəcov Moskvada SSRİ Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun aspiranturasına qəbul olub. 1953-cü ildə "SSRİ kənd təsərrüfatı maşınqayırma sənayesində əmək məhsuldarlığı" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək 25 yaşında iqtisad elmləri namizədi alimlik dərəcəsi alıb.

Həmin ildən Azərbaycan Elmlər Akademiyasının iqtisadiyyat bölməsində kiçik elmi işçi, sonralar baş elmi işçi vəzifəsində çalışıb. 1957-1976-cı illərdə Bakı Ali Partiya Məktəbinə konkret iqtisadi fənlər kafedrasına rəhbərlik edib.

F.Fərəcov 1974-cü ildə "Azərbaycan sənayesinin sahə strukturu və onun təkmilləşdirilməsi problemləri" mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edib və SSRİ Ali Attestasiya Komissiyası tərəfindən iqtisad elmləri doktoru elmi dərəcəsi və professor elmi adı təsdiq edilib.

1976-cı ildə Elmi Tədqiqat İqtisadiyyat İnstitutunun (indiki İqtisadi Elmi Tədqiqat İnstitutu) direktoru və Dövlət Plan Komitəsinin Kollegiyasının üzvü təyin edilib. 1981-1993-cü illərdə Dövlət Plan Komitəsinin sədrinin müavini və sonradan birinci müavini kimi fəaliyyət göstərib.

Sənayenin iqtisadiyyatına, onun inkişaf və sahə quruluşu, iqtisadi islahatların, texniki tərəqqinin, işin keyfiyyətinin ictimai istehsalın səmərəliliyinə təsiri, sənayenin idarə edilməsi problemlərinə dair tədqiqatların, o cümlədən bir neçə monoqrafiya və kitabın müəllifidir.

2000-ci il aprel ayının 19-da vəfat edib.

## VAHİD CÜMŞÜD OĞLU AXUNDOV



Axundov 1942-ci il fevral ayının 9-da Bakı şəhərində anadan olmuşdur.

1964-cü ildə Azərbaycan Neft və Kimya İnstitutunun mühəndis-iqtisadçı ixtisasını (Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) bitirib. V.Axundov 1970-ci ildə iqtisad elmləri üzrə namizədlik, 1980-cı ildə doktorluq dissertasiyalarını müdafiə edib və 1987-ci ildə professor elmi rütbəsini alıb.

V.Axundov əmək fəaliyyətinə tələbə olarkən 1959-cu ilin noyabr ayında Bakı Dəri Qalantereya fabrikində çilingər kimi başlamış, 1964-cü ildə Avtomobil Ehtiyatları zavodunda mühasib, 1965-1966-cı illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsində iqtisadçı, 1966-1970-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda mühəndis-iqtisadçı kimi davam etmişdir.

1970-1987-ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda (indiki İqtisadi Elmi Tədqiqat İnstitutu) "Sahələrarası balanslar" şöbəsində müdir, 1976-1981-ci illərdə elmi işlər üzrə direktor müavini, 1981-1987-ci illərdə institutun direktoru vəzifələrində çalışıb.

1987-1991-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Xalq Təsərrüfatını İdarəetmə İnstitutunun elmi işlər üzrə prorektoru, 1991-ci ildən Azərbaycan Respublikasının İqtisadi siyasət üzrə Dövlət müşaviri, 1993-cü ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin İqtisadi siyasət və beynəlxalq əməkdaşlıq üzrə Mərkəzinin direktoru – Baş nazirin baş iqtisadi müşaviri, 1993–2005-ci illərdə isə Azərbaycan Respublikasının İqtisadi siyasət üzrə Dövlət müşaviri vəzifələrində çalışıb.

Azərbaycan Respublikası Prezidentinin 19 iyul 2005-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının İqtisadi siyasət məsələləri üzrə Dövlət müşaviri təyin edilib.

150 elmi əsərin müəllifidir.



**QORXMAZ CAHANGİR OĞLU İMANOV**

1941-ci il aprel ayının 17-də Bakı şəhərində anadan olmuşdur.

1964-cü ildə Azərbaycan Dövlət Universitetinin İqtisad fakültəsini bitirib. 1964-1967-ci illərdə Moskva şəhərində SSRİ Elmlər Akademiyasının Mərkəzi iqtisadi-riyaziyyat institunun aspiranturasında təhsil alıb. 1968-ci ildə həmin İnstitutda iqtisad elmləri namizədi alimlik dissertasiyası müdafiə edib.

1968-1969-cu illərdə Azərbaycan SSR EA Kibernetika institutunda kiçik elmi işçi vəzifəsində işləyib. 1969–1971-ci illərdə D. Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı institutunda baş müəllim və dosent vəzifələrində çalışıb. 1975-ci ildə SSRİ EA Mərkəzi iqtisadi-riyaziyyat institunda iqtisad elmləri doktorluq dissertasiyasını müdafiə edib. 1974-1987-ci illərdə Kibernetika institutunda laboratoriya və sonra şöbə müdiri vəzifəsində çalışıb.

Q.İmanov 1983-cü ildə professor elmi adına və 1984-cü ildə elm və texnika sahəsində Azərbaycan SSR Dövlət mükafatına layiq görülüb.

1987-1993-cü illərdə Azərbaycan Dövlət Plan Komitəsinin və sonralar İqtisadiyyat Nazirliyinin Elmi-tədqiqat İqtisadiyyat institutunun (indiki İqtisadi Elmi Tədqiqat İnstitutu) müdiri vəzifəsində çalışıb.

1993-1998-ci illərdə Rusiya Elmlər Akademiyasının Bazar problemləri institutunda çalışıb. 1999-2000-ci illərdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyində baş müşavir vəzifəsində işləyib. 2001-ci ildən AMEA Kibernetika İnstitutunda baş elmi işçi və laboratoriya

rəhbəri vəzifəsində çalışıb. 145-dən artıq elmi əsərləri, o cümlədən 30-dan artıq xaricdə məqaləsi nəşr etdirilib.



**SOFİQ KƏLBİ OĞLU HÜSEYNOV**
**(1950-1997)**

1950-ci il iyul ayının 22-də Zəngilan rayonunun Cöpədərə kəndində kəndli ailəsində anadan olmuşdur.

S.Hüseynov 1967-1971-ci illərdə Dadaş Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun sənayenin iqtisadiyyatı fakültəsində təhsil alıb. Təyinatla Azərbaycan SSR EA-nın İqtisadiyyat İnstitutuna göndərilib və burada aspiranturanı bitirib.

1977-ci ildə iqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə edib. 1984-1986-cı illərdə Moskvaya SSRİ EA-nın İqtisadiyyat İnstitutuna ezam olunub və orada doktorluq dissertasiyasını tamamlayıb.1988-ci ildə iqtisad elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə edib.

Əsas elmi-praktik fəaliyyəti ilə yanaşı 20 ilə yaxın Bakının bir sıra ali məktəblərində pedaqoji fəaliyyətlə məşğul olub. 1993-cü ildə ona professor adı verilib.

1994-cü İqtisadiyyat Nazirliyinin nəzdində yaradılmış İqtisadi İslahatlar Mərkəzinin (indiki İqtisadi Elmi Tədqiqat İnstitutu) direktoru vəzifəsinə təyin olunub.

1995-ci ildə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmiş və iqtisadi siyasət daimi komissiyasının sədri təyin olunub.

1997-ci il dekabr ayının 30-da vəfat edib.

**RASİM TAPDIQ OĞLU HƏSƏNOV**



1955-ci il iyul ayının 9-da Bərdə rayonunun Kətəlparaq kəndində anadan olmuşdur.

R.Həsənov 1977-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunu bitirərək Azərbaycan SSR Elmlər Akademiyasının Kibernetika İnstitutunun "Makroiqtisadi sistemlərin optimallaşdırılması" laboratoriyasında əmək fəaliyyətinə başlayıb. İnstitutda mühəndis və elmi işçi vəzifələrində çalışıb.

1980-1984-cü illərdə Azərbaycan SSR Elmlər Akademiyasının aspiranturasında oxuyub və 1985-ci ildə "Yeni təsərrüfatçılıq şəraitində kənd təsərrüfatı

müəssisəsi fəaliyyətinin modelləşdirilməsi” mövzusunda namizədlik dissertasiyası müdafiə edib.

1988-1994-cü illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsinin Elmi Tədqiqat İqtisadiyyat İnstitutunun Elmi katibi və 1989-cu ildən isə eyni zamanda, həmin institutun “Xarici iqtisadi əlaqələr” elmi şöbəsinin müdiri vəzifələrində çalışıb.

1994-cü ildə Elmi Tədqiqat İqtisadiyyat İnstitutunun bazasında yaradılmış İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Mərkəzinin (indiki İqtisadi Elmi Tədqiqat İnstitutu) direktor müavini təyin olunmuş, 1995-1996-cı illərdə İqtisadi İslahatlar Mərkəzinin direktoru vəzifəsini icra etmiş, 1996-cı ildən isə həmin Mərkəzin direktoru vəzifəsinə təyin olunub.

2002-2008-ci illərdə R.Həsənov Azərbaycan Respublikası Hesablama Palatasında şöbə müdiri və Palata Aparatının rəhbəri vəzifələrində işləyib. 2008-ci ildən R.Həsənov Azərbaycan Dövlət İqtisad Universitetində çalışıb. “Beynəlxalq iqtisadi münasibətlər” kafedrasının professoru, 2009-2016-cı illərdə Azərbaycan Dövlət İqtisad Universiteti nəzdində yeni yaradılmış İqtisadi Araşdırmalar Elmi Tədqiqat İnstitutunun direktoru olub.

2003-cü ildə “Azərbaycan iqtisadiyyatının islahatlaşdırılması və dünya təsərrüfat sisteminə inteqrasiyası problemləri” mövzusunda, iqtisad elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə edib.

O, 200-dən artıq elmi əsərin, o cümlədən 8 monoqrafiya və dərs vəsaitinin müəllifi və həmmüəllifidir.

Hazırda UNEC-in “İqtisadiyyat və idarəetmə” kafedrasının professorudur.

**RƏHİM HÜSEYN OĞLU HÜSEYNOV**
**(1961-2014)**



1961-ci il iyul ayının 22-də Bakı şəhərində anadan olmuşdur.

1978-1983-cü illərdə Azərbaycan neft və kimya institutunun mühəndis-iqtisadiyyatı fakültəsində təhsil alaraq mühəndis-iqtisadçı ixtisasına yiyələnib. 1983-cü ildə təyinatla Azərbaycan Elmlər Akademiyası Avtomatlaşdırılmış idarəetmə sistemləri şöbəsində iqtisadçı, böyük iqtisadçı və 1-ci dərəcəli iqtisadçı-mühəndis olaraq çalışıb.

1996-2000-ci illərdə “SİAR” Sosial-İqtisadi Araşdırmalar Mərkəzinin həmtəsisçisi və baş direktoru işləyib. 2000-ci ilin may ayında Azərbaycan Marketinq Mütəxəssisləri İctimai Birliyi təsis olunarkən həmin təşkilatın idarə heyətinin sədri vəzifəsinə seçilib.

2002-2004-cü illərdə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Mərkəzinin (indiki İqtisadi Elmi Tədqiqat İnstitutu) direktor müavini və direktoru vəzifələrində əmək fəaliyyətini davam etdirib.

2004-2006-cı iilərdə həmin nazirliyin Antiinhisar Siyasəti Departamentinin direktoru və 2009-cu ilin yanvar-may aylarında isə eyni nazirliyin nəzdində fəaliyyət göstərən İxracın və İnvestisiyaların Təşviqi Fondunun prezidenti təyin edilib. 2010-2013-cü illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunda müşavir vəzifəsində çalışıb. 2013-cü ilin may ayında Azərbaycan Milli Elmlər Akademiyasının prezidentinin müşaviri vəzifəsinə təyin olunub.

2014-cü ildə Rəhim Hüseynov "Azərbaycan Respublikasında marketinq xidmətləri bazarının formalaşması xüsusiyyətləri və inkişaf problemləri" mövzusunda təqdim etdiyi dissertasiya işini müdafiə edib və iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülüb.

O, "Böyük iqtisadi ensiklopediya"-nın III cildin "Marketinqin mahiyyəti, marketinq siyasəti və marketinq strategiyası" adlı bölmənin müəllifi olub.

2014-cü il may ayının 12-də vəfat edib.

**VAQİF ƏLİ OĞLU RÜSTƏMOV**



1959-cu il avqust ayının 28-də Laçın rayonunun Mirik kəndində anadan olmuşdur.

V.Rüstəmov 1976-1981-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) mexanika-riyaziyyat fakültəsinin riyaziyyatçı və riyaziyyat müəllimi ixtisas peşələrinə yiyələnib. 1981-1985-ci illərdə müxtəlif məktəblərdə pedaqoji fəaliyyətlə məşğul olub. 1985-1989-cu illərdə Azərbaycan Respublikası EA Kibernetika İnstitutunun aspiranturasını bitirib. Bitirdiyi il İnstitutun "Kibernetika" Xüsusi Konstruktor Bürosunda iqtisadçı-mühəndis vəzifəsinə təyin olunub.

1992-ci il mart ayından Azərbaycan Respublikası Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutuna (ETİİ) köçürülüb. Göstərilən tarixdən 1994-cü ilin iyun ayına kimi ETİİ-də kiçik elmi işçi vəzifəsində, həmin dövrdən 2007-ci ilin aprel ayına kimi ETİİ-nin bazasında yaradılan Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi (30 aprel 2001-ci il tarixə kimi – İqtisadiyyat Nazirliyi) İqtisadi İslahatlar Mərkəzində (indiki İqtisadi Elmi Tədqiqat İnstitutu) böyük elmi işçi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini və direktor vəzifələrində çalışıb.

2007-ci ilin aprel ayından etibarən Yerli İqtisadi İnkişaf Mərkəzi İB-də elmi rəhbər və sədr vəzifəsində işləyib.

1992-ci ildə "Struktur dəyişikliklərinin iqtisadi artıma təsirinin modelləşdirilməsi" mövzusunda dissertasiya işi müdafiə edərək "İqtisadi-riyazi üsullar" ixtisası üzrə iqtisad elmləri namizədi alimlik dərəcəsi almış və 1999-cu ildə "Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlər" ixtisası üzrə baş elmi işçi elmi adına layiq görülüb.

60-dan çox dərc olunmuş (ölkədə və xaricdə) elmi məqalə, tezis və elmi-tədqiqat işlərinin, 1 monoqrafik nəşr, 1 monoqrafiya (həmmüəlliflərlə), 2 kitab - izahlı terminoloji lüğətlər (həmmüəlliflərlə) və 1 kitabçanın müəllifidir.

**NAMİQ FAİQ OĞLU TAĞIYEV**



1960-cı il noyabr ayının 21-də Bakı şəhərində anadan olmuşdur.

N.Tağıyev 1977-1982-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) İstehsal proseslərinin Avtomatlaşdırılması fakültəsində ali təhsil alıb. 1983-1986-cı illərdə aspiranturanı bitirdikdən sonra iri sistemlərin layihəndirilməsinin avtomatlaşdırılması sistemləri sahəsində Moskvanın Elektron Texnikası İnstitutunda dissertasiya işini müdafiə edərək texnika elmləri namizədi elmi dərəcəsinə layiq görülüb.

1986-1996-cı illərdə Azərbaycan Neft və Kimya İnstitutunun İstehsal proseslərinin Avtomatlaşdırılması fakültəsində assistent və dosent kimi elmi-pedoqoji fəaliyyətlə məşğul olub. 2006-cı ildə Namiq Tağıyev investisiya proseslərinin idarə olunmasına həsr olunmuş doktorluq disertasiyasını müdafiə edərək iqtisad elmləri doktoru elmi dərəcəsi alıb. 2013-cü ildə isə ona iqtisadiyyat üzrə professor elmi adı verilib.

2006-cı ilin noyabr ayında N.Tağıyev Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin yanında İqtisadi İslahatlar Mərkəzinin (indiki İqtisadi Elmi Tədqiqat İnstitutu) direktoru təyin olunub.

2007-ci ildən Bakı Dövlət Universitetinin "İqtisadi Kibernetika" kafedrasının müdiri vəzifəsinə seçilib. 2009-2011-ci illərdə Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində Milli Metrologiya Mərkəzində direktor vəzifəsində işləyib. 2017-2021-ci illərdə Azərbaycan Standartlaşdırma İnstitutunun baş direktoru vəzifəsində çalışıb.

N.Tağıyev Azərbaycan iqtisadiyyatının aktual problemlərinə həsr olunmuş Azərbaycanda və həmçinin xaricdə nəşr olunmuş 100-dən çox elmi işin, 5 monoqrafiya və 2 dərsliyin müəllifidir.



**VİLAYƏT MƏMMƏD OĞLU VƏLİYEV**

1960-cı il mart ayının 28-də keçmiş Ermənistan SSR Amasiya rayonunu Düzkənd kəndində anadan olmuşdur.

1978-1983-cü illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Tətbiqi riyaziyyat fakültəsini bitirib.

1983-2003-cu illərdə Azərbaycan Elmlər Akademiyasının Dərin Neft və Qaz Yataqlarının Problemləri İnstitutunda (DNQYPİ) böyük laborant kimi işə başlayaraq, mühəndis, böyük mühəndis, kiçik elmi işçi, elmi işçi, böyük elmi işçi, aparıcı elmi işçi, baş elmi işçi, sektor müdiri və şöbə müdiri vəzifəsində çalışıb, 2003-2011-ci illərdə (2009-cu ildən sonra əvəzçiliklə) AMEA-nın Geologiya İnstitutunda "Neft-Qaz Problemlərinin İqtisadi Tədqiqi" şöbəsinin müdiri işləyib.

1985-1989-cu illərdə DNQYPİ-nin aspiranturasında təhsil alıb. 1990-cı ildə namizədlik dissertasiyasını müdafiə edərək, 05.15.06 - "Neft-qaz yataqlarının işlənməsi və istismarı" ixtisası üzrə texnika elmləri namizədi elmi dərəcəsi alıb. 1995-1999-cu illərdə DNQYPİ-nin doktoranturasında əyani təhsil alıb. 2000-2004-cü illərdə Bakı Dövlət Universitetinin Beynəlxalq Hüquq fakültəsində (fərqlənmə ilə) ikinci ali təhsil alıb. 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Kibernetika İnstitutunda (indiki İdarəetmə Sistemləri İnstitutu) dissertasiya işini müdafiə edərək, "İqtisadiyyatın riyazi və instrumental üsulları" ixtisası üzrə iqtisad elmləri doktoru elmi dərəcəsi alıb. 2013-cü ildə "Ekonometriya, iqtisadi statistika" ixtisası (əvvəlki "İqtisadiyyatın riyazi və instrumental üsulları") üzrə professor elmi adını alıb.

2009-2019-cu illərdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun (indiki İqtisadi Elmi Tədqiqat İnstitutu) direktoru vəzifəsində çalışıb.

V.Vəliyev 112 elmi əsərin, o cümlədən 40-dan artıq xaricdə çap olunmuş əsərin, həmçinin 1 monoqrafiya və 1 dərsliyin müəllifidir.

Hal-hazırda Azərbaycan Texniki Universitetinin rektoru vəzifəsində işləyir.



**ARZU DOĞRU QIZI HÜSEYNOVA**

A.Hüseynova 1966-cı ildə Bakı şəhərində anadan olub.

M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun İstehsal proseslərinin avtomatlaşdırılması fakültəsində "Tətbiqi riyaziyyat" ixtisası üzrə ali təhsil alıb. 2005-ci ildə "Elmi problemlərin araşdırılmasının informasiya təminatı sistemi" mövzusunda namizədlik dissertasiyasını, 2016-cı ildə "Azərbaycanda innovasiya potensialının idarə edilməsi mexanizminin təkmilləşdirilməsi" mövzusunda elmlər doktoru dissertasiyasını müdafiə edib.

A.Hüseynova "Xəzri" Zaqafqaziya MTİ-də mühəndis-proqramçı, Material Ehtiyatları Nazirliyinin "Azərcihaz" idarəsində AİS şöbəsinin müdiri, Nazirlər Soveti nəzdində Azərbaycan Xalq Təsərrüfatını İdarəetmə İnstitutunda şöbə müdiri, Azərbaycan Dövlət İqtisad Universitetində aparıcı mühəndis-proqramçı, AMEA Elmi İnnovasiyalar Mərkəzində direktorun birinci müavini, İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda (indiki İqtisadi Elmi Tədqiqat İnstitutu) şöbə müdiri, İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda direktor müavini vəzifələrində çalışıb. 2019-2021-ci illərdə İnstitutun direktoru vəzifəsini müvəqqəti icra edib.

Bakı Atatürk liseyində, Azərbaycan Xalq Təsərrüfatını İdarəetmə İnstitutunda, Qərb Universitetində, Milli Aviasiya Akademiyasında dərs deyib. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetində "Rəqəmsal iqtisadiyyat və İKT" kafedrasında 0,5 ştat professor vəzifəsində fəaliyyətini davam etdirir.

Azərbaycanın və bir sıra xarici jurnalların redaksiya heyətinin üzvü və baş redaktoru, Beynəlxalq Elmi-Texniki İnformasiya Mərkəzinin (ICSTI) ekspertidir.

9 kitab, 100-dən çox elmi məqalə və 3 müəlliflik şəhadətnaməsinin müəllifidir.

Hazırda İqtisadi Elmi Tədqiqat İnstitutunun (ESRI) İdarə Heyəti sədrinin birinci müavinidir.



**MAHİR ARZUMAN OĞLU HÜMBƏTOV**

Azərbaycanda Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Pedaqoji Kadrların İxtisasatırma İnstitutu, Böyük Britaniyada Durham Universiteti, Türkiyədə Dokuz Eylül Universiteti və Misirdə Qahirə Universitetlərində müxtəlif ali təhsil dərəcələri və ixtisaslar əldə edib.

İqtisadi İnkişaf Nazirliyi, Prezident yanında Strateji Araşdırmalar Mərkəzi, Vergilər Nazirliyi və digər dövlət orqanlarında və özəl sektorda maliyyə, xidmət və istehsalatla bağlı bir neçə şirkətlərdə işləyib.

Ölkəmizdə bir sıra startap və qrant layihələrinin həmtəsisçisi olub. BMT və onun təsisatları, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı, Asiya İnkişaf Bankı və digər beynəlxalq təşkilat və maliyyə institutlarında komissiya üzvü və ekspert kimi fəaliyyət göstərib.

Böyük Britaniya, Almaniya, Avstriya, Macarıstan, Çexiya, Bolqarıstan, Malayziya, Koreya universitetlərində ictimai mühazirələr deyib, Azərbaycan Dövlət İqtisad Universitetinin Xüsusi İstedadlar Qrupu və Biznes Məktəbi, Azərbaycan Universitetinin BBA və MBA proqramlarında tədris və tədqiqat fəaliyyətilə məşğul olub. Böyük Britaniyanın London Universitetində qonaq elmi işçi kimi fəaliyyət göstərib.

2021-2023-cü illərdə İqtisadi Elmi Tədqiqat İnstitutunun Direktorunun birinci müavini və direktor əvəzi, daha sonra isə İdarə Heyətinin sədri olub.

Azərbaycanda və xaricdə 6-sı ingilis dilində olmaqla beynəlxalq iqtisadi münasibətlər, beynəlxalq təşkilatlar, infrastruktur layihələrinin maliyyələşdirilməsi, dövlət-özəl tərəfdaşlığı, dövlət şirkətlərinin idarəedilməsi, nəqliyyat dəhlizləri, ətraf mühit və digər sahələrdə 7 kitabın, müxtəlif dillərdə və sahələrdə 70-dən çox elmi və siyasət əsaslı tədqiqatlar və məqalələrin müəllifidir.

**ŞAHİN MUSTAFA OĞLU SADIQOV**



Ş.Sadıqov 1971-1976-cı illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Mexanika-riyaziyyat fakültəsini bitirib.

1976-cı ildə Azərbaycan SSR Elmlər Akademiyasının Kibernetika İnstitutunda mühəndis-proqramçı vəzifəsində əmək fəaliyyətinə başlayıb. 1977-ci ilin fevral ayında Moskva şəhərində SSRİ Elmlər Akademiyasının M.V.Keldış adına İnstitutuna ezam olunaraq tədqiqatçı vəzifəsində çalışıb.

1979-cu ilin fevral ayından 1980-ci ilə kimi Azərbaycan SSR Elmlər Akademiyasının Kibernetika İnstitutunun Avtomatlaşdırılmış İdarəetmə Sistemləri şöbəsində çalışıb.

Ş.Sadıqov 1981-1983-cü illərdə Q.V.Plexanov adına Moskva Xalq Təsərrüfatı İnstitutunun İqtisadi kibernetika kafedrasının aspirantı olub. 1983-cü ilin dekabr ayında namizədlik dissertasiyasını müdafiə edərək iqtisad elmlər namizədi elmi dərəcəsini alıb.

1984-1992-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetində müəllim, dərs hissə müdiri, prorektor vəzifələrində çalışıb. 1993-1997-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti olub.

Ş.Sadıqov 1992-1993-cü illərdə Azərbaycan Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsində şöbə müdiri; 1997-2001-ci illərdə Azərbaycan Respublikası Maliyyə Nazirliyində baş büdcə idarəsinin rəis müavini və idarə rəisi; 2001-2008-ci illərdə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyində departament direktoru (şöbə müdiri); 2008-2019-cu illərdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin aparatının İqtisadiyyat şöbəsinin müdiri vəzifələrində çalışıb. 2019-2024-cü illərdə həmin şöbədə müdir müavini vəzifəsində fəaliyyətini davam etdirib.

2024-cü il fevralın 26-dan Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Elmi Tədqiqat İnstitutunun İdarə Heyətinin sədridir.

# V FƏSİL

# İQTİSADİ İSLAHATLAR ELMİ TƏDQİQAT İNSTİTUTUNDA FƏALİYYƏT GÖSTƏRMİŞ ƏMƏKDAŞLAR

## 5.1. Yüksək dövlət vəzifələri tutmuş əməkdaşlar



**i.e.d., prof., akademik Ziyad Əliabbas oğlu Səmədzadə** 1940-cı il iyun ayının 25-də Bakı şəhərində anadan olmuşdur. 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin iqti sad fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1962-1964 cü illərdə SSRİ Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun aspiranturasında təhsil alır. 1965-ci ildə bu institutda namizədlik dissertasiyasını müdafiə edir. Azərbaycan EA İqti sadiyyat İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi, elmi katib, daha sonra şöbə müdiri vəzifələrində çalışır. 1971-ci ildə "Əmək məhsuldarlığı və əhalinin məşğulluq strukturunun aktual problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edir. 1977-ci ildə ona professor elmi adı verilir.

1976-1978-ci illərdə o, Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutu direktorunun birinci müavini, 1978-1982-ci illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun elmi işlər üzrə prorektoru olmuşdur.

1983-1991-ci illərdə Azərbaycan KP MK-nın plan-maliyyə orqanları, iqtisadiyyat, sosial iqtisadi siyasət şöbəsinin müdiri, Azərbaycan Respublikası Ali Soveti Sədrinin birinci müavini, Dövlət Plan İqtisad Komitəsinin sədri, Baş nazirin birinci müavini və zifələrində işləmişdir. 1984-1995-ci illərdə Azərbaycan Respublikası Ali Sovetinin de putatı, plan-büdcə komissiyasının sədri olmuşdur. 1993-2001-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin üzvü olmuşdur.

Z.Səmədzadə III çağırış (2005-2010-cu illər) və IV çağırış (2010-2015-ci illər) Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmiş, hazırda Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri kimi ölkədə iqtisadi qanunvericilik bazasının möhkəmləndirilməsi, büdcə sisteminin təkmilləşdirilməsi və s. məsələlərin həllində fəal iştirak edir. 2010-cu ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir.



**i.e.d., prof. Əli Dadaş oğlu Cahangirov** 1961-ci ildə namizədlik, 1974-cü ildə Gürcüstanda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1978-ci ildə professor elmi adı almışdır. Aqrar problemlərə dair 250-dən artıq elmi əsərin müəllifidir. Ə.Cahangirov 30-dan çox elmlər namizədi hazırlamışdır. 70-ci illərin əvvəllərində Azərbaycan KP MK-da məsul vəzifə tutmuş, 1974-1977-ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi-Tədqiqat İqtisadiy-yat İnstitutunda baş elmi işçi vəzifəsində çalışmışdır. 1978-1991-ci illərdə Moskvada Ümumittifaq ETKTİ-də direktor müavini vəzifəsində çalışmışdır. 1992-1993-cü illərdə Azərbaycan Respublikasının aqrar siyasəti üzrə Dövlət müşaviri vəzifəsində işləmişdir.

Ə.Cahangirov 1996-cı ildə vəfat edib.



**i.e.d., prof. Qüdrət Yaqub oğlu Əbdülsəlimzadə** 1933-cü ildə anadan olmuşdur. 1961-ci ildə respublikanın elektrikləşdirilməsi məsələlərinə dair namizədlik dissertasiyası, 1969-cu ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 50-dən artıq monoqrafiya, kitab, elmi-metodiki vəsait və 400-500-dən artıq məqalənin müəllifidir. İqtisadi tarix və iqtisadi nəzəriyyə fənnlərindən dərslik hazırlamışdır. 1992-1995-ci illərdə Azərbaycan Respublikasının Dövlət Əmlak Komitəsinin Sədri vəzifəsində çalışmışdır. 1997-ci ildən Bakı Biznes Universitetinin və Qərb Universitetinin professorudur. 2002-2008-ci illərdə İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzində baş elmi işçi vəzifəsində çalışmışdır.

13 oktyabr 2016-cı il tarixdə 83 yaşında vəfat edib.




**i.e.d., prof. Əli Qənbərəli oğlu Əlirzayev** 1945-ci il mart ayının 31-da Naxçıvan MR-nın Babək rayonunun Nehrəm kəndində anadan olmuş, 1968-ci ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdir. Müxtəlif illərdə Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi, şöbə müdiri, Naxçıvan Dövlət Universitetində kafedra müdiri vəzifələrində işləyib. 1970-ci ildə SSRİ Elmlər Akademiyasının Mərkəzi İqtisad Riyaziyyat İnstitutunun aspiranturasına qəbul olmuş, 1973-cü ildə namizədlik dissertasiyasını müdafiə etmişdir. Ə.Əlirzayev 400-ə yaxın elmi əsərin, o cümlədən bir neçə monoqrafiyanın, elmi məqalə və tezislərin müəllifidir. 25 aspiranta rəhbərlik etmiş, 3 elmlər doktoru yetişdirmişdir. 2 monoqrafiya, 4 metodik vəsait

Moskva alimləri ilə Mərkəzi İqtisadi Riyaziyyat İnstitutunda hazırlanmış və nəşr olunmuşdur. 1978-1980-ci illərdə Moskvada Mərkəzi İqtisadi Riya-ziyyat İnstitutunda elmi iş aparmış və 1985-ci ildə həmin institutda doktorluq dissertasiyası müdafiə etmişdir. 1986-1989-cu illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan Dövlət İqtisad Universitetinin) elmi işlər üzrə prorektoru vəzifəsində işləmişdir. 2000-2005-ci illərdə Milli Məclisin deputatı və İqtisadi məsələlər komissiyasının sədr müavini olmuşdur. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetində kafedra müdiri vəzifəsində çalışır. 2000-ci ildə "Uğur" mükafatına və 2002-ci ildə əməkdar elm xadimi adına layiq görülmüşdür.



**i.e.d., prof. Şəmsəddin Hümmət oğlu Hacıyev** 1950-ci il noyabr ayının 8-də Ucar rayonunun Lək kəndində anadan olmuşdur. 1966-cı ildə orta məktəbi, 1970-ci ildə D. Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Tica rətin iqtisadiyyatı fakültəsini bitirmişdir. O, 1971-ci ildə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda kiçik elmi işçi kimi əmək fəaliyyətinə başlamış, 1981-ci il qədər burada baş elmi işçi və bölmə müdiri vəzifələrində çalışmışdır. 1972-1974-cü illərdə həmin institutun aspiranturasında təhsil almışdır. 1974-1975-ci illərdə Sovet ordusu sıralarında qulluq etmişdir. 1981-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda baş müəllim, 1986-cı ildə dosent vəzifəsinə seçilmişdir. 1989-cu ildə "Ticarətin iqtisadiyyatı və idarə edilməsi" kafedrasına müdir təyin olunmuşdur. 1991-ci ildən indiyə qədər yaradıcısı olduğu "Beynəlxalq iqtisadi münasibətlər" kafedrasına rəhbərlik edir.

1980-ci ildə Q.V.Plexanov adına Moskva Xalq Təsərrüfatı İnstitutunda "Azərbay can SSR-in pərakəndə mal dövriyyəsi və onun planlaşdırılmasının təkmilləşdirilməsi yolları" mövzusunda namizədlik, 2000-ci ildə T.Şevçenko adına Kiyev Milli Universitetinin Beynəlxalq Münasibətlər İnstitutunda "Azərbaycanın xarici iqtisadi strategiyasının formalaşması və inkişafı" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş və həmin ildə "Dünya təsərrüfatı və beynəlxalq iqtisadi münasibətlər" ixtisası üzrə respublikada ilk iqtisad elmləri doktoru alimlik dərəcəsini almışdır.

1992-ci ildə dosent, 2004-cü ildə isə professor elmi adını almışdır. 150-dən çox elmi əsərin müəllifidir. Onun elmi rəhbərliyi ilə 14 iqtisad elmləri namizədi, 3 elmlər doktoru hazırlanmışdır. Hazırda 7-dən çox doktorant və dissertantın elmi rəhbəri və 5 doktorluq dissertasiya işinin elmi məsləhətçisidir.

2004-cü ildə ADİU-nun "Beynəlxalq iqtisadi münasibətlər" kafedrasının müdiri, i.e.d., professor Ş. Hacıyev İqtisad Universitetinə rektor təyin olunmuş və bu vəzifədə 2014-cü ilin mart ayına kimi işləmişdir.

2005-2010-cu illərdə keçirilmiş III və IV çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə 89 saylı Göyçay-Ağdaş seçki dairəsindən deputat seçilmişdir. Hər iki çağırışda Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri seçilmişdir. Azərbaycan-Slovakiya Parlamentlərarası Əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Almaniya Federativ

Respublikası, Azərbaycan-İran, Azərbaycan-Ukrayna Parlamentlərarası Əlaqələr üzrə işçi qruplarının üzvüdür.



**i.e.d., prof. İslam Şamil oğlu Qarayev** 1940-cı ildə anadan olmuşdur. 1966-cı ildə namizədlik, 1983-cü ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. 1985-ci ildən pro fessordur. 1968-1977-ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi-Tədqiqat İqtisadiyyat İnstitu tunda bölmə və şöbə müdiri vəzifələrində çalışmışdır. 200 432 dən çox elmi əsərin, o cümlədən 10-dan çox monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin müəllifidir. Ölkədə məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsi üzrə pers pektiv proqnozlaşdırma sahəsində aparılan fundamental tədqiqatların müəlliflərindən biri olmuşdur. 1987-1992-ci illərdə Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun ka fedra müdiri, 1992-1994-cü illərdə Azərbaycan Dövlət İqtisad İnstitutunun prorektoru, 1994-2000-ci illərdə həmin institutda rektor, daha sonralar kafedra müdiri vəzifələrini icra etmişdi.

2015-ci ilin oktyabrında Bakı şəhərində vəfat edib.



**i.e.d., prof. Sultan Abbas oğlu Mirzəyev** Moskvada Timirzayev adına Kənd Təsərrüfatı Akademiya sının aspirantı olmuş və orada dissertasiya müdafiə edərək respublikamızda ilk iqtisad elmləri namizədi alimlik dərəcəsi alanlardan biri olmuşdur. 1964-cü ildə doktorluq dissertasi yası müdafiə etmişdir. Kənd təsərrüfatının ixtisaslaşmasının nəzəri-metodoloji problemlərini öyrənən ilk iqtisadçı alimlərdəndir. 1950-1962-ci illərdə sovxozlar naziri, Azərbaycan KP MK-nın şöbə müdiri və Azərbaycan KP MK-nın katibi vəzifə lərində çalışmışdır. Həmin dövrdə iki çağırış Azərbaycan SSR Ali Sovetinin və bir çağırış SSRİ Ali Sovetinin deputatı olmuşdur. 1963-1973-cü illərdə Az.ETKTİ və Tİ-nin direktoru vəzifəsində işləmiş və aqrar iqtisadiyyat üzrə elmi kadrların hazırlanmasında fəal iştirak etmişdir. 1976-1991 ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda baş elmi işçi vəzifəsində çalışmışdır.

S. Mirzəyev 1993-cü ildə vəfat etmişdir.



**i.e.d., prof. Vahid Tapdıq oğlu Novruzov** 1950-ci il yanvarın 7-də Qərbi Azərbaycanın Allahverdi rayonunda müəllim ailəsində anadan olmuşdur. 1964-cü ildə ailəsi ilə birlikdə Bakı şəhərinə köçmüşdür.1996-cı ildə Bakı şəhərindəki 31 nömrəli orta məktəbi bitirmiş və həmin il Azərbaycan Dövlət Universitetinə daxil olmuşdur. 1971-ci ildə Azərbaycan Dövlət Universitetini, 1999-cu ildə Bakı Asiya Universitetini bitirmişdir. 1978-ci ildə Q.V. Plexanov adına Moskva Xalq Təsərrüfatı İnstitutunda "Xidmət sferasının maddi-texniki təchizatının planlaşdırılmasının normativ bazasının təkmilləş dirilməsi" mövzusunda namizədlik dissertasiyası, 1990-cı ildə isə həmin institutda "Müttəfiq respublikalarda sosial-məişət infrastrukturunun inkişaf problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

1972-1992-ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda laborant, iqtisadçı, kiçik elmi işçi, bölmə müdiri və şöbə müdiri vəzifələrində çalışmışdır. 1979-1981-ci illərdə Əhaliyə Məişət Xidməti Nazirliyi yanında Layihə-Konstruktor Texnologiya İnstitutunda elmi işlər üzrə direktor 433 müavini vəzifəsində, 1992-1996-cı illərdə Azərbaycan Respublikası Milli Məclisi Aparatının İqtisadi qanunvericilik şöbəsində bölmə müdiri, şöbə müdirinin müavini, şöbə müdiri vəzifələrində çalışmışdır.

1996-cı il aprelin 5-dən indiyə kimi Azərbaycan Respublikası Auditorlar Palatasının Sədri vəzifəsində işləyir. Auditorlar Palatasında idarəetmə orqanı olan Şuranın sədridir. Professor V.Novruzov Beynəlxalq Daxili Auditorlar İnstitutunun ölkəmizdə yaradılmış bölməsinin – Azərbaycan Daxili Auditorlar İnstitutunun Prezidentidir. İşlədiyi müddət ərzində onun rəhbərliyi və iştirakı ilə Azərbaycanda audit sisteminin inkişafına və tənzimlən məsinə dair bir sıra xüsusi ədəbiyyat, metodik göstəriş, tövsiyə və standartlar işlənib hazırlanmış və audit praktikasında tətbiq edilməkdədir. Bunlara misal olaraq "Auditin əsa sları", "Audit (izahlı lüğət)", "Audit. Qanunvericilik və normativ sənədlər" toplusunu, "Au dit" tədris vəsaitini, "Daxili audit" tədris-praktika vəsaitini, 30-dan artıq normativ sənədi göstərmək olar.

100-dən artıq elmi əsərin müəllifidir. 2000-ci ildə professor elmi adı almışdır. Azərbaycan Dövlət Neft Akademiyasında kafedra müdiri olmuşdur. Audit və bazar iqtisadiyyatı infrastrukturunun problemləri üzrə dissertant və magistrantlara elmi rəhbərlik edir.



**i.e.d. Elman Sirac oğlu Rüstəmov** 1952-ci il iyun ayının 29-da Cəbrayıl rayonunda anadan olmuşdur. 1973-cü ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun “Xalq təsərrüfatının planlaşdırılması” ixtisasını fərqlənmə diplomu ilə bitirmişdir. 1973-cü ildə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda iqtisadçı vəzifəsinə işə qəbul olun muşdur. 1974-cü ildən 1975-ci ilədək həqiqi hərbi xidmətdə olmuşdur. 1975-1978-ci illərdə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun aspiranturasında təhsilini davam etdirmişdir. 1986-cı ildə iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. 1990-1992-ci illər Moskva şəhərində doktoranturada təhsilini davam etdirmişdir. 1978-1979-cu illərdə Azərbaycan SSR Yün gül Sənaye Nazirliyinin Bakı Zərif-Mahud istehsalat birliyində Plan-istehsalat idarəsinin rəisi vəzifəsinə təyin olunmuşdur.

1979-1980-ci illərdə Yüngül Sənaye Nazirliyinin Plan iqtisad şöbəsinin rəis müavini vəzifəsində işləmişdir. 1980-1990-cı illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda böyük iqtisadçı, şöbə müdiri vəzifələrində çalışmış, 1991 -1992-ci illərdə Azərbaycan Respublikası Prezident Aparatında böyük məsləhətçi, 1992-ci ildən Dünya Bankının Azərbaycan üzrə sədridir. 1992-ci ildə Azərbaycan Respublikası Milli Bankı İdarə Heyəti sədrinin birinci müavini, 1995-ci ilin yanvarında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Azərbaycan Respublikası Milli Bankı İdarə Heyətinin Sədri vəzifəsinə təyin edilmiş, 2000-ci ilin aprelində ikinci dəfə, 2005-ci ilin aprelində üçüncü dəfə, 2010-cu ilin aprelində dördüncü dəfə növbəti 5 il müddətinə bu vəzifəyə təyin edilmişdir. 2007-ci ildən Azərbaycan Şahmat Federasiyasının sədridir. 2010-cu ildən 2022-ci ilədək Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Sədri vəzifəsində çalışmışdır. Azərbaycan Respublikasının baş naziri Əli Əsədovun 13 aprel 2022-ci il tarixli sərəncamı ilə Elman Rüstəmov baş nazirin müşaviri vəzifəsinə təyin olunmuşdur. 2011-ci ildə M.Lomonosov adına Moskva Dövlət Universitetində Dünya İqtisadiyyatı ixtisası üzrə iqtisad elmləri doktoru elmi dərəcəsi almışdır. 2012-ci ilin fevral ayında Azərbaycan Respublikasında bank işinin inkişaf etdirilməsindəki xidmətinə görə“Şöhrət” ordeni ilə təltif edilmişdir.



**i.e.d., prof. Sadıq Vəli oğlu Salahov** 1946-cı ildə Naxçıvan MR Şərur rayonunda anadan olmuşdur. 1963-cü ildə orta məktəbi bitirdikdən sonra Politexnik İnstitutuna daxil olmuş və 1968-ci ildə həmin institutu bitirərək "mühəndis-texnoloq" ixtisası almışdır.

1968-1970-ci illərdə respublika Pambıqtəmizləmə Səna yesi Nazirliyi müəssisələrində çalışmış və "Rəşadətli əməyə görə" Yubiley Medalı ilə təltif olunmuşdur.

1970-1971-ci illərdə Politexnik İnstitutunda müəllim işlə miş, 1971-1972-ci illərdə hərbi xidmətdə olmuş və 1972- 1977 ci illərdə əmək fəaliyyətini Azərbaycan SSR Dövlət Plan Komitəsi

yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunun Hesablama Mərkəzinin "Plan hesabatlarının avtomatlaşdırılması (ASPR)" şöbəsində mühəndis-iqtisadçı, elmi işçi, sonra isə bölmə müdiri vəzifələrində davam etdirmişdir.

1977-1983-cü illərdə Respublika Yüngül Sənaye Nazirliyi «Azərpambıqsənaye» İstehsalat Birliyində şöbə müdiri, 1983-1984-cü illərdə isə Azərbaycan Respublikası Nazirlər Sovetinin "Yüngül Sənaye" şöbəsində böyük referent vəzifəsində çalışmışdır.

1984-1988-ci illərdə Respublika Pambıqtəmizləmə Sənayesi Nazirinin müavini, nazirlik "Azərpambıqsənaye" İstehsalat Birliyinə çevrildikdən sonra isə Birliyin Baş direktor müavini vəzifələrində işləmişdir.

S.V.Salahov 1988-ci ilin mart ayından Kənd Təsərrüfatı Nazirliyi Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutuna (Az.ETKTİ və Tİ) köçürülmüş və 1992-ci ilin sonunadək burada elmi işçi, şöbə müdiri olmuşdur.

1990-cı ildə o, iqtisad elmləri namizədi və 2006-cı ildə iqtisad elmləri doktoru elmi dərəcəsi, 2007-ci ildə isə professor elmi adı almışdır.

O, 1992-ci ildə yenidən Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinə işə dəvət edilmiş və burada (1992-2000-ci illər ərzində) "Pambıq Emalı" idarəsinin rəisi və "Xarici İqtisadi Əlaqələr Birliyinin" Baş direktoru olmuş və 2001-ci ilin fevral ayında isə Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun direktoru vəzifəsində çalışmışdır.



**i.e.n. Azər Xəlil oğlu Axundov** 1945-ci il 10 iyul tarixində Bakı şəhərində anadan olmuşdur. 1968-ci ildə Azərbaycan Politexnik İnstitutunu bitirmiş, mühəndis-texnoloq ixtisası almışdır. Sonrakı illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda mühəndis-iqtisadçı, kiçik elmi işçi vəzifəsində işləmişdir. 1971-1974-cü illər də həmin institutda əyani aspirant olmuşdur. 1975-ci ildə "Azərbaycan SSR Yüngül sənayesinin sahə quruluşunun tək milləşdirilməsi məsələləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Daha sonra institutda "Xalq istehlakı malları sənaye sahələrinin kompleks inkişafı" şöbəsində bölmə müdiri vəzifəsində işləmişdir. 1976-1986-ci illərdə Azərbaycan KP MK-da təlimatçı, şöbə müdirinin müavini, şöbə müdiri, 1986-1987-ci illərdə Azərbaycan SSR Həmkarlar İttifaqı Şurasının katibi, 1987-1991-ci illərdə yenidən Azərbaycan KP MK-da şöbə müdiri, sonra isə Katibliyin yanında müşavir vəzifəsində işləmişdir. 1991-ci ilin noyabr ayından Azərbaycan Respublikası Ali Sovetində iqtisadi inkişaf məsələləri şöbəsində baş mütəxəssis, 1993-cü ildə Katibliyin Daimi Komissiyalar şöbəsində katib, 2007-ci il təqaüdə çıxanadək həmin şöbədə baş məsləhətçi vəzifəsində işləmişdir. 1980-ci ildə "Əmək rəşadətinə görə" medalı ilə təltif edilmişdir.



**i.e.n., b.e.i. Əmirxan Mehralı oğlu Babaşov** 1947-ci il fevral ayının 5-də Gürcüstan SSR Bolnisi rayonunun Faxralı (indiki Talaveri) kəndində kəndli ailəsində anadan olmuşdur. 1965-ci ildə XI sinfi bitirmiş və S.M. Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Uni versiteti) iqtisad fakültəsinə daxil olmuşdur. 1966-cı ildə həmin fakültə yeni təşkil edilmiş D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna verilmiş və 1969-cu ildə həmin İnstitutun Əmtəəşünaslıq və Ticarətin təşkili fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

Azərbaycan SSR Dövlət Plan Komitəsi (indiki İqtisadiyyat və Sənaye Nazirliyi) yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunun (ETİİ) (indiki İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu) direktoru, Azərbaycanın görkəmli iqtisadçı alimi, iqtisad elmləri doktoru, professor M.M.Allahverdiyev Ə.Babaşovla elə ilk söhbətdən sonra onun elmi-tədqiqat işinə olan həvəsini nəzərə alıb, təyinatını dəyişdirib İnstituta gətirmiş və kiçik elmi işçi vəzifəsinə işə qəbul etmişdir.

Ə.Babaşov 1972-ci il may ayında həqiqi hərbi xidmətdən qayıtdıqdan sonra ETİİ-də əyani aspiranturaya daxil olmuş və Moskva şəhərində SSRİ Dövlət Plan Komitəsi yanında İqtisadiyyat Elmi Tədqiqat İnstitutuna ezam olunmuşdur. “Azərbaycan SSR əhalisinin sosial qruplarının həyat səviyyəsinin yaxınlaşdırılması problemləri (iq tisadi təhlil və planlaşdırma məsələləri)” mövzusunda namizədlik dissertasiyası mü 436 dafiə etmiş, iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. Ə.Babaşov aspirantu ranı bitirdikdən sonra Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında ETİİ-yə qayıt mışdır.1991-ci ildə SSRİ Ali Attestasiya Komissiyası ona baş elmi işçi (dosent) attes tatı vermişdir. O, 1994-cü ilin may ayına kimi həmin İnstitutda kiçik elmi işçi, baş elmi işçi, bölmə müdiri və şöbə müdiri vəzifələrində işləmişdir.

Ə.Babaşov ETİİ-də yerinə yetirilən “1976-1990-cı illərdə Azərbaycan SSR-də məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsinin əsas istiqamətləri” (Bakı, 1978), “2000-ci ilə qədər Azərbaycan SSR-nin məhsuldar qüvvələrinin inkişafı və yerləşdirilməsi sxemi” (Bakı, 1982), “1985-2005-ci illərdə Azərbaycan SSR-də elmi-texniki tərəqqinin kompleks proqramı” (Moskva, 1983) və “1990-2005-ci illərdə Azərbaycan SSR-də məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsinin Baş sxemi” (3 cilddə) kimi fundamental sənədlərin müəllifləri sırasında olmuşdur.

Ə.Babaşov 1994-cü il may ayında Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət daimi komissiyasının eksperti vəzifəsinə, 1994-cü ilin noyabr ayından Milli Məclis Aparatının Mülki hüquq və İqtisadi qanunvericilik şöbəsində böyük məslə hətçi və 1996-cı ilin aprel ayından bugünə kimi Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsində baş məsləhətçi vəzifəsində işləyir. Dövlət qulluğunun baş müşaviridir. Ə.Babaşov 2008-ci ildə “Dövlət qulluğunda fərqlənməyə görə medalı” ilə təltif edilmişdir. Ə.Babaşov Milli Məclisdə işlədiyi 21 il ərzində iqtisadi və aqrar qanunvericilik bazasının yaradılmasında fəal iştirak edir, işçi qrupuna rəhbərlik edir. O, 60-a yaxın elmi məqalənin və altı kitabın müəllifidir. Ə.Babaşov elmi iş və iqtisadi qanunvericilik bazasının yaradılması ilə yanaşı AzMİU-da pedaqoji fəaliyyətlə də məşğul olur.



**i.e.n., b.e.i. Rafiq Seyid oğlu Babayev** 1944-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1961-ci ildə S.Kirov adı na Azərbaycan Dövlət Universitetinə daxil olub. 1966-cı ildə yeni təşkil edilmiş D.Bünyatzadə adına Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. 1981-ci ildən iqtisad elmləri namizə didir. 1966-cı ilin iyun ayından 1988-ci ilin may ayınadək Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqi qat İqtisadiyyat İnstitutunda iqtisadçı, baş iqtisadçı, elmi ka tib, bölmə müdiri vəzifələrində çalışmışdır. 1988-1990-cı il lərdə Azərbaycan KP MK-da məsləhətçi, bölmə müdiri, 1990-1996-cı illərdə Azərbaycan Respublikası Yerli Sənaye Nazirin müavini, 1997-1999-cu illərdə Azərsənaye Dövlət Tikinti Şirkətində idarə rəisi, 1999-2001-ci illərdə Azərbaycan Respublikası Dövlət Antiinhisar Siyasəti və Sahib karlığa Kömək Komitəsində bölmə müdiri və Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunda baş məsləhətçi vəzifəsində çalışıb.



**i.e.n., dosent Veysəl Rəsul oğlu Əfəndiyev** 1952-ci ildə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunu bitirdikdən sonra Azərbaycan Pambıq Tədarükü və Emalı idarəsində iqtisadçı, baş iqtisadçı işləmişdir. 1953-cü ildə Moskva İqtisad-Statistika İnstitutu yanında aspirantura ya daxil olmuş, 1959-cu ildə iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. 1957-ci ildə Azərbaycan SSR Nazirlər Kabineti yanında Plan Komitəsində iqtisadçı vəzifəsində işləmişdir. Həmin il o, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində Kənd Təsərrüfatı şöbəsinin təlimatçısı olmuşdur. 1959-1961-ci illərdə Azərbaycan KP-nın Balakən rayon Partiya Komitəsinin Birinci katibi olmuşdur. Sonrakı illərdə o, Azərbaycan Politexnik İnstitutunun siyasi iqtisad kafedrasının dosenti, Azərbaycan Elmi Araşdırmalar şöbəsinin müdiri, 1964-1969-cu illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda “Əməyin iqtisadiyyatı və həyat səviyyəsi” şöbəsinin müdiri, 1969-cu ildən Bakı Ali Partiya məktəbinin Siyasi iqtisadi kafedrasının dosenti olmuşdur. 1971-ci ildən ömrünün sonunadək V.Əfəndiyev yenidən Azərbaycan KP MK-da Kənd Təsərrüfatı şöbəsinin müdiri vəzifəsində çalışmışdır. “Qırmızı Əmək Bayrağı” ordeni və “Şərəf Nişanı” ilə təltif edilmişdir.

V.Əfəndiyev 1979-cu ildə vəfat edib.



**i.e.n., dosent Adilə Ağarza qızı Hüseynova (Vəliyeva)** 1938-ci il oktyabr ayının 15-də Bakı şəhərində anadan olmuşdur. 18 saylı orta məktəbi bitirdikdən sonra K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun maliyyə-kredit fakültəsinə daxil olmuş, fakültə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinə (indiki Bakı Dövlət Universiteti) verildiyinə görə oranı bitirmişdir. Bir müddət Dövlət Statistika İdarəsində iqtisadçı, Azərbaycan SSR Tikinti Nazirliyinin Dəmir-Beton Trestində baş iqtisadçı vəzifələrində çalışmışdır. 1965-1967-ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda kiçik elmi işçi, Azərbaycan Politexnik İnstitutunda (indiki Azərbaycan Texniki Universiteti) müəllim vəzifələrində işləmişdir.

A.Hüseynova Moskva şəhərində SSRİ Dövlət Tikinti Komitəsinin Elmi-Tədqiqat İqtisadi İnşaat İnstitutunda əyani aspiranturaya daxil olmuş, aspiranturanı bitirdikdən sonra dissertasiya müdafiə etmiş və iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

O, Azərbaycan SSR Tikinti Nazirliyinin Dəmir-Beton Trestində iqtisadiyyat üzrə müdir müavini vəzifəsinə təyin edilmişdir. A.Hüseynovanın dəmir-beton məmulatlarının hazırlanmasında, dəmir-beton zavodlarının inkişafında, yenidən qurulmasında, rekonstruksiyasında, büdcədənkənar vəsaitlərin alınmasında da mühüm rolu olmuşdur.

A.Hüseynova 1979-cu ildə İnşaat Tikinti İnstitutunda baş müəllim vəzifəsinə keçmişdir. O, 1983-cü ildən 1991-ci ilə kimi Bakı Şəhər Xalq Deputatlar Sovetinin İcraiyyə Komitəsində sədr müavini vəzifəsində işləmiş, bu müddət ərzində müxtəlif ictimai obyektlərin tikilməsi, bərpası və yenidən istismara verilməsində çox böyük rol oynamışdır.

1991-ci ildən 2006-cı ilə kimi Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi qanunvericilik şöbəsinin bölmə müdiri, baş məsləhətçisi vəzifələrində çalışmış, müxtəlif qanun layihələrinin hazırlanmasında iştirak etmişdir. O, Respublika, ümumdünya və ümumittifaq forumlarında çıxışlar etmiş, ictimai və siyasi fəaliyyət göstərmişdir.

Adilə Hüseynova öz bilik və bacarığı ilə gənc kadrların hazırlanmasında aktiv iştirak etmişdir. O, 25 ildən çoxdur ki, ali məktəbdə bakalavr və magistrantlara iqtisadiyyatdan mühazirə oxuyur. Hazırda Azərbaycan Memarlıq və İnşaat Universitetinin Tikintinin təşkili və idarəedilməsi kafedrasında dosent vəzifəsində çalışır. O, bir kitabın həm müəllifi, Azərbaycanda və xaricdə çap olunan 20-dən çox elmi məqalənin müəllifi olmaqla yanaşı ixtisas üzrə dərs proqramlarının hazırlanmasında aktiv iştirak edir.



**i.e.n., dosent Firudin İsa oğlu Qurbanov** 1952-ci il avqust ayının 29-da Ağsu rayonunda anadan olmuş, 1974-cü ildə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun İqtisadiyyat və planlaşdırma fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1974-1982-ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda iqtisadçı, kiçik elmi işçi, baş elmi işçi vəzifələrində çalışmış, 1982-1989-cu illərdə Moskva Kooperativ İnstitutunun Bakı filialında assistent, baş müəllim, dosent, dekan, 1989 1994-cü illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Dövlət İnspeksiyasında müfəttiş, aparıcı müfəttiş, baş müfəttiş, şöbə müdiri, eyni zamanda Azərbaycan Dövlət İqtisad Universitetində dosent vəzifəsində fəaliyyət göstərmişdir. 1994-2007-ci illərdə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyində Elm və təhsil şöbəsinin müdiri işləmiş, 2007-2014-cü illərdə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Aparat rəhbəri vəzifəsində çalışmış, 2014-cü ilin iyul ayında Azərbaycan Respublikası Təhsil nazirinin müavini təyin edilmişdir.

1998-ci ildə Təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının nəzdində işçi qrupunun üzvü olmuşdur. 2001-2008-ci illərdə Milli Olimpiya Komitəsinin üzvü seçilmişdir. 2007-ci ildən Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti sahəsində İşçi Qrupunun tərkibinə daxil edilmişdir. 2010-cu ildən "Mədəniyyət haqqında" Qanun layihəsinin hazırlanması ilə əlaqədar komissiyanın üzvüdür. Bir monoqrafiya, 50-dən çox elmi əsərin müəllifidir. Dövlət qulluğunun baş müşaviridir. 25 iyun 2011-ci ildə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunmuşdur.



**i.e.n., baş elmi işçi Eldar Sirac oğlu Nuriyev** 1936-cı il may ayının 16-da Bakı şəhərində müəllim ailəsində anadan olmuşdur. 1961-ci ildə Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsini bitirmişdir. 1972-1986-cı illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda baş elmi işçi, bölmə və şöbə müdiri, 1986-1988-ci illərdə direktor müavini vəzifələrində çalışmışdır. 1975-ci ildə Moskvada Dövlət Tikinti Komitəsinin Elmi-Tədqiqat Tikintinin İqtisadiyyatı İnstitutunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1988-1991-ci illər də Azərbaycan Respublikası Tikinti Materialları Sənayesi Nazirliyində nazir müavini, 1991-1998-ci illərdə "Azərsənayetikintimaterialları" Dövlət Konserninin vitse-prezidenti, 1998-2000-ci illərdə Satınalmalar üzrə Dövlət agentliyində şöbə müdiri, 2001-2008-ci illərdə Ərazilərin bərpası və Yenidən Qurulması üzrə Agentlikdə menecer, 2008-2011-ci illərdə Dövlət Şəhərsalma və Arxitektura Komi təsində şöbə müdiri vəzifələrində

çalışmışdır. 2011-ci ildən dövlət təqaüdündədir. 2012-ci ildən isə Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun Tikintidə texniki normativlərin işlənməsi şöbəsinin müdiridir.



**i.e.n., dosent Mail Səməd oğlu Rəhimov** 1966-cı il sentyabrın 13-dən 1986-cı il fevralın 15-nə kimi Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda iqtisadçı, kiçik elmi işçi, baş elmi işçi, sektor müdiri, şöbə müdiri vəzifələrində işləmişdir. M.Rəhimov 1975-ci ildə "Zaqafqaziya rayonunda sahələrarası və respublikalararası əlaqələrin iqtisadi-riyazi tədqiqi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. "Zaqafqaziya respublikalarının sahələrarası balanslarının göstəricilərinin tədqiqi (Metodika və praktika)" (1972), "Azərbaycan Respublikasının iqtisadi inkişafını tənzimləyən qanunlar" (1966), "Beynəlxalq maliyyə" (2000) kimi kitabların və 90-dan çox elmi məqalənin müəllifidir. 1991-ci ildə Azərbaycan Respublikasının Prezidentinin Administrasiyasında İqtisadiyyatın idarə edilməsinin təşkili şöbəsinin müdiri təyin edilmişdir. 1993-cü ildə bir müddət Azərbaycan Respublikası Milli Bankında idarə rəisi, həmin ilin sonundan isə Azərbaycan Respublikasının Prezidentinin Administrasiyasında təşkil edilən İqtisadi siyasət məsələləri şöbəsində baş məsləhətçi və 1996-cı ildən bugünə kimi şöbə müdiri vəzifəsində çalışır.



**Vaqif Eyyub oğlu Axundov** 1945-ci ildə anadan olmuşdur. 1972-1975 ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda "Demoqrafiya və əmək problemləri" şöbəsində kiçik elmi işçi, böyük elmi işçi, "Mənzil-kommunal təsərrüfatı və məişət xidməti" şöbəsində sektor müdiri vəzifələrində işləmişdir. 1975-1984-cü illərdə Bakı Şəhər Xalq Deputatları Soveti İcraiyyə Komitəsində Şəhər Plan Komissiyası şöbəsinin müdiri, sonralar isə sədri, Bakı Şəhər İcraiyyə Komitəsinin sədr müavini, 1984-1990-cı illərdə Azərbaycan SSR Məişət Xidməti Nazirin Birinci müavini, 1990-1994-cü illərdə Azərbaycan SSR Yüngül Sənaye Nazirin Birinci müavini, 1994-2000-ci illərdə Rusiya Federasiyasının Moskva şəhərində Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfirliyində Məsləhətçi-diplomatik nümayəndə-səfirin birinci müavini olmuşdur. SSSR Ali Sovetinin Rəyasət Heyətinin Sərəncamı ilə "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif olunmuşdur.

V.Axundov 2000-ci ildə vəfat edib.



**Əmircan Yunis oğlu Əmircanov** 1938-ci ildə Borçalı mahalının Qaçağan kəndində ziyalı ailəsində anadan olmuşdur. 1956-cı ildə Qaçağan orta məktəbini bitirmiş, 1957 1960 həqiqi hərbi xidmətdə qulluq etmiş, hərbi xidmətdən təxris olunduqdan sonra 1960-cı ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) iqtisad fakültəsinə qəbul olmuşdur. 1966-cı ildə Bakı Ali Partiya məktəbinə müəllim, 1967-ci ildən 1977-ci ilə kimi Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda iqtisadçı, bölmə müdiri, şöbə müdiri vəzifələrində çalışmışdır. 1977-1994-cü illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsində Ümumi şöbənin müdiri və Dövlət plan Komitəsinin Kollegiyanın üzvü olmuşdur. 1994-cı ildən ömrünün sonuna kimi Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini vəzifəsində işləmişdir. 1986-cı ildə əməkdə qazandığı nailiyyətlərə görə "Əmək şücaəti" ordeni, 1989-cu ildə "Əmək veteranı" medalı ilə təltif edilmiş və 1991-ci ildə o, "Azərbaycan Respublikasının Əməkdar iqtisadçısı" kimi yüksək ada layiq görülmüşdür.

Ə.Əmircanov 1996-ci ildə vəfat edib.



**İlyas Bahadur oğlu Hacıyev** 1950-ci ildə anadan olub. 1974-cü ilin fevralından 1975-ci ilin dekabrınadək Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnsti tutunda "Demoqrafiya və əmək şöbəsi"ndə kiçik elmi işçi vəzifəsində çalışmışdır. 1975-ci ildə Moskvada SSRİ Dövlət Plan Komitəsinin "Məhsuldar Qüvvələrin Öyrənilməsi üzrə Şura"nın aspiranturaya daxil olmuşdur. 1977-1979-cu illərdə Azərbaycan Baş Dövlət Təchizatı İdarəsində şöbə müdiri, 1979-cu ildən Azərbaycan SSR Nazirlər Sovetinin İşlər İda rəsinin baş referenti, 1980-ci ildən Azərbaycan SSR Nazirlər Soveti Sədrinin müavinin köməkçisi, 1987-ci ildən Azərbay can KP MK-da Ticarət və Məişət Xidməti şöbəsində təlimatçı, 1989-cu ildən Azərbay can KP MK-da Sosial-iqtisadi şöbədə instruktor, 1990-cı ildə Azərbaycan SSR Nazirlər Kabinetinin İşlər İdarəsinin müavini vəzifəsində, 1993-cü ildən Azərbaycan Respublikası Nazirlər Kabineti Ümumi şöbənin müdiri, İşlər müdirinin birinci müavini, 1993 1994-cü illərdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər müdiri vəzifələrində çalışmışdır.

İ. Hacıyev 2011-ci ildə vəfat edib.



**Elman Məmməd oğlu Hüseynov** 1937-ci ildə Şuşa şəhərində anadan olmuşdur. 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin İqtisad fakültəsini bitirmiş, AMEA-nın İqtisadiyyat İnstitutunda əmək fəaliyyətinə başlamışdır. 1968-ci ildən Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda qrup rəhbəri, bölmə müdiri vəzifələrində çalışmışdır. "Məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsi Sxemləri"nin iştirakçısı olmuşdur. 1981-ci ildə Dövlət Plan Komitəsində baş mütəxəssis, şöbə müdirinin müavini, şöbə müdiri vəzifələrində çalışmışdır. 1991-ci ildə Dövlət Əmək və Sosial Məsələlər Komitəsi sədrinin müavini vəzifəsinə təyin edilmişdir. 1996-1997-ci illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Baş Məşğulluq İdarəsi rəisinin birinci müavini vəzifəsində fəaliyyət göstərmişdir. O, "Əhalinin məşğulluğu haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinin hazırlanmasında və layihənin Milli Məclisdə müzakirəsində iştirak etmişdir. Qanun qəbul edildikdən sonra ölkəmizdə yaranmış Məşğulluq xidmətinin ilk rəhbəri olmuşdur. Elman Hüseynov 1991-ci ildən Azərbaycan Respublikasının "Əməkdar iqtisadçısı", "Əmək veteranı" və Dövlət təqaüdçüsüdür.

## 5.2.İQTİSAD ELMLƏRİ DOKTORLARI



**i.e.d., prof. Alıcan Bayraməli oğlu Abbasov** 1940-ci ildə İsmayıllı rayonunun Ticran kəndində anadan olmuşdur. 1967-1983-cü illərdə Azərbaycan SSR Dövlət Plan Komitə si yanında Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda sektor və şöbə müdiri vəzifələrində çalışmışdır. 1983-1993-cü illərdə Azərbaycan Texnologiya İnstitutunda kafedra müdiri işlə mişdir. 1986-cı ildə Moskva şəhərində "Aqrar-sənaye kompleksi sistemində yeyinti sənayesinin inkişafının pers pektiv planlaşdırılması problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş və 1988-ci ildə SSRİ Dövlət Xalq Təhsili Komitəsi professor elmi adını təsdiq etmişdir. 1993-cü ildən Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "Sənayenin iqtisadiyyatı" kafedrasının professoru və"Biznesin idarə edilməsi" kafedrasının müdiri vəzifələrində işləmişdir. Hazırda UNEC-in "Biznesin idarə edilməsi" kafedrasının məsləhətçi-professorudur. 2006-cı ildə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür.



**i.e.d., prof. Maksim Abramoviç Abramov** 1970-1992 ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda sektor və şöbə müdiri vəzifələrində çalışmışdır. 1992-ci ildən Azərbaycan Dövlət Universitetində "İqtisadi Coğrafiya" kafedrasının professoru vəzifəsində işləmiş, sonralar İsrailə köçmüş və orada vəfat etmişdir.



**i.e.d., prof. Fikrət Salam oğlu Adıgözəlov** 1943-cü ildə Qubadlı rayonunda anadan olub. 1976-cı ildə Azərbaycan Elmlər Akademiyası İqtisadiyyat İnstitutunda, Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda işləmiş, 1990-cı ildə "Aqrar sənaye istehsalında su resurslarından istifadənin effektivliyi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1983-2007-ci illərdə Azərbaycan Memarlıq və İnşaat Mühəndisləri Universitetində (indiki Azərbaycan Memarlıq və İnşaat Universiteti) dosent, kafedra müdiri, professor kimi fəaliyyət göstərmişdir.

F.Adıgözəlov 2007-ci ildə Bakıda vəfat edib.



**i.e.d., prof. Sultanağa Höcət oğlu Ağayev** 1967-1973-cü illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda bölmə müdiri, 1971-1973-cü illərdə İranın İsfahan şəhərində Metallurgiya zavodunda Plan şöbəsinin rəisi, 1973 1977-ci illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda dosent olub.

1975-1977-ci illərdə M.Qubkin adına Moskva Neft İnstitutunun doktoranturasında oxumuş, 1979-cu ildə doktorluq dissertasiyası müdafiə edib.

1981-1982-ci illərdə Əfqanıstanda Kabul Universitetində İqtisadiyyat kafedrası nın müdiri, 1982-2000-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunda, 2000-2005-ci illərdə isə Azərbaycan Dövlət İqtisad Universitetində kafedra müdiri olub.

2005-ci ildən ömrünün sonuna kimi Azərbaycan Dövlət İqtisad Universitetində "Marketinq" kafedrasının professoru vəzifəsində çalışmışdır.

S.Ağayev 2009-cu ildə vəfat edib.



**i.e.d., prof. Məcid Əhməd oğlu Axundov** 1971-1980-ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda kiçik elmi işçi, elmi işçi, baş elmi işçi, 1984-1987-ci illərdə Azərbaycan SSR Təhsil Nazirliyin Ali məktəblər idarəsinin baş metodisti, 1987-1988-ci illərdə Azərbaycan SSR Nazirlər Sovetinin nəzdində Xalq Təsərrüfatının İdarəetmə İnstitutunda elmi-metodiki şöbənin müdiri, 1988-1990-cı ildə S.Orconokidze adına Moskva İdarəetmə Akademiyasının doktorantı olub.

1990-cı ildən ömrünün sonuna kimi Azər baycan Respublikası Nazirlər Kabineti nəzdində Xalq Təsərrüfatını İdarəetmə İnstitutunun Tədris işləri üzrə prorektoru vəzifəsində işləmişdir.

M.Axundov 2008-ci ildə vəfat edib.



**i.e.d., prof. Şəmsəddin Əhməd oğlu Axundov** 1967-1972-ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi-Tədqiqat İqtisadiyyat İnstitutun da baş iqtisadçı, baş mühəndis-iqtisadçı və baş elmi işçi vəzifələrində çalışmışdır. 1972-ci ildən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun "Maddi-texniki təchizatın iqtisadiyyatı, təşkili və planlaşdırılması" kafedrasına müəllim vəzifəsinə təyin olunmuşdur. 1974-cü ildə kafedra müdiri seçilmişdir. ADİU-da kafedranın konsultantı vəzifəsində çalışmışdır.

Ş.Axundov 2013-cü ildə vəfat edib.



**i.e.d., prof. Rauf Mirzə oğlu Cəbiyev** 1935-ci il oktyabr ayının 25-də Bakı şəhərində anadan olmuşdur. 1977 1982-ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda sektor müdiri, 1982-1985-ci illərdə Dövlət Plan Komitəsində şöbə müdiri iş ləmişdir. 1985-1990-cı illərdə doktorluq dissertasiyası ilə əlaqədar yenə də Dövlət Plan Komitəsi nəzdində Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda sektor müdiri vəzifəsində çalışmışdır. 1990-1997-ci illərdə Dövlət İqtisadiyyat İnstitutun da "Sənaye" kafedrasına rəhbərlik eləyib. 1997-ci ildən 2007-ci ilə qədər İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Mərkəzində şöbə müdiri vəzifəsində çalışmışdır. Hazırda Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində olan Elmi İnnovasiyalar Mərkəzində şöbə müdiri vəzifəsində işləyib.

R.Cəbiyev 2024-cü ildə 89 yaşında vəfat edib.



**i.e.d. Arif Aslan oğlu Eminov** 1975-1978-ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda Demoqrafiya şöbəsində iqtisadçı, 1987-ci ildə yenidən bu İnstitutda iqtisadçı vəzifələrində çalışmışdır. Sonralar Azərbaycan Texnologiya İnstitutunun dosenti, ömrünün sonunadək isə Azərbaycan Müəllimlər İnstitutunun Qazax Filialında dosent vəzifəsində işləmişdir. 1993-cü ildə Özbəkistan Respublikasının Daşkənd şəhərində doktorluq dissertasiyasını müdafiə etmişdir. 1999-cu ildə Gürcüstan Biznes Elmlər Akademiyasının həqiqi üzvü, akademiki seçilmişdir.

A.Eminov 2006-cı ildə vəfat edib.



**i.e.d., prof. Əli İslam oğlu Əhmədov** 1956-cı ildə Azərbaycan SSR Dövlət Plan Komitəsinin Kompleks Nəqliyyat Problemləri İnstitutunun aspiranturası na daxil olmuş və orada da namizədlik dissertasiyası müdafiə etmişdir. 1966-1971-ci illərdə Azərbaycan SSR Döv lət Plan Komitəsi yanında Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda elmi işlər üzrə direktor müavini olmuşdur. 1986-cı ildən ömrünün sonunadək respublika Nazirlər Kabineti yanında Azərbaycan Xalq Təsərrüfatını İdarəetmə İnstitutunda və "Azərbaycan" Universitetində işləmişdir.

Ə.Əhmədov 2008-ci ildə vəfat edib.



**i.e.d., prof. İnqilab Vəlibəy oğlu Əlibəyov** 1931-ci il yanvar ayının 22-də Quba şəhərində anadan olmuşdur.

Azərbaycan Dövlət Universitetini bitirərək tarixçi və siyasi iqtisad ixtisaslarına yiyələnmişdir.

1949-1950-ci illərdə Quba Müəllimlər İnstitutunda laborant, 1956-1957-ci illərdə Azər baycan Dövlət Universitetində baş laborant vəzifələrində çalışmışdır.

1958-1961-ci illərdə SSRİ EA Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunun aspiranturasında təhsil almışdır.

1961-ci ildən hal-hazıradək AMEA Şərqşünaslıq İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi, elmi işlər üzrə direktor müavini, şöbə müdiri, baş elmi işçi vəzifələrində işləmişdir. 120-dən çox elmi nəşrin müəllifidir. 2000-2007-ci illər ərzində İqtisadi İslahatlar Mərkəzində (2007-ci ildən İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu) baş elmi işçi vəzifəsində də çalışmış və Elmi Şuranın və Elmi-redaksiya Şurasının üzvü olmuşdur.

İ.Əlibəyov 2022-ci ildə 92 yaşında vəfat edib.



**i.e.d., prof. Mehralı Məmməd oğlu Fərzəliyev** 1946-cı il iyun ayının 23-də Bakı şəhərində anadan olub. 1990-1991-ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda şöbə müdiri vəzifəsində işləmişdir. Hazırda Azərbaycan Dövlət Neft Akademiyasında "Yanacaq-enerji kompleksi sahələrinin iqtisadiyyatı və menecment" kafedrasının professoru vəzifəsində işləyib. 2010-cu ildə elm və təhsil sahəsindəki nailiyyətlərinə görə Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür. Hazırda AZMİU-da pedoqoji fəaliyyətlə məşğul olur.



**i.e.d., prof. Yadulla Həmdulla oğlu Həsənli** 1959-cu il mart ayının 7-də Azərbaycanın Saatlı rayonunda anadan olmuşdur.

1981-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Tətbiqi-riyaziyyat və Kibernetika fakültəsini bitirib. 1983-1987-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Kibernetika İnstitutunda aspiranturada oxuyub və 1989-cu ildə „Kənd təsərrüfatı müəsssisələrinin fəaliyyətinin modelləşdirilməsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək iqtisad elmləri namizədi elmi dərəcəsini alıb.

2007-ci ildə "Azərbaycanın sosial iqtisadi inkişafının modelləşirilməsi problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək iqtisad elmləri doktoru alimlik dərəcəsi alıb.Ekonometrika, iqtisadi-riyazi modelləşdirmə sahəsində peşəkar alim kimi tanınır.

125-dən çox elmi əsərin, o cümlədən 2 dərslik, 2 dərs vəsaiti, 3 monoqrafiyanın müəllifidir. 2009-cu ildə İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda Makroiqtisadi modelləşdirmə və strateji planlaşdırma şöbəsində baş elmi işçi, 2010-cu ildə isə Makroiqtisadi tədqiqatlar şöbəsində baş elmi işçi olmuşdur. 2010-2012-ci illərdə İctimai əsaslarla İnstitutun elmi rəhbəri olmuşdur.

Hazırda AMEA-nın Kibernetika İnstitutunda laboratoriya müdiri, BDU-da professor və UNEC-də İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunun direktoru vəzifələrini icra edir.



**i.e.d., prof. Tapdıq Güləhməd oğlu Həsənov**, 23 mart 1937-ci ildə Gürcüstan Respublikası Qardabani rayo nu Təzəkənd kəndində anadan olub. 1968-1969-cu illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda baş iqtisadçı, sektor müdiri vəzifələrində çalışmışdır. 1969-cu il yanvarn 17-dən hazırki dövrədək Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universitetində) assistent, müəllim, professor və kafedra müdiri vəzifələrində işləyir. Azərbaycan Respublikasının "Əməkdar müəllimi" fəxri adına layiq görülmüşdür.



**i.e.d., prof. Şamil Yusif oğlu Xudiyev** (1928-1999) 1964-1968-ci illərdə Azərbaycan Neft-Kimya İnstitutunun (indiki Neft Akademiyası) siyasi iqtisad kafedrasında dosent, 1969-1979-cu illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda şöbə müdiri, 1981-ci ildə Azərbaycan Xalq Təsərrüfat İnstitutunda mühasibat uçotu kafedrasında dosent, 1990-cı il dən ömrünün sonuna kimi Azərbaycan Dövlət İqtisad Universitetində əvvəl "Mühasibat uçotu", daha sonra Mühasibat uçotu və audit" kafedrasının professoru olmuşdur.

Ş.Xudiyev 1999-cu ildə vəfat edib.



**i.e.d., prof. İslam Hacı oğlu İbrahimov** 1948-ci ilin yanvar ayının 19-da Tovuz rayonunun Əlibəyli kəndində anadan olmuşdur. 1970-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) Maliyyə-statistika fakültəsini bitirmiş və Mərkəzi Statistika İdarəsinin Hesablama Mərkəzinə təyinat almışdır. 1972-ci ildə o, D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun aspiranturasına daxil olmuş və 1976-cı ildə dissertasiya müdafiə edərək, iqtisad elmləri namizədi alimlik dərəcəsi, 1996-cı ildə isə dok torluq dissertasiyası müdafiə etmiş və iqtisad elmləri doktoru elmi dərəcəsi almışdır. 1980-ci ildə Ədliyyə Nazirliyinin Elmi Tədqiqat Məhkəmə Ekspertizası İnstitutunda, sonra isə Kənd Təsərrüfatı Nazirliyinin Elmi-Tədqiqat Kənd Təsərrüfatı İqtisadiyyatı və Təşkili İnstitutunda baş elmi işçi vəzifəsində işləməyə başlamış, tezliklə mərkəzi aparatda Baş Plan İqtisad İdarəsinin rəisi vəzifəsinə irəli çəkilmişdir. Həmin nazirlik Aqrar Sənaye Komitəsinə çevrildikdən sonra, yəni 1986-cı ildən Dövlət Aqrar Sənaye

Komitəsində Plan İqtisad İdarəsinin rəis müavini, şöbə rəisi, 1989-cu ilin fevralından isə Baş Plan İqtisad İdarəsində planlaşdırma şöbəsinin rəisi, Baş idarə rəisinin müavini vəzifələrində çalışmışdır. 1994-cü ilin avqustundan 1995-ci ilin sentyabrınadək İ. İbrahimov Kənd təsərrüfatı nazirinin müavini, Baş Aqrar İslahatlar İdarəsində rəis, 2005-ci ildən isə Aqrar islahatlar, kənd ərazilərinin və sahibkarlığın inkişafı şöbəsinin müdiri vəzifəsində işləmişdir. İslam İbrahimov 1998-2006-cı illər ərzində Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (indiki İqtisadiyyat və Sənaye Nazirliyinin) İqtisadi İslahatlar Mərkəzində (indiki İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda) aparıcı elmi işçi və baş elmi işçi kimi fəaliyyət göstərmişdir. 2005-ci ildə BMT-nin Beynəlxalq İnformasiya Akademiyasının həqiqi üzvü seçilmişdir. Azərbaycan Jurnalistlər Birliyinin və Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Hazırda professor İslam İbrahimov Bakı Biznes Universitetində kafedra müdiri vəzifəsində çalışır. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 iyun tarixli sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə medalı" ilə, 2012-ci ilin 31 oktyabr tarixli sərəncamı ilə kənd təsərrüfatının inkişafında xidmətlərinə görə "Əməkdar Kənd Təsərrüfat İşçisi" fəxri adı ilə təltif edilmişdir.



**i.e.d., prof. Hamlet Yəhya oğlu** İsmayılov 1977-1979-cu illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsində şöbə müdiri, 1979-1985-ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda elmi işlər üzrə direktor müavini, 1985-1992 ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi Normativ Tədqiqatlar Bürosunun direktoru olmuşdur. 1989-cu ildə professor elmi adını almşdır. 1993-cü ildən ömrünün sonunadək Azərbaycan Dövlət Neft Akademiyasında kafedra müdiri vəzifəsində çalışmışdır. 2000-ci ildə Respublikanın "Əməkdar elm xadimi" adına layiq görülmüşdür. H.İsmayılov 2005-ci ildə vəfat edib.



**i.e.d., prof. Rüfət Məmməd oğlu Kasumov** 1967 1989-cu illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda kiçik elmi işçi, bölmə müdiri işləmişdir. 1989-2004-cü illərdə İnformasiya və Konsaltinq (Məsləhət) şirkətində, eyni zamanda 1994-1995-ci illərdə Xəzər Universitetində, 1995-1996-cı illərdə Asiya Universitetində çalışmışdır. 1992-ci ildən indiyədək Azərbaycan Dövlət İqtisad Universitetinin professorudur.



**i.e.d. Aftandil Hüseyn oğlu Kosayev** 1967-1973-ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda iqtisadçı, kiçik elmi işçi vəzifəsində çalışmış, 1974-cü ildə Moskvada SSRİ EA-nın İqtisadiyyat İnstitutunda məqsədli aspiranturaya daxil olmuş, vaxtından əvvəl namizədlik dissertasiyasını müdafiə etmiş, Azərbaycanda bir müddət işlədikdən sonra Moskva şəhərinə köçmüş, Moskva EA-nın İqtisad İnstitutunda elmi işçi kimi çalışmışdır. SSRİ EA-nın İqtisadiyyat İnstitutunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1992-ci ildən "LUKoil" neft Şirkətində idarə rəisi, şirkət prezidentinin iqtisad üzrə baş məsləhətçisi və s. vəzifələrində çalışmışdır.

A.Kosayev 2001-ci ildə vəfat edib.



**i.e.d., prof. Şamil Saleh oğlu Qafarov**, 1950-ci ildə Azərbaycan Respublikasının Ağdam rayonunda anadan olmuşdur.1967-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun "Sənayenin iqtisadiyyatı" fakültəsinə daxil olmuşdur. 1971-ci ildə İnstitutu əla qiymətlərlə bitirmiş və təyinatla Bakının ucqarında yerələşən "Vişnyovka" deyilən bağ ərazisində yeni tikilməkdə olan Bakı Maşınqayırma zavoduna iqtisadçı vəzifəsinə göndərilmişdir. 1974-cü ildə müsabiqə yolu ilə Azərbaycan SSR Dövlət Plan Komitəsinin nəzdindəki Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda kiçik elmi işçi vəzifəsinə keçir. 1974-1975-ci illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi-Tədqiqat İqtisadiyyat İnstitutun da elmi işçi vəzifəsində çalışmışdır. 1975-ci ildə Azərbaycan Dövlət Universitetinin "Siyasi iqtisad" ixtisası üzrə aspiranturanın əyani şöbəsinə daxil olur. 1978-ci ilin dekabr ayında Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi tərəfindən təyinatla "Siyasi iqtisad" kafedrasına müəllim vəzifəsinə göndərilmişdir. 1980-ci ildə "İctimai əmək bölgüsü qanunu və inkişaf etmiş sosializmdə onun fəaliyyəti" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1983-cü ildə Azərbaycan Dövlət Universitetində baş müəllim, 1986-cı ildə dosent seçilmişdir. 1998-ciilin iyun ayında isə Bakı Dövlət Universitetinin "İqtisadi nəzəriyyə" kafedrasının müdiri vəzifəsinə seçilmişdir. 1999-cu ildə "Beynəlxalq əmək bölgüsü: formalaşması, dinamikası və strukturu" 24 ç.v. adlı kitabı, elə həmin ildə "İctimai əmək bölgüsü və onun sosial-iqtisadi problemləri" adlı, 25 çap vərəqi həcmində monoqrafiyası çap olunmuşdur. 2001-ci ildə "İctimai əmək bölgüsünün sosial iqtisadi problemləri"mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Ş.Qafarov müstəqil Azərbaycan Respublikasının iqtisadi nəzəriyyə üzrə dissertasiya müdafiə edən ilk iqtisad elmləri doktoru olmuşdur. 2002-ci və 2004-cü illərdə Azərbaycanda onun rəhbərliyi və müəllifliyi ilə "İqtisadi nəzəriyyə" dərsliyi çap olunmuşdur. 2003-cü ilin may ayından Bakı Dövlət Universitetinin professor vəzifəsinə seçilmişdir. 2008-ci ildən Azərbaycan Dövlət İqtisad Universitetində fəaliyyətini

davam etdirmiş, 2010-cu ildə ADİU-nun professoru seçilmişdir. O, Azərbaycanda yeganə iqtisadçı alimdir ki, 1998-2004-cü illərdə 3 dəfə Almaniya Akademik Mübadilə Xidməti Müsabiqəsinin qalibi olmuşdur. Eyni zamanda, Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunun böyük elmi işçisidir. Respublikada doktorluq dissertasiyası üzrə İxtisaslaşdırılmış Şuranın (D.01.181) və Respublika elmi tədqiqatların təşkili və əlaqələndirilməsinin İqtisadiyyat üzrə problem Şurasının üzvüdür.



**i.e.d. Rövşən Rasim oğlu Quliyev** 1957-ci il fevral ayının 14-də Ağdam rayonunda anadan olmuşdur. 1978-ci il də Bakı Dövlət Universitetini bitirərək "riyaziyyatçı" ixtisasına yiyələnmişdir. 1984-cü ildə SSRİ Elmlər Akademiyasının Hesablama Mərkəzində aspiranturanı bitirərək fizika-riyaziyyat ixtisası üzrə namizədlik dissertasiyasını, 2005-ci ildə isə iqtisadiyyat üzrə doktorluq dissertasiyasını müdafiə etmişdir. Rusiya Kənd Təsərrüfatı Elmləri Akademiyasının Kibernetika İnstitutunda (Moskva ş.) kiçik elmi işçi, böyük elmi işçi, sektor müdiri, laboratoriya müdiri (1984-1993) və həmin akademiyanın Aqrar Problemlər və İnformatika İnstitutunda (1993-2000) laboratoriya müdiri və baş elmi işçi vəzifələrində, "Kaskad-M elmi istehsalat birliyi" SC-sə (Moskva ş.) Maliyyə şöbəsinin müdiri vəzifəsində (2000-2004), 2004-cü ilin aprelindən 2006-cı ilədək Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzində Elmi tədqiqatlar şöbəsinin müdiri, London Universitetinin Şərq və Afrika tədqiqatları fakültəsində -"Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin potensialının artırılması texniki yardım" layihəsinin Milli koordinatoru (2006-2007), sonrakı dövrdə Azərbaycan Universitetinin professoru vəzifəsində çalışmışdır. 79 elmi əsərin, o cümlədən 1 monoqrafiyanın müəllifidir. On ildən çoxdur ki, elmi fəaliyyətini Azərbaycan Universiteti, Azərbaycan Neft Akademiyası, Bakı Dövlət Universiteti, Xəzər Universiteti və digər ali məktəblərdə müəllimlik fəaliyyəti ilə əlaqələndirmişdir.



**i.e.d., prof. Qabil Nadir oğlu Manafov** 1952-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1974-cü ildə D.Bünyatzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu "Siyasi iqtisad" ixtisası üzrə bitirmişdir. İnstitutu qurtardıqdan sonra 1974-1976-cı illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda iqtisadçı vəzifəsində işləmişdir.

1975-ci ildə ordu sıralarında xidmət etmişdir.1976-cı ildə Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda "Siyasi iqtisad" ixtisası üzrə əyani aspiranturaya daxil olmuşdur. Aspiranturada təhsil müddəti başa çatdıqdan sonra 1980-1982-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun "Siyasi iqtisad" kafedrasında laborant, 1982-ci ildən D.Bünyadzadə

adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) baş laborant, müəllim, baş müəllim, dosent vəzifələrində çalışmış, hal-hazırda isə professorudur. Azərbaycan Respublikasının Əməkdar müəllimidir.

1982-ci ildə "Siyasi iqtisad" (indiki "İqtisadi nəzəriyyə") ixtisası üzrə namizədlik, 2003-cü ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. 80-dən çox elmi əsərin müəllifidir. 2004-2007-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyanın "İqtisadiyyat və hüquq elmləri üzrə" Ekspert Şurasının üzvü olmuşdur. 2009-2014-cü illərdə "Kommersiya" fakültəsinin dekanı olmuşdur. 2014-cü ilin aprelindən ADİU-nun Magistratura Mərkəzinin direktorudur. Hazırda ADİU-nun Dissertasiya Şurası nəzdində fəaliyyət göstərən Daimi Elmi Seminarın sədridir, həmin dissertasiya Şurasının üzvüdür. Azərbaycan Milli Ensiklopediyasının məsləhətçisidir.



**c.e.d., prof. Arif Hənifə oğlu Salmanov** 1995-2002-ci illərdə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda sektor müdiri vəzifəsində çalışmışdır. Daha sonra əmək fəaliyyətinə Bakı Slavyan Universitetində "Ölkəşünaslıq" elmi-tədqiqat laboratoriyasının müdiri və AMEA-nın İqtisadiyyat İnstitutunda işləmişdir.



**i.e.d., prof. Şamil Əliabbas oğlu Səmədzadə** 1965-ci ildən Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda respublikada yaradılmış "İqtisadi-riyazi metodlar və elektron hesablama texnikasının planlaşdırılmada tətbiqi" şöbəsinə rəhbərlik etmiş, 1973-cü ilə qədər şöbə müdiri, 1980-ci ilə qədər planlaşdırılma praktikasında iqtisadi-riyazi metodların və elektron hesablama maşınlarının tədqiqi əsasında respublikanın xalq təsərrüfatının planlaşdırılmasının və idarə edilməsinin təkmilləşdirilməsi və Azərbaycan SSR Dövlət Plan Komitəsində avtomatlaşdırılmış plan hesablamaları sisteminin yaradılması üzrə baş təşkilat olan respublika DPK-nın ETİİ Hesablama Mərkəzinin müdiri işləmişdir. 1973-cü ildə doktorluq dissertasiyasını müdafiə etmiş, 1978-ci ildə ona professor elmi adı verilmişdir. O, həmçinin 1980-ci ilə qədər Elmi Tədqiqat İqtisadiyyat İnstitutunun baş mühəndisi, direktor müavini, Hesablama Mərkəzinin

müdiri vəzifələrində də çalışmışdır. Azərbaycan Dövlət Mükafatı laureatı olmuşdur. 1980-ci ildən ömrünün sonuna kimi Azərbaycan Texniki Universitetində (keçmiş Politexnik İnstitutun da) "Sənaye iqtisadiyyatı və menecment" kafedrasının müdiri vəzifəsində çalışmışdır.

Ş.Səmədzadə 2010-cu ildə vəfat edib.



**i.e.d., prof. Vasif Müseyib oğlu Şirəliyev** 1974-1975-ci illərdə Azərb.SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda baş elmi işçi, sektor müdiri, şöbə müdiri, 1981-ci ildən 2002-ci ilədək isə aparıcı elmi işçi vəzifələrində çalışmışdır. 1975-1981-ci illərdə SSRİ Dövlət Tikinti Komitəsinin Tikintidə əməyin layihələşdirilməsi ÜTETT-nin Zaqafqaziya filialının direktoru, 2000-2009-cu illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetinin "İnşaatın iqtisadiyyatı" kafedrasının professoru olmuşdur. Ziyalılar Universitetində, Menecment Universitetində, Moskvanın açıq sosial Universitetinin Dərbənd filialında, Zadəgan Universitetində - dekan müavini, dekan, kafedra müdiri, prorektor vəzifələrində çalışmışdır. 2003-cü ildən "Azəri-Türk" şirkətlər qrupunda baş məsləhətçi işləyibdir.



**i.e.d., prof. Murad Ramiz oğlu Tağıyev** 1965-ci ildə Bakıda anadan olmuşdur. 1986-cı ildə Politexnik İnstitutunu bitirmişdir. 1988-1991-ci illərdə Azərbaycan EA Kibernetika İnstitutunda aspiranturasında təhsil almış, 1991-1994-cü illərdə Azərbaycan EA Rəyasət Heyətində Fizika-riyaziyyat və texniki elmlər bölməsində elmi katib işləmişdir. 1996-cı ildə namizədlik dissertasiyasını müdafiə etmişdir. 1994-2003-cü illərdə dövlət strukturunda müxtəlif vəzifələrdə, 2003-2011-ci illərdə AMEA Kibernetika İnstitutunda kiçik elmi işçi, aparıcı elmi işçi, 2002-2008-ci illərdə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzinin doktorantı olmuşdur. 2008-ci ildə elmlər doktoru adını almışdır. Hal-hazırda BDU-nun Riyazi İqtisad kafedrasının professoru və AMEA-nın Kibernetika İnstitutunun aparıcı elmi işçisidir. Hazırda BDU-nun professoru vəzifəsində çalışır.

# İNSTİTUTUN 60 İLLİK FƏALİYYƏTİ ŞƏKİLLƏRDƏ

**Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında**
**Elmi Tədqiqat İqtisadiyyat İnstitutunun fəaliyyət dövrü**
**(1964-1994-cü illər)**









## İqtisadi İslahatlar Mərkəzinin fəaliyyət dövrü
## (1994-2006-cı illər)





# İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun fəaliyyət dövrü (2006-2021-ci illər)


















## İqtisadi Elmi Tədqiqat İnstitutunun fəaliyyət dövrü (2021-ci ildən – hal-hazırda)









"Azərsu" Təsərrüfatı
İşçiləri Hİ




PASHA
Holding
INNOVATION SUMMIT
INMERGE
Innovation and Digital
Development Agency
trendyol
C4IR
Bank
Kapital B





# BİZİM KOMANDA



**i.e.d. prof. Ş.Sadıqov**
**İdarə Heyətinin sədri**



**i.e.d. A.Hüseynova**
**İdarə Heyəti sədrinin birinci müavini**



**i.ü.f.d. F.Mürşüdlü**
**İdarə Heyəti sədrinin müşaviri**



**R.Əhmədov**
**Elmi katib**



**Makroiqtisadi siyasət və tənzimlənmə şöbəsi**
soldan: **E.Bağırova, M.Mehdiyev, İ.Rüstəmova, R.Musayev, Ə.Əhməd**



**Pul siyasəti, banklar, sığorta, qiymətli kağızlar şöbəsi**
soldan: **E.Əmrahov, N.Əhmədli**



**Dövlət büdcəsi və büdcədənkənar fondlar şöbəsi**
**Z. Aslanov**



**Xarici iqtisadi əlaqələr şöbəsi**
**S.Məmmədli**



**Rəqəmsal iqtisadiyyat və innovasiyalar şöbəsi**
soldan: **A.Hüseynli, M.Bağır-zadə, S.Hüseynova**



**İnfrastruktur sahələr şöbəsi**
soldan: **S.Hüseynov, E.Qasımov, T.Cəfərov**



**Sosial siyasət və humanitar sahələr şöbəsi**
soldan: **E.Mustafayev, K.Ramazanov, F.Mikayılov, N.Ələsgərova, H.Cabbarova**



**Kitabxana və mətbuat şöbəsi**
soldan: **A.Axundova, Ş.Əliyeva, T.İsmayılova**



**Hüquq, kadr və kargüzarlığın təşkili şöbəsi**
soldan: **A.Muxtarova, E.Məhərrəmova, S.Quliyeva, S.Yusifova, E.Xanışova, İ.Salmanova**



**Maliyyə və təminat şöbəsi**
soldan: **Ə.Hacıyev, N.Zöhrabova, G.Əliyeva**

# Mündəricat

**ÖN SÖZ** ..................... **5**
**I FƏSİL** ..................... **11**
AZƏRBAYCAN SSR DÖVLƏT PLAN KOMİTƏSİ YANINDA ELMİ TƏDQİQAT İQTİSADİYYAT İNSTİTUTUNUN 1964-1991-Cİ İLLƏRDƏ FƏALİYYƏTİ ..................... 11
**II FƏSİL** ..................... **152**
AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASINDAN SONRAKI İLLƏRDƏ İQTİSADİ İSLAHATLAR ELMİ TƏDQİQAT İNSTİTUTUNUN FƏALİYYƏTİ ..................... 152
**III FƏSİL** ..................... **439**
YENİ DÖVR: İQTİSADİ ELMİ TƏDQİQAT İNSTİTUTU PUBLİK HÜQUQİ ŞƏXSİ ..................... 439
**IV FƏSİL.** ..................... **469**
İQTİSADİ ELMİ TƏDQİQAT İNSTİTUTUNUN DİREKTORLARI ..................... 469
**V FƏSİL** ..................... **481**
İQTİSADİ İSLAHATLAR ELMİ TƏDQİQAT İNSTİTUTUNDA FƏALİYYƏT GÖSTƏRMİŞ ƏMƏKDAŞLAR ..................... 481
**İNSTİTUTUN 60 İLLİK FƏALİYYƏTİ ŞƏKİLLƏRDƏ** ..................... **506**
**BİZİM KOMANDA** ..................... **517**

AZ1122, Bakı şəhəri, Yasamal rayonu

Həsən Bəy Zərdabi prospekti 196

Telefon: +994 12 430 01 70

+994 12 431 91 80

+994 51 280 43 35

E-poçt: office@esri.gov.az

İnternet səhifəsi: www.esri.gov.az

Çapa imzalanıb: 19.09.2024 Sifariş №066

Formatı: 350x500mm

Həcmi: 250 nüsxə

Mətbəənin ünvanı: "ASReklam" MMC – Bakı şəhəri, Xətai rayonu, Sergey Senyuşkin 81.